QALA ADAM

Rəşad Məcid – 60

Bakı–2025

Tərtibatçı:
Nadir Yalçın

Redaktor:
Yusif Rzayev

Qala adam. Rəşad Məcid – 60
Bakı, “Zərdabi-Nəşr” MMC. 2025. 432 səh.

ISBN 978 9952 593 84 6

© R. Məcid, 2025

Adam necə qalaya çevrilir?
(ön söz əvəzi)

Adam daşa, dəmirə, hətta suya belə rahat çevrilə bilir. Bu məcazilik öz təyinatına bir çox hallarda qovuşmağa qadirdir. Amma qalaya çevrilmək... elə bu faktın özü qalanı qorumaq qədər çətin və məşəqqətlidir.

Bu yazını Kürün sahilində, mənim üçün Vətənin başladığı və bitdiyi məqamda, havasını, odunu, torpağını zəhməti ilə yoğuran insanların məskənində – kəndimizdə yazıram. Deyiləcək sözləri, yazılacaq nəsnələri beyin süzgəcimdən keçirdikcə düşündüm ki, elə adamlar var, onlar barədə yazmaq üçün, gərək, əvvəlcə, Vətəni xatırlayasan, olanları, ötənləri, xeyirxahlığı, insanpərvərliyi, yaxşı adamları, xoş günləri yada salasan. Qalaya çevrilən adamlardan biri olan Rəşad Məcid haqqında bu kitabı tərtib edərkən elə bu məramda olmuşam; yaxşı məqamları xatırlamağın vacibliyi...

Rəşad Məcid xatirə yaradan adamdır. Elə anlara baiskar olub ki, həmin hadisələr ən ülvi hisslərlə anılan xatirəyə çevrilib. Ömrə-günə yazılacaq anların, dəqiqələrin mərkəzində dayanmağı bacarıb Rəşad Məcid.

Başlığa çıxardığım "Adam necə qalaya çevrilir?" sərlövhəsi də bu ön sözün adından çox ərsəyə gələn bu kitabın məğzini ehtiva edir. İndi oxuduğunuz cümlələr də 60 illik yubiley barədə deyil, bu əsnada yazılmış "Qala adam" kitabına kiçik müqəd-

dimədir. Rəşad Məcidin yubileyinə ithaf olunmuş yazıların ən qiymətliləri bu kitabın bir bölməsində yer alıb. Başqa sözə nə hacət?!

Vədəsindən, məkanından və mövzusundan asılı olmayaraq, nə vaxt hansısa yazıya başlasam, ilk gündəki kimi ehtiyatlı davranıram. Struktur, mətləb, məntiqi ardıcıllıq, əsaslandırma vacibdir. Amma bunlarla yanaşı, əlahəzrət cümlənin xofu, onun alilik mərtəbəsinə xələl gətirməmək həssaslığı yaxamdan iki əlli yapışır... Elə tərtibçisi olduğum bu kitaba da ön söz yazmağa başlayanda ilk nə edəcəyimi düşündüm. Özüm üçün formalaşdırdığım azyaşlı arxivimi ələk-vələk eləyib ilk yazılarımın qaralamalarını tapdım. Rəşad Məcidin qırmızı qələmlə düzəlişlərini nəzərdən keçirdim. Bu kitabı tərtib edəndə də o qırmızı qələmlə edilən düzəlişlərin məsuliyyətini yada saldım.

Rəşad müəllimin 60 yaşı tamam olanda müxtəlif məclislərdə, tədbirlərdə bu barədə söhbət düşürdü, əksəriyyət də eyni təəccüblə bir-birinə: "Rəşad müəllimin 60 yaşı var ki?", – sualını verirdi. Bu sualın ortaya çıxması təəcüblü deyil və iki əsas səbəbi var.

Birinci məsələ Rəşad müəllimin özündən əvvəlki nəsillə davranışı ilə bağlıdır. "525-ci qəzet"də çalışarkən onun ahıl qələm adamlarına, yaşlı müəlliflərə necə səbrlə yanaşmasının şahidi olurdum. Elələri var idi, bir yazıya görə beş dəfə zəng edirdi, hər dəfə də eyni təmkinlə cavab alırdı. Yaxud rəsmi və qeyri-rəsmi tədbirlərdə özündən böyüklərin yanında onun necə gənc oğlan ədası ilə rəftarına, yol gözləmək, onların yanında kiçiklik etmək tövrünə həsədlə baxırdım. İndi həmin yaşlı adamların hamısı da olmasa, çoxusu sağdır, həyatdadır, həmin məclislər yenə qurulur. Nə qədər həmin adamlar salamatdır, Rəşad müəllimin ahıl yaş mərtəbəsinə qədəm qoyması bu cür təəccüblə qarşılanacaq.

İkinci məsələ Rəşad Məcidin gənclərlə dostluğu ilə əlaqədardır. Artıq o gənclərin bəziləri 40-ı haqlayıb saç-saqqal ağardıblar. Bəzən elə söhbətdə Rəşad müəllimin adekvatlığına şahid oluruq ki, məəttəl qalırıq və yenidən "Rəşad Məcidin 60 yaşı oldu" cümləsinin doğurduğu təəccüb barədə düşünürük.

Rəşad müəllim üçün "beş" ölçü vahididir. Özüm tapmışam, heç kim deməyib bunu... O, sevgi şeirlərindən birində xoşbəxtliyi təcəssüm etmək üçün belə bir misra işlədir: "Biri beş eylər..." Digər bir şeirində də Şuşanı tərənnüm edəndə yazır: "Biri beş edəndir, güc artırandır..." Elə bil, beş rəqəmi onun alın yazısında qərar tutub. "525"dəki "5"lər də bunu təsdiq edər... 60 illik yubileyi münasibətilə son beş ilin Rəşad Məcidini "Qala adam"da oxuculara təqdim etməyin zəruri olduğunu düşündük.

"Qələmsiz yazılan"lar kitab şəklində 2019-cu ildə çap olunmuşdu. "Qala adam"da son son beş ilin "Qələmsiz yazılanlar"ından seçmələri bir araya gətirdik. "Qələmsiz yazılanlar"dan yazılanlar da bu status-esselərin mahiyyətini açmaqda oxuculara kömək edə bilər.

Kitabda yer alan "Şuşa dəftəri" şeirlər silsiləsinə qarabağlı misralar adı da vermək olar. Bu şeirlər dünyaya göz açdığı Laçının, boya-başa çatdığı Ağdamın, yeniyetməlik və gənclik xatirələrinə həkk olan Şuşanın adı gələndə keçirdiyi təlatümün bədii inikasıdır.

2022-ci ildə Rəşad müəllimdən müsahibə almışdım. Müsahibənin başlığı belə idi: "Bir il Ağdam-Bakı qatarında gecələmişəm..." Buna 60 ilin söhbəti adını verdim. Çünki sözügedən müsahibədə hər şey var: xiffət, nostalji, Vətənə bağlılıq, gələcək arzular... "Qala adam"ı qala edən səbəblərin ifadə olunduğu bu müsahibəni kitaba əlavə etməmək olmazdı...

Rəşad Məcidin son beş ildə qələmə aldığı yazılardan seçmələr də kitabda özünə yer edib. Şeir, ədəbiyyat öz yerində,

amma Rəşad müəllimin yaradıcılığının əsasını publisistika təşkil edir. Görkəmli alim Loğman Rəşidzadə Rəşad Məcidin publisitikasına həsr etdiyi məqaləyə belə ad vermişdi: "Ürəklə yazılanlar". Bu addan yola çıxıb sözügedən yazıları "Ürəkdən gələn yazılar" başlığı ilə bir yerə topladıq.

Kitabda Rəşad Məcidin yubileyi ilə bağlı yazılar, son beş ildə yaradıcılığı barədə yazılan məqalələrin hər biri qiymətlidir. Amma "Oğul Rəşad, nəvə Rəşad" bölməsində Rəşad müəllimin nənəsi, xalası və anasının gözü ilə onu tanımaq mümkün olur. Şahanə Müşfiqin illər əvvəl onlardan aldığı müsahibələr də "Qala adam"a işıq tutur.

Bu kiçik xəritə ilə qalanın yerini tapmaq – "Qala adam"a bələd olmaq, yəqin, mümkün olar!

Hörmətlə,

Nadir Yalçın,
yazıçı, jurnalist

“Qələmsiz yazılanlar”

(2019–2024)

2024

Xeyirxah niyyətlə deyilən iradları qəzəblə söyləməzlər.

***

Susmaq da istedaddır, çoxlu keyfiyyətlər tələb edir.

***

Mərc oyunlarının hər aludəçisi Dostoyevski olmur ki...

***

Harınlıq haçansa cəzalandırılır...

***

Aldatmaq aldatmaqdır; istər İP naminə sərlövhəylə, başlıqla aldat, istər çəkidə, qiymətdə aldat, istərsə də məkrli niyyətlə başqasına yalan deməklə.

***

Lap cüzi şeylərlə də olsa insanları sevindirmək mümkündürsə, buna qızırqalanmayın.

***

Gec, ya tez, dünyanın axırı gələcək.

***

Yaşamaq qəhrəmanlıqdır.

***

Xoş təbəssüm yaratmaq istedad istəyir.

***

Dünyanın başına nə gələcəyini cəmi 5-10 adam bilir.

***

Liftlərin harda dayandığını görə-görə hər iki düyməni basan adamlar təhlükəli, yalnız özünü düşünən, başqalarını nəzərə almayanlardır.

***

Elə edin ki, sizə həmişə inanaq. Etibarınızı itirməyin.

***

Ölkəmizə ziyan ola biləcək hansısa hadisəyə o dəqiqə sevinən, çiçəyi çırtlayan adamların cılızlığına, yazıqlığına dərin təəssüf hissi keçirib acımaqdan başqa bilmirsən, nə edəsən.

***

Tədbirlər ömrü didir.

***

Telefonu söndürəndə elə bil qaranlıq dünyaya düşürsən.

***

Müdrik nəsihət: öz dənini özün üyüt!

***

Qazaxlar "sabahınız xeyir"ə "xayırlı tan", "stop"a "toxta" deyir.

Daha qədim, daha anlamlı.

Türk birliyi həm də köhnə və gözəl sözlərin dirilməsidir.

***

Mənə "Kazaxstanın kurmetti jazuşısı" adını verdilər...

Qazaxıstan Yazıçılar İttifaqının sədri Mereke Kulkenova təşəkkür edirəm.

***

Dua həmişə ürəkdən gəlir...

***

Fədakarlıq rəğbət yaradır, təsirləndirir, gözləri yaşardır.

***

Deyilənə görə, Kür çayı axırıncı dəfə, təxminən, 100 il əvvəl donubmuş. Üstündən araba ilə o üz-bu üzə keçirlərmiş. Bu barədə mənə Xalq şairi Fikrət Qoca danışmışdı, babasının söhbətlərini xatırlarkən.

***

İpək Məcid Kitab sərgisinə dəstək olmağa gəldi: "Baba, bəs Şahbaz bəy deyir sərgiyə az adam gəlir? Burda tərpənməyə yer yoxdu axı".

***

Aqil Abbasla Ağcabədiyə gedirik. Sürücüyə deyir, Rəmişdən, Qədirdən bir şey qoy, qulaq asaq. O da Aşıq Ədalətlə Rəmişin birgə ifasını tapdı. Dinləməmişdim. Qeyri-adi bir bəhsləşmə, deyişmədir.

Dünya dəyişir, Aqil Abbasın dəyərləri dəyişmir. Yaxşı da ki dəyişmir. Məmməd Arazın sözüylə desək, "od kimi, su kimi köhnədir". Belə insanlar həmişə saf və istiqanlı olurlar.

***

Bir kəlmə xoş sözlə insanlarda nikbin ovqat yaratmaq mümkündürsə, niyə bunu əsirgəyək ki?

***

Şəhərlər milli çalarlarını itirirlər. Böyük şirkətlərin reklamları onları biri-birinə bənzədir.

***

Hissiz-duyğusuz, mərhəmət və empatidən uzaq adamların önə çıxarılması yəqin post-insan dövrünə hazırlıqla bağlıdır. Əgər 50 il sonra insanın yer üzündə dominant olmayacağını əminliklə söyləyiriksə, deməli, "şəriklərimizin" hakimiyyətinə, idarəçiliyinə də öyrəşməli və hazır olmalıyıq.

***

Hamıyla dil tapmaq, hamının dilini bilmək gözəl keyfiyyətdir. Düzdür, istedad, enerji, səbr tələb edir. Zorakılıqdansa çalışıb dil tapmaq daha yaxşıdır.

***

Kağızdan oxunan çıxışların effekti az olur; dinləyənlər yeknəsəq səs tonundan darıxır, fikirləri tam həzm edə bilmirlər. Görünür, fikrin çatdırılmasında dinamik tembr, səsdəki emosiya, bədən dili, jestlər və s. əsas rol oynayır. Birincidə çox vaxt bunlara imkan olmur.

***

Məncə, həm ədəbiyyat, həm kino, həm də teatr formasını dəyişməlidir. Bizim üçün nə qədər acı olsa da, indi insanları 3-4 saatlıq teatr tamaşalarında saxlamaq, saatlarla davam edən filmə baxmağa vadar etmək, kiməsə bir həftə boyunca hansısa romanı, yaxud yarım saat ərzində hansısa uzun hekayəni oxutdurmaq çətin məsələdir. İndi texnologiya, vaxt məhdudluğu onsuz da buna imkan verməyəcək. Bunun əksini təmin etmək üçün, gərək ki, yazarda informasiya baxımından yüksək hazırlıq, xüsusi bədii təfəkkür, dinamiklik olsun. Bu isə müşkül görünür və indiki dövrdə hər istedada nəsib olmur. Bəs nə etməli? Bunun üçün yaradıcı şəxs sürətli dövrün tələblərinə uyğunlaşmalı, proseslərin mütəhərrikliyi ilə ayaqlaşmalı, öz bədii həqiqətini daha qısa, yığcam və lakonik deməyə çalışmalıdır. Yazıçı bunu bacarmasa, uduzacaq: zamana da, oxucuya da, tamaşaçıya da.

***

"Zirə"nin oyununa baxdım. Hələ xeyli çalışmalı, təcrübə qazanmalı, peşəkarlaşmalıdırlar. Nədənsə mənə elə gəlir, "Zirə" "Qarabağ"ın uğurlarını təkrarlayan komanda olacaq. Yəqin həm də ona görə ki, Rəşad Sadıqovun da Qurban Qurbanov kimi mistik bir aurası var.

***

Dünən özləri ilk dərsə gedirdi, bu gün övladları!

Zaman sürətlə keçir!

***

Ağıllı fikirlər reaksiyasız qalanda, sükutla qarşılananda adamlar diqqət cəlb etmək üçün yüngüllüyə, lağlağıya, şitliyə üz tuturlar.

***

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində gözəl bir ənənə var. Hər dərs ilinin ilk günündə 1-ci kurs tələbələri

müəllimlərlə birgə mətbuatımızın banisi Həsən bəy Zərdabinin məzarını ziyarət edirlər. Bu il doğum günü ərəfəsində Üzeyir bəyin də məzarına baş çəkdik, böyük sənətkarın mətbuat tarixi-mizdəki yerindən və xidmətlərindən danışdıq.

Hər gələn nəsil böyük ustadları minnətdarlıqla yad etdikcə mənəvi qürur və rahatlıq yaranır, gələcəklə bağlı nikbin duyğular, nurlu düşüncələr, əminlik artır.

Ruhları şad olsun!

***

İnsinuasiya ilə, böhtanla, şər atmaqla, yalanla başqasını ləkələyib problemini həll etməyə çalışanların "mələk" simaları tez faş olur. Peşəkar, ciddi media belələrindən uzaq durmalı, onların şantaj və təhdidlərinə qucaq açıb, qanad taxmamalıdır.

Vicdanı olmayanın Allahı da olmur.

***

İndi elə bir dövrdür ki, heç kim sosial şəbəkələrin şər-şəbədəsindən sığortalanmayıb. Bilərəkdən, ya bilməyərəkdən insanları şərləmək, çamur atmaq asan bir işə çevrilib.

Dəyərlərin sındırılması, gözdən salınması su içmək kimi asan olub. Ümid edirik ki, bu xaotik dövr keçib gedəcək. İnsanlar emosiyasız, soyuq ağılla, təmkinlə, düşünərək hər məsələyə qiymət verəcəklər.

***

Bir həftə Özbəkistanda qalmaq, özbəkcəni dinləmək bəs edər ki, dili əməlli-başlı anlayasan. Bəzi kəlmələr isə elə bil yaddaşın toz basmış lap uzaq küncündən gəlir, silkələnir, oyanır, durulur, təmizlənir, sonra da bərq vurub işıldayır.

***

Empati hissi yaşamağa imkan vermir.

***

Anın qədrini bilin...

***

Xəcalət hissini itirənlərdən hər nə istəsən gözləmək olar.

***

İnformasiya bolluğu içində məlumatsızlıq. Hədsiz bilik mənbələri və savadsızlıq.

***

Peşəkarlıq həm də rəqibin hansı addım atacağını əvvəlcədən bilmək məharətidir.

***

Hamı niyə tələsir. Nəyin əlamətidir?

***

Təmkin və səbir müdrikliyin astanasıdır.

***

Qapı-pəncərəni bağlayıb eşitməmək səs-küyün bitməsi demək deyil.

***

Xəstəxananın çölündə hava daha ləzzətli olur; həyatın davam etdiyini və gözəlliyini duyursan.

***

Harınlıqla görməmişliyin arası bir addımdır.
Harınlıq gec-tez necəsə cəzalandırılır.

***

Deyir, bir ay Laçının Alxaslı kəndində, babamın uçulmuş evinin həyətində çadır qurub yaşadım. Seyidlərin məzarını, qəbiristanlığı sahmana saldım.

***

Məğlubiyyətə uğrayan kimi üz döndərib etibarsızlıq edənlərdən uzaq durmaq lazımdır. Sevəndə belə olmur. Sevəndə hər üzünü sevirsən.

***

Rauf Arifoğluyla səfər həm də hər anın, özün də bilmədən, telefonun yaddaşına köçürülməsi deməkdir.

Şuşada 2-ci Qlobal Media Forumunda iştirak, İsa bulağının suyundan içmək, Xankəndidə iki gecə qonaq qalmaq - hamısı, sən demə, yaddaşa köçür, xəbərə, videoçarxa çevrilirmiş.

Xocalıda həmkarımız Səriyyə Müslümqızıya qonaq getmək isə daha fərqli duyğular yaşatdı və Rauf bəy bu təsirli səfərimizdən kövrək bir film ortaya qoydu. Xocalıda olanda da çox kövrəlmişdim, filmə baxanda da yenidən həmin ovqata qayıtdım. Səriyyə xanımın az qala Xocalıyla bütövləşən taleyi, uzun zaman sonra o doğma ünvanda yenidən məskunlaşması çox təsirlidir. Həmin anları Xocalıda yaşamaq nə qədər dərin hisslər doğurmuşdusa, sonradan təkrar seyr edib duyğulanmaq bir qədər də güclü təəssürat oyatdı.

Yaşadığımız tarixi və həssas anları yaddaşa köçürdüyünə, belə gözəl bir film yaratdığına görə Rauf Arifoğluya dərin təşəkkürümü bildirirəm.

***

İndi Mark imkan yaradıb deyə yerindən duran hər məsələyə münasibət bildirməli, qulp qoymalı, ittiham etməli deyil ki! Hətta qulp qoymağa, ağız büzməyə, ittiham eləməyə də gərək adamın haqqı çatsın. İnsan bir şeyə layiq olduğunu, nəyəsə haqqı çatdığını öz fəaliyyəti, işi, əməli ilə təsdiqləməlidir. Yoxsa ki hər kəsə bir daş atıb könül bulandırmaq qəhrəmanlıq deyil. Bundan asan nə var ki?!

***

Ərkin də təhəri var. Hədsiz və yersiz ərk dözülməz ərköyünlüyə gətirib çıxarır və bezdirir.

***

Qərəzli olduğu açıq görünürdü.

***

Axına qoşulmayın, məyus olacaqsınız.

***

Beyindən artıq informasiyaların silinməsinin bir yolu da təbiət və telefondan uzaqlaşmaqdır.

***

Fərqli düşüncə içdən gəlməyəndə, qondarma olanda eybəcər görünür.

***

Sürətli həyatın tempi bir az azalan kimi yaşamaq daha mənalı olur; düşünməyə, dərdləşməyə, bölüşməyə, yazıb-yaratmağa imkan yaranır.

***

Sosial şəbəkələr şantaj və qisas yeri olmamalıdır. Bura içinin kin-küdurətini yayan, eybəcərlik aşılayan məkan deyil. İctimai yerdə olduğunuzu, ətrafınızdakıları nəzərə alın. Hər kəsin kimliyi yazdıqlarında və dediklərində üzə çıxır. Düşünməyin ki, təksiniz!

***

"Keçib getmiş günlər, gəlin
rakı için, sərxoş olun!"
Nazim Hikmət keçmiş günləri soraqlayır.
Bəs gələcək günlər neyləsin?
Onların sərxoş olmaq ixtiyarı yoxdur!

***

İndi istedad nadir hallarda gözdən qaça bilər. Texnologiyaların inkişafı buna imkan verməz. Mütləq görünəcək, kimsə görəcək.

***

Adam hər ağlına gələni dilinə gətirməz.

***

Cəhalət təkcə dinlə bağlı deyil ki! Məhdud, dar dünyagörüşü, avamlıq da cəhalətdir.

***

Bütün ağılsız qərarlarda xalqların iştirakı var.

***

Dayanmadan miyoldayan pişiyə yemək verəndən sonra səsini kəsdi, sakit uzanıb mürgü vurmağa başladı.

***

Uğursuzluğunun səbəbini başqalarında axtarmaq acizlik əlamətidir.

***

Şəkil informasiya çatdırmırsa, onu paylaşmağa dəyməz.

***

Zibilləri çaylara atmayın. Yaşıl dünyanı, sağlam planeti unutmayın.

***

Siz əgər dəyərləri müdafiə etməyəcəksizsə, İP xətrinə nə gəldi yayacaqsınızsa, sonda məğlub olacaqsınız! Buna şübhə etməyin.

***

Təsəlli nöqtəsi tapmaq vacibdir. Yoxsa dərin bir boşluğa düşmək ehtimalı var.

***

Tanınmış mütəxəssis bir vacib məsələyə fikir bildirir. Bəyənməyənlər o dəqiqə qərəzli, sifarişli adlandırır.

Müstəqil düşüncə kiməsə daş atmaq deyil, öz qənaətini, əminliyini çatdırmaqdır. Buna öyrəşmək gərək.

***

Ağdamda keçən uşaqlığımda gələcək barədə düşüncələrim yadımdadır; 2000-ci il nağıl kimi görünürdü, 2024-ü isə heç xəyal etməmişdim. İlğım kimi!

İndi o düşüncələrin yaşandığı uşaqlıq illəri elə uzaq görünür.

***

Çalışın mətbəxdən çıxın!..

***

Din və qadınla bağlı mübahisə etmək, müzakirə açmaq Don Kixotluqdur.

Belələri əvvəldən məğlubiyyətə məhkumdurlar.

***

Minlərlə gəncin olduğu zalda himn oxunanda gərək divarlar titrəyə.

***

Ən sərsəm fikirləri də bəyənənlər tapılır.

***

Bəxt üz döndərirsə, sakitcə razılaşmaq lazımdır.

***

"Oxunmaqdan" ötrü hər sifətə düşməyə, bunu özünə rəva görməyə, damla-damla yığılan etibarını İP-yə qurban verməyə dəyərmi?

***

İnsanlardakı gözəl keyfiyyətlərin bəzən yoxa çıxmasına sakitcə köks ötürməkdən başqa əlacın qalmır.

***

Hərdən kənd həyatı yadına düşür; kəndin ilkinliyi, sadəliyi, təbiiliyi üçün darıxırsan, qəribsəyirsən. Yarpaq xışıltısını, arx şırıltısını, quşların səsini, təbiətin sükütunu dinləmək, dinşəmək istəyirsən.

Sonra görürsən ki, ötəri xiffətmiş. Öyrəşdiyin həyat tərzi daha rahatdır.

***

Ehtiyacından daha çoxunu istəmək də, israfçılıq da harınlıqdır.

***

İsti olur şikayət edirlər, sərin olur gileylənirlər. Təbiət də yorulur bəzi adamların vasvasılığından.

***

Bütün müzakirələri votsapda aparırlar deyə üz-üzə oturanda söhbətə mövzu qalmır.

***

Yaxşılıq etmək insana güc verir.

Bir az fikrə getdim. Bəlkə bunu hamıya şamil etmək olmaz? Pislik etməkdən, quyu qazmaqdan, badalaq vurmaqdan da enerji alanlar var...

***

İndi adamları tanımaq çətin deyil ki!

Sosial şəbəkələr heç nəyi gizləməyə imkan vermir; xarakterdəki qüsurlar bir gün özünü mütləq büruzə verir.

***

Çılğın, emosional reaksiyaların zamanı keçib. Yaş öz sözünü deyir.

***

Adam gərək yaxşılıq etməkdən yorulmasın.

***

Cırlaşma baş alıb gedir.

***

Yuxu futbolu üstələyir...

***

Şəkil çəkdirməyi yığışdırmaq lazımdır...

***

Xocalıda həmkarımız Səriyyə Müslümqızının evində samovar çayı içdik.

8 sadə söz! Amma nə qədər hissiyyat, duyğu, enerji, həyəcan daşıyır birləşəndə.

Şükür bu günlərə!

***

Hər sözü məqsədli deyənlərdən səmimiyyət gözləmə.

***

İndi xoruzun quyruğunu gizlətmək mümkün deyil.

***

Qarabağ Universitetində çalışmaq arzusu gözəldir, hörmət və ehtiram doğurur. Amma tələblərə də diqqət yetirmək lazımdır.

***

Namaza duranlar qoymur yatmağa. Bir ucdan islami mesajlar gəlir...

***

Pul xərcləmək üçündür. Toplayanda və saxlayanda kiber və digər cinayətkarların əlinə keçir.

***

İndi unudulmaq asan işdir.

***

Lazımsız, nəticəsi olmayan, ancaq mübahisə yaradacaq müzakirələrə rəvac vermək həm də bekarçılığın və mənəvi boşluğun təzahürüdür.

***

Heç kim intihardan sığortalanmayıb...

***

Telefondan uzaq duran adamları başa düşmürəm, bəlkə də paxıllığım tutur.

***

Dəyişən dünyayla ayaqlaşmaq, mümkün olmasa, razılaşmaq lazımdır.

Dünya təzə dünyadır.

***

Zamanı ləngitməsən, yaşadıqlarının fərqində olmayacaqsan.

***

Kitab rəfindəki qalın, sanballı, dəyərli kitablara baxıb xəfif xiffət, nostalji hiss etmək və heyifsilənmək...

***

Yalanı vaxtında cavablamaq lazımdır...

***

– Hacinin oğlu olub!

Ötən əsrin 90-cı illərində səhər oğlanlarımın hay-küyünə yuxudan ayıldım. Soruşdum: "Haci kimdir ki?"

Sən demə, "Qalatasaray"ın rumıniyalı futbolçusuymuş.

İndi Rumıniya-Ukrayna oyununda oğul Hacinin oynadığını gördüm.

Dünyaya gəlişi xəbəri ilə məni səhər yuxudan oyadan gənc indi məşhur futbolçu imiş.

***

Nazir düz deyir, adamlarımızın bəziləri ya diqqətlə oxumur, ya da oxuduğunu anlamır.

***

Ürəkdən sevinə bilmək də istedaddır, Tanrının lütfüdür.

***

Əzmkarlıq, ruhdan düşməmək, sonacan mübarizə aparmaq vacib keyfiyyətlərdir və rəğbət yaradır. Futbol üzrə 2024-cü il Avropa çempionatının indiyəcən baxdığım oyunlarında bu keyfiyyətlərin ən bariz nümunəsini Portuqaliya və Danimarka millilərində gördüm.

***

Kitabı indi sosial şəbəkələrin timsalında kollektiv düşüncə məhsulu əvəzləyib. Hansı maraqlı və ya gərəklidir: bir adamın ağıllı düşüncələri, yoxsa minlərlə insanın absurd və fərqli sayıqlamaları?

***

Əgər sənin obyektivliyin və peşəkarlığın insanların göz yaşlarına səbəb olursa, onları zədələyirsə, düşünməlisən. Hərdən ürəyi də dinləmək lazımdır.

***

Azarkeş sevgisi sürüşkən olur. Məğluba aman vermir.

***

Bütün sualların cavabını keçmişdə tapmaq mümkündür.

***

Sosial şəbəkə profili də qayğı tələb edir. Açmısansa, gərək nəzarət də edəsən...

***

Sirr xarakterdədir!

Sən əgər tanımaza-bilməzə gözəl təşəbbüsləri dəstəkləyirsənsə, yaxşı işləri, istedadlı insanları ürəkdən, təmənnasız dəyərləndirirsənsə, bu, izsiz qalmır. İnsanlarımız minnətdarlıq duyğusundan, ədalət hissindən xali deyil!

***

Böyük oyunçuların böyük dərdi var.

***

Doğrudan da, həqiqət bir anda aydın olur.

***

Unutdura bilən tək şey qadın gözəlliyidir.

***

Satqınlıq xislətdədir...

***

Nədəsə təskinlik tapmalısan, nəyəsə söykənməlisən.

***

İnanmadığınla söhbət alınmır.

***

Dərdsiz adam yoxdur.

***

Özünü oda-közə vurmağın sonu pərvanə taleyidir.

***

Bir fikri iyirmi dəfə eyni şəkildə təkrarlamaq qrafomanlıqdırsa, iyirmi variantda söyləmək qabiliyyətdir.

***

İnsanlara yuxarıdan aşağı baxmaq, onları aşağılamaq naqis keyfiyyətdir.

***

Xəyallar tükənəndə ömür mənasızlaşır.

***

Sənət həyəcandan yaranır.

***

Bəzən yuxunu xatırlamırsan. Amma yaratdığı ovqat ayılandan sonra da səni tərk etmir. Yuxunun süjetini təxmini hiss edirsən.

***

Təmənnalı tərif sözlərin düzülüşündən bilinir.

***

Dünyanın gələcəyi ilə bağlı o qədər qorxunc proqnozlar verilir ki, keçmişə xəfif xiffət yaranır. İnsan dominant olmayacaq, insana şərik, onu sıradan çıxaran, ondan da üstün süni intellekt yaranacaq. Bu barədə bir az da vahiməli təxəyyüllər keçmişin insan üçün daha yaşamalı, münbit dövr olduğuna inam yaradır. Geriyə dönüş mümkün olmasa da, insanlar keçmişə qayıtmağı daha çox arzulamağa başlayır. Bəs siz hansını seçərdiniz: keçmişimi, gələcəyimi?

***

Yazıçılıq, Pamuk demiş, iynəylə quyu qazmaqdır. Qaza bilən qazsın!..

***

Unudacaqdınsa, yaşadıqlarının nə mənası vardı?

***

İpək “narahat”a “rahatsız” deyir.

Məncə, düz deyir.

***

Kövrəlmək yaxşı əlamətdir.

***

Hər kəsin uğur qazanmaq, özünü təsdiq etmək arzusu başadüşüləndir. Amma istedad və ardıcıl zəhmət çəkmək inadı hamıda olmur.

Özünü gözə soxanlardan, gördüyü xırda işləri bəh-bəhlə tərifləyənlərdən fərqli olaraq, başını aşağı salıb, sevərək öz işi ilə məşğul olanlar sonda daha çox uğur və ehtiram qazanırlar.

***

Tıxaca düşəndən sonra tələsməyin anlamı qalmır.

***

Adam işin çoxluğundan yox, insanların laqeydliyindən, biganəliyindən, etinasızlığından yorulur.

***

Uzaqda görünən hadisələr sürətlə keçmişə çevrilir. Zamanın sürəti yaşadıqlarından zövq almağa imkan vermir.

***

Səhər açılan kimi bəd xəbərlər yaymağa tələsməyin. İmkan verin insanlar günə nikbin ovqatda başlasınlar.

Günəşə bənzəməyə çalışın!

***

Beş dəqiqədən artıq dinlənilməsi mümkün olmayan primitiv adamlara televiziyaların saatlarla vaxt ayırması çox düşündürücüdür. Görünür, belə adamları dinləməkdən zövq alanlar çoxluq təşkil edir. Dinləyən olmasa, onlara meydan verilməz.

***

Ağlınızdan keçən hər sərsəm fikri sosial şəbəkədə paylaşmağa məcbur deyilsiniz. Bir az səbir edin, ovqatınız dəyişəcək.

***

Jurnalistlər və yazıçılar hər yerdə bir-birinə bənzəyir.

***

Müəllim adını uca tutmaq, onunla qürur duymaq gərəkdir. Çünki müəllim obrazı ömür boyu bizimlə yaşayır. Siması daim gözümüzdə canlanan, unutmadığımız, xoş xatırladığımız insanlar sırasında müəllimlər daha çox olur. Onlar təkcə öyrətdikləriylə yadda qalmır, həm də öz auralarıyla həyatımız boyu bizə bələdçi olurlar. Müəllim adının ucalığını qorumaq, ondan güc almaq insanın həyatda möhkəm dayağı, etibarlı söykənəcəyidi...

***

Aşiq olmaq, sevmək ləyaqətsizliyə yuvarlandırır?

***

Kapitalizmi arzulayan kim idi?

***

Postinsan mərhələsi...

***

Futbol da dinə çevrilməkdədir.

***

Gənclik həm də yata bilmək, yuxunu sevmək, yuxulu olmaqdır.

***

Qocaların gözü qapıda qalır

***

Yuxudan harda oyanmağın ovqata və ruha təsiri var. Şuşada, Laçında, Ağcakənddə səhər tezdən oyanıb dupduru havanı sinənə çəkməyin rahatlığı əvəzolunmazdır. Üstəlik, ruhun pıçıldadıqları adama qol-qanad verir.

***

Nanəcib adamlar həmişə tapılacaq.

***

Kinini boğa bilmək, içinin xıltını büruzə verməmək böyük bacarıqdır.

***

Candərdi çıxış o dəqiqə hiss olunur.

***

Əgər iki saatlıq yoxluğu bu qədər həyəcan yaradırsa, deməli, sosial şəbəkələri də zərərli, pis vərdişlər cərgəsinə yazmaq olar.

***

İnamın sərhədi olurmu? Olmalıdırmı?

***

Uğursuz adamdan hamı qaçır...

***

Milli kəmlik və özünü aşağı görmə kompleksi...

Böyük Zəfərimizdən sonra içimizdəki bu kompleksdən birdəfəlik arınıb uzaqlaşmaq imkanı yarandığı halda, hər fürsətdə özümüzü aşağılamaq hissi bizi hələ də tərk etmir. Məşhur filmdəki "Niyə o əjdəhadan bizdə yoxdur" sualı və guya özümüzü kiməsə, nədəsə "təsdiqlətmək" istəyimiz azalmır.

Bu kompleksi unutmaq, dəyişmək, özünəgüvən hissinin güclənməsinə çalışmaq üçün neyləməliyik?

Güvəniləsi əsas uğur kimi böyük Zəfərimiz var.

Vətən müharibəsi göstərdi ki, fərd halında olduğu kimi, millət olaraq, birlikdə də uğur qazanmağı bacarırıq.

Heç kimdən, heç bir xalqdan əskikliyimiz yoxdur. Əksinə, taleyüklü məsələlərdə birləşə bilmək, əzmlə sonadək mübarizə aparmaq kimi vacib üstünlüyümüz var. Sadəcə özümüzə layiqincə inanmaq və durmadan çalışmaq lazımdır; hər şeyin ən yaxşısını bacarmaq imkanımıza inanmalıyıq.

Başqalarının bir xırda uğurundan kompleksə düşüb özümüzü "zəif, bacarıqsız" görmək bizə heç nə qazandırmaz.

***

Ən yaxşı işə də qulp qoyanlar tapılacaq...

***

Keçmişin xiffətini çəkmək gəncliyi geri qaytarmaq istəyidir...

***

Coşmaq yaradıcı adamlar üçün vacib keyfiyyətdir. Qızışmaq isə ziyan vurur.

***

Qəzet həm də nostaljidir, xəfif xiffətdir, keçmişin ilıq xatirəsidir.

***

Feysbukun senzurası sovetinkindən betərdir.

***

Nəinki an, heç gün, ay, il də dayanmır.

***

Hər yanı, hər şeyi ancaq qara rəngdə görənlərin gözlərində yox, qəlblərində problem var.

***

Qadınların futbolun mənasını və ləzzətini dərindən hiss etməməsinin səbəbləri barədə düşünürəm.

Bir kitablıq izahı var. Tədqiqat mövzusudur.

***

Adam başqalarının qocalmağını görür, özününkünü yox...

***

Özünəgüvənin itməsi, lazımsızlıq ən qorxulu hisslərdir.

***

Bayram günlərinin rahatlığında sevimli filmlərə yenidən baxmaq ikiqat bayramdır.

***

Mən bilirəm ki, bu telefonlar qalın kitablara vaxt ayırmağa imkan vermir. Amma kitab oxumağın üstünlüyü müqayisəolunmazdır, yaratdığı zövq və özünəgüvən hissini isə heç nə əvəz edə bilməz.

***

İnandığı həqiqətləri deyənlər özünə güvənli, güclü, idxal olunmuş həqiqətləri söyləyənlər səksəkəli olurlar.

***

Sosial şəbəkələr özündən müştəbehliyi və yekəxanalığı sevmir.

***

Nadanlar həmişə olacaq.

***

Dünya sürətlə dəyişir. Yeni ilə köhnənin mübarizəsi gedir. Düşüncə, dünyagörüşü fərqləri qarşı-qarşıya gəlir. Köhnənin, yoxsa yeninin yaxşı olduğuyla bağlı sonsuz müzakirə və mübahisələr nəticə verməyəcək. Çalışıb köhnənin yaxşılarını yeniyə inteqrasiya etmək, yeniyə daşımaq lazımdır.

***

Dünyanın gələcəyindən bədgümanlıq yəqin ki, heç zaman indiki kimi bariz olmayıb.

***

Cığallıq nədir? Uduzursan, açıq-aşkar uduzursan, razılaşmırsan, hay-küy salırsan, qadağan metodlardan istifadə edirsən, xeyri yoxdur.

Cığallıq məğlubiyyətdir!

***

Qara sevinən uşaqlardır, bir də uşaq qəlbli adamlar.

Qara sevinə bilirsənsə, safsan!

***

Yaxşını, müsbət işləri görmürsənsə, demirsənsə, kəm-kəsirləri söyləyəndə obyektivliyinə şübhə yaranır.

***

İndi sosial şəbəkələr bu imkanı yaradıb deyə, kimi necə istəsən, təhqir etməli deyilsən ki. Hüquqi məsuliyyətdən qabaq sənin öz tərbiyən, mənəviyyatın imkan verməməlidir buna...

Tanıdığı-tanımadığı adamlar haqqında rahatlıqla təhqir yazanların psixikasına, ağlına, səviyyəsinə şübhələr yaranır.

***

Hər bir ölkədə ağıldankəm, avam, psixikası yerində olmayan insanlar tapmaq mümkündür. Sosial şəbəkələr sayəsində rastlaşdığımız belələrini bayraq edib özümüzü aşağılamalı deyilik. Bu, natamamlıq kompleksidir.

Gözəl keyfiyyətlərimizlə, istedadlı, ağıllı, savadlı insanlarımızla, böyük uğurlarımızla öyünməliyik.

2023

Xankəndidəki tarixi oyuna getməzdən öncə fürsət tapıb Cıdır düzünə qalxmaq, Şuşanın tərtəmiz, qarlı havasını sinənə çəkmək, Günəşin doğmasına tamaşa etmək, Cıdır düzünün ilahi sükutunu dinləmək böyük xoşbəxtlikdir. Bu xoşbəxtliyi yaradanlara və bizlərə yaşadanlara sonsuz minnətdarlıq hissimiz əbədidir. Şuşa və Cıdır düzü isə 1979-cu ildə, on beş yaşında yazdığım şeirdəki kimidir:

“Tarixin möcüzə sərgisi...”

***

Müəllim nüfuzuna xələl gətirə biləcək xəbərləri paylaşarkən həddən artıq həssas davranmaq, yüz ölçüb-bir biçmək, hətta təsdiqlənmiş xəbərlərə də ehtiyatla, tərəddüdlə yanaşmaq lazımdır. Cəmiyyətin əsəblərilə oynamağın, azyaşlıların sadəlövhlüyündən sui-istifadə etməyin, bir fərdə qarşı qərəz və qəzəbin ümumi müəllim adına etimadsızlıq yarada biləcəyini düşünmək gərəkdir.

***

Adətən candərdi getdiyi yerlərdə adam sürprizlərlə qarşılaşır, həyatı dəyişir. Səadət gözlənilmədən gəlir.

***

Həyəcan bütün hallarda yaxşı hissdir.

***

Öz uğursuzluğunun səbəbini başqalarında axtarmaq dövrü keçib. "Özünə güvən, özünə..."

***

Vətən müharibəsindən çəkilən filmlərin, bəzi verilişlərin içərisində reklam vermək yaxşı reaksiya doğurmur – yaranan ovqat dəyişir, təsir effekti azalır. Gərək TV idarəçiləri belə məsələlərdə həssas olsunlar.

***

Qəzet oxumadıqlarını qürrələnərək söyləyənlər, ümumiyyətlə, qəzet oxumayanlardır. Bu isə qürurlanası keyfiyyət deyil.

***

Telefonu söndürəndə özünü orta əsrlərdə hiss edirdi.

***

İnnovasiya ekosistemi indi ən məşhur termindir.

***

Tədbirlərdə iştirakçıların yarıdan çoxu telefona baxır.

***

"İnnovasiyalar çox zaman fərqli düşüncə və səhvlərin nəticəsində ortaya çıxır.

...Bugünkü gənclər daha yaradıcı və dinamikdirlər".

Təhsilin İnkişafı Forumunun "İnnovasiya ekosistemlərinin yaradılması" panelində çıxış edən iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevin bu fikirləri düşündürücü idi.

Səhv varsa, demək, fərqli nəsə yaratmağa cəhd edilib. İnnovasiya isə məhz fərqli, yenilikçi insanların, xüsusən yaradıcı və dinamik gənclərin sayəsində mümkün olur.

***

Sosial şəbəkələrin meydan suladığı indiki dövrdə psixi pozğunluğu, sapıntılı orientasiyası, şübhəli reputasiyası, küt düşüncəsi olan adamlar hər cür sərsəm fikirlər səsləndirə bilərlər. Amma özünə hörmət edən ciddi media subyektləri, normal düşüncəli fəal sosial şəbəkə istifadəçiləri belə sərsəm fikirləri yaymamalı, tirajlamamalı, əksinə, hiddət və etirazlarını bildirməli, xaosun, bulanıqlığın qarşısında sipər olmalıdırlar.

***

Saxta xəbəri ayırd etmək də yetkinlikdir.

***

Leksikonu vulqarizmlə dolu olandan səsi eşidilənədək uzaq durun.

***

Fikir bildirməyə də gərək haqqın ola.

***

Süni pafos olan yerdə... tıncıxıram.

***

Yazıb-oxumaq sıradan çıxır. Danışmaq, dinləmək, baxmaq dövranıdır.

***

Tərbiyə məhdudluğu...

Nəsihətin xeyri yoxdur.

***

Həqiqət çoxüzlüdür...

***

XXI əsrdə, bol informasiya axınında unudulmağa 24 saat bəs edər...

***

Qəddarlıq, zorakılıq aşılayan başlıqlardan çəkinin.
Yalanı bəzəyib həqiqət kimi sırımayın.
Oxucularınıza hörmət və rəhm edin.
Ötəri reytinqlərə uymayın.
Etibar və nüfuz qazanmağın daha təkmil yollarına yiyələnin.

***

Cek London düz deyir, dünyada yaradıcılıq ləzzətindən üstün zövq yoxdur.

***

Xankəndi meydanı zir-zibildən təmizlənəcək, səliqəyə salınacaq, orda əzəmətli Azərbaycan Bayrağı dalğalanacaq.

Cənnət Qarabağda, bayrağımızın kölgəsində yaşamağı arzulayanlar, peşman olub geri qayıdanlar olacaq. Gedənlərin hay-küyündən, fürsət güdənlərin qışqırığından narahat olmağa dəyməz. Keçicidir.

Şairin sözləri yerinə düşür:

“Gedənə “qal” demək olmaz, Gedir, getsin, qalır, qalsın!”

***

Rastlaşdığı hər xırda çətinliyi problemə çevirib depressiyaya düşmək, ictimailəşdirmək insan xarakterinin zəifliyinin göstəricisidir. Zaman, dövr indi insanlardan əzmkarlıq, inadkarlıq, dinamiklik, zəhmətsevərlik, yorulmadan çalışmaq tələb edir.

***

Sosial şəbəkələrdən ədalət, mərhəmət, ağıl, məsuliyyət ummağa dəyməz. Təklikdə götürəndə bəlkə çoxlarında bu key-

fiyyətlər var. Amma xora qoşulanda bəzən yoxa çıxır. Çalışın özünüz olun həmişə: ədalətli, mərhəmətli, ağıllı, məsuliyyətli və soyuqqanlı.

***

1992-ci ildə qəhrəman tankçımız Albert Aqarunovun Şuşa yolunda vurduğu tankı ermənilərin həmin yolda "abidə"yə çevirib postament üzərinə qoymaları və onun 30 ildən bəri orada qalması ürəyimizdə vaxtaşırı qövr edən bir yara açmışdı. İndi həmin bədnam "abidə"nin sökülüb oradan götürülməsini əks etdirən kadrlar qəlbimizə su səpdi, yaramıza məlhəm oldu. Həm də bu kadrlar mənə bir vaxt işğalçı sovet canişinlərindən Kirovun Dağüstü parkdakı nəhəng heykəlinin sökülməsini xatırlatdı. Kirovun heykəlinin sökülməsi milli oyanışımızın təzahürü kimi sovet rejimi və kommunist epoxasının sonundan xəbər verirdi. Bu mənfur tankın Xankəndi-Şuşa yolundan götürülməsi isə bir başqa ağır epoxanın - erməni separatizminin, işğalın, qanlı münaqişə dövrünün bitməsinin, suverenliyimizin tam bərpasının göstəricisi olsun.

***

Media savadlılığı həm də hər yazılana, deyilənə skeptik yanaşmaq, o dəqiqə emosional reaksiya verməmək, təmkinli və soyuqqanlı davranmaqdır. Nəzərə almaq lazımdır ki, indi sosial mediada bizi hövsələdən çıxarmaq istəyən, yanlış yönləndirmək məqsədi güdən qüvvələr mövcuddur və biz heç bir halda onlara "yem olmalı" deyilik.

***

Havanın hədsiz istiliyindənmi, ya nədəndirsə, son günlər sosial şəbəkələr, elə onların ən təmkinlisi feysbuk da çox qəddar və amansız olub. Bir damcı məsuliyyət, soyuq ağıl, normal düşüncə, həssaslıq, mərhəmət, empati duyğusu qalmayıb.

Hamı ancaq kin, nifrət üstə köklənib ölkənin dəyərli adamlarını aşağılamağa, təhqir etməyə fürsət gəzir.

Aşağılıq duyğusudurmu, kompleksdirmi, uğursuzluqdan doğan hikkədirmi bu?! Bir belə xılt, qərəz, qəzəb hardandır?

Qurban Qurbanov, Məleykə Abbaszadə, Rasim Balayev, Ramiz Rövşən... Yalnız son bir neçə gündə sosial şəbəkə xurafatına hədəf olan, aqressiyaya tuş gələn insanlarımızdır bunlar. Bu insanların hər biri öz sahəsində böyük xidmətlər göstərən, ehtirama və hətta təzimə layiq şəxsiyyətlərdir. Belə dəyərləri aşağılamaqdan necə zövq almaq olar?! Necə özünə rəva görüb, haqqın çatdı-çatmadı, ünvanlarına hərzə-hədyan demək olar?!

Hansı mənəvi keyfiyyətlərə sahib olmalısan ki, belə dəyərləri aşağılayasan?!

Obyektiv mövqeli, ağıllı insanların haqlı etirazları bu axının içində sısqa və zəif təsir bağışlayır.

Sosial medianın, burada hər an içinin xıltını tökən insanların durulmağa, təmizlənməyə, normal düşüncə məcrasına dönməyə ehtiyacı var.

Sosial media ictimai məkandır, burda fəaliyyət mənəvi ölçülər, məsuliyyət və ən azı elementar mədəniyyət tələb edir. Gərək bunu unutmayaq!

***

Dəqiq deyilib: acgözlük və hərislik çox bəlaların baiskarıdır...

***

Tanımadığımız yaxşı adamlar...

***

Zəng etmək gerilik əlamətidir?

***

İşıqfor qoymaqla şəhər olmaz...

***

Yata bilirsənsə, gəncsən...

***

İnsanları sevindirmək, mərhəmət, empati gözəl keyfiyyətlərdir.

***

Neqativi adətən uğursuz, kompleksli adamlar yayırlar...

***

Sosial şəbəkələr arta-arta gedəcək, axırda hərənin öz şəbəkəsi olacaq...

***

Hər qafiyə tapan özü haqda yüksək fikrə düşür...

***

Siyasət həm də baş verən hadisələrin səbəbini hiss etmək sənətidir...

***

Qürurverici, kövrək anlar: Laçına ilk köç gedir...

***

Su bulanan kimi balıq tutanlar çoxalır...

***

Sosial şəbəkələr yaxşı-pis cəhətləriylə həm də insanları qiymətləndirmək vasitəsidir. Qəliz, ekstremal situasiyalarda, hay-küy içərisində insanların davranışlarını müşahidə edib, tərbiyə, nəciblik, kübarlıq kimi keyfiyyətlərin süni, yoxsa gendən gəldiyini müəyyənləşdirmək olur.

***

Yaradıcı adamları qınamaqdan, aşağılamaqdan asan və təhlükəsiz bir şey yoxdur. Bütün problemləri yıx onların üstünə, ittiham elə, vəssalam, günahkar tapıldı!

Şairə-yazıçıya, jurnalistə təlimat vermək bəlkə də, bir az asandır, amma bəstəkar və rəssam, rəqqasə və aktyor, balet-meyster və s. neyləməlidir, bunu fəhm etmək qəliz və çətindir. Məsələn, rəssama məsləhət vermək eşqinə düşəndə gərək fırçanı götürüb nümunəvi çıxış yolunu da göstərəsən axı...

***

Həqiqi istedadlar həm də böyük ürək sahibi olurlar, kindən, nifrətdən uzaq durub bağışlamağı bacarırlar.

***

Xırdalan qəbiristanlığında doğmaların məzarını ziyarət edərkən unudulmaz şairimiz Şahmar Əkbərzadənin məzarına rast gəldim. Ruhuna dua oxudum, yaradıcılığını xatırladım, şairin məşhur "Laçın dağlarına məktub" şeirindən bir neçə bəndi məzarı başında səsləndirdim.

Ruhu şad olsun!

***

Sosial şəbəkə təbriklərlə, xoş sözlərlə aşıb-daşanda necə gözəl görünür.

Kindən, nifrətdən uzaq!

Həmişə belə olsun!

Yaz yuyub aparsın bütün neqativləri!

***

Torpaq və ilaxırın sinonimliyi düşündürücüdür.

Su da, od da, hava da... axırda torpağa çevrilir.

Ən axıra torpaq qalır.

Torpaqsız olmayaq!..

***

Hər şey adiləşir; şüşə üzlüklü göydələnlərdən min cürə yeni icadlaracan. Adiləşməyən, köhnəlməyən dörd ünsürdən biri Sudur!

Sucan ömrünüz olsun!

***

Zamanın sürətlə fırlanan təkərlərini ləngitmək imkanınız olsa, Bülbülün "Təsniflər"ini dinləyin.

Xəfif xiffət, nostalji yaradacaq!

Keçmişin ağır və ləngərli yerişi lənglik yox, uzaqgörənlik, müdriklikdir, yaşamaqdan, sənətdən daha çox zövq almaqdır.

Sürət isə bəzən məğlubiyyətdir.

***

Jurnalist adını ironiya mənbəyinə, istehza hədəfinə çevirənlərə qarşı ilk növbədə peşəkar jurnalistlər mübarizə aparmalıdırlar.

***

Nankorluq və naşükürlük gec-tez cəzalandırılır.

***

Sevgiyə can verən, onu körükləyən yeknəsəklikdən qaçmaq həyatı yeniləmək və dəyişdirmək arzusudur.

***

Jurnalistin işi həm də dilimizin saflığını qorumaqdır...

***

Ciddi media adına iddialı qurumlar gərək tiktokvari, lağlağı xəbərlər verməyələr. Pis nümunə qeyri-peşəkarlar üçün tutalğac olur.

***

İnsanların özünüifadə və özünütəsdiq arzusu yenilməzdir.

***

İnsanların inanc və tutqularına lağ etmək olmaz, həmçinin, futbol heyranlarına. Ona qalsa, futbolun sehrini duya bilməmək də qüsurdur.

***

Tıxacları görüb kəndə qayıtdı.

2022

Əsəbləri cilovlamağın yolları çoxdur. Sizdə heç biri yoxdursa, özünüzdən gileylənin.

***

Ağdamda gözüyumulu hər yeri tapa bilərəm, amma gözüaçıq mümkün deyil.

Bunu işğaldan azad olunandan sonra Ağdama ilk dəfə gedəndə demişdim. Amma indi, ikinci dəfə gedəndə əzbər bildiyim, səkisinin, asfaltının hər çökəyinə, hər döngəsinə, tininə bələd olduğum küçələrdən əsər-əlamət qalmadığını görəndə düşündüm ki, heç gözüyumulu da tapa bilmərəm.

Küçələr büzüşüb kol basmış cığıra dönüb, dəmir boruları çıxarmaqdan ötrü səkiləri qazıq-qazıq edib yarğana çeviriblər. Uşaqlığımız keçən dördmərtəbənin yerində ancaq daş qırıntıları qalıb.

Vaxtilə Köhnə hamam məhləsi deyilən, Əli İbrahimov küçəsi adlanan, indi kol-kos içində itib-batan çöllükdən fəhmlə tapdığımız cığırla yaşadığımız döngəyə burularkən birdən hiss etdim ki, dünyada cəngəl basmış küçəylə gedib öz evini tapa bilməmək qorxusu da varmış. Bir nişanəsi qalırmı görəsən?

Evimizi qalın divarlarının qalıqlarından tanıdım. Köhnə, pas tutmuş əşyalar xatirələri canlandırdı.

Dostum Vaqifgilin evi isə əksər evlər kimi yerlə birdir. Nə divarı, nə başqa nişanəsi var. Vaqif evlərini kafel qırıntılarından tanıdı...

Sarsıntı içində, düşmənə lənət oxuya-oxuya dolaşdıq doğma şəhərimizin uçuqlarını. Oxuduğumuz məşhur Ağdam şəhər 1 nömrəli orta məktəbin uçuqları arasında gəzib dolaşdıq, keçmişi, uşaqlığımızı, sinif yoldaşlarımızı, müəllimlərimizi yada saldıq, gələcək Ağdamı xəyal etdik.

“Dünyanın ən varlı şəhəri!”

“Ağam şəhərim! Adam şəhərim! Ağdam şəhərim!”

“Ruhlar şəhəri”.

***

Yaxşılıq etməkdən zövq almaq hər insanın xislətində olmur.

***

Kimin dəyirmanına su tökdüyünün fərqində olmamaq...

***

Sosial şəbəkələrdə insanları təhqir edənlərə, buna rəvac verib şərait yaradanlara qarşı barışmaz olmalı, sərt münasibət göstərməliyik. Belə şəxslər ictimai məkanda olduqlarını dərk etməli, sərt qınağa tuş gələcəklərini anlamalıdırlar.

Təhqir və böhtanı heç bir söz, ifadə azadlığıyla pərdələmək olmaz.

Texnoloji yeniliklər xalqımızın min ildən bəri formalaşmış ədəb-ərkan qaydalarına, böyüyə-kiçiyə hörmət ənənəsinə zərbə vurmamalıdır. Bu keyfiyyətlərin üstündən xətt çəkənlər hüquqi məsuliyyət daşıdıqlarını dərk etməlidirlər.

İctimai məkanda özünü idarə etməyi bacarmamaq tərbiyə qüsurudur. Bunu belələrinə tez-tez xatırlatmaq lazımdır. Abrınıza qısılmayın və qınamaqdan çəkinməyin.

***

Söz azadlığı içinin kin-küdurətini yaymaq üçün səbəb ola bilməz.

***

Qonşu bərk danışanda da sosial şəbəkədə şikayət yazırlar...

***

Bədnöyüslük, bəd xəbərdən cuşa gəlmək xarakterdir, xislətdir, xəstəlikdir.

***

Siyasətçi gərək danışanda hıqqınmasın, özünü suda balıq, göydə quş kimi hiss etsin, sözlər özləri axıb gəlib dilindən süzülsün, sualdan təntiməsin, çaşmasın.

Belələri az da olsa var.

***

Adam ağlından keçən hər sərsəm fikri o dəqiqə statusa çevirib yazmaz ki!..

***

Oxuyan bir saytdan da tapıb oxuyar. Oxumayan yüz saytda da yayılsa, oxumayacaq.

***

Doğruluğu şübhə doğuran, yalan olduğu açıq görünən xəbəri yayırsansa, pis adamsan, vicdansızsan, trollsan, ən azından nadansan.

***

Belə olmaz axı! Nooldu, bu millətin alimi də, müəllimi də, yazıçısı da, jurnalisti də, həkimi də, hakimi də, deputatı da... pisdir, yararsızdır?

Hamıya qarşı bu aşağılama hissi nədən, haradan doğur? Bu qədər aqressiya haradan qaynaqlanır?

***

Niyə bir dövlət qurumu bacarır, o biri bacarmır?

İnformasiya texnologiyalarının inkişafı, sosial platforma və şəbəkələrin əhatə dairəsinin günü-gündən genişlənməsi ilə mövqeyindən, sosial statusundan asılı olmayaraq hər bir fərdin istədiyi fikri ictimailəşdirməsinə sərhədsiz meydan açılması dövlət və hökumət qurumlarının işini xeyli çətinləşdirib. Dörd bir tərəfdən axın edən şikayət və narazılıqları, yazılan müxtəlif səviyyəli statusları, çəkilib yayımlanan videomaterialları bir-bir araşdırıb cavablandırmaq rəsmi strukturların əməkdaşları üçün böyük müşkülə, fiziki baxımdan, az qala, imkansız prosesə çerilib.

Bununla belə, indiki yeni şəraitdə - hər ağızdan bir avazın gəldiyi, gözünə görünənin dərhal telefona çəkib paylaşıldığı, yeri gəldi-gəlmədi nəyəsə qəzəblənəndə ani hirsi-hikkənin statusa çevirib ictimaiyyətə çatdırıldığı indiki xaotik dövrdə qulaqları bağlamaq, eşitməzdən-görməzdən gəlmək, yayılan doğru-yalan səsləri, hay-küyü inzibati üsullarla susdurmağa çalışmaq da çıxış yolu sayıla bilməz. Dövlət və hökumət qurumları ya həddindən artıq çevik davranıb yaranmış şəraitə uyğunlaşmalı, belə gərgin rejimdə işləməyə alışmalı, ya da məğlub durumları ilə barışmalıdırlar.

Əlbəttə, belə ağır, gərgin, möhkəm əsəb tələb edən iş qrafiki ilə çalışmaq çətindir, hətta çox çətindir, amma imkansız da deyil. Heç uzağa getməyək, bizim özümüzdə də belə çevik qurumlar, çətinlik və gərginliyə qatlaşa bilən məmurlar, az da olsa, var. Vaxtaşırı ictimaiyyətlə əlaqələr sahəsində çalışan belə məmurlar barədə xoş fikirlərin də eşidildiyinin şahidi oluruq. Mən də bir neçə dəfə belə çevik qurumlar və məmurlar barədə təqdiredici fikirlər səsləndirmişəm.

Hesab edirəm ki, çatışmazlıqlar, əyər-əskiklər deyildiyi, qabardıldığı kimi, müsbət tendensiyaların təqdiri də ümumi işin xeyrinə olar.

Məsələn, xeyli müddətdir apardığım müşahidələrə əsasən sosial şəbəkə və platformalarda səslənən tənqidi fikirlərə, söylənən iradlara ən çevik reaksiya verən rəsmi dövlət orqanı kimi Daxili İşlər Nazirliyinin adını çəkmək istəyirəm. Əslinə qalsa, bir hüquq mühafizə orqanı - adı çəkiləndə insanlarda ilk növbədə cəza strukturu təsəvvürü yaradan bir qurum üçün bu, bəlkə də, çətin, mümkünsüz məsələ kimi görünə bilərdi. Amma reallıq tamamilə fərqlidir.

Sosial şəbəkələrdə polisin ünvanına hansısa bir irad, giley-güzar səsləndimi, yaxud kimsə hansısa polis orqanından şikayət etdimi, çox keçmir, nazirliyin Mətbuat xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, mayor Elşad Hacıyev görünür; situasiyanı aydınlaşdırır, əlaqədar polis rəsmiləri prosesə cəlb olunur, şikayətçi dəvət edilir, məsələ araşırılır, haqlı şikayət qısa müddətdə öz müsbət həllini tapır. Həm də bütün bunlar elə operativliklə, elə çevikliklə edilir ki, tez bir zamanda belə mürəkkəb işin öhdəsindən necə gəlindiyi bəzən təəccüb doğurur.

Bu yerdə xüsusi qeyd etməli bir məqam da odur ki, bütün bunların müqabilndə Daxili İşlər Nazirliyinin hansısa nümayəndəsinin dilindən indiyədək bir dəfə də olsun mətbuatın, sosial şə-

bəkələrin, yeni medianın ünvanına bir kəlmə sərt ifadə, "qapansın", "bağlansın", "cəzalandırılsın" kimi çağırışlar eşitməmişik.

Yeni dövrün, yaşadığımız zamanın da tələbi budur; heç bir informasiyanı gizlətmək, deyən ağızı, görən gözü qapatmaq mümkün deyil və yeganə çıxış yolu bu reallıqlarla barışmaq, yeni şəraitə uyğunlaşmaq, səslənən iradları, şikayətləri səbr və təmkinlə araşdırıb qaranlıqları aydınlığa çıxarmaqdır. Əgər bir dövlət qurumu bunu bacarır, amma o biriləri bacarmırlarsa və vəzifələrinin öhdəsindən gəlməkdə çətinlik çəkirlərsə, yaxşı olar, günahı mətbuatda, sosial şəbəkələrdə, yeni mediada yox, özlərində axtarsınlar.

***

Uduzduğunu boynuna almaq, məğlubiyyətlə barışmaq da xarakter göstəricisidir. Cığallıq məğlubların son sığınacağı, riyakarların hiyləgər fəndidir...

***

Adətən, suçlu adamlar, günahı olanlar pafos və qışqırıqla danışırlar.

***

Yaxşı, sərrast söz deyənlərə ünvanlanıb yəqin: "Dilini arı sancsın..."

***

Naməlum qrupların bir-birini etik sədləri aşaraq, qadağan olunmuş fəndlərlə vurması cəmiyyətin ağıllı kəsimində ikrah doğurur. Düşmənçiliyi də mərdanə etmək lazımdır.

Hırıldayanlar isə həmişə tapılacaq.

***

Bir yaxşı filmə baxmaq insan qəlbini durulaşdırır, saflaşdırır, sosial şəbəkələrin kin-küdurət, üfunət qoxuyan ab-havasından uzaq tutur.

Filmə baxın.

***

Səviyyəli zarafat, incə yumor insani keyfiyyətlərin göstəricisidir. İlon Mask da hərdən dünyanı lərzəyə salan zarafatlar edir. Siz də hərdən gülümsəyin ki, qırışığınız açılsın.

***

İnsan haqqında qənaəti onun etdiyi hərəkətlərin məcmusu formalaşdırır; yaxşıdır, pisdir, etibarlıdır, riyakardır və s. və i.a.

Heç bu qiyməti səsləndirərkən o hərəkətlərin detalları yadında olmur, altşüurundakı yaddaş, informasiya diqtə edir.

Bütün etdiyimiz hərəkətlər adımızı formalaşdırır. Şairin misraları yaxşı ifadə edir bu məqamı:

Ölənəcən canımızla
Yemləyirik adımızı.
Ətimizlə-qanımızla
Yemləyirik adımızı...

***

İpək deyir, gedin stadiona, qışqırın, "Qarabağ" udsun...

***

Diplomatiya və siyasətin də dili quş dili kimidir – hər kəs bilməz...

***

Sosial şəbəkələrdən obyektivlik, ədalət, soyuq mühakimə gözləmək qeyri-realdlr. Bunu düzəltsə, bəlkə, zaman düzəldəcək: adiləşdirəcək, ya da həyat tərzinə çevriləcək.

Bu qədər bəsit, məhdud düşüncəli, ağıldan kəm, özünü təsdiq etməyə, gözə soxmağa, "Baxın, mən də varam, niyə görmürsüz?" iddiasıyla kimə gəldi qulp qoyan profillərdən müsbət nəsə ummaq ala qarğanın bala çıxaracağını gözləmək kimi xam xəyaldır.

***

"Soyuqqanlı" London polisi

Londonda səfirliyimizə hücum edən radikal dindarların

vandal hərəkətlərini yerli polisin soyuqqanlı halda müşahidəsi düşündürücüdür; elə bil, icazəli və müddətli aksiyanı izləyirlər, iştirakçılar tapşırıqları icra edib gedəcəklər.

Aksiyadan sonra həbs olunanları da eyni soyuqqanlılıqla polis maşınına mindirirlər; sanki tutan da, tutulan da nəticədən razıdır.

Dövlətimizə və bayrağımıza qarşı bu vandallığın səbəblərinin kökündən araşdırılmasına və aydınlaşdırılmasına ehtiyac var. Yəqin artıq aidiyyəti dövlət qurumları bu barədə səhih, müfəssəl məlumatlar əldə ediblər və ciddi tədbirlər görüləcək.

Hadisənin Məhərrəmlik ayında baş verməsi və Aşura günü ərəfəsində həyata keçirilməsi də olduqca düşündürücü məqamdır. Sifarişçi və icraçılar böyük ehtimalla bu vandalizm aktının, səfirliyimizə və bayrağımıza təcavüzün Azərbaycan cəmiyyətində yaradacağı reaksiyanı proqnozlaşdırıblar. Yəqin onlar bununla bir yandan ölkə daxilindəki radikal dindarlara qarşı qəzəbin artacağını, bir yandan isə radikal dindarların xaricdəki dəstəkçilərdən güc alıb, cəmiyyətdəki qəzəbdən hikkələnib Məhərrəmlik ayinlərini daha radikal şüarlarla icra etmək istəyəcəklərini və nəticədə ölkədə qarışıqlıq yarana biləcəyini düşünüblər. Bu mənada xaricdəki radikal dini qrupların ölkə daxilindəki dayaqlarının bundan sonra da dərindən və hərtərəfli araşdırılmasına, onlara qarşı daha sərt, daha cəsarətli addımlar atılmasına ehtiyac var.

Quru sərhədlərimizin bağlanmasını gərəkli sayan və öz fikirlərni tutarlı arqumentlərlə əsaslandıran məlumatlı insanlar radikal qrupların Azərbaycana ekspansiyasını həmişə nigarançılıqla qeyd ediblər. Əslində, müxtəlif dini təmayül və ideologiyaların təsiri altına rahatlıqla düşə biləcək insanlarımızı qorumaq üçün yad təsirlərə qarşı ruhi və mənəvi sərhədlərimizin də qapanması lazımdır.

Dünyanın indiki qarmaqarışıq zamanında Dövlətçiliyimizin qorunması, Vətənin bütövlüyü ideyası hər şeydən uca və üstün olmalıdır.

Tanrı Dövlətimizi və Xalqımızı hifz eləsin!..

***

Səmimi, saf etiqadlı, fərqli düşüncəli insanlarla trolları ayırmaq elə də çətin iş deyil. Bir az diqqət və müşahidə kifayət edir.

***

TikTok ən zərərli sosial platformadır; beyinləri yuyur, insanları lağlağıya, gəvəzəliyə çəkir, bəsitliyə alışdırır, düşünməkdən yayındırır, həyata, dünyaya qeyri-ciddi münasibət aşılayır.

Bəlkə, nə vaxtsa insanlar bu yüngüllükdən bezəcəklər, ya bəlkə, zaman özü hər şeyi tənzimləyəcək və orada ancaq aşağı zövqlü istifadəçilər qalacaqlar, bilmirəm. Amma indinin, bu günün ən pis, ən ziyanlı alışqanlığıdır TikTok.

Ondan uzaq durmağı bacarmaq igidlikdir.

***

Ermənilərin Azərbaycan vətəndaşı olmaq arzusu ilə Azərbaycan Prezidentinə müraciətləri müsbət prosesdir. Düşmənlərimizin uzun illər birgəyaşayışın mümkünsüzlüyü barədə apardığı təbliğatın puç olmasıdır. Bu proses müsbət məcraya yönəldilməli, bizim üçün sərfəli olan şəkildə təbliğ edilməli və bundan maksimum bəhrələnmək üçün variantlar aranmalıdır.

***

Sosial şəbəkələrdə paylaşılan statuslarda yazıçı və şairlərin bir-birinə kin-küdurət püskürməsi üzücü mənzərədir.

***

Cıdır düzündə axşamçağı

İşğaldan öncə, xüsusən yay aylarında axşamçağı Cıdır düzü şenlikli və gur olardı. Şuşalılar və şəhərə gələn qonaqlar gün əyilənə yaxın Cıdır düzünə seyrə çıxardılar.

Çox şükür ki, o gözəl ənənə, hələlik bir qədər fərqli forma və tərkibdə olsa da, yenə bərpa olunur. Dünən axşamüstü Şuşada Media Forumunda iştirak edən jurnalist heyəti Cıdır düzündən enərkən yenə tanış mənzərənin şahidi oldum: qadınlar, uşaqlar dəstə-dəstə Cıdır düzünə axışırdılar. Soruşanda dedilər ki, hərbçilərimizin ailələridir. Yəqin yayı ailə başçılarının - qəhrəman zabitlərimizin yanında keçirməyə gəlmişdilər; Cıdır düzünə min ilin sakinləri kimi qürurla, şəstlə qalxırdılar. Düşündüm ki, bu, ən çox elə onların haqqıdır...

Tanrı xilaskar Ordumuzu, igid hərbçilərimizi qorusun!

***

Savadlı olmaq, xarici dil bilmək heç də yaxşı adam, yaxşı məmur olmaq demək deyil.

***

Niyə axı insanlarda bir-birinə qarşı bu qədər kin-küdurət var? Necə olur ki, bir kiçik fürsət düşən, girəvə yaranan kimi insanlar bir-birinin qanını içməyə hazır dayanırlar? Şər-böhtana, yalana, kimisə aşağılamağa bu qədər təşnəlik haradandır? Məğzini bilmədiyi, dəqiqləşdirmədiyi xəbərlərə, şayiələrə çaparaq reaksiya verməyin kökündə nə dayanır?

Bəlkə, bütün günahlar yeni texnologiyalarda, Mark Zükerberqdədir?! Onun elementar tərbiyə və mədəniyyətdən xali, bəsit və yanlış düşüncəli, dilindən söyüş və təhqir əskik olmayanlara belə geniş meydan verməsindədir?! Bir məclisdə yeri olmayan, bir söhbətdə ağzını açmağa haqqı çatmayan səviyyəsizlərə hərzə-hədyan danışmağa imkan yaratmasındadır?!

Bu xaos kimin nəfinə, kimin xeyrinə işləyir?

Deyirlər, dünyanın axırı bu dəfə xaosla, qarmaqarışıqlıqla gələcək. Ağız deyəni qulaq eşitməməsi, düz sözün, ağıllı fikirin qulaqardına vurulması bəlkə elə o sonun əlamətləridir?

***

Boş gurultudan, bəlağət və pafosdansa, susmaq yaxşıdır.

***

FB dialoqu:

– Mən yazıçılar kınışkasını necə ala bilərəm?

– Romanı da belə yazmısan?..

***

Gənc olmağın üstünlüyü də var, çatışmazlığı da...

***

Siz hələ sözləri düz yazmağı öyrənin, sonra jurnalist adına iddia edərsiniz...

***

Şuşaya getmək...

Şuşaya getmək həm də tarixə və keçmişə səyahətdir.

Dahi şəxsiyyətlərin ayağı dəyən, ruhu dolaşan müqəddəs məkanları ziyarətdir.

Mədəniyyət paytaxtında, musiqi-muğam beşiyində ən gözəl hisslərlə ibadətdir.

Tərtəmiz havasından, səpsərin bulağından qopub ürəyə yayılan hərarətdir.

Qəhrəman ordumuzla, müqəddəs şəhidlərimizlə, igid qazilərimizlə, Müzəffər Ali Baş Komandanımızla qürur və fəxarətdir.

***

Şuşanı ilk dəfə görən insanları müşahidə etmək, keçirdiyi hissləri anlamağa çalışmaq tamam başqa bir duyğudur. İnsanın qəfil rastlaşdığı ilahi gözəlliyə reaksiyası onun daxili zənginliyinin güzgüsüdür. Amma Şuşa təkcə gördüyümüz məkan deyil ki...

İllər boyu tarixiylə, yazılarla, şeirlərlə yaddaşımıza və ruhumuza işləmiş, qanımıza hopmuş müqəddəs məkandır. Gördüyümüzdən daha dərin, daha sehrli.

On beş yaşımda Şuşanın, Cıdır düzünün sehrindən ilham-

lanıb "Cıdır düzü" adlı şeir yazmışdım, bu müqəddəs məkanı mədh etmiş, "tarixin möcüzə sərgisi" adlandırmışdım...

1992-ci ilin 8 mayı həyatımın ən ağır günü idi. Üç gün sol qolumu hiss etməmişdim onda, həyatın bitdiyini düşünmüşdüm.

Şuşaya vurulmağımdan üzü bəri, sonra da işğal illərində Şuşa haqqında xoş söz deyən hər kəs gözümün işığına, əzizimə çevrilmişdi.

Anarın, Toğrul Nərimanbəyovun, Polad Bülbüloğlunun, Fərhad Bədəlbəylinin Şuşa haqqında sözlərini hər fürsətdə yada salmış, hər uyğun tədbirdə xatırlatmışdım.

İşğal illərində Cıdır düzü, İsa bulağı haqqında yazılara ironiya edən üsyankar gənc yazarlardan birinin, jurnalist heyəti tərkibində Şuşaya gedib, Cıdır düzünü görüb geri qayıdandan sonrakı etirafı yadımdadır. O, bu mövzuda ironiya etdiyi adamların hamısından üzr istəmiş, Şuşanın, Cıdır düzünün ilahi gözəlliyindən, ovsunundan heyrətə gəldiyini bildirmişdi.

Son iki ildə isə Şuşanın ünvanına deyilən ən gözəl, dillər əzbərinə çevrilən sözlərin müəllifi heç şübhəsiz, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevdir. Cənab Prezident Vətən savaşımızın başlanmasından bir həftə sonra, 2020-ci il oktyabrın 4-də Cəbrayılın işğaldan azad olunmasıyla bağlı xalqa müraciətində ilk dəfə Şuşanı Müqəddəs Şəhərimiz adlandırdı. Sonrakı günlərdə - həm müharibə vaxtı, həm Zəfər günü, həm də Şuşaya etdiyi hər səfərində bu mövzuda ən gözəl sözləri söylədi:

"Şuşasız bizim işimiz yarımçıq olar!"

"Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa biz səni dirçəldəcəyik!"

"Sözün düzü, adam heç Şuşadan getmək istəmir..."

2021-ci il mayın 12-də Xarıbülbül festivalının açılışında cə-

nab Prezident bu festivalın şəhidlərimizin xatirəsinə həsr olunduğunu vurğuladı, "Şuşanın azadlığını qəhrəman əsgərlərimizə borcluyuq" dedi və yenə Şuşa haqda ən təsirli sözlərindən birini söylədi: "Dünyanın çox gözəl şəhərlərində olmuşam, amma Şuşaya bənzər şəhər görməmişəm..."

40 ildir Şuşanı ilahi məkan bilən, 30 ildən sonra Şuşada olmağın səadətini yaşayan bir insan üçün bu sözləri eşitməyin nəticəsi sevinc göz yaşlarına qərq olmaqdır.

Həmin günün səhəri, 30 ildən sonra yenidən Şuşada olmağın səadəti içində, cənab Prezidentin sözlərinin təsirilə, 42 ilin ardından bu dəfə "Şuşa" şeirini yazdım. Əməkdar artist Xumar Qədimova bu şeirə əzəmətli musiqi bəstələdi...

Min şəhər adı var dillərdə əzbər,
Adların ən üstün adıdır Şuşa.
Musiqi notudur cüt hecasıyla
Dilimin şəhdidir, dadıdır Şuşa.

Ciyərdə nəfəsdir, damarda qandır,
Ruha qanad verən sirli məkandır,
Biri beş edəndir, güc artırandır,
Qoşundur, əsgərdir, ordudur Şuşa.

Qoynuna hər gələn yüz xəyal eylər,
Uzaqda qalanlar qeylü-qal eylər.
Birini coşdurar, birin lal eylər,
Tilsimdir, ovsundur, cadudur Şuşa.

İndi növbəti Vaqif Poeziya Günlərinə yola düşərkən ötən əsrin 80-ci illərində, Şuşada Vaqifin məqbərəsi önündə keçirilən, tamaşaçısı olduğum tədbirləri, orada deyilən şeirləri, İsa

bulağındakı məclisləri, indi dünyada olmayan tanınmış şairlərimizi bir daha xatırladım.

Bu gün də Şuşaya səfər edən şairlərin içərisində uzun həsrətdən sonra Şuşaya gedənlər və Şuşanı ilk dəfə görənlər var. Ən maraqlısı onların hissləridir...

Əvvəldəki fikrimə qayıdıram: mənim aləmimdə, insanın kimliyini, necəliyini onun həm də bu müqəddəs, ilahi məkanımıza münasibəti müəyyən edir.

Hamıya Şuşanı görmək, Şuşa sehrinə düşmək arzusuyla...

***

Gəldik Şuşaya, gördük Anar müəllim oturub Qarabağ otelinin qarşısında Vaqif Poeziya Günlərinə gələn yazıçı-şairləri gözləyir.

Bunu 2 il əvvəl yazsam, nağıla bənzəyərdi...

***

Şuşadan gələn kimi Hikmət Sabiroğluya zəng elədim, təəssüratlarımı bölüşdüm; Şuşadan, təmir olunmuş "Qarabağ" otelindən, Güllü bağdan, Balıqlı hovuzdan, İsa bulağından, xanəndə Mürsəl kişidən danışdıq. Şuşa barədə Hikmətin söhbətlərini dinləmək bir başqa aləmdir, sevimli məkana sığal çəkmək kimidir onun danışığı.

Güllü bağdan danışanda Xan Şuşinskini xatırladı. Deyir, Xan əmi Güllü bağda Mədəniyyət evi tərəfdən birinci oturacaqda oturardı həmişə. Şuşalılar bunu yaxşı bilirdi, ona görə də Xan əmi dünyasını dəyişəndən sonra da o yerdə heç kim oturmazdı!.. Əgər orada kimsə otururdusa, o dəqiqə bilinirdi ki, şuşalı deyil, nabələd adamdır, bu ənənədən xəbəri yoxdur.

Sonra şair, xanəndə dostum Şamil Əhmədova zəng elədim, İsa bulağından, xanəndə Mürsəl kişidən danışdıq; Mürsəl kişinin xasiyyətindən, qazanılan pulu necə ədalətli bölməsindən, oxuduğu köhnə mahnılardan söhbət açdı, Mürsəl kişinin şəkillərini yolladı mənə.

Təəssüratlarım hədsiz zəngindir; nəyəsə çevriləcək - yazıyamı, şeirlərəmi, bilmirəm. Tək bildiyim odur ki, Şuşanın tərtəmiz havasından, İsa bulağının dupduru, səpsərin suyundan doymadım...

***

2014-cü ildə Vaqif Bəhmənliylə Təbrizə, ustad Şəhriyarın xatirəsinə həsr olunmuş tədbirə getmişdik. Həm də Bakı-Təbriz təyyarəsiylə. 4 gün Təbrizi gəzdik, insanlarla söhbət etdik.

Qayıdandan sonra tez-tez yuxudan oyananda özümü Təbrizdə hiss edirdim. Uzun müddət bu hisslər məni tərk etmədi.

İndi 2 gecə Şuşada qalmaq, 2 səhər gözünü Şuşada açmaq, 2 gün ard-arda İsa bulağına getmək, suyundan içmək, doğma insanlarla birgə Vaqif Poeziya Günlərinin tədbirlərinə qatılmaq yuxu kimi gəlir və əminəm ki, bu hisslər uzun illər yaşayacaq...

***

İlon Mask Roma Papası ilə görüşüb. Xeyir ola, görəsən, nə planlaşdırırlar yenə?

***

Sifarişli taksi qiymətlərinin qədrini bilin. Pisləməyin. Sonra bu da olmayacaq.

***

Kitab naminə kitab buraxmaq dəb düşüb. Məmurlar dərcinə dəstək olduqları kitabları əllərinə alıb şəkil çəkdirirlər. Nə olsun ki, bu kitabları açıb oxuyan yoxdur?

Yaxşı, bəs birdən kimsə bir ağıllı adam oxumaq istədi...

***

Söz yavaş-yavaş sıradan çıxacaq. Şəkillər danışacaq. Gənclər influenser olmağa can atacaqlar...

***

"Quru" yerdən çempion çıxmaz.

Mini futboldakı qələbənin səbəbi, kökü barədə idman jur-

nalistləri araşdırma aparmalıdırlar. Çempionluğa gətirən yollar, futzala və mini futbola gizlin, təvazökar maraq, həvəskarlar arasında mini futbola isti münasibət - bunlar təhlilə gələn, araşdırılması vacib məsələlərdir. Yeri gəlmişkən, deyir həvəskarlar öz aralarında bu futbolu "dır-dır" adlandırırlar...

Hətta bəziləri mini futbolun – küçə, məhlə futbolunun Bakıda yarandığını da israr edirlər...

***

Əsəbiləşən kimi status yazmayın. Sərin su için...

***

Pandemiya heç nəyi dəyişə bilmədi. Mentalitet möhkəm dayandı...

***

Bu gün hakim kəsilən həyat tərzi fonunda əksər insanların düşüncəsi belədir: "Səhv yaşadım..."

***

1988-ci ildən, münaqişə başlayandan sonra bu yolu tez-tez gedib-gələrdim. Bu yerlərin, bu yolun, az qala, hər çuxuruna bələd idim. Arazqırağıyla gəlib Xanlıqdan sağa burulur, Həkəri çayının kənarıyla üzüyuxarı qalxırdım.

Sonuncu dəfə bu yolla 1992-ci il mayın 12-də, Şuşanın işğalından 4 gün sonra o vaxtkı iş yoldaşlarımla - "Ədalət" qəzetinin əməkdaşlarıyla birgə getmişdik. Şuşa itkisinin sarsıntısı içərisində Laçına doğru irəliləyirdik.

Yolboyu olduqca kədərli, qandonduran mənzərəyə şahidlik edirdik. Ev-eşiyindəki gümanı və gücü çatan əşyaları yüklədiyi maşınlarla qarşımızdan keçib gedən çarəsiz insanlarla rastlaşırdıq. Güləbirddən ötüb "Qayğı" qəsəbəsini keçəndə Zakiri gördüm. Ağoğlandan şax görkəmiylə tanıdığım Zakir kəndin mal-qarasını qabagına qatıb fəryad eləyə-eləyə Güləbirdə sarı gedirdi. Bu gördüklərim Ağoğlanın boşaldığının, Laçının tezlik-

lə işğal olunacağının faciəli əlamətləri idi. Həmin gün bir neçə saat Laçında olduq, hərbçilərlə, hələ rayon mərkəzində qalıb "ev-eşiyini" çıxarmağa çalışan köməksiz insanlarla, tanışlarla görüşdük.

Cəmi beş gün sonra hərbi diktorun güllə kimi açılan ikicə kəlmə sözü yaddaşıma əbədi həkk olundu: "Laçın itirilmişdir".

... İndi otuz ildən sonra qəhrəman hərbçilərimizin, igid əsgərlərimizin azad etdikləri bu torpaqlardan keçib yenidən Laçına, doğulduğum Ağoğlan kəndinə gedirəm.

***

Ağdamı yarım milyonluq şəhərə çevirə bilərikmi?!

20 il öncə "525-ci qəzet"də "Yeni paytaxt ehtiyacı" adlı yazı yazmışdım, bu mövzuda müzakirə açmışdıq. Ziyalılar, millət vəkilləri, mütəxəssislər yeni paytaxtın inşasının çox gərəkli olduğunu söyləmiş, maraqlı təkliflər səsləndirmişdilər. O təkliflər içərisində yeni paytaxtın Qarabağa yaxın ərazidə salınması xüsusilə diqqət çəkmişdi. Neft bumu öncəsiydi, tezliklə ölkəyə axıb gələcək böyük vəsaitlərin hara yönəldilməsi ciddi maraq doğururdu.

O vaxtlar ANS televiziyasında bu sahənin mütəxəssisi olan inşaatçı-alimlə debata da çıxmışdıq. Onun bir sözü indiyədək yadımdadır: "Abşeron yarımadasında dörd milyon adamın məskunlaşması mümkündür".

Mən isə demişdim ki, artıq Abşeron yarımadasında dörd milyona yaxın insan məskunlaşıb. Demək olar, ölkənin yarısı paytaxtda yaşayır.

İndi isə Bakı lap yüklənib. Paytaxt artıq bu qədər yükə dözmür. Bakıda tikintilər belə davam etsə, bir azdan vəziyyət daha çətin olacaq. Paytaxtdakı sıxlığın qarşısını almaq üçün nazirliklərin, universitetlərin regionlara köçürülməsinin vacibliyi barədə indi də tez-tez fikirlər səsləndirilir.

Çox şükür ki, torpaqlarımız işğaldan azad olunub artıq, böyük quruculuq işləri başlayıb. İşğaldan azad olunmuş ərazilərdə böyük şəhər salmağın da zamanıdır. Bunun üçün hər cəhətdən ən uyğun yer isə, sözsüz ki, Ağdamdır. Ağdam ərazisində 500 minlik şəhər salınması heç də xülya deyil, gerçəkləşməsi mümkün olan məsələdir. Ötən əsrin 30-cu illərində də Ağdamın daha geniş inkişaf etdirilməsi barədə düşünülüb və bu, gələcək təhlükələrin - məlum separatçılıq cəhdinin qarşısını almaq üçün vacib amil sayılıb.

Təsəvvür edək ki, Ağdam beş yüz minlik, daha sonra isə əhalisi bir milyona çatan şəhərdir. Onda ətrafdakı 20-30 min separatçının əriyib yoxa çıxması da təbii prosesə çevriləcək. Üstəlik, paytaxtdakı sıxlığın xeyli azalmasına, ümumi tərəqqiyə xidmət edən gözəl, ən müasir tipli yeni bir şəhər - sabahın Ağdamını qazanmış olarıq...

***

Pul səviyyəsiz adamların əlinə keçdi və funksiyasını dəyişdi.

***

Sözündən dönməmək, dediyini demək, əzmkarlıq, inadkarlıq əvvəl bezdirsə də, axırda təbəssüm qarışıq rəğbət doğurur...

***

Yazıq müəllimlər. Sağdan keçən də danlayır, sola dönən də. Bir yandan da texnologiyanın yaratdığı problemlər.

***

Deyir, uzun ömürə dözmək hər adamın işi deyil...

***

Yaxşı ki sosial şəbəkələrdə “Baxdı, bəyənmədi” işarəsi yoxdur. Yoxsa qan düşərdi...

***

Laçından, Minkənddən, İstisu bulağından su gətiriblər. Qazı qaçsa da, dadı damaqda qalır. Dəmir tamı gəlir. Kükürd

qoxusu yox, məhz dəmir tamı. Maqnezium, kalsium qarışığı bir tamdır yəqin.

Rəngi yamyaşıl təzətər çəmən, çiçək ətri kimi tərtəmiz və dupdurudur. Çiçək ətri tamında deyil, rəngində, duruluğundadır.

Həsrət və nostaljinin yaratdığı psixoloji sapıntı, poetik xiffət ovqatına yozmayın. Tam realist təsvir və gerçək təəssüratdır.

Su həyatdır. Həm də belə su!

***

İçinin xıltını gizləyə bilmək də böyük qabiliyyətdir. Yoxsa bəzilərində xılt fontan vurub ədalət və obyektivliyi tam sıradan çıxarır.

***

İndi dəyərlər dəyişib. İnsanların bir qismi vərdiş elədiyi, alışdığı dəyərlərin sarsılmasını həzm edə, yenisi ilə barışa, boyun əyə bilmir.

Belə olanda həyat da mənasını itirir. Dəyərləri özünüz üçün qoruyun.

***

Jurnalist üçün istedad, yaradıcılıq qabiliyyəti çox vacib keyfiyyətlərdir. Təbii ki, sonradan aşılanan keyfiyyətlər – savad, məlumat zənginliyi də zəruridir. Amma yazmaq, müşahidə qabiliyyəti, intuisiya və s... bunlar gendə, fitrətdə olmalıdır. Buna görə də belə düşünürəm ki, jurnalistikada istedad çox vacibdir. Amma indi jurnalistika da dəyişib...

***

Yaxşı ki dumduru, tərtəmiz, zəhərsiz səhərlər var.

Yaxşı ki hələ var.

***

Yuxu və çox yatmaq istəyi o dünyanın əl yelləməsidir.

***

Tədbir işin imitasiyasıdır, görüntüdür. Çox zaman da israfçılıq, quş qoymaq və baş qatmaqdır.

***

İndi Şuşadan başqa hansısa şəhərdən, lap belə Parisdən şəkil paylaşmaq mənasız və maraqsız görünür...

***

Yaşamağa barmaqarası baxanda sonu peşmançılıq olur. Nazim Hikmət boşuna demirdi ki, böyük bir ciddiyyətlə yaşayacaqsan.

***

Oxuyan tapılacaqsa, bu qədər çox kitab yazılmasının ziyanı yoxdur.

***

Təəccüblənirsənsə, gəncsən...

***

Sıxlıq və tıxac – bu günlər ən çox işlədilən sözlərdir...

***

Ömrü dünyanın axırıymış kimi yaşamaq...

***

Sadə, sıravi, çarəsiz adamları, bəlkə də, hardasa başa düşmək olar, amma bir də var, millət vəkili trol ola, onun-bunun sifarişini yerinə yetirə; gah jurnalistlərə daş ata, gah müəllimləri ləkələyə - qıpqırmızı yalanlar üyüdüb tökə, qapqara şər-böhtanlar uydura, sifarişçiləri qarşısında da əsim-əsim əsə, tir-tir titrəyə...

***

Mətbuatda ilk iş yerim “Elm və həyat” jurnalı olub. Ötən əsrin 80-ci illərinin ortalarında “Elm və həyat” çox populyar mətbuat orqanı idi, 110 min tirajla çap olunurdu. Dəyərli in-

sanların çalışdığı redaksiyada xüsusi hörmət bəslədiyim Ülkər xanım Hüseynovadan, Maral xanım Poladovadan həmişə həssaslıq və qayğı görmüşdüm.

Bu gün Ülkər xanımla, Maral xanımla AMEA-da rastlaşdıq. Çox xoş bir görüş oldu. Keçənləri xatırladıq, ötən günləri yada saldıq.

***

Bu qaçhaqaç, qovhaqov zamanın bircə izahı var: düşünməyə vaxt qalmasın.

***

Balansı gözləyin; nə şiş yansın, nə kabab...

***

İndi əksər qadınların sifəti bir-birinə oxşayır; salam verirlər, kimliyini müəyyənləşdirə bilmirsən, gözlərini döyə-döyə baxırsan, yada salmağa çalışırsan. Görəsən, bu salam verən kim idi?..

***

Dünyanın, insanların başını fasiləsiz nəyləsə qatmaq lazımdır. Yoxsa... teatra gedəcəklər.

***

Həyat tərzini dəyişmək çətin və ağrılı prosesdir.

***

Hansısa vacib məsələyə reaksiya verməmək, susmaq da münasibət bildirməyin bir formasıdır.

***

Sənət adamları həssas və kövrək olurlar, həm də eqoist və iddialı. Özlərinin yazıb-yaratdıqlarını ən üstün sənət nümunəsi sayırlar.

Vətən müharibəsi dövründə də, Zəfərimizdən sonra da möhtəşəm qələbəmizə biganə qalan sənət adamı tapmaq olmaz;

hamı Zəfərimizdən ruhlanıb müəyyən bir səviyyədə nəsə yaradıb. Son ilyarımda qəzetin ünvanına gələn saysız-hesabsız bu tipli yazıların içərisində zəif, şablon yazılar da çox olub. Əvvəl-əvvəl çap etmək istəməmişik, amma sonra düşünmüşük ki, neyləmək olar, onlar da öz hisslərini bu səviyyədə ifadə ediblər. Hamı şedevr yarada bilməz ki! Olanımız ortadadır - yaxşısı da var, pisi də var.

Amma yaradılanları, ortada olanları görmədən, oxumadan hökm vermək məyusluq yaradır. Həssas sənət adamlarına münasibət də həssas olsa yaxşıdır. Bu da idman deyil ki, legioner gətirək. Nə varsa, olan budur; olanımıza şərait yaratmaq, inanmaq, inkişafına kömək etmək lazımdır.

***

Telefondan uzaq duran kimi dünya gözəlləşir.

***

Ən qəliz, mürəkkəb məsələlərin sadə həllini tapanlar uğur qazanırlar.

***

Həftə başlayır və sürətlə bitir. Ay da, il də eləcə...

***

Yazan qədər oxuyan da olsa, nə vardı ki...

***

Deyir, bülbül notla oxuyur, qaratoyuq sərbəst...

***

Siz heç şəhərinizin o başından bu başına piyada gəldinizmi?..

***

İndi insanları tanımaq xeyli yüngülləşib; kim hansı yuvanın quşudur, kim kimin dəyirmanına su tökür... – hamısı sosial şəbəkələrdə açıq-aydın görünür.

***

Bayram günü havanın belə soyuq keçməsi evlərdə istilik, mehribançılıq yaradır.

***

Bir adama məxsus olmanın xoşbəxtliyi...

***

Yaşamalı dövr keçmişdə qaldı.

***

Mətləbi uzatdınsa, oxuyan olmayacaq.

***

Bəşər təkamülə meyillidir.
Amma hərdən geriyə də gedir.

***

İpək çimdikləməyə "çimləmək" deyir.

***

Sabah da "mövqelərin və dislokasiya yerlərinin dəqiqləşdirilməsi" başqa istiqamətlərdə aparılmalıdır: Məsələn, Gülablıdan Qarakənd istiqamətində, Tərtərdən Ağdərə istiqamətində və s.

***

İndi dünya ən dramatik teatr səhnəsidir; teatr günü olsa da, lap pulsuz olsa da, teatra çətin gedən tapıla...

***

İstəyirsən qazın gəlsin, evin isti olsun, qaz kəməri keçən yüksəkliklərdən gözünü çəkməlisən.

***

Ən gözəl mövqe məsafəli, sakit müşahidəçilikdir.

***

Tənqid təhqirə çevrilib, təkrar-təkrar çeynənirsə, bu, artıq qərəz və şərləmədir.

***

Adamın mahiyyəti vəzifədən çıxanda bəlli olur.

***

Keçmiş yadına düşəcək, amma sən onu heç vaxt geri qaytara bilməyəcəksən...

***

Rəqəmsal dünya bəşəriyyətin və insanların mahiyyətini, mənasını dəyişdirəcək - adamları rəqəmlərə çevirəcək.

***

Uzunçuluq, mətləbi uzatmaq adamı gözdən salır, ironiya obyektinə çevirir.

***

Ömrü boyu çərçivədə yaşayan, "cızığından çıxmayan" adamlar var. Kimdəsə fərqli hərəkət görən kimi dörd gözlə baxırlar. Çox zaman həsəd aparırlar. Belələrinin içində minlərlə məhv edilmiş "insanlar" uyuyur.

"Qeyri-səlis məntiqi" azərbaycanlının kəşf etməsində də bəlkə, məntiq var. Arzular aşıb- daşır və yeni kəşflərə yol açır...

***

Paxıllığı pərdələməyi bacarmaq böyük qabiliyyətdir...

***

Adamlar yuxuda da müharibə görürlər...

***

Qorxu filmlərinin məqsədi insanları fəlakətlərə, faciələrə alışdırmaqdır.

***

Keçmişə indiki ağılla qayıtmaq arzusu...

***

İnad və əzm uzun müddətli olanda rəğbət oyadır...

***

Telefon nömrəsi adam haqqında təsəvvür yaradır; sadə, təvazökar, ədabaz, yekəxana və sair... və ilaxır...

***

Adi sözləri düz yaza bilmir, siyasi bəyanat verir.

***

Təvazökar istedadlar daha çox uğur qazanırlar. Sakit-sakit, asta-asta yola davam edib, sonda məqsədlərinə çatırlar...

***

Dil topuq vurdusa, danışdıqlarına əmin deyilsən...

***

Minnətdarlıq duyğusu, vəfa, etibar gözəl keyfiyyətlərdir.

***

Həqiqətin çox üzü var. Əsl həqiqət sənin inandığındır, ya da nəyə inanırsansa, həqiqət odur.

***

"Əlinizdən telefon düşməsin!"

Qarğışdır, ya alqış?..

***

Səs diksindirə bilirsə, heç olmasa fikirdən ayıra, başını qaldırmağa məcbur edirsə, Səsdir...

***

Sizin ədəbiyyata xidmətiniz yazmamaq olardı.

***

Pis bir hərəkət, naqis bir davranış adam haqqında təsəvvür yaradır və sonra o təsəvvürü dəyişmək çətin olur.

***

Bayaq bir gənclə ötəri ünsiyyətim oldu; mənə elə gəldi ki, o, qəzetin nə olduğundan, necə olduğundan, ümumiyyətlə, bixəbərdir.

***

Lovğalanmaq gəncliyə xasdır.

***

Doğulduğu yeri Şuşa yazanlar çoxalıb elə bil...

***

Xurafata meyl dar və bəsit düşüncənin təzahürüdür.

***

Uzun cümlələr, ləngərli təhkiyə üçün böyük peşəkarlıq lazımdır. Çağdaş oxucu qorxur belə cümlələrdən, darıxan kimi

gözünü çəkir. İndi çevik və dinamik üslub daha cəlbedicidir. "Kreativ" sözü elə-belə məşhurlaşmayıb ki...

***

Texnoloji yeniliklərin içində Votsapın səsli mesajının əvəzi yoxdur. Böyük kəşfdir. Telefon zənglərini tarixə çevirdi. Çevik və keyfiyyətli əlaqə yaratmaq baxımından ən rahatıdır.

Ona görə də zəng gələndə təəccüblənirəm.

***

Uşağa qapaz vuranlarla küyə düşüb sosial şəbəkələrdə günahsız insanları gözüyumulu linç edənlərin, demədiyi sözə görə şərləyənlərin, trolların mahiyyətcə elə də ciddi fərqi yoxdur.

***

Sosial şəbəkələr heç kimdə sirr qoymur; adamın saat neçədə yatıb, neçədə durduğunu da bilirlər...

***

Küyə gedib axına qoşuldunsa, kiminsə dəyirmanına su tökəcəksən.

***

Deyir, sosial şəbəkədə profilin yoxdusa, elə özün də yox kimisən.

***

İlahi varlığa, ilahi ədalətin mövcudluğuna həmişə inanmışam.

***

Bir narazılıq közü, etiraz qığılcımı görən kimi üfürüb körükləmək düşmən işidir.

***

Bütün tostlar təkrardır.

***

Telefon əlindədirsə, niyə darıxasan ki?

***

“Cibəgirən olur gözəgirənlər...”

Məmməd Arazın şeirindəndir. Hərdən bəzi adamları müşahidə edəndə istər-istəməz bu misranı xatırlayır və dəqiq qənaətinə görə şairə rəhmət deyirəm.

***

Adam var ki, danışdıqca daha çox xoruz buraxır.

***

Xoflu adam ürkək olur, özünü tez büruzə verir.

***

Xoşun gəlməyən, nifrət etdiyin, qəzəbli olduğun adama qarşı bir dəfə yazmaq olar, ürəyin soyumadısa, 2 dəfə, 3 dəfə... Amma hər gün, ardıcıl eyni mövzunu təkrarlayanda obyektiv görünmürsən, qərəzli təsiri bağışlayırsan.

***

Biz indi ən çox Markdan asılıyıq; istəsə yazımızı gizlədər, istəsə çox oxudar.

Dünya heç vaxt bu qədər bir adamın ovcunda olmayıb.

***

Yata bilmirsənsə, gecə uzundur...

***

Bir də var qorxulu yuxudan oyanmaq. Reallığın yuxudakı səsası...

***

Deyir, dərdini deməyə adam yoxdur, hamısı robotdur...

Füzuli yada düşdü:

“Dərd çox, həmdərd yox...”

***

Ağsaqqal olmağın yüz şərti var...

***

Duzsuz, şit təzələrdənsə köhnə filmlərə təkrar baxmaq yaxşıdır...

2021

Deyir, gileylənməkdən də mənasız, havayı, boş iş yoxdur.

***

Əksər qocalar eyni dərmanları içir...

***

Tıxacın ayıbını karantin örtürdü...

***

Gələcək barədə düşünəndə...

Yazmaq və oxumaq tam sıradan çıxacaq. Oxuyanlar azaldıqca yazmağın da mənası qalmayacaq.

Danışmaq, göstərmək, baxmaq və dinləmək üstünlük qazanacaq.

***

Payızda küçə süpürən qadının ağaclardan gileyi: o yana gedirsən tökülür, bu yana gedirsən tökülür...

***

Bahalı ölkədə qəzet satılmaz...

***

Viruslara ad qoyan xüsusi qrup var, deyəsən. Cazibədar adlar fikirləşirlər.

***

Həkimlər çox vaxt bir-birinə zidd tövsiyələr verirlər. Bacardıqca öz intuisiyanıza güvənin...

***

Hərə özünün mətbuat katibidir...

***

Bəzi nazirlər işdən çox tədbirlərdə olurlar. Bu yaxşıdır, ya pis?!

***

Trolda düşüncə olmaz. Yaradıcı düşüncə, istedad isə heç olmaz.

***

Our victory day.

Zəfər gününə hazırlıqla bağlı bir qrup yeniyetmə bayraqlar və şüarlarla addımlayırlar. Bu vaxt küçədəki bir əcnəbi vətəndaş əlində bayraq tutan qızlardan birinə yaxınlaşır və soruşur:

- What are you celebrating?

Qız sevinclə və qürurla cavab verir:

- Our victory day.

***

Bəzi Allahsız adamların dindarlığına mat qalıram. Tanrının da yalan və riyakarlığı görməyəcəyini düşünürlər?!

***

Qəzet şəkilli kitab deyil. Qəzet söz üçündür. Sözə də ki nə baxan var, nə oxuyan...

***

Vağzal həmişə, hər yerdə vağzaldır.

***

Utanc və xəcalət hissi olmayandan hər abırsızlığı gözləmək mümkündür.

***

Hədsiz informasiya axını içində yaşayırıq. İnsan beyninin bu qədər informasiya selinə tab gətirməsi çətin məsələdir.

***

Hərə bir səbəbdən dinmir.

***

Şəkil çəkib paylaşmadınsa, tədbirdə iştirakın sayılmır...

***

Deyir, əvvəl bu telefonlar yox idi deyə, televizora baxırdılar...

***

Bir yanlış addımı adam haqqında təəssürat yaradır. Sonra on düz addım bu pis təəssüratı zorla silib aparır.

***

Bəzən əndazəni aşan inadkarlığın, hətta üzlülüyün də jurnalistin işinə yaradığı məqamlar olur. Amma savad, məlumatlılıq, iti və dəqiq müşahidə qabiliyyəti, intuisiya, təhlil etmə, nəticə çıxarma bacarığı... kimi bir çox zəruri keyfiyyətlərdən xali olan jurnalistin boşuna inadkarlığı əvvəl-axır mütləq həyasızlıq təsiri bağışlayacaq.

Dilin var, lap yaxşı! Amma o dilin üstündə dilçəyin də yoxdusa, ta heç zad...

***

Hərdən yuxuda elə adamı görürsən ki, izahı heç cür mümkün olmur.

***

Bəzən böyük bir məqalə bir cümləyə görə yazılır...

***

O qədər mənasız adamlar pul qazanıb ki, heyrət edirsən.

Əsl tapmacadır - bu qədər var-dövləti hansı qabiliyyətin sayəsində əldə edib?!

***

Bəzək-düzək yaxşıdır, amma altında qiymətli nəsə olanda...

***

Jurnalist bir yaxşı yazıyla da yadda qalır.

***

Rəngdən rəngə girsə də, yalan elə yalandır. Ağına, qırmızısına gülsən də, sarısına, bozuna inanırsan...

***

Pulu qazanmaq üçün qabiliyyət və bəxt şərtdirsə, onu qorumaq xasiyyət və xislət məsələsidir.

***

Bütün uzun çəkən bəlalar kimi korona da adiləşəcək...

***

Düşük adama sərhəd yoxdur ki. Hər sahədə peyda ola bilər.

***

Bütün təzələr köhnəlir...

***

Yağışın yuduğu yarpaqların, otların günəş işığında bərq vuran yaşıllığının gətirdiyi rahatlıq...

***

Təkcə quşların səsi dəyişməyib, elə 40 il əvvəlki kimi oxuyurlar...

***

Sənin fikirlərin, irəli sürdüyün sərsəm təkliflər insanlar arasında təfriqə və nifaq salırsa, onları bölür, qarşı-qarşıya qoyur, düşmənçilik yaradırsa, deməli, şər daşıyıcısan, şərə xidmət edirsən.

***

Daha nə qəzet-kitab oxuyan olacaq, nə televizora baxan. Hərənin əlində bir sehirli qutu. Heç kim də ondan gözünü çəkmir.

***

Havanın qırımından və xoruzların boğulan banından günün isti keçəcəyi hiss olunurdu...

***

Yazanda gərək bir fikirləşəsən ki, bu uzunluqda səfsəfəni kim oxuyacaq?

***

"Də"ni ayrı yaza bilməyənlərin dövranı...

***

Dünyanı qoz qabığına – telefona yerləşdirməyin mənası nə idi? Onsuz da insanlar yalan-doğru yaşayırdılar da...

***

Əgər sənin gördüyün işlər, atdığın addımlar hər dəfə ictimai qınağa tuş gəlirsə, deməli, nəyisə səhv edirsən, özün barədə düşünməlisən...

***

Toyda hədsiz yüksək səsli musiqi dinləyiciləri aşağılamaqdır, həqarətdir, düşmənçilikdir, stress mənbəyidir. Bunun qarşısını ala bilməmək fəlakətdir.

Şadlıq evlərini isə mədəniyyət müəssisələrinə bağışlamaq lazımdır – insanları aşağıladıqlarına, zərər vurduqlarına görə kompensasiya kimi...

***

Həqiqi rəqabət mühiti olmayanda narazılar artır...

***

Xalqın sevgisi çox sürüşkəndir...

***

Bəzi idman növlərinin nə iştirakçılarını, nə də pərəstişkarlarını başa düşürəm. Nə bir məna tapıram, nə də zövq almağa, həyəcanlanmağa səbəb.

Məşhur sual da bir yandan rahat buraxmır: "Nə olsun?"

***

Doğulduğun, uşaqlığın keçən yerlər həm də qayğısız illərinin xatirələrini yaşatdığına görə əzizdir. Beyin təzələnir, durulur, dirilir. Yenidən doğulacağına ümidlənirsən.

***

Əvvəlki toyları unudun. Onlar tarixdə qaldı. Bir də olmayacaq. İfrat israfçılıqdan, gur musiqi sədaları altında şit hay-küydən, saxta, süni təbriklərdən hamı narazı idi. Dəyişdirməyi biz bacarmadıq, COVİD-19 bacardı.

İndi yığcam, yalnız yaxın dostlardan, qohumlardan ibarət sakit məclislərə üstünlük verməli, altşüurumuzdan harın, dəbdəbəli şənlikləri silməliyik.

***

Sözləri düzgün yaza bilməyən gənclərlə tez-tez rastlaşıram. Vurma cədvəlini bilməyənlər də çoxdur. Özlərinə haqq qazan-

dırıb deyirlər ki, kalkulyator olan yerdə vurma cədvəlini əzbərləməyə nə ehtiyac var? Qabaqlar bu təməl bilgiləri olmayanları savadsız adlandırırdılar. Dünən isə bir gənc gördüm, istiqaməti - sağı, solu bilmirdi. Bu, necə olur, axı?

***

Sosial şəbəkələrdə erməni dilində səhifələrimiz olmalıdır. Şuşada erməni dilində radio fəaliyyətə başlamalıdır. Azərbaycan dövlətinin işğaldan azad edilmiş ərazilərə, erməni vətəndaşlarımıza yönəlik siyasətinin təbliğatı aparılmalı, Bakıda yaşayan ermənilərin fəaliyyətindən, Qarabağdakı quruculuq işlərindən, ermənilərin Azərbaycan dövləti tərkibində yaşaması şərtlərindən dayanmadan bəhs olunmalıdır.

Erməni dilini bilən kadrları, Bakıda yaşayan ermənilər bu prosesdə iştiraka cəlb etmək lazımdır. Müharibənin ikinci, üçüncü fazalarından da qalib çıxmaq üçün daima tətikdə olmalı, ayaqda durmalıyıq.

***

Həyasızlıq adətən savadsız və mədəniyyətsiz adamlara xasdır.

Savadlı və mədəniyyətli abırsızlar isə nadir, amma qorxulu olurlar.

***

Bir müddətdən sonra qəzetləri ancaq muzeylərdə görə biləcəyik.

Vaxt varkən vərəqləyək...

***

Neqativ enerji adama elə kondisionerdən də keçə bilər...

***

Nankorluğun və naşükürlüyün cəzasını çox zaman bəndə yox, Tanrı verir. Təcrübə və tarix də belə deyir. Buna inansanız, daha rahat yaşayarsınız...

***

Suçlu suçlunun tərəfini tutar...

***

İki əks fikrin hər ikisinə "Tam doğru" yazanlardan çəkinin...

***

Cümlə yaza bilmir, sayt açır, özünü media rəhbəri elan edir.

Qabaq beləsi 10 il qəzetdə külüng vururdu; hələ peşə sirlərini, yazmağı öyrənib-öyrənməyəcəyi sual altındaydı.

İndi hoppanıb başa çıxır...

***

Görünməyən kimi unudulanlar çoxdur.

Bir də var, görünməsə də, yadda qalanlar.

***

Hərdən ağlamaq da lazımdır, vacibdir, xeyirlidir.

***

Dövlət qurumları öz fəaliyyətləri barədə xəbərlər, video-çarxlar hazırlayıb sosial şəbəkədə paylaşır, öz əməkdaşları da elliklə yığışıb bəyənirlər. Bu da olur yüksək reytinqli, kreativ piar...

***

Bütün yeni dublyaj olunmuş filmlərdəki əsas kişi obrazlarını eyni aktyor səsləndirir, deyəsən.

Elə bilirsən bir-birinin davamıdır.

***

Özünəgüvən hər şeyə təsir edir, hətta kəkələməyi də yoxa çıxarır.

***

Yer üzünün iki ən insani fəsli sıradan çıxır – yaz və payız. Qışdan birbaşa yaya, yaydan qışa keçirik. İqlim dəyişir, insan duyğularına qanad verən iki ecazkar fəsil yox olur.

İnsanlar da dəyişilir, iqlimə uyğunlaşır – isti və soyuq insanlar...

***

Sadə, sıravi ermənilərin bizimlə birgə yaşamaq istəməməsi uydurmadır. Əgər faşist hakimiyyətləri, qisascıl diasporaları

təzyiq etməsə, quzu kimi yaşayarlar Azərbaycan dövlətinin tabeçiliyində...

***

Xaos ictimai rəyi öldürür, idarəçilərə bəhanə verir. Onsuz da hər ağızdan bir hava gəlir, hərə istədiyini deyir. Min yol həqiqəti desən də, çevrilib baxan olmayacaq...

***

Həmrəng və həmxasiyyət barədə məsəl təsdiqini tez-tez tapır...

***

"Bu günün işini sabaha qoyma" dünənin şüarıydı. İndi "Sabahın işini bu gün gör" aktualdır.

***

Bir azdan oxuyan və baxan axtaracaqlar; hamı yazan və göstərən olacaq...

***

Keçmişdə də ölənlər olurdu. Amma onda feysbuk yox idi deyə, çoxundan xəbər tutmurduq.

***

Belə çıxır ki, feysbuk əhlinin əksəriyyətini istədikləri səmtə yönləndirə, istədikləri kimi idarə edə bilirlər.

Şantaj adiləşir...

Təşkilatçı yada düşmür, qınanmır, hüquqi məsuliyyətdən kənarda qalır.

Xaos isə insanları qəddarlaşdırır.

Qəzəb, kin-küdurət meydan sulayır...

***

Uğursuzluqlarının qisasını alanlar...

***

Gənc, perspektivli kadr, dünyanın bir sıra nüfuzlu ali məktəblərində təhsil almış, təcrübə keçmiş həkim, elmlər doktoru və

nəhayət, indiki həssas məqamda dövlətin böyük etimad göstərdiyi məmur. Tamah, pula hərislik, özünün və ətrafındakıların nəfsinin quluna çevrilmək, vəzifənin verdiyi səlahiyyətlərdən havalanmaq şakəri imkan vermədi ki, normal işləsin.

***

Bir həftə, bir ay, bir il sonrakı gündəmləriniz də hazırdır. Narahat olmayın, darıxmağa vaxt qalmayacaq...

***

Tapşırıqla, pulla insanları şərləyən adama nə deyirlər indi? Troll?

***

Abırlı, oturuşunu-duruşunu bilən adam... xeyli azalıb…

***

Evdar qadın düşüncəsi və həmrəyliyi feysbukda üstünlük qazanmaqdadır...

***

Belə çıxır ki, istedadsız kimsə yoxdur. Hamının istedadı aşıb-daşır.

***

– Xanım, siz həqiqətən jurnalistsiniz? Sualınızdan 37-ci ilin qoxusu gəlir...

***

Adam feysbuka şəkil qoymağa çəkinir. Baxanların beynində ilk reaksiya ölümlə bağlı olur...

***

Yağışın səsinə yuxudan oyanmaq...

***

Naşükürlük pis keyfiyyətdir. Ən çox da adamın özünə ziyan verir...

***

Boş və uzun danışmayın. Qısa və konkretlik dövrüdür indi...

***

Kitabını heç 1 manata da alan yoxdur, amma özün dahi sayır...

***

Makron fransızlara yeni qadağa qoyub: evdən 10 kilometr uzağa getmək olmaz.

10 kilometr radiuslu dairədə fırlan nə qədər istəyirsən: amma cızığından çıxma...

***

Təzə dostlar əvvəl-əvvəl bir az şirin olur. Sonra dadı qaçır...

***

Pandemiya çox şeyləri mənasızlaşdırdı: çox arzular puç oldu, çox planlar pozuldu, çox dəyərlər qiymətdən düşdü...

***

Əsas deyilən söz, çatdırılan fikirdir: bunun ayaq üstə, ya oturaqlı ifadə olunması elə bir əhəmiyyət daşımır. Ayaq üstə 1 saat boş-boş danışmaq da olar, oturan yerdə bir cümlə deyib, dinləyəni silkələmək də...

***

Təbiət ekranda daha gözəl görünür...

***

Telefonları sındırmaq, qırmaq zamanı da gələcək.

Məhvə sürükləyən, sonu yaxınlaşdıran texnologiyaların ən qorxulusu...

***

Sosial şəbəkə və televiziyalar depressiya mənbəyidir...

***

Məşhur Səlcuq Bayraqdar İTV-nin "Radius" verilişinə müsahibəsində uğur qazanmağın əsas şərti kimi özünə güvənməyin, görəcəyin işə, qarşına qoyduğun məqsədə hədsiz inamın zəruriliyini qeyd etdi. Onu da dedi ki, təkcə özünün özünə inanmağın azdır, ətrafının, yaxınlarının da sənə güvənməsi, dəstək

verməsi çox vacibdir: ağız büzüb, alınmayacaq desələr, nəticə olmayacaq.

Bax bu "ətrafın ağız büzməsi, inanmaması" şakəri bizim ən mənfi cəhətimizdir. Ətrafdakıların belə laqeyd münasibətindən indəyəcən nə qədər istedadın qanadı qırılıb, arzuları reallaşmayan neçə-neçə dühalar məhv olub.

***

Kayret İmanəliyevlə 2013-cü ildə Səudiyyə Ərəbistanında səfərdə olmuşuq. Məkkəyə getmişik, ümrə ziyarəti etmişik. Sonra 2014-də Bişkekdə bir də görüşdük.

Kayret yazıçı-dramaturqdur, jurnalistdir. Dədə Qorqud motivləri əsasında pyes yazıb, Bişkek teatrlarında səhnələşdirilib. Azərbaycan ədəbiyyatı, mədəniyyəti barədə məlumatlıdır. O vaxtlar qırğız televiziyasında çalışırdı. İki ay qabaq Qırğızıstanın Mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri təyin olunub. Türk Şurasının informasiya nazirlərinin toplantısıyla bağlı Bakıya gəlib.

Dünən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda görüşdük. Yeni təyinatı münasibətilə təbrik etdim. Çıxışımda Məkkə ziyarətimizi də yada saldım, orada Qarabağın azad olunması üçün dua etməyimi xatırladım. Bu dəfə birlikdə Şuşaya, Vaqif Poeziya Günlərinə getməyimizi arzuladım.

Səfər yoldaşımız, jurnalist İttifaq Mirzəbəyli iki gün qabaq Kayretin Bakıya gəlişini bilib Səudiyyə səfərimizdən şəkil paylaşıb və yazıb ki, Rəşad Məcid ona Qeyrət müəllim deyirdi. Düzü, burasını tam xatırlamıram, amma o səfərimiz yadımda çox xoş və işıqlı qalıb: xüsusən də "Ağanisənin duası" sayəsində proqramın dəyişilməsi və müqəddəs şəhərə getməyimiz.

Bu barədə neçə il qabaq bir qısa xatirə də yazmışdım. Bu görüş həmin hadisəni də yenidən yadıma saldı.

Ağanisənin duası

Səudiyyəyə getmişdik. Türkdilli respublikalardan və Tacikistandan jurnalist qrupuydu. Ağanisə Sultanova da bizim qrupdaydı. Köhnənin jurnalistidir. Nümayəndə heyətləri olan ölkələrdəki Səudiyyə səfirləri də oradaydı. İqtisadi forum keçiriləcəkdi, ona görə də əsasən sənaye müəssisələrinə səfərlər edirdik: Çörək zavodu, Süd zavodu, Neft emalı zavodu.

Ağanisə isə səfirlərdən əl çəkmirdi: "A Mekke, ne budet?"

Səfirlər bu sualdan yorulmuşdular, Ağanisəni görəndə qaçırdılar.

Bir səhər otelin önündə səfirləri narahat, ora-bura vurnuxan gördüm. Məlum oldu ki, nazirlər gəlmədiyinə görə İqtisadi forum təxirə düşüb. Bakıdakı Səudiyyə səfiri dedi: "Deyəsən, Ağanisənin Məkkə arzusu reallaşacaq! Bu gecə gedəcəyik".

Beləcə, bizə oteldə ziyarət libasları geyindirdilər. Gecə yarısı təyyarəyə mindik. Səhər saat 4-də Məkkədəydik. Ümrə ziyarətinə başlamışdıq. Ağanisə arzusuna çatmışdı. Məni isə ən çox heyrətləndirən Məkkənin - ziyarətgahın ətrafındakı göydələnlər idi. Kəbənin girişində Zəmzəm suyu içdik və səhər namazını da AzTV-nin operatoru, gənc səfər yoldaşım Vüqarla birgə orada qıldıq. Sonra müqəddəs məkana daxil olduq, ayinləri yerinə yetirdik, dua etdik.

Hər dəfə bu hadisəni xatırlayanda M.F.Axundovun "Dərviş Məstəli Şah"ı yadıma düşür, gülümsəyirəm - Ağanisənin Beynəlxalq İqtisadi Forumu təxirə salan dualarına gülümsəyirəm!..

***

Bu özünü "yeni media", "peşəkar jurnalist" adlandıran bəzi sayt əməkdaşlarına bir inşa, lap elə, bir imla yazdıran lazımdır ki, görək hələ cümlənin baş-ayağından, dilin qayda-qanunlarından düz-əməlli xəbərləri varmı? Hər fürsətdə özünü

gözə soxan, hər yerdə başa keçməyə çalışan bu yeni özündənrazıların bir çoxu keçmiş reket qəzetlərdən "yeni mediaya" transfer olunublar.

İşğaldan azad olunmuş bölgələrə canfəşanlıqla səfər edən belə "jurnalistlərin" bu barədə hansısa normal bir yazısını, təəssüratını kimsə xatırlayırmı? Hələ bir durub da redaktorlara rişxənd edirlər. Halbuki təkcə Ağdam səfərindən media rəhbərləri nə qədər səviyyəli yazılar yazdı. Belə yazılardan birini də iddiası yerə-göyə sığmayan o "jurnalistlər" yazıb ortaya çıxaraydılar də. Yoxsa boşuna hay-küy salmaqla, stəkanda fırtına yaratmaqla, İP yığmaq xatirinə eşitdiyin hər xəbəri dürüstlüyünü dəqiqləşdirmədən, ala-çiy, başayaq cümlələrlə qoparaq sayta yerləşdirməklə deyil ki.

Ara qarışıb, məzhəb itəndə, xaos yarananda həqiqi dəyərlər də yoxa çıxır.

Amma gedişatını nə qədər ləngitməyə, yolunu dəyişməyə çalışsalar da, Zaman elə Zamandır: yağı yağ, ayranı ayran edən hökmünü bir gün mütləq verir!..

***

Sadə, adi, sıradan adam olmağın xoşbəxtliyi...

***

Bayılda iydə ağacı əkdik. Gün o gün olsun, Qarabağda da əkək.

Yazınız mübarək!..

***

Hava proqnozunu da reklamla oxutdururlar. Azərbaycan mediasının pulu ən çox Markın cibinə axır, deyəsən...

***

Canlı yayıma çıxmaq da, Yutub kanalları da çoxalıb, bəsitləşib axırda dəbdən düşəcək.

***

COVİD-19 da adiləşdi. Həkimlər ona qarşı resepti qripə, soyuqdəyməyə qarşı resept yazırmış kimi yazırlar.

***

Deyir, koronanı siqaretlə qovdum, ha əlləşdi, yaxın gələ bilmədi.

***

Çox adamlar öz uğursuzluqlarının, istedadsızlıqlarının qisasını alırlar...

***

İlk dəfə gördüklərin sənin üçün təzədir, görənlər üçün çoxdan adiləşib...

***

Əvvəl xəbəri, yazını oxumaq üçün pul ödəyərdilər, indi oxutdurmaq üçün reklam edirlər:

"Bir abbası verim, bu yazını oxuyun, bu videoya baxın!.."

***

Cümlə qurmağı, imla yazmağı bacarmayan "jurnalistlər" zəmanəsi...

***

Sevgili və televiziya oxşardır: ikisi də göstərir, danışır, oxuyur, susur... və sair və ilaxır...

***

Sevgilinin cinsi olmur – o, ayrıca, xüsusi insan növüdür...

Bəlkə də, quş, ya balıqdır...

***

İnsanlar xəbərdən, informasiyadan, məlumatdan yorulublar. Çox bilmək güc mənbəyindən iztirab və əzab qaynağına çevrilməkdədir...

***

Xərifləmək də bir ayrı dərddir...

***

Heç nəyə tələsməsəniz, hər şeyə çatacaqsınız...

***

İnsanlar bir-birinə qarşı qəzəbli, kinli olublar. Müəllimin tələbəyə, tələbənin müəllimə kini isə ən yolverilməzidir...

***

Biri var utancaq yalan, biri də var pafoslu yalan...

***

Qadına və içkiyə maraq bitəndə ömür başlayır. Ya da tərsinə...

***

Hərənin öz həqiqəti varsa, əsl həqiqət çətin bilinə...

***

Dərinə gedəndə əmin olursan ki, məntiqsiz heç nə yoxdur. Hər hadisənin izahı var.

***

Hərə bir şeydən coşur; biri pul qoxusundan, biri vəzifədən, karyera arzusundan, biri pislik etməkdən, hiylə, kələkdən...

Az da olsa, xeyirxahlıq, yaxşılıq etməkdən də zövq alanlar, coşanlar var.

***

Pandemiyadan qabaqkı dövr lap eradan əvvəl qədər uzaq görünür. Adama elə gəlir ki, bir il yox, iki min ildir bu küçələrdə olmayıb...

***

Qadının göz ağartmasını kişiyə şiddət saymaq olar, ya yox?

Kişilər var ki, bircə belə baxışdan infarkt keçirir...

***

Ən böyük xoşbəxtlik ruhun dincliyidir.

***

Qeybətlə media qarışıq düşüb. Çayxana söhbətləri, küçə jarqonları, bazar qeybətləri medianı küncə qısnamaqdadır...

***

Mədəniyyət və tərbiyə kökdən, gendən gəlməlidir, uşaqlıqdan aşılanmalıdır. Yarımçıq olanda haçansa özünü büruzə verir.

***

Deyir, Novruz bayramınadək Qarabağda bənövşələrin qoxusu olmur...

***

Bədii əsəri hiss etmək, anlamaq həm də ovqatdan asılıdır. Dəfələrlə oxusan da, hər sözü, cümləni, misranı başa düşsən də, əsərdəki işığı həmişə tuta, sehri, müəmmanı, sirri açа bilmirsən. Əsərin sehrinə düşürsən, amma bu sehrin səbəbini izah etməkdə çətinlik çəkirsən. Beynində ilişib qalan süjet birdən ovqatının hansı məqamındasa aydınlanır, sehirli qaranlıq işıqlanır və sən əsəri canlı varlıq kimi, dipdiri hərəkət etdiyini görürsən və o müəmma, o sirr qəfildən sənə agah olur.

***

Uşaqlıqda yaşadığın evin, oxuduğun məktəbin, gəzdiyin küçələrin, oynadığın bağların... xarabalıqları arasında gəzməyin gətirəcəyi ağrını təsəvvür edəndə qıvrılıram. Ona görə də, can atmıram Ağdamı bu halda görməyə... Mən o yerlərdə jurnalist kimi, turist kimi soyuqqanlı, biganə, etinasız halda necə gəzə bilərəm, axı?

***

Qışqıra-qışqıra danışan aparıcıların səmimiyyətinə və dediklərinin doğruluğuna şübhə yaranır.

***

Zəfərimizi, Qələbəmizi tam dərk edə bilməyənlər də var.

Görünür, bəzilərinin baş verənləri həzm etməsi üçün zaman lazımdır. Amma fərd kimi də, millət kimi də arxayınlaşmaq, dayanmaq, nəfəs dərmək olmaz. Daima ayıq-sayıq, daima hərəkətdə olmalıyıq. Bu, bizə taleyin qisməti və diktəsidir. Mübarizəmiz əbədidir.

***

Televiziyalar üçün yeni simalar çox vacibdir. Amma elə sifətlər var ki, onların simaya çevrilməsi çətin məsələdir, havayı əziyyətdir.

***

Deyir, sabah Şuşaya getməli olduğumdan verilişi bu gecə çəkəcəyik.

Səbəbin gözəlliyinə bax, sən Allah!..

***

Biz qar gözləyirdik, yağış yağdı. Həmişə belə olur; arzular, xəyallar tam gerçəkləşmir, yarımçıq qalır...

***

Sosial şəbəkələrdən uzaq olanlara həsəd aparıram.

Yanlarında "cənnətin" (ya cəhənnəmin?) olmasından xəbərsiz – beyinləri dinc, əsəbləri sakit, qəlbləri rahat – insan kimi yaşayırlar...

Alışqanlığın ən carəsizi, kütləvi psixozun ən münbit mənbəyidir sosial şəbəkələr.

***

Deyir, məni Cennifer Lopeslə dost eləyən sosial şəbəkələrə qurban olum. Yoxsa mən hara, Lopes hara?..

***

Yazdığı statusu bir neçə dəfə oxuyursan, görürsən ki, bu adam fikrini yazıb çatdıra, ifadə edə bilmir. Amma özünə yazıçı deyir, kitablar müəllifidir.

Roman da status deyil ki, 2-3 dəfə oxuyasan...

***

Yazmaq həqiqətən xilasdır. Pis işlər görməkdənsə, yazmaq yaxşıdır. Amma bəzi yazılar pis işlərin ən pisidir...

***

Deyir, "insan" "üns", "ünsiyyət" sözlərindəndir. Ünsiyyətsiz insan öz mənasını itirir...

2020

Qəzet köşklərində bir nəfər satıcı olur. Tək-tük alıcılarla da məsafə gözlənilir. Sərt karantin qaydalarının köşklərə də şamil edilməsi onsuz da sıradan çıxmaqda olan, son illərini yaşayan qəzet sənayesini tam çökdürəcək. KİV-in fəaliyyətinə icazə verilirsə, köşklərin də işləməsi məntiqli olardı. Yoxsa qəzet çap etməyin mənası qalmır.

***

Zəvzəmək – bir mövzuda eyni tonla, şablon, uzun-uzadı, təkrar danışığa deyirlər.

Elə deyil?

***

İndi jurnalistika yaradıcılıqdan çox, texnologiyadır. Yaradıcı texnologiya lap sanballı səslənir.

***

Bir yaxın adam var, elə ki axşam saat 8-dən sonra zəng vurur, bilirəm keflidir. Bayaq da zəng vurmuşdu, deyirdi ki, mənə bir kağızdan-zaddan ver, İsmayıllıya, İvanovkaya getmək istəyirəm. Hiss etdim təxminən nə qədər içdiyini. Hələ Laçına, Şuşaya getmək də istəyə bilərdi.

Vodkanın yaratdığı arzulardan ötrü darıxdım...

***

Hərənin bir qəhrəmanı var.

***

Mızıldayanlar koronaya tez tutulurlar...

***

Sabah “525”in 5555-ci sayı işıq üzü görür.

***

Evə qapanmaq özünə qapanmağa aparır...

***

Başına ip salmasalar, söz elə adi sözdür.

***

Müharibə çoxlarının kin-küdurətini yoxa çıxartmış, hamını dəmir yumruq kimi birləşdirmiş, mehriban, mərhəmətli, həssas etmişdi.

Kin püskürən ocaqlar yenidən közərməkdədir...

***

Korona sonda deyəcək ki, mən humanist idim, uşaqlara toxunmurdum...

***

Bədnöyüs "politoloqlar"...

Siz tərəflərdə işlənir "bədnöyüs" sözü?

***

Maskaları müharibə yudu, sülh qurutdu...

***

Ağlı başında olduğunu hesab etdiyin adamlar da axına qoşulub küyə gedəndə məyusluq yaranır...

***

Abdal-Gülablı da həm tarixinə, həm təbiətinə, həm də insanlarına görə əvəzsiz yerdir.

Ağdamın kiçik, yaxın Şuşası!

Bir ay öncə 20 noyabracan soldan – Qarakənd tərəfdən azad olunacağını düşünürdük, indi sağdan - Ağdamdan girdi Ordumuz!

Gözünüz aydın, Abdal-Gülablılar!

***

"Bir dəli bir quyuya bir daş atdı, yüz ağıllı yığışıb çıxara bilmədi".

Müasir variantda:

"Bir trol statusunda bir feyk paylaşdı, yüz profil onun yalanının boynuna qoya bilmədi".

***

İpək deyir, atamın doğulduğu yeri – Ağdamı almışıq...

***

Yağış müharibənin bitməsini gözləyirmiş...

***

Keçən il universitetlərdən birində savadlı bir tələbə semestr imtahanında zəif oxuyan dostunun xahişilə onun əvəzinə girib imtahan verib, yüksək qiymət alıb. Məsələnin üstü açılanda tələbələrin ikisini də universitetdən qovublar.

Dedim, o savadlını niyə qovmusunuz? Əslində, ona şərait yaratmaq lazım idi.

***

Qələbə insanlarımızda özünəgüvəni artırıb. Hamının gizlin istedadını üzə çıxarıb. Deməyə söz çoxdur deyə danışanlar coşub, ağızlardan alov yağır. Tanrı bu ovqatımızı, bu ruhumuzu qorusun!..

***

Ağoğlan çayını şırıltısından tanıdım. Müdafiə Nazirliyinin Laçının azad olunmuş Qarıqışlaq kəndindən yaydığı süjetdən gələn səs diksindirdi. Sonra tanış dərə, doğma çay və su, su, su... şırıltısı...

***

Ali Baş Komandanın hər tviti düşmən tərəfində dərin məyusluq, pərən-pərənlik və məğlubiyyətin qaçılmazlığı hissi yaradır.

***

Şuşanı görməyən, Şuşada olmayan gənc nəslin bu müqəddəs şəhərimizə dəlicəsinə sevgisi adamı qürurlandırır və qəhərləndirir.

Neçə illərdən bəri düşmənin arzusu da Şuşanı unutdurmaq idi. Düzü, bizim də içimizdə bir nigarançılıq, bir səksəkə vardı - birdən yeni nəsil Şuşaya laqeyd olar, biganə yanaşar deyə.

İndi gənclərimizdə Şuşaya qarşı bu möhtəşəm, ilahi sevgini müşahidə edəndə adamın ürəyi atlanır, içi titrəyir.

***

Tez yatmışdım. Saat 6-da azan səsinə oyandım. Sonra eyvandan xalqın coşğusunu gördüm; bir-birinə qarışan sevinc sədaları... Və Qələbə müjdəsi!

***

Sənin "Yolumuz Şuşayadır" deyən dilinə qurban, ƏSGƏR!

***

Yuxu kimi, nağıl kimi günlər...

***

Mərhəməti də gərək layiq olana, qanana göstərəsən...
Qanmayana nə mərhəmət...

***

Şuşa soraqlı bu intizarlı günlərdə Hikmət Sabiroğlunun səsini eşitmək istədim. Zəng elədim, Şuşadan, Ordumuzdan danışdıq, həyəcanımızı bölüşdük.

Hikmət dipdiri ruhuyla, şax boy-buxunu, ağayana duruşuyla, şirin danışığı, yapışıqlı ləhcəsi, duzlu söhbətləriylə Şuşadır ki, dayanıb durub. Dəyişməyib, ilk dəfə necə görmüşəmsə, eləcə də qalıb.

Adamlar var, 30 il keçsə də, hələ də doğulduğu yerin havasını gəzdirir, koloritini yaşadır. Belə adamlar ağdamlılar arasında lap çoxdur, elə kəlbəcərlilərdə də, laçınlılarda da...

Şuşalılar da o dəqiqə seçilirlər. Hətta əlacsızlıqdan taksi sürücüsü işləyəni də dəyişməyib, həminkidir. Maşınına oturan kimi şirin ləhcəsindən, bal kimi danışığından Cıdır düzünün küləyi vurur adamı...

28 ildə Hikmət mənimçün canlı Şuşalardan biri olub həmişə. Hər görüşümüzdə Hikmətin çöhrəsinə baxıb Şuşanı xatırlamışam, hər zəngləşəndə, səsini eşidəndə gözümün önünə Şuşa gəlib.

Hikmət Sabiroğlu!
Şuşa-Hikmət!
"Şuşada görüşmək arzusuyla..."
İlk dəfədir, bu sözlər şablon, quru görünmür...

***

İlahi ədalətin varlığına əsla şübhə etməyin!..

***

Balaca uşaqların dəstə-dəstə xorla "Qarabağ bizimdir, bizim olacaq!" çağırışları ruhu qanadlandırır.

***

Telefonu kənara qoymaq olmur; birdən xoş xəbər gələr, gec eşidərəm.

***

O taydan qaçan ermənilər fitləyib, gələn Azərbaycan əsgərlərini "Yaşasın Azərbaycan" deyə alqışlayan həmvətənlərimizin coşqusunu görmək adamı qürurlandırır və kövrəldir.

***

Bəzi adamlar elə bilirlər, müharibə kompüter oyunudur: "Bizim kənd nooldu?", "Şuşanı almadıq?", "Tvit gözləyirik" və daha nələr.

Ordumuzun rəşadəti, Şəhidlərmizin qanı, Ali Baş Komandanın qətiyyəti hesabına, bir çox kənar təzyiqlərə rəğmən, torpaqlarımız işğaldan azad olunur!

30 il dözmüşük, 3 ay dözə bilmirik!..

***

Turşsu Şuşa-Laçın yolunun tən ortasında, hər birindən təxminən 20 kilometrlik məsafədədir. "Google" xəritəsində Lısaqor (Keçəldağ) aşırımı kimi də qeyd olunur.

Dərədə möcüzəli, şəfalı Turşsu bulağı var. Yayın ilk aylarından Qarabağ camaatı Turşsu yaylağına köçər, çadırlar qurub yaşayardılar. Bulaqdan yuxarıdakı qoşa, qocaman palıdlar, yəqin, oranı görənlərdən çoxunun xatirindədir.

Turşsudan Laçına tərəf olan Qaladərəsi kəndində jurnalist Salatın Əsgərova 1991-ci ildə düşmən gülləsinə tuş gəlmişdi. Kadrları xatırlayırsızsa, Çingiz Mustafayev 1992-ci ildə Şuşadan çıxan qoşunlarımızın qarşısını Turşsuda kəsmişdi. Onun "geri dönün" yalvarışları hələ də qulaqlarımızdadır.

Ordumuz Cəbrayıl-Qubadlı istiqamətində bir aşırımı da geridə qoyandan sonra Turşsu - Laçın koridorunun ürəyi ovcumuzda olacaq. Ordan o yana isə Vətən müharibəmizin, haqlı savaşımızın sonuna bir addım qalacaq.

3 ağac sağa Şuşa, 3 ağac sola Laçın! Və düşmənin kapitulyasiyası!

***

Hər kəs öz hisslərini öz ağlı və istedadı səviyyəsində ifadə edir.

***

Gizlinə çəkilərək təklikdə hönkürüb ağlamaq...

***

İnsanlar belə yaşamağa öyrəşdilər. Karantin bitəndən, icazə veriləndən sonra da toy və yas mərasimləri yığcam, hay-küy və dəbdəbəsiz keçirilməlidir.

Mentalitetdəki bir çox qüsurları karantin tənzimləyəcək.

***

Övladına süd verməyən analar zəmanəsi...

***

İnsan xisləti nağıllara meyllidir.

***

Qonaq dəvət edib, sonra da özləri danışırlar...

***

Qəzet köşkündə satıcı deyir ki, iki dənə "525" gəlmişdi, ikisini də aldılar.

Əminəm, alıcılar təkcə müəlliflər, yazısı çıxanlar deyil...

***

Nankorluq gec, ya tez cəzalandırılır...

***

Güc rəğbət doğurur, tərəddüddə olanları da hesablaşmağa məcbur edir.

Gücümüz azalmasın!..

***

Sabah yaxşı olacaq!

Zaman-zaman insanları yaşadan, təskinlik verən, nikbin ovqat yaradan həm də bu ümid olub. Pandemiya bu sısqa işığa da kölgə saldı. Sabahın daha pis olacağının məyusluğunu aşıladı insanlara. İndi bədbinliyin və məyusluğun şahə qalxdığı, cövlan etdiyi zamandır.

***

Camaat hirsini tökməyə yer axtarır...

***

Nə qədər gözəl, insani keyfiyyətlər sıradan çıxır...

***

Hər sərsəm fikrə reaksiya verməyə borclu deyilsiniz...

***

İndi televiziyalarımızda maraqlı, səviyyəli, maarifçi verilişlər çoxdur. Mövzuların müxtəlifliyi və genişliyi də öz yerində...

Bəzi məqamlarda sosial şəbəkələrə uduzsa da, elektron medianın yenidən revanş götürəcəyi açıq sezilir...

***

Elə adamlar var sadəcə, dərdlərinin dinlənilməsini istəyirlər, başqa umacaqları yoxdur.

***

Təhkiyəsindən nə istədiyi aydın görünür...

***

Xorla işim yoxdur...

***

Həyat hind kinosu deyil...

***

Salam verdim, gözləri telefonlardaydı deyə almadılar...

***

Hər kəs, hər qurum özünü tərifləyir; ətrafa baxmır, başqasını görmür...

***

Normal, ağlı başında bildiyin adamların də ilməsi qaçır...

***

Uşaq oyuncaqlarının evin ortasında dağınıq səpələnməsinin xoşbəxtliyi...

***

Nə qədər xatırlamadığımız toylarda olmuşuq?!.

***

İstedadlılara həmişə bacardığım köməyi etməyə çalışmışam. Qismən də abırlı ortabablara.

Amma mənim istedadı olmayandan "dahi düzəltmək" qabiliyyətim yoxdur. Boşuna gileylənməyin...

***

Şərait sözlərin də anlamını dəyişdirir.

"Həmişə evində-eşiyində" alqış-duası karantin səbəbindən tam tərs mənada qəbul olunur; həm də bir az qarğış kimi səslənir...

***

Adamın ruh halı, ovqatı, xarakteri onun Feysbuk paylaşmasından və şərhlərindən bilinir. Hansı hadisəyə necə reaksiya verməsindən (həmçinin, isterikasından) isə psixi vəziyyətini (diaqnozunu) təyin etmək mümkündür.

Bir azdan, çip reallaşandan sonra lap asan olacaq; hissləri, emosiyaları çidarlamaq, məsləhətli səmtə yönəltmək süni intellektin əlində adi bir prosesə çevriləcək. Ona görə də, zamanınız varkən, hisslərinizin qədrini bilin...

***

Sevirəm də "baş üstə" deyənləri...

***

İpək deyir, böyüyəcəm, pilləkəni qoyub dama çıxacam, ordan uçacam göyə, ulduzların hamısını yığıb gətirəcəm...

***

Əgər statusunu cəmi 15 adam bəyənibsə, dönüb özünə, yazdığına və düşüncənə baxmalısan – bəlkə, səhv səndədir?

***

Çürümüş südün ayranı və şoru – orqanizmdəki toksinlərin əlacıdır.

Hər çürüntü tullantı deyil...

***

Bir-bir qazanılan dostlar daha etibarlı olur. Topdan gələnlər topdan da yoxa çıxır.

***

Özünü Dənizkənarı Bulvarı ilk dəfə görən kənd adamı kimi hiss etmək...

***

Elə yalan var ki, hamıya sərf edir...

***

Feysbukun sayəsində hamı yazmaq imkanı qazanıb. Yaxşıdır. Amma çalışın səhvsiz yazmağı da öyrənəsiniz.

***

O sözləri ki dünən deyə bilmirdiniz, bu gün deməyin mənası yoxdur. Daldan atılan daş kimi...

***

Sərt həqiqətləri iti yumorla, kəskin sarkazmla demək ayıq başın işi deyil...

***

Ən xoş məqamda da bir-iki ürəkbulandıran məxluq tapılır...

***

Bu boyda dünyanı kiçildib-kiçildib bir telefonun içinə yığdılar...

***

Ziyalı neyləməlidir ki? Ziyalının işi sözdür, onu da deyir. Eşidənlər eşitməyənlərə də çatdırmalıdır.

Bir də ki, Feysbuk indi hamını "ziyalı" – "alimi-dana" eləyib…

***

Sürətli dəyişikliklər, fasiləsiz xəbərlər dövründə yaşayırıq. Bayaq təzə olan indi köhnədir.

***

Bütün sualların cavabı keçmişdə var...

***

Emosionallıq, çılğınlıq, düşmənə qəzəb, nifrət, qisas hissi vacibdir, lazımdır. Amma bu enerjini boşuna xərcləmək olmaz. Bu enerjini ağılla, soyuqanlılıqla torpaqlarımızın azad edilməsinə yönəltməliyik. Yoxsa yenə tarix təkrar olunacaq.

***

Çox "kitab-kitab" deməyin. Bütün kitablar oxumaq üçün deyil...

***

Qarğış əlacsızlıqdan cana yığılmaq, psixikanın pozulması, ədalətin ilahi güc vasitəsilə bərpasına ümiddir.

***

Kişi beyninin ən qəddar düşməni qadın dırdırıdır!..

***

Ölkə təkcə kin püskürən insanlardan ibarət deyil. Sadəcə, belələrinin səsi bərk çıxır...

***

Siz hələ sözləri düz yazmağı öyrənin, "ağıllı" təkliflərinizi sonra verərsiniz.

***

Elə müəlliflər var ki, yazısını oxuyanda səsini də eşidirsən. Cümlələr müəllifin danışığını, diksiyasını canlandırır – hansı

tonla, hansı ritmlə danışırsa, təhkiyəsi də eynən onu əks etdirir.

Bəzən də görürsən, danışıqla yazı tərzi tam tərsinədir – incə danışan adamın yazısı kobud, kobud danışanınkı incədir.

***

Hamının "bir vaxtları" olub...

***

Adamlar elə məlum məsələlərə təəccüblənirlər ki, mat qalırsan...

***

Hərə öz hissini düşüncəsinə uyğun izhar edir. Ən qorxulu adamlar hissdən tam məhrum olanlardır...

***

Üzr istəmək ən düzgün çıxış yoludur. Nala-mıxa vurmaqdansa, cəsarət tapıb "bağışlayın" demək böyüklükdür. Yersiz qürur hərdən belə jestlərə mane olur. Amma fitrətən mərhəmətli və ürəyiyumşaq insanlarıq.

***

Mənasız, üzücü qonaqlıqlar, israfçıl toylar, dəbdəbəli yas mərasimləri, harın eyş-işrət məclisləri, candərdi-quşqoyma tədbirlər, gözə-yaddaşa yox, telefona köçən səyahətlər sıradan çıxır. Ailəvi ünsiyyət, vaxtı səmərəli xərcləmək ehtiyacı artır.

***

Yuxu arının yüz çiçəyə qonması kimi bir şeydir...

***

Son 30 ildə Dünya, az qala, bir əsrə sığacaq sürətli inkişaf yolu keçdi. Bu templə, bəlkə də, növbəti 30 ildən sonra Dünyanın necə, harada olacağını də təxmin etmək mümkün idi. Və 2050-dəki Dünyanın yaşamalı olub-olmayacağı sual altındaydı.

Yəqin elə ona görə də Dünyanın gedişatını dayandırdılar. Uzaq səfərlərdə belə fasilələr təbiidir. Adətən adi yolçular yolun, səfərin, gedilən məkanın, son ünvanın təhlükəli olub-olmadığını

bilmirlər. Potensial təhlükəni çiynində məsuliyyət hiss edənlər, özlərini cavabdeh sayanlar bilir, görür... Yəqin, özünü Dünyanın gələcəyinə məsul sayanlar da belədirlər; bəlkə təhlükəni sovuşdurmağa, Dünyanı xilas etməyə çalşırlar?!

Bizə sadəcə müşahidə etmək qalır...

***

Ekstremal şəraitdə kütləni instiktlər idarə edir, ağıl və məsuliyyət arxa plana keçir. Qərar qəbul edənlər və idarəedicilər bunu nəzərə almalıdırlar.

***

...Hamı hərdən keçmişə dönmək istəyir. Amma dəyib qayıtmaq... Keçmişdə qalmağı heç kim istəmir.

***

İpək "dana" ifadəsini işlədir: "Gəl danaa, gedək danaa..."

Araşdırdım ki, görüm kimdən öyrənib. Tapa bilmədim. Sonra məlum oldu ki, elə mənim dilimdən götürüb...

***

Həyəcanlanmayın! Sizin səmimi həyəcanınızın enerjisindən naqis adamlar bəhrələnirlər.

***

Adam gərək tez özündən çıxmasın - hirsini, qəzəbini, lap elə kinini tez büruzə verməsin.

***

Gözü doymamaq, pula hərislik...

Bəlkə, bunların dərin sosial və mental kökləri də var?!

Tarix boyu bizim insanlarda formalaşan bu təşnəlik bəlkə, sabahından arxayın olmamaqdan, özünün, ailənin gələcəyindən nigarançılıqdan yaranıb?]

Əlinə düşəni qır-qızıla verib yığmaq, pis gün üçün saxlamaq...

Bəlkə, pis gün bu xalqın başının üstündən heç vaxt əskik olmadığına görə belə naqis keyfiyyətləri tərgidə bilməyib?

Kim bilir, bəlkə də, pandemiyanın bəşərə təlqin etmək istədiyi elə budur: Sadə yaşayın. Adi həyat sürün. Sabah gözəldir, həm də fanidir.

"Bəlkə"lər, ehtimallar çoxdur, amma düşünməyə və müzakirə etməyə dəyən mövzudur.

***

Hərə öz uğursuzluğunun bir səbəbkarını "tapıb" qəzəbini ona yönəldir. Yoxsa ürəkləri soyumur...

***

Tənqid etmək asandır; gözünü yum-aç, hər şeyi qarala getsin.

Müdafiə etməyə istedad, bilik, inandırmaq bacarığı və bir çox başqa keyfiyyətlər lazımdır.

***

Bakı küləyində böyüyüb boy ata bilən ağaclar da qəhrəmandır.

***

Bir az vicdanlı adam yalan danışmağa məcbur olanda səsi titrəyir, hıqqınır, qızarır, mətləbdən yayınır, nala-mıxa vurur.

Vicdansız isə yalanı deyəndə gur-gur guruldayır.

***

"Bəşəriyyət" sözündəki ağırlıq və sanbal çəkisini heç vaxt bu qədər itirməmişdi. İndi bu sözdən acizlik və cılızlıq yağır.

***

Biri bayaqdan TV-də pandemiyaya pantomima deyir...

***

Çox təşəbbüskar olmaq da bir şey deyil...

***

Şuşanı yuxuda gördüm...

32 il əvvəl qaldığımız evin səliqəli həyətindəydim. Güllərin, ləklərin yanıyla, daş pillələrlə darvazaya tərəf getdim. Həyətin balaca qapısını açıb daş döşənmiş küçəyə çıxdım. Sağa dönsəm,

Gövhər Ağa Məscidinin yanından Bazarbaşı Meydanına, oradan da Güllü bağa gedə bilərdim. Sol tərəf Vaqifin məqbərəsinə, Cıdır düzünə aparırdı.

Düşündüm, hansı səmtə gedim?! Səhərin bu çağı ikisi də əvəzsiz olur.

Sonrası yadımda qalmadı, həyəcan içində ayıldım...

***

Dərin yaz yuxusundan ayılanda adam bir müddət zaman və məkan hissini unudur.

***

Bütün böyük əsərləri bir cümlədə demək olur.

Siz əvvəl o bir cümləni yazın, sonra böyür-başını bəzəyin!..

***

Dəlicəsinə arzulamasaq, Şuşanı görə bilməyəcəyik. Bizim mövsümi Şuşa istəyimiz isə nə Dünya Birliyinin, nə Markın, nə Feysbukun vecinə olacaq.

***

Balaca cəmiyyətdə - Feysbukda kin-küdurət cövlan edir...

***

İctimai rəyin, xalq sevgisinin ipinin üstünə odun yığmaq olmaz.

***

Bu sual verən jurnalistlər çıxış edənləri dinləmirlər?!

Adam "nə var, nə yox"un, "nələr olur"un bütün cavablarını verəndən sonra jurnalist qayıdıb soruşur ki:

- Başqa nə var, nə yox?!..

***

Biri yazıb ki, koronavirusun qənimi "Şipr" odekolonudur. Əllərinizi "Şipr"ləyin! :)

***

Bir də var pəncərə çərçivəsinin arasına qoyulan kitablar...

***

Qəzetlə saytın bir fərqi də odur ki, saytda səhvləri düzəldə bilirsən. Qəzetdə isə "yazılana pozu yoxdur".

Sayt işlətmək asan və rahatdır.

***

Həqiqəti bilməyəndə susmaq yaxşıdır – bilib səhv deməkdən də yaxşıdır...

***

Jurnalistlər özlərini prokuror kimi aparmamalıdır.

Çək, yaz, göstər! Üstə qışqırmaq sənin işin deyil.

***

Yalanı ürəkdən, şövqlə, pafosla və inanaraq danışmaq xüsusi istedaddır.

***

Karantin dövründə doğulduğun kəndi yuxuda görmək nə deməkdir? Bir də çoxdan görmədiyin adamı...

***

Öyrəşəcəksiniz! Görəcəksiniz ki, belə dünya da pis deyil.

***

Bomboş küçədə bir nəfər əl-qolunu ölçə-ölçə, öz-özünə danışa-danışa gedirdi...

***

Professordan professora fərq var...

***

Son günlərin ağır depressiyası, psixoloji gərginliyi təkcə karantin rejiminin sıxıntısı, koronavirus təhlükəsi, qorxunc xəstəliyə tutulmaq ehtimalının yaratdığı xofla bağlı deyil. Əsas depressiya insanın özünü aciz hiss etməsindən qaynaqlanır.

Bu vaxtacan bəşər övladında belə bir əminlik vardı ki, insan zəkası, onun ortaya çıxardığı texnologiyalar hər şeyə qadir-

dir. İndi isə mücərrəd, çox amansız hesab olunan bir virus bu əminliyə qatı kölgə saldı; insanın əslində, aciz məxluq olduğu, hər şeyə rəğmən öz ilkin zəifliyindən çox da uzaqlaşmadığı qənaəti yaratdı. Bu barədə əvvəldən də olan düşüncələrin həqiqilik payı xeyli çoxaldı. İndiki ağır depressiv ovqatın əsas mənbəyi, özəyi də elə budur.

***

Təbiətin gözəllikləri insansız öz mənasını itirir...

***

Dünya çox şişmişdi. Havası biraz alınmalıydı...

***

Dünya nəfəsini dərir. Bir az toxtasın, yenə başlayacaq fırlanmağa...

***

Onsuz da Mark ünsiyyəti virtuallaşdırmışdı, bir az da korona artırdı. Amma...

İNSANIN İNSANA HƏMİŞƏ EHTİYACI VAR…

***

Hər yaşın öz həqiqətləri var…

***

Baxıram gənclərin paylaşdığı filmlərin siyahısına - əksəri qaramat, qorxu, xof, vahimə yaradan filmlərdir...

Dünyanı bugünə həm də o filmlər qoydu. Arzuladıqlarınız başımıza gəldi.

Nikbin olun! İşıq axtarın!

Sonu yaxşılıqla bitən filmlərə baxın!

***

Dünya qoca-filan deyil, balaca uşaqdır, hələ əl-üzünü yumağı təzə-təzə öyrənir…

***

Müharibə daha asandır – güllənin hardan açılacağını, zərbənin hansı tərəfdən gələcəyini təxmin edə bilirsən...

***

Qocalar yox, qoca genlər, qoca millətlər təhlükədədir…

***

Hər kəsin taleyi öz əməlidir…

***

Məsuliyyətsizlik, laqeydlik tək sənə yox, başqalarına da ziyan vurur…

***

Ən sirli bayram, ən sehirli gün yaşı 40-ı keçmiş qadınların qəfil gəncləşməsi, gözəlləşməsidir.

***

Yeniliklər sürətlə köhnəlir.

***

Sovet vaxtı üstün, elitar gələcək arzulayan gənclərin istəyi kinorejissor olmaq idi.

***

Taksi sürücüləri piyada gəzənlərə birtəhər baxır.

***

İçməyən kişiyə sirr verməərəm.
Fransız filosof deyib.

***

17-ci mərtəbədə hinduşka qaqqıltısı eşidilirsə, deməli, kənd hələ də öz hökmünü saxlayır.

***

Bəzən adama elə gəlir ki, keçmiş durub yerində. Haçansa qayıdıb səhvlərini düzəldə bilərsən...

***

Sovet vaxtı biz imperiyanın tərkibindəydik?! Amma o vaxt yeganə televiziyamızda kiminsə Azərbaycan dilində etdiyi çıxışda bir dənə də rus dilində söz işlənməsinə icazə verilməzdi.

***

Ən rahatı elə uzaqdan əl yelləməkdir...

***

Yaş əllini keçəndən sonra həyat yoldaşının ad günü bayrama çevrilir…

***

Aydın fikri, konkret mövqeyi olmayanda, yaxud niyyətini pərdələməyə çalışanda adam qəliz, anlaşılmaz, terminlərlə danışmağa başlayır.

***

Bir məsələnin mahiyyəti barədə dərin düşüncələrə dalıb baş sındıranda, məlum olur ki, əslində, ağıla gəlməyən, çox sadə, primitiv səbəbi varmış...

***

TV-yə verilişə çağırıblar. Qapıda soruşurlar:

– Musiqiçisiz, əmi?!

Deyirəm, təəssüf ki, yox. Bəxtim gətirməyib…

***

İmkanlı namizədlər kasıb alternativlərinə maliyyə dəstəyi göstərməlidirlər ki, onlar da normal təbliğat apara bilsinlər. Yoxsa birində söz, birində pul! Balans pozulur...

***

Gerçəkləri şişirdib sonra özünün də buna inanmağın xəstəlik əlamətidir. Getdikcə reallıq hissi itir, illüziyalara qapılırsan.

***

Kütlə çaşdırır bəzi namizədləri... Kütlədə səmimiyyət olmur. Onun sevgisi aldadıcıdır!

50-60 adamın marağını, diqqət kəsildiyini görmək, 3-5 seçicidən xoş söz eşitmək eyforik ovqat, özünəvurğunluq yaradır. Sonrası... Sonrası da ki... Dərin depressiya!

Təmkini qorumaq, soyuqqanlı, sakit yanaşmaq hamıya müyəssər olmur.

***

Əhədi kəsilmiş atları güllələyirlər?! Nəfəsi təngimiş adamları bəs?!

***

İpək deyir, baba, yenə tədbirə gedirsən?!..

***

Ağdamlısan?..

Gecə 10-u keçib, Şahbaz Xuduoğlu ilə sağollaşıb ayrılandan sonra Əjdər Olla səkidə söhbət edə-edə ətrafdakı taksilərə baxıram. Yəqin ki, maşın axtarmağım hiss olunur. Elə bu vaxt üzbəüzdə bir mikroavtobus dayanır, sürücü bizə tərəf baxıb səslənir:

- Maşın axtarırsız? Taksi lazımdı? Boşam... Gözləyim?!

Onun canfəşanlığını görüb deyirəm ki, elə bununla gedək.

İki nəfər üçün bir az böyük maşın olsa da, otururuq. İçərisində üz-üzə oturacaqlar var. Elə maşına əyləşib təzəcə ünvanı demişdik ki, sürücü başlayır:

- Bu oturacaqları beş min verib düzəltdirmişəm e... Bax, ortada balaca stol var, onu açanda, istəsəz, lap üz-üzə oturub nərd, domino da oynaya bilərsiz. Ərəblərlə işləyirəm, ona görə belə düzəltdirmişəm. Onlar rayona-filan gedirlər deyə, belə maşın sərfəlidi.

Bir azdan Əjdər Olu evinin yanında düşürüb yola davam edirik. Sürücü yenə dil-dil ötür. Bakı Əyləncə Mərkəzinin qarşısından keçəndə deyir: - Dayı, heç burda toyda olmusan? Mən bir dəfə olmuşdum. Orda içəridə hovuz var. Toyda bir kişi möhkəm içib keflənmişdi, birdən getdi düşdü həmin hovuza...

Mən də, həvəssiz halda, BƏM-də toyda olduğumu deyib susuram.

Qısa sükutdan sonra ağlımdan keçən fikirin təsiriylə qəfil soruşuram:

- Ağdamlısan?

- Hə, dayı, ağdamlıyam. Filankəsin (tanış və tanınmış bir sənətkarın adını çəkir) maması oğluyam. Yaxşı səsim vardı, oxuyurdum. O vaxt müsabiqədə yer də tutmuşdum. Sonra əsgərliyə getdim, orda xəstələndim, səsimə nəsə oldu. Ona görə

sənəti yarımçıq qoydum. İndi də belə... Çörəyim taksidən çıxır... Dayı, hardan bildin ağdamlıyam? Ləhcəmdən?

- Yox, ləhcəndən hiss olunmur.
- Bəs hardan bildin axı?
- Nə bilim, özün tap. Düşün də, səncə, hardan bilərəm?!

Bəs sizcə?..

***

Dənizsiz şəhərlərin kompleksi olur. Nə qədər özündən desə də, bilir ki, tam, bütöv deyil. Bakının bəxti gətirib ki, Xəzəri var. Biz də şanslıyıq ki, Bakımız var!..

***

İşə, karyeraya görə hər cür artistlik (...) etmək məqbuldurmu?! Özünə yaraşdıranlara, həzm edənlərə, hə...

***

Deyir, indi evdə xanıma səsini qaldıra bilərsən?! Xoşqədəm burdan, Qənirə ordan, biri Norveçdən, biri İsveçdən elə hay salarlar ki, "do"dan "si"yə enərsən...

***

Hələ ki köşklərdə qəzet satılır...

***

Biri var həqiqi sadəlövhlər, biri var özünü sadəlövhlüyə vuranlar, biri də var ətrafdakıları sadəlövh yerinə qoyanlar.

Sonra düşündüm ki, "sadəlövh" yerinə onun sinonimi və hətta antonimi olan xeyli söz - saf, gic, avam və s. də qoymaq olar.

***

Qəpikdən hamı canın qurtarmaq istəyir.

***

Uzaqda axtarmayın. Qismətdirsə, ayağınıza gələcək...

***

Bir neçə il qabaq mənə Astanadakı dostlar qalın dəri kürk bağışlamışdılar. Bakıda onu geyinməyə uyğun hava olmadı, heç getdiyim soyuq yerlərdə də.

Şimali Qafqazda köhnə sürücü tanışım, qaraçay Maratla görüşdük. Yenə yada saldı əsgərlik dostlarıyla Sovet vaxtı Ağdama getməyini, Şuşaya qalxmağını... Dostlarıyla gəzdiyi yerləri, dağlarımızı xatırladı. Sonra Dambay, Elbrus dağlarından, hündür zirvələrdəki kəndlərdə yaşayan qaraçay, balkar qohumlarından danışdı. Kürkü ona verdim, dağlarda yaşayan qaraçay qohumlarına bağışlayarsan – dedim. Və qəhərləndim.

Bir də ona:

– Dağlarınızı qoruyun! – dedim.

2019

Ağac əkmək savab işdir, gərəkli və xeyirxah əməldir.

Şair də yaxşı deyib:

"İstəsən elliklə, istəsən də tək. Təki sən ağac ək!.."

***

Deyir, tamahkarla saxtakar tez anlaşır.

***

Nəticəyə təsir etməyəcəksə, danışmağın mənası varmı?!.

***

Zəng vurub deyir ki, bəs, bizdə bir istedad var, nə vaxt gəlsin yanınıza?! Deyirəm, mən bu illərdə özünə istedad, dahi deyənləri çox görmüşəm, tələsməyin, yanvarda gələr . Deyir, yox e, bu, gerçək istedaddır. Şeir yazır, poeması da var!

Dedim poeması varsa, hazır "dahidir"!..

***

Özünü normal, adi adam hiss etməyin səadəti və rahatlığı...

***

Pul həm də unutdurur - məğlubluğu, qüsurları, zəifliklərı, səhvləri...

***

Bəzən hamını və hər şeyi unutmaq, daldaya və gizlinə çəkilmək istəyirsən...

***

Hər şeydə dərin səbəb axtarmazlar ki. Sadə izahı varmış hamısının.

***

Qadınların küsməyinə yenə bəraət tapmaq olur. Kişilər küsəndə naəlac qalırsan…

***

Hərdən ömürdə qısa fasilələr olur.

***

İtirdiklərimiz o qədərdi ki... Xiffət yetməz hamısına...

***

Nüfuzuna xələl dəyməyənlər, çəkisi azalmayanlar, sanbalını itirməyənlər də var.

***

Qadının uzun çıxışı kişiyə şiddətdir, yoxsa yox?!

***

Şəbədə qoşmaq xalqın köhnə şakəridir.

***

Hərdən karikaturaya bənzəyirik.

***

Deyir, keçmişdəki doğma məkanları ziyarət etmək altzheymer xəstəliyindən qoruyur adamı...

***

İndi hamı hər şey deyir. Heyrətlənəsi nə var ki?!

***

Biraz hündürdən baxanda hamını və hər şeyi aydın görmək olur.

***

Xəcalət hissi olmayanlardan uzaq durmaq lazımdır. Qorxuludurlar.

***

İt saxlayan qadınları başa düşürəm artıq…

***

Bayraq kimi adamlar da var.

***

Hamı nankor və naxələf deyil ki! Dünya sədaqətli və etibarlı insanlarla gözəldir.

***

Gül kimi qızlar var - saf, təbii, təmiz... Şehi yanağında...

***

Deyir, sıxıldınsa, stresdəsənsə, adam içinə çıx.

İzahın biri də belədir - çıxıb görəcəksən ki, elə hamı sən gündədir və təskinlik tapacaqsan...

***

Hamı hoqqa çıxarmaq istəyir. Amma hoqqa da var, hoqqa da. Hamıda alınmır.

***

Gecənin bir aləmi, yuxun ərşə çəkiləndə niyə qəfil yadına Təbriz düşməlidir ki?!

***

Aqil jurnalist olmaq da hər kəsin işi deyil!

***

Mahiyyəti çox pərdələmək olmur.

***

Başa düşdü ki, bu kitabların hamısını oxuyub bitirə bilməyəcək.

***

“Səhv yaşadım” düşüncəsi amansızdır - keçmişə əlin çatmır, gələcək isə dumanlı boşluğa çevrilir...

***

Rəğbət yaxşı hərəkətlərin cəmindən yaranır.

***

Səslənməsi gözəldir, heç məğzinə yaraşmır - Dönük.

***

Gözəl Qadına görə inqilaba qoşulanlar çox olub.

***

Sözün gücünü hiss etməkdən, təsirini görməkdən alınan zövqü heç nə əvəz edə bilməz.

***

Hesab edin ki, kənddən indi gəlmisiz, heç nəyiniz yoxdur, hər şeyi sıfırdan başlamalısız. Onda rahat olacaq.

***

Ömür dəvətnamələrdə xatırlanır.

***

Cümləsinin başı-ayağı bilinmir, iddiası yerə-göyə sığmır...

***

Eynəklər imkan vermədi gözləri görməyə...

***

Sosial şəbəkədə riyakarlıq daha asandır – göz gözü görmür, üz üzdən utanmır.

***

Hərə öz ürəyindən tikan çıxaran statusu bəyənir.

***

Yalan olduğu açıq-aşkar bilinən xəbəri – dezinformasiyanı yaymaq sənin özünə və ciddiliyinə şübhə yaradır.

***

Nuru Paşa ilə Üzeyir bəy Hacıbəylinin missiyalarında oxşarlıq çoxdur. Hər ikisini xatırlamaq adamda qürur, güc və inam yaradır.

***

Qonşudan piano səsi gəlir, tanış musiqi dəfələrlə təkrar olunur. Yadıma sala bilmirəm - bu dejavyumu, yoxsa uşaqlıqdan, ya hansısa bədii əsərdən, filmdən beynimdə qalan səhnəmi?! Hər nədirsə hüzn yaradır...

***

Yadda saxlamırsansa, oxumağın və... yaşamağın nə mənası?!

***

İndiki uşaqlar üç dildə dil açır - hərəsindən bir kəlmə...

***

Bütün dahilər elə biraz dəliyə oxşayır.

***

Deyir, adam danışmağa da çəkinir. Ağzını açanda kimin dəyirmanına su tökdüyünü, kimin alətinə çevrildiyini bilmir. Qarışıqlıqdır, yoxsa idarə olunan xaos?!

***

Təkrar danışmaqdan çəkinməmək yaddaşın möhkəmliyi təsəvvürünü yaradır. Təkrar biliyin anasıdırsa, yaddaşın da atasıdır.

***

Bir adam bəs edir xoşbəxt olmağa...

***

Deyirəm, Qadınlar yaxşılığı unutmurlar, deyir, elə pisliyi də...

***

Küləkdən şikayətlənmək haqqımız yox ki! Külək taledir - Bakının və bizim taleyimiz...

***

Deyilməmiş söz qalıb ki?!

***

Ölmək rəngini dəyişib itməkdir, xəbərsiz-ətərsiz getməkdir.

***

Cəsarət olmayanda fərqli, böyük sənət əsəri yaranmır.

***

Hərdən elə bil, Allah qəsdən adamın gözlərini yumur və... cəzalandırır.

***

Adamdan bir dəfə sındınsa, çatlaq yeri qalacaq həmişə...

***

Bu gül çələnglərinə verdiyinizi sağlığında şairin özünə verəydiniz də...

***

Xəyanət daha çox qadın xislətinə xas bir şeydir!

***

Heç kimin, heç nəyin qarşısında öhdəliyinin olmaması böyük sərvətdir.

“Qələmsiz yazılanlar”dan yazılanlar

İsa Həbibbəyli,
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik

Rəşad Məcidin statusları və SMS dünyası, yaxud sosial şəbəkə ədəbiyyatına giriş

Bir yaradıcı şəxsiyyət kimi orijinal bədii əsərləri ilə və Azərbaycanda müstəqillik dövrünün müstəqil qəzetini yaratmaq və inkişaf etdirmək baxımından mətbuat sahəsindəki böyük xidmətləri ilə Rəşad Məcid özünü isbat etmiş, qəbul olunmuş ziyalıdır. Azərbaycan cəmiyyəti Rəşad Məcidin Baş redaktoru olduğu "525-ci qəzet"in əsasında yeni tipli mətbuat məktəbi yaratdığını etiraf etməkdədir. O, nisbətən az yazmasına baxmayaraq, bədii yaradıcılıq sahəsində də orijinal əsərləri ilə bənzərsiz bir ədəbiyyat adamı olmasına heç kimsədə şübhə yeri qoymamışdır. Vaxtilə Rəşad Məcidə həsr etdiyim "Bütün yönləri ilə yaradıcı" adlı kitabda (2014) yazdığım kimi, lirika baxımından "Rəşad Məcid şeirlərində dərin, zərif duyğularını, həyata və insana baxışlarını tərənnüm etmir, elə bil nağıl kimi danışır". Eyni zamanda, Rəşad Məcid Azərbaycan ədəbiyyatına "Roman" adlı ilk liro-epik poemanın müəllifi kimi öz möhürünü vurmuşdur. Bundan başqa, Rəşad Məcid "10 sentyabr" adlı hekayəsi ilə böyük ənənəsi olan Azərbaycan hekayəçiliyinə ciddi bir səhifə əlavə etməyi bacarmışdır. Rəşad Məcidin analitik təhlillə monoloqvari düşüncələrin sintezindən yaranmış publisistikası da orijinallıq nümunəsidir. Bir sözlə, o, sözün əsl mənasında "bütün yönləri ilə yaradıcı" olmaq missiyasını şərəflə yerinə yetirmişdir.

Bütün bunlarla bərabər, son illərdə Rəşad Məcidin yaradıcılığında müşahidə olunan yeniliklər ona aid edilən "bütün yönləri ilə yaradıcı" anlayışındakı "bütün" sözünün əhatə dairəsinə yenidən baxmağı tələb edir. Əslində, onun yaradıcılığında çatışmayan dramaturgiyanın müəyyən əlamətləri "Roman" adlandırdığı poemasında, yaxud süjetli lirika nümunələrindən ibarət olan "Dastan" qrupu şeirlərində müəyyən dərəcədə ifadə olunmuşdur. Bu mənada o, hələlik dram əsəri yazmasa da, bir qədər dramaturji məşq keçmişdir. Onun süjetli lirikasından dramaturji material toplamaq, səhnəciklər təşkil etmək mümkündür. Lakin son on ildə Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində Rəşad Məcid tam yeni janrlara imza atmışdır. "Status-esselər" və "sms-esselər" adlandırdığı sosial şəbəkə yazışmalarından ilk dəfə Rəşad Məcid müstəqil janr kimi söz açmışdır. O, "Qələmsiz yazılanlar" adı ilə "525-ci qəzet"də oxuculara təqdim etdiyi yazılara ön sözündə tərəddüd etmədən "bəlkə də bunlar da bir janrdır" - deyə statusların və sms-lərin müstəqil janr olması ehtimalını irəli sürmüşdür. Rəşad Məcidin Nobel mükafatı laureatı Orxan Pamukdan gətirdiyi mülahizələr və görkəmli publisist Şirməmməd Hüseynovun dilindən səsləndirdiyi "təzə janr" ifadəsi ilə ədəbi mühitdə status və sms-lərin janr olması barədə düşünməyin əsası qoyulmuşdur. Bundan başqa, Rəşad Məcid yarım ildən çox müddətdə hələ də çapını davam etməkdə olduğu statusların və sms-lərin konkret bir janr olmasını özünün təcrübəsində praktik cəhətdən də nümayiş etdirir. Beləliklə, Rəşad Məcidə aid edilən "bütün yönləri ilə yaradıcı" anlayışının əhatə dairəsi bir qədər də genişlənmiş, bu ailəyə sosial şəbəkə ədəbiyyatından gələn "status-esse" və "sms-esse" kimi daha iki yeni janr da daxil olmuşdur.

Öncə, ilk dəfə Rəşad Məcidin Azərbaycan mediasına gətirdiyi "qələmsiz yazılanlar" anlayışına dair mülahizələrimi bildirmək istəyirəm. Əvvəla, Azərbaycanda qələmsiz yazı üsulunun böyük tarixi ənənəsi vardır. Fikrimcə, məşhur Qobustan və Gəmiqaya qayaüstü rəsmləri Azərbaycanda qələmsiz yazının ilk nümunələridir. Məlum olduğu kimi, Azərbaycan qayaüstü rəsm mədəniyyətində yazı elementlərinin olduğu elmi fikrimizdə qəbul edilmiş gerçəklikdir. Qobustan və Gəmiqaya təsvirlərindəki piktoqramlar və damğalar Azərbaycan yazı mədəniyyətinin bünövrəsini təşkil edir. Hətta Azərbaycandakı Qayaüstü mədəniyyət əsasında Gəmiqaya-Qobustan əlifbası da tərtib edilmişdir. Bu gün Rəşad Məcid tamam yeni bir müstəvidə "qələmsiz yazı" anlayışını ədəbiyyatın və mətbuatın gündəminə gətirməklə, böyük bir qədim mədəniyyəti yenidən bərpa etmiş olur. Nəinki indiki qələmsiz yazılmış statusların və sms-lərin, hətta bir çox hallarda sosial media şəbəkəsinin ilkin funksiyasını ən qədim dövrlərdə Gəmiqaya və Qobustan qayaüstü yazıları və rəsmləri həyata keçirmişdir. Azərbaycanda yazılı mətn, əlyazma kitab mədəniyyəti meydana çıxanadək xalqımız özünün fikirlərini qayaüstü rəsmlər və yazılarla daşlara həkk etmişdir. Qobustan düşərgəsindəki üstündə müxtəlif təsvirlər və cizgilər əks olunmuş hər bir böyük daşda ifadə edilən mətləblər dövrün sosial şəbəkəsinin sözü kimi öz dövründə oxunmuş, anlaşılmış, həmin dövrün sözünü bizim günlərə qədər gətirib çatdırmışdır. Gəmiqayadakı Qobustanla müqayisədə kiçik olan yazılı parça daşlar həmin tarixi mərhələnin günümüzə qədər gəlib çatan statusları və sms-ləridir. Sonralar bu qədim mədəniyyət inkişaf edərək, artıq yazının meydana gəldiyi Orxon-Yenisey mədəniyyəti səviyyəsinə qalxmışdır. Məşhur Orxon-Yenisey daş kitabələrindəki yazılı mətnlər də, heç şübhəsiz, qələmlə deyil,

tişə ilə, yaxud ox ucları ilə yazılmış örnəklərdir. Rəşad Məcidin kəşf etdiyi "qələmsiz yazı" müasir Azərbaycan mediasının Qobustan-Gəmiqayadan başlanıb, Orxon-Yeniseylə inkişaf etmiş müasir dövrün yazılı abidələri təəssüratı yaradır. O zamankı daş çapacaq, dəmir tişələri, yaxud ox ucları kimi yazı alətlərini bu gün, Rəşad Məcidin zamanında kompüter klaviaturası əvəz edir... Rəşad Məcidin status-esseləri və sms-esseləri üçün Azərbaycan folklorunun şifahi yolla qələmsiz yaranıb inkişaf etmiş şifahi xalq ədəbiyyatı nümunələri də çox zəngin mənbədir. Bunlar o deməkdir ki, bu gün Rəşad Məcidin Azərbaycan ədəbiyyatına və mətbuatına gətirdiyi "qələmsiz yazılar" ölkəmizdə tarixi ənənəsi olan, uzun inkişaf yolu keçmiş böyük bir yazılı mədəniyyətin yeni tarixi epoxadakı müasir vasitələrlə ifadə edilən örnəkləridir. Rəşad Məcid "Qələmsiz yazılanlar" silsiləsi ilə qədim və böyük qələmsiz yazı mədəniyyəti epoxasının ənənələrinin ölməzliyini, əbədiliyini və müasirliyini bir daha təsdiq etmişdir.

Rəşad Məcidin "qələmsiz yazılanlar"ı iki qismə ayrılır: status-esselər; sms-esselər. Qeyd edək ki, bu janrların təyinatını Rəşad Məcid özü müəyyən etmişdir. Həqiqətən də, həm statuslarda, həm də xüsusən sms-lərdə esse janrının əlamətləri vardır. Esse janrına məxsus emosional düşüncə və mənsur şeir əlamətləri, Rəşad Məcidin statusları və sms-lərindəki bədiilik ünsürləri onun jurnalistliyindən çox, şairliyindən irəli gəlir. Əlbəttə, Rəşad Məcidin sosial şəbəkə yazılarında publisistikanın xüsusi yeri vardır. Status və sms-lərin ideya-mövzu cəhətdən gündəmə aid olması, cəmiyyətdə baş vermiş hadisələrlə səsləşməsi, aktuallığı və müasirliyi publisistika ilə üzvi surətdə əlaqədardır. Rəşad Məcidin statusları və sms-ləri müasir dövrün yazıçı müşahidəsinin, şair hissiyyatının və publisist müasirliyinin əsasın-

da yaranmış orijinal sosial şəbəkə ədəbiyyatıdır. Sosial mediada sonsuz sayda sms-lər və statuslar yazanların içərisində ilk olaraq həmin janrlarda yazılmış "əsərlərini" ədəbi-ictimai mühitin diqqətinə təqdim etməsi ilə Rəşad Məcid bu yeni tipli ədəbiyyatın əsas yaradıcılarından biri olduğunu bəyan edir. Bu, həm də ədəbi mühitdə artıq konkret bir anlayış kimi qəbul olunmuş "internet ədəbiyyatı"nın sosial şəbəkələr vasitəsilə yayımlanan şeir və hekayələrindən başqa, həm də öz janrlarının da olduğunu isbata çatdırmaq deməkdir. İnternet dili ilə desək, sms-lər və statuslar sosial şəbəkə ədəbiyyatında Rəşad Məcidin profili kimi meydana çıxır.

"Qələmsiz yazılanlar"dakı mülahizələrindən görünür ki, Rəşad Məcid bədii-publisist yaradıcılığı ilə birlikdə elektron mediaya da yüksək tələbkarlıqla yanaşır. Rəşad Məcidin "qəzetini göstər, sənin kim olduğunu deyim" aforizmi mətbuat sahəsində öz məktəbini yaratmış Baş redaktorun jurnalistikada özünəinamını ifadə edirsə, "saytını göstər, sənin kim olduğunu deyim" qənaəti də onun eyni dərəcədə müasir elektron mediaya məsuliyyətli münasibətini nəzərə çarpdırır. "Qələmsiz yazılanlar" məkanının əsas ünvanları olan Feysbuk və İnstaqram haqqındakı qənaətləri onun artıq sadəcə "istifadəçi" qismində deyil, yaradıcı statusunda elektron mətbuatın və ədəbiyyatın içində olduğunu, özünü həmin mühitdən kənarda təsəvvür etməsinin mümkünsüzlüyünü göstərir. Yazıçı öz əsərini çap etdirmək üçün münasib qəzet, jurnal və nəşriyyat seçdiyi kimi, Rəşad Məcid də statuslarını və sms-lərini yerləşdirmək məqsədilə elektron medianı süzgəcdən keçirib, özünə uyğun olan məkanı müəyyənləşdirir. Onun fikrincə, İnstaqram "ağız deyəni qulaq eşitməyən xaotik bir məkan", yaxud "hər cür xırdavatın, kimin nəyi var, satışa çıxardığı "talkuçka" kimi "ciddi ədəbiyyat və

publisistika üçün münasib olmayan, yaramayan elektron mətbuat sahəsidir. Mülahizələrindən görünür ki, elektron medianın Feysbuk məkanı Rəşad Məcidin sosial şəbəkədən tələb etdiyi xüsusiyyətlərə nisbətən daha çox cavab verən status meydanıdır. İnstaqramı "düzəlməsi imkansız görünən" internet mediası hesab edən Rəşad Məcid Feysbuku sərbəst düşüncə üçün nisbətən səviyyəli və tədricən təkmilləşmək imkanları olan virtual düşüncə məkanı kimi dəyərləndirməklə ayıq-sayıq olmaqla ədəbi-ictimai fikrin bu məkana diqqət yetirməsini münasib sayır: "Feysbuk isə bütün əyər-əskiklərinə baxmayaraq, düzələsi, normal virtual düşüncə mübadiləsi mərkəzinə çevrilməsi mümkün olan bir məkandır. Siyasi maraqlar, məqsədli şərləyici qruplar - trollar, bəsit fikirlər daha çox meydan sulasa da, Feysbukda ciddi, səviyyəli və istedadlı adamların da səsi eşidilir, sözü diqqəti cəlb edir. Düzdür, burada da ...narazıların ürəyini boşaltması, uğursuzların kin-küdurət püskürməsi, içinin xıltını tökməsi üçün əlverişli, münasib şərait var. Bir çoxlarının reallaşmayan arzularından doğan qəzəbi, uğur qazananlara qısqanclığı burada da aydın hiss olunur. Bununla belə, Feysbukda maraqlı və fərqli fikirlər söyləyən səhifələr, real profillər, millət vəkilləri, siyasi xadimlər, yaradıcı adamlar, ziyalılar var və get-gedə onların üstünlüyü görünür".

Bununla belə, Rəşad Məcid canlı elektron ekran və ya açıq mikrofon kimi çox geniş imkanlara malik olan sosial şəbəkələrin yarada biləcəyi çətinlikləri və ondan istifadə edənlərin ayıq və məsuliyyətli olmasının zəruriliyini də diqqət mərkəzinə çəkir. Belə məqamlarda onun statusları həyəcan təbili çalır, XXI əsrin qlobal çağırışlarına çevrilir: "Yalnız bizə aid olması ilə öyündüyümüz duyğular - insan hissləri, ürəyimizin hökmü, qəlbimizin istəyi təhlükədədir.

Süni intellekt və kompüter alqoritmləri, texnologiyalar o həddə çatıb ki, beyindəki neyronlar vasitəsilə insan hisslərini idarə etməyə qadirdir. ...Alqoritmlər neyronlar vasitəsilə sizin hisslərinizi idarə edəcək, ürəyinizin hökmünü dəqiqləşdirəcək. Nə yeməlisiniz, kiminlə evlənməlisiniz, hansı partiyaya səs verməlisiniz... – hamısını sizin yerinizə müəyyənləşdirəcək".

Fikrimcə, belə ayıq-sayıq mövqe əsl vətəndaş yazıçının, cəmiyyət qarşısında məsuliyyətini dərk edən vətəndaşın mənəvi borcundan doğan addımdır. Elektron şəbəkə materiallarından görünür ki, Rəşad Məcid XXI əsrin sosial şəbəkə mediasını sağlam məcraya doğru istiqamətləndirmək üçün onun öz dilində danışmaqla, zəruri maarifçilik işi aparmaqla müasir dövrün yazıçı-vətəndaş missiyasını ləyaqətlə yerinə yetirir. Rəşad Məcidin Feysbuk səhifələrində elan etdiyi şeir müsabiqələri də həm elektron şəbəkə ədəbiyyatını inkişaf etdirməyə, həm də informasiya cəmiyyətini sağlamlaşdırmağa hesablanmış əhəmiyyətli addımlardır.

Beləliklə, Rəşad Məcid yeni Zamanın elektron mediasının geniş virtual məkanının obyektiv mənzərəsini canlandırmışdır. Bu, elektron media məkanının ədəbi fikir üçün nə qədər münasib olduğunu müəyyən etməkdən başqa, həm də onlayn ədəbiyyatın virtual mühitdəki funksiyasına da işıq salır. Bu mənada Rəşad Məcidin statusları və sms-ləri mürəkkəb elektron media məkanını aydınlatmağa - durultmağa xidmət edən ədəbi-publisist nümunələrdir. Həyatımızda mövcudluğu qəbul olunan, geriyə qayıdışı mümkün olmayan yeni əsrin elektron media məkanını aydınlatmağa xidmət etmək nəticə etibarilə müasir dövrün ədəbiyyatı və mətbuatını formalaşdırmaq, inkişaf etdirmək vəzifələrinin məsuliyyətini çiyinlərində hiss etmək deməkdir. On ildən çox dövr ərzində ardıcıl olaraq elektron mediada statusları və

sms-ləri ilə iştirak etməklə Rəşad Məcid yeni dövrün ədəbiyyat və mətbuatının normal inkişafı uğrunda mübariz bir profil nümayiş etdirir. Bu, "525-ci qəzet"i yaratmaqla ölkəmizdə müstəqil mətbuatın alternativi olmayan nümunəsini meydana qoyan Rəşad Məcidin Feysbuk kimi qatma-qarışıq bir virtual məkanın təkmilləşdirilməsi, sağlam məcraya yönəldilməsi yolundakı səylərini, yaradıcılıq təşəbbüslərini, həyəcanlarını təsəvvür etməyə imkan yaradır. Fasiləsiz olaraq Feysbuk "səhifələrində" cəmiyyətə təqdim etdiyi statuslar və sms-lər həm də belə bir çətin və şərəfli missiyanı yerinə yetirir. Beləliklə, sosial şəbəkə ədəbiyyatı örnəkləri kimi statusları və sms-lərini oxuculara çatdıran Rəşad Məcid üçün Feysbuk müasir mətbuat və ədəbiyyatı yeni bədii-publisist vasitələrlə inkişaf etdirmək platformasıdır. Bu, Feysbuk istifadəçisi olan başqa yaradıcı insanlar üçün və ümumiyyətlə, bütün istifadəçilərdən ötrü də əsl nümunədir.

Oxuculara təqdim olunan "Qələmsiz yazılanlar"a daxil olan yazılar "status-esselər" və "sms-esselər" kimi iki hissəyə ayrılsa da, onların arasında daxili bir əlaqə vardır. Status-esselər müəyyən ideya-məzmuna malik olan qısa mətnlərdir. Statuslar Rəşad Məcidin cəmiyyət hadisələrinə, ədəbi mühitə və insana baxışının mahiyyətini ümumiləşdirilmiş şəkildə ifadə edən profillərdir. Bunlar, sanki Feysbuk "kitabxanasında" Rəşad Məcidin sms-lərinin adlarıdır. Nəhayət, Rəşad Məcidin statusları, sanki onun sms-lərinin epiqraflarıdır. Rəşad Məcid sms-lərində bir-iki səhifəlik məktublarda ifadə olunan fikri statuslarında iki-üç cümlə ilə mənalandırmışdır.

Bir çox hallarda statuslar Rəşad Məcidin sms-esselərindən çıxarılan ibrətamiz nəticə və ya ümumiləşdirilmiş aforizmlər funksiyasını yerinə yetirir: "Yaxşılıq ən etibarlı dərmandır; Qocalığın müalicəsi yoxdur; Təzə dost müşkül işdir; Səhv bir dəfə

olur, təkrardırsa xarakterdir; Reallıq hissini itirmək təhlükəlidir; Pul - maqnit kimidir, meyilli adamları ardınca hara gəldi çəkib aparır; Qadınlar dostluqda sədaqətli olurlar, sevgidə deyə bilmərəm; Etibar bir dəfə itir" və sair kimi statuslar həm də müəllifin mövqeyini bildirir. Bu cəhətdən, ümumiyyətlə, Rəşad Məcidin statusları və sms-ləri, xüsusən də status-aforizmləri sosial şəbəkələrdən özlərinin qeyri-pozitiv fikirlərini ifadə etmək, insanları gözdən salmaq, aşağılamaq üçün "qullanan" sui-istifadəçilər üçün ciddi bir örnək, hətta geniş mənada tərbiyə, nümunə məktəbidir.

Rəşad Məcidin "Qələmsiz yazılanlar"ındakı sms-esselər miniatür elektron hekayələrdir. "10 sentyabr" hekayəsi ilə bədii nəsrdə də özünəməxsus yaradıcılıq imkanlarına malik olduğunu göstərmiş Rəşad Məcid sms miniatür hekayələri ilə müasir miniatür elektron hekayə janrının əsas yaradıcılarından biri olduğunu nümayiş etdirir. Sms-ləri "keçmiş məktubları əvəz edən" bir janr kimi təsəvvür edən Rəşad Məcid əslində, özü də fərqinə varmadan sosial şəbəkə ədəbiyyatında sms-məktub-hekayə janrının əsasını qoymuşdur. Hər birində müəyyən əxlaqi-mənəvi dəyərlərə, müəyyən tövsiyələrə diqqət verildiyi üçün sms-esselər didaktik miniatür hekayələrin funksiyasını həyata keçirir. Rəşad Məcidin tam halda illər ərzində yaranmış sms-ləri onun miniatür elektron hekayə külliyyatıdır. Sms hekayələrin hər biri konkret bir mətləbin mahiyyətini açıqlayan baxışlardır. Rəşad Məcidin sms-ləri onun həyat fəlsəfəsinin səhifələridir. Məsələn, Rəşad Məcidin Feysbuk sms miniatür hekayələrindən bir örnəyə diqqət yetirək:

"Xoşbəxtlik - göylərə qalxmaq, ruhun qanadlanması, nura boyanmaqdırsa, həsrət, ağrı, acı, qüssə - dərinə enməkdir. Dərinə endikcə heyrətdən buza dönürsən.

Göylərdə, səmada süzmək - kainatın eyni rəngindən və sonsuzluğundan qanadlanmaqdırsa, dərində əsrlərin yaddaşı hopan maddi nə desən var. Yəqin, ona görədir ki, qüssə, qəm içində insan dərinə enir və dərinə endikcə də indiyəcən bilmədiyi sirlərdən agah olur.

Düşünənə, hansısa suala cavab axtarana "dərinə get" deyirlər.

"Göyə qalx" çağırışında sual yoxdur.

"Göyə qalx" cavabdır.

Dərində batmaq, boğulmaq mümkündür.

Dərində batıb qalmaq mümkündür.

Göylərdən yerə mütləq düşməlisən, amma dərində səni nələrin gözlədiyi, sonunun necə olacağı bəlli deyil. Dərdin məkanı dərinlərdədir. Göylər müvəqqətidir. Əbədi məkanımız isə torpağın dərinliyindədir və yazdıqca tükənməz, düşündükcə bitməz suallarla doludur.

...Xoşbəxtliyin rəngi bir olduğu kimi, ömrü də azdır. Sıxıntının ömrü isə uzundur. Bəlkə, həm də buna görədir xoşbəxtliyin təsvirinin daha az olması. Uzunömürlü sıxıntılardan çox bəhs edilməsi də elə buna görədir, yəqin!

Dərinə enməyi tək də bacarmaq olur!

Dərdi, sıxıntını, həsrəti təklikdə çəkirsən.

Xoşbəxtliyi isə tək yaşamaq olmur!

Enmək də batmaq, boğulmaqdır. Əl uzadan olmasa, elə orada da qalasısan. Orada - dərinlərdə!..

Amma yenidən qalxmaq üçün enmək ən gözəlidir.

Enmək və yazmaq!

Sonadək yazmaq!

Yenidən uçanadək!..".

Rəşad Məcidin statuslarının da, sms-lərinin də bir çoxunda süjet də vardır. Statusdakı qısametrajlı süjetlər hadisənin təs-

virini yox, gedişatını ümumi şəkildə ifadə edir. Süjetli sms-lər isə hadisənin də, obrazın da cizgilərini təsəvvür etməyə imkan yaradır. "Hava limanı-1", "Hava limanı-2", "Pencək", "Yuxu", "Ağanisənin duası", "Göy üzü", "Qara reyhan" sms-ləri kiçik miniatür hekayələrdir. "Köhnə Bakı üçün nostalji" sms-essesi müasir dövrün "Firuzə" hekayəsi kimi oxunur. "Adət etmək" miniatür hekayəsi sms-lə statusun sintezindən yaranmış orijinal bir hekayədir. Burada statuslar süjetin istiqamətini və ya hadisələrin ümumiləşdirilmiş məntiqi nəticəsini ifadə edir. Sms-lər isə hadisələrin gedişatını, müəllif fikrinin dinamikasını əks etdirir. Bu, təkcə internet ədəbiyyatında yox, ümumən Azərbaycan hekayəçilik ənənəsində Rəşad Məcidə məxsus olan tam yeni bir səhifədir. Əyanilik xatirinə "Hava limanı-2" lirik-psixoloji hekayəsini olduğu kimi oxuculara təqdim edirəm:

"Dərsdə otura bilmirdi. Darıxırdı. Fikri onun yanındaydı. Sürpriz etməliydi. Xoşbəxtlik bəxş etməliydi. Bir anın içində qərar verdi – Hava limanına gedəcək. Onu qarşılayacaq. Fikirləşdi ki, "saat 7-yə var hələ, gedərəm, yanında adamlar olsa, yaxınlaşmaram".

Taksiyə oturdu. Hava limanına çatanda saat 6 idi. Gözü əvvəl sürücünü axtardı. Sonra məlumat bürosuna yaxınlaşdı. Saat 7 tamamda zəng elədi:

– Gəlmisən, əzizim?

– Səsi qulağına birtəhər gəldi. Hiss elədi ki, deyəsən, qarşılamağından şad deyil. Özünə hirsləndi. Çıxıb getməyi, bu jestini, gəlişini qiymətləndirə bilməməsinin cəzasını verməyi düşündü. Cavab yazmasam, bəsidir. Amma ürəyi gəlmədi.

– Gedimmi?

– Gəlmisənsə, gözlə!

Yenə çıxıb getmək istədi. Sonra fikrini dəyişdi.

Oturub gözləyirdi. Budur, çıxdı. Ona sarı gəldi, əl uzatdı. Kafeyə, çay içməyə keçdilər.

Heyrət içində idi. Yəni bu, o adamdır? Mat-mat baxırdı. Gəlməyinə peşman olmuşdu. Elə bil, başına bir vedrə soyuq su töküb yuxudan ayıltmışdılar. Axı nə işim vardı burda, axı niyə gəlməliydim?

Yanaşı addımlayırdılar. Hiss edirdi ki, ondan aralı getməyə çalışır. Özünü qınayırdı. Hər şeyin belə qəfil bitəcəyini ağlına da gətirməzdi. İki hissin əlində qalmışdı: bir yandan yanındakı ən doğma bir adamı hiss etməyə çalışırdı, o biri yandan da buz kimi soyuq, yad, özgə bir adamçün niyə buracan gəldiyini düşünürdü.

Səhəri görüşdülər. Sarsılmışdı: həm bir həftə idi xəstəydi, həm də dünən baş verənləri unuda bilmirdi. İndi necə desin? Hardan başlasın? Yaxşı oldu. O özü dedi. Və müvəqqəti ayrılmağa qərar verdilər.

Müvəqqətimi?..".

"Qələmsiz yazılanlar"dakı statuslar və sms-lər Rəşad Məcidin qələmlə yazılan əsərləri kimi yeni, təsirli, cəlbedici, əhəmiyyətli və orijinal əsərlərdir. Hiss olunur ki, bu yeni tipli yaradıcılıq məkanı bütün mürəkkəbliyi ilə bir yerdə Rəşad Məcidə tamam fərqli bir yaradıcılıq ehtirası gətirmişdir. Yaradıcılığının indiki mərhələsində özünü daha çox statuslarda və sms-lərdə tapan Rəşad Məcidin artıq bu çətin, məsuliyyətli, son nəticədə şərəfli yoldan geriyə dönməyə imkanı yoxdur. Bütün bunlara görə "Yazmaq-2" sms-essesi Rəşad Məcid yaradıcılığının yeni dövrünün səciyyəvi manifesti kimi səslənir:

"Durmadan, dayanmadan yazmaq!

Beynindəki fikirləri topalanıb başını sarmağa qoymadan

yazmaq! Azacıq qalxan buludu dolmağa qoymadan, deşik-deşik etməklə yazmaq!

Bədəndəki hüceyrələrin giziltisi şahə qalxmadan, siqareti sinənə sümürüb tərpəşən hüceyrələri beşiyində tüstüylə boğa-boğa yazmaq!

Narkotik kimi! Narkoz kimi! Kosmos kimi! Yazmaq! Yazmaq!

Süsləşmiş, keyləşmiş bədəni donmağa qoymamaq üçün yazmaq!

Dəqiqələri saatlara çevirib mənasız günlərdən bezməmək üçün yazmaq!

Boğazını saran qəhərdən ölməmək üçün yazmaq!

Ağlamamaq, sızlamamaq üçün yazmaq!

Yatmamaq üçün yazmaq!

Ayıq olmamaq üçün yazmaq!

Düşünmək üçün yazmaq!

Düşünməmək üçün yazmaq!

Sağ qalmaq üçün yazmaq!

Unutmamaq üçün yazmaq!

Sevmək üçün yazmaq!

Doymamaq üçün yazmaq!

Günahını yumaq üçün yazmaq!

Güclü olmaq üçün yazmaq!

Zəif görünmək üçün yazmaq!

Bir daha səni görmək, sənlə olmaq üçün yazmaq!!!".

Bu, Rəşad Məcidin yaradıcılığının yeni mərhələsinin ədəbi andıdır. Fikrimizcə, Feysbuk səhifələrində ifadə olunmuş bu sms-məktub müasir virtual məkanda özünü görən və həmin məkanda baş sındıran hər bir yaradıcı şəxs üçün mükəmməl bir bələdçidir.

Rəşad Məcidin statusları və sms-esseləri - müstəqillik dövrü Azərbaycan sosial şəbəkə ədəbiyyatının yol xəritəsidir.

Rəşad Məcidin statusları və sms-ləri gələcək bir romanın eskizləridir.

Rəşad Məcidin statusları və sms-ləri - Azərbaycan qrafik ədəbiyyatının yeni tarixi mərhələdəki ilk təzahürləridir.

Nəhayət, Rəşad Məcidin statusları və sms-ləri böyük ədəbiyyatın Feysbukdakı stenoqramıdır.

Nəticə: Bütün yönləri ilə yaradıcı olan Rəşad Məcid sosial şəbəkələrdəki status və sms dünyasına da yeni bir yaradıcılıq ab-havası gətirən novator yazıçıdır. Rəşad Məcid - miniatür elektron statusun və sms miniatür hekayənin yaradıcısıdır. Rəşad Məcid - Azərbaycanda Feysbuk hekayəçiliyinin nəzəri-təcrübi əsaslarını yaratmışdır.

Yazımı Rəşad Məciddən gətirdiyim aşağıdakı statusla bitirmək istəyirəm: “Tərəddüd etmədən inanırsansa, ...nəticə arzuladığın kimi olacaq”.

Yeni ədəbiyyat yollarında Rəşad Məcidə uğurlar arzulayıram!

15 iyul 2019-cu il

Qismət Rüstəmov,
şair, tərcüməçi, esseist

Sosial şəbəkələr dövründə ədəbiyyat

Müasir incəsənətin ən qabarıq cəhəti kəskin, qatı sərhədlərin yoxa çıxması, divarların əriməsidir. Bu gün bütün dünyada interdisiplinar (təlimlərarası) metodlar daha aktualdır. Əslində, müxtəlif sənət sahələrinin bir-birinə inteqrasiyası təzə söhbət deyil. Bu, əvvəlki əsrlərdə də müxtəlif səviyyələrdə mövcud olub, sadəcə bu gün artıq sözügedən meyil prioritetlərdən birinə çevrilib.

Bu gün bizim incəsənət, sənətkarlıq, yaxud elm deyə adlandırdığımız sahələr XVI əsrə qədər ümumi sənət sisteminin içindəydi, yəni istedad, texniki ustalıq, əqli zəhmət, istehsal vasitələri tələb edən bütün sahələr bir bütövün içində başa düşülürdü. XVI-XVII əsrlərdə akademiyaların qurulmasıyla əvvəllər vahid bir bütöv kimi təsəvvür edilən sənətdə parçalanma, ayrılma getməyə başladı. XVIII əsrin ikinci yarısında isə incəsənət digər texniki sənətkarlıq tələb edən sahələrdən ayrılıb ayrıca sahə kimi oturuşdu. Bu dövrdəki əsas nəzəri mübahisələr sənət sahələrinin suverenliyi, müstəqilliyi ilə bağlıydı. Sözügedən mübahisələr içində görkəmli alman mütəffəkiri və tənqidçisi Qothold Lessinqin 1766-cı ildə çap etdirdiyi "Laokon" əsəri məşhurlaşdı. Lessinq bu əsərində sənəti şərti olaraq zaman sənətləri və məkan sənətləri şəklində iki yerə bölürdü. Onun fikrincə, tutalım, ədəbiyyat kimi mövzularını zamanın axarı içində ifadə edənlər zaman sənətləri, heykəltəraşlıq, rəs-

samlıq kimi konkret bir məkanın içində zamanın bir anını ifadə edənlər isə məkan sənətləridir. Çünki ədəbiyyat öz mövzusunu geniş zamanın içində ifadə edir, rəssamlıq, heykəltəraşlıq kimi sənətlər isə materialları maddi olduğu üçün konkret bir məkanda cisimləşir, statikləşirlər. Mütəffəkirin fikrincə, hər sənət öz müstəqil qaydalarını yaradaraq həmin qaydalara tabe olduqca uğurlu nəticəyə çata bilər.

XIX əsrdə də arabir sənət sahələri, sənət növləri arasında inteqrasiyadan söz açılıb. Sənət sahələri arasında parçalanmanın əleyhinə ən aktiv tənqidi fikirləri alman romantikləri səsləndiriblər. Onlar deyirdilər ki, sənət, təbiət, elm arasında bu qədər uçurumlar yaratmaq dünyanın bütövlüyünü pozacaq. Məsələn, görkəmli alman mütəfəkkiri Şelegel məhdudlaşdırıcı qaydalardansa, hər cür sərhədin, qaydanın şəffaflaşdığı, beləliklə, sənətin həyatın bütün tərəflərinə nüfuz etdiyi "fasiləsiz şəkildə irəliləyən universal poeziya"dan bəhs edirdi.

Sonrakı illərdə əfsanəvi bəstəkar Rixard Vaqner də sənət növlərinin bir-birindən ayrılmasına qarşı çıxmış, sənət sahələri arasındakı kəskin sərhədlərin aşılmasıyla yeni formaların tapılmağının mümkünlüyündən bəhs edib. Bəstəkar 1849-cu ildə "Sənət və inqilab" adlı yazısında sənət sahələrinin ayrılmasının əleyhinə "Gesamkuntswerk" (bütöv, vahid sənət əsəri) anlayışını ortaya atır. Vaqnerin fikrincə, mükəmməl sənət əsəri Antik Yunanıstanda olduğu kimi dramdır. Onun fikrincə, poeziyanın, musiqinin, rəqsin, hətta memarlığa qədər bir-birindən fərqli sənət sahələrinin "teatral təmsilin içində" çulğalaşması vasitəsilə bütöv sənət əsəri yaradıla bilər.

XX əsrin başında estetik modernizmin tərəfdarı olan tənqidçilər də eynən Lessinq kimi, sənət sahələrinin muxtariyyətindən, müstəqilliyindən, sənət növləri arasında sərhədlərin müəyyənləşdirilməsindən yanaydılar. Məsələn, Klement Qrinberqin

fikrincə, hər sənət özünü istifadə etdiyi başqa sənət sahələrinə aid vasitələrdən arındırmalı, təmizləməlidir. Ancaq XX əsrdə əvvəlcə futuristlərin, dadaistlərin, sonra isə postmodernistlərin başlatdığı polemikalar nəticəsində bu yanaşmalar dəyərini itirməyə başladı, bu gün isə tamam keçərsizləşib. Görkəmli amerikalı ədəbiyyatşünas Lesli Fidlerin məşhur kitabının adıyla desək, bu gün artıq sənət sahələri arasındakı "Xəndəklər doldur(ulub), sərhədlər aş(ılıb)".

Bu məsələni bir az da açmağa çalışaq. XX əsrin əvvəllərində avanqard sənətçilər böyük bir polemika başlatdılar. Sualları çox sadə idi: Niyə sənət mühitində keçmişə aid şeylər indiyə aid şeylərdən daha imtiyazlıdır, niyə cəmiyyət onları qoruyur, restavrasiya edir, muzeylərdə saxlayır, onlara sərmayə yatırır, amma digər şeylər diqqətdən kənarda qalır, aqibətləri taleyin ixtiyarına buraxılır? Bu suallara çoxsaylı cavablar verilsə də, artıq heç biri cavab inandırıcı gəlmirdi. Buna görə də məsələni gündəmdə saxlamaq, polemikanı davam etdirmək üçün Tomasso Marinetti kimi futuristlər deyirdilər ki, modern bir avtomobil, yaxud təyyarə antik yunan heykəllərindən daha gözəldir. Soruşurdular ki, qədim dövrdə kiminsə içində yemək yediyi saxsı qabı, taxta qaşığı bu günün kəşflərindən daha dəyərli edən hansı meyarlardır? Deyirdilər ki, bizim keçmişi gələcəkdən dəyərli saymağımız absurddur, çünki keçmişdə yox, indidə yaşayırıq. Bu məzmunlu tənqidlər həmin dövrdə daha çox muzeylərə tuşlanmışdı. Amma bu polemik vəziyyət birdən-birə baş verməmişdi. Bu fikirlər bir xeyli dərəcədə həmin dövrün ictimai-siyasi həyatındakı bərabərlik, demokratiya diskurslarının əks-sədası idi. O dövrün siyasətçilərinin, hüquqşünaslarının, aktivistlərinin insanların bərabər hüquqlara malik olmasını tələb etməsinə paralel olaraq, avanqard sənətçilər də nəsnələrin, məkanların, əsas da tarixi dövrlərin bərabərliyini tələb edirdilər. Onların başlat-

dığı bu hərəkat tezcə effekt verməsə də, cəmi 40 il ərzində artıq qatı, statik, kanonik olan hər şeyə qarşı şübhəylə baxmaq qaçılmaz oldu.

XX əsrin ortalarında ən müxtəlif sahələrdə xeyli paradiqma dəyişikliyi baş verdi, əvvəllər məhdud şəkildə istifadə olunan xeyli anlayışın əhatə dairəsi genişləndi. Məsələn, görkəmli fransız ədəbiyyatşünası Rolan Bart əvvəllər ancaq yazılı ədəbiyyat nümunələri üçün istifadə edilən Mətn sözünün sərhədlərini genişləndirdi. Bart fotonu da, kinonu da mətn kimi oxumaqla Mətn deyiləndə nəzərdə tutulanın coğrafiyasını böyütdü. Bir başqa misal da görkəmli kommunikasiya nəzəriyyəçisi Marşal Makluhanın məşhur "Quttenberq qalaktikası" kitabında istifadə etdiyi "qlobal kənd" anlayışı və "media" sözünün yeni mənalarıdır. Latın sözü olub "araçı, vasitə" olan "media" sözü əvvəllər yalnız kütləvi informasiya vasitələrini, yəni qəzeti, radionu və televiziyanı ifadə etmək üçün istifadə edilirdi. Makluhan "media" sözünün sərhədlərini bütün sənət sahələrini əhatə edəcək şəkildə genişləndirdi. Makluhanın fikrincə, bütövlükdə media insanın davamıdır: təkər ayağımızın, kitab gözümüzün, paltar dərimizin, elektrik şəbəkəsi mərkəzi sinir sistemimizin davamıdır. Alimin düşüncəsinə görə, insan bədəniylə gerçəkləşdirməyə çalışdığı, yaxud düşüncəsində reallaşdırmağı planlaşdırdığı hər şeyin davamını, uzantısını yaradıb ki, bunlar da hamısı vasitədir, yəni media.

XX əsrdə əvvəlcə internetin kəşf olunması, ardınca isə smartfonların, sosial şəbəkələrin insan həyatına daxil olmasıyla bəşəriyyət tamam başqa bir mərhələyə qədəm qoydu: Virtual reallıqlar mərhələsinə. Necə ki, fotoqrafiyanın, kinonun, televiziyanın kəşfindən sonra ədəbiyyat özünü bu operativ, birbaşa sahələrlə yarışda yeniləməli olmuşdu, internetin, sosial şəbəkələrin də həyatımıza girməsindən sonra bədii ifadə forma-

larında yeni axtarışlar başladı. Əlyazmalar "word" oldu, kağız kitab "e-book" oldu. Bugünün ədəbiyyatında artıq sərhədlər, divarlar yoxdur, hər şey birbaşadır, onlayndır. Dünya bir düymə uzaqlıqdadır. Bu gün ənənəvi sənət metodları ilə yanaşı, ağlasığmaz bir sürətlə elektron sənət nümunələri, hipertekstlər, şəbəkə ədəbiyyatı inkişaf etməkdədir. Artıq dünyanın aparıcı universitetlərində, böyük elm müəssisələrində bu sahəyə xüsusi diqqət ayrılır, kürsülür qurulur, kafedralar yaradılır. Aparıcı ölkələrin alimləri artıq anlayıblar ki, gələcəyin sənəti geri dönüşü olmayan şəkildə elektron media ilə, sosial şəbəkələrlə bağlı olacaq. Məsələn, iki il öncə yeni texnoloji vasitələrdən məharətlə istifadə edən Nyu-York Xalq Kitabxanası yeni roman formatı təklif etdi: insta-roman. İnstaqram sosial şəbəkəsində Kafkanın "Çevrilmə"si kimi məşhur klassik mətnlərin instaqram variantını yayımladılar. Kitabxananın nümayəndəsi mətbuata açıqlamasında dedi ki, elektron vasitələrlə böyüyən, gözünü açıb sosial şəbəkələri görən yeni nəsli köhnə metodlarla maraqlandırmaq, maarifləndirmək çətindir. Buna görə də onların dilindən danışmağa çalışırıq.

Klassik kitabla böyüyən adamlar üçün kağızın qoxusu, onun maddi ağırlığı necə dəyərlidirsə, gözünü açıb planşetləri, smartfonları, elektron kitabları görən yeni nəsil üçün də hər hansı texnoloji vasitənin düymələri, funksiyaları o qədər doğmadır, dəyərlidir.

Bugünkü dünyada insanın reallıq hissi, dünyaya baxışı fasiləsiz şəkildə sosial şəbəkədəki linklər vasitəsilə parçalanır, başqa-başqa ünvanlara yönləndirilir. Bu, mərkəzi olmayan dünyadır. Belə bir dünyanı ifadə etmək üçün ənənəvi metodlar həmişə işə yaramır, burda yeni eksperimentlərə ehtiyac var.

Son illər bu parçalanmış, fraqmentar gerçəkliyi elə özünə uyğun formada ifadə etməyə çalışan bir neçə kitab oxumuşam.

Onlardan ən maraqlısı yeni dövrün ən məşhur amerikalı tənqidçilərdən biri olan Deyvid Şildsin "Reallıq aclığı" kitabıdır. Bu nəzəri kitab bütövlükdə bir cümləlik, bir abzaslıq, bir paraqraflıq hissələrdən ibarətdir. Elə bil, kitab feysbuk statusları kimi yazılıb. Müəllif özü yazır ki, yeni dövrün metodu ədəbi kollajdır, yəni ayrı-ayrı sahələrdən maraqlı olan fraqmentləri, parçaları yan-yana gətirməkdir.

Bizim ədəbiyyatımızda son illər gerçəkliyin bu tipli fraqmentar formada ifadəsini Rəşad Məcidin "Qələmsiz yazılanlar: status-esselər, sms-esselər" kitabında görürük. Rəşad Məcid klaviatura dövrünün status, sms kimi formalarını qələm dövrünün esse janrıyla sintez edərək bəzən replikanı, bəzən isə gələcəkdə yazılacaq bir yazının eskizini xatırladan mətnlər yazır. Akademik İsa Həbibbəyli kitaba yazdığı geniş ön sözdə bu məqama diqqət çəkərək yazır: "Rəşad Məcidin statusları və sms-ləri bir romanın eskizləridir".

Bu məqamda mən 2013-cü ildə "Beynəlxalq Buker Mükafatı"nın qalibi, minimalist hekayələr ustası Lidiya Deyvisi xatırladım. Lidiya Deyvisin qısa hekayələrini fotoaparatın ani yanıb-sönən işığına, şimşək çaxmasına bənzədirlər. Mən ilk dəfə Deyvisin "Buker" mükafatını qazanmış hekayələr kitabını oxuyanda çaşıb qalmışdım: bəzisi cəmi bir cümlədir, bəzisi cəmi abzas, bəzisi isə bir paraqrafdır. Heç bir hekayəsi bir səhifədən çox deyil, bu mərkəzsiz kitabı ensiklopediya kimi təsadüfi bir yerindən açıb oxumaq mümkündür. Amma nə qədər paradoksal səslənsə də, bu fraqmentarlığın, yarımçılığın, minimalizmin, sona qədər deməməyin içində insanla, həyatla, dünyadakı yerimizlə bağlı qəribə bir informasiya bolluğu, detal zənginliyi də var.

Sosial şəbəkələrlə ədəbiyyat mövzusunu araşdırarkən diqqətimdən yayınmış bir kitaba da rast gəldim. Bu, Vüsal Həmzəyev adlı müəllifin "Alatoran yayınları"ndan çıxmış "Facebo-

ok gündəliyi" adlı kitabıdır. Məlum oldu ki, müəllifin bu kitabı Rəşad Məcidin kitabından əvvəl çap olunubmuş, amma burda format bir az başqadır. Kitabın tanıtım mətnində oxuyuruq:

"...Dünyanın ən kütləvi sosial şəbəkəsi olan Facebookdakı Azərbaycan gündəmi. Bu kitabda azərbaycanlı Facebook istifadəçisinin 3 il ərzində yazdığı statuslar, qeydlər, şərhlər toplanmışdır. Müxtəlif akademik və peşəkar fəaliyyətlə məşğul olan 7 Facebook istifadəçisinin 2010-2012-ci illər ərzində hadisələrə münasibəti, nəql etdikləri hekayələri, keçmiş, bu gün və gələcəklə bağlı fikirlərini bir kitabda toplamaqda məqsədimiz, çağdaş Azərbaycan tarixinin virtual salnaməsini, qismən də olsa, arxivləşdirərək qoruyub saxlamaq və gələcək nəsillərə ötürməkdən ibarətdir".

Elə bu tanıtım yazısından növbəti bir məqama keçmək olar: həm Rəşad Məcidin, həm də Vüsal Həmzəyevin kitabı ənənəvi mediadan sonrakı dövrün informasiya vasitəsi olan sosial şəbəkədə yayımlanmış yazılardan ibarət olsa da, hər iki müəllif elektron dünyaya, virtual məkana etibar etməyərək, "arxivləşdirərək qoruyub saxlamaq" instinkti ilə bu yazıları yenidən konvensional formada - kitab şəklində çap etdiriblər. Elektron kitab kimi də yox, məhz kağız kitab kimi. Bu fakt bizi yeni dövrün məşhur mübahisələrindən biri olan elektron kitab kağızı kitabı, "onlayn satış mərkəzləri klassik kitab dükanlarını sıradan çıxaracaqmı?" sualına doğru aparır. Görkəmli alim, yazıçı mərhum Umberto Eko bu mövzuyla bağlı tanınmış rejissor Jan Klod Kariyerlə söhbətlərindən ibarət "Kitablardan xilas yoxdur" adlı kitabında deyir ki, biz internetlə - klaviatura ilə əlifba dövrünə geri qayıtdıq, kompüter bizi Quttenberq qalaktikasına geri qaytardı, indi hamı hərfləri tanımağa, oxumağa məcburdur. Ancaq oxumaq üçün maddi bir platformaya ehtiyac var. Yazıçı deyir ki, bu maddi platforma təkcə kompüter ola bilməz, çünki bir

romanı oxumaq üçün monitorun qarşısında iki saat otursanız, gözləriniz tennis topuna dönəcək, üstəlik, kitabın belə deyək ki, batareyası bitmir; deməli, kitab hələ də praktikdir. Kitab eynilə qaşıq kimi, çəkic kimi, təkər kimi və ya qayçı kimidir. Bir dəfə icad edildikdən sonra ondan yaxşısını düzəltmək mümkün deyil.

Sözügedən məsələylə bağlı "İn the flow" (Təxminən "Axarda") adlı kitabında tədqiqatçı Boris Qroys yazır ki, internet məkanında, sosial şəbəkələrin sərhədsiz dünyasında artıq seçici olmaq mümkün deyil. XX əsrin əvvəllərində sənətçilərin və yazıçıların başını ağrıdan sual beləydi ki, seçim meyarı, kriteriyası nədir? Niyə bəzi əsərlər muzeyə qəbul edilir, bəziləri yox? Niyə bəzi əsərlər çap olunur, bəziləri yox? Araşdırmaçı yazır ki, təbir caizdirsə, sənət əsərlərini muzeylərə, yaxud nəşriyyatlara layiq görən seçim mexanizmləri bir növ qatı katolik meyarlara əsaslanırdı: belə ki, bir əsərin yaxşı, gözəl, ilhamverici, orijinal, yaradıcı, güclü, ifadə gücü yüksək, tarixi mənada əhəmiyyətli olması... kimi meyarlar əsas götürülürdü. Ancaq bu yanaşmalar sıradan çıxdı, özünü doğrultmadı, çünki estetik modernizmdən, avanqard sənət nəzəriyyələrinin ortaya çıxmasından sonra heç kim bəzi sənət əsərlərinin niyə digərindən daha yaxşı olduğunu izah və isbat edə bilmədi. Qroys yazır ki, buna görə də, məcazi dildə desək, katolik yox, protestant, kalvinist yanaşmalar daha uğurlu oldu. Məncə, Qroysun demək istədiyi, bu yanaşmanın filoloji qarşılığı olan oxucu-mərkəzli nəzəriyyələrdir. Müstəqil, başqalarının qılıncı altından keçmək məcburiyyəti olmayan, kənarda legitimlik axtarmayan çağdaş nəzəriyyələr. Əvvəllər beləydi ki, oxucu kitabdan zövq almaq, teatr tamaşasına dalmaq üçün işin maddi tərəflərini unutmalı, özünü prosesə təslim etməliydi. Qroysun təbirincə desək, fiksiyanın fiksiya kimi işləməsi üçün maddi, texniki, nəzəri çərçivə hərəkətsiz qalmalıydı. Ancaq ötən əsrin əvvəlindən avanqard hərəkatlar sənətin

gözdən qaçırılan, unutdurulan maddi tərəflərini tematizə etməyə başladılar. Məsələn, Bertold Brext teatrda dördüncü divar anlayışını götürməyə çalışdı, futuristlər, konstruktivistlər sənətçiləri həqiqi maddi şeylər istehsal edən mühəndislərə oxşatdılar, Haydegger həqiqi sənəti fiksiya olana qarşı mübarizə kimi başa düşürdü və s. İnternet, sosial şəbəkələr avanqardın bacarmadığı şeyi bacardı. İnternet informasiya platformasıdır, ancaq onun emal etdiyi informasiya həmişə internetin özündən kənardadır, yəni oflayndır.

Bu gün geniş mənada internetin, sosial şəbəkələrin sənətə, ədəbiyyata təsiri qaçılmazdır. Çünki sosial şəbəkələr insanın təfəkküründən, təhtəlşüurundan tutmuş yaradıcı janrlara qədər hər gün fasiləsiz şəkildə hər şeyə təsir edir. Ötən illərdə Şotlandiyanın Dandi Universitetində Yeva Murzinin rəhbərlik etdiyi bir araşdırmada məlum oldu ki, ağ-qara televizorlar dövründə dünyaya gəlmiş, böyümüş insanların əksər hissəsi yuxularının ağ-qara olduğunu, rəngli televizorların kütləviləşməsindən sonra dünyaya gələnlərin əksəriyyəti isə yuxularının rəngli olduğunu iddia ediblər. Gözünü açıb birbaşa smartfonları, internet, vay-fayı, yutubu, instaqramı görən Z nəslinin nümayəndələrinin yuxuları da, zövqləri də fərqlidir. Onları ənənəvi ədəbi mətnlərlə, ənənəvi şərh metodlarıyla, ənənəvi qiymətləndirmə biçimləri ilə təəccübləndirmək də, maraqlandırmaq da, şərh etmək də çətindir. Vaxtilə Borxes yazırdı ki, ədəbiyyat idarə olunan yuxugörmədir. Freyd isə deyirdi ki, yaradıcılıq gündüz görülən yuxudur. Məsələn, günü-gündən yüksək sürətlə inkişaf edən videooyun sektorunu dünyada artıq elektronik sənətin bir növü kimi qəbul edirlər və ordakı süjetlər, narrativ formaları ciddi mətnlərə tətbiq edilən metodlarla şərh olunur. Sonuncu oxuduğum bir araşdırmadan məlum olur ki, Fransada videooyunları da ciddi hekayə kimi, roman kimi, Delözün, Fukonun nəzəriyyələri ilə

şərh edirlər və bunlar ciddi jurnallarda çap edilir. Çünki inkişaf etmiş ölkələrin sənət mərkəzləri başa düşüblər ki, artıq XXI əsr texnologiya əsridir, internet əsridir və dəyişən dünyanın nəbzini anlamaq, yeni nəsillərin marağını çəkmək istəyirlərsə, qapıları, pəncərələri onun üzünə bağlamaq, XX əsrin köhnəlmiş problematikasını qızdırıb yenidən fikir süfrəyə verməklə ancaq özləri uduzurlar. Bu mənada biz daha böyük anaxronizmin içindəyik. Yaxşı ki, Milli Elmlər Akademiyası ədəbiyyat dünyasının ən qabaqcıl təmayüllərinə öz qapılarını açmaq qərarı verdi, bundan hamımız qazanacağıq.

Sosial şəbəkələr vasitəsilə biz, bir növ, nağıllardakı eyni anda bir neçə yerdə olmaq möcüzəsini reallaşdırdıq: həm real həyatda monitorun qabağında, telefonda mövcuduq, həm də virtual avatarımız, profilimiz vasitəsilə rəqəmsal dünyada; həm qəzet səhifəsindəyik, həm də saytda. Ötən illərdə Amerika yazıçısı Emili Liebertin "Feysbuk nağılları" kitabı da bundan bəhs edir - nağıllardakı kimi sərhədlərin itməsindən. Kitabda Danimarkanın baş nazirinə feysbukda dostluq göndərən bir kənd müəllimindən misal gətirilir. Bir neçə ay nazirlə yazışdıqdan sonra onu kəndlərindəki məktəbə dəvət edən müəllimin nümunəsində sərhədlərin, iyerarxiyaların şərtiləməsi vurğulanır. Artıq indiki dünya özünü fil dişindən qüllələrə qapadanların yox, kommunikativ olanların dünyasıdır.

Sosial şəbəkələr erasında kitabların məzmunu, mövzusu dəyişmədi, yazı formaları da çoxaldı, başqalaşdı, yeni-yeni formalar ortaya çıxdı. Məsələn, fləş fikşn (flash fiction) deyilən tərz ortaya çıxıb, çox qısa, fotoaparat işığının parlayıb sönməsi kimi sürətlə yazılan hekayələr, ən çox 300 işarədən ibarət olmalıdır. Bu tərz Tvitter sosial şəbəkəsinin təsiriylə yaranıb, bildiyiniz kimi, tvitterdə yazmaq üçün işarə sayı məhdudiyyəti var. Buna görə bu yeni formaya tvit-hekayə deyənlər də var.

Müasir dövrdə podkostlar, bloqlar, portallar ənənəvi formatlara alternativ kimi ortaya çıxmaqda və operativ olduqları üçün daha geniş vüsət almaqdadır. İnternet məkanında ədəbiyyat 2000-ci illərin əvvəllərində əvvəlcə saytların tərkibindəki forumlar və çat qruplarında özünə yer axtarmağa başlamışdı. Sonradan kultura.az, medeniyyet.az, kulis.az, sim-sim.az, artloqos.az, yarpaq.az, muellif.az, avanqard.net, artkaspi.az kimi müstəqil və ya hansısa qurumun tərkibində fəaliyyət göstərən ədəbiyyat saytları meydana çıxdı. Bununla yanaşı, əvvəllər daha passiv olan "Ədəbiyyat qəzeti" yeni heyətlə mədəni həyatımıza aktiv şəkildə daxil olduqdan sonra onun eyniadlı saytı da aktivləşdi və qısa zamanda sosial şəbəkələrə adaptasiya oldu.

Sosial şəbəkələr dövründə ədəbiyyat mövzusunda bizdə yazılmış (mənim rastıma çıxan) hələlik yeganə araşdırmanı rus dilində professor Asif Hacıyev yazıb. Onun 2012-ci ildə "Mütərcim" nəşriyyatında çapdan çıxan kitabı belə adlanır: "Сетература: история, типология и поэтика русской сетевой литературы".

Yeni dövrdə bütün dünyada yutub platformasında da ədəbiyyatla bağlı xeyli layihələr ortaya çıxır. Bizdə hələlik bu məcrada böyük aktivlik olmasa da, son illər internet tv-lərin çoxalmasıyla birlikdə videoformatlara can atım hiss olunur. Pandemiya dövründə distant, onlayn təhsilin vacibliyi bir daha bütün dünya üçün təsdiqləndikdən sonra, onlayn mühazirə, videoesse kimi janrlarda ciddi artım görünür.

Dünyada yaxın illərdə instaqram platformasının hədsiz məhşurlaşmasıyla birlikdə bir xeyli məşhur nəşriyyat klassik əsərləri illüstrativ formada instaqrama adaptasiya etdi. Məsələn, Kafkanın məhşur "Çevrilmə", Ekzüperinin "Balaca Şahzadə" kimi əsərləri insta-roman formatında yayımlandı. İndi dünyada insta-roman, insta-şeir kimi janrlar barədə qızğın müzakirələr gedir.

2020-ci ildə yazıçı Sahilə İbrahimovanın təşəbbüsü ilə Azərbaycanda ilk dəfə ədəbiyyatyönümlü instaqram jurnalı "Karusel" fəaliyyətə başladı. Jurnalın təsisçisi Sahilə İbrahimova bu layihəni belə açıqlayıb: "Pandemiya, insanların gərgin psixoloji durumu fonunda cəmiyyəti biblio-kitab terapiyası vasitəsilə sağlam saxlamağı hədəfləmişik. Hay-küydən uzaq, insanlara həqiqətən mənəvi dəstək ola biləcək bir məkan yaratdığımıza inanırıq. Biz insanlara ədəbiyyata, incəsənətə ehtiyacları olduğunu anlatmaq istəyirik". - Bu sözləri jurnalın təsisçisi Sahilə Yaya bildirib.

İnsta-jurnalda hazırda məşhur olan ədəbi tendensiyalar Azərbaycanda tanınmasa da, dünyada olduqca çox oxunan yazarların, eləcə də ədəbi-psixoloji tendensiyaların müzakirəsi, tərcümələr, eyni zamanda yerli yazarların unikal yanaşmaları yer alacaq".

Görünən budur ki, bütün dünyada ədəbiyyata, mədəniyyətə, sənətə ciddi təsir edən sosial şəbəkələr yeni əsrdə ənənəvi platformalara hələ çox təsir edəcək.

21.10.2020

Asif Hacılı,
professor

Rəşad Məcidin qələmsiz yazdıqları və ya şəbəkə ədəbiyyatımızın ilk nümunəsi

Son iki əsrin qovşağında izlənən texnogen qloballaşma insanların fərdi və ictimai şüurunu, həyat tərzi və fəaliyyətini, o cümlədən kommunikasiya proseslərini və estetik şüuru dərindən ehtiva etdi. Min illərlə müəyyən zümrənin fərdi refleksiyası kimi aktuallaşan bədii yaradıcılıq kütləviləşərək demokratikləşdi, klassik ədəbi meyarlardan uzaqlaşdı. Ərəstudan bəri sənətin təməl anlayışlarından olan mimesis – təqlidi sənət və katarsis - sənətin insanı dəyişdirməsi və yeni dünya yaratması müddəaları arxa plana keçdi. Sənayeləşmə dövrünün burjua əxlaqına asi olan modernizm də geridə qaldı, postindustrial mərhələnin normalarını aşan postmodernizmlə əvəzləndi.

Dəyərlər tənasübünü qəbul edən, özünü keçmişlə tutuşduran, utopiyaya inanan modernizmdən fərqli olaraq, postmodernizmə sabit ənənədən və ənənəvi dəyərlərdən uzaqlaşdı. Ənənəvi mədəniyyət dünyanı və bu dünyada insanı tərənnüm edirdi, modernizm ekstremist formalarda olsa da mühitindən təcrid olunmuş insanın daxili aləmini çözələyir, yəni cəmiyyəti "unutmurdu". Postmodernizm isə özünə qapanaraq, özü-özünü ifadə etməyə, ətrafa şübhə ilə yanaşmağa və eyni zamanda bu şübhəlini aşkarlamağa başladı. Yaradıcılıq oyuna, dünya mətnə çevrildi. Artıq dünya inikas və dərk edilmir, virtual dünya-mətn yaradılır, özü də çoxlu dünyalar.

Beləliklə, "təmiz" fəlsəfəni inkar edən, müxtəlif "mətn"lərə hopmuş "dağınıq" fəlsəfəni önə çəkən postmoderndə obyektiv reallıq virtual dünya-mətnlə, həqiqət "iz"lə, mahiyyət oyunla, qanunauyğunluq təsadüflə, məntiq anarxiyayla, yaradıcılıq və sintez dekonstruksiya və destruksiya ilə əvəzləndi. Müəllif kateqoriyası silindi, ilkin mənbə əhəmiyyətsizləşdi, mətnləri sinkretiklik, fraqmentarlıq, irreallıq, quramalıq, mərasimilik, məntiqsizlik, sitatçılıq-senton, fövqəlmətnlik-intertekstlik, mənbəsizlik-simulakr, irrasionallıq, aqrammatiklik fərqləndirməyə başladı.

Lakin artıq postmodernizm də tarixə qovuşmaqdadır, insana ehtiyacı olmayan "ağıllı" texnologiyaların və virtual kommunikasiya sistemlərinin yayılması, internet şəbəkənin qloballaşması həyat tərzində, humanitar təfəkkürdə və bədii yaradıcılıqda post postmodernizm adlandıra biləcəyimiz yeni proseslərə rəvac verməkdədir. Virtual informasiya məkanı və kommunikasiya sistemləri bütün sınırları aşır və internet şəbəkədə gerçəkləşən bədii yaradıcılıqda kütləvilik, plüarizm, interkulturluq dərinləşir. Artıq milli formalar və mətnlər özləri belə qlobal elektron şəbəkədə mövcud olduğundan, bu sistemin "dil"inə, atmosferinə uyğunlaşır, müasir sivilizasiyanın mühüm hadisəsi olan şəbəkə öz avtonom submədəniyyətini, eləcə də ədəbiyyatını yaradır. İnteraktiv və işarəvi kommunikasiya kanalı olan qlobal Şəbəkə məlumatın yayılması və kommunikasiya vasitəsi olmaqla yanaşı, həm də sənət əsərlərinin yaradılması, mövcudluğu və gerçəkləşməsi məkanına çevrilir.

Bu baxımdan, ədəbiyyatın İnternet Şəbəkəsində varlığını iki səpkidə qavraya bilərik: a) mövcud əsərlərin ("kağız" formatında) Şəbəkəyə yerləşdirilmiş mətnləri; b) qlobal informasiya şəbəkəsi olan internetdə yaradılmış və qavranılan əsərlər. Bir çoxları klassik və müasir ənənəvi əsərlərin internetə yerləşdi-

rilməsini janr baxımından şəbəkə ədəbiyyatı nümunəsi saymır. Ancaq bütövlükdə doğru olan bu fikir tam mənzərəni əks etdirmir, belə ki, ənənəvi əsər Şəbəkəyə yerləşdirilərkən, proqramlaşdırmanın texniki və funksional xüsusiyyətləri, o cümlədən fraqmentləşdirmə, interaktiv istinad və şərhlər, vizual və akustik müşayiət və sairə sayəsində mətn özünəməxsus formal cəhətlər qazanır və bunlar əsərin qavranılmasına təsir edir, nəticə etibarilə, məzmunun yeni çalarlarını aşkarlayır. Yəni mövcud mətnin Şəbəkədə oxunuşu, klassik Kitab tərəfdarlarının bütün etiraz və dəlillərini qəbul etsəm də, deməliyəm ki, həvəskar və xüsusən peşəkar oxucu və tədqiqatçı qarşısında yeni imkanlar açır. Oxucu mətn fraqmentləri arasında sərbəst hərəkət, öz şərhlərini yazmaq, müəlliflə və digər oxucularla kütləvi müzakirələrə qoşulmaq, informasiya mübadiləsi etmək imkanı qazanaraq, passiv adresatdan fəal tərəf-müqabilinə çevrilir. Bununla da mövcud yazılı mətnin internet şəbəkəsində oxunuşu bir çox subyektlərin iştirakı ilə baş verən interaktiv yaradıcı proses olaraq gerçəkləşir.

Lakin janr baxımından Şəbəkə ədəbiyyatı məhz internet proqramlaşdırma dilinin texniki xüsusiyyətlərinə uyğun olaraq şəbəkədə yaradılmış, buna uyğun spesifik ədəbi tipologiyası olan və əsasən İnternet qlobal informasiya şəbəkəsində adekvat fəaliyyət göstərib qavranılan bədii mətnlər məcmusudur. Şəbəkə ədəbiyyatı bu baxımdan yazılı şəkildə internet şəbəkəsində yaradılaraq yerləşdirilmiş, redaktə, dəyişiklik və əlavələr oluna bilən ədəbi mətndir. Bu əsər interaktiv yaradıcılıq-oxu prosesində çoxsaylı oxucuların eyni zamanda istifadə edə bildiyi, davam və inkişaf, süjeti dəyişmək, yaradıcılıq prosesinə qoşulmaq imkanına malik olduğu istənilən ritorik mətndir. Yəni şəbəkə ədəbiyyatına xas mətnlər ən azı aşağıdakı xüsusiyyətlərə malik olmalıdır: kollektiv yaradıcılıq, yəni çoxmüəlliflilik potensialına; mətinin birləşdirilməsi, dəyişdirilməsi, davamı,

redaktəsi imkanına, interaktiv istinad və sairədən ibarət hipermətn xüsusiyyətlərinə; mətnin yaradılmasının və təqdiminin avtomatlaşdırılmış texniki metodlarına. Bunlardan başqa, şəbəkə ədəbiyyatı mürəkkəb reytinq və status sistemi, veb-oxucular və müəlliflərin birbaşa ünsiyyəti, sərbəst nəşr imkanı, səs, görüntü və yazının çulğaşması, eləcə də daxili əxlaqi və hüquqi normaların mövcudluğu ilə fərqlənir. Bu virtual yaradıcılıq həm də rəngarəng janr sistemi, portal, elektron kitabxana, ədəbi jurnal, ədəbi birlik və qrup, ədəbi forum, fərdi saytlar, bloq, çat və digər bu kimi nəşr orqanlarına malikdir. Bu yaradıcılıq növ və janrları olduqca geniş və şaxəli, eyni zamanda dinamik və dəyişkəndir.

Mövzudan yayınmamaq üçün şəbəkə ədəbiyyatının tarixi, tipologiyası, poetikası, hüquqi-normativ aspektləri ilə maraqlananlara rus şəbəkə ədəbiyyatına dair Bakıda və Saratovda dərc olunmuş, hazırda Rusiya ali məktəblərində tədrisdə istifadə olunan dərs vəsaitimlə tanış olmağı məsləhət görərdim.

Bu ümumi məlumatdan da aydın olduğu kimi, şəbəkə ədəbiyyatı bir çox xarici ölkələrdə geniş vüsət almış kütləvi, demokratik, plüarist, müəyyən ədəbi tipologiyası və poetik sistemi olan, milyonlarla müəllif və oxucu kütləsini birləşdirən, ictimai şüura, mədəniyyətə təsir edən qlobal kommunikasiya platforması və alternativ ədəbi-yaradıcılıq prosesinin cərəyan etdiyi virtual məkandır. Bütün bu sadaladıqlarımız onu deməyə əsas verir ki, bu qlobal informasiya kanalı, burada təmsil olunmuş əsərlərin klassik meyarlar baxımından keyfiyyət və dəyərindən asılı olmayaraq, insanların dünyagörüşünə və bununla da milli şüura, mədəniyyətə, cəmiyyətə və deməli, dövlətçiliyə təsir edən mühüm amillərdəndir. Təbii ki, bu amilin amiranə önlənməsi və digər sovetsayağı "tədbirlər" mümkün və gərək də deyil. Dünya beynəlxalq kommunikasiya sistemləri vasitəsilə qloballaşır və ədəbiyyat, sənət də artıq bu ortaq informasiya məkanına daxil

olur. İnsanlar və deyərdim ki, xalqlar, dövlətlər məhz bu qlobal ünsiyyət şəbəkəsində iştirak fəallığı və keyfiyyətinə görə tanınır və özünə uyğun mövqe qazanır. Bunun gerçək təzahürünü Vətən müharibəsində apardığımız 44 günlük tarixi mücadiləmiz dövründə və hələ də soydaşlarımızın beynəlxalq sosial şəbəkələrdə düşmənə və bədxahlara qarşı kollektiv və həmrəy şəkildə fəal iştirakında, hər kəsin öz imkanları qədər Qarabağ həqiqətləri ilə bağlı haqq səsimizi opponentlərə və dostlara böyük səy və məsuliyyətlə çatdırmasında, erməni təxribatlarına, qıcıqlarına verdikləri sanballı cavablarda gördük. Belə həmrəylik və fəallıq, ağıllı vətənpərvərlik sosial şəbəkələrin həm ana dilli, həm xarici dillərdəki seqmentlərində ilk dəfə idi ki, bu səviyyədə izlənilirdi. Digər tərəfdən, müharibəyə qədər internet nəsli deyərək bəzən tənqid edib qınadığımız gənclərimizin müharibədə göstərdiyi misilsiz qəhrəmanlıq, rəşadət və vətənpərvərlik belə bir həqiqəti bir daha təsdiqlədi ki, bu yeni nəsil bizdən yaxşı və ya pis deyil, sadəcə fərqlidir və onların bu fərqliliyinə də hörmətlə yanaşmalı, onların həyat fəlsəfəsi və maraqlarını anlamalıyıq.

Belə anlanılmalı məsələlərdən biri də məhz şəbəkə ədəbiyyatı, şəbəkə məkanında yaranan və fəaliyyətdə olan ədəbi-bədii yaradıcılıqdır. Gənclərin xeyli hissəsi ədəbiyyatı internet şəbəkəsində oxuyur, ümumən məlumatı buradan alır. Lakin dünya təcrübəsi ilə müqayisə etsək görərik ki, müəyyən epizodik istisnalar olmaqla, milli Şəbəkə ədəbiyyatımızın məzmun və kəmiyyətinə görə qaneedici bir hadisə kimi mövcudluğunu təsdiqləmək elə də asan deyil. Müxtəlif informasiya kanalları olsa da, şəbəkədə yazılı ədəbiyyatımızın müasir texniki imkanlara uyğun yerləşdirilməsi və müstəqil şəkildə şəbəkədə yaranan ədəbiyyat təxminən yox səviyyəsindədir.

Buna görə də dəyərli ziyalımız, müstəqillik dövrümüzün azsaylı mətbuat mənəvi-mədəni brendlərindən olan “525-ci qə-

zet”in yaradıcısı və rəhbəri, bu vaxta qədər yüksək bədii səviyyəsi və ciddi məzmunu ilə seçilən epik və lirik əsərlərin müəllifi olan istedadlı ədibimiz, Yazıçılar İttifaqının demokratik və ədalətli rəhbərlərindən biri kimi öz simasını bütün məqamlarda qoruyub saxlamış sədr müavini, həmkar və dost kimi dərin hörmət bəslədiyimiz və güvəndiyimiz Rəşad Məcidin “Qələmsiz yazılanlar” kitabını böyük ruh yüksəkliyi və məmnunluqla qarşıladım. Bu kitab - sözün tam mənasında milli şəbəkə ədəbiyyatımızın ilk nümunəsi və deməli, müəllif tərəfindən böyük məsuliyyəti olan ədəbi hadisə kimi dəyərləndirilə bilər. Zəngin materialı və fəal prosesi olan rus şəbəkə ədəbiyyatı barədə təxminən on il əvvəl ölkəmizdə və Rusiya mühitində ilk və təqdir edilmiş dərs vəsaitini çap edirmiş bir ədəbiyyatşünas kimi, mənim üçün də Rəşad Məcidin milli şəbəkə ədəbiyyatının ilk nümunəsi olan kitabı haqqında obyektiv münasibət bildirmək məsuliyyətli işdir. Buna görə də kitabla yaxından tanış olmağı özümə borc bildim və bu tanışlıqdan da məmnun qaldım.

Rəşad Məcidin “qələmsiz yazdığı” toplu sözün hər mənasında şəbəkə ədəbiyyatının və ümumən milli ədəbiyyatın yeni forma və mündəricəli, quruluş və məzmununa görə kamil, ortaq məna məhvərində təmərküzləşən vahid bədii əsərdir. Fikrimcə, müəllifin “status-esselər” və “sms-esselər” adlı iki qrupa ayırdığı mətnləri birləşdirən, toplunu vahid bütövdə təmərküzləşdirən əsas amil məhz müəllif obrazıdır. Rəşad Məcidin “Qələmsiz yazılanlar”dakı bu obrazını (söhbət məhz virtual statusdan gedir) internet şəbəkələrindəki oxucuları-müsahibləri yaxşı tanıyır və ona etimad edir. İnternetdə geniş yayılmış anonim personajlardan fərqli olaraq, Rəşad Məcidin şəbəkədəki müəllif siması konkret və gerçəkdir, müsahibləri bu məhrəm nitq subyektinin baxış bucağına bələddir. Buna görə də onun status və sms esselərini yazıçının şəbəkədənkənar gerçək müəllif kimi bu vaxta

qədər formalaşmış ədib, şair, nasir, publisist imzasının təəssüratı ilə qavrayırlar. Bu isə ədəbiyyat və jurnalistika ierarxiyasında müəyyən rəsmi mövqe və mənsəbi olan müəllif üçün böyük məsuliyyət və cəsarət deməkdir. Gerçək ədəbi mühitdə imzasını təsdiq etmiş, tanınan və qəbul edilən imici olan populyar bir qələm sahibinin, öz dediyi kimi, "qələmini" qırağa qoyaraq tam başqa bir aləmə, plüarist, liberal, çoxsəsli, çoxüzlü, bəzən sərt və amansız ünsiyyət mühitinə keçməsi, buradakı imzalı və ya anonim oxucuları ilə ənənəvi ərkandan, daxili senzuradan azad bərabərhüquqlu dialoqa girməsi asan iş deyil. Bu, müəllifin nəinki şəbəkədə söyləyəcəklərinin, həm də bu vaxta qədər yazdıqlarının və söylədiklərinin də çox məsul və sərt sınağa çəkilməsidir. "Qələmsiz yazılanlar"la tanışlıq göstərdi ki, Rəşad Məcid bu sınaqdan uğurla çıxıb və ədəbiyyatımızda ilk sanballı nümunəsini təqdim etdiyi şəbəkə ədəbiyyatımızın uğurlu və yeni cığırlar açacaq perspektivli nümunəsini təqdim edib. Nədir bu uğurun rəhni olan xüsusiyyətlər və yenilik?

Əvvəlan, burada şəbəkə ədəbiyyatı və ənənəvi ədəbiyyat münasibətlərinin yeni çaları ilə üzləşirik: bu münasibətlər bir qayda olaraq, "qələmlə yazılan" kağız ədəbiyyatından virtual internet şəbəkəsinə doğru yönəlir. Lakin Rəşad Məcid şəbəkədə sərbəst şəkildə yazdıqlarını toplayaraq ənənəvi "kağız" ədəbiyyatı formatına gətirmiş və bununla da, vaxtilə Qərbdə andeqraundun elitar və rəsmi mədəniyyətə müdaxiləsinə bənzər bir prosesin milli ədəbiyyatımızda başlanmasına rəvac vermişdir. Müəllif özü bunu anlayır və nə elədiyinin fərqində olduğunu xarakterinə xas səmimiyyətlə bəyan edir: "Günün birində ağlıma gəldi ki, bəlkə on ildən bəri yazılan bu statusları toplayıb ayrıca kitab halında dərc etdirim?! Mən bizdə belə bir təcrübəni xatırlamıram, xaricdə isə buna bənzər cəhdlər yəqin, olmamış olmaz! Düşündüm ki, bəlkə, bizdə ilki mən edim!? Və beləcə,

bu ideyanı gerçəkləşdirmək niyyəti ilə ilk addım atdım! Əslində, son dövrlər müntəzəm olaraq statuslar yazmağımın sirri də elə burada idi – "Qələmsiz yazılanlar" kitabını tamamlayırdım". Müəllifin təxmininə cavab olaraq bildirim ki, dedikləri baxımdan, bu səpkili kitab hər mənada ilk təcrübədir.

Rəşad Məcid virtual şəbəkədə yaranmış bu mətnlərində, ilk növbədə "qələmlə yazılan" kağız ədəbiyyatının nümayəndəsi olaraq, eyni səmimiyyətlə özünün digər şakərini, əsl Bakı ədəbi bohemasının dənizkənarı gəzinti, çay və qəzet müzakirəsindən ibarət gerçək həyat tərzinə aidliyini də bildirir: "Dəniz qırağında yeni gəzinti mövsümünü qəzetlərlə açdıq! Yenə hər nə var, qəzetdə var! Qəzet və dəniz daimidir! Bir də incə belli cam bardaqda çay!".

Rəşad Məcid səmimi etirafla statusların yazılması mexanizminin tipologiyasını da bölüşür: bu mətnlərin qələm əldə gecəni gündüzə qataraq söz axtarmağa vaxt və macalın olmadığı qaçaqaç zəmanəmizin tempinə uyğun ovqatdan doğduğunu deyir: "Statuslar yazmağım ovqatımdan asılıdır; bəzən, operativ olsun deyə, hansısa ictimai-siyasi hadisəyə münasibətimi sosial şəbəkələrdə bildirirəm, hərdən də qaçhaqac həyatımızda hər saat əl çatmayan bədii yaradıcılıq arzusu yeni "Status – esselər"in yazılmasına səbəb olur! Bu mənada, yazdığım statuslara küll halında həm qəlbin, həm ovqatın, həm də bir-birini sürətlə əvəzləyən gündəmin xronoloji mənzərəsi kimi də qəbul etmək olar".

Əslində, bu anlaqlı izah sadəcə müasir həyat tərzini deyil, daha qlobal anlamları - insanı xırdalayan, xalqları əzən, milliliyi sarsıdan, cəmiyyəti hörümçək toru kimi saran, dövlətləri parçalayan neoimperializmin qlobal maraqlarından törəyən, həlli üçün hətta "Allaha kömək" lazım olduğu faciələri əks etdirir. Vətənpərvər ziyalı olan Rəşad Məcid üçün bu qlobal faciə ilk

növbədə Qarabağ faciəsidir: “Allah bu zülmü yerdə qoymaz! Bəndənin gördüyü zillətdən, çəkdiyi məşəqqətdən qanı donanda, zalımı, qatili cəzalandıra bilməyəndə ümidi Allaha qalır! 27 il əvvəl Ağdamda sağ qalan Xocalı sakinlərindən baş verən faciəni ilk eşidənlərin dilində bu sözlər tez-tez səslənirdi! - Allah bu zülmü yerdə qoymaz! Bu qədər zaman keçib, qatillər hələ də cəzasını almayıbsa... Vaqif Səmədoğlunun misrası yada düşür: Allaha kömək vaxtıdır!”.

Şükürlər olsun ki, kitabın nəşrindən təxminən bir il sonra haqq yerini tutdu, ordumuz zəfər çaldı, torpaqlarımız Allahın köməyi və Ali Baş Komandanımızın fədakar rəhbərliyi sayəsində işğaldan azad edildi, qəvi düşmən cəzasına çatdı...

Rəşad Məcidin ümumən yaradıcılığında, o cümlədən haqqında danışdığımız mətnlərində Qarabağa, doğma yurdu Ağdama münasibət içdən gələndir, pafossuzdur, təbii və səmimidir. Otuz ilə yaxın bir dövrün vətən acısını Rəşad Məcid pafos və bəlağətlə yox, insani, şəxsi, qəlbindən, ruhundan, varlığının mistik dərinliyindən keçən detal və yaşantılarla aşkarlayır:

“Redaksiyaya gəlirdim, təsadüfən Rəşad Sadıqovla rastlaşdım. Sən demə, müsahibə üçün “Qol.az”a gəlibmiş. Görüşdüm və xatırladım, ona da xatırlatdım: 2009-cu il iyulun 23-ü, Ağdamın işğalı günündə “Qarabağ”ın Norveçin “Rusenborq” komandası ilə oyununu. Oyundan bir gün qabaq Aqil Abbasla birlikdə oyunçularla görüşmüşdük. Mən orada demişdim ki, sabah bütün stadion dolacaq, mənim adaşım Rəşad Sadıqov bir qol vuracaq və biz 1:0 udacağıq. Oyun günü də bunu qəzetlər yazmışdı. Dediyim kimi də oldu! Səhərisi gün “Yeni Müsavat” qəzetində Xalid Kazımlı “Samir Sarı” imzası ilə “Bir Rəşadın falı, bir Rəşadın qolu” adlı məqalə yazdı. O zamanlar məndən soruşmuşdular ki, bunu necə hiss etdiniz? Demişdim

ki, son 15 ildə heç vaxt Allaha bu qədər səmimi-qəlbdən, saf, təmənnasız yalvarmamışdım. Sonra Rəşad Sadıqov da müsahibələrində demişdi ki, topun qapıya girəcəyini mən də təxmin eləmirdim. Bu, nəsə başqa cür oldu! "Rusenborq"un qapıçısı isə demişdi ki, o top qapıya girməməli idi, onu külək elədi! 10 il qabaq baş verən bu hadisədəki mistik məqam indiyədək beynimdə yaşayır"...

...Yuxarıda vurğulamışdım Rəşad Məcidin şəbəkəyə peşəkar ədəbiyyatçı, mətbuat işçisi, tanınmış qələm əhli, şair, publisist, nasir, sədr müavini olaraq gəldiyini. Bu amil bəzi təcrübəli qələm adamlarının ünsiyyətində müəyyən üstün status sindromu, nəsihətamizlik, "ağsaqqallıq" pozası yaradır. Lakin "Qələmsiz yazılanlar" ad, imza, mənsəb şleyfindən uzaq və azaddır. Bütün yazılarında olduğu kimi, bu söz şəbəkəsində də olduğu kimidir, özüdür. Bu mətləbi mətnlərinin birində ironik tərzdə belə ifadə edir: "Baxır kim yazır da... Müəllif yazıyla yarıbayarıdır...".

Rəşad Məcid həyatda da səmimi və təbiidir və şəbəkənin də azad, demokratik ovqatını, oyun qaydalarını, psixologiya və üslubunu qəbul etməsi, özü ilə müsahibləri arasında sədd yaratmamağı təbiidir. Şəbəkə etikası və poetikası baxımından bu, yalnız fərdi-psixoloji deyil, həm də mühüm evristik-kommunikativ amildir, şəbəkə diskursuna adekvat şəkildə dalmağın bariz nümunəsidir, həm də bütün özünəməxsus çalarları ilə: "Sosial şəbəkələr bütün üstünlükləri və yaxşı cəhətləri ilə bərabər, həm də bir oyun və yarışdır. Kim finişə tez çatacaq?! Kim daha çox bəyəniləcək?! Kimin nəfəsi daha tez təngiyəcək?! Kim daha tez yorulacaq?!".

Lakin Rəşad Məcid bütün mahiyyəti ilə klassik formatda ədəbiyyat adamıdır və "qələmli" ədəbiyyata xas düşüncə tərzi və üslub, obraz və personajlar onun şəbəkə mətnlərində də aşkarlanır. "Qələmsiz yazılanlar"da bir çox ədiblərimiz, şair və

nasirlərimiz xatırlanır, ədəbi motivlər işlənir, müasir ədəbi çevrəmizin mənzərəsi yaradılır. Ancaq bu motivlər normativ qaydalara və imza sahiblərinin rəsmi mənsəbinə yox, insani səciyyəsinə və fərdiyyətinə uyğundur:

"Televiziyada Əli Kərimin "Atamın xatirəsinə" şeirini dedim, yaxın günlərdə çap etdiyimiz "Metronun yaylı qapıları" kitabından danışdım, şairin ruhuna ehtiramımı bildirdim. AYB-yə çatan kimi otağıma zəng gəldi. Əli Kərimin həyat yoldaşı Elza xanım idi; minnətdarlığını bildirdi, "Təzyiqim vardı, sənə qulaq asdım, düzəldim, çox sağ ol ki, Əlini yaşadırsan" - dedi";

""Bir də bu dünyaya gəlməyə - tövbə!". Arif Abdullazadə filologiya elmləri doktoru və yaxşı şair idi. Şeirlərinin intonasiyası və aurası fərqliydi. Keçən əsrin 90-cı illərində "525"ə tez-tez gələrdi... Məqalələrini, şeirlərini çap edərdik. Bu misra da onun şeirindəndir. Hərdən kövrək bir hüzn içində yada düşür və müəllifini də ehtiramla xatırladır".

Bu münasibət məhrəm dost bağlılığını ifadə edə ("Çingiz Abdullayev elə sevinclə xəbər yayıb, elə bildim "Neftçi" Londonun "Arsenal"ını 1:0 udub. Sən demə, Tulanın "Arsenal"ıymış") və ya əksinə, müəllifin ədiblik səriştəsi və şakəri önə çıxa bilər ("Gənc yazar Xəlil Adıgözəl mənə "SONra" şeirlər kitabını bağışladı. Əvvəllər bir neçə şeirini oxumuşdum, televiziyadan öz ifasında dinləmişdim. İndi kitab halında oxudum. Elə əvvəlki xoş təəssüratım davam elədi. Bəyəndim kitabı. Xəlil insan hiss və duyğularını şeirə çevirə, bədiiləşdirə, poetikləşdirə bilir. Hiss olunur ki, mütaliəlidir, poeziyanı yaxşı bilir..." - mətn təxminən qısa rəy həcmində davam edir).

Kitabda xüsusi janr formalarından biri də şəbəkə ədəbiyyatının postmodern üslubuna uyğun ironik, yumorlu, satirik və həm də lirik, dramatik, fəlsəfi səciyyəli qısa fraqmentlərdir:

Deyir, cənnət başqalarının qəlbində işğal etdiyimiz yerdir...

***

Hamı özündən danışır, özünə tərif vurur...

***

Mən toyda da yazıram, yasda da...

***

İki həftəydi ki, külək kəsmirdi...

***

...At dəryaya... sonrasıyla işin yoxdur, heç düşünmə də...

***

Kiyevdə nə var ki, yaşamağa... Mən 1500 il yaşayardım.

***

Əsas möcüzənin göstərilməsidir! Bunu "Barselona"nın, yoxsa "Liverpul"un etməsi ikinci dərəcəlidir.

***

Deputatsan, yalan danışırsan?!

***

Bud əti yemir ki, dala yaxındır…

***

Süfrədə başda oturanın əli hər yerə çatmır...

***

Pul ən gözəl duyğuların qatilidir.

***

Özümdən necə muğayat olum?!

***

Lazım olanlar hələ yuxudan durmayıblar...

***

Uşaq idim, qanmırdım...

***

Keçmişlə yaşamayın. Nostalji adamı qocaldır. Gənc qalın...

***

İndi bütün davaların kökündə pul dayanır.

Bilindiyi kimi, poststruktural düşüncədə və postmodern ədəbiyyatda müəllif anlayışı klassikadakı mütləq, hər şeyi bilən və idarə edən totalitar obrazdan fərqlənir, "müəllifin ölümü" tezisi (R.Bart), "biliyin hökmü... dil və hakimiyyət" dilemması (M.Fuko) aşkarlanır, istehza, ironiya, məsxərə önə çıxır. Poststruktural fəlsəfə və postmodern ədəbiyyat (qeyd edək ki, şəbəkəmizdə Əbu Turxan psevdonimi ilə çıxış edən görkəmli filosofumuz Səlahəddin Xəlilin fəlsəfi kəlamları özünəməxsus fenomen kimi yayılıb), eləcə də şəbəkə ədəbiyyatı öz mahiyyəti ilə totallığı və diktatı bütün təzahürlərində inkar edir. Bu əxlaq və ədəbiyyat fitrətdən gələnləri ötürən antik rapsodun, "Dədə Qorqud"da "qaibdən dürlü xəbər söyləyən" ozanın, oxucunu öyrədən maarifçinin, cəmiyyəti öz idealına tuşlayan romantikin əksinədir. Şəbəkə bərabər hüquqlu, bərabər səlahiyyətli tərəf müqabillərinin azad mükaliməsidir, qarşısına məqsəd qoyulmayan və özlüyündə məqsəd olan oyundur, burada dinləyici-oxucu müəlliflə ortaqlaşır və anında öz rəyini, alternativ mövqeyini, müsbət-mənfi və digər çalarlı münasibətini bildirir. Müəllifin varlığı məhz bu tərəf-müqabillərinin say və rəyi ilə müəyyənləşir. Buna görə də burada söylənən fikir hamının qəbul etdiyi ali həqiqət deyil, düşüncə diskursu yaradan qıcıq olmalıdır, kollektivi dialoqa cəlb etməlidir. Rəşad Məcid öz yaradıcılıq təcrübəsi və sənətkar fəhmi ilə bunu gözəl anlayır və müzakirə mövzusunu sətiraltı və ya ironik tərzdə, aşkar yox, sətiraltı ortaya atır:

- Həyatından məmnunsan?

Sualdan karıxdım:

Nə mənada?..

***

Evi də, adamları da pozan puldur. Çətini qapıdan içəri girənəcəndir...

***

Adam özü-özünə necə "istedadlı" deyə bilər, axı? Niyə desin, axı? Kompleksi var, qüsuru var, sapıntısı var, yəqin...

Bəzən isə, "qələmsiz" yazan və "qələm"in hökmündən azad olan bu müəllif öz müsahibləri, tərəf-müqabilləri ilə açıq və hətta provokativ oyuna girir, kütlə şüurunu çəkinmədən məsxərəyə qoyur:

"10 misralıq şeir müsabiqəsi.

Şeir yazanların təkidli xahişi ilə daha bir müsabiqəyə qərar verdik. Aşağıdakı 5 sözün də istifadə olunduğu, ən çoxu 10 misradan ibarət şeir yazmaq: isti, düyün, kələf, nisgil, üşümək. Bu dəfə 10 gün ərzində ən çox "like" yığan 10 müəllifin şeiri münsiflərin mühakiməsinə veriləcək. Qalibə 10 kitab (yaxud 100 manat) nəzərdə tutulur. Uğurlar!".

Müəllifin varlığının və populyarlığının məhz izləyici sayından və bəyənmələrdən asılı olduğu şəbəkə mühitində kütlə psixologiyasına yönəlik belə statusların verilməsi, təbii ki, öz mövqeyinə və öz tərəfdaşlarına əminlikdən gələn mənəvi səlahiyyət və səmimiyyətlə izah oluna bilər. Rəşad Məcid ədəbiyyatımıza həm bədii yaradıcılığı, həm təşkilatçı və naşir kimi fəaliyyəti, həm dost vəfası və həmkar səmimiyyəti, həm də şəxsiyyət bütövlüyü və vətənpərvərliyi ilə bu mənəvi səlahiyyəti qazanmış ədiblərimizdəndir. Ona ilk növbədə ata yurdu Ağdamın, doğma Qarabağımızın azad olunmasına görə gözaydınlığı verirəm və bu ərəfədə milli şəbəkə ədəbiyyatımızın ilk və dəyərli nümunəsi olan və gələcək tədqiqatlarını gözləyən "Qələmsiz yazıları" ərsəyə gətirməsi münasibətilə təbrik edirəm.

24.12.2020

İmdat Avşar,
türkiyəli yazışı-şair, tərcüməçi

“Qələmsiz yazılanlar” haqqında gecikmiş yazı

Yaşadığımız bu dünya 1980-ci illərdən etibarən hərtərəfli böyük dəyişikliklərə, çevrilişlərə səhnə oldu. Sənaye inqilabı ilə birlikdə modern dünyanın inşa etdiyi və standartlaşdırdığı “anlayışlar”, “terminlər”, “qavrayışlar” “zaman”, “dəyərlər”, “ənənəvi sənət”, “peşələr” və s. bir-bir öz anlamını itirdi. Dövrün insanları isə bu dəyişiklik dalğasının gətirdiyi yeniliklərə uyğunlaşmaqda çətinlik çəkməyə başladılar. Bu “informasiya texnologiyası” təməlində başlayan və cəmiyyətin hər sahəsinə təsir edən dəyişiklik dalğası bizim alışdığımız, dəyişməz olaraq dərk etdiyimiz bütün standartlaşdırılmış dəyərləri “dəyişim seli”nin önünə qatıb böyük və sərhədləri olmayan bir boşluğa sürüklədi. Ədəbiyyat da bu dəyişiklikdən öz payını aldı...

Bu baxımdan Azərbaycan yazıçısı, şair Rəşad Məcidin “Turay” nəşriyyatında işıq üzü görən “Qələmsiz yazılanlar” adlı kitabı ədəbiyyat-sənət sahəsindəki dəyişiklikləri dəyərləndirmək baxımından son dərəcə önəmlidir. Kitabı oxuduğumuz zaman zehnimizi bir çox sual məşğul edir: Sosial media bir ədəbiyyat məkanı, ya da ədəbi mühit ola bilərmi? Buradakı paylaşımların heç olmazsa bir qisminin ədəbi dəyəri varmıdır? Virtual ortam kitabın ölümünə səbəb ola bilərmi? İllər öncə bu mövzudakı suallara Nobel mükafatı laureatı Orhan Pamuk tərəddüdlə: “Bəlkə bunlar da ədəbiyyatın bir hissəsidir, bir növüdür, hələlik bir şey

deyə bilmirəm.” – deyə cavab vermişdi. Rəşad Məcid isə sosial mediadakı ədəbiyyata aid paylaşdığı statusları “daima tələsən, ayaqüstü yaranan bir ədəbi janr” adlandırır və sosial mediada ortaya çıxan, qələmsiz yazılan, kitabsız təbliğ edilən mətnlərlə ədəbiyyat baxımından üzləşməyin lazım olduğunu söyləyir.

Son 30-40 ildə sürətlə artan, toplanan informasiya və məlumatın inanılmaz dərəcədə sürətlə yayılması dünyanı qocaman bir evə çevirdi. Az qala, hamı hər şeydən xəbərdar və məlumatlı oldu! İnformasiyanın texnologiyaya çevrilərək bütün kainata yayılması, insanların və cəmiyyətin həyatına da ciddi mənada təsir göstərdi. Fəlsəfə, müasir elmlər, siyasət, ədəbiyyat, sənət də bu dəyişiklik dalğasıyla üzləşmək məcburiyyətində qaldı. Tam da bu zaman modernizmə qarşı savaş elan edən “postmodernizm” düşüncəsinin müdafiəçiləri modernizmin bitdiyini, modernizmin yaratdığı standart qavrayış və terminlərin artıq yaşadığımız dünyanı, cəmiyyəti və yeni yaranan dəyərləri təmsil edə bilmədiyini dilə gətirməyə başladılar. “Ədəbi məktub” ilə çağımızın “qısa mesajları” - birinin ölüb, digərinin həyat qazanması - bunun ən gözəl örnəyidir. Rəşad Məcid də “Qaçaraq düşüncələr toplusu” başlıqlı giriş yazısında, daha doğrusu illər öncəki sosial mediada paylaşdığı bir statusunda bu dəyişikliyin nələrə nail ola biləcəyindən bəhs edir: “Sosial şəbəkələrin və sosial platformaların meydanı ələ keçirdiyini gördüyüm gündən bəri klassik medianın və kitabın gələcəyinə şübhəylə baxıram…” Bu sözlər geniş mənada klassik ədəbiyyat və sənət anlayışının gələcəyinə də şübhəylə baxmağa əsaslar verir.

Postmodernizmin müdafiəçiləri modern dövrün standartlarıyla yaranmış ədəbiyyat və sənətin yaşadığımız dövrün tələblərinə, dövrün insanlarının gözləntilərinə cavab verə bilmədiyi fikrini də irəli sürür, beləcə ədəbiyyatın və sənətin bütün standart qavrayışlarının utilizasiya edilməsi vacibliyini müdafiə edirlər.

Yenidən yaradılması vacib olan ədəbiyyat nədir sualına bəlkə də, ən gözəl cavab və ən yaxşı örnək Rəşad Məcidin "Qələmsiz yazılanlar" kitabı ola bilər. Bu kitabda toplanan, daha öncədən sosial mediada yayımlanan bəzən bir cümləlik aforizmlərinin, kəskin bir ironiyanın, bəzən bir paraqraflıq esselərin, bəzən də qısa hekayələrin insanı dərin düşüncələrə qərq etdiyinin şahidi oluruq. Əksəriyyəti ədəbiyyata aid bu statusların arxa planında bəzən bir romanlıq düşüncə toplanır: "Biz hamımız məğlublarıq", ya da "Nöqtələr bəzən daha çox söz söyləyir…" Müəllifin "Qara reyhan" və "Motal pendiri" kimi mənşəyi sosial media olan qısa hekayələri isə bir roman təsiri bağışlayır. Burada inkişaf edən ədəbiyyat bəlkə də zaman qıtlığında, vaxt qarlığında az sözlə çox şey anlatmaq ehtiyacından doğur. Belə hekayələri "Qısa hekayə" adı ilə yeni ədəbi janr kimi tanıtdıranlar var. Amma məncə, Rəşadın bu hekayələri "kiçik, qısa" deyil, "qaçan, tələsən" hekayələrdir. Bunlara, atüstü ədəbi əsərlər də demək olar. Bəlkə elə atın yerini avtomobilin aldığı dünyamızda bunlar bir yolçuluq əsnasında, qələmsiz-dəftərsiz, telefon ekranına toxunaraq yazılan ədəbi məhsullardır, nə bilmək olar...

Bu gün yaşadığımız dünyanın fərqli bir aləmə, cəmiyyətin başqa bir sosioloji struktura çevrilməsi, insanların fərqlı bir kimliyə bürünməsi, həyatdan gözləntilərin dəyişməsi sanki ədəbiyyat və sənətdə də dəyişikliyi zərurətə çevirir. Jurnalist, şair, yazar Rəşad Məcid xeyli öncədən bu məcburiyyətin fərqində olmuş kimi görünür və elə bu səbəbdən oxucuya, izləyicilərinə "qələmsiz yazılanlar"la, dövrün dilinə çevrilən qısa mesaj və sosial mediadakı statusları ilə müraciət edir.

Məsələn, jurnalist kimliyi ilə "Qadın həbsxanasında gözəllik salonu!" deyir. Bu status ilk baxışdan xəbər cümləsi təəssüratı yaratsa da, əslində dərin qatda fərqli yozumlara yol açır. Hətta həbsxanada, azadlığın olmadığı yerdə belə gözəl görün-

məyə təşnə qadın psixologiyası – qadın təkcə başqasının gözünə yox, öz gözünə də gözəl görünmək istəyir. Bu mənzərə oxucuda istər-istəməz acı bir təəssüf hissi də doğurur və böyük bədii dəyər daşıyır. Şair kimliyi ilə "Bazar gününün rahatlığı qonmuş Feysbukun çöhrəsinə" deyir Rəşad Məcid. Bu bir şeirdir, səs, ahəng, ritm, düşüncə, xəyal, sözün qısası, poetik bir ifadədir.

Sosial media məkanında yayılan bu düşüncələri, bildirişləri, şərhləri "qısa mesaj", "status" və ya başqa terminlərlə izah edə bilərik. Amma adına nə deyilirsə deyilsin, bunların ədəbi bir mahiyyət daşıdığı gün kimi aydındır...

Modernizmə cavab olaraq yaranan postmodernizmin müdafiəçiləri müasir dövrə aid bir çox standart dəyərin ölümünü elan etdilər. Ədəbiyyat dünyasında Umberto Ekonun "Gülün adı" romanıyla başlayan mübahisələr postmodernistlərin "mətnin ölümü", "yazarın ölümü" kimi qavrayışlar ortaya atmasına səbəb olmuşdu. Fəlsəfi mənada doğrunun "tək" olmadığı fikrini müdafiə edən postmodern düşüncənin ədəbiyyata əks olunması, "yazarın" və "mətnin" oxucunu tək bir nöqtəyə, məqsədə, mesaja yönləndirməməsi inkişaf etmişdi. Bu səbəbdən ölüm siyahılarına "yazarı" və "mətni" də daxil etmişdilər. Bu ölüm məcazi mənada yazıçının oxucuya azadlıq verməsi, yəni öz düşüncəsini qəbul etdirməkdən imtina etməsi, mətnin də oxucunu fərqli yozumlara aparması mənasına gəlirdi. Beləcə, düşüncənin uzun-uzadı sözlərlə izahına qarşı çıxılırdı. Rəşad Məcidin bu kitabında fərqli mənaları ifadə edən, sanki onun deyil də, sosial medianın bir statusu kimi görünən mətnləri var: məsələn, "Hər fürsətdə reklam…", "Hər kəs göz önündədir", "Dünya ironik bir təbəssümə bərabərdir" və s.

Yaşadığımız dövrün əsas müəyyənedici məfhumlarından olan "sürət", məsafələri ola bildiyi qədər qısaldır, zamanı daraldır, insanı "sürətli yaşamaq", cəld reaksiya vermək", "tez

qərar qəbul etmək…" məcburiyyətində buraxır. Bu sürət ədəbiyyat sahəsində mətnlərin də boyunun qısalmasına, böyük ədəbi mətnlərin sosial media statuslarına, bir neçə cümləlik, bir paraqraflıq kiçik hekayələrə çevrilməsinə səbəb olur. Bəzi sosial media platformalarının statuslar üçün müəyyən olunmuş hərf-işarə həddi qoymasının da əsl səbəbi budur bəlkə… Bunlar nəzərə alındığında Rəşad Məcidin bu mətnlərinin həm də zamanla ayaqlaşmaq niyyətindən yarandığını söyləmək olar: düşüncələri ola bildiyindən geniş, bu düşüncələri ifadə etdiyi cümlələrsə yığcam və sərhədlidir. Bəlkə də gələcəkdə sosial media meydanının daha da daralacağını düşünür: "Heç kimdən heç bir şey ummamaq qədər böyük azadlıq və hüzur yoxdur. Sevgiyə, şəfqətə, qayğıya da ehtiyacın olmur..." Bəlkə qələm və kağızın yox olduğu bir gələcəkdə düşüncələrimizi bizə izn verildiyi qədər cümlə miqdarında ifadə etməyimiz lazım gələcək. Eynilə Rəşad Məcidin bu gündən etdiyi kimi…

Bu gün Azərbaycan ədəbiyyatının önəmli şair və yazıçılarından olan Rəşad Məcid bu əsəriylə modern-postmodern mübahisələrinin içində olmasa da, "qələmin ölümünü" elan edərək ədəbiyyatda başqa bir müzakirəni yenidən gündəmə gətirir. Bu mənada Rəşad Məcidin "Qələmsiz yazılanlar" kitabı ədəbiyyat-sənət-texnologiya-internet-sosial media münasibətlərini fərqli baxış bucağından gündəmə daşıyaraq yeni cəmiyyəti, cəmiyyətin və insanların tələblərini, ədəbiyyatda yeni bir anlayışı ortaya qoyan, müzakirəyə səbəb yaradan ilk əsərlərdən biri, hətta birincisidir. Rəşad Məcid qələmsiz yazılan bu kitabı ilə sosial mediada – virtual məkandakı bəlli bir oxucu kütləsini - izləyicisini, şərh yazıb fikir bildirənləri, tənqid edənləri bir araya gətirir. Akademik İsa Həbibbəyli Rəşad Məcidin Azərbaycan ədəbiyyatında yeni bir "ədəbi janr" ortaya qoyduğunu irəli sürərək bu yazıları "Sosial media ədəbiyyatı" kimi konseptual-

laşdırır. Ancaq mən SMS-lər iki nəfər arasında olduğu üçün bunun "SMS məktublar" adlandırılmasının daha uyğun olduğu qənaətindəyəm. Bu, məktubun sms-ə məğlub olaraq ədəbiyyat meydanından çəkilib tarixə qovuşduran bir ədəbi janrdır.

Fərqli peşə və sənət sahibi olan bir çox insan kimi yazıçı və şairlər də içərisində olduqları vəziyyəti qəbul etməkdə, dəyişikliklərə, dövrün tələbinə ayaq uydurmaqda çətinlik çəkirlər. Dəyişikliyi görməyən yazıçılar zamanın və dövrün dəyişim kodlarını çözə bilmir, bu tələblərə uyğun əsərlər yazmaqda problem yaşayırlar. Dəyişim fenomeni hər zaman yeniliyə qarşı "dirənmə" hissi yaratdığından bir çox yazıçı və şair də bu dəyişikliklərə qarşı direniş göstərirlər. Beləcə postmodern fəlsəfəçilərin tez-tez dilə gətirdiyi kimi yeniliklə ayaqlaşa bilməyən yazıçı, sənətkar və elm adamlarının "son istifadə tarixi" keçir, "zamanı dolur"... Çünki ədəbiyyatın məkanı da, cəmiyyət və oxucu kütləsi də böyük sürətlə dəyişir. Əcəba, "oxucu" kəlməsi yerini "izləyiciyə" buraxacaqmı?

Rəşad Məcid "Qələmsiz yazılanlar"da hər birimizin yaşadığı, lakin çoxumuzun dərk edə bilmədiyi dəyişiklik dalğasını öncədən görən, bu dəyişikliyin yazarlardan, ədəbiyyatdan tələblərini sezib hiss edən və buna uyğun özünü yeniləyən, dəyişən bir şair və yazıçı kimi qarşımıza çıxır. Çox yazıçı, şair və sənətkarlar Votsap, Feysbuk, İnstaqram kimi sosial şəbəkələrdə mesaj, xəbər və gündəlik hadisələrə fərdi reaksiyalar göstərmələrinə rəğmən, Rəşad Məcidin "Qələmsiz yazılanlar"ına qədər bu "SMS" və "statusların" əslində yeni bir ədəbi janr kimi qəbul oluna bilinəcəyini təsəvvürlərinə belə gətirmirdilər. Bu əsər, əminəm ki, bir çox yazar, şair və elm adamına sosial media arxivlərinə baxıb nələr yazdıqlarını araşdırmalarına stimul verəcək. Məncə, gələcəkdə yazıçı, şair və elm adamlarının profilləri araşdırma mövzusu olacaq. Rəşad Məcid sosial mediada

yayımladığı bu statusların bir ədəbi dəyərinin olduğunu öncədən gördüyü üçün 2009-cu ildən bəri planlı şəkildə yazdıqlarını toplayıb kitab halına salıb. Düşünürəm ki, bizim fərqli tarixlərdə yazdığımız ədəbi dəyər sayılacaq mətnlərimiz hansısa sosial media şəbəkəsinin qaranlıq dəhlizlərindədir. Bir də kağızın yanğın, sel kimi fəlakətlərlə yox olma ehtimalı var, amma qələmsiz yazılanlar əsla itmir. Bilgisayarın yaddaşına yüklənmiş, əslində bizim üçün yox hökmündə olan bu yazıları istədiyiniz zaman geri qaytarıb oxuya bilmək mümkündür.

Rəşad Məcid mənsub olduğu ədəbi nəslin təmsilçilərinin etdiyi kimi, dəyişikliyə dirəniş göstərib ədəbiyyatın yeni meydanından qaçmaq əvəzinə, sosial medianı bir ədəbiyyat məkanı olaraq inşa etməyə çalışır və əslində internet nəsli dediyimiz bir nəslin etməsi lazım olduqlarını onlardan çox əvvəl ortaya qoyur. Bizim nəslin bir çox təmsilçisinin hələ qələmə, dəftərə dörd əllə sarıldığını, bir çoxunun isə heç bircə sosial media hesabının belə olmadığını düşünsək, klavyaturaya, telefon düymələrinə, səsə, ekrana diqqət kəsilərək virtual dünyada yeni növ ədəbiyyat nümunələri yaradan Rəşad Məcidin gördüyü işin vacibliyini daha yaxşı qavraya bilərik. Bu baxımdan onun dövrün müasir düçüncəli insanlarının maraq və ehtiyaclarını, tələblərini hamımızdan əvvəl sezərək ədəbiyatda yeni bir janr yaratdığını, bu janrda əsərlər yazdığını, sosial medianı eyni zamanda bir ədəbiyyat məkanı olaraq kəşf etdiyini, yeni bir janrın - sosial media ədəbiyyatı janrının qabaqcılı olaraq ədəbiyyat tarixindəki yerini çoxdan aldığını etiraf etməliyik. Sosial media ədəbiyyatından bir hekayə istəyirsinizsə buyurun, Rəşad Məcidin sizə bu dövrü anladan, bu çağda ölən məsləkləri ironiya ilə bədii tərzdə göstərən, həyat qoxulu, həyatı orta yerindən yaxalayan nəfis bir hekayəsini oxuyun: "İyirmi il fotoqraf olaraq çalışdım, deyir. Amma bizim məslək öldü! İndi çayçı işləyirəm. Zamanə və tex-

nologiya bir çox peşəni ortadan qaldırdı, qaldıracaq da… Çay isə hər zaman olacaq! Yaşasın çay! Armudu stəkanda...”

Dövrümüzün insanları böyük ölçüdə metropollarda toplanıb və bu insanlar həyatı tələş içində, tələsərək yaşamaqdadırlar. Keçib getmiş, bərpası mümkün olmayan zamandan vaxtında faydalanmaq günümüzün insanını zamanla yarışa sürükləyir. İnternet və texnologiya onlardan faydalanmağı bacaran insanların zamandan daha təsirli və səmərəli istifadəsini təmin edən bir vasitəyə çevrilir. Dolayı yolla iqtisadiyyatın, siyasətin, xəbərin, məlumatın məkanı olan internet, eyni zamanda ədəbiyyatın və sənətin də məkanına çevrilir. Gününün böyük hissəsi təyyarələrdə, metrolarda, qatarlarda, avtobuslarda, yollarda keçən insanların yüzlərcə səhifə roman oxumağa zamanı yoxdur. Bu mümkün də deyil. Sürət dövründə məsafələrin qısalması kimi ədəbi əsərlərin, ədəbi janrların da qısalması mövzusu çox aktualdır. Bu səbəbdən “qısa mesajlar” və “sosial statuslar” günümüzün insanlarının duyğuları, düşüncələri və hadisələr qarşısındakı reaksiyalarının ifadəsinə, xəbər və məlumatın yayılma vasitəsinə çevrilir. Bu baxımdan sosial mediadakı “qısa mesaj” və “statuslar” milyonlarca insanı bir-birinə bağlayan sosial şəbəkələr vasitəsilə ədəbiyyatın və sənətin də mərkəzinə çevrilir (bəlkə də artıq çevrilib). Rəşad Məcidin “Qələmsiz yazılanlar” kitabına daxil etdiyi telefon mesajlarına və sosial mediada yayımlanan statuslarına bütöv halda baxıldıqda, onun bu mənzərəni illər öncəsindən gördüyü aydın olur. Yəni Rəşad Məcid on il öncəsindən yazdığı “qısa mesajların”, “statusların” bir gün ədəbi janr olacağının fərqindədir. Bu mənada deyə bilərik ki, onun sosial şəbəkələrdə yazdıqlarını bir kitab kimi yayımlaması və ədəbiyyatda yeni bir janrın qabaqcılı olması illər öncəsindən hədəflənibmiş. Çünki qələmlə yazılan kitablarda olduğu kimi, sosial media dediyimiz yeni məkanda da bu “mesajları” və “sta-

tusları" oxuyanlar, təqib edənlər, şərh bildirənlər, müzakirəyə çıxarıb tənqid edənlər var. Rəşad Məcidin gələcəyi öncədən görmüş olması, illər sonrakı ədəbi həyatımızda mütləq əks-səda yaradacaq.

Yeniliklərə açıq, yaradıcı, həyatın nəbzini tutmağı bacaran dostumuz Rəşad Məcidin bu il 60 illik yubileyidir. Belə yeniliklərə imza atan söz adamının ruhunun çox gənc olduğunu söyləyə bilərik. Bu yazı isə bir neçə il əvvəl "Turay" nəşriyyatında işıq üzü görən "Qələmsiz yazılanlar" kitabı haqqında gecikmiş bir yazıdır. Bu cümlə Rəşad Məciddən xeyli geridə qaldığımızın da bir etirafıdır. Demək ki, əslində öncədən qələmə alınmış (əcəba "qələmə almaq" sözünün də ölümünü elan edəcəklərmi?), daha doğrusu komputer ekranına köçürülmüş bu yazı onun altmışıncı doğum gününü gözləyirmiş! Əziz dostumu ürəkdən təbrik edir, ona cansağlığı, bitib-tükənməyən yaradıcılıq eşqi arzulayıram. Onun bu yaxınlarda Türk Ədəbiyyatı Vəqfinin nəşriyyatında çapdan çıxan "Şuşa dəftəri" şeirlər kitabını isə doğum günü hədiyyəsi kimi qəbul etməsini, uğurlarının daimi və bol olmasını diləyirəm...

P.S. Mətni Türkiyə türkcəsindən Aysel Xanlarqızı uyğunlaşdırıb

21.08.2024

Bəxtiyar Aslan,
türkiyəli ədəbiyyatşünas

Qələmsiz yazmaq düşüncəsi və Rəşad Məcid

Qələmsiz yazmaq kimi bir anlayışdan danışmağın mümkünsüz olduğu çağlar arxada qalıb. Mətbəənin və çap maşınının icadından sonra, qələmsiz də yazmağın mümkünlüyü həqiqətə çevrilmiş və qəbul edilmişdi. Ancaq hər şeyə rəğmən, yazmaq dedikdə qələm öz aparıcı mövqeyini qorumaqda idi

Mövzudan kənara çıxmadan, Anadoluda daş və ağac oymaçılığında istifadə edilən iti uclu alətlərə də qələm deyildiyini xatırlatmaq istərdim. Təbii olaraq, insanlığın qələmlə ünsiyyəti yazının kəşfi qədər qədimdir. Əsrlər boyunca qələm və yazmaq işi bir-biri ilə yanaşı düşünülüb və bəşər mədəniyyətində də bu şəkildə yer alıb. Bir yerdə yazmaq işi varsa, orada mütləq qələm də vardır. Mətbəənin və yazı makinasının kəşfi bu fikri sarsıtsa da, dəyişdirə bilmədi. Lakin günümüzün, yəni "rəqəmsal çağ"ın insanı "Qələmsiz yazılanlar" ifadəsinə heç də yad baxmır. Sanki son dərəcə təbii bir hal kimi qəbul edir, hətta üzərində xüsusi düşünməyə belə ehtiyac duymur.

İlk baxışda bu kitabın adı təəccüblü gəlsə də – bəlkə 50 yaş və daha yuxarısı üçün belədir – xüsusən qələmdən çox, klaviatura və sensorlu ekranlarla yazıb-yaradan, ədəbiyyat və sənət ortaya qoyan gənc nəsil üçün adi bir ifadədir. Bunu müəllifinin ünvanına bir irad kimi demirəm; çünki müəllif gördüyü işin gerçəyindən, hətta fərqlilik naminə də olsa, uzaqlaşmayıb. Beləliklə, bu fikir, etirazdan daha çox, qiymətləndirmə kimi qəbul edilə

bilər. Çünki uzun illərdən bəri media və ədəbiyyat dünyasının, hətta rəqəmsal müstəvidəki ədəbiyyatın içində yer alan, yaratdığı və idarə etdiyi "525-ci qəzet"in elektron versiyası ilə də maraqlanan müəllif, şübhəsiz, əsərin adının müasir kitab bazarı baxımından önəmli olduğunun da fərqindədir. Buna baxmayaraq, gördüyü işin gerçəkliyindən qopmamağı üstün tutur. Eyni zamanda, onun əsas mətləbi budur: qələmlə yazmaq düşüncəsini/gerçəyini makina və mətbəə ancaq sarsıda bilmişdi, amma rəqəmsal çağ bu gerçəyi/düşüncəni aradan qaldırmağı bacardı. Ən azından yeni nəsil üçün bu, belədir.

Rəşad Məcidin öz kitabını, sadəcə yazmaq üçün istifadə olunan aləti nəzərdə tutaraq, məhz bu cür adlandırdığını düşünmürəm. Belə düşünmək, zənnimcə, bir az sadəlövhlük olardı. Qələmlə yazmaq ilə qələmsiz yazmaq arasında bir fərq olmalıdır. Hər ikisində də yazmaq həm ortaq əməl, həm də məqsəddirsə, hansısa fərqdən danışıla bilərmi? İlk baxışda bu sual mənasız görünür. Rəşad Məcid bu ikisinin arasında bir fərq olduğuna kitabını bu cür adlandırmaqla işarə vurub əslində. Yoxsa sadəcə "yazılanlar"dan bəhs etməli idi ki, bu da bir kitab adı üçün heç də ağıllı seçim olmazdı. Rəşad Məcid qələmsiz yazmağa bir məna yükləyib və bu məna qələmlə yazmaqla qələmsiz yazmaq arasındakı düşüncə fərqliliyini önə çəkir. "Qələmsiz yazılanlar" adını seçməklə o, bir düşüncə fərqliliyinə, ənənəvi yazı texnikasından qopub uzaqlaşmağa işarə edir. Yazmaq, ədəbi mənada yazmaq və yaratmaq artıq imtiyazlı bir mövzu deyil. Rəqəmsal çağ yazı fəaliyyətini/bədiiliyi adiləşdirmiş və insanları da buna inandırmış kimi görünür. Söhbət həqiqətin bu cür olub-olmadığından getmir. Ancaq yazmağın/ədəbi yaradıcılığın xarakterinin dəyişdiyi bir gerçəkdir.

Böyük yazıçıların, dahilərin necə yazmaqlarına dair - bir az da əfsanələşmiş - söhbətlər var. Dostoyevski, Balzak və Marsel

Prust kimi yazıçıların öz əsərlərini böyük bir yaradıcılıq şövqüylə, özünü unutmaq dərəcəsinə, bəzən də xəstəlik həddinə çatacaq qədər qəribə hallarda yazdıqları barədə rəvayətlər yayılıb. Şübhəsiz, bunda yazıçı/yaradıcı romantizminin də böyük payı var. Məsələn, Balzakın yazdığı romanların qəhrəmanlarına ən azından həqiqi həyatdakı insanlar qədər inandığı, "Yevgeniya Qrande"nin baş qəhrəmanının ölümünə görə matəm saxladığı, yaxud şiddətli qızdırma içində "Kənd həkimi" romanının qəhrəmanının adını sayıqladığı, dostlarından onu tapıb gətirmələrini istədiyi deyilir. Yeri gəlmişkən, Stefan Sveyqin, ona duyduğu heyranlıq üzündən, yazarkən Balzakın başmaqlarını geyinməsinin də – bəlkə beləliklə, onun ruhundan kömək istəyirmiş – bu rəvayətlər arasında olduğunu xatırlatmaq istərdim. Bu yazıçılar, şübhəsiz, yazmaq/yaratmaq fəaliyyətini təklikdə həyata keçirirdilər. Cəmiyyət onlar üçün bəlkə də sadəcə bir laboratoriyadan ibarət idi. Əsərdən daha vacib bir şey görmürdülər. Yazmağın/yaratmağın təbiəti belədir. Necə ki, Tanrı da dünyanı təkbaşına yaratmışdı. Bu yazarların qərar tutduqları məqam – fil sümüyündən olan qala desək, yeri var - bir az da, hətta bəlkə tamamilə yazmağa/yaratmağa yüklənən məna ilə bağlıdır. Bütün o rəvayətlər bu günün insanı üçün nə ifadə edir? Bu, bir sual olaraq qalsın hələlik.

Rəşad Məcidin əsərinin adı və özü məhz belə bir düşüncəyə söykənir. Müəllif bütün bunların fərqindədir, o, yazmağın təbiətinin dəyişdiyinə inanır. Bəlkə buna heyifsilənir, amma yenə inanır. Çünkü rəqəmsal çağın və elektron vasitələrin yaradıcı insanların mövqeyini necə sarsıtdığını, zamanın necə onların əleyhinə işlədiyini anlayır. Böyük mətnlər kimi, böyük yazarlar da səhnədən çəkilməkdədir. Çünki artıq modern çağın sonu çatıb. İnsanlıq artıq metamətnlərdən üz döndərmiş kimidir (!). Digər tərəfdən, rəqəmsal çağın oxucusu da son dərəcə sərbəstdir.

Yazıçının əsərinə az qala hər yerdə müdaxilə etmək, hətta birbaşa təsir göstərmək istəyir. Münasibət internet sürətilə mütənasibdir və əsər yazıldıqdan dərhal sonra, saniyədən də qısa bir zaman içərisində oxucuya çatır. Üstəlik, oxucunun bundan ötrü ciddi cəhd göstərməsinə də lüzum yoxdur. Sadəcə sosial mediada bəyəndiyi, ya da bəyənmədiyi bir yazarı izləməsi kifayətdir. Yazıçı əsərini paylaşaraq bir tərəfdən oxucuya müdaxilə haqqını da verir. Rəqəmsal çağın, elektron dövrün ədəbiyyatının xarakteri belədir. Oxucunun sərbəstliyi bu müdaxilə haqqı ilə təmin olunur. O da artıq ən azı yazıçı qədər mətnə töhfə vermək iqtidarındadır, yəni belə olduğunu düşünür. Onsuz da postmodern ədəbiyyat özü də buna icazə verir. Mətnin hər oxucu tərəfindən yenidən qurulması anlayışı artıq geniş yayılıb. Bu, qəbul estetikası ilə məhdudlaşan, onunla bağlı bir hal deyil, yəqin ki. Oxucu ilə birlikdə yazılan və oxucuların töhfəsini verdiyi mətnlər artıq kitab cildinə bürünərək təqdim edilməyə başlayıb.

Bütün bunları dövrün təhlili, yaxud dövrümüzə dair müşahidələr kimi qəbul edə bilərsiniz. Bu, bir az da oxucu olaraq sizin mövqeyinizlə bağlıdır. Hər halda, keçmişdə passiv olan kütlələr rəqəmsal dövrdə artıq aktivləşib. Bu yeni fakt istər-istəməz ədəbi əsərə təsir göstərəcək. Ədəbiyyat artıq bir "media kimi" görünməyə başlanıb. A.Məcit Canatak və Nurtən Buldukun "Rəqəmsal Çağ Türk Ədəbiyyatı və Medialararası Müzakirələri" kitabında qeyd olunur: "...1990-cı ildən etibarən ənənəvi media vasitələrini – qəzet, televiziya, radio, jurnal kimi vasitələri yeni media nümunələri – internet, görüntülü telefon, sosial media (bloq, çat, forum, e-mail, sayt) əvəzlədikcə əvvəlki çağda passiv olan kütlələrin aktiv bir şəkildə bu medialara təsir göstərməsi ədəbiyyat sahəsi üçün də önəmli bir dönüş nöqtəsi oldu. Yeni medianın yaratdığı şərait, xüsusən də elektron-sosial mediada izləyicilərə digər oxucular və yazıçılarla dialoq

qurmaq imkanı verilməsi ədəbi məhsulların istehsalçılarına və istehlakçılarına müxtəlif aspektlərdən təsir edərək onları dəyişdirir" . Bu dəyişiklik dildən nitqə, formadan üsluba qədər ədəbi əsərə aid hər sahədə bir az həyata keçib. Çünki rəqəmsal çağ və rəqəmsal medianın tədricən özünəməxsus bir dil yaratması mütləqdir. Buna bir örnək kimi emojiləri göstərmək olar. Rəqəmsal media yazarının xüsusən sosial media orqanlarında yazdığı mətnləri emojilərlə zənginləşdirmək, duyğularını emojilərlə ifadə etmək vərdişi geniş yayılıb. Bu ifadələrin mənaya təsir göstərib-göstərmədiyi məsələsi bir tərəfə, oxucuyla dialoq qurmağın təməl şərtlərindən biri halına gəldiyi də şübhəsizdir. Çünki rəqəmsal media oxucusu emojilərlə sıx təmasdadır. Emojilərin standart bir emosional vəziyyəti ifadə etdiyini, emosiyaların subyektivliyini zəiflətdiyini də sətirarası qeyd etmək istərdim.

Rəqəmsal media yazarlığı oxucunun vəziyyətindən (sosial-psixoloji təmayülündən) xəbərdar olmağı və sosial medianın dili və imkanlarını, onun nə olduğunu müfəssəl bilməyi tələb edir. Ancaq müsbət bir hal olaraq rəqəmsal ədəbiyyatın, ya da başqa cür desək, yeni medianın sənətlər və sənətçilər arasındakı sərhədlərin aşılmasına, yeni mühitlər sayəsində baxış bucağının dəyişməsinə, fərqli ifadə imkanlarının təqdim olunmasına şərait yaratmasından da bəhs etmək istəyirəm .

Rəşad Məcidin əsərinin önəmi məhz burada özünü göstərir. "Qələmsiz yazılanlar" bu müxtəlif imkan və halların fərqində olan bir yazar tərəfindən qələmə alınıb. Müəllif sosial mediada paylaşdığı statusları və sms-lərini yazarkən, qarşısındakıların rəqəmsal media oxucuları olduğunu yaxşı bilir. Odur ki, qarşısında səbirsiz, diqqəti və vaxtı məhdud, səhifədən-səhifəyə "tullanan", elə hey internet mediasında gəzişən, dərhal rəy istəyən bir kütlə olduğunu nəzərə alaraq bu mətnləri yazıb. Dediyim budur ki, Rəşad Məcid həmin mətnləri yazarkən əksərən oxucu

kütləsinin/izləyicilərin təsirinə məruz qalıb. Çünki nəticə etibarilə sosial media paylaşımlarının xarakterində bəyənilmək/like almaq vardır. Yazıçının bu gerçəkliyə qarşı nə qədər dirəşdiyini, ya da bu həqiqətlə nə dərəcədə barışdığını bilmirik. Təxmin etmək də mümkün deyil. Eləcə də paylaşımlara yazılan rəylərin sonrakı paylaşıma nə qədər təsir edib, yönləndirmədə nə qədər rol oynadığını da bilmək olmur. Ancaq bu qarşılıqlı təsirin ölçüyəgəlməz bir həqiqət kimi qarşımızda durduğunu söyləməkdən başqa çarəmiz də yoxdur.

Rəşad Məcidin rəqəmsal medianın gerçəkliyi çərçivəsində yazdığı bu mətnlərin bəzilərinin vizual vasitələrlə bəsləndiyi aydındır. Kitabda bu vizuallara yer verilməyib. Bunu bir çatışmazlıq kimi qeyd etmirəm. Bəlkə də müəllif bununla, bir vaxtlar "Sərvəti-fünun"çulara xas olan, şəkilaltı şeir/mətn ənənəsini davam etdirmiş olur. Ancaq həqiqət budur ki, yaşadığımız dövr insan vərdişləri və davranışları üzərində ciddi dəyişikliyə yol açıb. Modern – bəlkə də postmodern deməliydim – insan "fastfood" mədəniyyətilə tanış olub. Daha çox yeməklərə aid olan bu ifadənin həyatın başqa sahələrinə də sirayət etdiyi danılmazdır. Ədəbiyyat baxımından bunun mənası və qarşılığı oxucunun "fastfood" tipli yazılar, hekayələr tələb etməsidir. Əsərin girişində Rəşad Məcidin Orxan Pamukun status paylaşımlarını "fastfood" yeməklərə bənzətməsinə işarə vurması əbəs deyil. Çünki Rəşad Məcid ədəbi əsərin artıq başqa bir yerə və şəkilə yönəldiyindən xəbərdardır. Bu yazıda məqsəd Rəşad Məcidin kitabını məzmun və mahiyyətcə təhlil etmək deyil. Ancaq onun yazılarında tamamən "fastfood" mədəniyyətinə təslim olduğunu demək haqsızlıq olar. Çünki o, bir yazıçı kimi bəzən kiçik hekayə/"short story" kimi oxuna biləcək mətnlərində lirizmin zirvəsində dolaşır, bəzən də sosial media oxucusunun xarakterinə zidd bəzi dərin məsələləri gündəmə gətirir. Digər tərəfdən,

sosial medianın yazıda rəyi əsas tutmaq tələbi bəzən müəllifi hansısa mətləbləri yığcam şəkildə verməyə vadar edir. Bir hökmü faktlarla dəstəkləmək əvəzinə, tək bir cümləylə ifadə etməkdir bu.

Rəşad Məcidin kitabında ilk baxışda gerçəklikdən uzaq kimi görünən fikirlərlə tez-tez rast gəlinir. Odur ki, oxucu, əgər istəyərsə, bu fikirlərin mahiyyətini bir növ ümumiləşdirmə yolu ilə axtarıb tapmalıdır. Hər halda, mən Rəşad Məcidin buradakı yazılarının belə bir yönü olduğunu da vurğulamaq istədim.

"Qələmsiz yazılanlar" gündəlik qeydi, kiçik hekayə, aforizm kimi bir çox fərqli janrı özündə birləşdirir. Daha doğrusu, ayrı-ayrı mətnlərin bu janrlardan birinə aid edilməsi mümkündür. Yazılma/yaradılma şərtlərini nəzərə alaraq, bunlara yeni bir janr demək üçün hələlik tez olduğunu düşünürəm. Amma hamısının üstündə "sosial media ədəbiyyatı" deyəcəyimiz bir çətirin varlığını da qəbul etməliyik. Bunlar "sosial media ədəbiyyatı"na aid ediləcək mətnlərdir. Bütün bu faktları əhatə edən bir başlıca həqiqət var ki, o da Rəşad Məcidin nəyi niyə etdiyinin fərqində olmasıdır. O, rəqəmsal çağın gerçəkliyini çox tez qavramış, bu yola erkəndən çıxmış bir yazıçı və şairdir.

P.S. Yazı Türk Ədəbiyyatı Vəqfinin nəşri olan "Türk ədəbiyyatı" dərgisinin 2020-ci il mart sayında dərc edilib.

Çevirən: Şahanə Müşfiq
11.03.2020

“ŞUŞA GÖR NƏLƏR EYLƏR”

Şuşa gör nələr eylər...

“Dünyanın çox şəhərlərində olmuşam, amma Şuşa kimi gözəl şəhər görməmişəm”.

Cənab Prezident hər dəfə Şuşada olarkən müqəddəs şəhərimiz barədə dərin mənalı, sevgi dolu fikirlər səsləndirir. Mayın 12-də Cıdır düzündə “Xarıbülbül” musiqi festivalının açılışındakı çıxışına “Biz Şuşanın azadlığını Qəhrəman əsgərlərimizə borcluyuq” sözləriylə başlayan dövlət başçısı bir az sonra Şuşa barədə bu fikirləri səsləndirdi.

Müzəffər Ali Baş Komandanın Şuşa sevgisi ilahi sevgidir. O, Şuşa haqqında danışanda çöhrəsini ilahi bir nur bürüyür. Hələ bu ilin yanvar ayında Şuşada olarkən bildirdi ki, Azərbaycan Prezidenti Şuşaya gəlib və gecəni də Şuşada qalmalıdır. Sonra Şuşanın təbiəti, tarixi, fərqli aurasından danışdı. Şuşanın vəsfi cənab Prezidentin təqdimatında xüsusi məna kəsb edir.

30 ildir, hər dəfə Şuşa barədə danışanda mədəniyyət xadimlərimizin – Anar müəllimin, Toğrul Nərimanbəyovun, Polad Bülbüloğlunun, Fərhad Bədəlbəylinin fikirlərindən sitatlar gətirirəm. Son aylar bu fikirlərin məcmusu, cəmi kimi bir müdrik kəlam dilimdən düşmür. O dəqiq müşahidənin, o dəqiq kəlamın da müəllifi Ali Baş Komandan İlham Əliyevdir: “Sözün düzü, adam heç Şuşadan getmək istəmir!”

Bu, çox böyük və çox dəqiq həqiqətdir – gerçəkdən də adam Şuşaya gələndə ondan ayrıla bilmir.

***

Azərbaycan mədəniyyətinin dünyada təbliğində və yüksək səviyyəli təqdimatında Heydər Əliyev Fondunun fəaliyyəti misilsizdir. Müstəqilliyimizin 20 illiyi ilə bağlı dünyanın böyük

şəhərlərində, nüfuzlu salonlarında Fondun təşkil etdiyi konsert proqramlarının səviyyəsi barədə çox danışmışam. O tədbirlərin dinləyicisi olmuş insanların, əsasən də xaricilərin heyrətamiz təəssüratlarını indi də eşidirik. Fond hər dəfə mədəniyyətimizin yüksək səviyyəli təqdimatıyla bizi heyrətləndirir, qürurlandırır.

"Xarıbülbül" musiqi festivalının təşkili də yüksək səviyyədəydi. Bunu cənab Prezident də qeyd etdi. Festivalın ilk günündə – mayın 12-də ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi yaradıcılığının "Azərbaycan musiqisində multikulturalizm" mövzusunda təqdimatının ideya müəllifinin özü olduğunu qeyd edən dövlət başçısı proqramın yüksək səviyyədə hazırlanmasında Heydər Əliyev Fondunun xüsusi əməyini vurğuladı. Hər iki konsert Azərbaycan mədəniyyətinin, multikultural dəyərlərinin yüksək səviyyəli nümayişi idi. Bu tədbirlər böyük ruh, incə zövq, mədəniyyətimizə, xalqımıza dərin sevgiylə yoğrulmuşdu.

Bütün bunların müəllifi isə heç şübhəsiz, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevadır. Qürur və göz yaşları içində izlədiyimiz, istedadlı sənət adamlarımızın içdən, ürəkdən gələn ifalarının möhtəşəm duyğular yaşatdığı bu dərin mənalı, təsirli, qəlb titrədən təqdimata – bu möhtəşəm sənət nümunələrinə, unudulmaz konsert proqramlarına görə Mehriban xanıma sonsuz minnətdarlıq və kübar təzim düşür.

***

– Gecə də Şuşada qalacayıq?

– Aha, əlbəttə!

(Belə dialoqdan kim sevinməz? Həm də mayın 8-də).

***

"Bütün gecəni yol gedəcəyik, bir az yatıb gözümün acısını alım" düşüncəsiylə gün uzunu nə qədər əlləşdim, xeyiri olmadı. Nə illah eləsəm də, tanış küçələr, doğma mənzərələr

hərlənib-firlanıb yenə gəlib durdu gözlərimin qabağında. Şuşanı görmək duyğusunun yaratdığı həyəcan, ürək çırpıntısı çimir eləməyə imkan vermədi.

... Əziz Şuşa! Səni görmək, sənə qovuşmaq yanğısından üstün nə ola bilər? Hansı hiss bu həyəcana tən gələr? Az qala, Daşaltıda əks-səda verən, Cıdır düzündə eşidilən bu ürək çırpıntılarını necə duymamaq olar?

Əlimi uzadıb ulduzlarını sığallasam, daşını-torpağını oxşayıb gözlərimin üstünə qoysam, günahımdan keçərsənmi? Son dəfə 1991-ci ilin payızında tək-tənha baş çəkdiyim, hüznlü, bənizi saralmış Cıdır düzü məni əfv edərmi? Şuşa məni bağışlayarmı?

Kim bilir, bəlkə, bağışlanmamaq qorxusu itirmək qorxusundan daha ağırdır.

Fərhad Bədəlbəyli kimi hamılıqla hüzurunda diz çökərək, "Bizi bağışla, Şuşa!" deyib bəraət istəsək, bizi əfv edərsənmi?!.

Mərhəmətinə sığınaraq hüzuruna gəlirik!..

***

Musiqi proqramı bitən kimi Cıdır düzünün qayalıqlarına tərəf çəkildim, Fərhad Bədəlbəyli kimi dizlərimi yerə qoyub, sal daşları öpdüm, "Bağışla bizi, Şuşa" – dedim.

***

Cıdır düzündə Anar müəllimlə gəzmək, İbrahim xanla, Mirmöhsün Nəvvabla bağlı məkanlara onun təqdimatıyla baxmaq, sevincindən qanadlanan insanlarla birgə şəkil çəkdirmək, yaşıl, nəm otların üzərində buludların üstündə yeriyirmiş kimi addımlamaq...

Xoşbəxtliyin başqa şəkli ola bilərmi?

***

Mayın 12-si axşam, "Xarıbülbül" musiqi festivalının açılışı münasibətiylə Şuşada 15 dəqiqəyə yaxın atəşfəşanlıq oldu.

Atılan rəngbərəng fişəng topalarının, cələnglərinin işığı bütün Qarabağı nura boyadı.

Yağıya, düşmənə göz dağı oldu...

***

Səfər yoldaşım, əslən şuşalı olan Xalq artisti Firəngiz Mütəllimova yolboyu həyəcanını gizlədə bilmirdi, Cıdır düzünə çatan kimi torpağı öpəcəyini deyirdi. Onun torpağa səcdəsini müşahidə etmək çox təsirliydi.

15 il öncə Türkiyəyə səfərə gedirdik, Şuşadan söhbət düşdü, Firəngiz xanım xalasının əriylə bağlı bir əhvalat danışmışdı: Ölüm ayağında olan Tofiq kişi canını tapşıra bilmirdi, "Məni Şuşaya aparın" – deyirdi. Övladları onu təcili yardım maşınına mindirib Bakıda Sovetskinin dolambaclarını gəzdiriblər ki, Şuşaya qalxırıq, fişəng atıblar ki, Şuşanı aldıq. Soyuducudan buz kimi su çıxarıb veriblər ki, İsa bulağının suyudur, iç. Tofiq kişi bundan sonra gözlərini yumub, son nəfəsini verib.

Şuşada o hadisəni Firəngiz xanımın yadına saldım, bir də danışdı, Xalq artisti Həmidə Ömərova ilə birlikdə dinlədik, Tofiq kişinin ölüm səhnəsini düşünüb, Şuşa həsrətiylə dünyadan köçən bütün insanlarımızın ruhunu yad etdik.

***

Mayın 12-də Şuşada, Cıdır düzündə Fərhad Bədəlbəylinin qanadları çıxmışdı. O qanadlarla Topxananın üzərindən uçurdu, musiqiçilərlə, həmkarlarıyla, dostlarıyla rəqs edirdi – xoşbəxtliyə qərq olmuşdu.

Gözlərində qürur, sevinc göz yaşları görünürdü. Ona qoşulub sevincdən ağlamaq da bir səadət idi.

***

Şuşada səhər tezdən Alim Qasımovun azan səsi kimi canlı muğam ifasına yuxudan oyanmaq....

İçdən gələn bu qəfil ifa bal kimi şirin havaya qarışıb Şuşanın sakit görkəminə ilahi, mistik çalarlar əlavə edirdi.

Deyirlər, 30 ildi Şuşada quşlar da susmuşdu. Cıdır düzündən gələn əsrarəngiz musiqi səsləri sanki quşları da ayıltdı.

Alim Qasımovun ifasından sonra quşların oyanmasının, "dirilməsinin", oxumağa başlamasının canlı şahidi oldum. Şuşanın 13 may səhərini quşların səsi bürüdü.

Səs səsə qovuşdu Şuşada...

***

Mayın 13-ü səhər konsert proqramı başlamazdan öncə bir qədər boş vaxt vardı. Düşüb Şuşanı gəzmək istədim. Yusif Rzayev və başqa dostlar xatirə üçün Şuşadan daş gətirməyimi istəmişdilər. Əyilib bir neçə daş seçdim.

Cıdır düzündən piyada enib Molla Pənah Vaqifin məqbərəsinə gəldim. Qızğın təmir işləri gedir. Məqbərənin əvvəlki görkəmi qalmaqla daha möhtəşəm bir xiyabana çevriləcəyi hiss olunur. Sonra daş döşənmiş yolla üzü aşağı endim. Yolboyu əsgərlərlə, orada xidmətdə olan polislərlə hal-əhval tuta-tuta, sorğu-sual edə-edə sola dönüb bərpa olunmuş Mamayi bulağına tərəf gəldim, dupduru suyuyla əl-üzümü yudum. Bulaqlar bərpa olunub. Orada işləyənlərin sözlərinə görə, ermənilərin bulaqlarımıza sonradan çəkdikləri xaç işarələrini çətinliklə silib təmizləyiblər. Yəqin ki, qısa zaman sonra bulaqların üzərinə adları da qeyd olunacaq: Mamayi bulağı, Xan qızı bulağı və s.

Köhnə, xatirimdə olan binalardan qalanı da var, uçub dağılanı da.

Mamayi bulağının yanıyla Yuxarı Gövhər ağa məscidinin arxa hissəsinə döndüm. 1988-ci ilin yayında burada kirayə qaldığımız evi görmək istəyirdim. Həmin yay oğlum Mirhacibin, bacım oğlu Səmədin bir yaşları vardı. O vaxt Cıdır düzündə çəkilən şəkilləri indi də qalır.

Şuşada axırıncı dəfə yaşadığımız ev. Ötən il o evi yuxuda görmüşdüm, status yazmışdım:

“Şuşanı yuxuda gördüm...

32 il əvvəl qaldığımız evin səliqəli həyətindəydim. Güllərin, ləklərin yanıyla, daş pillələrlə darvazaya tərəf getdim. Həyətin balaca qapısını açıb daş döşənmiş küçəyə çıxdım. Sağa dönsəm, Gövhər ağa məscidinin yanından Bazarbaşı meydanına, oradan da Güllü bağa gedə bilərdim. Sol tərəf Vaqifin məqbərəsinə, Cıdır düzünə aparırdı.

Düşündüm, hansı səmtə gedim?! Səhərin bu çağı ikisi də əvəzsiz olur.

Sonrası yadımda qalmadı, həyəcan içində ayıldım...”

İndi Gövhər ağa məscidinin arxasıyla, daş döşənmiş küçəylə aşağı enib o evi axtarıram. Evlərin əksəriyyəti dağıdılıb, uçuq divarları, qalın, qədim hasarları qalıb. Şuşaya belə qəddar münasibət ağlasığmazdır. Prezident İlham Əliyevin dediyi kimi, elə bil, vəhşi tayfa keçib buralardan. Prezidentin qənaəti də haqlıdır: Əgər Şuşa həqiqətən də sizin olsaydı, ona qayğı göstərər, baxardınız, bu günə qoymazdınız.

Açıq görünür ki, evlərdə, həyətlərdə işlərinə yarayan nə varsa – taxta pəncərələrə, məhəccərəcən söküb aparıblar. Yaddaşında dipdiri qalan, hər hissəsini xatırladığı doğma məkanları belə viran halda görmək insanı sarsıdır, ürəyini parçalayır, cızdağını çıxarır. Amma heç olmasa, şükr edirsən ki, Şuşada həyətlər qalıb, ev özü dağılsa da, həyət-bacanı kol-kos basıb, böyürtkən, moruq kolları bürüsə də, yeri bilinir, tapmaq olur. Ağdama getmək isə ona görə mənimçün ağır və iztirablıdır ki, orada heç bunlar da qalmayıb.

Beləcə, yaddaşımın köməyiylə o evi tapıram. Kol-kosun qarışıqlığından içəri girə bilməsəm də, əvvəllər həyətində olan çardağın yerini tanıdım, evin uçuqlarını görə bildim.

1988-dən sonra Şuşada çox olsam da, bura bizim Şuşada qaldığımız son ev kimi əziz idi.

Həyəti uzaqdan videoya çəkirəm, internet açılan kimi Mirhacibə göndərirəm.

Təbii ki, Şuşalı xatirələrimizin son ünvanını belə miskin, dağılmış görmək çox ağrıdıcı, əzabverici haldır. Dayanmaq isə olmaz. Görmək istədiyim çox yer var və Şuşanın kimsəsiz, tənha, adamsız, sakinsiz məhlələri məni çağırır...

Şuşalı axtarışı

Uşaqlıq dostum Vaqifin ana nənəsi Tubu xanım köklü şuşalıydı. Torpaq meydanında qədim, qalın divarlı evləri vardı. Evin tağbəndli taxta qapısı da, həyəti də, tez-tez yığışdığımız kitablarla dolu dərin taxçalı otaq da, qədimi pəncərələr də yadımdadı. O evdəki kitab taxçasından bir dəfə Cəmşid Əmirovun "Qara volqa" əsərini gizlincə götürmüşdüm. Sonra Vaqifə zarafatla deyirdim ki, kitab oğurluğu oğurluq deyil. Tubu nənənin qədim şuşalı qadınlara xas təmkinli xanım obrazını indi də yaxşı xatırlayıram.

Yay aylarında o evə tez-tez gedərdik. Evin yeri təxminən yadımda idi, fikirləşirdim ki, tapmaq çətin olmayacaq. Vaqif Şuşaya getməyimi biləndə xahiş etmişdi ki, evi tapıb çəkim, görək Tubu nənənin evi dururmu, salamatdımı? Demişdi ki, Bazarbaşı meydanından, Yuxarı Gövhər ağa məscidinin qarşısından 500 metr üzüaşağı gedib sola dönəndə Hacıqulular məhləsi var, oradan Torpaq meydanına çıxacaqsan.

Yadımdadır ki, mən o evə çox vaxt bir az irəlidən – raykomun binasına çatmamış sağa dönüb gedirdim. İndi Bazarbaşından bir az aşağı düşdüm, sola buruldum, gedib Aşağı Gövhər ağa məscidinə çıxdım. Məscidin həyətində su içdim, əl-üzümü yudum. Hava sərin olsa da, enişli-yoxuşlu yollar bir az məni

yormuşdu. Amma hiss etmirdim. Bir azdan Cıdır düzündə telefonumda baxıb, 3 saata 21 min addım gəzdiyimi görəndə təəccüblənəcəkdim.

Məsciddə əsgərlərlə görüşdüm, Onlardan Torpaq meydanının yerini xəbər aldım. Yerli deyildilər, Şuşanı yaxşı tanımırdılar. Amma irəlidə geniş sahə var deyə, yolu göstərdilər, həmin istiqamətdə getdim. Bir az oxşatsam da, tam əmin olmadım və Vaqifə zəng elədim. Telefonumun enerjisi də azalırdı. Vaqif anlatmağa çalışırdı, amma nədənsə, evi tapa bilmirdim. Gəzə-gəzə yuxarı dönüb bir şuşalı tapmaq ümidilə keçmiş raykomun binasının yanına çıxdım. Əsgərlərdən, yol polislərindən elə hey soruşurdum ki, burada şuşalı var? Torpaq meydanının yerini bilən var? Şuşada şuşalı axtarırdım!

Yolüstü heykəllərin yanında gəzdim, videolar çəkdim, Natəvan bulağına enib, su içdim, əl-üzümü yudum. Keçmiş xatirələr də yol yoldaşım... Qarşıma çıxanlardan isə soruşurdum ki, indi burada bir şuşalı yoxdur ki, mənə Torpaq meydanının harada olduğunu göstərsin? Bir mağaza var, əsasən əsgərlər alış-veriş edir, yanında da çörək sexi. Soruşdum, orada işləyənlər də şuşalı deyildilər. Amma Natəvan bulağının yanında bir polis dedi ki, burada bir qadın var, şuşalıdır, oğlu burada işləyir, onunla qalır, hər yeri tanıyır! Dediyinə görə, qadın elə daima buralarda olur, şəhərin hər qarışına bələddir, hər binanın, hər evin yerini bilir.

Soraqlaşa-soraqlaşa Güllü bağdan üzüaşağı endim və gəzə-gəzə bir az daha aşağı tərəflərə düşdüm. Deyəsən, Torpaq meydanını tapmışdım. Qədim evin yerində qalın, köhnə divarların uçuqları qalıb. Tağlı taxta darvazanın yerinə bir paslı dəmir qoyublar. Kol-kosun əlindən içəri keçmək mümkün olmadı. Amma hər halda videosunu ürək ağrısıyla da olsa, çəkə bildim.

Yaddaşım yerinə qayıdırdı – Məhərin balaca mağazasını, ətrafındakı evləri də xatırlayırdım.

Polis Fərid

Torpaq meydanını, Tubu nənənin evini tapandan sonra dincəlmək üçün bir az aralıda bir daşın üstündə oturdum. Bu məqamda əslən Şuşadan olan, tədbirə bu gün qatılan İqtisad Universitetin müəllimiylə rastlaşdım. Şuşaya təzəcə çatmışdı və öz evlərini görməyə gedirdi. Buraları yaxşı tanıyırdı. Tubu nənənin evini tanıdığını dedi. Məlum oldu ki, mən də düz tanımışam.

Müəllim yoluna davam etdi, bir az aralıda bizim söhbətimizi eşidən bir polis nəfəri mənə yaxınlaşdı:

– Bayaqdan sizi müşahidə edirəm, üzdən də tanış gəlirsiniz. Görürəm bütün bulaqlardan su içirsiz. Burada bulaqlar üzrə mütəxəssislər var. Fikirləşdim, yəqin siz də bulaqlara baxırsız. Müəllimlə söhbətinizi eşitdim. Tapdınızmı evi? Bəlkə, birgə axtaraq?

Fərid Şuşada doğulub, Ağdamda yaşayıb. Uşaqlığında Şuşaya çox gəlib-gediblər. Danışdıqca tanış çıxdıq. Atasını, babasını tanıdım. Fərid deyir ki, Bakıda polisdə çalışanda bəzən başqa rayonlarda iş təklifi olurdu, amma ailəm razılaşmırdı ki, onsuz da üzünü görmürük, elə burada işləsən yaxşıdır. Şuşada xidmət etmək təklifi gələndə isə evdə bu xəbəri bayram kimi qarşıladılar, uğur olsun, get, razılaş dedilər. Şuşa müqəddəsdir bizim evdə. Çox sevindilər, hamı bir ağızdan dedi ki, "Şuşaya get".

Fərid bunları danışdıqca, ailənin timsalında insanlarımızın Şuşaya olan belə böyük sevgisi gözlərimi yaşartdı, fikirləşdim ki, Şuşadan ötrü tamarzı, onun həsrətiylə dodaqları çatlayan, o torpağa ayaq basmaq arzusuyla yaşayan, orada işləməyi arzulayan nə qədər insan var. Ona görə də könüllü şəkildə Şuşada çalışmaq, fikrimcə, bu gün ən böyük vətən sevgisidir. Fəridin də beləcə Şuşaya gəlməsinə, burada çalışmasına çox sevindim. Onun söhbətlərindən Şuşa haqqında xeyli məlumatlar əldə et-

dim və sözlərindən belə başa düşdüm ki, Şuşa çox böyük incəliklə və yüksək səviyyədə bərpa olunacaq.

Aqil Abbasın zəngi

Aqil Abbas özü Şuşaya gedə bilməsə də, ürəyi orada idi. Tez-tez zəng vururdu. Növbəti zənglərinin birində Şuşanı gəzirdim.

"Aqil, elə bil, Cıdır düzü balacalaşıb" – dedim.

Qayıtdı ki:

– Hə, mən də gördüm televizorda, hiss olunur. Cıdır düzünün aşağı tərəfində ağac əkiblər.

Bu fikri Anar müəllimdən də eşitdim. Qulu Məhərrəmlinin də Cıdır düzüylə bağlı təəssüratı eyni idi.

Bəs bunun izahı nədir deyə, xeyli düşündüm. Əvvəllər bu yerlərin mənzərəsi başqa idi. Cıdır düzünə qalxan kimi dağın başında, ən hündürdə möhtəşəm bir genişlik vardı. Sol tərəfdə, aşağıda Ağdam yolu, Xankəndi, qarşıda isə Topxana görünürdü. İndi Topxana meşəsi olan tərəf açıqdır, sağ və sol tərəflərdə isə ağaclar əkiblər. O ağaclar həm Cıdır düzünü bir az daraldıb, həm də yoxuş bitən kimi açılan geniş ənginliyi görməyə mane olur. Aqil Abbas da bunu televizordan görüb hiss eləmişdi.

Aqilin zəngi məni Güllü bağda yaxalamışdı. 9 mərtəbəli "Qarabağ" mehmanxanası təmir olunurdu. Qarşısındakı Güllü bağ isə sanki balacalaşmışdı. Adına ona görə "Güllü bağ" deyirdilər ki, orada rəngbərəng müxtəlif güllər əkilərdi. Yayda Şuşanı gəzməyə gələn qonaqların ən gözəl istirahət məkanlarından biri idi Güllü bağ. O rəngbərəng, gözəl ətirli güllər insana xüsusi zövq verirdi. Təəssüf ki, indi o bağı da kol-kos basıb.

Bu möcüzə şəhəri gəzəndə məndə belə bir təəssürat yarandı: Şuşa məhz baxımsızlıq, laqeydlik ucbatından görkəmcə xeyli balacalaşıb.

Bütün bunları telefonda Aqil Abbasa danışanda hiss etdim ki, onun da ürəyi Şuşada, bizim yanımızdadır. Elə oradaca arzuladım ki, inşallah, yaxın zamanlarda keçiriləcək Vaqif Poeziya Günlərinə Aqil Abbasla, xanımı İradə Tuncayla birlikdə gələrik.

1986-cı ildə Xalq şairi Məmməd Arazla birgə Şuşaya gəlişimizi xatırladım. Onunla Cıdır düzünü gəzmiş, İsa bulağına getmişdik. O vaxt Məmməd Araza İsa bulağında bir şeir də yazmışdım. Dedim, Məmməd müəllim, gəlin bulağın üstünə tərəf keçək. Dedi, yox, tanıyan olar. O vaxt Məmməd müəllimin səhhətində problemlər vardı və istəmirdi ki, həmişəki şax, əzəmətli, vüqarlı Məmməd Arazı indi kimsə xəstəhal vəziyyətdə görsün. O hadisəni şeirə çevirmişdim:

İsa bulağının soyuq suyundan
Yaxın gəl, əyil iç, bu da bir dərman.
Yaxın gəl bir az,
bu səs-küydə səni,
Şair Məmməd Araz, tanıyan olmaz.

Aqilin zəngi həmin illəri, Məmməd Arazla Şuşada keçirdiyimiz o qənimət günü yenidən yadıma saldı...

Radioya dediklərimdən:

Şuşada "Xarıbülbül" musiqi festivalının keçirilməsi Azərbaycan xalqının həyatında çox mühüm hadisələrdən biridir. Biz 30 ildir Şuşa həsrətiylə qovrulub yanırdıq. Bu sevinci, bu xoşbəxtliyi bizə bəxş edən qəhrəman əsgərlərimizə, Ali Baş Komandanımıza minnətdarıq. Şuşanın ilahi havasında, Cıdır düzündə, bir vaxtlar böyük mədəniyyət xadimlərimizin gəzdiyi məkanda Azərbaycanda yaşayan müxtəlif xalqların musiqiləri

səsləndi, canlı korifeylərimiz Polad Bülbüloğlu, Alim Qasımov, Fərhad Bədəlbəyli, Mənsum İbrahimov, eləcə də gənc xanəndə və müğənnilərimizin ifaları bizlərə unudulmaz anlar bəxş etdi. Şuşada olmaq, Şuşanın havasını udmaq, belə bir festivalda iştirak eləmək böyük xoşbəxtlik idi. Hesab edirəm ki, hər bir iştirakçının yaddaşında bu gün uzun illər qalacaq və əbədi yaşayacaq. Hazırda Şuşada quruculuq və bərpa işləri sürətlə davam etməkdədir. İnanıram ki, Şuşa qısa müddətdən sonra öz gözəl görkəmiylə bütün ziyarətçilərin könlünü oxşayacaq və Şuşanın timsalında həqiqətən də, "Mədəniyyət paytaxtı" adına layiq, bütün dünyanın sənət adamlarını qəbul edib öz incəsənətimizi, milli-mənəvi dəyərlərimizi təqdim edə biləcəyimiz bir şəhər görəcəyik. Əminəm ki, Prezidentimizin Şuşaya dərin sevgisi nəticəsində Şuşa qədimliyini və özünəməxsusluğunu qorumaqla, həm də müasir və gözəl bir şəhərə çevriləcək. Çünki Şuşanın bərpasının özülü incə zövq və möhkəm sevgi ilə qoyulur.

***

Adı iştirakçılar sırasında olub, üzürlü-üzürsüz səbəbdən Şuşaya gedə bilməyənlərə, təəccüb, təəssüf hissiylə, bir az da incik baxıram. Axı, Şuşanı görmək həsrətiylə yanıb-yaxılan o qədər insanların olduğu halda sən niyə bu yeri boş qoydun?

***

Görünür, bu yarıuçuq evlər arasında, adamsız küçələrdə gəzən Rəşad və bu mənzərə heç vaxt gözümün önündən getməyəcək.

***

Şuşanı məhlə-məhlə, ev-ev, adam-adam tanıyanlar var hələ.

***

Şuşada olmağın verdiyi mənəvi və fiziki güc inanılmazdır. Şuşa ovqatı, Şuşa aurası adamı Bakıda da tərk etmir, güc, enerji getdikcə artır, çoxalır.

***

Ermənilər yaşayan kəndlərdən sırayla, ard-arda keçən, içərisi azərbaycanlılarla dolu 20-dən artıq "Mersedes" markalı mikroavtobuslara baxan bərəlmiş gözlərdən bir ifadə oxunurdu:

Onlar inanmırdılar ki, BİZ QAYIDACAĞIQ.

***

Sonda şeirsiz olmaz

Şuşa

Min şəhər adı var dillərdə əzbər,
Adların ən üstün adıdır Şuşa.
Musiqi notudur cüt hecasıyla,
Dilimin şəhdidir, dadıdır Şuşa.

Ciyərdə nəfəsdir, damarda qandır,
Ruha qanad verən sirli məkandır,
Biri beş edəndir, güc artırandır,
Qoşundur, əsgərdir, ordudur Şuşa.

Qoynuna hər gələn yüz xəyal eylər,
Uzaqdan baxanlar qeylü-qal eylər.
Birini coşdurar, birin lal eylər,
Tilsimdir, ovsundur, cadudur Şuşa.

“ŞUŞA DƏFTƏRİ”

"Şuşa dəftəri"

Əziz qardaşım Rəşad Məcid!

"Şuşa dəftəri" adlı şeir silsiləni hədsiz maraqla oxudum. Möhtəşəmdir, hətta, "10 sentyabr"dan da möhtəşəm. Axı, bu, poeziyadır! Bəri başdan təbrik edirəm. Əvvəlki yazılarında olduğu kimi, başqalarının sezmədiyi, bir növ, böyründən xəbərsiz ötdüyü lövhələri, olmuşları, detalları tutmağın, poetik yaddaşa çevirməyin ürəyimcə oldu. Bu yazıların bir ədəbi səyyah, ədəbi bələdçi olmaq imtiyazı var. Sanki şair oxucunun əlindən tutub Şuşanı, külli-Qarabağı qarış-qarış gəzdirir, şairlə birgə oxucu da Cıdır düzündə köhlən təki havalanır, "Güllü bağ"da ətir saçır, şehə batır, "Turşsu"yun, "İsa bulağı"nın büllur, soyuq suyunun dadına, tamına baxır, Mirhacib ağanın qurduğu yaylaq çadırında yağışa düşür, yenə Cıdır düzündə üzünü dan yerinə tutub təndirdən təzə çıxan Günəşdən bir loxma qoparır, bu qədim qala şəhəri erməni işğalından azad edən şəhidlərin ruhu qarşısında sükuta dalır, böyük Zəfərimizin müəllifi, sayalı ayaqlarını əmin-arxayınlıqla dağ çayının suyunda yuyan Alı Baş Komandanın varlığıyla fəxr eləyir!

Bu şeirlər qıraqdan baxanlara hədsiz xoşbəxt görünən, başına bəxtəvərlik oxunan bir şairin qəlbinin dərinliklərindəki qədim kədərdən, heç zaman silinməyən nisgildən söz açır; körpəlikdən valideylərin iş ünvanlarına uyğun olaraq və yaxud təhsil pillələriylə bağlı Laçında, Ağdamda, Ağcabədidə, Bakıda ömrün gənclik çağlarını yaşayan şair, əslində, didərgin imiş; nə yazıq ki, şeirlər bunu da deyir, Rəşad müəllim!

"Şuşa dəftəri"nin poetik yaddaşı həm tarixidir, həm çağ-

daşdır, həm də ruhani. Qısaca yazdım, aldığım təəssürat daha dərindir. Bu şeirlər çoxsaylı oxucu üçün ürəyin başında, sol cibdə gəzdirilməyə layiq QARABAĞ HİMNLƏRİDİR!

Rəşad müəllim, sənin bu şeirlərini oxuyanda, bilmirəm nədənsə, Bişkek səfərimizi xatırladım. Atabeytdə böyük dünya yazarı Çingiz Aytmatovun məzarını ziyarətə getmişdik. Əvvəl yanaşı durmuşduq. Dönüb gördüm, ziyarətçilərdən aralanıb Atabeytin ən hündür yerinə qalxıb tək dayanmısan. Yaxınlaşanda baxdım, ağlayırsan. Mən də kövrəldim. Sənin ağlamağına kövrəldim. Amma sən nəyə görə ağlayırdın, bilmədim və soruşmadım..

Bir daha təbriklər! Var ol, yaşa, yarat!
Qardaşın Vaqif Bəhmənli.

***

Üç gün telefonu söndürə bilsəm...

Söndürə biləydim telefonu üç gün;
Zəng gəlir;
yazdığım yarımçıq qalır.
Üçcə gün nədir ki? –
baş verməz uçqun,
əksinə, üzümü güldürər püşküm,
bitib bütövləşər yarımçıqlarım!

Üçcə gün içində düzərdim sapa
olmuş olanları, olacaqları.
Nəğmə köhlənimi yurdlara çapar,
ruhumu salardım alaçıqlara!

Axardı vərəqə alnımın təri
"Turşsu" yaylağının mehi qarışıq.
Gözü yolda qalıb "Şuşa dəftərim",
cildinə Şuşanın şehi qarışıb!

Söndürə biləydim telefonu üç gün
o qoşa palıdın böyründən ötüb
baxardım "Turşsu"yun qaynamağına.
Adı turşdu, dadı baldan da ötə -
çəkəydim başıma "su qaymağını".

Meşə yollarına gül tutsun çıraq,
cığırı belimə dolayıb gedim.
İntizar çəkməsin "Dolayı bulaq",
tutum kəsə yolu,
dolayı gedim.

Yoxuşu qalxmağa yetsə nəfəsim
yeddinci dirəkdən dönərəm sola.
Görsəm ki, batmayıb Ceyran bulağı –
içimi doldurar muğam həvəsi,
sevincdən açılar səsim az qala!
(Bəzən də kor qoyur dövran bulağı –
quruyur son damla, kəsilir səsi...)

Uzaq xatiratlar qəlbi dağ kimi,
gör nələr yadlaşıb, fəhmimmi qalıb?
"Çarıq bulağı"nın qarşı dağdakı
səmti yaddaşımda təxmini qalıb.

Yox, gərək üz tutum Şuşa yoluna,
Zarıslı elindən bir xəbər bilim.

“Saxsı” bulağının girib qoluna
Harası sızlayır... soruşum, bilim.

“İsa bulağı”nın suyu ovcumda –
nurda göz, sərində əlim dincəlir.
Mat qaldım “Güllü bağ” səmtə çatanda
nə tez qət elədim qırx il öncəni?

Ömrü ötənlərə döndərə bilsəm,
müqəddəs anları kimə qıyardım?
Üç gün telefonu söndürə bilsəm,
“Laçın çələngi”ni hörərdim qəşəng,
“Şuşa dəftəri”ni tamamlayardım!

***

Təzə adam

Ayağını yer üzündən qoparar,
Şuşa səni göy üzünə qaldırar!
Nə ağrın var, qarasını aparar,
cavan ömrün gündüzünə qaldırar.

Duyarsan ki, ruhun mehdi, nəfəsdi,
Qanad taxar Şuşa sənin çiyninə
Boğazında qaynayan səs nə səsdi? –
Cəh-cəh vurmaq eşqi düşər beyninə...

Şuşa səni bulaq kimi duruldar,
Körpəliyin gül çağına dönərsən.
Xəyalına beşik olar buludlar,
Əbədiyyət yarpağına dönərsən.

Dörd yanına çəkər sehr səddini,
Başın üstdə dumanı dam eyləyər.
Sevə-sevə cilalayar qəddini,
Şuşa səni təzə adam eyləyər!

***

Şuşa sevgisi

Süzülür dan yerindən tarixlərin işığı –
Dahilər şəhərinin işıqdı yaraşığı!
Şəninə dastan yazır,
söz qoşur haqq aşığı,
Əcdaddan paydı, deyir,
qoca Şuşa sevgisi!

Azərbaycan əsgəri...
borc ödəyib canıyla,
Köksündə cüt gəzdirib bayrağı vicdanıyla!
İslanıb hər qarışı şəhidlərin qanıyla,
Dönüb yalçın qayaya,
tunca Şuşa sevgisi!

Çox da qıvrılır yolu;
yol piyada, can atlı!
Ün yetməz zirvəsinə çox nəsillər can atdı...
Adında qoşa heca – sanki qoşa qanaddı
Qopmuş körpə dilindən
qönçə Şuşa sevgisi!

Məlhəmdi çiçəkləri, bulaqlar loğmanıdı,
Heyrət çökən dərələr ucalıq heyranıdı!

İndi onu cahana prezidentlər tanıdır;
Tarix görməyib əsla
bunca Şuşa sevgisi!

Qalxır hünərli şəhər, olur qızıl dirəkli
Daş deyil hörülən daş məhəbbətdi, ürəkdi!
Çağlayan sevgilərin ilham mənbəyi təkdi –
Ali Baş Komandanın uca Şuşa sevgisi!

***

Şuşanın şaxtası loğman

Sirr açılar tapınca –
nabələd olsan əgər.
Lap geysən də yapıncı
dişin-dişinə dəyər.

Yurdun havası şəkər –
daddan doya bilməzsən,
Şaxtası sığal çəkər,
Şuşada... xəstələnməzsən!

***

Darıxmaram

Min dəfə, milyon dəfə
ötsəm diki, dolayı
vaxtı sayaram nəfə...
Ucalıqla baş-başa
yaşasam ili, ayı

tənha da darıxmaram,
qoşa da darıxmaram.

Sərərəm yamacına
tül ömrü, pərdə ömrü,
Dönüb bir ağacına
tapşırıb mərdə ömrü
Vursam bu yerdə ömrü
Başa da... darıxmaram:

Ucalığa tən eşqim
Şuşa deyib, uçunar
Div canı vətən eşqi
salsa büllur içinə -
şüşə də darıxmaram!

Şərafətə yüksəlir
burda canından keçən,
Şir ürəkli əsgəri
yağını ot tək biçən
guşədə darıxmaram!

Əlim göydən üzülsə,
ayağım qopsa yerdən
Əcdadlarla üz-üzə
köşədə darıxmaram,
Şuşada darıxmaram,
Şuşada darıxmaram!

***

Şuşa havasının sirri

Ləzzət kimə təndi,
dərd kimə tuşdu;
Biri səs qaynadır,
biri lal kimi?!
Şuşanın havası hamıya düşmür,
qismət bölünsə də sovqat bal kimi.

Hamının üzünü eyni meh öpür,
Hamının qanadlı beşiyi eyni.
Xəzinə, Daşaltı, Kirs dağı – o pir,
Cıdır düzü adlı beşiyi eyni!

Bəlkə not yazılıb hər çiçək üçün –
Neyləyək sirrini bilək torpağın?
Səsi, havacatı cücərtmək üçün
münbit olmalıdı ürək torpağı?!

Göyünmü, yerinmi töhfəsidir səs,
bilənlər var imiş bəlkə əskidən?
Kaş ki, sağ olaydı – biz bilən əbəs,
sorardıq Firudin Şuşinskidən!

Burda torağayın, burda bülbülün,
hər otun çiçəyin öz nəğməsi var.
Adam var oxumaq onunçün zülüm,
di gəl ki, bulağın, çayın səsi var!

Hava öz yerində, su öz yerində,
Qocaman muğamat qədimi oddu.
Allah vergisinin kökü dərində,
səsi nizamlayan ilahi koddu!

***

Sular dərindən gəlir

Enib sahil boyuna,
tapıb dayaqlarını,
dağ çayının suyuna
qoymaq ayaqlarını
sellərdən güc almaqdı,
qayalardan mətanət!

Dua kimi oxunur
sular dərindən gəlir.
Ulu vətən ruhunun
ən pak yerindən gəlir.
Sular daşa toxunur
pıçıldayıb çatdırır
babalardan vəsiyyət,
arzu, dilək, nəsihət!

Enib sahil boyuna
ayaq sallamaq suya
sədaqətdi soyuna,
düşmənə ismarışdı!
O müzəffər insana
əminlik yaraşıqdı!
Gözündəki işıqdan

çaya süzülən qürur
bu günə əmanətdi,
gələcəyə zəmanət!

***

Yasəmən oteli

Qəfil xəyala daldım
"Yasəmən" otelində.
Dörd yanı yasəmən, gül –
Ruhum quş kimi yüngül
Sandım hər tərəf baldı
"Yasəmən" otelində.

Dan yeri həyalı qız –
yanağına qan çıxıb.
Qarlı qış, küskün payız
fərqi aradan çıxıb
"Yasəmən" otelində.

Güldü yolu, çəpəri,
boylan sol və sağına.
Həndəvər bənövşəyi,
Həm də tər bənövşəyi.
Yasəmən qonaq pəri
döşənib yatağına
ağappaq qar döşəyi;
gülləri bənövşəyi...
"Yasəmən" otelində!

***

Şuşada adamlar

Gözlər seyr etməkdən yorulan deyil,
yeri, "Güllü bağ"dan milyon dəfə keç.
Könül qanad çalır, uçur elə bil
elə bil ayaqlar yerə dəymir heç!

Kim kimi görürsə,
nə xoşdu, – deyir,
Adam uca boylu, inadlı olur.
Yolları enişdi, yoxuşdu deyin
Şuşada qonaqlar qanadlı olur!

***

Turşsu yaylağında

32 ildən sonra
iki saatdan bir gözü açılıb axan,
pıqqapıq qaynayan suda
əlini, üzünü yusan,
"Turşsu"yun turşməzə qabarcıqlarını
havalı tumurcuqlar kimi sinənə çəkib
qurtum-qurtum udsan,
Beyninin dərinliyində
qaysaqlanan xatirələr
birər-birər düşsə yada,
Özünü palıd ağacının altında
balaca uşaq ikən
baban Mirhacib ağanın
çadırında yatan görsən,

Tutqun, çənli havalarda
dumanda, çiskində hərdən
əvvəl təkəm-seyrək damcılarla,
qapı döyülmüş kimi
çadırları dınqıldadan
qəfil leysana çevrilən
şıdırğı yağış yağanda
yorğanı çəkib başına
soyuqdan titrəyən
görsən özünü,
Ya da gün şaxə qalxanda
yığışıb göy çəmənlikdə
dostlarla oynayan
görsən özünü,
"Turşsu" doldurub şüşə qaba
çiçəkdən dəstə bağlayıb
dikə qaldıran görsən özünü
bil ki, suyun hikmətidir –
səni keçmişə göndərir
körpə uşağa döndərir...

***

Cıdır düzündə dan üzü

Günəşin doğulmağına
Cıdır düzündən baxmaq...
Dağların arxasından,
qıpqırmızı səmadan
haçan görünər deyə
Gözünü
dan yerindən ayırmamaq,

Qaynar təndirdən çıxan
imisti çörək kimi
əlini Günəşə sarı uzatmaq,
Ovcunu,
    barmaqlarının ucunu
    yandıran Günəşin
Qırağından bir loxma kəsmək...
Və təzə çörək kimi
burnunun ucuna tutub
qoxulamaq Günəşi.
Xülyalara qapılmaq,
böyümək,
    ucalmaqdı,
Tanrı dərgahının
varlığına inanmaqdı
Cıdır düzündə durub
Günəşin doğulmağına baxmaq!

***

Kəkotu

Bir qom göy kəkotu gətirdi Məcid
Mayın əvvəlində
        Cıdır düzündən.
Şehlicə-şehlicə dərmişdi becid –
Xoşbəxtlik yağırdı məsum üzündən!

Ona necə deyim sınmasın könlü –
dərməklə kəkotu azalmır, axı?!
Gözləri yumuqdu Xarıbülbülün,
Tək-tük lalələrlə yaz olmur, axı!

Kəkotu paylayır, var olsun dağlar,
Kaldan yetişmişi seçməyib hələ.
Çəlimsiz saplaqlar, körpə yarpaqlar
Günəşin nurunu içməyib hələ.

Biraz yağış tamı,
biraz daş iyi,
telindən torpağın qoxusu gəlir.
Quru meh bələyə ətir daşıyır,
Körpə kəkotudu, yuxusu gəlir!

Şehdə sərinlənər, içər gün suyu,
qaya tavasında bişər kəkotu.
Havadan, Günəşdən, Torpaqdan doyub
bizim fincana da düşər kəkotu!

***

Şuşaya getmək

Yollar ağır, cığırlar dik, sıldırım çətin,
Qaya-qaya igidlərin tək adı – MƏTİN!
Şəhid düşən ərənliyin, məğrur qeyrətin
pak ruhunu ***ziyarətdi*** Şuşaya getmək!

Demə vətən Şirin imiş, Fərhadmış insan,
Lap ölsə də, haqq yolundan dönməz qəhrəman!
Qayaları al qan ilə yazılı dastan,
tükənməyən ***fəxarətdi*** Şuşaya getmək!

Hər qarışı qədim tarix, müqəddəs yaddaş,
Dərələri dərin fikir, yamacı sirdaş!

Qovuşuqdu qanı qana, qan çəkir, qardaş,
Qəlb qızdıran ***hərarətdi*** Şuşaya getmək!

Xarıbülbül sevdasına tutuşmaqdımı?
Saf havayla, nur yağışla qatışmaqdımı?
Yaradanın dərgahına yetişməkdimi,
Ya cənnətə ***səyahətdi*** Şuşaya getmək?

Büllur kimi yanır par-par göyə, yerə bax!
Pərvanəsi olana bax, səməndərə bax!
Cıdır düzü bələnibdi nəğmələrə, bax,
Çal-çağırlı ***səadətdi*** Şuşaya getmək!

Dahiləri yetişdirib suyu-çörəyi,
Vaqif, Cabbar, Bülbül, Xandı çarpan ürəyi.
Bəstəsinə təzim üçün Üzeyir bəyin
Sidq-ürəkdən ***ibadətdi*** Şuşaya getmək!

Oğul Rəşad Məcid,
nəvə Rəşad Məcid

Şahanə Müşfiq

Oğul Rəşad Məcid, nəvə Rəşad Məcid

İnsan yol salmağı kimdən öyrənib, görəsən? Yoxsa yol özünü insana tanıdıb? Bir dağın bağrında ağarıb, iki daşın arasına sığıb və deyib: "Məndən keç…" Yolun mahiyyətini anlamaq asandır: ayaqlarınla köksünə naxış salırsan, vəssalam! Yolun mahiyyətini anlamaq çətindir: ucu harada başlayır, harada bitir, haradan-haraya burulur, son ucunda yolçunu nə gözləyir, tale işidir hamısı! Tale!

Bir yolun ətəyindən yapışdı məramımız, düşdük yola. Masazıra – Rəşad Məcidin anasının evinə gedirik, illərdir Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru, şair, publisist kimi tanıdığım Rəşad Məcidi bir də oğul, övlad kimi tanımağa. Rəşad Məcidin uşaqlığına doğru yola çıxmışıq.

"Ömür yolu"... Yollardan ən ölçüsüzü, ən rəngarəngi və ən bozu. Yox, boz yox, ağ-qara növbələşməsiylə öyünən taleyin oyun yeri. Ömür yolundakı tale oyunlarını kadr-kadr görmək, paraqraf-paraqraf oxumaq Rəşad Məcidin öz nəsibidir, məncə... Biz onun ömür yolunun müəyyən qismində yol yoldaşı olduğumuz üçün belə taleyə minnətdarıq! Mən elə bilirdim ki, bu gün bələdçimiz Yavər xanım olacaq – Rəşad Məcidi dünyaya gətirən, onu bu xalq, bu vətən üçün layiqli bir övlad kimi yetişdirən Yavər ana... Amma...

Yavər xanım haqqında çox eşitmişəm. Rəşad müəllimlə həmsöhbət olanlar yaxşı bilir ki, tez-tez anasından danışar, sitatlar gətirər. Rəşad müəllimin bu dünyadakı ən böyük dəstək-

çisi, dayağı könlü ədəbiyyat eşqiylə dolu olan, poeziya, mütaliə vurğunu Yavər xanımdır – bunu çoxdan anlamışam. Ona görə də adını eşidib, üzünü görmədiyim bu qadınla görüşə tələsirəm. Əzizə Cəfərzadə Məmməd Aslana deyirdi: "Anam mənim hikmət sandığımdır". Rəşad Məcidin hikmət sandığından bir ovuc pay almağa tələsirəm.

***

Yavər xanımın özü qarşılayır bizi. Qışın soyuq fevral ayında belə gül-çiçəklərlə əhatələnmiş, hər küncündən sakitlik, hüzur yağan həyətdə görüşüb içəri keçirik.

"Yazılarını oxuyuram, qızım. Üzünü görmək bu günə qismətmiş" – deyib bağrına basır məni. Köhnə tanışım, doğmam kimi sarılıram mən də bu mehriban, üzügülər qadına. Qış ayı olsa da, otağın havası elə onun özü kimi istidir, mülayimdir. Yavər xanım məni öz yanında oturdub hal-əhval tutur, qəzeti, işimizi xəbər alır. Yaxın günlərdə çap olunan yazılarımla bağlı fikirlərini bölüşür. Onun bu diqqəti və iti yaddaşı məni sevindirir. Nə yalan deyim, xoş sözlər də ürəyimə sərinlik qatır. Düşünürəm ki, deyəsən, söhbətimiz yaxşı alınacaq.

Rəşad müəllimin yoxluğundan istifadə edib başlayıram onu Rəşad Məcidlə bağlı danışdırmağa. Üzünə təbəssüm qonur, gözlərinə işıq gəlir. Oğlu ilə duyduğu qürüru dilindən əvvəl gözləri ifadə edir:

– Laçında doğulub Rəşad – atamın evində. Üç tərəfdən çay axan Ağoğlan kəndi yayın o istisində də sərin idi. Rəşad doğulanda hər iki tərəf çox sevinmişdi, iki ailənin də göz bəbəyi idi Rəşad. Sonra sentyabr ayında biz Ağcabədiyə köçdük. Onda hələ Rəşadın heç qırxı da çıxmamışdı. Körpə çağanı o sərindən, dağların qoynundan istiyə gətirdik. Çətin olmuşdu onun üçün ora alışmaq.

Gözlərindən bir həsrət boylanır Yavər ananın. O həsrətin bətnində Ağoğlandan Ağcabədiyə uzanan yol görünür. Bir də, həmin yolun sağa-sola uzatdığı çal-keçir qolları-araba yolları, dağ keçidləri, təkadamlıq cığırlar... "Görəsən, yol yolçunu daha yaxşı bilir, yoxsa yolçu yolu?" – deyə düşünürəm. Cavab axtarmaq üçün bütün getdiyim yolları xatırlamalı, hansını niyə sevdiyimi, hansından niyə küsdüyümü anlamağa çalışmalıyam... İndi yox!

Söhbətə yeni bir yol salıram:

– Yavər xanım, Rəşad Məcid necə uşaq olub?

– Rəşad sakit, sözəbaxan, söz başa düşən uşaq olub. Məni elə də incitməyib. Varı da, yoxu da çox yaxşı başa düşərdi. Uşaqlıqdan gözütox, ağzıbütöv, ürəyiyumşaq idi. Bütün qohuma, əqrabaya mehriban, qayğıkeş uşaq olub Rəşad. Hamının işinə yarayardı, kimsə nəsə xahiş eləsə, onu yerinə yetirməmiş sakitlik tapmazdı. Məktəbə Ağdamda gedib. Atasının işi ilə əlaqədar Ağdama köçmüşdük. Orada 1 saylı orta məktəbdə oxuyurdu. Məktəb dövründə də məni incitməzdi. Ona "dərslərini oxu" dediyim yadıma gəlməz. Kitaba, mütaliəyə çox bağlı idi. Saatlarla kitab oxuyardı. Amma hər uşaq kimi gəzməyi, oynamağı da xoşlayırdı. Təbiəti çox sevirdi. Ağdamda da, Laçında da, bir də görürdün, payi-piyada gəzir, təbiəti seyr edir. Ağdamda yaşasaq da, yay aylarında tez-tez Laçına – Ağoğlana gedərdi. Bir müddət Laçında da oxumuşdu. Ağdamda pambıq mövsümündə dərslər bağlanırdı, atası onun dərslərdən ayrı düşməyini istəmirdi. Ədəbiyyata, poeziyaya marağı ta uşaqlıqdan özünü göstərirdi. Güclü yaddaşı vardı. Uzun-uzun şeirləri əzbər deyərdi. Özü də şeir yazardı. Fizika-riyaziyyat təmayüllü məktəbi bitirsə də, o sahəni seçmədi, jurnalistikaya getdi, ədəbiyyata üz tutdu. Bəlli idi onun bu yolu seçəcəyi.

Söhbətimiz elə şirin, maraqlı davam edirdi ki, vaxtın haradan gəlib-hara getdiyini anlamırdım. Rəşad Məcid uşaqlığından

danışarkən Laçının, Ağdamın xəyalına daldığı kimi Yavər xanım da danışdıqca fikrə gedir. Söhbət elə hey Ağdamın, Laçının üzərinə gedib çıxır, vətən həsrəti süzülür hər kəlməsindən.

...Azərbaycanımın taleyindən qeylü-qallar, millətimin bəxt kitabının səhifələrindən qaçqınlıq, yurdundan uzaq düşmək əskik olmayıb. Buna "bəxtsizlik" deməyiblər ulularımız, "uca dağların başında həmişə qar olar" deyiblər, "gözələ ayna tutan çox olar" deyiblər, "təpələr dağa baxıb içini çəkər" deyiblər. Jurnalistikaya addım atdığım ilk günlərdən yurd həsrətinə şahid olduğum, əli çatmayan, ünü yetməyən elindən-oymağından danışanların gözlərinin çəkdiyi yolun o başının illərin o üzünə gedib çıxdığını gördüyüm çox olub. Hər dəfə də ömür yolunun yurd yoluyla kəsişmə nöqtələri haqqında uzun-uzun düşüncələrə dalmışam... Düşüncə ümmanının dərinliklərindən tapıb çıxardığım xalqımın hikmət xəzinəsindən bir əlçim təsəlli olub: "Pis günün ömrü az olar..."

***

Susaraq danışmaq... Susaraq bir-birini anlamaq... Bunları da çox yaşamışam müsahibə alarkən. Yavər xanımla söhbətimdə də həmin anlardan biri seyrə çıxmışdı düşüncələrimizdə.

Bu vaxt bir xanım daxil olur otağa. Çatar-çatmaz "xoş gəlmisən, qızım" deyib mehribanlıqla qucaqlayır məni. Öyrənirəm ki, Rəşad müəllimin xalası Elmira xanımdır.

Yavər xanım:

– Rəşadın qəzetində işləyir, müxbirdir Şahanə. Gəlib ki, Rəşadla bağlı yazacağı kitab üçün bizdən də müsahibə alsın, – deyərək əlüstü təqdim edir məni.

Elmira xanımın gözləri parıldayır, üzü işıqlanır:

– Xoş gəlib, səfa gətirmisən, qızım. Rəşaddan da yazılmayıb, kimdən yazılmalıdır ki kitab?! Ona canım qurban.

– Elə gəlmişkən, sizinlə də söhbət edək, Elmira xala. Necə bir uşaq idi Rəşad Məcid? – deyirəm.

Gülümsəyir Elmira xanım. Masanın arxasındakı stulu çəkib mənimlə üz-üzə oturur. Böyük şövqlə başlayır danışmağa:

– Qadan alım, indi necə görürsənsə, uşaq vaxtı da bax eləcə idi Rəşad. Ağıllı, diqqətcil, mehriban, qayğıkeş. Elə bil Qarabağın o gözəl təbiəti onun xasiyyətində cəm olub. Ürəyi çox yuxadır Rəşadın, kənardan sərt görünsə də, çox mülayim insandır. Ta uşaqlığından özünü böyük kimi aparardı. Təmkinli, səbirli, söz başadüşən uşaq idi. Nəyə buyursan, nəsə istəsən, iki əli qanda da olsa, mütləq onu sənin çün edəcək. Uşaqlar arasında qohuma-qonşuya ən yanımcılı da odur. İndiyə kimi də o xasiyyəti başındadır. Birimizin bir balaca işimiz olsun, Rəşad mütləq başda olacaq, sözü ilə, danışığı ilə insanı elə ürəkləndirəcək ki, deyərsən, ta hər şey düzəldi. O qədər işi-gücü var ki, heç özünə vaxt tapa bilmir. Amma görürsən, iki daşın arasında gələcək bura, hamımıza baş çəkəcək, maraqlanacaq, halımızı, kefimizi soruşacaq, nəyəsə ehtiyacımız varsa da, mütləq həll edib gedəcək.

Bu vaxt çöldən səs-küy eşidirik: Rəşad Məcidin özündən qabaq səsi gəlir. Darvazadan içəri girən kimi, qarşısına çıxan hər kəslə uzun-uzun salamlaşır, hal-əhval tutur. "Hə, Şahanə içəridədir?" sözlərini eşidirəm. Yavər xanım qarşılıq verir: "Burdayıq, gəl". Yenə eyni şənliklə, səs-küylə otağa daxil olur. Yavər xanımla, Elmira xanımla görüşüb üzünü mənə tutur: "Necə gedir, danışdıra bilmisən?"

– Əlbəttə! Xeyli söhbət etmişik.

Yavər xanım tez çay-çörək dalınca gedir. Rəşad müəllim də xalası ilə hal-əhval tutur.

Qısa vaxtda çox gözəl süfrə açır Yavər xanım bizim üçün. Rəşad müəllim:

– Söhbətinizə ara verin, yeməkdən sonra şəkillərə də baxar-

san, – deyib məni süfrə arxasına dəvət edir. Masanın sağındakı kitab şkafına indi daha yaxından baxmaq şansım olur. Düzü, bayaqdan diqqətimi cəlb etsə də, söhbətə başım elə qarışmışdı ki, yaxşı baxa bilməmişdim. Dünya klassiklərindən tutmuş ən müasir Azərbaycan yazıçılarınadək xeyli müəllifin əsərləri toplanıb burada.

Kitablara diqqətlə baxdığımı görən Rəşad müəllim deyir:

– Görürsən də Yavər xanımın kitablarını. Bilirsən, müasir ədəbiyyatı necə izləyir? Kitabları gətirməyimlə oxuyub bitirməyi bir olur. Hərdən heç özüm oxumağa vaxt tapmıram, oxuyub mənə də danışır.

Gülürük. Düşünürəm ki, belə kitab sevdalı ananın oğlu da Rəşad Məcid kimi ədəbiyyat keşikçisi olmalı idi, əlbət...

Yeməkdən sonra Yavər xanım arxa otaqdan bir neçə şəkil albomu gətirir. Rəşad müəllimlə birlikdə şəkillərə baxırıq. Rəşad müəllimin uşaqlıq, gənclik şəkilləri xüsusilə maraqlı gəlir mənə.

Onu da görürəm ki, hər şəkillə ayrı bir yönə dönür Rəşad Məcid, hər şəkil yaddaşındakı bir cığırın daşını, alasını təmizləyir. Ömür yolunun yağışdan-yağışa itən qollarıymış-cığırlarmış şəkillər... Yağışlarmı? Xatirələr... Xatirə mövsümü? İnsan özü!

Bu düşüncələrimə Rəşad müəllimin nisgil dolu səsi yoldaşlıq edir:

“Bax, burada Cıdır düzündəyik”.

“Bu, Mirhacibin körpəliyidir. Deyəsən, heç yaşı tamam olmamışdı...”

“Bura Ağdamdır...”

Hər şəkil Rəşad Məcidin şərhiylə ələ alınırdı. Amma hər iki şəkildən bir Yavər xanımla Rəşad müəllimin sözü çəp gəlirdi. Eyni şəkil haqqında xatirələr danışırdılar... İlk baxışdan elə görünürdü ki, bu xatirələr fərqlidir, amma mən bilirdim fərqli ol-

madığını; bu xatirələr bir-birinin əvvəli-axırı, bir-birinin qoynuna sığınmış xana ilmələridir. Sadəcə, yaddaş individuallığı var: kimin yaddaşı hansı ilməni seçibsə, onu göstərir ruh güzgüsü...

Şəkil-şəkil dumanlanır Rəşad Məcidin də, Yavər xanımın da baxışları. O dumanın yamacıyla sürünüb gəldiyi dağları yaxşı tanıyıram-yurd dağı... Heç nə demək istəmirəm... Rəşad müəllim də heç nə demir. Baxışları şəkillərə kilidlənmiş Yavər xanımdan da səs çıxmır. Bu səssizliyin qoynunda Laçında yüyürən, qaçan bir uşağın şən səsi gizlənib. Bu səssizliyin ağırlığında Ağdamdakı bir ananın balasının başına ürəklə çəkdiyi sığal əzilib. Bu səssizliyin ərkyanalığında illər sonra vətən həsrətini həmsöhbətlərinin kədərinin min bir rəngində tanımış bir jurnalist çəkingənliyi özünə yer edib...

***

– Balaxanım nənəmlə görüşmüsən?

Rəşad Məcidin o tox, təmkinli səsini eşidirəm.

– Yox...

Pıçıltım özümə yad gəlir...

Rəşad müəllim üzünü Yavər xanıma və Elmira xanıma tutur:

– Balaxanım nənə necədir? Danışa bilər? Söhbətlər ondadır e...

Elmira xanım həvəslə cavab verir:

– Niyə danışmır ki?! Bir az nasazlamışdı, amma şükür, indi yaxşıdır. Gedək, qızım.

Yavər xanımla Rəşad müəllimi evdə qoyub Elmira xanımla birlikdə gedirik Balaxanım nənəni görməyə...

***

Balaxanım nənənin Rəşad Məcidin həyatında, bir şəxsiyyət kimi, ədəbiyyat adamı kimi yetişməyində rolu tamam başqadır. Həmin o Masazır səfərimdə cəmi bir dəfə gördüyüm, 2019-cu

ildə itirdiyimiz laçınlı Balaxanım nənə... Rəşad Məcidin nənəsi... Rəşad müəllimin dilindən düşməyən Laçındakı Ağoğlan kəndində ömür sürmüş, son illərini məlum səbəbdən Bakıda yaşamağa məhkum qalmış bəy qızı Balaxanım nənə...

Dünyadan vətən həsrətiylə köçənlərdən biridir o. İlk və son söhbətimizdə başdan-axıracan elə Laçından, oradakı evindən, həyətindəki ağaclardan, daşından-divarından danışmışdı. Halbuki, mən Rəşad Məcidin uşaqlıq illərini xəbər almışdım. O isə Rəşad Məcidin 1964-cü ilin avqustunda doğulduğu Laçının Ağoğlan kəndindəki evdən, həmin günlərdən başlamış, çəkdiyi vətən həsrətinə qədər hər şeydən danışdı.

...Yaşı yüzə yaxınlaşırdı. Biz içəri girəndə yerinin içində bir yumaq kimi oturmuşdu. Düzü, onu elə görəndə danışdırmaq fikrindən bir anlıq daşınmaq istədim. Rəşad müəllimin xalaları ürəkləndirdilər məni: "Balaxanım nənənin danışmaqla, özü də obrazlı, bəlağətli, maraqlı danışmaqla arası yaxşıdır"-dedilər. Çarpayının sağındakı küncdə qıvrılıb əllərini tutdum. Hal-əhvaldan sonra kimliyimi, niyə gəldiyimi bilib sanki canlandı, ağrılarını, süstlüyünü unutdu, yaşına yaraşmayan qıvraqlıqla başladı danışmağa:

– Rəşad bizim evdə, Laçında, Ağoğlanda doğulub. Kişi elə sevinmişdi ki, o doğulanda. Bax bu sinəmin üstündə saxlamışam, qucağımda böyütmüşəm Rəşadı, - deyib qucağında körpə varmış kimi əllərini sinəsinə sıxdı. Gözləri dolub-boşalan mart buluduna dönür, səsi aprel küləyi kimi həzinlənir, duyğuları may çiçəkləri olub rəngdən-rəngə düşürdü.

Balaxanım nənə, sözün əsl mənasında, ömür təqvimiydi; xana-xana yaraşdırmışdı balalarını, nəvələrini ömrünə. Susanda da danışırdı Balaxanım nənə-ovcumun içindəki barmaqlarıyla, çəkdiyi bir "ah"la, bükdüyü boynu, yol çəkən gözləriylə… Onun xəyalən Ağoğlanda olduğunu bildiyimdən mən də sus-

muşdum. “Qayıdıb gələcəkdi” indicə, Ağoğlanda “tapdığı” bir xatirə küpünü açacaqdı, içindən çıxardığı “xəzinə”ni hamımızla paylaşacaqdı…

Güman etdiyim kimi oldu, Rəşad Məcidin körpəliyini bir də Balaxanım nənənin dilindən eşitdim:

– Sonra qırxı da çıxmamış körpəni cənnət kimi kənddən götürüb getdilər istinin cırhacırına... Körpəcə çağa idi, Laçından – evimizdən götürüb Ağcabədiyə – atası evinə apardılar. Sinəmdə yatızdırardım onu.

Elə bil özünün və özü kimi qarabağlıların, laçınlıların məcburi köçünü deyirdi, o qırxı çıxmış körpəylə bərabər, özlərinin də halına yanırdı:

– Rəşad ta uşaqlığından başqa cür olub. Ona nağıllar oxuyardım, laylalar deyərdim. Elə diqqətlə qulaq asardı ki... Bir az böyüyəndən sonra hər şeylə maraqlanar, hər şeyi soruşardı. Laçında, Ağoğlandakı evimizdə çox gözəl uşaqlığı olub onun. Əvvəl Ağcabədidə, sonra Ağdamda yaşadılar. Amma yay aylarında gələrdi bizə. Tut, alma, gilas ağaclarıyla dolu bağımız var idi. Hər cür meyvəmiz var idi bağımızda. Rəşad oranı çox xoşlayırdı. Orda ağacların altına kilim sərərdim, mütəkkə qoyardım, uşaqlar da orada oynayardılar. Hərdən özüm də orda oturub onlara nağıllar danışardım”.

Əlini əlimdən çəkib gözlərinə aparır. Yenidən ovcumu tapan barmaqların ucunda nəm vardı… Səsi anbaan daha titrək olurdu:

– Ağoğlanı çox xoşlayırdı Rəşad. Kəndi qarış-qarış gəzərdi. Hələ uşaq olsa da, bütün kənd camaatı ona ayrıca hörmətlə yanaşardı.

Bu sözləri birnəfəsə deyir, susur. Uşaqkən eşitdiyim “danışmaqda yoruldum” deyimini xatırlayıram. Amma yox, Balaxanım nənə Laçını xatırlamaqdan yorulmadığı kimi, oralardan

danışmaqdan da yorulmaz! Onu yoran ha xatırlasa da, yurduna gedib çıxa bilməməsiydi…

"Rəşad Məcid nənəsini yoran uşaq olmayıb ki?" – dəyişirəm söhbətin axarını.

– Nəvə də nənəni yorarmı? Özü də Rəşad kimi nəvə… Ona canım qurban olsun! Elə uşaqlığından qayğıkeş idi. Qoçaqdır həm də. Əlini atdığı hər işi yarıtmamış buraxmaz. İndi də məni unutmur. Tez-tez gəlir, halımı soruşur, maraqlanır.

Nəvəsindən danışmağın qüruru ilə canlanır Balaxanım nənə. Qarşımda ucu Laçına gedən yollarda itmiş xatirə kələfi olduğunun fərqindəyəm. O yollarda birgə yolçu olmağı arzulamaqdan başqa əlimdən nəsə gələrmi, bilmirəm. Qeyri-ixtiyari çiyinlərimi çəkirəm.

Balaxanım nənə hisslərimi duymuşcasına ahəstə-ahəstə pıçıldayır:

– Nə bilim, ay qızım. Qalmışam burada, ta o həvəsim, o ümidlərim yoxdur. Laçında qaldı mənim bütün gözəl xatirələrim…"

Bizim olan hər şey bizimdir, bilirəm! Laçınımız, Ağdamımız, Qarabağımız könlümüzdür. Səməd Vurğunun təbirincə, "könül candan ayrılmaz!" Bugünkü Laçın həsrətimizin, Ağdam göynəyimizin, Qarabağ dərdimizin səbəbkarı olan düşmən bəd əməlinin cavabını mütləq ki alacaq! Ağoğlandakı ağacların kölgəsində Rəşad Məciddən müsahibə alacağım gün də yaxındadır, əminəm… Zehnimdən ha qovmağa çalışsam da, ürək üzən bir ehtimal oradadır: "Balaxanım nənənin ömrü yetəcəkmi Ağoğlanda məni qarşılamağa?"

Özümü bu ehtimalın cəngindən xilas etməyin yeganə yoluna üz tuturam-xəyalən Laçına-Balaxanım nənənin gözümə baxa-baxa həsrətini çəkdiyi evi axtarmağa gedirəm. Manşırladığım Rəşad Məcidin sosial şəbəkədəki bir statusudur… Yazmışdı ki, arabir "Google Map"də Laçının Ağoğlan kəndində doğul-

duğu evi – Balaxanım nənəylə Halay babanın evini tapır, onun uçuq-sökük divarlarına baxır, amma xalaları deyir: "Nənəyə göstərmə, pis olar".

Mənə elə gəlir ki, həmin şəkilləri gizlətsələr də, Balaxanım nənə yüzlərlə kilometrlər uzaqda olan evinin hənirini, ağrısını duyurdu. Bilirdi ki, evin "başı salamat deyil". Lap divarları yerində qalsaydı belə, bu ev o ev deyildi. Canındakı ağrı Ağoğlanda o qədim evi, Bakıda isə o evin həsrətiylə yaşayan Balaxanım nənəni qocaltmamışdımı?!

…Min qat təəssüf ki, Balaxanım nənə 2019-cu ildə bu dünyadan yükünü çəkdi. Dözə bilmədi yurddan ayrılmağın o çəkilməz ağrısına. Ən azından, ikicə il də səbri çatmadı. Hamımızdan qabaq tələsdi Laçına. Cismini apara bilməsə də, ruhuyla qovuşdu torpağına, evinə. Görəsən, o evi o cür görəndə nə hiss etdi? Ağrıdımı canı, yoxsa "uçuq da olsa, öz divarım, öz həyətimdir" deyib rahat nəfəs aldı? Bəs bu evin şəklini ondan gizlədən övladlarından, nəvələrindən inciməsi ki? İnciməzdi, çox güman. Müdrik qadın idi Balaxanım nənə, anlayırdı onların qorxusunu, iztirabını.

***

Balaxanım nənənin gedişindən heç iki il keçməmiş azad olundu Laçın da, Ağoğlan da, Ağoğlandakı o uçuq-sökük ev də. Sonra həmin evin videosu da gəldi, Rəşad Məcid öz essesiylə o videonu şərh elədi-ekranlardan da olsa, bizi Balaxanım nənənin eviylə tanış elədi. Onda bir daha xatırladım bunları və öz özümdən soruşdum: "Görən, duydumu nənə baş verənləri, hiss etdimi yaxınlaşan doğma nəfəsləri?! Sevinirmi, şaddırmı, ruhu, nəhayət, rahatlıq tapa bilibmi?! Bəlkə elə Balaxanım nənə və onun kimi vətən həsrətiylə bu dünyadan köçən qarabağlıların, laçınlıların ruhu da kömək etdi bizə, ordumuza, onların torpa-

ğının harayına yetişən əsgərlərimizə?! Bəlkə elə bu böyük zəfərin mistik gücü həmin o gözəgörünməz kömək idi?! Kim bilir, bəlkə də...

…Qarabağın qayım-qədim yolları günbəgün abadlaşır. O yollarla el-elat öz yurduna dönür. Yolçuların bu dəfəki yükü vüsal həyəcanı, kainatı dolduran sevincdir! Neçə dəfə yolçusu oldum o yolların, hərəsindən ayrı duyğu qaldı mənə… Dünya xəritəsinə baxanda Qarabağ bapbalaca bir yerdir. Azərbaycanlı ürəyində isə Qarabağın böyüklüyü, əzəməti vətən sevdasında, torpaq qudsallığındadır.

Ən yaxın zamanda Ağoğlan yolunu tutacağımı, Balaxanım nənənin meyvəsindən nəvələrinə nübar payı ayırdığı ağacların kölgəsində Rəşad Məciddən müsahibə alacağımı bilirəm. Oxuyanlar yaxşı bilir ki, Rəşad Məcidin hər müsahibəsi onun ömür yoluna qovuşan bir cığırın bəri başıdır.

Cığırlarınız heç zaman itməsin, yollarınız həmişə açıq olsun, Rəşad Məcid!

Bakı,
Fevral, 2018-ci il

“Ürəkdən gələn yazılar”
Rəşad Məcidin publisistikası

Yüz ilin Ustadı

Azərbaycanın görkəmli alimi və yorulmaz mətbuat tədqiqatçısı, Bakı Dövlət Universitetinin professoru, Əməkdar jurnalist, unudulmaz pedaqoq, əziz müəllimimiz Şirməmməd Hüseynov haqqında keçmiş zamanda yazmaq dərin kədər hissi doğursa da, qoyub getdiyi dəyərli mənəvi irs həmişə yolumuzu aydınladır. Yüz ilin Ustadının ömrü yalnız yaşadığı dövrə aid deyil, bu ömür həm də gələcək nəsillərin düşüncələrinə çıraq tutan mükəmməl bir yol xəritəsidir.

Dekabrın 17-də 100 illiyini qeyd edəcəyimiz, hər zaman yaddaşımızda canlı əfsanə kimi yaşayan professor Şirməmməd Hüseynovun həyat yolu əsl örnəkdir. O, dəyərlərə dəyişməz sadiqliyi, gördüyü işə sonsuz inamı, yorulmazlığı, əzmkarlığı, təmizliyi, saflığı, nikbinliyi, gözütoxluğu, müdrikliyi, ləyaqəti, mülayimliyi və hökmü ilə hamımıza "Belə yaşamaq mümkündür" nümunəsini göstərən əvəzsiz şəxsiyyət, düzlüyü, ədaləti, prinsipiallığı və xarizmasıyla mətbuatımızın gerçək tarixi simasıdı. Şirməmməd Hüseynov elə bir irs qoyub gedib ki, bu, hər alimə nəsib olan səadət deyil. Onun ən böyük sərvəti araşdırmaları, tələbələri və yetirmələridir. Jurnalistlərin əvəzsiz müəllimi Şirməmməd Hüseynov həm də Azərbaycan Xalq Cümhuriyyəti tarixinin ən nüfuzlu tədqiqatçısı idi.

...Ötən əsrin 80-ci illərində – Bakı Dövlət Universitetinin keçmiş Kommunist küçəsində yerləşən korpusunda Jurnalistika fakültəsində təhsil aldığım illərdə bəzi müəllimlər bizim üçün əfsanə kimi görünürdü. O müəllimlərin hamısı mənim həya-

tımda böyük rol oynayıblar və indiyə qədər xatirimdədirlər. Həmin müəllimlərim sırasında professor Şirməmməd Hüseynovun müstəsna yeri var. Xoşbəxtlikdən, o illərdə Şirməmməd müəllim bizə burjua ölkələrinin jurnalistikasından dörd qoşa saat dərs dedi. Mən o mühazirələrə qulaq asa-asa haçansa Şirməmməd müəllim haqqında mütləq yazacağımı özüm üçün yəqinləşdirmişdim. Hətta yazının adı da hazır idi: "Dörd qoşa saat". Sonralar, dediyim o yazını yazdım da. Doğrudan da, həmin dərslər jurnalistika haqqında təsəvvürümüzü dəyişdirdi. Şirməmməd müəllim sovet rejiminin ən güclü vaxtlarında sətiraltı mesajlarla jurnalistikanın mahiyyətini bizə izah edirdi. Hələ məşhur yenidənqurmanın başlanğıcında dörd qoşa saat burjua jurnalistikasının mahiyyətini anladan Şirməmməd müəllim həm də bir az ezop diliylə, bir az sətiraltı sözlərlə, bəzən də mimikayla sovet və burjua mətbuatları arasındakı fərqləri bizə çox aydınca başa salmışdı...

...1985-ci ildə "Elm və həyat" jurnalında korrektor kimi işə başlamışdım, tanınmış, səmimi iş yoldaşlarım içərisində Şirməmməd müəllimin ömür-gün yoldaşı Ülkər xanım Hüseynova da var idi. Ülkər xanım jurnalın "Elm" şöbəsinə rəhbərlik edirdi, ciddi, qəliz, çətin mövzulardan yazırdı, fərqli insanlar barədə danışırdı. Mən indi hamının yaxşı tanıdığı məşhur həmyerlimizin - Lütfi Zadənin adını da ilk dəfə Ülkər xanımdan eşitmişdim. Cavan jurnalistlərin dilindən ciddiliyi, sərtliyi barədə müxtəlif hadisələr eşitdiyim Şirməmməd müəllimin adı Ülkər xanımın dilində sadəcə, "Şirməmməd" deyə səslənirdi və əlçatmaz müəllimimizin həm də real bir insan olduğunu bizə xatırladırdı. Sonralar Şirməmməd müəllim mənə dərs deyəndə gördüm ki, onun işə məsuliyyətli yanaşması Ülkər xanıma da sirayət edib. Ülkər xanım çox zabitəli və ciddi qadın idi. Amma ara-sıra Şirməmməd Hüseynovun həyat tərzi barədə danışırdı.

Onun dedikləri Şirməmməd müəllimi mənim gözümdə bütləşdirmişdi. Heyrətqarışıq bu heyranlıq bu gün də davam edir.

...Gərək ki, Şirməmməd müəllimin özü ilə ilk dəfə görkəmli türkoloq alim Aydın Məmmədovla birlikdə oturmuşduq. Uzaqdan böyük ehtiram bəslədiyim müəllimimlə birinci dəfə yaxından görüşür, söhbətlərini dinləyirdim. Bu insanların müasir tariximizdə və şəxsən mənim həyatımda böyük rolu var.

Sonralar həyat elə gətirdi ki, Şirməmməd müəllim "525-ci qəzet"in unudulmaz müəlliflərindən biri oldu. Biz onunla "525-ci qəzet"in redaksiyasında, BDU-da tez-tez görüşürdük. Onun redaksiyamıza hər gəlişi həm "525"in, həm də o vaxt Dövlət Tərcümə Mərkəzində yerləşən digər mətbuat orqanlarının əməkdaşları üçün əsl bayrama çevrilirdi. Şirməmməd müəllimin maraqlı söhbətlərindən doymaq olmurdu. Həmin illərdə o, Məhəmməd Əmin Rəsulzadənin, Üzeyir Hacıbəylinin dərc olunmamış əsərlərini "525-ci qəzet"də silsilə şəkildə nəşr etdirirdi - bu böyük şəxsiyyətləri də "525"in müəlliflərinə çevirmişdi. Qəzet üçün göndərdiyi yazılarda hər bir sözün üstündə əsərək böyük diqqət göstərir və redaksiyanın kollektivini də səfərbər edirdi – jurnalistikada aldığımız nəzəri dərsi həm də praktikada da ustadımızdan öyrənirdik. Müəllimimizin "525-ci qəzet"in şənbə saylarında mütəmadi olaraq tariximizi araşdıran yazılarını hamımız səbirsizliklə gözləyirdik. Hər dəfə redaksiyaya müraciət edəndə bilirdik ki, mətbuat tariximizlə bağlı nəsə yeni material gətirəcək, bilinməyən məqamları ortaya qoyacaq. Şirməmməd Hüseynovun zəhmətkeşliyi, fədakarlığı, klassik irsə, milli dəyərlərə münasibəti bizi heyrətləndirirdi və hamımız ondan necə məsuliyyətli olmağı öyrənirdik. Hər xırda söz, hadisə Şirməmməd müəllim üçün əhəmiyyətli idi və hər məsələyə dəqiqliklə yanaşırdı. Vaxtilə onun təşəbbüsü ilə "İr-

şad”, “Həyat” və “Açıq söz” qəzetlərinin ilk saylarının, “Azərbaycan” qəzetinin cümhuriyyətin bir illiyinə həsr olunmuş 28 may, eləcə də parlamentin açılışına həsr olunmuş nömrələrinin transliterasiyasını “525”in içərisində xüsusi buraxılış kimi çap etmişdik. Bunlar həm mətbuat tariximizlə daha yaxından tanış olmaq baxımından, həm də tariximizi gənc nəsillərə sevdirmək cəhətdən çox əhəmiyyətli məqamlar idi. Cümhuriyyət və mətbuat tariximizlə bağlı ən ciddi məsələlərə Şirməmməd müəllimin münasibətini, tapdığı yeni faktları, üzə çıxardığı yazıları “525”də şövqlə, məmnuniyyətlə çap edirdik.

Şirməmməd müəllim son illərdə də bir neçə dəfə qəfildən redaksiyamıza qonaq gəlmişdi. Mən də, redaksiyanın əksər əməkdaşları da onun – Ustadımızın hüzurunda sayğıyla dayanır, eyni zamanda Şirməmməd müəllimlə birlikdə çəkdirdiyimiz şəkillərimizi sosial şəbəkələrdə paylaşmaq fürsətini də fövtə vermirdik...

Çox sevindirici haldır ki, Şirməmməd Hüseynovun yolunu bu gün onun tələbələri uğurla davam etdirirlər. Ustadın anadan olmasının 100 illik yubileyi ərəfəsində, bu günlərdə BDU-nun Jurnalistika fakültəsinin Milli mətbuat kafedrasının müəllimi, Şirməmməd Hüseynovun araşdırmaçı yetirməsi Samir Xalidoğlunun rəhbərliyi, fakültənin bir qrup tələbəsinin iştirakı ilə “Açıq söz” qəzetinin 2-ci sayının transliterasiyası “525-ci qəzet”in içərisində işıq üzü gördü, qəzetin 3-cü sayının transliterasiyası isə artıq çapa hazırlanır.

Söz düşmüşkən, bu yerdə bir məqamı da qeyd etməyi vacib bilirəm. Bir neçə ildir, ADA Universitetinin böyük dəstəyi ilə, 1918-1920-ci illərdə nəşr olunmuş “Azərbaycan” qəzetinin tam külliyyatının latın qrafikasıyla 20 cilddə nəşri prosesinə start verilib və artıq iyirmicildliyin yarıdan çoxu işıq üzü görüb. Belə bir

əhəmiyyətli və xeyirxah təşəbbüs, hesab edirəm ki, həm bu ali təhsil ocağı tərəfindən Azərbaycanın mətbuat tarixinə xüsusi ehtiramın, həm də ustad tədqiqatçı Şirməmməd Hüseynovun başladığı böyük işə nəcib və qədirbilən münasibətin nümunəsidir.

Azərbaycan mətbuat tarixinin öyrənilməsi və təbliği istiqamətində Şirməmməd müəllimin fəaliyyəti təkrarsızdır. Ömrünün ahıl çağında da Şirməmməd müəllim çox enerjili, çalışqan idi. Hətta onun bir müsahibəsində dediyi: "Mənim əlimdə işim çoxdur, ona görə də ölməyə vaxtım yoxdur" – fikri qardaş Türkiyə alimlərini heyrətləndirmiş və məhz bu fikrinə görə Azərbaycana gəlib onunla tanış olmuşdular.

...2019-cu il – təxminən mayın sonu, iyunun əvvəlləri idi. Şirməmməd müəllim bir gün zəng edib mənə dedi ki, bu mövsümü bitirdik, yeni yazılara sentyabrdan başlayarıq. Təəssüf ki, həmin zəngdən qısa müddət sonra Şirməmməd müəllimin vəfat xəbəri hamımızı sarsıtdı. Biz həmin ilin sentyabrında da, sonrakı illərdə də onun ruhunu, yazılarının ab-havasını daima hiss edirik. Şirməmməd müəllimin 100 illiyi ilə bağlı bu yazı barədə düşünəndə Əflatun Amaşovun bir vaxtlar mənə ünvanladığı yubiley təbrikindən bir məqamı xatırladım: "Mətbuat Şurasının ofisi adi iş axarında idi. Baş redaktorlar, ictimai xadimlər Şuraya toplaşmışdılar. Rəşad da gəlib çıxdı və kabinetə girəcəkdə gördüyü şəxs həmkarımı ənənəvi olaraq hamı ilə görüşmək fikrindən bir anlığa daşındırdı. Birbaşa ona doğru yön aldı. Qarşısında dayandı, əyilərək əlindən öpdü. Azərbaycan jurnalistikasının canlı əfsanəsi Şirməmməd Hüseynov... sözün yaxşı mənasında çaşqınlıq içərisindəydi. Sonradan Rəşad "mən millətimizə, xalqımıza xidmət edən dəyərli insanların əllərindən öpməkdən heç vaxt çəkinmədim. Otağıma gələndə ayağa sıçradım, qabaqlarına yüyürdüm..." yazacaqdı".

Xatırladığım digər bir məqam isə istedadlı, iti müşahidə qabiliyyətinə malik gənc jurnalistimizin dedikləri oldu: "İlk dəfə mən hələ 2010-cu ildə sizin Şirməmməd müəllimlə danışığınıza heyrətlənmişdim. Sonsuz sayğı və ehtiramla, ən adi sözü belə möhkəm deməkdən ehtiyatlanaraq, sözlərə nəvaziş qataraq, yumşaq, qayğıkeş danışırdınız". İndi düşünürəm, az qala 40 il məni bu insana, müəllimə, jurnalistə, şəxsiyyətə qarşı belə sayğıda saxlayan bu dərin hissin səbəbi nədir? Və cavabını tapıram: Onun yüz ilin müdrikliyini, tarixiliyini və mənəvi əzəmətini özündə cəmləşdirib hərtərəfli ÖRNƏK ŞƏXSİYYƏT olmağı bacarması...

Şirməmməd müəllim həm bizdən ötrü, həm də bizdən sonrakı nəsillər üçün diqqətin, məsuliyyətin, dəqiqliyin, gördüyü işə hədsiz sevginin simvoludur. Dəfələrlə olub ki, ya özünün təqdim etdiyi, ya da qəzetdə çıxan başqa materiallarda yalnız onun diqqətini çəkə biləcək, yalnız onun sezəcəyi hansısa rəqəmlərə, faktlara aid qeydlərini, düzəlişlərini dərhal telefonla çatdırıb. Əksəriyyətimizə çox xırda, əhəmiyyətsiz görünə biləcək həmin məqamlara son dərəcə həssas münasibəti əslində ona Ustad adı qazandıran müstəsna cəhət, nadir keyfiyyətdir.

Təxminən on il qabaq, yaşlı nəslin nümayəndələri hələ yeni texnologiyalara müqavimət göstərdiyi bir vaxtda Jurnalistika fakültəsində, Mətbuat tarixi kafedrasında üçümüz - Şirməmməd müəllim, Cahangir müəllim və mən söhbət edirdik. Birdən cib telefonu zəng çaldı. Mən, ilk ehtimal kimi, Cahangir müəllimə baxdım. Qımıldanmadı. Şirməmməd müəllim əlini pencəyinin cibinə atıb telefona cavab verdi. Gülümsədim və zövq aldım. Şirməmməd müəllimin yaşıdları arasında mobil telefonla ən tez dostlaşanlardan biri olduğunu biləndə heyrətlənib sevinmişdim.

...Bir gün Bəstəkarlar İttifaqında Şirməmməd müəllimin qızı - Azərbaycan Milli Konservatoriyasının professoru Lalə

xanım Hüseynovanın kitabının təqdimatı keçirilirdi. Tədbirin sonunda Şirməmməd müəllimlə söhbət edirdik. Birdən qayıtdı ki, Rəşad, mən bu səhnədə 1938-ci ildə Üzeyir Hacıbəyovun qarşısında çıxış etmişəm. Tədbir sonunun qələbəliyindən, hay-küyündən deyilən fikri tam anlaya bilməmişdim. Bir an duruxandan sonra təəccüblə: "Neçənci ildə?" - deyə soruşdum. Hadisəni danışdı: "Bu günlərdə Milli Kitabxananın direktoru Kərim müəllim 1938-ci ilin "Bakraboçi" qəzetindən bir məlumatın surətini çıxarıb göndərib mənə. Yazılıb ki, tədbirdə 14 yaşlı Şəki məktəblisi Ş.Hüseynov çıxış edib. O məktəbli mən idim. Onda bura Пионерlər eviydi. Mən də böyük bəstəkarların münsif olduğu müsabiqədə muğam oxumuşdum".

Hərdən belə epizodları dostlara danışır, Şirməmməd müəllimin bizim üçün örnək olmalı bir çox keyfiyyətlərindən söz açıram. O, bizim üçün bir nümunə, gerçək əfsanə, həm də gözümüzün qarşısında olan canlı tarix idi!

Şirməmməd müəllimsiz həyatımızda dərin bir boşluq yaransa da, Ustadımızın nurlu xatirəsi daima bizimlədir. İnanıram ki, BDU, Mətbuat Şurası və media qurumları ilə birlikdə 100 illiyində onun xatirəsini layiqincə anacaq, gördüyü misilsiz işləri bir daha yad edəcəyik. Belə böyük şəxsiyyətlərin hüzurunda sayğıyla dayanmaq, əllərindən öpmək ümumən mətbuatımıza, tarixi şəxsiyyətlərimizə, müəllimlərimizə sayğı və hörmətdir. Əflatun Amaşovun yuxarıda yazdığım müşahidəsi isə dəqiq və məncə, hamımızın edə biləcəyi, etməli olduğu davranışdır. Bir əsri tamamlayan böyük Ustadımızın nurlu xatirəsi qarşısında ehtiramın və minnətdarlığın ifadəsi kimi bu gün də sayğı duruşunda baş əyirəm! Ruhunuz şad olsun, Şirməmməd müəllim!..

16.12.2024

Təəccüb və heyrət

Xalq yazıçısı Anarın – Anar müəllimin növbəti doğum günüdür. Bu əlamətdar gün ərəfəsində Anar müəllimlə bağlı son illər məni təəccübləndirən, heyrətləndirən, yeri gəldikcə başqaları ilə də bölüşdüyüm bəzi məqamları qələmə almağı düşündüm.

Uzun illərdən bəri tanımağıma, 20 ildən artıq Azərbaycan Yazıçılar Birliyində bir yerdə işləməyimizə baxmayaraq, indinin özündə də Anar müəllimin yeni-yeni keyfiyyətlərini müşahidə edir və hələ də ondan öyrənir, nümunə götürür, hətta tez-tez təəccüblənirəm.

Gənc Füzuli heyrəti

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530 illik yubileyi münasibətilə "bp Azərbaycan"la "Azərnəşr"in birgə hazırladıqları ikicildliyin bu günlərdə keçirilən təqdimat mərasimində Anar müəllimin çıxışı həmişəki kimi öz fərqliliyi ilə olduqca diqqətçəkən idi. Ona görə "həmişəki kimi" ki, Anar müəllim bütün çıxışlarında qısa, lakonik, amma fərqli danışır, eyni zamanda emosiyalara təsir edir, düşünmək üçün müəyyən tezislər ötürür. Bu tədbirdəki çıxış da elə oldu: "Mən bunu vaxtilə Tahir Salahova, Toğrul Nərimanbəyova demişdim, indi isə burada gənc rəssamlar varsa, onlara müraciət edirəm: Məhəmməd Füzulinin ancaq yaşlı vaxtının rəsmləri var, ancaq Füzulini gənc yaşında da çəkmək lazımdır axı. Əgər "Tutuşdu qəm oduna şad gördügün könlüm, Müqəyyəd oldu ol azad gördügün könlüm" – yaşlı Füzulinin şeiri kimi normal qə-

bul edilir və çəkilmiş rəsmlərilə uyğunluq təşkil edirsə, "Dəhənin dərdimə dərman dedilər cananın, Bildilər dərdimi, yoxdur dedilər dərmanın" beytini qoca kişi deməz, gənc Məhəmməd Füzuli deyər. Əgər Füzulinin cavanlıq rəsmi də olsa, insanlar belə şeirləri onunla assosiasiya edərlər". Anar müəllim auditoriya qarşısında Füzulinin böyüklüyünü vurğulamaqla yanaşı, çox vacib bir məqama da toxunur, öz fərqli mesajlarını mədəniyyət adamlarına çatdırırdı.

Son illər birgə səfərlərimizdə, tədbirlərdə, söhbətlərimizdə belə məqamların çox şahidi olmuşam. O, Azərbaycan ədəbiyyatının canlı klassiki, bir neçə nəslin ictimai şüurunun, bədii zövqünün formalaşmasında mühim rol oynamış böyük ziyalımızdır. "Kitabi Dədə Qorqud"un xalqımıza tanıdılmasında və filmin çəkilməsilə populyarlıq qazanmasında Anar müəllimin xidməti əvəzsizdir. Onun Mirzə Cəlil, Üzeyir Hacıbəyli, Mirzə Fətəli Axundov, Hüseyn Cavid haqqında ssenarilərinə çəkilmiş bədii filmlər Azərbaycan mədəniyyət tariximizə əvəzsiz töhfələrdir. Son illərdə Cəfər Cabbarlı haqqında ssenari yazıb, filmin çəkilməsini çox arzulayır. Əminəm ki, tez bir zamanda Anar müəllimin bu istəyi gerçəkləşəcək və mədəniyyətimizə, ədəbiyyatımıza daha bir töhfəsini verəcək.

Yaddaşa heyrət

Anar müəllimin məni heyrətləndirən cəhətlərindən biri də dərin bilgisi və unikal yaddaşıdır. Hərdən yaşından gileylənən adamlara Anar müəllimi örnək göstərir, onun 87 yaşında da son dərəcə iti yaddaşa sahib olduğunu deyirəm.

2014-cü ildə cənab Prezident İlham Əliyevin iştirakı ilə dahi bəstəkar Qara Qarayevin heykəlinin açılış mərasimində

Anar müəllimin çıxışı məni heyrətə gətirmişdi. Həmin açılış mərasimini televiziya ilə izlədiyim günün səhərisi Yazıçılar Birliyində təəssüratımı onun özüylə də bölüşdüm, Qara Qarayevin əsərləri, bu əsərlərin hər birinin məğzi, mahiyyəti, dahi sənətkarın Azərbaycan musiqisinə verdiyi töhfələr haqqında belə dəqiq, səlis və sistemli, üstəlik də, bədahətən danışmasından heyrətləndiyimi bildirdim.

Anar müəllimin belə çıxışları çoxdur. Unudulmayan o çıxışlardan biri də 2022-ci ilin yayında Şuşada keçirilən Vaqif Poeziya Günlərində dərin mənaları, zəngin alt qatı olan çıxış idi. Həmin çıxışda Anar müəllim Molla Pənah Vaqifdən danışdı. Onun "Görmədim" müxəmməsindən bir neçə bəndi və "Sevgilim, ləblərin yaquta bənzər" misrasıyla başlayan məşhur qoşmasını əzbər dedi: "Təbiət də canlı varlıqdır. Ağaclar çiçək açır, payızda yarpaqlar solur, tökülüb xəzəl olur. Amma ağac ölmür, yenidən dirilir və yeni baharda torpağın gücü ilə günəşə boylanaraq çiçəkləyir. Əgər təbiət canlı varlıqdırsa, sevinc də duyur, həsrət də duyur və 30 il Şuşanın dağları, dumanları, meşələri, bulaqları muğam həsrəti ilə, doğma dildə şeir nisgili ilə yaşayıb. Xoşbəxtlikdən, bu nisgil sona yetdi. Bu gün Cıdır düzü Azərbaycanın ən möhtəşəm konsert salonudur. Bu gün Vaqif məqbərəsinin önü Azərbaycanın ən yüksək şeir kürsüsüdür. Təsadüfi deyil ki, hörmətli Prezidentimizin ilk fərmanlarından biri Şuşanı - Vaqifin, Natəvanın, Nəvvabın, Cabbarın, Üzeyirin, Bülbülün Şuşasını Azərbaycanın mədəniyyət paytaxtı elan eləmək oldu. İlk günlərdən Şuşada şeir, musiqi tədbirləri keçirilir və biz Şuşaya, vandallar tərəfindən dağıdılmış, viran qoyulmuş küçələrə, evlərə sənət, mədəniyyət gətiririk".

Ötən ilin dekabr ayında Anar müəllimlə Almatıya Qazaxıstan Yazıçılar Birliyinin 90 illik yubileyinə getmişdik. Yubiley tədbirində Anar müəllim çox təsirli və əhatəli çıxış elədi. O,

çıxışında qazax yazıçıları, onların əsərləri, ümumtürk ədəbiyyatına təsirləri, eləcə də 1926-cı ildə Bakıda keçirilən Türkoloji qurultayda iştirak edən qazax yazıçı-alimləri barədə faktları bir-birinin ardınca elə dəqiqliklə sadalayırdı ki, bir məqamda gördüm digər türkdilli ölkələrin yazıçıları, ədəbiyyat nümayəndələri heyrətlə mənə baxırlar. Onları heyrətə salan ahıl yaşda bir insanın ensiklopedik biliyi, bu qədər adı, əsəri yadında saxlayıb aydın şəkildə ifadə etməsi, Türk dünyasının gələcək istiqamətlərini sadə fikirlərlə göstərmək məharəti idi. Təbii ki, bu reaksiyalar mənə çox böyük zövq verirdi. Özbəkistanın yaşı 80-i keçmiş Xalq şairinin heyrətli baxışlarını hələ də unuda bilmirəm.

Qarlı, soyuq havada iki gün çəkən o səfərimiz çox gözəl keçdi. Qayıdandan sonra Anar müəllim mənə xoş ovqat yaradan sözlər dedi: "Sən yaxşı səfər yoldaşısan, gərək səninlə tez-tez səfərə çıxaq!" Halbuki Anar müəllimlə ildə bir neçə dəfə səfərlərimiz olur.

Bu il fevralın ilk günləri idi, Heydər Əliyev sarayında Xalq artisti, böyük sənətkar Polad Bülbüloğlunun 80 illik yubiley gecəsi keçiriləcəkdi. Təbii ki, tədbirə bütün biletlər satılıb qurtarmışdı. Həmin ərəfədə Yazıçılar Birliyində Anar müəllim, Çingiz Abdullayev və mən söhbət edirdik. Sözarası Çingiz müəllimə dedim ki, Polad Bülbüloğlunun yubiley tədbirində mən də iştirak etmək istəyərdim. Düzü, Anar müəllimin mənim bu sözümü eşidib-eşitmədiyini bilmədim. Bir neçə gün sonra Anar müəllim məni yanına çağırdı. Sən demə, Polad Bülbüloğlu onların ailəsi üçün üç dəvətnamə göndəribmiş, amma Zemfira xanımla Günel xanım xəstəhal olduqlarından tədbirə gedə bilməyəcəklərmiş. Anar müəllim mənə dedi ki, sən o konsertə getmək istəyirdin, buyur, bu iki bileti, gələrsən. Adi, ani bir sözü Anar müəllimin həssaslıqla yadında saxlayıb diqqət göstərməyi məni növbəti dəfə təəccübləndirən nüans oldu.

“İçindən bayır şəhərə çıxan təəccübüm...”

Anar müəllimin mənə yaşatdığı təəccüblü və heyrətli məqamlar haqqında düşünərkən bu tanış misralar yadıma düşür:

Əyrin-üyrün,
Dar küçələrin,
Gündüzlər
otaqlarındakı bəyaz gecələrin,
damlarının yastısı,
içinin astası
Küçələrini
dolanan addımların
Həmişə tənha səsi,
Gecələrinin
dünyada itən tarix tikəsi,
İçindən bayır şəhərə
çıxan təəccübüm,
Oğrularından qorxan cibim,
ölüm ayağındadır indi.
İçərişəhər,
Biçarə şəhər.

Xalq şairi Vaqif Səmədoğlunun İçərişəhərə həsr etdiyi bu şeirdəki təəccübə ilk dəfə Anar müəllimin “Gürcü familiyası” hekayəsində, İçərişəhərin təsvirində rast gəlmişdim. Bu hekayə əsasında məşhur “Gün keçdi” filmi də çəkilib. İndi mənim Anar müəllimin unikal yaddaşı, fövqəladə şəxsi keyfiyyətləri, yazmaq, yaşamaq şövqü qarşısındakı təəccübüm Vaqif Səmədoğlunun İçərişəhərlə bağlı duyduğu həmin təəccübə bənzəyir.

Anar müəllimin ömrünün indiki çağında belə unikal yadda-

şa sahib olmasını mən yalnız yaradıcılıq şövqü, yazmaq ehtirası ilə bağlaya bilirəm. Almatıdan Bakıya dönərkən həyatın mənası barədə söhbət edərkən, o, qısaca dedi ki, həyatın mənası yaşamaqdır. Amma yaşamaq Anar müəllimin anlamında çox dərin mətləbdir. Yaşamaq durmadan yazmaq, öz hisslərini, duyğularını, təcrübəni qələmə almaq, eyni zamanda ömür boyu oxumaq, öyrənmək, indiki informasiya bolluğunda zamandan geri qalmamaq və öz əsərlərində sətiraltı ifadələrlə dərin mətləblərə münasibət bildirməkdir.

O, Səməd Vurğun haqqında olan son kitabında da məni təəccübləndirməyi bacardı. Kitabla tanış olanda xeyli keçmişə qayıtdım və dedim ki, gərək Vaqif Səmədoğlunun Nigar Rəfibəylinin vəfatı ilə bağlı yazdığı "Dekabr yağmuru, konyak çiskini" şeirini də kitaba salaydınız.

Həssas və kübar davranış... Daha bir heyrət!

2022-ci ilin iyun ayında akademik İsa Həbibbəyli bizi Naxçıvana dəvət elədi. Fərhad Xəlilov, Fərhad Bədəlbəyli, Anar müəllim və mən gedib iki gün Naxçıvanı gəzdik, Batabatı ziyarət etdik.

Biz Şərur rayonunun Danyeri kəndinə gedib İsa müəllimin ata evini də ziyarət etdik, 90 yaşlı anası Qəndab xanım Həbibbəyli ilə görüşdük. Bir də gördüm Anar müəllim çantasını axtarır. Əgər Anar müəllim çantasını axtarırsa, deməli, nəsə sürpriz var. Yəqin İsa müəllimlə Naxçıvan gediriksə, mütləq onun ata evini də ziyarət edəcəyimizi, anası ilə də görüşəcəyimizi düşünüb hazırlıqlı gəlibmiş. Anar müəllim çantasından bir yaylıq çıxartdı, Qəndab xanıma təqdim edib dedi ki, həyat yoldaşım Zemfira xanım sizə göndərib. Onun bu yaşda bu qədər kübar,

diqqətcil olmasına, heç kimi və heç nəyi unutmamasına heyrətlənməmək mümkündürmü ki?!

Bir az əvvəl "yaradıcılıq şövqü" ifadəsini elə-belə işlətmədim. İndi də yadıma elə bu məsələ ilə bağlı bir hadisə düşdü. 2023-cü ilin noyabr ayında İLESAM-ın təşkilatçılığı ilə V Türk Yazarlar Qurultayında iştirak edirdik. Tədbirlər Ankarada başlayıb, İstanbulda davam etdirilmişdi. Nümayəndə heyətində bizim həm gənc yazarlar – Nadir Yalçın, Ulucay Akif, Rəvan Cavid, həm də orta nəslin nümayəndələri - Əyyub Qiyas və Xəyal Rza da vardı. Anar müəllim məni bu səfərdə də təəccübləndirdi. Deməli, bir həftə boyunca davam edən tədbirlərdə Anar müəllim hamımızdan çox çıxış etdi, hamımızdan çox fərqli təkliflər verdi, tədbirlərin hamısında axıracan oturdu, axşamlar ziyafətlərdə yenə də hamımızdan çox, yorulmadan, təmkinlə əyləşdi. Bakıya qayıdıb işə çıxanda isə mənə yeni hekayəsini - "Balaca Fuad"ın son xahişi"ni verib dedi ki, buna bax, qəzetdə çap edək. Heyrətə gəldim: "Bir həftədir gecə-gündüz gözümüzün qabağında tədbirlərdə, görüşlərdə iştirak edirdiniz, bu hekayəni yazmağa necə vaxt tapdınız?" Sonra gənclərə dedim ki, baxın, nümunə götürün, Anar müəllim hamımızdan daha fəal, daha enerjilidir, üstəgəl, iki qəzet səhifəsi həcmində hekayə də yazmağa vaxt tapıb.

Şuşa haqqı...

Ötən il iyulun 12-də Azərbaycan Yazıçılar Birliyinin 90 illik yubileyində Türk dünyasından bir çox yazar iştirak edirdi. Onların arasında Anar müəllimin köhnə dostları da var idi (Anar müəllim heç zaman dostlarını unutmur, onları tez-tez xatırlayır). Tükiyənin məşhur şairi Ataol Bəhramoğlu və TÜRKSOY-un keçmiş baş katibi Düsen Kaseinov Şuşanı görməyi çox istəyir-

dilər. Hətta Düsen Kaseinov demişdi ki, Şuşa mənim vaxtımda TÜRKSOY-un mədəniyyət paytaxtı elan olundu, amma sonrakı tədbirlərin heç birində iştirak edə bilmədim, Şuşanı görmədim. Ona görə də Anar müəllim onları Şuşaya dəvət etdi. İyulun 12-də qonaqlarımızla birlikdə Şuşaya getdik, tarixi abidələrimizi ziyarət etdik, Üzeyir bəyin büstü önündə şəkillər çəkdirdik, Turşsuda olduq. Orada Anar müəllimin Düsen bəyin bu arzusunu gerçəkləşdirmək üçün etdiyi cəhdlər onu çox duyğulandırdı.

Həmin səfərimizdə səhər "Xarıbülbül" otelində foyeyə enərkən gördüm Anar müəllim Ataol bəylə oturub klassik musiqilər dinləyir. Mən də "Şuşada Bülbülün dupduru səsini dinləməyin öz yeri var", – deyib Bülbülün təsniflərini açdım, birlikdə dinlədik.

Şuşa demişkən, böyük Zəfərimizdən sonra biz Anar müəllimlə birlikdə Şuşada çox olmuşuq. Onun Şuşa sevgisinin canlı şahidlərindən biriyəm. Şuşa onun ən həssas yeridir. Hələ çox illər öncədən yazıçı Anarın Şuşa haqqında yazılarını oxuyur, Şuşanı bir də bu böyük yazıçının gözü ilə görməyə, kəşf etməyə çalışırdım. Sonralar çıxışlarımda, yazılarımda dəfələrlə onun Şuşa haqqındakı fikirlərindən sitatlar gətirmişəm.

Bir dəfə Şuşada uzaqdan Anar müəllimin "Qarabağ" otelinin qarşısında oturub fikrə daldığını gördüm və şəklini çəkib sosial şəbəkədə paylaşdım. Həmin şəkil çox məşhurlaşdı, onun oturuşuna başqa mənalar yükləməyə çalışan ağzıgöyçəklər də tapıldı. Amma Anar müəllim Şuşada belə şəstlə oturmağa ən çox haqqı çatan insanlardandır. İndi də hərdən şəkillərini çəkəndə zarafatla deyir ki, bu şəkil də məşhur olacaq.

Anar müəllim "Ay Laçın" mahnısını ifa etməyi çox sevir. Bir dəfə Şabrandakı Yaradıcılıq evində keçirilən Poeziya gecəsində şairlər öz şeirlərini oxuyurdular, Anar müəllim isə "Ay Laçın" mahnısını oxudu. Sonra bu mahnını Anar müəllimin

dilindən Zemfira xanımın yubiley tədbirində eşitdim. Zemfira xanımın, Fərhad Xəlilovun, Fərhad Bədəlbəylinin ona qoşulub "Ay Laçın"ı birlikdə oxumaları çox gözəl ab-hava yaratmışdı. Bax, Anar müəllimin həyatın mənası dediyi yaşamaq həm də budur və o bu yaşam tərzindən zövq alır.

Yaşamaq haqqı...

Anar müəllimin 85 illik yubileyi ilə əlaqədar Ankarada, İstanbulda yaddaqalan bir çox tədbirlər keçirildi. Türk Ədəbiyyat Vəqfinin təşkilatçılığı ilə İstanbulun incisi Boğazın mavi sularında gəmi ilə gəzə-gəzə onun yubileyini qeyd etdik. Bundan əlavə, TÜRKSOY-da çox maraqlı yubiley tədbiri oldu. Həmin səfərlərin birində Zemfira xanımla Anar müəllim birinci sinifdə ilk dərs günü bir-birini görmələrini bütün detallarına vararaq elə aydın danışırdılar ki, hamımız heyrətlə onları dinləyirdik. Hətta bəzən mübahisə də edirdilər ki, filan hadisə elə yox, belə olmuşdu. Sən demə, Anar müəllim ilk dərs günündə Rəsul Rzanın ona aldığı saatı qoluna taxıb gedibmiş dərsə. Zemfira xanım da deyir ki, mən elə o saata görə vuruldum sənə. Təsəvvür edin ki, onlar düz 78 il öncənin hadisələrini hələ də ən xırdalıqlarını belə unutmadan, sanki dünən olubmuş kimi həyəcanla danışa bilirlər. Bu həm də Anar müəllimin ən doğmalarına qarşı həssaslığının nümunəsidir.

Anar müəllimin "Yaşamaq haqqı" adlı traktatı var. Təəssüf ki, kitab az tirajla çap olunmuşdu, indi tapılmır. Amma mən çox istəyərdim ki, kitab daha da təkmilləşdirilmiş formada, geniş tirajla yenidən çap olunsun. Yadımdadır, o zaman təhsil nazirinə də müraciət etmişdim ki, bu kitab hər bir azərbaycanlının evində olmalı, ali təhsil müəssisələrimizdə tədris edilməli, tələbələr

mütləq o kitabı oxumalıdırlar. Anar müəllim xalqımızın tarixini, haradan gəlib-hara getdiyini o kitabda məharətlə, çox sadə və lakonik dillə, zəngin informasiyalarla anladır. Ümumiyyətlə, Anar müəllimin əsərləri, publisistikası, çıxışları misilsiz gücə malikdir.

Bəzən Anar müəllimi yaşı ilə bağlı tənqid etməyə çalışanlara deyirəm ki, onun bu yaşda da yazdığı hekayələr böyük rezonans, geniş müzakirələrə yol açır və bu, heç bir cavan yazıçıya müyəssər olmur.

Mən Anar müəllimin son hekayələrindən olan "Qatardan qalan adam" hekayəsini bir neçə dəfə oxudum və heyrətləndim. Hekayənin o qədər dərin alt qatı, ötürdüyü mesajlar var ki, bu barədə çox yazıldı, çox müzakirələr getdi, hətta Türkiyədə o adda kitabı da çap olundu.

Yadımdadır, 2022-ci ildə Anar müəllimlə birlikdə Ağdaşda Fikrət Qocanın xatirəsinə həsr olunan tədbirdə iştirak edib, Göyçayda Şairlər bağında qoyulmuş büstünü də gördük, büst və gerçək Anarla şəkil çəkdirdik, oradan İmişliyə gəlib Səyyad Aranın yubiley tədbirində iştirak etdik. Belə silsilə tədbirlərdə Anar müəllimi müşahidə etdikcə onun yorulmazlığına heyran qalmamaq, ədəbiyyatımız, dəyərlərimiz və dostları qarşısında özünə vəfa borcu bildiyi jestlərindən, şövqlə etdiyi çıxışlardan heyrətlənməmək mümkünsüzdür.

Dost xiffəti, dost həsrəti...

2018-ci ildə mərhum şairimiz Musa Yaquba Xalq şairi fəxri adı veriləndə İsmayıllıya Buynuz kəndinə getmişdik. Biz Buynuza çatanda şairin vəziyyəti pisləşmişdi, təcili yardım çağırmışdılar. Şair bizim gəlişimizə çox sevinmiş, üzrxahlıq etmiş,

əl yelləyərək "siz oturub çay için, gələcəyəm" - demişdi. Musa Yaqubun evində içdiyimiz çay, onun Xalq şairi adı almasına necə sevinməyimiz unudulmaz məqamlardır.

Musa Yaqub vəfat edəndən bir müddət sonra isə Buynuz kəndində onun məzarüstü abidəsinin açılışı idi. Xatırlayıram, həmin günlərdə Anar müəllim soyuqlamışdı, xəstə idi və Qubadan başqa bir tədbirdən təzə qayıtmışdı, amma israrla dedi ki, açılışda mütləq iştirak edəcək. Xəstəhal olsa da, Buynuz kəndində abidənin açılışında axıracan ayaq üstə dayandı, stul təklif edilməsinə baxmayaraq, oturmadı və məzmunlu çıxışı ilə şairi ehtiramla yad etdi.

Anar müəllimin dostlarına bağlılığının, onları daima ehtiramla anmasının çox şahidi olmuşam. Yəqin ki, bu yaxınlarda onun dostlarının məzarlarını ziyarətə getməsini əks etdirən videonu çoxları xatırlayır. Videonu izləyərkən düşündüm ki, deyəsən, Anar müəllimin dediyi kimi, həqiqətən də yaş ötdükcə, torpağın altındakı dostlar torpağın üstündəki dostlardan daha çox olur.

Yaşayan Dəyər...

Bu günlərdə "Çapar" Mədəni İrsin Tədqiqi Mərkəzinin Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş tədbirində çıxış edən Ədalət Tahirzadə "Əkinçi"dən başlamış bir neçə mətbuat orqanının Azərbaycan milli fikrinə təsirindən danışarkən, sovet dövrü "Qobustan" jurnalının da adını çəkdi. Doğrudan da, Anar müəllimin o dövrdə, gənc yaşında rəhbərlik etdiyi "Qobustan" dərgisinin bizim ictimai-mədəni, milli düşüncələrimizin formalaşmasında böyük rolu olub. Təsadüfi deyil ki, iki il öncə 85 illik yubileyi ərəfəsində Mətbuat Şurasının İdarə Heyətinin bir qrup üzvü ilə Yazıçılar Birliyində məhz "Qobus-

tan" jurnalındakı fəaliyyətini vurğulayaraq Anar müəllimə Mətbuat Şurasının diplomunu təqdim etdik.

Ötən il Trabzonda ənənəvi Qaradəniz Ədəbiyyat Festivalı keçirilirdi. Festivalın təşkilatçıları israr etdilər ki, onların "Yaşayan dəyərlər" adlı ödülü var, bu dəfə o ödülü bir gürcü yazıçısına, bir də Azərbaycandan Anar müəllimə vermək istəyirlər. O zaman Anar müəllim İstanbulda tədbirdə idi, oradan Trabzona gəldi, iki gün orada müxtəlif tədbirlərdə, qədim qala divarları arasında keçirilən təqdimat mərasimində iştirak etdik. Türkiyəli yazarların Anar müəllimə sonsuz ehtiramını müşahidə etdikcə təsirlənirdim. Ondan öncə isə Anar müəllimə Türk Dünyası Ədəbiyyat Vəqfinin "Yaşayan Dədə Qorqud" mükafatı verilmişdi.

Doğrudan da, Anar müəllim elə bir dəyərdir ki, Türk dünyasının harasına gedir-getsin, onu sevir, hörmətlə qarşılayır, rəğbət və ehtiramlarını bildirirlər. Mən də bu əlamətdar tarix ərəfəsində əziz Anar müəllimi növbəti ad günü münasibəti ilə ürəkdən təbrik edir, ona YAŞAMAQ arzulayıram!

14.03.2025

75 yaşın yaradıcılıq şövqü

Akademik İsa Həbibbəyli haqqında danışarkən mən həmişə onun tükənməz enerjisi, qaynar düşüncəsi, dinamikası, proseslərə həssas münasibəti, dəyərləri uca tutması, yüksək insani keyfiyyətləri barədə həvəslə söz açmışam.

Hələ beş il əvvəl akademik İsa Həbibbəylinin yetmiş illik yubileyi haqqında düşüncə və arzularımı bölüşəndə də onun tükənməyən enerjiyə sahib olduğunu xüsusi vurğulamışdım. Üstündən bir neçə il keçməsinə baxmayaraq, İsa müəllim eyni və bəlkə də daha artıq enerji ilə bir çox sahələrdə effektiv fəaliyyətini uğurla davam etdirir. Ötən illər ərzində İsa Həbibbəylinin çoxşaxəli məsuliyyət və fəaliyyət sferasına həm də Azərbaycan Milli Elmlər Akademiyası kimi möhtəşəm elm məbədinə rəhbərlik etmək vəzifəsi də əlavə olunub. Və İsa Həbibbəyli bu vəzifəni böyük məsuliyyətlə, xüsusi həvəs və enerji ilə həyata keçirir.

İsa Həbibbəyli ilə tanışlığımızın və dostluğumuzun tarixi uzun illər əvvələ gedib çıxır. Son illərdə isə İsa müəllimlə ünsiyyətimiz daha da sıxlaşıb, onunla mütəmadi olaraq səfərlərdə, ölkə miqyaslı və beynəlxalq tədbirlərdə iştirak edirik. Artıq məndə belə bir qənaət formalaşıb: akademik İsa Həbibbəyli təbiəti etibarilə təvazökar və böyük ürəyə malik insan, təəssübkeş vətənpərvər, təşəbbüskar rəhbər, novator alim, fəal ictimai xadim, eyni zamanda, qayğıkeş valideyn və mehriban babadır. Uzun illərdən bəri sıx ünsiyyətimiz zamanı sadaladığım bütün bu insani keyfiyyətlərin şəxsən şahidi olmuşam.

Ədəbiyyatşünas alim, ictimai xadim

Akademik İsa Həbibbəyli elmi fəaliyyətə başladığı ilk dövrlərdən müasir ədəbi prosesi diqqətdə saxlayıb və vaxtaşırı bununla bağlı məqalələrlə çıxış edib. Alimin "Romantik lirikanın imkanları", "Cəlil Məmədquluzadə: mühiti və müasirləri" adlı sanballı monoqrafiyaları onun ədəbiyyatşünaslıqda romantizm və tənqidi realizm cərəyanlarını dərindən araşdırması nəticəsində ərsəyə gəlib və ədəbi ictimaiyyətə yaxşı tanışdır. Onun Məhəmmədhüseyn Şəhriyar və Məmməd Araz haqqındakı kitablarını da ictimaiyyət rəğbətlə qarşılayıb.

Son dövrlərdə yazdığı "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" kitabı haqqında isə akademik bütün görüşlərimizdə böyük şövqlə, həvəslə söz açır, hər zaman müstəqillik dövründə yeni dövrləşdirmə konsepsiyasının yaradılmasının vacibliyindən, önəmindən bəhs edir. Eyni zamanda, müxtəlif auditoriyalarda, yazıçılarla bir məkanda bu məsələni ortaya atıb polemikalar yaratmaqla həm öz fikirlərini səsləndirmək, həm də onlardan yeni fikirlər almaq, yeni baxışları, münasibəti öyrənmək istəyir. Bir neçə dəfə Xalq yazıçısı Anarla söhbətlərində də hiss etmişəm ki, İsa Həbibbəyli öz ideyalarına, konsepsiya barədə fikirlərinə Anar müəllimin də etibarlı, möhkəm dəstəyini almaq istəyib və onun fikirlərindən də bəhrələnib. O, irəli sürdüyü dövrləşdirmə konsepsiyasının Akademiya ilə yanaşı, Yazıçılar Birliyində də müzakirə edilməsinə nail olub, yazıçıların da fikirlərini öyrənib.

Hələ 2018-ci ildə Kazanda keçirilən Beynəlxalq Ədəbiyyat simpoziumunda da onun dövrləşdirmə konsepsiyası ilə bağlı məruzəsi marağa və geniş şəkildə müzakirəyə səbəb olub. Sən demə, heç Rusiyada da müstəqillik dövründə dövrləşdirmə kon-

sepsiyasına yeni yanaşma olmayıb, bununla bağlı hər hansı kitab rus ədəbiyyatşünaslığında hələ yazılmayıb. Buna görə Rusiya alimləri də bu məruzəyə çox böyük maraq göstəriblər. Deməli, ədəbiyyatın yeni dövrləşdirmə konsepsiyasını bütün MDB məkanında ilk dəfə İsa Həbibbəyli irəli sürüb və müstəqillik illərinin, yeni şəraitin yaratdığı vəziyyətdən çıxış edərək bu möhtəşəm işi həyata keçirib.

Təsadüfi deyil ki, tanınmış alimlər İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" monoqrafiyasını Azərbaycan ədəbiyyatşünaslığında həm də təsnifat üçün əsas faktorlardan biri kimi müəyyən edilmiş ədəbi cərəyanlar haqqında yaranmış ilk ümumiləşdirilmiş yeni və əhəmiyyətli elmi-nəzəri əsər kimi qiymətləndirir, onu ciddi bir ədəbi cərəyanşünas alim kimi xarakterizə edirlər.

Yadımdadır, Ədəbiyyat İnstitutunun 85 illik yubileyi keçirilərkən xarici ölkələrdən bir çox qonaq, tanınmış alimlər gəlmişdi. Belarus Ədəbiyyat İnstitutunun direktorunun İsa müəllim haqqında fikirləri mənim ürəyimdən xəbər verdi. O, İsa Həbibbəylinin təkcə Azərbaycanda yox, bütün MDB məkanında ədəbiyyatşünaslıq elmini hərəkətə gətirdiyini deyirdi. Bu səmimi və dəqiq fikirlərdən çox təsirlənmişdim. Çünki artıq neçə illərdir, İsa müəllimin enerjisinin ətrafındakı adamlara da sirayət etdiyinin şahidiyəm. Mən əminəm ki, həmin belaruslu alimin dediyi kimi, necə ki, İsa Həbibbəyli MDB məkanında ədəbiyyatşünaslığı hərəkətə gətirib, eləcə də bu məkanda dövrləşmə konsepsiyası ideyasının da həyata keçirilməsinə vəsilə olacaq, onun ardıcılları qonşu ölkələrdə bu məsələni qabardacaqlar.

İsa Həbibbəyli Ədəbiyyat İnstitutunun direktoru kimi çalışdığı illərdə onun rəhbərliyi ilə institutda qaynar bir mühit formalaşdı. Onun sirayətedici enerjisinin təsiri ilə həqiqətən də əməkdaşlarda bir çalışmaq şövqü, özünəinam, güvən hissi ya-

randı. Onun direktorluğa başladığı ərəfədə demişdim ki, sanki Ədəbiyyat İnstitutunun əməkdaşları müdafiə mövqeyində, həmçinin, ədəbi gəncliyə, yeni yazarlara qarşı passiv seyrçi vəziyyətindədirlər. İsa müəllim məhz institutun əməkdaşlarını hərəkətə gətirməklə, onları ədəbi mühitin içərisinə çəkinmədən daxil etməklə onlarda özünəinam yaratdı. İndi Ədəbiyyat İnstitutunun, ümumiyyətlə Akademiyanın əməkdaşlarının səsi hər yerdən, dövri mətbuatdan, sosial şəbəkələrdən, radio və televiziyalardan, ədəbi-bədii tədbirlərdən gəlir.

Onun digər mühüm xidmətlərindən biri də XX əsrin 70-80-ci illərində ədəbi proseslə bağlı yaranmış illik dəyərləndirmə ənənəsini yenidən bərpa edərək, bunu, özünün də dediyi kimi, ədəbi proses hərəkatına çevirməsi oldu. Artıq uzun illərdir ki, biz Azərbaycan Yazıçılar Birliyi və digər qurumlarla birlikdə hər il Ədəbiyyat İnstitutu əməkdaşlarının ədəbi proseslə bağlı məruzələrini dinləyirik. Mən bu konfransların, demək olar ki, hamısında iştirak edirəm. Hər il bu məruzələrin sayı artır. Hər dəfə də şahidi oluruq ki, əməkdaşların bu işə və dolayısıyla çağdaş ədəbiyyata marağı artır, ildən-ilə daha sərbəst, daha dolğun məruzələrlə çıxış edirlər. Bu məruzələrdə ümumən hiss olunur ki, ortada çox böyük bir zəhmət və çağdaş ədəbi prosesdə baş verən bütün hadisələrə, yazılan bütün əsərlərə adekvat münasibət var. Aydın məsələdir ki, bunun özü də İsa müəllimin zəhmətinin və yaratdığı mühitin nəticəsidir. Bütün bunlar təkcə Ədəbiyyat İnstitutu ilə məhdudlaşmır. İsa müəllimin söz verdiyi kimi, növbəti illərdə "Ədəbi proses" konfranslarına başqa elm ocaqlarından da məruzəçilər cəlb edilərək çox qısa zamanda bu dairə həqiqətən də genişləndirilib. Şübhəsiz, bütün bunlar yalnız və yalnız ədəbiyyatın təbliğinə, ictimailəşməsinə, oxucular arasında itirilmiş şöhrətinin bərpasına köməkdir.

Prezident İlham Əliyevin Sərəncamı ilə İsa Həbibbəylinin 2022-ci ildə AMEA-nın prezident vəzifəsinə təyin edilməsi bütövlükdə burada da elmi və yaradıcı mühitin daha da canlanmasına rəvac verib. Vaxtaşırı AMEA-da keçirilən və müsbət rezonans doğuran beynəlxalq konfranslar, tədbirlər, görüşlər, müzakirələr də bunu təsdiqləyir. Akademiya bu gün elmin və ədəbi fikrin, ictimai müzakirələrin əsas mərkəzlərindən birinə çevrilib.

Təşəbbüskar, novator, əzmkar təşkilatçı

İsa Həbibbəyli həm də yorulmaz təşkilatçı və novatordur. Hələ Naxçıvan Dövlət Universitetində rektor işlədiyi dövrdə Bakıdan, Türkiyədən tanınmış alimləri, ziyalıları dəvət edir, orada mühazirə oxumalarına, çıxış etmələrinə şərait yaradırdı. Akademik Azad Mirzəcanzadə başda olmaqla, ölkəmizin bir sıra görkəmli alimləri, ziyalıları Naxçıvan Universitetində dərs deyiblər. Müxtəlif elm ocaqları, ayrı-ayrı elmi müəssisələr, tanınmış alimlər arasında hələ o vaxtdan bu cür bağlılıqlar, ünsiyyət körpüləri yaratmaq cəhdləri İsa müəllimin gələcəkdə görəcəyi, yəni hazırda gerçəkləşdirdiyi böyük işlərin müjdəsiydi. İsa müəllimin AMEA-nın əvvəl vitse-prezidenti, sonra prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, eləcə də millət vəkili, komitə sədri kimi çoxşaxəli, effektiv fəaliyyəti daim göz önündə olub və çalışdığı sahələrin hər birində tarixə çevrilən, yaddaqalan işlər qoyub. Milli Məclisin Elm və təhsil komitəsinin sədri olanda "Elm haqqında" Qanunun qəbul edilməsi yaddaqalan hadisə idi.

Görkəmli akademik 2014-2018-ci illərdə keçirilən "Fizika və Lirika" konfransları ilə də elm sahələri arasında əlaqələrin genişlənməsinə səy göstərib. Bu aktual mövzuda böyük konf-

ransların təşkili və beynəlxaq müstəviyə çıxmasında İsa Həbibbəylinin böyük rolu olub. O, bu vasitə ilə tamam başqa sahələrin alimlərinin, dəqiq və təbiət elmləri üzrə tədqiqatçıların humanitar və ictimai elm sahələrini təmsil edən elm adamları ilə əlaqələrinin yaranmasına və möhkəmlənməsinə şərait yaradıb. Görkəmli elm xadimlərindən Yusif Məmmədəliyev, Məmməd Cəfər Cəfərov, Şəfaət Mehdiyev, Teymur Bünyadov və başqa alimlərin həm də bədii yaradıcılıqla məşğul olmaları onların fərqli elm sahələri arasında körpü yaratması kimi mənalandırılıb. Həmin konfransların bir əlamətdar cəhəti odur ki, burada biz dəqiq-texniki fənlərlə, təbiət elmləri ilə ixtisaslaşmış alimlərin ədəbi yaradıcılıqları və dünyagörüşləri ilə də tanış oluruq. Boşuna deyil ki, İsa müəllim həm elmi tədqiqatı, həm də bədii yaradıcılığı qoşa qanada bənzədir.

"Fizika və lirika" konfransının 2018-ci ildə keçirilən görüşləri xatirimdə unudulmaz təəssüratlarla qalıb. Həmin ilin soyuq noyabr günlərində Rusiyanın Dubna şəhərində Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda keçirilən görüşdə şam ağaclarının arasında aldığımız ciyərdolusu təmiz hava, Volqanın insanın içini titrədən sahili, narın qar və akademik İsa Həbibbəylinin şövqlə, gördüyü işdən aldığı zövqlə etdiyi məzmunlu çıxışlarla tədbirlərə ayrı bir hərəkət və emosiya qatması hələ də yaddaşımın ən gözəl yerində öz təravətini qoruyub saxlamaqdadır. Rusiya alimləri, texniki sahənin adamları ilə bizim alimlər, yəni fiziklər və liriklər arasında belə möhkəm körpü yaratması da İsa müəllimin elmin daha geniş auditoriya qazanmasına gətirən böyük xidmətidir. İsa Həbibəyli bir çox sahələrdə mənəvi körpü rolunu oynayan görkəmli şəxsiyyətdir. Həmin səfərdən bir həftə öncə Şamaxıda Pirquluda qırxdan çox qonağın iştirak etdiyi başqa bir konfransda da İsa müəllimin enerjisi, həvəsi, məruzəsi, dialoqu, şövqü, Azərbaycan elmini layiqincə təmsil etməsi qonaqlarda

böyük maraq yaradırdı. Hər qonaqla onun özünə uyğun danışması, hər kəsin xarakterinə bələd olması, duzlu və incə yumoru da, heç şübhəsiz, xüsusi məqamlardır.

İsa müəllimin daha bir maraqlı ideya və təşəbbüsü AMEA-nın Rəyasət Heyətinin təşkilatçılığı ilə 2023-cü ildə "Nobel mükafatına aparan yolun dərsləri: mif, reallıqlar, uğurlar və çağırışlar" mövzusunda beynəlxalq elmi konfrans idi. Bu konfransın xüsusi entuziazm ilə təşkili, Nobel mükafatına dair dünya təcrübəsini, bu yolun çətinliklərini, uğurlarını, çağırışlarını gənc alimlərə, yeni nəsillərə çatdırmağa çalışması, alimlərimizi, yazıçılarımızı Nobel mükafatına doğru addımlamağa təşviq etməsi çox dəyərli işdir. Onun bu konfransdakı motivasiya ruhlu çıxışını da yaxşı xatırlayıram: "Məqsədimiz bu istiqamətdə mifləri qırmaq, eyforiyanı aradan qaldırmaqdır. Tanzaniya, Vyetnam, Banqladeş kimi ölkələr bu mifləri sındıraraq Nobel mükafatı qazanıblar. Biz də qətiyyətlə Nobelə gedən yolda addımlamalı, iddialı olmalıyıq..."

Bu cür özünəinam formalaşdıran və motivasiya verən çıxışlar insanları uğura proqramlayan, onlara stimul verən amildir. İsa müəllim həmişə bu cür nüanslarda diqqətlidir və fikirlərində ardıcıldır. Akademik İsa Həbibbəyli bu ilin iyun ayında Nobel mükafatçısı, dünya şöhrətli alim, Türk dünyasının fəxri Əziz Sancarı Akademiyaya dəvət edib, onunla görüşlər keçirərkən ölkəmizin digər elm və təhsil ocaqlarının alimlərinin və gənclərin də bu tədbirlərdə iştirakını təmin etməsi bizim gələcək alimlərin sırasından da bir Nobel mükafatçısı görmək arzusunun işartısı idi. Nobel mükafatı laureatı professor Əziz Sancarın Milli Elmlər Akademiyasının fəxri üzvü seçilməsi də elm tariximiz üçün əlamətdar hadisədir.

İsa müəllimin akademiya prezidenti kimi çoxşaxəli fəaliyyəti məni həmişə heyrətləndirib. Bir çox məsələlərlə bağlı, şəxsi minnətdarlıqdan başqa, İsa müəllimə rəsmi təşəkkür də

etmişəm. Onun "Ziyayi-Qafqaziyyə" qəzetinə yazdığı ön sözü və transfoneliterasiyasını yüksək qiymətləndirmişəm, Mətbuat Şurasının sədri kimi Akademiyanın prezidentinə rəsmi təşəkkür məktubu yollamışam.

İsa Həbibbəylinin fəaliyyəti birmənalı şəkildə elmlə məhdudlaşmayıb, onun bir çox sahələrdə gördüyü işlər əvəzsizdir. O, hər zaman bir alim, akademik, təcrübəli ədəbiyyatşünas kimi gənclərin yanında olur, onlardan öz tövsiyələrini əsirgəmir. Dəfələrlə şahidi olmuşam ki, onun gənclərə tövsiyələri yalnız öyrətmək deyil, həmçinin onlarda özünəgüvən hissini artırmaqdır.

Dəyərlərə sadiq böyük ürək sahibi

...2022-ci ildə İsa müəllim Xalq yazıçısı Anarı, Xalq artisti Fərhad Bədəlbəylini, Xalq rəssamı Fərhad Xəlilovu və məni Naxçıvana dəvət etdi. İki gün ərzində Naxçıvanın tarixi yerlərini, gözəl təbiət mənzərələrini seyr elədik, Batabata qalxdıq, Zorbulağın suyundan içdik. Şərur rayonunun Danyeri kəndində akademikin anası Qəndab xanıma baş çəkdik, cansağlığı arzuladıq. Yaşı doxsanı keçən Qəndab xanım aydın düşüncəsi, iti yaddaşı ilə bizi təəccübləndirdi.

İsa müəllimin dədə-baba yurdundakı meyvələrin – növbənöv əriklərin, alçaların, armud və gilənarın dadı damağımızda qaldı. Yaddaşlarda əbədi qalacaq gözəl təəssüratlar yaşadıq. İsa müəllimin doğma ata ocağına, ailəsinə, nəvələrinə münasibəti, nəvələrinin Azərbaycanın vətənpərvər övladları kimi yetişməsində xidmətləri, daim onları mədəni tədbirlərə aparması – bunların hamısı dərin bir ziyalılıq nümunəsidir.

O, mədəniyyətin digər sahələrinə də maraq göstərir və rəhbəri olduğu institutun əməkdaşlarını da cəlb edir. Xüsusən, teatr

onun ən çox diqqət ayırdığı sahələrdən biridir. Tez-tez Ədəbiyyat İnstitutunun və Akademiyanın əhatə etdiyi digər institutların kollektivləri ilə birlikdə tamaşalara gedir, özü isə bəzən premyeralarda da iştirak edir.

Ən gözəl məqamlardan biri də budur ki, İsa Həbibbəylinin nəvələri də çox zaman bu cür tədbirlərdə, konfranslarda, tamaşalarda, kitab sərgilərində babalarının yanında olurlar. İsa müəllimin nəvələrini bu cür tədbirlərə cəlb etməsi onlarda dünyagörüşün formalaşması və inkişafına indidən yol açır, vətənpərvərlik hissi yaradır. Biz İsa müəllimin belə tədbirlərdə necə həssas, qayğıkeş baba olmağını müşahidə etməklə yanaşı, nəvələrinin gözündə də elmi, ədəbiyyatı, ziyalılığı uca tutmasının şahidi oluruq.

İsa müəllim 2022-ci ildə Akademiyanın prezidenti olduqdan sonra da səfərlərdə, tədbirlərin müəyyən qismində mən də iştirak eləmişəm, onun hədsiz enerjisinə, dərin məzmunlu elmi çıxışlarına, bir çox sahələrlə bağlı bilgilərinə heyran olmuşam. Xüsusən, İsa Həbibbəylinin heç bir mətndən, konspektdən istifadə etmədən elmi məruzələrlə çıxışlar etməsi, təhlillər və müqayisələr aparması hər adamın bacardığı iş deyil. Ona görə də İsa Həbibbəyli hər hansı mövzuda müxtəlif tədbirlərdə çıxış edərkən istər rəssamlıqla bağlı, istər memarlıq tariximizlə, fəlsəfə ilə əlaqədar müxtəlif mövzulardakı çıxışlarının təəccüblə, heyrətlə qarşılandığını görmüşəm, onun bilgisinə heyran olublar. Böyük filosof Aristotelin, görkəmli yazıçı Çingiz Aytmatovun, rəssamlardan Tahir Salahovun, Fərhad Xəlilovun, heykəltaraş Ömər Eldarovun, məşhur müğənni Müslüm Maqomayevin xidmətləri barədə elə dəqiq detallar eşitmişəm ki, çoxları kimi mən də təəccüblənmişəm. Ümumiyyətlə ən müxtəlif sahələrdə İsa müəllimin fəaliyyəti, bilgisi, həssas münasibəti onun hərtərəfli dünyagörüşə malik şəxsiyyət, böyük ziyalı olduğunun göstəricisidir. Mən bun-

ları həm də ona görə tam əminliklə deyirəm ki, uzun illərdir ki, İsa müəllimin fəaliyyətini yaxından müşahidə edirəm.

İsa Həbibbəylinin inandığı dəyərlərə münasibəti dəyişməzdir. İsa müəllimin ən sevdiyim xüsusiyyətlərindən biri budur ki, o, sevdiyi, inandığı dəyərlərə münasibətini bütün varlığıyla, böyük ürəyi ilə dopdolu çatdırır, baxışlarını qətiyyən gizlətmir. Bir insanı sevindirmək istəyirsə, bunu sonacan edir. Dostluqda da, elmi və ədəbi məsələlərdə də, münasibətlərdə də lüzumsuz sərhədləri, süni çərçivələri təbii şəkildə qıra bilir. Bəzilərinə görə, İsa Həbibbəyli, bir məmur olaraq, çərçivəli həyat yaşayır. Əlbəttə, onun çoxcəhətli fəaliyyətinin sərhədləri vardır. Amma mən dəfələrlə onun varlığındakı bitib-tükənməz enerjisi və sevgisi sayəsində məhdud-mənasız çərçivələri aşa bildiyinin, sağlam və təbii bir ortamı yaratmasının şahidi olmuşam. O, sevgisini, heyranlığını, xoş münasibətini bildirməkdən heç vaxt çəkinmir. Bu da onun işıqlı, möhtəşəm obrazının gözlərimiz qarşısında təkrar-təkrar canlanmasına səbəb olur.

Dəfələrlə şahid olmuşam ki, İsa müəllim fərqli ədəbi baxışa, müxtəlif dünyagörüşə malik insanların əhatəsində olarkən söhbətlərinə diqqətlə qulaq asır, fərqli düşüncələrə, emosional ədəbiyyatçıların fikirlərinə də diqqət yetirir. Bütün hallarda istəyir ki, hər kəs elmə, ədəbiyyata xidmət etsin. Hətta onu tənqid edən insanlara qarşı da təmkinli davranır, onları da elmi mühitin, ədəbi prosesin içərisinə çəkib gətirmək üçün çalışır. Heç bir istedadlı adamın elmi mühitdən, ədəbi proses hərəkatından, ictimai fəaliyyətdən kənarda qalmasını istəmir. Bu da onun böyük ürəyinin, inkişafa xidmətinin göstəricidir. İsa Həbibbəylinin ürəyinin və baxışlarının genişliyi, həmçinin dəyərli insanların, alimlərin, söz adamlarının, yaradıcı şəxslərin yubileylərini, onların həyatındakı əlamətdar hadisələri diqqətdən kənar qoymamağında da özünü göstərir. İşinin çoxluğuna baxmayaraq, Azər-

baycan elmində, ədəbiyyatı və incəsənətində yeri olan insanların yubileylərinin, kitablarının təqdimatlarının keçirilməsinə, onlara həssas yanaşılmasına xüsusi diqqət yetirməsinin şahidiyəm. Xalq yazıçısı Elçinin yubiley görüşündə, Qəzənfər Paşayevin, Elmira Axundovanın tədbirlərində onun ürəkdən, dərin, dəqiq və səmimi çıxışları xatirimdədir.

İsa müəllimlə Xalq yazıçısı Anarın münasibətləri çox dərindir və xoşbəxtlikdən, uzun illərdir ki, biz üçümüzün bir yerdə müxtəlif görüşlərimiz, söhbətlərimiz, səfərlərimiz olub. Hamısında da İsa Həbibbəylinin Anar müəllimə yüksək qiymətinin, ədəbiyyat təəssübkeşliyinin, onların ikisinin Azərbaycanın yazılı ədəbiyyat tarixinin Dədə Qorquddan başlaması, müstəqillik dövründə ədəbiyyatımızın yaradıcılıq metodu və sair ilə bağlı qaynar polemikalarının iştirakçısı olmuşam. Anar müəllimin Bakıda və bir çox rayonlarda keçirilən yubiley tədbirlərində İsa Həbibbəyli onun yaradıcılığının ustad bilicisi kimi çıxışlar edib. Bu çıxışların arxasında dərin təhlil və bilgi dayanıb.

İsa müəllimin mərhum dostumuz, Avrasiya Yazarlar Birliyinin sədri mərhum Yaqub Ömərоğluya xüsusi münasibəti, "Qardaş qələmlər" dərgisinin ədəbiyyatımıza xidməti müqabilində onun Ədəbiyyat İnstitutunun "Fəxri dostu" seçməsi məni çox təsirləndirmişdi. Təəssüf ki, amansız xəstəlik Yaqub Ömərоğlunun aramızdan vaxtsız ayrılmasına səbəb oldu. İsa müəllimin Türkiyədə və Türk dünyasındakı dostları, dünyanın müxtəlif ölkələrindəki yaxın münasibət saxladığı tanınmış yaradıcı insanlar son nəticədə Azərbaycanın dostlarına çevrilirlər. Xarici ölkələrdə tədbirlərdə iştirak edərkən İsa müəllimin sözünə və özünə nə qədər hörmətlə yanaşdığını görmək də mənim üçün daxili bir qürura səbəb olub.

İsa Həbibbəylinin "525-ci qəzet"ə münasibəti xüsusidir və onu mətbuatda Məktəb və Azərbaycan cəmiyyətinin qəzeti adlandırır. Qəzetin 25 və 30 illik yubileyləri AMEA-da təntənəli şəkildə qeyd olunub. İsa Həbibbəyli "525-ci qəzet"in ardıcıl, davamlı müəlliflərindən biridir.

İsa Həbibbəyli ilə dostluq münasibətlərimiz səmimiyyətlə davam edir. Bu gün də biz, onunla, Anar müəllimlə birgə, müəyyən fasilələrlə olsa da, görüşüb söhbətləşəndə Azərbaycan ədəbiyyatının tarixi, ədəbiyyatımızın, elmimizin, ictimai fikrimizin bu günü və gələcəyi ilə bağlı İsa müəllimin dəyərli, nikbin fikirlərindən sabahlara baxıram.

75 yaş kiməsə çox görünə bilər. Amma İsa Həbibbəyli kimi yaratmaq şövqü tükənməyən, enerjisini daim yaradıcılıq işinə və ictimai fəaliyyətə sərf edən bir insan üçün bu yubiley yaşı da müdriklik çağının parlaq ifadəsidir. İsa müəllimə bundan sonra da bol enerjili qalmasını, tədbirlərdə, məclislərdə ürəkdən gələn, hərarətli çıxışlar etməsini arzulayıram. İnanıram ki, akademik İsa Həbibbəylinin ustad yolgöstərənliyi və bitməz-tükənməz enerjisi ilə hələ qarşıda nə qədər görülməli işlər, oxunmalı və yazılmalı əsərlər, stimullarla sevindiriləsi yazıçılar, yol göstərilib yetişdiriləsi alimlər var. Elə bilirəm ki, bizim hələ Bakıda, Naxçıvanda, Şuşada və başqa yerlərdə birgə görüşlərimiz çox olacaq, İsa müəllim Azərbaycanın ədəbiyyatının və elminin inkişafındakı xidmətlərini uzun müddət davam etdirəcək.

Bundan sonra da könlünüzcə ömür arzulayıram, şövqünüz daimi olsun, əziz İsa müəllim!

16.10.2024

Kamal Abdullanın sirli müdrikliyi

1990-cı illərdə mərhum Aydın Məmmədovun başçılıq etdiyi Tərcümə Mərkəzində müavin işləyirdim və Kamal Abdullanı da elə o vaxtlar Aydın müəllimin dostu kimi tanıdım. Daha doğrusu, o zamandan başlanan, sonradan dostluğa çevrilən tanışlığımız indiyə kimi davam edir desəm, yanılmaram.

Əgər Kamal Abdullanı bir neçə sözlə ifadə etmək lazım gəlsə, mən onu Öz İçində Gizlənən Adam kimi səciyyələndirərəm. Məncə, onun bu xarakteri və obrazı istər ictimai fəaliyyətində, istərsə də əsərlərində özünü göstərir. Nədənsə tez-tez mənə elə gəlir ki, hətta bizlər də, ən yaxın dostları da bu soyuqqanlı, sakit, təmkinli görkəmin arxasındakı, içindəki gerçək Kamal Abdullanı tanımırıq. Hansısa ağrı, ya sirr var ki, bunu da yalnız yazıçı özü bilir. Əsərlərinin də bu qeyri-adi biçimi, ovqatı, üslubu, hətta fərqli dili onun yazdığı mövzuların içərisində gizlənmək istəyindən, öz ağrılarını pərdələmək niyyətindən və dünyanın bütün dadını duyub görmüş insana xas müdrikliyindən irəli gəlir. Bunu yazıçının ən məşhur əsərləri olan "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi"ndə də müşahidə etmək mümkündür. Məncə, bu fərqlilik, qapalılıq heç də sadəcə, müasir, yeni ədəbiyyat yaratmaq, yaxud orijinal görünmək xatirinə deyil. Kamal Abdullanın böyük hadisələrə, dərdlərə, problemlərə bir az ironik, soyuqqanlı yanaşmasında, insanların bütləşdirdiyi, doqmaya çevirdiyi məsələləri sakit tərzdə yazmasında onun xarakteri, həyata baxışı özünü göstərir.

Doğrusu, bu yubileyində Kamal müəllimin "sirlərini açmaq", əsərlərindən görünən, gündəlik proseslərdə müşahidə edilən, bəzən bir kiçik detalla, bəzən böyük hadisələrlə "özünü

təqdim edən" yazıçını hər kəsə tanıtmaq kimi bir niyyətim yoxdur. Mənə görə, Kamal müəllimin ən qabarıq və indiki zamanda xeyli fərqli tərəflərindən biri istedadlı adamı dəyərləndirməsi, istedada qiymət verməsidir. Həm də Kamal müəllimin bunu sadəcə, gündəlik işi kimi, işlərinin tərkibi kimi etməsi xeyli təsirləndiricidir. O, yaxşılığı özünütəsdiq üçün, yaxud da dost məclislərində mövzuya çevirib tərifl ənməkdən ötrü eləmir. Elədiyi yaxşılıqları çox zaman unudur.

Bir dəfə Bakı Kitab Mərkəzində Kamal Abdullanın rumın dilində dərc olunan "Sehrbazlar dərəsi" kitabının təqdimatında iştirak etdim. Tədbir iştirakçıları ilə birlikdə əvvəl kitabın tərcüməçisinə qulaq asdıq, sonra yazıçının fərqli fikirlərini dinlədik. Gün Kamal Abdulla günü idi. Ondan bir neçə saat öncə Multikulturalizm Mərkəzinin yubiley tədbirində də maraqlı çıxış etmişdi. Kamal müəllim protokolu da nəzərə alır, məmurluqdan doğan tələblərə riayət edirdı, amma yazıçılığını da unutmur – şablon, standart, çərçivəli danışmır, obrazlarla, yığcam detallarla hadisələrə bədii yük qatır, düşündürürdü...

Kamal Abdulla düşündürür... Yazdıqlarıyla da, söylədikləriylə də! Əsas da çoxqatlı mətnləriylə! "Unutmağa kimsə yox" – deyir! Yəni unudulası kimsə qalmayıbmı, hamı yaddadırmı?! Amma "Kimsə yox xatırlamağa" da deyir axı... Bilmirsən, "hamını unutmuşam" deməkdir bu, ya "dostlar hamısı yerindədir, unudulmalı kimsəm yoxdur!" – mənasındadır?!

Müəmmalarla, sirlərlə üzləşdirir zehnimizi Kamal Abdulla, fərqli yollara işarə edir, bu yollarla cavablar axtarışına çıxırsan onunla birgə. Özü isə hər suala cavabında yeni suallar yaradır. Misraları, cümlələri dillərə düşür, az qala, şüara, aforizmə çevrilir. Çox zaman heç sözlərinin dərininə gedilmir də! Bir də görürsən, sonadək dəyişməyənləri, etibarlı və faydalı olsalar da, maraqsız adlandırır! "Maraqlı olanlar dəyişən dostlar-

dır!" – deyir. Yenə bir sualla üz-üzə qalırsan! Nə dedi bununla Kamal Abdulla?! Sadiq olanlar, etibarlı dostlar maraqsızdır?! Narahatlıq verənlər, etibarsız davrananlar orijinaldır, maraqlıdır yəni?! Yoxsa dostlarını hərəkətə, dinamikaya çağırır, diri olmaları üçün bu yolla qıcıqlandırır?!

"Yazmaq üçün təcrid əsasdır" deyib "sivilizasiyadan uzaq" bir guşəyə çəkilir tez-tez! Sonra üzə çıxıb yeni yazılarıyla düşünməyə mövzu verir, bizi işıq axtarışına, sözlə ünsiyyətə sövq edir!..

Yadımdadır, məclislərin birində Kamal müəllimin əl tutduğu, dəstək olduğu neçə-neçə adam haqqında danışılanda onun bütün bu deyilənləri xatırlamadığını və səmimi təəccübləndiyini müşahidə etmişdim. Kamal müəllimin gənc nəslə qayğısını, köməyini Bakı Slavyan Universitetinin rektoru işlədiyi vaxtlardan da hər kəs müşahidə edib. Bir müddət mən də həmin universitetdə dərs demişəm və tələbələrin öz rektorları haqda səmimi, xoş sözləri, başqa universitetlərlə müqayisədə BSU-da yaradılmış demokratik mühit barədə dedikləri yaxşı yadımdadır. Böyük oğlum bu universitetdə təhsil alıb, onun da tələbəykən görüb müşahidə etdikləri, azad mühit, obyektiv imtahan sistemi haqda danışdıqları Kamal müəllimin rəhbər kimi qurduğu sistemin fərqliliyini göstərirdi. Bu gün də media mühitində BSU-nun Jurnalistika fakültəsinin məzunları xüsusi hazırlığı, savadı ilə seçilirlər. Onun rektorluğu dövründə Slavyan Universitetində Yaradıcılıq fakültəsinin fəaliyyətə başlaması, neçə-neçə istedadlı gənci öz ətrafında birləşdirməsi də çox mühüm məqamlardan biridir.

İllər öncə Kamal Abdullanın "Kamal Mehdi" imzasıyla yazdığı şeirlərdə də onun qeyri-adi xarakteri nəzərə çarpırdı. Yadımdadır, o şeirləri oxuyub onlardakı sirrin, sehrli auranın səbəbini xeyli düşünmüşdüm.

Görünür, mərhum rejissor Vaqif İbrahimoğlunun da Kamal Abdulla yaradıcılığına meylinin, marağının əsas səbəblərindən biri bu idi. Fərqli estetikası ilə seçilən "YUĞ" Teatrında Kamal müəllimin əsərləri tez-tez səhnələşdirilirdi, elə indi də teatr bu silsiləni davam etdirir.

Kamal müəllimin nəsrindən danışanda adətən, "Yarımçıq əlyazma" və "Sehrbazlar dərəsi" romanlarının adı çəkilir. Yazıçı bu əsərləri ilə Azərbaycan nəsrinin xaricdə tanınmasına, təbliğinə də öz töhfələrini verib. Bu əsərlər rus, ingilis, ərəb, fransız, ispan və neçə-neçə başqa dillərə tərcümə olunub, müxtəlif ölkələrdə işıq üzü görüb. Hələ o zamanlar "Yarımçıq əlyazma"nın kitab halında çapından öncə doğurduğu fərqli, təzadlı fikirlər məni düşündürmüşdü. Əsəri oxuyub fikirlərimi yazmışdım və müəyyən parçaları "525-ci qəzet"də yayımlamışdıq. O vaxtlar qəzetimizin təsis etdiyi "İlin bədii əsəri" mükafatını da bu romana görə Kamal Abdullaya təqdim etmişdik. Bundan öncəki illərdə həmin mükafatı Elçinin "Sarı gəlin", Anarın "Ağ qoç, qara qoç" əsərləri almışdı.

Hesab edirəm ki, Kamal Abdullanın "Unutmağa kimsə yox" romanı son illər Azərbaycan romançılığında ən yaxşı əsərlərdən biridir. Çağdaş dünya romançılığının, müasir nəsr estetikasının bütün tələblərinə cavab verən bu roman Kamal müəllimin ən sevdiyim əsəridir. Doğrusu, ədəbi tənqidin və mühitin bu əsərə lazımi reaksiya verməməsi, əsərin alt qatlarına enən dəyərli təhlili yazıların azlığı məni heyifisləndirir.

Fikrimcə, Xalq yazıçısı Kamal Abdulladan danışarkən, onun ancaq Azərbaycan nəsrinə bəxş etdiyi bu üç romanından söz açmaq, heç də kifayət etmir. Çünki Kamal Abdulla həm də qorqudşünas alimdir. Onun uzun illərdən bəri Türk dünyasının möhtəşəm abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanını dərin-

dən tədqiq etməsi, qorqudşünaslığa verdiyi bir-birindən dəyərli töhfələrlə onu daha da inkişaf etdirməsi, eləcə də dastanın bütün dünyaya bir daha ən yaxşı şəkildə tanıdılması üçün gördüyü işlər Azərbaycan filologiyasının mühüm mərhələsini təşkil edir.

Kamal Abdulla dastana birtərəfli yanaşmır, onu daha dərindən, ən gizli mətləblərinə vararaq, bəzən bir qorqudşünas, bəzən bir dilçi, bəzən də sanki bir xəfiyyə kimi araşdırır, öyrənir və öyrədir. Onun "Gizli Dədə Qorqud", "Sirr içində dastan, yaxud Gizli Dədə Qorqud – 2", "Mifdən Yazıya, yaxud Gizli Dədə Qorqud" kimi bir-birini tamamlayan silsilələri, "Kitabi-Dədə Qorqud"un poetikasına giriş" monoqrafiyaları mövzuya elmi baxışıdırsa, "Yarımçıq əlyazma" romanı, "Casus", "Beyrəyin taleyi" pyesləri, şeirləri, esseləri isə bədii yanaşmasıdır.

"Kitab oxumadan da bic, hiyləgər, çoxbilmiş, işini bilən, hətta ağıllı, yaxşı, səmimi, mərhəmətli, dəyanətli, cəsarətli, bir sözlə, sevimli olmaq mümkündür. Belə adamları həyatda görür və tanıyırıq. O zaman kitab oxumaq bizə nə verir?! Niyə biz hamını elə davamlı olaraq kitab oxumağa məcbur edirik?! Bu paradoksu necə yozmaq, necə həll eləmək lazımdır – mən bunu bilmirəm. Əsl sirli və həlledilməz məqam da elə budur..." Bu fikirlər Kamal Abdullanın bir zamanlar "525-ci qəzet"də dərc olunan esselərindəndir. Orda ədəbiyyat, yazıçı taleyi haqda maraqlı fikirlər var! Eko ilə görüşün təsviri də füsünkar və canlıdır. Rahat oxunan bu iki səhifəlik esselərdə düşünməyə, müzakirə və mübahisə etməyə çoxlu məqamlar var. Amma nədənsə mənim beynimdə məhz yuxarıda gətirdiyim fikirlər ilişib qalıb. O vaxtdan bu vaxta nə qəbul edə bilirəm, nə əksinə arqument tapa bilirəm!

Sonralar Feysbukda on il boyunca paylaşdığım statuslarımdan, sms-esselərimdən ibarət "Qələmsiz yazılanlar" kita-

bımda Kamal Abdullanın bu esselərini xatırladım. Düşündüm ki, statusların bəzilərində akademik Kamal Abdullanın həmin o yığcam və dərin mənalara sahib esselərinin təsiri hiss olunur. Bununla bağlı Kamal müəllimə öz təşəkkürümü də çatdırdım, esselərinə görə minnətdarlığımı bildirdim. Onun münasibəti də məni mütəəssir etdi.

Yazımın əvvəlində vurğuladığım kimi, Kamal müəllim çoxları üçün öz içində gizlənmiş, sirli adam təsiri bağışlayır. Yəqin ki, bu, həm də doğmalarını, dostlarını qayğıları ilə yükləməmək istəyindən, təvazökarlıqdan, müdriklikdən irəli gəlir. Odur ki, mən də onun haqqında danışarkən hansısa sirr açmağa çalışmaq, qeyri-adi şərhlər verməyə cəhd göstərmək niyyətində deyiləm. Sadəcə, doğum günündən, yubiley yaşından istifadə edib dəyərli alimi, istedadlı yazıçını, hər zaman inanıb güvəndiyim əziz və doğma insanı təbrik etmək, ona yeni-yeni yaradıcılıq uğurları, daha böyük nailiyyətlər arzulamaq istədim.

70 illik yubileyiniz mübarək, Kamal müəllim!

02.12.2020

Dost Vaqifdən şair Səmədoğluya qədərki yol

Elə insanlar var ki, onların xatirəsi özləri qədər işıqlı və aydındır. Həmin xatirələr lentini yaddaşın xəyali ekranından izlədikcə ötən günlər üçün qəribsəyirsən və yaşanılan onca gözəl hadisəni, doğma simaları kədərli-sevincli hisslərlə yad edirsən. Vaqif Səmədoğlu da mənim yaddaşımın ən müqəddəs yerində xatirəsi həkk olunan şairlərdən, dostlardan biridir.

Mən Vaqif Səmədoğlunun özü ilə tanış olmazdan əvvəl əfsanəvi imzası ilə rastlaşmışam, yepyeni nəfəsini duymuşam və poeziyasının bakir ifadələr timsalında heyrəti məni bürüyüb. İndi də keçmişə ekskurs etdikdə, ilk yadıma düşən şəxsiyyətlərdən biri Vaqif Səmədoğludur.

Ötən əsrin 70-80-ci illərində sovet senzurası kəskin olduğundan ədəbi diskussiyalar çox vaxt çayxanalarda aparılırdı. Həmin illərdə Aqil Abbasla tanış olmuşdum. O, məni həmin çayxanalara aparırdı. Həmin yerlərdə ədəbiyyat, sənət adamları ilə, uzaqdan tanıdığım və sevdiyim tanınmış simalarla görüşürdüm, söhbətlərinə qulaq asırdım. O söhbətlər tariximiz, mədəniyyətimiz, keçmişimizlə bağlı maraqlı nüanslardan məni agah edirdi. Amma daha çox müasir ədəbiyyat, söz yaradıcılığının dəyərləri barədə söhbətlər gedirdi. Həmin söhbətlər əsnasında tez-tez Vaqif Səmədoğlunun adı çəkilirdi. Aqil Abbas özünəməxsus pafosla, sevgi ilə onun haqqında danışırdı.

Bir küçə var şəhərimdə,
sakit, qısa bir küçə...
Yetmiş addım o yana,
yetmiş addım bu yana.

Bir siqaret o yana,
bir siqaret bu yana.

Aqil müəllim onun, bu şeirdə olduğu kimi, insanın hiss və duyğularını rəssamtək təsvir edən poetik nümunələrindən bəhs edirdi. Sonralar sevimli şairimiz Ramiz Rövşənlə tanış oldum və onun da dilindən Vaqif Səmədoğlu yaradıcılığı haqqında dərin fikirlər eşitdim.

Vaqif Səmədoğlu o dövrdə elə də çox çap olunmurdu. Hətta demək olar ki, kitabları nəşr edilmirdi. Xatırlayıram ki, Vaqif Səmədoğlunun yaxın dostu, görkəmli yazıçımız Anar müəllim onun dəftərini götürərək silsilə şeirlərini "Qobustan" jurnalında dərc etmişdi. Nadir hallarda çap olunduğundan Vaqif Səmədoğlu imzası oxucular üçün əfsanəyə çevrilmişdi.

Həmin illərdə rejissor Ramiz Həsənoğlunun "Üç çinar yarpağı" televiziya filmi yayımlandı. Bu film Vaqif Səmədoğlu, Ramiz Rövşən və Vaqif Cəbrayılzadə haqqında çəkilmişdi. Onda çox tanınmayan, hətta hardasa yasaqlı sayılan, bir-birindən fərqli üç şairin təqdimatı kimi xüsusi əhəmiyyət daşıyırdı həmin film. "Üç çinar yarpağı" ədəbi mühitdə, ümumən, cəmiyyətdə böyük reaksiya doğurdu. Hər üç şairin qeyri-adi şeirləri, bir-birinə bənzəməyən ifadə tərzi hamını heyrətləndirmişdi. O dövrdən Vaqif Səmədoğlunun şeirlərini tapıb oxumağa başladım və bir şair kimi özüm üçün kəşf etdim. İndinin özündə də tez-tez bu şeiri xatırlayıram:

Gecə göy üzü ulduzlarla dolu.
Biri neçə min günəş boydadır
bəzi ulduzların.
Bəs niyə qərq olmuruq
onların işığına,
yanmırıq istisinə?

Ulduzlar çox uzaqdı, çox uzaq,
özgə dərdi kimi uzaq...

İnsanlardan biganəlik, laqeydlik görəndə ulduzların özgə dərdi kimi uzağa bənzədilməsi yadıma düşür, sosial şəbəkələrdə bu misraları paylaşıram.

Nə yaman ağırmış hər gün
Bir ömrü yüz yerə bölmək.
Dəniz sahilində durub
Dəniz həsrətiylə ölmək...

Bu misralar da ara-sıra zehnimdən keçir. Vaqif Səmədoğlu bu misralarla, əslində sovet dövrünün mahiyyətini təsvir edirdi. Biz həmin illər dəfələrlə dəniz sahilində durub dəniz həsrəti ilə ölmək hissini yaşayırdıq. Bu mənada, Vaqif Səmədoğlunun şeirləri cəmiyyətin, duyğuların dəqiq və bənzərsiz əksi idi.

Onun sevgi şeirlərində də pafos, bəlağət yox idi. Sakit və təmkinli misralarla oxucunu ələ almağı bacarırdı. Vaqif Səmədoğlunun bu şeirini gənclik illərində tez-tez deyirdim, indi də əzbərimdədir:

Sevgilim, mən öləndə,
Bir küncdə xısın-xısın
Ağlayacaqsanmı, sən?
Kimin xarabasında
Bir damla yaşa dönüb
Düşəcəyəm gözündən?

Ağla, qurbanım, ağla,
Ağla, heyranım, ağla...

Laylay kimi insanın ruhuna yayılan bu şeir indi də dillər əzbəridir, müxtəlif qiraətçilər tərəfindən səsləndirilir, internet portallarında tirajlanır. Sevginin bu şəkildə fərqli tonlarla təsvirinə nadir hallarda rast gəlinir. Vaqif Səmədoğlu məhz bu məqamlarla fərqliliyini büruzə verirdi.

Onunla şəxsi tanışlığımın da maraqlı tarixçəsi var. Yaradıcılıqda çox qeyri-adi olduğu kimi, son dərəcə fərqli insan idi; xarizmatik, şux, ünsiyyət müstəvisində də istedad nümunəsi...

90-91-ci illərdə Tərcümə Mərkəzində çalışdığım illəri xatırlayıram. Çox qaynar mühit var idi. Rəhmətlik Aydın Məmmədov gənc yazarları başına toplamışdı. Sonralar Afaq Məsud həmin mərkəzə rəhbərlik edəndə Vaqif Səmədoğlu ora tez-tez gəlirdi və mən onunla həmsöhbət olarkən fərqli, təzadlı xüsusiyyətlərinə bələd olurdum. Vaqif Səmədoğlu daim gənc qələm adamları ilə dostluq edirdi, həmişə onlarla ünsiyyətə can atırdı.

1986-cı ildə Şuşada keçirilən Vaqif Poeziya Günləri mənim ən ülvi xatirələrim cərgəsindədir. Həmin ərəfələr Zakir Fəxri şeirlərimi "Ulduz" jurnalında çap etdirirdi. Onun vasitəsilə jurnalın baş redaktoru Yusif Səmədoğlu ilə də tanış olmaq şansı qazanmışdım... O illər alkoqolizmə qarşı qərar qəbul olunmuşdu, kütləvi tədbirlərdə spirtli içki məhdudlaşdırılmışdı. "03-35" nömrəli yaşıl "Jiquli"m var idi. Ağdamdan həmin Vaqif Poeziya Günlərinə yollananda "Jiquli"nin arxasını içkilərlə doldurmuşdum. Rəsmi tədbirin ardınca İsa bulağında ziyafət olurdu. Yusif Səmədoğlu, Məmməd İsmayıl, Zakir Fəxri və mən əvvəlcədən ziyafət təşkil olunan yerin arxa tərəfinə gəldik, bizim məclisimiz daha tez başladı. Əsas ziyafətdə sağlıqlar kompotla deyilirdi, qayda-qanuna görə stolda içki yox idi. Biz dördümüz isə arxa tərəfdə "Jiquli"nin arxasındakı içkiləri yavaş-yavaş badələrə süzürdük. Bir az sonra Vaqif Səmədoğlu yaxasında fotoaparatı ilə mənə yaxınlaşdı və həmişə böyük ehtiram göstərdiyi qardaşı Yusif Səmədoğluya işarə edib asta-asta

dedi: “Barı, qağam babat vura bildimi?” O yarızarafat-yarıgerçək müraciəti indiyədək yadımdadır.

Vaqif Səmədoğlu əsl vətəndaş idi. O bu kəlmənin haqqını verən qələm adamları sırasında sona qədər məğrur dayanmağı bacardı. Xalq hərəkatı zamanı Vaqif Səmədoğlu özünəməxsus çıxışları ilə prosesdə fəal iştirak edirdi. Bir dəfə milli təklik haqqında, ağrılarımız, acılarımız, hər tərəfdən sıxışdırılmağımız barədə lirik bir çıxışı o insan kütləsində xüsusən dərin təsir oyatmışdı.

Vaqif Səmədoğlu millət vəkili olanda da tez-tez görüşərdik. Sonralar o, Avropa Şurası Parlament Assambleyasının Azərbaycan nümayəndə heyətinin üzvü oldu. Yadımdadır ki, Şuranın iclaslarında Vaqif Səmədoğlunun davranışı, gəzişi, reaksiyaları, ağır-təmkinli duruşu, danışığı parlamentarilərin diqqətini çəkirdi. Hətta bəziləri bir neçə dəfə Fələstin lideri Mahmud Abbasa oxşadıb onunla salamlaşmışdılar...

Bir dəfə isə Vaqif Səmədoğlu Avropa Şurasının sarayının foyesindəki fortepianoda tənəffüs vaxtı klassik Avropa bəstəkarlarının əsərlərini ifa edərkən, azərbaycanlı millət vəkilinin musiqiyə bu cür dərindən bələd olması hamını heyrətləndirmişdi...

Belə səfərlərin birində Parisdə yaşayan dostum Şahin Sinariya ilə birlikdəydik. Vaqif müəllim Şahinlə mənim fotolarımı çəkmişdi. İndi də o şəkillərə baxanda hiss olunur ki, peşəkar tərəfindən kadra alınıb.... Həmin gəzinti zamanı Strasburqda “Pivə akademiyası” adlanan kafenin qarşısından keçəndə Vaqif Səmədoğlu dedi ki, Rəşad, gəl, biz də burda şəkil çəkdirək. Şahin bizim şəklimizi çəkdi. O şəkil “525-ci qəzet”in redaksiyasındakı masamın üzərindədir.

Vaqif Səmədoğlu ilə dostluq etmək, ünsiyyətdə olmaq özü böyük bir zövq idi. Çox incə yumoru var idi. Onun dərin, kü-

bar, həssas zarafatlarının bir qismi ilə "Bəxt üzüyü" əsərindən tanışıq.

Vaqif Səmədoğlunun ağır xəstəlik xəbəri hamımızı sarsıtmışdı. Tez-tez Türkiyəyə gedib-gəlirdi. Bir dəfə Vaqif müəllim Ankarada olanda biz də, Xalq yazıçısı Anar başda olmaqla, bir tədbirdə iştirak üçün ora yollanmışdıq. Anar müəllim zəng edib harda olduğumuz barədə ona xəbər verdi və çox keçmədən Vaqif müəllimlə görüşdük. Həmin görüşdə Anar müəllimlə Vaqif Səmədoğlunun şirin söhbətlərinə, zarafatlarına, keçmişlə bağlı xatirələrinə, günümüzün reallıqları ilə bağlı danışdıqlarına maraqla qulaq asırdım... Bu yaxınlarda Anar müəllimin həyat yoldaşı, akademik Zemfira Səfərova "525-ci qəzet"də yayımlanan "Vaqif Səmədoğlu haqqında xatirələrim" yazısında bu iki böyük şəxsiyyətin dostluğu, səmimi münasibəti, təhsil aldığı illər, gənclik münasibətləri barədə maraqlı nüansları qələmə alıb. Vaqif Səmədoğlunun xəstələnməyi və vəfatı Anar müəllimə çox pis təsir etdi. Yadımdadır, Ədəbiyyat İnstitutunda bir tədbirdə Anar müəllimə zəng gəldi və Vaqif Səmədoğlunun vəfat xəbərini ona çatdırdılar. Həmin tədbiri tərk etdi və bu günə qədər də onun xatirəsini əziz tutur.

Düzü, Vaqif Səmədoğlunun 85-ci doğum günü barədə eşidəndə bir anlıq təəccübləndim. Çünki gözümü açandan Vaqif Səmədoğlunu müdrik, qocaman, ağsaqqal simalı görmüşəm və maraqlıdır ki, o, sağlığında neçə-neçə 85 ilə sığan məsələləri yola verib, neçə-neçə söhbətləri ürəyinə sığdırıb, ürəyində yer tapa bilməyənləri vərəqə köçürüb. Dost Vaqifdən şair Səmədoğluya qədərki yol mənim üçün bəhs etdiyim nəsnələrin timsalında olduqca mənalı, şərəflidir. Bu gün də mən onu məxsusi xarizması, şuxluğu, maraqlı söhbətləri ilə xatırlayıram. Ruhu şad olsun!

05.06.2024

Vətən adı ilə

Azərbaycanın Macarıstandakı keçmiş səfiri, ədəbiyyatşünas alim Vilayət Quliyevin Macarıstanda ömürlük həbs cəzasına məhkum edilmiş Azərbaycan zabiti Ramil Səfərovun ölkəmizə ekstradisiyası prosesindən bəhs edən, "525-ci qəzet"də ardıcıl dərc olunan "Ramil Səfərovun ekstradisiyası: Bu necə olmuşdu?" adlı qeydləri 2022-ci ildə "Qanun" nəşriyyatında kitab halında çapdan çıxıb. Bu yazı Rəşad Məcidin sözügedən kitaba yazdığı ön sözdür.

***

Tanınmış ədəbiyyatşünas alim, tərcüməçi, diplomat, nəhayət, "525-ci qəzet"in dostu və sayğıdəyər müəllifi Vilayət Quliyevdən təxminən üç ay ərzində hər həftə hissə-hissə qəzetimizdə ardıcıl dərc edilmiş, indi isə kitab halında nəşrə hazırlanan "Ramil Səfərovun ekstradisiyası: Bu necə olmuşdu?" adlı qeydlərinə ön söz yazmaq təklifi alanda istər-istəməz hörmətli ziyalımızın Azərbaycan Respublikasının xarici işlər naziri vəzifəsinə təyin edildiyi günləri xatırladım. Buna qədər artıq neçə il idi Vilayət müəllim bir-birindən maraqlı və qiymətli yazıları ilə "525-ci qəzet"in səhifələrində çap olunurdu. 1999-cu ilin bir oktyabr günündə Prezident Heydər Əliyev çoxlarının gözləmədiyi halda böyük etimad göstərərək Dağlıq Qarabağ probleminin yaşandığı Azərbaycanda əlahiddə strateji əhəmiyyət daşıyan bir dövlət qurumunun rəhbəri vəzifəsinə o vaxtacan diplomatik sahədə fəaliyyət göstərməmiş ədəbiyyatşünas alim Vilayət Quliyevi təyin etdi. İşinin əsl peşəkarı olan bir adamın sonradan

başqa fəaliyyət sahəsinə yönəlməsi öz yerində daha çox fayda verə biləcəyi düşüncəsi ilə onu tanıyanlarda adətən təəssüf hissi doğurur. Amma Vilayət müəllim diplomatiya sahəsində çalışmağa başladığı gündən öz çoxşaxəli fəaliyyəti ilə təəssüflənməyə zərrə qədər də əsas vermədi. Xarici işlər naziri kimi mühüm dövlət postunda işlərinin çoxluğuna, gərgin qrafikə baxmayaraq, vaxt, imkan tapdıqca yenə Azərbaycanın tarixi və ədəbiyyatşünaslığı üçün gərəkli tədqiqatlarını davam etdirdi, yeni əsərlər qələmə aldı.

Bir neçə il ötüb-keçəcək, Vilayət müəllim yazılarının birində o dövrü belə xatırlayacaqdı: "2001-ci ildə rus dilində "Rusiya şərqşünaslığında Azərbaycan məktəbi" adlı monoqrafiyam çap olunmuşdu. Onun bir nüsxəsini mərhum dövlət başçısı Heydər Əliyevə təqdim etmək qərarına gəldim. Prezident kitabı götürüb yarıciddi-yarızarafat tərzdə: "Biz sənə məsul vəzifə tapşırmışıq. Belə işlərlə pensiyaya çıxandan sonra məşğul olarsan!" - dedi. Kitabın çoxdan yazıldığını, 11 il əvvəl müdafiə etdiyim doktorluq dissertasiyası əsasında hazırlandığını bildirdim. Prezident mündəricata və şəkillərə baxdı. Sonra: "Sən bilirsənmi ki, bu Kazımbəylərin biri Rusiyanın mühüm keşişlərindən olub?" - deyə soruşdu. Mən şərqşünas-alim Mirzə Kazımbəyin Rusiya Sinodu yanında müqəddəs kitabların tatar dilinə tərcüməsi üzrə komissiyanın üzvü kimi fəaliyyətindən danışmağa başladım. Dövlət başçısı sözümü kəsib: "Yox, yox, mən bu yaxın vaxtları, 1970-ci illəri nəzərdə tuturam. O vaxt Kazım bəy soyadlı bir nəfər Moskva Patriarxatlığında işləyirdi. Yəqin eyni nəsildən olarlar. Sən bir maraqlan!" - dedi". Əslində Heydər Əliyev kimi təcrübəli, uzaqgörən dövlət başçısının "Sən bir maraqlan!" sözləri xarici işlər naziri vəzifəsini tutan alimin bu istiqamətdəki fəaliyyətini təqdir etdiyinə incə bir eyham, işarə idi.

O illərdə daşıdığı vəzifənin mahiyyətinə görə Vilayət müəllimin fəaliyyətinin əsas hissəsi ictimaiyyət üçün qapalı qalsa da, nazirliyin aparatında həyata keçirdiyi ardıcıl islahatlar açıq-aydın müşahidə olunurdu. Xarici İşlər Nazirliyi sistemində yazışmaların səlis Azərbaycan dilində aparılması, nazirliyin bütün strukturlarına təyinat zamanı milli kadrlara üstünlük verilməsi onun rəhbərliyi dövrünün əsas məziyyətlərindən idi.

Təxminən beş il nazir kimi fəaliyyət göstərəndən sonra Vilayət müəllim diplomatik missiyasını səfir qismində davam etdirdi. 2004-cü ilin yayında o, Polşa Respublikasına fövqəladə və səlahiyyətli səfir təyin olundu. Altı ilə yaxın bu vəzifədə çalışan hörmətli alimimiz Azərbaycan Xalq Cümhuriyyəti dövründə əhəmiyyətli xidmətlər göstərmiş Şərqi Avropa türkləri (Polşa tatarları) haqqında - Milli Ordumuzun ilk ümumi qərargah rəisi, general-leytenant Masey Sulkeviç, Sulkeviçlə birlikdə 1919-cu ildə Azərbaycana gəlmiş və bolşevik işğalına qədər Bakı Məhkəmə Palatasının prokuroru, ədliyyə nazirinin müavini vəzifələrində çalışmış Olgerd Nayman Mirzə Kriçinski, onun qardaşı - dövlət xadimi, tarixçi, jurnalist Aslan bəy Kriçinski barəsində zəngin araşdırma və tədqiqatlara əsaslanan məqalələr yazdı, cümhuriyyətimizin banisi Məhəmməd Əmin Rəsulzadənin Polşada mühacirət həyatı yaşadığı illərdə Varşavada işıq üzü görən "Qafqaz dağlıları", "Şimali Qafqasya - Severniy Kavkaz" dərgilərində çıxmış məqalələrini öz tərcüməsində Azərbaycan oxucularına təqdim etdi. Ardınca həmin məqalələrin kitab halında nəşrinə nail oldu. Yenə eyni şövqlə "Polyaklar Azərbaycan Demokratik Respublikasında" və "Polşa tatarları Azərbaycanda" kitablarını polyak və rus, "Polşadakı Azərbaycan siyasi mühacirətinin irsindən" kitabını isə rus dilində Polşada nəşr etdirdi.

Sonra diplomatik missiyanın Macarıstan dövrü başlandı. 2010-cu ildə Vilayət müəllim bu ölkəyə səfir təyin olundu və 11

ildən çox dost ölkədə fəaliyyət göstərdi. Bu illər ərzində də yaradıcılığa ara verməyən Vilayət Quliyev Macarıstanda Azərbaycanla, türkçülüklə uzaqdan-yaxından bağlılığı olan mənbələri araşdırmaqla yanaşı, Azərbaycan Xalq Cümhuriyyəti dövrünü, tariximizin görkəmli şəxsiyyətlərinin, Cümhuriyyət qurucularının həyatının indiyədək ictimai fikrə bəlli olmayan səhifələrini tədqiq edərək neçə-neçə qiymətli əsər ortaya qoydu.

Ümumiyyətlə, dəyərli alimimizin səfirlik fəaliyyəti dövründə türk dünyasının böyük fikir adamı Əhməd bəy Ağaoğlu haqqında silsilə araşdırmaları və nəticədə ərsəyə gətirdiyi kitablar (Əhməd bəyin ölkəmizdəki ilk külliyyatı sayılacaq "Mən kiməm?" toplusu, Bakıda və İstanbulda çap olunan və böyük maraqla qarşılanan "Atatürk və Əhməd Ağaoğlu" kitabı), Azərbaycan Cümhuriyyəti Parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun ictimai-siyasi və diplomatik irsindən nümunələrin toplandığı "Doğma Azərbaycanın mənafeyini qoruyacağıq", "... Xalqımızın müstəqil yaşayacağına inanırdıq!", "Qafqaz Azərbaycanı nümayəndə heyətinin Sülh Konfransından tələbləri", "Parisdən məktublar" kitablarını dilimizə çevirməsi, Cümhuriyyət qurucularından biri, müxtəlif vaxtlarda Baş nazir və maarif naziri vəzifələrini tutmuş Nəsib bəy Yusifbəylinin şəxsi həyatından bəhs edən "Baş nazirin xanımı" ədəbi-tarixi essesi, Cümhuriyyət daxili işlər naziri Behbud xan Cavanşirin qətl hadisəsinə işıq salan, türk mənbələri əsasında yazılmış "Behbud xan Cavanşirin məhkəmə prosesi" kitabı, habelə iri həcmli "Cümhuriyyət yazıları" kitabında toplanmış bir-birindən maraqlı araşdırmalar diplomat-alimin ümumxalq bayramına - Azərbaycan Cümhuriyyətinin 100 illik yubileyinə layiqli töhfəsi idi.

Bilmirəm, indi özü bu fikirlə razılaşar, ya yox, amma yuxarıda sadaladığım geniş miqyaslı, Azərbaycan tarixi üçün gərək-

li tədqiqat işlərini məxsusi vurğulamaqla bərabər, mənim şəxsi qənaətimcə, hörmətli Vilayət müəllimin səfirlik missiyasının - həm də təkcə onun yox, bəlkə də, bütövlükdə Azərbaycan diplomatik korpusunun - ən çox yadda qalan, ən çox diqqət çəkən, beynəlxalq rezonans doğuran, yəqin ki, uzun illər boyu unudulmayacaq səhifəsi "Ramil Səfərov işi" - Macarıstanda ömürlük həbs cəzasına məhkum edilmiş Azərbaycan zabitinin ölkəmizə ekstradisiyası məsələsidir.

Sənədlər əsasında yazdığı, bilavasitə iştirakçısı olduğu prosesləri təsvir etdiyi, öz təbirincə desək, "xəyal ürünü" sayıla biləcək bir detala da yer vermədiyi bu əsəri Vilayət müəllim "qeydlər" adlandırır. Amma adından və janrından asılı olmayaraq dövlət müstəqilliyimizin ötən əsrin 90-cı illərinin əvvəlində bərpa olunduğunu nəzərə alsaq, deyə bilərik ki, bu əsər o zaman gənc Azərbaycan diplomatiyasına beynəlxaq qalmaqal yaşatmış ən həssas hadisə barədədir. Və tərəddüdsüz demək olar ki, yüksək peşəkarlıqla qələmə alınmış kitabdan diplomatiya tariximizin tədrisində bir vəsait kimi istifadə edilə bilər.

Müəllif hadisələri şişirtmədən, artırıb-əksiltmədən qələmə alıb, baş verənlərə obyektiv münasibət bildirib, ayrı-ayrı şəxslərin Ramil Səfərovun azad olunması üçün göstərdiyi real fəaliyyəti, kimin cəmiyyətdə hansı status daşımasından asılı olmayaraq, heç bir güzəştə getmədən, necə varsa, elə təsvir edib. Bu səmimiyyət yazının hər cümləsində hiss olunur.

Əsərdə diqqət çəkən başqa bir məqam hadisə baş verəndən ekstradisiya məsələsi yekunlaşana qədər prosesləri daima həssaslıqla izləyən, lazım gələndə təmkin və səbir, lazım gələndə əzm və qətiyyət nümayiş etdirən Azərbaycan Prezidentinin obrazının dolğun və mükəmməl təsviridir.

Hadisə, bilindiyi kimi, 2004-cü il fevralın 18-dən 19-na keçən gecə baş verib. Macarıstanda NATO-nun "Sülh naminə

tərəfdaşlıq" Proqramı çərçivəsində kurs keçən Azərbaycan Ordusunun zabiti, baş leytenant Ramil Səfərov eyni kursda oxuduğu erməni zabit, leytenant Qurgen Markaryanı öldürüb, digər erməni - Hayk Makuçyanı isə öldürməyə cəhd göstərib. Kitabın müəllifi Vilayət Quliyev həmin vaxt Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə rəhbərlik etdiyinə görə hadisə barədə ilk xəbər tutanlardan və dövlət başçısını bu haqda məlumatlandırmaq üçün məsləhətləşən üç dövlət rəsmisindən biri olub. Elə kitab da bu təfsilatlarla başlayır. Vurğulanır ki, "...baş verən hadisə cəmisi dörd ay əvvəl mühüm posta seçilən dövlət başçısı üçün də problemlərlə dolu sürpriz idi". Amma "məlumatı kifayət qədər soyuqqanlılıqla dinləyən Prezident hər üç nazirliyə müvafiq tapşırıqlar verdi". Buna qədər, yazının giriş hissəsində qeyd olunur ki, "...bu nəcib və humanist niyyətin (ekstradisiyanın - R.M.) həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin cəsarəti, əzmkarlıq və prinsipiallığı çox mühüm rol oynamışdı". Ekstradisiya gerçəkləşəndən, Ramil Səfərov Azərbaycana təhvil veriləndən sonra isə qeydlərin sonunda müəllif hadisələrə yekun qiymət verərkən yazacaq: "...Bu gün bütün təşəkkürlərin, şükranların əsas ünvanı vətəndaşının arxasında dayanmağı bacaran Azəbaycan dövlətidir, Azərbaycan Prezidentidir". Çünki "əgər Prezident İlham Əliyev macar tərəfi qarşısında ekstradisiya məsələsini qaldırmasaydı, Baş nazir Viktor Orban isə razılıq verməsəydi, milyonlarla dollar hesabına da nəyisə dəyişmək mümkün olmazdı".

Amma hələlik məsələnin həllini tapmasına iki il var. İndi 2010-cu ilin sentyabr ayıdır; Ramil Səfərov 2004-cü ildə ömürlük həbs cəzasına məhkum edilib, altı ildir məhbus həyatı yaşayır, Vilayət Quliyev də artıq xarici işlər naziri deyil, Polşada altı illik diplomatik missiyasını da başa vurub, bir neçə aydır Ma-

carıstana səfir təyin olunub. Və bu günlərdə Macarıstanın Baş naziri Viktor Orbanın Bakıya səfəri gözlənilir.

Ekstradisiya ilə bağlı əsaslı tərpəniş də elə bu səfər əsnasında başlanır. Zağulbada qonaqların şərəfinə verilən işçi nahar zamanı münasib fürsət yarandığını görüb Viktor Orban barəsindəki təəssüratlarını Prezident İlham Əliyevlə bölüşən səfir Vilayət Quliyev macar Baş nazirlə bütün mövzuları, eləcə də məhbus zabitin ölkəmizə ekstradisiyası məsələsini müzakirə etməyin mümkünlüyünü deyir. Səfiri dinləyən Prezident bu məsələ ilə bağlı yalnız bir dəfə müraciət edə biləcəyini, ona qədər müəyyən hazırlıq işləri görülməsinin, müsbət nəticə barədə siqnallar alınmasının gərəkliyini, tələsik məsələ qaldırmağın hələ uğur qazanmaq demək olmadığını diqqətə çatdırır. Macar rəsmiləri ilə danışıqlar aparmaq üçün yüksək səviyyədə razılığa ehtiyac duyan səfir söhbət zamanı məhbus zabitin mümkün ekstradisiyası ilə əlaqədar müvafiq yollar aramaq, vəziyyəti öyrənmək, bir sözlə, bu istiqamətdə işləmək niyyətinə Prezidentdən müsbət rəy alır.

Bu da 2012-ci il. Mənim iki ilin üstündən belə sürətlə, üçdörd kəlmə ilə keçməyimə baxmayın. Bu iki ildə vəziyyət yaxşılığa doğru xeyli dəyişib. Bu iki ildə Azərbaycan Prezidentinin dediyi kimi, məhbus zabitimizin ekstradisiyası məsələsinin gündəmə gətirilməsi məqsədilə xeyli hazırlıq işi görülüb, artıq müsbət nəticəyə ümid verən kifayət qədər ciddi siqnallar da var. Və bu situasiyanın yetişməsinə xeyli zəhmət sərf olunub, bir sıra əhəmiyyətli diplomatik addımlar atılıb. Amma o proseslərə bir azdan qayıtmaq şərti ilə gəlin hadisələri qabaqlayıb ekstradisiya məsələsinin reallaşmasında müstəsna rol oynamış iki dövlət rəhbəri arasında həlledici görüşə toxunaq. Dediyim kimi, 2012-ci ildir. Bakının isti iyun günləri. Macarıstanın Baş naziri Viktor Orban ölkəmizdə keçirilən Beynəlxalq Qrans Montana

Forumunda iştirak etmək üçün Bakıda səfərdədir. Sənədlərin imzalanması mərasimindən sonra hər iki tərəfdən rəsmi heyət üzvlərinin qatıldığı naharda söhbət açılır və razılıq əldə olunur.

Təfərrüata varmadan danışqlar zamanı diqqət çəkən bir məqam üzərində dayanmaq yerinə düşərdi. Hadisələri qabaqlayıb Prezident İlham Əliyevlə Baş nazir Viktor Orbanın görüşünə keçməyimə səbəb də elə bu idi.

Politoloji polemikalarda siyasətdə səmimiyyətin olmadığı haqda iddiaları çox eşitmişik. Amma indi üzərində dayanacağım detal az qala aksiom kimi qəbul olunan bu fikrin heç də həmişə doğru olmadığını göstərəcək. Dediyim kimi, artıq ekstradisiya məsələsi həll olunub, razılığa gəlinib. Bu zaman Azərbaycan Prezidenti üzünü Macarıstanın Baş nazirinə tutub deyir: "...İstəyirəm bir vacib məqamı əvvəlcədən biləsiniz və sonra bu zəmində aramızda hər hansı anlaşılmazlıq yaranmasın. Əgər ekstradisiya baş tutsa, mən Azərbaycan Prezidenti kimi qanunun verdiyi səlahiyyətlərə uyğun şəkildə məhbusu elə hava limanında əfv edib azadlığa buraxacağam. Aramızda səmimi münasibətlərə görə bunu indidən bilməyinizi, qərar verən zaman nəzərə almağınızı xahiş edirəm. Yoxsa vətəndaşlarımız məni düzgün başa düşməz. Elə sizin atdığınız addımın da xeyirxahlığı, nəcibliyi kölgə altında qalar".

Bu isə Macarıstanın Baş nazirinin cavabıdır: "Əgər Konstitusiya və qanunlarınız belə səlahiyyət verirsə, o zaman siz deyən kimi olsun".

Bəlkə də aradan illər keçəndən sonra, həm də məsələnin artıq müsbət həllinin yaratdığı rahatlıqdan dolayı, bu dialoq kiməsə qeyri-adi görünməyə bilər. Amma bir anlıq o günlərə qayıdaq və düşünək: bütün Azərbaycan cəmiyyəti üçün xüsusi önəm daşıyan, ölkə diplomatiyasının, ədliyyə sisteminin, di-

gər müvafiq dövlət orqanlarının neçə ildən bəri səbir və təmkinlə həllinə çalışdığı, nəhayət, uğurlu sonluğu yaxınlaşan bir məsələyə nöqtə qoyarkən Azərbaycan Prezidentinin dürüst davranaraq sonrakı addımını açıq şəkildə dilə gətirməsi, macar Baş nazirin isə bu sözlərə diplomatdan daha çox alicənab, kübar insan kimi reaksiya verməsi yüksək insani keyfiyyyətlərin hər zaman, hər sahədə - siyasətdə də keçərli olduğuna sübutdur. Həm də unutmayaq: hər iki tərəf bilir ki, bu, o qədər də asan olmayacaq, məsələ beynəlxalq miqyasda böyük əks-səda doğuracaq, məhbus zabitlə bağlı həlledici qərar qəbul ediləndən sonra ciddi təzyiqlərlə üzləşəcəklər.

Bir müddət keçəcək, Azərbaycan Prezidenti çıxışlarının birində Ramil Səfərovun əfvindən sonra ölkəmizə qarşı yönəlmiş ədalətsiz basqılara qətiyyətlə cavab verərək belə deyəcək: "Ramil Səfərovu vətənə geri qaytarandan sonra Azərbaycana qarşı xeyli təzyiqlər oldu. Mən təzyiqləri gözləyirdim, amma doğrusu, bu dərəcədə olacağını gözləmirdim. Çünki bu təzyiqlərin heç bir əsası yoxdur. Azərbaycan öz zabitini vətənə qaytarıb. Vəssalam! Kim nə deyir desin, məni maraqlandırmır. Biz bunu etmişik, düz də etmişik. İkincisinə qalan yerdə heç bir qanunu pozmamışıq. Hər şeyi ədalətli qaydada etmişik. Ramil Səfərov vətənə qaytarıldı və mən onu dərhal əfv etdim. Bu, mənim konstitusion hüququmdur. Ona görə burada ittihamlara, təzyiqlərə yer qalmır".

Ekstradisiyanın müsbət həllindən sonra ona qədərki proseslər hər işə mız qoymağa öyrəşmiş bəzi ağzıgöyçəklərə adi məsələ kimi görünə bilər, onlar xidmətlərini gözə soxmayan, abır-həyasına qısılıb təvazökar davranan insanların əməyini insafsızcasına dana da bilərlər. Ya da kimlərinsə şəraitin zamanla, öz-özünə yetişdiyini düşünməsi də mümkündür. Amma qeydləri oxuduqca məqsədə çatmaq üçün hansı incə diplomatik gedişlərə

əl atıldığının, hər kiçik irəliləyişin addım-addım, misqal-misqal, tükənməz səbir və təmkin sayəsində qazanıldığının şahidi olur, zərbələri üzərinə götürüb hələ təyyarə Bakıda yerə enməmiş Ramil Səfərov haqqında əfv sərəncamı imzalayan dövlət başçısına, ekstradisiyanın reallaşması yolunda əzmlə çalışan səfirə, məsələyə qatqısı olan hər kəsə, müvafiq dövlət orqanlarının yetkililərinə minnətdarlıq duyğularını böyük səxavət və məmnuniyyətlə ifadə edirsən.

Lazımlı vaxtda lazımlı yerdə olmaq. Qeydləri oxuduqca ekstradisiya prosesində elə nüanslarla qarşılaşırsan ki, həmin vaxt Macarıstandakı Azərbaycan diplomatik korpusuna məhz Vilayət Quliyevin rəhbərlik etməsinə taleyin xoş qisməti kimi baxmaya bilmirsən.

Qeydlərdə belə bir məqam var: məhbəs həyatı yaşayan Ramil Səfərov səfirlə telefon danışıqlarının birində həm macarcasını təkmilləşdirmək, həm də, necə deyərlər, "vaxt öldürmək" üçün tanınmış macar yazıçısının romanını orijinaldan dilimizə tərcümə etməyə başladığını deyir: "...Ramil kitabı elə-belə, özü üçün tərcümə edirdi. Üzərinə götürdüyü çətin yaradıcılıq işi ilə bağlı heç bir konkret planı yox idi. Amma mənim beynimdə dərhal fikir yarandı: tərcüməni çap etmək, Macarıstanda geniş yaymaq, hətta kitab ətrafında müəyyən təbliğat şousu qurmaq lazımdır". Vilayət müəllim Ramil Səfərova tərcüməni çap etdirəcəyini deyir və işi sürətləndirməyi məsləhət görür. Elə vaxtdır ki, Macarıstan cəmiyyətində azərbaycanlı zabit haqqında təsəvvürlər büsbütün mənfidir. Hadisənin mahiyyətini eyninə almayan yerli mətbuat az qala küll halında Ramil Səfərovu residivist, "azərbaycanlı baltalı qatil" kimi təqdim edir. Ekstradisiyanın reallaşması üçün isə ilk növbədə macar cəmiyyətində formalaşmış təsəvvürü dəyişmək, məhbəs həyatı yaşayan zabitin obrazının reabilitasiyasına nail olmaq lazımdır. Belə bir məqamda macar

dilindən romanın tərcüməsi, kitab kimi nəşr olunub yayılması əla fürsətdir.

Niyyət öz bəhrəsini verir. Kitab Bakıda Azərbaycan dilində nəşr olunur, təqdimat mərasimi keçirilir, macar dilində qısa arayışla azərbaycanlı zabitin cəza çəkdiyi həbsxananın rəisinə, rəis müavininə, cəza evinin kitabxanasına, Macarıstan Yazıçılar İttifaqının rəhbərliyinə, Parlamentin bəzi üzvlərinə, qəzet-jurnal redaksiyalarına, müxtəlif səfirliklərə göndərilir, ardınca Budapeştin populyar qəzetlərindən birinin əməkdaşı səfirliklə əlaqəyə girib məhbus zabitlə görüşmək arzusunu bildirir, görüşdən sonra isə Ramil Səfərovun ilk dəfə tamam başqa ampluada təqdim olunduğu bir yazı ilə çıxış edir. Yadımdadır, qeydlər hələ hissə-hissə qəzetimizdə çap olunarkən macar yazıçısının əsərinin tərcüməsindən və Azərbaycan dilində kitab halında nəşrindən bəhs olunan yerə çatanda bir anlıq düşünmüşdüm: görəsən, o vaxt Macarıstanda səfirimiz ədəbiyyatşünas alim Vilayət Quliyev yox, tamam başqa bir ixtisas sahibi, lap deyək, uzun illər diplomatiya məktəbi keçmiş bir adam olsaydı, telefonda Ramil Səfərovdan "vaxt öldürmək" üçün macar dilindən roman tərcümə etməyə başladığını eşidəndə o da bu işin əhəmiyyətini göydə tutardımı, yoxsa bunu ömürlük məhbusun adi məşğuliyyəti sayıb üstündən keçərdi? O vaxt bir anlıq bu barədə düşünmüş və qənaətim belə olmuşdu ki, ictimai fikri tək quru diplomatiya ilə deyil, həm də bədii ədəbiyyatla dəyişdirməyin mümkünlüyünü bilmək üçün insanda mütləq mənəvi irsə dərin bağlılıq, yaradıcı fəhm, bədii sözün qüdrətinə tükənməz inam olmalıdır – Vilayət müəllim kimi!

Bir az yuxarıda "lazımlı vaxtda lazımlı yerdə" ifadəsini də elə buna görə işlətmişdim.

Ramil Səfərovun bədii əsər tərcümə etməsi, həmin tərcümənin kitab kimi nəşr olunması macar cəmiyyətində ab-havanı qismən

də olsa müsbətə doğru dəyişir və son məqsədə çatmaq yolunda təsirli tədbirlərdən birinə çevrilir. Bundan sonra da fəaliyyət davam etdirilir, hər şansdan, hər imkandan mümkün qədər faydalanmağa səy göstərilir, Macarıstanın müxtəlif qurumları ilə, ayrı-ayrı nüfuzlu insanlarla əlaqələr yaradılır, əlverişli situasiyanı yetişdirmək üçün gərgin əmək sərf olunur. Elə ki bütün çətinliklər arxada qalır, məsələ xoş sonluqla yekunlaşır, bu nəcib işə xələl gətirmək, hər şeyi öz adına çıxıb dividend qazanmaq, "əlindən yazı-pozudan savayı bir iş gəlməyən" səfir Vilayət Quliyevin xidmətlərini mənimsəmək sevdasına düşənlər də tapılır. Əslinə qalanda heç təəccüblü də deyil. Xalqa xidmət edənlərin zəhmətini qamarlayan, bunu bacarmayanda isə dodaq büzüb "Mən ondan yaxşı bacarardım" deyənlər bineyi-qədimdən olub. Bu da onlardan biridir - yəni indiyə qədər də görmüşük, indən belə də görəcəyik. Amma əvvəl-axır qalib çıxan, adı ehtiramla xatırlanan mütləq gördüyü işi gözə soxmayıb, ağayana, mütəvazi davrananlar olacaqlar.

***

Əvvəldə bildirdiyim kimi, indi kitab halında nəşr olunan bu qeydlər hissə-hissə "525-ci qəzet"in on iki sayında, şənbə günləri işıq üzü görüb. Silsiləni hər həftə böyük intizarla gözləyən oxucuların redaksiyaya zənglərini yaxşı xatırlayıram. Bəzən "Məgər belə şeyləri yazmaq olarmı?" deyib təəccüblənənlər tapılırdı. Hətta bəziləri qeydlərin sonacan davam edəcəyinə inanmadıqlarını bildirir, yazıların yarıda dayanacağını deyirdilər. Amma silsiləni istər hakimiyyətdə təmsil olunan şəxslər, istərsə də tam fərqli fəaliyyət sahələrində çalışanlar diqqətlə izləyirdilər. Biz bu əvəzsiz əməyinə və qeydləri fasilə vermədən sonacan davam etdirdiyinə görə müəllifə - hörmətli Vilayət müəllimə minnətdarıq.

Hə, bir önəmli məqam da odur ki, Vilayət Quliyev bu kitabın nəşrinə qərar verərkən daha bir humanist addım atıb. "Qanun" nəşriyyatında müəllifin şəxsi vəsaiti hesabına çap olunan bu kitabdan əldə edilən gəlir YAŞAT Fondunun hesabına köçürüləcək.

Vilayət müəllim həmişə "525-ci qəzet"in sevimli müəlliflərindən olub, redaksiyamız onun hər yazısını səbirsizliklə gözləyib və təbii ki, ürək açıqlığı ilə, məmnuniyyətlə dərc edib. Vilayət Quliyev "525-ci qəzet"in dostudur. Bunu yazanda "525"in 20 illik yubiley günlərini xatırladım. Onda Vilayət müəllim Macarıstanda səfir idi. Budapeştdən Bakıya hava yolu ilə məsafə 2500 kilometrdən çoxdur. Sadiq dostumuz uzaqlığa, işinin çoxluğuna baxmadı, yubileyimizi unutmadı, qəzetimizin ünvanına təbrik yazısı göndərdi. Həmin yazıda bir məqam var idi. Qeyd olunurdu ki, 1876-cı ildə Həsən bəy Zərdabinin "Əkinçi"-ni hansı əziyyət və məhrumiyyətlər bahasına çıxardığını görən bir fransız jurnalisti heyrətini bildirərək deyir: "Görünür, siz öz millətinizi çox sevirsiniz". Bunun ardınca Vilayət müəllim ürək genişliyi ilə bu sözləri bizə də şamil etmiş, "Azərbaycanın analoqu olmayan inkişafı dövründə "525-ci qəzet" əməkdaşlarının hansı şəraitdə işlədiklərini, amma bütün bunlara baxmayaraq, belə bir qəzet ərsəyə gətirdiklərini" qabardaraq yazmışdı: "Uşaqlar, görünür, siz öz millətinizi (və həm də öz qəzetinizi!) çox sevirsiniz!"

Vilayət müəllim, əvəz çıxmaq kimi başa düşülməsin, siz də öz millətinizi çox sevirsiniz! Vətənin qeydinə qala-qala gördüyünüz işlər, o işlər haqda bir kitaba sığan, həm də sığmayacaq qeydləriniz bunun saysız-hesabsız sübutlarından biridir. Vətən sevginiz, Vətən təəssübünüz, Vətən qeydiniz heç zaman tükənməsin! Və bu duyğuları millətimizin gələcəyi naminə, Vətən adı ilə qələmə almaq şövqünüz də onun kimi!..

05.03.2022

Qırx il öncənin heyrəti

Azərbaycan Yazıçılar Birliyinin təşəbbüsü ilə "Qanun" Nəşrlər evində çapdan çıxmış Əli Kərimin "Metronun yaylı qapıları" adlı kitabına yazılmış ön söz...

***

Əli Kərim imzasıyla düz qırx il öncə, 14-15 yaşlarımda, onun "Seçilmiş əsərləri" ilə tanış olmuşam. Məkan da, şərait də dəqiq yadımdadır: Laçının Ağoğlan kəndində babamın evindəki kitabların arasından götürmüşdüm o nəşri. Həmin göy rəngli qalın kitabda şairin, demək olar ki, bütün şeirləri toplanmışdı. Bu da yadımdadır ki, kitaba məşhur tənqidçi Asif Əfəndiyevin yazdığı, mənsur şeiri xatırladan ön söz də qeyri-adiliyilə diqqətimi çəkmişdi.

Əli Kərimin o kitabdakı əsərləri məni yaxşı mənada təəccübləndirmişdi, çünki o vaxta kimi oxuduğum, sevdiyim, əzbərlədiyim şeirlərdən xeyli fərqlənirdi. Məndə xoş bir heyrətə səbəb olan həmin şeirlər, aradan qırx il keçməsinə baxmayaraq, bu gün də yaddaşımda dipdiri, canlı qalır.

Sonralar Əli Kərim poeziyasını daha çox və tez-tez oxumağa başladım. Xatırlayıram ki, təxminən 16-17 yaşım olanda, 1980-ci illərin əvvəllərində "Ulduz" jurnalına şeirlərimi aparmışdım. Həmin vaxt jurnalın şeir şöbəsinin müdiri Vaqif Cəbrayılzadə idi. Vaqif müəllim şeirlərin üzərinə belə bir qeyd yazmışdı: "Əli Kərim, Məmməd Araz, Nazim Hikmət, Mayakovski... Bu şairləri oxumalı". Vaqif Cəbrayılzadənin bu qeydi Əli Kərim poeziyasına diqqətimi yönəldən ikinci mühüm məqam

oldu. Və həmin o vərəqlərin üstünə əllə yazılan "Əli Kərim" sözləri indi də gözlərimin qarşısındadır.

Əli Kərimin "Seçilmiş əsərləri"ndən ən çox yadımda qalan, fərqli gələn şeirlər bunlar idi: "Daş", "Metronun yaylı qapıları", "Babəkin qolları", "Əllər", "Qaytar ana borcunu", "Bəzən haqq qazanır insan öləndə"...

"Əllər" şeirində boru daşıyan fəhlələrin adi, sıxıcı işini şair elə qeyri-adi, dəqiq, canlı şəkildə təsvir edir ki, o mənzərə insanı dərindən təsirləndirir, yaddaşına unudulmaz bir lövhə kimi həkk olunur:

Güclü çiyinlərində
Uzun-uzun borular
Yeriyirlər neftçilər...
Qalın qar çıxır dizə,
Sanki tutub ayaqdan
İstəmir ki, buraxa.
Neftçilər boruları
Daşıyırlar buruğa.
Ağ vulkanlar içində
Alıb dərindən nəfəs,
Fəhlələr bir-birini
Tez-tez eləyir əvəz.
Əllər duyur boruda
Əvəz olunmuşların
Əlinin istisini.
Amma dostların biri
Borudan yapışanda
Bu istini duymadı,
Çıxarmadı səsini

Bildi: kimsə boranda
Göz görməyən zamanda,
Başqası çalışanda
Avaratək verməyib işə canını,
şəksiz,
Dostlarının yanıyla
Yeriyibdir ürəksiz...

"Metronun yaylı qapıları" şeirini gündəlik həyatda lap tez-tez xatırlayıram. Laqeyd, başqalarını düşünməyən, etinasız insanlar var olduqca, hətta get-gedə artdıqca bu şeir də aktuallığını qoruyur. Xırda, adi, bəzilərinə əhəmiyyətsiz görünən bir detalla şair fərqli insan portretləri yaradıb

Adam var bu qapıları açar,
Bir az
saxlayar, deyər:
"Birdən,
Arxadan gələnə dəyər".
Bəzən
heç dönüb baxmaz da
Heç özü bilməz də
Kimdir: dostdur,
yoxsa düşmən.
Qapını yavaş-yavaş
buraxar əlindən.
Eləsi də olur ki,
Tələsik özünü içəri soxur,
Elə bil
Heç arxada adam yoxdur.

Kimliyi yazılmayıb ki,
insanların alnına.
Qapılar
Açılır, örtülür,
Gah sürətlə,
gah asta;
Gah bu geniş dünyaya,
gah da yerin altına.

Bu cür epik məzmunlu şeirlər mənim üçün təzə idi. Şair ən adi həyat hadisələrini şeirə çevirib, düşündürə, yaddaşa hopdura bilmişdi.

Əli Kərimin yaradıcılığı ilə daha geniş tanış olduqca onun başqa şeirlərinə də heyrətlənirdim. "Nə xoşbəxt imişəm bir zaman, Allah", "İki sevgi", "Qayıt", "O qıza" kimi sevgi şeirləri də məni öz yeniliyi, sevgiyə və sevgiliyə fərqli yanaşması ilə təsirləndirmişdi.

"Atamın xatirəsinə" şeirini tez-tez xatırlayır, hərdən əzbər deyirəm. Bu şeirdə bir atanın sərt xarakteri və o sərtliyin arxasında gizlənən valideyn məhəbbəti yüksək poetik keyfiyyətlə, çox dəqiqliklə, eyni zamanda, kövrək dillə qələmə alınıb:

O sərt idi, səhər dərsə tələsəndə mən
Bildirməzdi yolda durub boylandığını.
Bircə dəfə söz açmazdı qəlbindəkindən,
Söyləməzdi övlad üçün çox yandığını.

Azərbaycan Yazıçılar Birliyinin təşəbbüsü ilə çap olunan silsilə nəşrlər siyahısına məmnuniyyətlə Əli Kərimin də kitabını daxil etdik. AYB sədri, Xalq yazıçısı Anar təklifimizi ürəkdən

dəstəklədi. Anar müəllimin dəyərlərə münasibəti həmişə örnəkdir. Bu baxımdan, Əli Kərim irsinə yanaşmada üst-üstə düşən sevgimiz, doğmalığımız xoş idi. Əli Kərimin oğlu Paşa Əlioğlu xahişimizlə atasının şeirlərini bizə təqdim etdi.

İndi bəzi gənclərdən Əli Kərimi xəbər aldıqda məlum olur ki, oxumayıblar, eşitməyiblər, bizim sevdiyimiz, o məşhur şeirlərdən xəbərdar deyillər. Ona görə də ilk növbədə məqsədimiz bu oldu ki, kitabda Əli Kərimin əsasən məşhur, həm də onun yaradıcılığı üçün ən səciyyəvi olan şeirlərini toplayaraq gənc oxucu auditoriyasına təqdim edək.

Nəşrin adını da o zaman məni heyrətləndirən şeirlərinin birindən – "Metronun yaylı qapıları"ndan götürdük. Kitab "Atamın xatirəsi" şeiri ilə başlayıb, oğlanlarına yazdığı "Vəsiyyət" şeiri ilə tamamlanır. Düşünürəm ki, bunda da rəmzi bir məna var. Bu, insan həyatının başlanğıcına və sonuna, həmçinin, əbədiyyət anlayışına işarədir.

Fikrimcə, kitabdakı əsərlər şeirdə yeni eksperimentlər aparmaq iddiasında olan gənclərə də maraqlı gələcək. Görəcəklər ki, onların can atdıqları, haqqında düşündükləri bir çox yeniliklərə Əli Kərim – həyatı erkən qırılan unudulmaz şairimiz hələ 60-70 il öncə imza atıb. O, bənzərsiz yaradıcılığı ilə həm ustad Rəsul Rzadan başlanan yolu uğurla davam etdirib, həm də özü yeni bir yol açıb. Bu yolun davamçıları müasir poeziyamızda da çoxdur.

Bax belə munis hisslər və düşüncələr içində, həvəslə bu kitabı tərtib etdiyimi, ona ön söz yazmaqdan sonsuz məmnunluq hissi duyduğumu bildirir, oxucuları bir daha Əli Kərimin zəngin söz dünyasına dəvət edirəm!

24.07.2019

“İndi hanı o bağlar...”

İsi Məlikzadənin “Qanun” nəşriyyatında çapdan çıxan “Qatarda” hekayələr kitabına yazılmış ön söz...

***

Çağdaş nəsrin ustalarından sayılan unudulmaz yazıçımız İsi Məlikzadənin yaradıcılığına daha çox diqqət yetirilməsinin, onun əsərlərinin geniş çapının vacibliyi barədə son zamanlar xeyli danışılıb. Əsərləri müstəqillik illərində az çap edilən görkəmli nasirin yaradıcılığının layiqincə nəşri yönündə bir sıra cəhdlər də olub. Ancaq bütün bunların ədibin irsinin təbliği baxımından arzuolunan nəticələr verdiyini söyləmək, təəssüf ki, mümkün deyil.

Bu il İsi Məlikzadənin anadan olmasının 85 illiyi tamamlanır. Azərbaycan Yazıçılar Birliyində yaradıcılığının təbliği bir qədər diqqətdən kənarda qalmış ədiblərimizin kitablarının nəşri ilə bağlı müzakirələr zamanı qərara gəldik ki, Əli Kərim və İsi Məlikzadənin kitablarını mütləq çap edək. Yeni nəslin bu iki sənətkarın yaradıcılığına daha dərindən və ətraflı bələd olması üçün onların kitablarını latın qrafikasında nəşrə hazırlayaq. Bu təşəbbüs AYB-nin sədri, Xalq yazıçısı Anar tərəfindən təqdirlə qarşılanıb dərhal dəstəkləndi.

Anar müəllim İsi Məlikzadəni həmişə xoş duyğularla xatırlayır və yaradıcılığına çox böyük qiymət verir. Onlar bir ədəbi nəslin - “altmışıncılar”ın nümayəndələri olublar, adları dəfələrlə yanaşı çəkilib. Anar müəllimlə, Fikrət Qocayla birlikdə Ağcabədidə tədbirlərdə olarkən İsi Məlikzadənin məzarını ziyarət etmişik.

İsi müəllimin Ağcabədidəki doğulduğu ev boşdur. Ailəsi həmin ünvanın ədibin ev muzeyinə çevrilməsini arzulayırdı. Bununla bağlı bir neçə dəfə müraciətlər oldu. AYB sədri Anar da, baş nazirin müavini olduğu dönəmdə Xalq yazıçısı Elçin də bunun üçün xeyli çalışdı.

Tale belə gətirdi ki, İsi müəllim bu dünyadan erkən, həm də qarışıq bir dövrdə köçdü, layiq olduğu təltifləri, fəxri adları almağa ömrü vəfa etmədi. Amma bir müddət də yaşasaydı, yəqin ki, özünün zəngin və qiymətli yaradıcılığına görə dövlətimiz tərəfindən yüksək təltiflərə layiq görüləcək, çox güman, Azərbaycanın Xalq Yazıçısı adını da alacaqdı. O halda, heç şübhəsiz, xatirəsinin əbədiləşdirilməsi, eləcə də ev muzeyinin yaradılması ilə əlaqədar məsələlər çox asanlıqla öz həllini tapacaqdı.

İsi Məlikzadənin 85 illiyi münasibətilə bu kitabı nəşr etdirməklə biz onun ruhuna, yaradıcılığına dərin ehtiramımızı bir daha göstərməyə, vəfa borcumuzu müəyyən mənada yerinə yetirməyə çalışdıq. Fikirləşdik ki, İsi Məlikzadənin bütün hekayələrini bu kitabda toplayaq, müasir oxucular, xüsusən gənc yazarlar həmin əsərlərlə rahat tanış olub, ədibin sənətkarlığından bəhrələnə bilsinlər. Çünki İsi Məlikzadənin nəsri, onun hekayələri təkcə oxuculara maraqlı olmaqla məhdudlaşmır, həm də yeni nəsil yazarların öyrənməsi üçün həmişəyaşar mənbə məziyyəti daşıyır.

İsi Məlikzadənin hekayələrini çapa hazırlayarkən onun 40 il əvvəl oxuduğum əsərlərinə yenidən qayıtdım. Bu qayıdışla bir daha yəqin etdim ki, İsi Məlikzadə Azərbaycan nəsrində öz fərqli dəsti-xətti, orijinal və maraqlı təhkiyəsi, müəllifinin imzasını daima parlaq saxlayacaq hekayə və povestləri ilə xüsusi yer tutan yazıçıdır. Eyni zamanda, dostlarının xatirələrində nəcibliyi, dadlı-duzlu yumoru, hazırcavablığı, şirin söhbətlərilə yaşayan, yaddaşlardan silinməyən təkrarsız şəxsiyyətdir.

Mənim yaddaşımda ta uşaqlıq və gənclik illərimdən bəri İsi Məlikzadə həmyerlim kimi də özünə məxsusi yer tapıb. Ağcabədidən pərvazlanmış İsi müəllimin mərhum atamla dostluq münasibəti, xoş ünsiyyəti vardı. Mən ədəbiyyata meyl salıb 1970-ci illərin sonlarından ədəbi proseslə maraqlandığım üçün "Azərbaycan", "Ulduz" jurnallarının hər yeni sayını intizarla gözləyir, oradakı yeni əsərləri ardıcıl mütaliə edir, hər imzaya, müəllifin əsərlərinə diqqət yetirirdim. Onların arasında İsi Məlikzadə imzası məndən ötrü xüsusilə əziz və doğma idi. Gözəl əsərlərilə yanaşı, həmyerlimiz olmasının, atamla dostluğunun da bunda ayrıca rolu vardı. Biz onda Ağdamda yaşayır, Ağcabədiyə hərdənbir gedirdik. Amma mən hər dəfə Ağcabədiyə gedəndə İsi Məlikzadənin sevə-sevə oxuduğum povest və hekayələrindəki qəhrəmanların prototiplərini axtarırdım. Bəzən onun yaratdığı obrazlara oxşayan adamlarla rastlaşırdım da. İsi müəllimin qızı Xatirə xanım Məmmədli də müsahibələrindən birində bu haqda danışmışdı: "Onun az qala bütün qəhrəmanlarını tanıyıram. Həmişə özündən və yaxın ətrafından yazırdı. Amma təbii ki, bədii səviyyəyə qaldıra bilirdi".

Tənqidçi Vaqif Yusifli İsi Məlikzadənin kitabına yazdığı "Sözün ömrü qədər" adlı Ön sözündə onun qəhrəmanlarını belə təqdim edir: "Yalnız hekayə və povestlərindən tanıdığım və sevdiyim İsi Məlikzadə ilə ünsiyyətim məndə belə bir fikir yaratdı ki, İsi Məlikzadə ilə onun təsvir etdiyi qəhrəmanlar arasında güclü doğmalıq var. Sanki o, öz ömrünün ayrı-ayrı aylarını, illərini obrazlarına paylayıb. İsi bütün əsərlərində özünü yaradıb. Ancaq eyni zamanda, o qəhrəmanların hər biri də öz ömrünü yaşayıb. "İki günün qonağı"ndakı mühəndis İslam sanki İsinin özüdür, "Quyu"da, "Yaşıl gecə"də, "Günəşli payız"da, "Dədə Palıd"da, "Gümüşgöl əfsanəsi"ndə də təsvir olunan qəhrəmanlar İsinin mənəvi dünyasından güc almışlar".

Sonralar İsi Məlikzadə ilə bir neçə dəfə görüşdüm. Bu görüşlər onun haqqında düşüncələrimi, təsəvvürlərimi, təbii ki, müsbət mənada doğrultmaqla yanaşı, daha da dolğunlaşdırdı.

1995-ci ildəki – ölümündən bir az əvvələ təsadüf edən – görüşümüz nisgilli, kədərli məqam kimi xatirimdə qalıb. Ağır vaxtlar idi. O zaman yaxından müşahidə etdim ki, Qarabağ itkisi, yeni müstəqillik qazanmış ölkədəki təlatümlər İsi müəllimə çox dərin sarsıntılar gətirib. O, bir qarabağlı, azərbaycanlı kimi ölkənin, xalqın üzləşdiyi çətinlikləri, dərdləri dərindən hiss edir və bölüşürdü. Hətta son povesti olan "Qırmızı şeytan"ı da bu mövzuya həsr etmişdi. Qızı Xatirə xanım həmin povesti atasının yaradıcılığında ən sevdiyi əsər adlandırır: "Çox sevdiyim "Qırmızı şeytan" adlı gözəl bir əsəri var. Sonuncu əsəridir. 20 Yanvar hadisələrindən bəhs edir. Həm də 1918-ci ildə rus ordusunun Qarabağa gəlməsindən söz açılır, dövrlər müqayisə olunur". Vaqif Yusifli isə həmin povest barədə yazır: "Bu povestdə o, illərdən bəri içində püskürən qəzəb və etirazını, yaşadığı cəmiyyətdən narazılığını bədii sözlə ifadə etdi".

İsi Məlikzadə erkən deyə biləcəyimiz məqamda, yaradıcılığının müdrikliyə qədəm qoyduğu vaxtda - 61 yaşında dünyamızı tərk etdi. Onun vəfatı ilə bağlı vida sözü, nekroloq yazmışdım. "Qəfil ölüm" adlandırdığım həmin yazıda da qeyd etdiyim kimi, XX əsr Azərbaycan nəsrinin səhifələrindən İsi Məlikzadə imzası heç vaxt silinməyəcək: "Onun duzlu, düşündürən hekayələrini, povest və romanlarını xalqımız uzun illər sevə-sevə oxuyacaq. Yəqin ki, çox-çox illər sonra da İsi müəllimin əsərləri əsasında filmlər çəkiləcək, tamaşalar səhnəyə qoyulacaq. Bu gün ədəbiyyat maraqlısı olan hər bir kəsin evi İsi müəllimin əsərlərindən xali deyil. Azərbaycan xalqı illər ötdükcə yenə də onun kitablarına üz tutacaq, yenə də "Qatarda" tamaşasına baxacaq və onun

əsərləri həmişə insanların ən qəmli vaxtında belə köməyə çatacaq, bir ümid çırağına dönəcək".

Düşünürəm ki, İsi Məlikzadənin bu kitabda yer alan hekayələri barədə fikirlərimi, təzələnən təəssüratlarımı da bölüşməyim heç də yersiz alınmaz. Çünki onların mənim zehnimdə, yaddaşımda aydın, əsaslı izləri var.

Məsələn, "Qarlı bir gün" hekayəsindəki sürücü Qəzənfər, "Oğul"dakı Tahir kimi personajlar, onillərdir ki, mənim hafizəmdə öz yerini qoruyur. Saf təbiətli, dürüst bir insan kimi təqdim olunan sürücü Qəzənfər ilk iş günündə müdirinin kobudluğunu görüb ona qarşı çıxır, xarakterini nümayiş etdirərək etirazını bildirir, oradan uzaqlaşır. Və ya "Oğul" hekayəsində oğlunun evə gec gəlməyindən narahat olan xəstə ata səbrini basa bilmir, əsəbləşir, həyat yoldaşına gileylənir, oğlu evə gələndə isə acığından ona sillə vurur. Sonra məlum olur ki, oğlu məhz atasının xəstəliyinə görə, universitetdə oxuya-oxuya həm də işləyirmiş... Belə obrazlar və hadisələr sonralar inkişaf edərək İsi müəllimin povestlərində daha gözəl və bütöv şəkildə üzə çıxdı, bir qədər də canlanıb püxtələşdi.

İsi Məlikzadənin incə yumoru hələ keçən əsrin altmışıncı illərində yazdığı "Yuxu dərmanı" hekayəsində də aşkar hiss olunur. O yumor tədricən güclənərək, yeni çalarlar alaraq ədibin məşhur hekayələrində təkmil halına çatıb.

1979-cu ildə "Azərbaycan" jurnalında İsi müəllimin "Dədə palıd" povesti çap olunmuşdu. Povest axıcı, lirik təhkiyəsiylə bir nəğmə kimi qalıb yadımda. Oxuduqca yazıçının yaratdığı pak, sadəlövh obrazlar – Nurcabbar, Bağır yenidən gözümdə canlanır. Bir də "pul qazanmaqdan savayı dərdi olmayan, puldan ötrü anasının əmcəyini kəsən" Piti Namaz var, təbii ki.

Oradakı ən yaddaqalan, təsirli məqamlardan biri də cəmiy-

yətdə özünə yer tapa bilməyib mehrini təbiətə salan Nurcabbarın Kür çayıyla dərdləşməsidir:

"– Mən gedəriyəm, sən əbədi. Mən acizəm, sən güclü. Qoru bu dünyanı acgözlərdən. Onların gətirdikləri bəladan, yamanlıqdan hifz elə bizi. Qorxuram acgözlərdən, Kürüm, qorxuram". 40 il əvvəl yazıçının inanılmaz intuisiyayla hiss etdiyi dərdlər sonralar qabardı, şişdi. Acgözlük dalğasında Nurcabbarlar məhv oldu, Bağırlar ev-eşiksiz qaldı, Piti Namazlar hörmətə minib iş adamına çevrildi...

Qeyd etdiyim kimi, İsi Məlikzadənin povestlərinə lirik təhkiyə, rəvan ahəng xasdır. Onun əsərlərini təkrar mütaliə etdikcə, bəzi məqamlarda Xalq yazıçısı Anarın hələ 1984-cü ildə yazdığı "Nəsrin fəzası" məqaləsində İ.Məlikzadə haqqında qələmə aldığı fikirlərini xatırlayıram: "İ.Məlikzadə üçün təbiətin mühafizəsi problemi – yüzillik palıdın qorunması ("Dədə palıd"), nadir fauna qoruğunda qayda-qanuna ciddi riayət olunmaları ilə sıx surətdə bağlıdır.

... İ.Məlikzadənin əsərlərində bu problemlər alleqoriya və metaforasız, sırf realist aspektdə qoyulur. Alleqoriya və simvollar varsa da, yalnız başlıqlardadır. "Yaşıl gecə", "Dədə palıd", "Quyu" – əlbəttə, rəmzlərdir, metaforadır.

... İ.Məlikzadənin əsərlərinin məkanı həmişə ciddi fabula çərçivələri arasındadır. O, povestdən povestə, demək olar ki, eyni mənəvi modellə, hətta müxtəlif materiallar əsasında eyni əxlaqi situasiyaya ayrı-ayrı nöqtələrdən baxa-baxa müraciət edir. Povestlərin süjet xətləri, onların fakturaları eyni olsa da, mənəvi konfliktin mahiyyəti eyni modelə gəlib çıxır – etik prinsiplərdən əl çəkərək, əvəzində böyük nemətlərə, güzəşt və imtiyazlara sahib olmaq, ya da bütün bunlardan imtina etməklə ləyaqəti, şəxsiyyəti qoruyub saxlamaq. Özü də yazıçı personajların yaşını,

peşəsini və xarakterlərinin xüsusiyyətlərini dəyişərək, problemlə qarşılaşan qəhrəman modelinin ümumi cizgilərini saxlayır: cavan, hələ heç fiziki cəhətdən möhkəm olmayan qəhrəmanlar (Qaçay da, Umud da, Qərib də belədir) axırda özlərinin mənəvi mətinliklərini nümayiş etdirirlər. Yaradıcılığına xas olan plastik görümlülük, dəqiq təsvir, canlı dialoqlar və duzlu yumorla yanaşı, "variasiyalı mövzu" adlandıra biləcəyimiz bu xüsusiyyət İsi Məlikzadə nəsrinin əsas keyfiyyətlərindən biridir".

İsi Məlikzadənin, yəqin ki, ən məşhur əsəri olan "Qatarda"nın ilkin təəssüratı hələ də məni tərk etməyib. Onun bir çox əsəri kimi, bu da sanki bir kino materialı idi. Təsadüfi deyil ki, hekayə çap olunandan az sonra rejissor Ramiz Həsənoğlu onun əsasında televiziya tamaşası hazırladı, Həsən Əbluc, Yaşar Nuri, Hamlet Xanızadə və başqa usta aktyorların ifasında uğurla təqdim olundu. Tamaşa böyük əks-səda yaratdı və indiyə qədər də Azərbaycan Televiziyasının klassik işləri sırasında müstəsna mövqeyini qorumaqdadır. Xalq şairi Qabil bu əsərlə bağlı vaxtilə çox dəqiq fikir bildirmişdi: "İsi Məlikzadə Azərbaycan nəsrinin Çexovu idi, Şukşini idi. O, heç bir şey yazmasaydı da, əxlaq, sima, gözəllik, mütilik və kişilik poeması olan "Qatarda" onun bəsiydi".

Həmin yüksək cəhətləri əsas götürüb, biz də bu kitabı "Qatarda" adlandırdıq. Ancaq bir daha vurğulayıram ki, İsi müəllimin bu kitabdakı digər hekayələri də orijinallığı, koloritli obrazları baxımından son dərəcə maraqlı və dəyərlidir. "Cehiz güzgüsü" hekayəsindəki yekəxana, özündənrazı, ancaq həm də saf təbiətli Nəsir obrazı "Qatarda"nın Dadaşovuna xeyli bənzəyir, bir mənada, onun "əcdadı" sayıla bilər. Amma Dadaşov bəlli anlamda Nəsirin daha təkmil variantıdır. Güman ki, İsi Məlikzadə həmin illərdə həqiqətən də məhz belə bir adamı müşahidə eləmişdi və onun xarakterik obrazını ustalıqla yaratmışdı.

Yaxud da ədibin "Bu dağlar – qoşa dağlar" hekayəsini oxuyanlar, sözsüz ki, "Kişi sözü" filmini, oradakı xoş ovqatı, duzlu-məzəli epizodları xatırlayacaqlar.

"Talisman" hekayəsində də süjet o qədər dinamik, təsvirlər elə canlıdır ki, İ.Məlikzadənin ssenarist kimi də necə mahir olduğu dərhal diqqət çəkir. Təsadüfi deyil ki, indi də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri kurs və ya diplom işlərində kiçik sujetli filmlər çəkərkən tez-tez onun hekayələrinə müraciət edirlər. Yadımdadır ki, rejissorluq fakültəsinin tələbəsi, gənc istedadlarımızdan biri Vasif Rzalı özünün kurs işi üçün yazıçının "Duz" hekayəsini seçərək, onun əsasında qısa film çəkmiş, uğurlu ekran işinə imza atmışdı.

İsi Məlikzadənin 1984-cü ildə yazdığı "Bir göyün altında" hekayəsi elə bir dövrdə yazılmışdı ki, onda hələ Qarabağ hadisələri, Ermənistan-Azərbaycan münaqişəsinin başlanmasına illər vardı. Amma müxtəlif yerlərdə erməni təxribatları başlamışdı, qismən də olsa, bəd niyyətləri üzə çıxırdı. Şübhəsiz ki, yazıçı fərqli intuisiyası ilə bunları çox öncədən duyurdu. İsi Məlikzadə əslində, çox humanist, xoş niyyətlə yazılmış bu hekayədə eyni zamanda, erməni xislətini açıb göstərə bilmişdi.

"Şehli çəmənlərin işığı"nda 60 yaşı tamam olan Mirzənin həyat yoldaşı Nina beş il əvvəl rəhmətə gedib, oğlu və qızının başları öz həyatlarına qarışıb, atalarının ad gününü elə-belə, dilucu təbrik ediblər. Və birdən Mirzə yeddinci sinifdə oxuyarkən öz sinif yoldaşı Həsənə vurduğu silləni xatırlayır, 46 ildən sonra Həsən gəlib Mirzənin yadına düşür. O vaxt sinif yoldaşları Qəşəng Mirzəyə baxdığı üçün ona sakit səslə irad tutan Həsənin hərəkəti Mirzənin qürurunu toxunur və hər kəsin içərisində Həsənə sillə vurur. Bu hadisə düz 46 ildən sonra belə Mirzəni rahat buraxmır və 60 yaşında Vətənə dönür, bacısına "ölməyə

gəlmişəm" deyir, amma həm də üzrxahlıq etmək üçün Həsəni axtarır. Sən demə, həmin sillədən sonra Qəşəngin meyli Həsənə yönəlib... Yazıçı burada çox mürəkkəb psixoloji məqamı rahat və sadə şəkildə ifadə edir. Sən demə, adi bir sillə kimisə 46 il rahat buraxmadığı halda, başqa birinin həyatının axarını müsbətə doğru dəyişməyə qadirmiş! Uzun zamandan sonra yenidən bu hekayəni oxuyarkən bir daha İsi Məlikzadə istedadına, onun nasir qələminə heyranlıq duydum.

Və ya 1985-ci ildə yazılmış "Bir səbət üzüm" hekayəsini indi – 35 il uzaqlıqdan oxuyanda məni qəribə bir qüssə bürüdü. Bəlkə bunun bir səbəbi də doğulub-boya başa çatdığım torpağın adamlarının dərdini ifadə etməsi, oranın havasının, suyunun, insanlarının dəqiq təsvirinin verilməsidir. Həmin hekayəsində yazıçı Qarabağın Aran bölgəsini məharətlə təsvir edir və əsərdəki lövhələr məndə bu "Ön söz"ü yazdığım isti yay günlərində dərin nostalji yaradır. Dəmirçi Davud Qarabağın Aranında dünyaya göz açıb, burada böyüyüb, burada qocalıb və bu yerin ab-havasına bələddi. Bilir ki, "qəribə təbiəti var Aranın. İllah da ki, yayı lap məəttəl qalmalıdı. Gündüzlər yer-yurd qızmar saca dönür və adam bu sacda qovurğa kimi qovrulur. Amma gecələr otların, yarpaqların üstünə mirvari şeh düşür. Səhərə yaxın torpaq da, daş da buza dönür. Yayda heç haranın səhəri Aran Qarabağın səhərinə çatmaz. Belə aydın, belə sərin, belə ətirli səhər harda var?"

Bu əsərdə Aran Qarabağın səhəri İsi Məlikzadə qələminə xas əyaniliklə, doğma rənglər və cizgilərlə təsvir olunur. Hekayənin sujeti isə çox sadədir. Davud könlünə "Mərəndi" üzümü düşən həyat yoldaşı üçün vaxtilə gedib bağlardan üzüm dərərdi. İndi əvvəlki "yuxarıdan baxanda dalğalı dənizə oxşayan üzüm bağları" yoxdur. Ona görə də bu gecə könlünə "Mərəndi" üzümü düşən həyat yoldaşı üçün o üzümü hardan tapa biləcəyini çox düşünür. Yadına düşür ki, keçmiş kolxoz

sədri Əlipaşanın bağında o üzümdən var. Və gizlincə bağa keçib üzümdən bir səbət yığır. Amma nə əvvəlki bağın dad-tamını hiss edir, nə də şanapipiklərin oxumağını eşidir. Həm də bağdan gizlin getməyi özünə yaraşdırmır və Əlipaşanı haraylayır. Onların arasında maraqlı bir dialoq yaranır. Onlar keçmiş bağları xatırlayırlar, bir-bir adlarını çəkirlər: Abbasın bağı, Mirzə Camalın bağı, Məşə Züleyxanın bağı, Möhübbətin bağı, Kələ Ələkbərin bağı... Sonra isə üzümlərin növlərini sadalayırlar. Bu söhbətdə dəmirçi Davud ürəyini boşaldır, Əlipaşaya acığını ifadə edir: "Sən kəsdin kökünü o üzümlüklərin. Onda sən kolxoz sədri idin, bağların çoxu sənin ixtiyarında idi. Uzaq bağların yerində pambıq əkdirdin, yaxın bağlardan da camaata yer verdin. Rayonda torpaq qəhət idimi?" Sonda da belə bir adamın bağından üzüm götürməyi özünə sığışdırmayıb deyir: "Sənin üzümün başına dəysin, bütün bağları güdaza verdin. İndi hanı o bağlar, hanı o şanapipiklər?"

Bu acı təəssüf dolu cümlələr indi – 2019-cu ildə daha da təsirli səslənir və təkcə o möcüzəvi üzüm bağlarını deyil, bütün itirdiklərimizi bizə təkrar xatırladır.

Bütün bu məqamları nəzərə aldıqca istər-istəməz düşünürəm ki, İsi Məlikzadə daha 10-15 il yaşasaydı, nəsrimizin üfüqləri onun yeni möhtəşəm əsərlərilə daha da aydınlanardı. Bu cəhətdən, Xalq yazıçısı Elçinin vaxtilə İsi Məlikzadənin "Quyu" povestini oxuyandan sonra ona ünvanladığı məktubundakı fikirlər tamamilə dəqiqdir: "Bu məktubun əsas səbəbi Sizin "qazdığınız" "Quyu"dur və lap əvvəldən deyim ki, yaxşı "quyu" qazmısınız, suyunun "mət kimi şipşirin, göz yaşı kimi dumduru" olması barədə bir söz deyə bilmərəm, amma bu quyu bədii psixoloji mənada gələcəyin daha dərin "Quyu"larından xəbər verir, Sizin yaradıcılığınızdakı inkişafı, bədii-estetik kamilliyə doğru keyfiyyət dəyişikliyini əyani şəkildə göstərir".

Xalq şairi Ramiz Rövşən də İsi Məlikzadəni böyük sayğı və sevgiylə yad edir: "Bu gün 73 yaşından baxanda İsinin cəmi 61 illik ömrü mənə çox qısa, hətta yarımçıq kimi görünsə də, onu təkcə kədərlə yox, həm də təbəssümlə xatırlayıram. Şairlik Allah vergisidir deyirlər, məncə, bu, yazıçılığa da aiddir. İsi anadan yazıçı doğulanlardan idi. İsi qədər incə yumoru, ironiyası olan adama çətin rast gələrdin. O, hətta heç nə yazmasaydı da, onun söhbətlərini, danışıqlarını yığıb bir kitab eləsəydik, o kitab əllərdən düşməzdi. Heyf ki, o söhbətləri nə özü yazdı, nə də dostları. Amma xoşbəxtlikdən İsi özünün gözəl povestlərini, hekayələrini yazdı. Onun ədəbiyyata gəldiyi 60-cı illər ədəbiyyatımızda, mədəniyyətimizdə bir oyanma, canlanma, təzələnmə dövrü idi. Şeirdə də, nəsrdə də bir-birindən parlaq, yeni-yeni imzalar peyda olur, "xırda-xırda zəlzələlər baş verirdi". O parıltının, gurultunun fonunda İsinin ədəbiyyata gəlişi nisbətən sakit, hay-küysüz oldu. Təxminən 30 ildən sonra - 1990-cı illərin ortalarında ölkəmizdə siyasi təlatümlərin, çaxnaşmaların fonunda İsinin dünyadan getməyi də eləcə sakit, səs-küysüz oldu. Hətta onu sevən oxucuların bir çoxu bəlkə bu itkidən heç xəbər də tutmadı. Amma bu gün İsi Məlikzadənin hər bir üslubçuluqdan, əllaməçilikdən uzaq, həyat kimi təbii və iddiasız, insana sevgi və rəhm dolu əsərlərini oxuyanda bu əsərlərin indi doğma Ağcabədi torpağında uyuyan müəllifinin necə xoşbəxt bir yazıçı taleyinə sahib olduğunu bir daha təsdiqləyirsən".

Sonrakı ədəbi nəsillərin nümayəndələri də İsi Məlikzadə yaradıcılığına yüksək qiymət veriblər. Yazıçı Fəxri Uğurlunun da onun haqqında düşüncələri diqqət çəkir: "Onun təhkiyəsi ənənəvidir, bəzi nəsildaşları, məsələn, Anar, Elçin, Yusif Səmədoğlu kimi fantasik, fantasmaqorik, irreal süjetlərə əl atmayıb, ancaq onun realizmini mahiyyətcə fantastik realizm də adlandırmaq olar, çünki bu realizm səthi deyil, onun əsərlərində ob-

razların davranışları, situasiyalar, novellaya xas sərt, kəskin dönüşlər insan qəlbinin ən dərin, dəruni tərpənişlərinin işığında təsvir olunur. Adətən, yazıçılar qeyri-real, fantastik süjetlərə, fantasmaqoriyaya obrazların varlığını, situasiyaların kəskinliyini parlaq, aydın şəkildə təsvir eləyə bilmək üçün əl atırlar. İsi Məlikzadənin bu kimi metodlara ehtiyacı olmayıb, o, adi reallığın özünü fantastika səviyyəsinə qaldıra bilib.

Yazıçının dili, üslubu da doğulub-böyüdüyü Ağcabədi torpağının, Aran Qarabağın stixiyasından yoğrulub. Bu üslub sanki uca dağlardan enib gəlmiş yorğun Kürün aran düzlərində ağır-ağır, fikirli-fikirli, həm də arxayın-arxayın axışından yaranıb.

İsi Məlikzadə qəhrəmanlarını sərhəd situasiyasında - ya o, ya bu vəziyyətində saxlamağı sevir. Onların əsəblərini gərginliyin pik həddinə qədər gərir, sanki obrazı sınayır, onun bəlli situasiyada özünü necə aparacağını bilmək istəyir - eynən ata övladını alışmadığı bir işə buyurub, yaxud tanımadığı bir mühitə salıb onun özünü nə cür aparacağını bilmək istədiyi kimi. Sonra isə eynən bir ata şəfqətiylə əl atıb obrazı düşdüyü "zibillikdən" çıxarır, onu təbəssümlə yenidən adi, dinc həyatın axarına qaytarır. Bu baxımdan onu tragikomik situasiyaların ustası da saymaq olar. Sələfi Əbdürrəhim bəylə bu məsələdə çox səsləşir".

Mən bu kitabın hazırlanması prosesində fərqli duyğular keçirdim. Təkcə gözəl yazıçımız İsi Məlikzadəni xatırlamadım, həm də keçən illərə, zamana, dövrə qayıtdım, hüzn və kədərlə ötən onillərə boylandım. İşin ən xoş və sevindirici tərəfi isə görkəmli yazıçımız İsi Məlikzadə yaradıcılığı ilə ilk dəfə tanış olacaq oxucuların keçirəcəkləri gözəl hissləri öncədən təsəvvür etməyim idi.

10.10.2019

70 yaşlı cavan

Qulu Məhərrəmlini əvvəl uzaqdan-uzağa, televiziya ekranlarından tanımışam. Az qala, gözümü açandan onu AzTV-də veriliş aparan görmüşdüm. Sonra tale elə gətirdi ki, 1998-ci ilin yayında Amerika Birləşmiş Ştatlarının media mühiti ilə tanış olmaq üçün Azərbaycanı təmsil edən jurnalist qrupunun tərkibində Qulu müəllimlə bu ölkəyə səfərə gedəsi olduq. Deyir, adamı yolda, səfərdə tanıyarlar – o mənada ki, insanı həqiqətən tanımaq üçün onunla yol yoldaşl olmaq kifayət edir.

Səfərlərdə çox olmuşam, amma Qulu müəllim kimi yol yoldaşı rastıma çox az çıxıb. Mübaliğəsiz, onun kimi rahat, ünsiyyətcil müsahib tapmaq çətindir. Kəşf olunmuş yeni qitədə - Amerikada Qulu müəllimi insan, yol yoldaşı, dost, jurnalist, alim, politoloq kimi, sözün əsl mənasında, mən də yenidən kəşf etmişdim.

Ünsiyyətcildir, pozitivdir, enerjilidir - onunla darıxmaq mümkün deyil. Hər şeyin yerini bilən, məlumatlı, intuisiyalı, açıq dünyagörüşlü, həqiqət hesab etdiyi fikirləri deməkdən çəkinməyən, tərifin də, tənqidin də sərhədlərini dəqiq bilən insandır. Çərçivələrə sığmır, özü üçün bir çərçivə müəyyənləşdirib və daxilindən gələn sərt intizamla bu prinsiplərə bütünlüklə əməl edir. Amerikada səfərdə olanda müşahidə etmişdim, hər gün, xüsusən axşamlar piyada gəzir, yatmazdan qabaq alma yeyir, sutkada ən azı iki saat radiomuzun tarixi və problemləri ilə bağlı yazdığı "Radio dalğalarında" kitabı üzərində işləyirdi. Bu yandan da səfərin zəngin, yüklü qrafikini pozmur, yorulmur, getdiyimiz şəhərlərdə fərqli adamlarla görüşlərindən qalmırdı. Ən başlıcası, Qulu müəllim bunların hamısının öhdəsindən gəlməyi bacarırdı.

Deyəsən, elə həmin Amerika səfərindəcə onu kiçik qrupumuza "Ağsaqqal", "Rəhbər" seçmişdik və bu seçim imkan verirdi ki, sonralar - hətta ən fərqli görüşlərdə belə - "Ağsaqqal, buyur" deyib Qulu müəllimi qabağa verək...

Çox keçmədi, jurnalist cameəsində, xüsusən, yaxın dostlar arasında Qulu müəllimin "Rəhbər", "Ağsaqqal" adı məşhurlaşdı. Hələ elmlər doktoru, professor adı almazdan biz onun "Ağsaqqal" titulunu legitimləşdirmişdik.

Qulu müəllimlə sonralar da bir çox səfərlərdə yoldaşlıq etmişik və bu səfərlərdə də yaddaqalan, unudulmayacaq xeyli hadisələr var: onunla Küveytdə, Türkiyənin müxtəlif əyalətlərində dəfələrlə birlikdə olmuşuq. Ərəbistanın istisini, Qarsın qarını görmüşük, amma o, heç zaman öz qrafikinə xilaf çıxmayıb - yazmağına da, gəzməyinə də, hətta meyvə yeməyinə də. Ən müxtəlif auditoriyalarda onu müşahidə eləmək imkanım olub - hər dəfə "Ağsaqqal"ın ciddiyyətinin, şuxluğunun həmişə qədərində və əndazəsində olduğunu görmüşəm.

Amerika səfərimizin ilk günlərdən məndə bir əminlik yaranmışdı - ən fərqli adamlarla ünsiyyət qurmaq, ən müxtəlif mövzularda danışmaq Qulu müəllim üçün qətiyyən çətin olmayacaq. Yanılmadım: "Nyu-York tayms" qəzetinin siyasi icmalçılarının suallarını cavablandıranda da, "FOX" televiziyasının prodüserləri ilə müasir TV-nin problemləri barədə polemikalarda da, Dövlət Departamentində Azərbaycanın xarici siyasətindən bəhs edəndə də, Söz Azadlığını Müdafiə komitəsində mətbuatımızın gerçək mənzərəsindən danışanda da, Qocalar evinin ahıl sakinlərini maraqlandıran ən qəribə suallara hövsələ ilə aydınlıq gətirəndə də, böyük qarğıdalı sahəsini gəzib fermerlə həmsöhbət olanda da Qulu Məhərrəmli təcrübəsi, zəngin bilgisi və məlumat əhatəliliyi sayəsində tərəf müqabillərinin diqqətini üzərində cəmləşdirməyi məharətlə bacarırdı. Onu kənardan seyr

etdikcə mətbuatımızda belə səviyyəli, yetkin, sanballı bir insanın varlığı qəlbən məmnunluq və rahatlıq yaradırdı.

1998-ci ildən başlayan münasibətimiz, dostluğumuz, odur-budur, bugünəcən davam edir. Okeanın o tayında - Amerikada 23 gün səhərdən axşamacan bir yerdə olmaq bəlkə də, vətəndəki neçə illik birliyi, neçə illik ünsiyyəti, söhbətləri əvəz eləmişdi. Amerikaya yoldaş, həmkar kimi getdiyimiz səfərdən min ilin dostu kimi qayıtmışdıq. Və əmin idim ki, bu dostluq ömürlükdür...

İndi fikir verib görürəm ki, Qulu müəllimin xarakteri, insani keyfiyyətləri, jurnalistikamızdakı rolu barədə fikirlərim ildən-ilə dərinləşir, cilalanır, yaş üstünə yaş gəldikcə onunla bağlı qənaətlərim daha da möhkəmlənir. Qulu müəllim dinamikliyi, çevikliyi hadisələrə obyektiv münasibəti ilə həmişə seçilib. Bu gün mən Qulu müəllimi ən müxtəlif tədbirlərdə görəndə, digər müsbət təəssüratlarımla bərabər, onun bu qədər tədbirlərdə iştiraka necə vaxt çatdıra bildiyinə də təəccüblənirəm.

...1999-cu ildə Bakı Mətbuat Klubunda ("Press-klub") Qulu müəllimin 45 yaşını xudmani bir məclislə qeyd etməyimizi xatırlayıram. O vaxt mənə bu 45 yaş elə uzaq gəlirdi ki... Məndən 10 yaş böyük olan Qulu müəllimin nikbinliyi, şuxluğu və enerjisi həmişə pozitiv impulslar verir. O mənim üçün nikbinlik və şuxluq nümunəsidir. Yadımdadır, elə həmin il – 1999-cu ildə Qazaxa seminara gedirdik, yolboyu 45 yaşlı "Ağsaqqal"ın sürücülük səriştəsini, çevikliyini, iti yumorunu müşahidə etdikcə özümün 10 il sonrakı halımı düşünüb xeyli nikbinləşirdim. Onun pozitivliyi qarşıdan gələn yaşların vahiməsini silib aparırdı. O, son dərəcə ciddi auditoriyalarda da, Damcılı bulaqda açıq havada keçirilən sərbəst tədbirlərdə də, rahat danışa bildiyi "dost məclis"lərində də ovqatını mühitə uyğulaşdıra bilir, ətrafındakıları darıxmağa qoymurdu.

Bir neçə il sonra - Qulu müəllimin 50 illik yubileyində "Ustad jurnalist" adlı belə bir təbrik yazmışdım: "Okeanın o tayına səfər zamanı mən təkcə ABŞ-ı yox, həm də ustad jurnalist Qulu Məhərrəmlini kəşf etdim. Həmin səfər mənə həm ABŞ demokratiyasını, bu ölkədəki qeyri-adilikləri, həm də Qulu Məhərrəmli kimi bir şəxsiyyəti, insanı və jurnalisti yaxından tanımaq imkanı verdi. Qulu Məhərrəmli ilə birgə sonralar da səfərdə olmuşuq, bir yerdə Kiprə, Gürcüstana və başqa ölkələrə getmişik. Həmin səfərlər zamanı müxtəlif müzakirələrdə Qulu müəllimin sanballı, ölçülü-biçili çıxışlarının, məqamında atdığı atmacaların, verdiyi məntiqli cavabların çox şahidi olmuşam. Qulu müəllim hər cəhətdən etibar ediləsi insandır. Onun elə müsbət keyfiyyətləri var ki, indiki dövrdə belə keyfiyyətlərə çox az-az adamlarda rast gəlmək olur. Bu mənada Qulu müəllim onu tanıyanlar üçün qənimət adamdır..."

Qulu Məhərrəmlinin ustad müəllimlərimizə, ağsaqqallara, keçmişimizə sayğısı məni həmişə təsirləndirib, düşündürüb. Həyatda ona yaxşılığı dəymiş bir kimsəni, xüsusilə müəllimlərini heç zaman unutmur. Düşünürəm ki, Qulu müəllim bu mənada da özündən sonrakı nəslə nümunədir. Onun ustadımız professor Şirməmməd Hüseynovla münasibətləri xüsusilə yadımdadır. Xatırlayıram ki, Şirməmməd Hüseynovla birlikdə getdiyi tədbirlərdə cavan həmkarı kimi onu necə diqqətdə saxlayır və qayğısına qalırdı.

Qulu müəllim dəyərlərə həssas yanaşan, ehtiram göstərən adamdır, dostluqda etibarlıdır. Dost məclislərində onun Xalq şairi Ramiz Rövşənlə, akademik Rafiq Əliyevlə səmimi, dost münasibətləri həmişə diqqətimi çəkib. Eyni zamanda, o, Elçin Şıxlı, Arif Əliyev, Rafiq İsmayılovla bir yerdə olduqları məclislərdə də özünəməxsus və orijinaldır. Ədəbiyyat, mədəniyyət, mətbuatla bağlı məsələlərdə isə onun öz yeri, öz sanbalı, öz çəkisi var.

Qulu müəllim bir çox məziyyətləri ilə bir örnəkdir. O, jurnalistika sahəsində yeni texnologiyalarla bağlı bəzən elə fikirlər səsləndirir ki, belə fərqli, kreativ yanaşmanı heç bir çox gənclərdə də görmək olmur. Beyni itidir, mütəhərrikdir - hadisələrə innovativ yanaşır, obyektiv və zamanına uyğun münasibət bildirir.

Qulu Məhərrəmli mediamızla, dilimizin qorunmasıyla bağlı araşdırmalarını, bu gün də davam elətdirir, yenə də hərəkətli, dinamik və işgüzardır. O həm də yaxşı pedaqoqdur, tələbələrin sevimlisidir. Tələbələri ona ehtiram da göstərirlər, ərk də edirlər. Hərdən hansısa uyğun olmayan verilişə çıxanda, yaxud xoşlamadıqları adamların çevrəsində görəndə hətta istəkli müəllimlərini qınayırlar da. Təbii ki, tələbələrin belə demokratik, səmimi və ərkyana tövrü Qulu müəlliminin pozitiv ruhi enerjisindən qaynaqlanır.

Sözün açığı, heç inanmaq olmur ki, Qulu Məhərrəmli 70 yaşını tamamlayır. 20 il əvvəl, hələ 50 illik yubileyi ərəfəsində onun haqqında yazdığım yazının hər bir cümlənin altına bu gün də imza atmağa hazıram. O yazıda qeyd etmişdim ki, Qulu Məhərrəmliyə bu yaşı vermək çox çətindir, çünki ruhən çox cavandır. Sevinirəm ki, bu fikirlərim Qulu müəllimin 70 yaşı ərəfəsində də öz qüvvəsində qalır. Bütün varlığı, xarakteri və həyata bağlılığı ilə mən Qulu müəllimi indi də cavan oğlan hesab edirəm. Düşünürəm ki, o, indi - 70 yaşında da əvvəki kimi gənc, fəal, yeni ideyalarla zəngindir. Peşəkar jurnalist, televiziya tənqidçisi, publisist, filologiya elmləri doktoru, BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının professoru Qulu Məhərrəmli 70 yaşına dopdolu bir ömür yaşayaraq gəlib çıxıb. Bu illər ərzində o, Azərbaycanın teleefir məkanında "7 gün", "Təfsilat", "Səhər", "Dost məclisi", "Gündəm", "Mətbuat aynasında" kimi baxımlı layihələrin baş redaktoru, müəllifi,

aparıcısı olub. 30-dan çox kitabın, o cümlədən bir neçə monoqrafiya, populyar dərslik və dərs vəsaitlərinin, izahlı lüğətlərin, həmçinin müxtəlif mövzularda 20-yə yaxın sənədli televiziya filminin ssenari müəllifi, AZLEKS elektron lüğətlər toplusunun baş redaktorudur və bunların hamısı bol enerjinin, yüksək əzmkarlığın nəticəsidir. Arzum budur ki, Azərbaycan jurnalistikası Qulu müəllimin bu enerjisindən bundan sonra da bəhrələnsin, onun zəngin təcrübəsindən öyrənsin.

Əziz dostumuzu, hörmətli həmkarımızı, yeni nəsil jurnalistlərin müəllimini 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, inanıram ki, Qulu müəllim öz işgüzar fəaliyyəti ilə bundan sonra da uzun illər doğma dilimizə və mətbuatımıza öz töhfələrini verəcək.

02.11.2024

Gecikmiş Ağoğlan bələdçiliyim

Gündüz İsmayılovla Mirmehdi Ağaoğlunun ziyarətinə sözardı

Ağoğlana – mənim doğulduğum, üç tərəfindən çaylar axan kəndə qədər getmisiniz. Böyük çayı – gah Minkənd, gah Ağoğlan dediyimiz çayı necə keçdiniz? Maşın körpüsü vardımı?

Mən videoyazısını görəndə Ağoğlan çayını şırıltısından tanımışdım. Adamın ruhunu bu qədər oxşayan ayrı çay şırıltısını sonralar çox axtarsam da, heç yerdə eşitmədim.

Ağoğlan məbədinin mistik aurasını hiss etdiniz, yəqin. Uşaqlığımda o məbədin divarlarına, içərisindəki və çölündəki qədim daşların naxışlarına saatlarla tamaşa eləmişəm. O keçmişə, qədimliyə aparan ovqat, bir vaxtlar o daşlardan aldığım enerji hələ də ruhumda, canımdadır.

Kəndə niyə girməmisiniz, bilmirəm...

Ağoğlan məbədindən balaca Hacılar çayı səmtinə düşsəydiniz, oradakı bulağı görəcəkdiniz: kəndin qız-gəlinləri o bulaqdan su gətirərdilər.

Çayın içindən qabarıb çıxan sal daşlara ayaq qoyub adlasaydınız, Umudun, Əhlimanın çəpərləri arasından daşlı-çınqıllı yola çıxardınız. Bax o yolla kəndə qalxaydınız gərək. Sol tərəf hündür qayaya çıxır. Kənd camaatı ora Yal deyərdi. Orda sal daşların üstündə oturub sola baxanda Qarıqışlaq-Minkənd yolu, aşağı baxanda qıvqrıla-qıvrıla axan Ağoğlan çayı, dərin dərələr, Sultanlar, Malıbəy kəndləri görünür. Minkənd-Ağoğlan çayı bir az aşağıda – Gündüzün doğulduğu Zabuxda qıvrılıb Həkəriyə qovuşur, adı da Həkəriyə çevrilir. Dayanıb saatlarla xəyala dalmaq olar o dikdə. Açılan geniş ənginlik adamın içini duruldur,

saflaşdırır. Orada, 1983-cü ildə Famil in kənd barədə kədərli monoloqunu hekayəyə çevirmişdim, adı "Cənnət dərəsi" idi.

Yala qalxmayıb sağa dönsəydiniz, solda Musa müəllimin, sağda Qaçay müəllimin evini, bağını, həyətini görəcəkdiniz. Görsəydiniz, deyərdiniz, nə qalıb oralardan...

Mirmehdi reportaj hazırlayardı, APA-nın operatoru videogörüntülər çəkərdi. Bir az da düz getsəniz, Aralığa – kəndin düz ortasına çıxardınız. Oradan bir az sağa burulanda sol həyət Halay babamın, Balaxanım nənəmin eviydi. Mən 1964-ün avqust ayında o evdə doğulmuşam. Sonra hələ qırxı çıxmamış körpəni sentyabrın istisində Ağcabədiyə gətiriblər...

O həyətə girsəydiniz, yəqin doğulduğum evin uçuq-sökük divarlarını görəcəkdiniz. Həyətdəki yekə tut, gilas, alma ağacları, bəlkə də, qalmamış olmaz. O ağacların kölgəsində yerə xalça-palaz salıb, üstünə mütəkkə, döşək atıb dincələr, oynayardıq. O uca gilas ağaclarına dırmaşmağımız, qollu-budaqlı o tut ağaclarının budaqlarını gücümüz yetdiyincə silkələməyimiz indi də yadımdadır, dolu, gur yaşış kimi karxanaya tökülən tutların səsi hələ də qulaqlarımdadır.

Oradan yuxarı qalxsaydınız, Taxtaya çıxardınız – Zakirin dükanı, kəndin klubu, kitabxanası vardı orda. İndi uçuqları qalar, yəqin. Yuxarı kəndlərdən ermənilər atla-ulaqla hərdən un almağa, alış-verişə gələr, Taxtadan "Zaakir, huuy" deyib onu dükana çığırardılar. Yay aylarında kinonu klubda yox, Taxtada, açıq havada göstərərdilər; yük maşınının yan tərəfinə ağ parça salardılar, kinomexanik Nizami hər dəfə lentləri dəyişəndə evdən gətirdikləri stulların, kötüklərin, döşəkcə qoyub daşların üstündə oturan kənd adamları filmi öz baxışlarıyla təhlil edər, növbəti hissələrin proqnozunu verərdilər. Yay ayları o kitabxananın kitablarını su kimi içərdim.

Məktəbin direktoru, tarixçi Musa müəllimin Ağoğlana gələn ermənilərlə sərt, kəskin söhbətləri yadıma düşür. Davaya

çevrilərdi çox vaxt o söhbətlərin axırı. Ağoğlan məbədinə ətraf kəndlərdən bizimkilər də gələr, qurban deyər, şam yandırar, oranı müqəddəs sayardılar. Musa müəllimin ermənilərin Ağoğlan üçün düzəldib gətirdikləri qapını məbədə yaxın buraxmaması, qapını ora qoymağa icazə verməməsi, qədim daşları çıxarıb aparmalarına mane olması ermənilərə bərk yer eləmişdi. Onlar da acıqlarını Ağoğlan camaatının atlarını kəndləri səmtdəki qayadan uçurmaqla çıxmışdılar.

Xırman yerinin böyründən adlayan yol Oqtayla Rəcəbin evləri arasından Yuxarı Kosalar çayına düşüb, qəbiristanlığın yanından dik qalxaraq dağın başında Ermənistan ərazisinə girərdi. Oradakı qədim türk kəndlərindən – Xənəzək, Bayandur, Xoznavardan keçib Məscid düzündən İşıqlı dağının ətəyinə qalxardıq. İşıqlının zümrüd qaşı kimi qoynunda saxladığı dupduru Qara göl orada idi. Ermənilər bu gölü də mənimsəmişdilər, suyunu çəkib bağlarını suvarır, balığını tutub Gorusdakı mağazalarda satırdılar. Qara gölün Azərbaycan ərasizi olmasıyla bağlı Moskvaya gedib çıxan, "İzvestiya" qəzetində məqalə çap etdirən qarıqışlaqlı kənd müəlliminin – Çingiz Mehrəliyevin fədakarlığından, haqlı mübarizəsindən 1987-ci ildə "Elm və həyat" jurnalında dərc etdirdiyim "Qara göl, yoxsa Sevlic?" adlı yazımda danışmışdım.

İşıqlının o üzündən – Əhmədlidən, Minkənddən də keçib Ağoğlana gəlmək olurdu.

Bilmirəm, siz niyə o kəndə girmədiniz?

Bəlkə heç kənd yerində yoxuymuş?

Haçansa o yerdə kənd olduğu bəlkə heç bilinmirmiş?

Bir yandan, sizi də qınamalı deyil. Getdiyinizi bilməmişəm, bilsəydim ya sizə qoşular, ya da bunları əvvəldən deyib, vaxtında bələdçilik edərdim.

Amma yenə də maraqlıdır: orayacan ki getmişdiniz, kəndə niyə girmədiniz, axı?..

10.02.2021

Qorxu

Dünən Ağdama üzürlü səbəbdən gedə bilmədim.

Amma...

Həm də...

Düzü, Ağdama getməyə qorxuram!

Ağdamın indiki vəziyyətini canlı görməyə qorxuram.

Dünən oğlum Mirhacib getmişdi. Ona dedim, Ətyeməzlini keçib şəhərə girəndə sağda xəstəxananın, Doğum evinin binası var, bəlkə, uçuqları qalıb, sən 1987-nin avqustunda orda doğulmusan. Onda ”Kimsən ey, doğulan” şeirimi yazmışdım. Qayıdanda soruşdum, dedi ki, indi nə o xəstəxanadan, nə də şəhər boyu uzanan bağlardan, hündür ağaclardan əsər-əlamət qalıb.

Ağdam deyəndə gözümün önünə ötən əsrin 70-ci, 80-ci illərinin Ağdamı gəlir. Hərdən xəyalımda da gəzirəm: 1 nömrəli məktəbdən çıxıb bazarın önüylə gedib, tində – aptekin yanından sağa dönürəm, Nadirin “Dijurnu mağaza”sını keçib, Tağının kitab mağazasına dəyib ya 10 yaşımacan yaşadığımız Dördmərtəbənin qabağıyla Musavi küçəsindən, südsatan Lətafət xalanın budkasının tinindən Lenin bağına burulub, Çay evinin, məscidin üstünə çıxıram, üzü yuxarı Şuşa yoluyla Fərhadın heykəlinə, Dram teatra sarı addımlayıram, ya da Üzümçülər sarayının yanından keçib məşhur Fazil Qasımovun – Kino Fazilin direktoru olduğu “Dostluq” kinoteatrına tərəf gedirəm, Zeynalın çayxanasında çay içirəm.

Ya da ki, qayıdıb 5 il tar dərsinə getdiyim, Laura müəllimənin musiqi məktəbi tərəfdən gəlirəm, Voroşilov küçəsinin tinindən Milis idarəsinə doğru. Palıd ağaclarının meh əsdirən yarpaqlarından qopan pıçıltı “Pionerlər evin”dən gələn tar-kaman

səslərində əriyib itir, məşhur "Qarabağ bülbülləri"nin Murad Rzayevin rəhbərliyiylə növbəti məşqinin sədalarını eşidirəm. Vahidgilin evinə tərəf, Köhnə hamam məhləsinə dönürəm. Onda bilmirdim ki, bu hamamı da Natəvan tikdiribmiş. Dünən Vilayət Quliyevin statusunda oxuyub bildim.

Əli İbrahimov, döngə 1, ev 19-a – evimizə tərəf gedirəm.

Vahidi görürəm, evlərinin pəncərəsində baxır, 30 il sonra yazacağı "Ruhlar şəhəri" kitabınımı düşünür? Ayırmıram onu xəyallarından, eləcə əl edib keçirəm...

Noyabrın 20-də bizim əsgərlər Ağdama girib, Cümə məscidindən ilk videonu paylaşanda sarsılmışdım: hanı bəs Çay evi, hanı Dördmərtəbə, hanı 1 nömrəli məktəb?

Qəzəbimi belə ifadə etmişdim:

"Allah heç kimə, heç bir xalqa belə namərd düşmən qismət eləməsin! Vəhşi millət, sənինlə necə yanaşı yaşamaq olar? Niyə bizim şəhərlərimizi bugünə qoymusan? Etdiklərinin beşqat artığına layiqsən!.."

İndi mən qorxuram!

Gedib Ağdamın xarabalıqlarını görsəm, xatirələrimin uçub dağılacağından qorxuram!

Bir də xəyalən Ağdamın küçələrini gəzə bilməyəcəyimdən qorxuram!..

15.03.2021

Şuşa havasının əritdiyi nisgil

***Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın ideya müəllifliyi, Birliyin təşəbbüsü ilə 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı möhtəşəm qələbəyə həsr olunmuş "Qarabağ dastanı, otuz ilin həsrəti – 44 günün zəfəri" adlı kitaba yazılmış* ön söz...**

***

27 sentyabr 2020-ci il Azərbaycan xalqının tarixində unudulmaz günlərdən birinə çevrildi. Nəhayət, 30 illik torpaq həsrətimizə son qoyan Vətən müharibəsi başlandı və Azərbaycan düşmənin, onun havadarlarının qarşısına qətiyyətli Ali Baş Komandanı və rəşadətli Ordusu ilə çıxdı.

Elə həmin gün Azərbaycan Prezidenti cənab İlham Əliyev xalqa müharibə dövründə ənənə halına çevriləcək möhtəşəm müraciətlərindən birincisini ünvanladı. O, inamlı və qətiyyətli çıxışı ilə Ermənistan Ordusunun təcavüzkar həmlələrinə qarşılıq olaraq, Azərbaycan Ordusunun əks-hücum əməliyyatına başladığını və bu əməliyyatın Qarabağın azadlığı ilə nəticələnəcəyinə inandığını bildirdi. Həmin gün ilk həmlədə rəşadətli ordumuz tərəfindən kəndlərimizin azad olunması bu inamı daha da gücləndirdi, xalqın bir yumruq ətrafında birləşməsinə yol açdı.

Oktyabrın 4-də Cəbrayıl şəhərinin işğaldan azad olunması münasibətilə xalqa müraciətində biz Azərbaycan rəhbərinin məğrur, müzəffər və qətiyyətli Ali Baş Komandan olduğunu bir daha gördük və buna ürəkdən, bütün varlığımızla inandıq. O: "Bizim müqəddəs şəhərimizi murdarlayırlar", – deyə Şuşa

haqqında sonsuz səmimiyyət və hərarətlə danışır, Cəbrayılın işğaldan azad olunmasını böyük fəxrlə bəyan edirdi.

Ali Baş Komandanın "Bizim işimiz haqq işidir, biz qalib gələcəyik" sözləri isə həmin o ilahi ədalətin təcəlli etdiyini, o müqəddəs anın artıq gəlib çatdığını göstərirdi. Prezident İlham Əliyevin ən yaxın silahdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın elə o ərəfədə sosial şəbəkələrdə paylaşdığı "Qoy uca Tanrı hər bir Azərbaycan vətəndaşına müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin" sözləri isə Azərbaycan xalqında torpaqlarımızın işğaldan tamamilə azad olunacağına, üçrəngli bayrağımızın Şuşada dalğalanacağına sonsuz əminlik yaratdı. Əsgər və zabitlərimizin, ümumən ordumuzun, insanlarımızın böyük ruh yüksəkliyi də bundan xəbər verirdi. Azərbaycan Prezidenti hər çıxışı ilə həm xalqı qələbəyə ruhlandırır, həm də uzun illərdən bəri informasiya savaşında üzləşdiyimiz bütün sədd və baryerləri öz dəmir məntiqi ilə vurub dağıdır, savaş meydanında hər gün irəliləyən şanlı ordunun Ali Baş Komandanı, siyasət meydanında güclü təzyiqlərə sinə gərən, qüdrətli dövlət xadimi kimi davamlı olaraq zəfər tariximizin parlaq səhifələrini yazırdı.

Şəhər və kəndlərimiz bir-birinin ardınca azad olunduqca xalqa müraciətləri ilə insanları dərindən təsirləndirən, əksəriyyəti kövrəldən Prezident İlham Əliyevin leksikonu, danışıq üslubu, ürəkdən tikan çıxaran sözləri hər birimizin könlünü oxşayırdı. "Azərbaycan xalqının ləyaqəti bərpa olunur" deməklə xalqın qürurunu özünə qaytarır, "Şuşasız bizim işimiz yarımçıq qalar" sözləri ilə hər birimizin içindəki mübhəm, nisgilli arzunun həyata keçəcəyinə inamı daha da artırırdı.

Əlinizdə tutduğunuz bu kitabın ideyası Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anara məxsusdur. Anar müəllim İkinci Qarabağ müharibəsi günlərində öz fikir və duyğuları-

nı bildirmiş, Şuşa işğaldan azad olunanda "Gözün aydın, Şuşa!" adlı yazı da yazmışdı.

Anar müəllimin 1985-ci ildə "Ulduz" jurnalında çap olunan "Qarabağ şikəstəsi" adlı yazısı yaxşı yadımdadır və Qarabağ düşmən işğalında olduğu dövrlərdə mən dəfələrlə bu yazıdan sitat gətirmişəm: "Özüm də bilmirəm, Şuşanı niyə bu qədər sevirəm. Burda doğulmamışam, burda böyüməmişəm, əslim-nəslim bu şəhərdən deyil, qohum-əqrəbam burda yaşamır. Söz yox, vətənin hər qarışı, hər bucağı əzizdir, müqəddəsdir, amma Şuşa elə bir yerdir ki, imkanım olsaydı, bütün ömrümü burda keçirər və vəsiyyət də edərdim ki, öləndə məni burda basdırsınlar.

Şahanə bir vüqarı var Şuşanın. Elə bil, o, ömrümüzü bütün adiliklərdən, xırdaçılıqlardan təmizləyir, ayırır, içəri dünyamızı arıtlayır, duruldur, bizi gündəlik həyatımızın, tanış dünyamızın fövqünə qaldırır. Şuşanın ülviyyəti onun təkrarsız təbiətiylə, tarixiylə, taleyilə bağlıdır".

Anar müəllimin Şuşaya, Qarabağa münasibəti hər bir çıxışında, yazısında özünü göstərib. Eyni zamanda, Anar müəllim özü də vurğulayır ki, ən ali mükafat olan "Heydər Əliyev mükafatı"nı alanda da Şuşa haqqında danışmış, Şuşanın azadlığını arzulamış və Şuşa azad olunana qədər yaşamaq istədiyini demişdi.

Anar müəllim müharibə günlərində Qarabağdan olan yazıçıları, şairləri arayaraq təbrik etdi və arzuladı ki, onlar işğaldan azad olunan doğma yurdları haqqında yazılar yazsınlar. Bu kitabın da əsas mahiyyəti məhz o oldu ki, hər bir yazıçı uşaqlığının keçdiyi, yaddaşının ən gözəl yerlərinə həkk olunmuş doğma torpaqlar haqqında xatirələrini, duyğularını qələmə alsın. Nəticədə belə bir kitab yarandı.

Möhtəşəm qələbədən sonra yanvarın 14-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev ilk dəfə Şuşaya gedəndə Şuşa haqqında o gözəl və səmi-

mi sözləri səsləndirdi: “Biz dünən gecə Şuşada qalmağa qərar verdik, halbuki Bakıya qayıtmalı idik. Ancaq mən hesab etdim ki, mütləq gecə Şuşada qalmalıyıq. Çünki Azərbaycan Prezidenti ilk dəfədir ki, Şuşaya gəlib. Bizim müstəqilliyimizin təxminən otuz yaşı var. Ancaq bu otuz il ərzində birinci dəfə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Şuşaya gəlib, Şuşada qalıb və sözün düzü, Şuşadan getmək istəmir.

Şəhərin nadir memarlığı, relyefi, təbiəti, havası, aurası təkrarolunmazdır. Bir daha gördüm ki, bu şəhərin nadir aurası, təbiəti, memarlığı bizim böyük sərvətimizdir”.

Cənab Prezident martın 16-da – Novruz bayramı ərəfəsində ilaxır çərşənbəsi günü yenidən Şuşaya səfər etdi. Bu səfər zamanı Cıdır düzündən xalqa müraciət edən dövlət başçısı Şuşanın və azad edilən bütün torpaqların sürətlə bərpa olunacağını vurğuladı: “Şuşa bizim qədim şəhərimizdir. Erməni təbliğatı, saxta alimlər, fırıldaqçı siyasətçilər, beynəlxalq dairələr nə qədər desələr də, xeyri yoxdur, tarix var. Pənahəli xan Şuşanın təməlini qoydu, Şuşanı tikdi, qurdu. Biz isə Şuşanı əsarətdən çıxardıq və xalqımıza qaytardıq, dövlətimizə qaytardıq. Şuşa qədim Azərbaycan şəhəridir, həmişə belə olub. Son 28 il ərzində mənfur düşmən nə qədər çalışsa da, Şuşanın Azərbaycan ruhunu, Azərbaycan görkəmini dəyişdirə bilməyib.

Biz Şuşanı bərpa edəcəyik, mütləq bərpa edəcəyik. Biz nəinki Şuşanı, azad edilmiş bütün torpaqları bərpa edəcəyik”.

Bu sözlərdən sonra mən bir daha Anar müəllimin, digər yazıçılarımızın Şuşa haqqındakı fikirlərini xatırladım. Yadımdadır ki, özüm də 2013-cü ildə jurnalistlər üçün yaşayış binasının Prezident İlham Əliyevin də iştirak etdiyi açılış mərasimindəki çıxışım zamanı Anar müəllimin “Unudulmaz görüşlər” kitabından sitat gətirmiş və İlham Əliyevin hələ 1980-ci illərin əvvəllərində valideynlərilə birlikdə Şuşada, Cıdır düzündə olduğunu

qeyd etmişdim. Şübhəyə yer qoymayan bir əminliklə demişdim ki, biz inanırıq, Sizin Ali Baş Komandanlığınızla torpaqlarımız işğaldan azad ediləcək, Azərbaycan bayrağı Şuşada dalğalanacaq və bir gün Siz Azərbaycan yazarlarının əsərlərində nisgilli bir ah kimi keçən Cıdır düzünün həndəvərində yaradıcı insanlar üçün bir yaradıcılıq evinin təməlini qoyacaqsınız. Həqiqətən də, istər həmin vaxt, istərsə ondan sonrakı illərdə yaradıcı insanların içində bu möhtəşəm arzunun bir gün mütləq gerçəkləşəcəyinə sonsuz inam olub.

Fikrimcə, cənab Prezidentin Şuşaya hər iki səfərində söylədiyi o sözlər ciyərdolusu Şuşa havası almaq, eyni zamanda, illər boyunca bizim yazıçıların Şuşa haqqında dediyi sözlərin, Şuşa nisgilinin ən böyük və məntiqi yekunu idi.

Kitab Xalq yazıçısı Elçinin Şuşa haqqında təsirli essesiylə başlayır. Kövrək xatirələrlə zəngin bu yazıda 1982-ci ilin 14 yanvarında - həmin o qarlı qış günündə Ümummilli lider Heydər Əliyevin rəhbərliyilə Molla Pənah Vaqifin məqbərəsinin açılışı, orda baş verən hadisələr qələmə alınır. Elçin müəllimin güclü yaddaşı nəticəsində biz yenidən o günləri xatırlayır, tez-tez arxiv lentlərində gördüyümüz o anları sanki bir daha yaşayırıq. Eyni zamanda, Elçin müəllim həmin ilin 29 iyulunda ilk dəfə keçirilən, İlham Əliyevin də iştirak etdiyi Vaqif Poeziya Günlərini xatırlayır, Heydər Əliyevin bu Poeziya günlərinin ənənəvi şəkildə ardıcıl keçirilməsi haqqındakı qərarına da toxunur.

Elçin müəllim yazısında deyir: “Düzü, mən Şuşanın azad olunacağı günü görəcəyimə inamımı itirmişdim”. Bu etiraf mənə cənab Prezidentin çıxışlarının birində dediyi fikirləri xatırlatdı: “Mən son vaxtlar görürdüm ki, insanlar inamını itirir”. Fikrimcə, bu qalibiyyətlə cənab Prezident inamı itən və ya itməkdə olan insanların hamısına öz inamını geri qaytardı.

Bir neçə il öncə İncəsənət muzeyinin həyətində yerləşdirilən Xurşidbanu Natəvan, Üzeyir Hacıbəyli və Bülbülün heykəlləri... ətrafında ağrı dolu söhbətlər səngimək bilmirdi. Kimisi onların Şəhidlər xiyabanında nümayiş olunmasını təklif edir, kimisi Dənizkənarı parkda sərgilənməsini uyğun hesab edirdi. Amma dövlətimiz tərəfindən bu istiqamətdə heç bir addım atılmırdı. Nəhayət, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qələbədən sonra Şuşaya ilk səfərində – yanvarın 14-də həmin o "güllələnmiş heykəllər" də Şuşaya – öz doğma torpaqlarına qovuşdular.

Şuşaya qovuşan heykəllərin açılışında dövlət başçısı keçmişi xatırlatdı, bu abidələrin ətrafındakı söz-söhbətləri yada saldı. İllərdir ona da bu heykəllərin aqibətiylə bağlı çox sualların, təkliflərin verildiyini dedi: "Amma mənim bunlara tək cavabım vardı: "O heykəllər zamanı gələndə Şuşaya – öz yurduna geri dönəcəklər".

Bu, Ali Baş Komandanın Şuşaya qayıdacağımıza qəti inamının bir göstəricisiydi.

Xalq artisti Fərhad Bədəlbəylinin azad olunan Şuşaya səfəri zamanı söylədiyi "Bizi bağışla, Şuşa!" sözləri də adamı kövrəldir. Şuşa haqqında bu sözləri oxuyanda 1979-cu ildə 15 yaşımda Şuşanı, Cıdır düzünü gəzərkən keçirdiyim duyğuları xatırladım, o hisslərin ifadəsi kimi şeir yazmış, Şuşanı "tarixin möcüzə sərgisi" adlandırmışdım. Şuşaya ilahi məhəbbətim həmişə olub. 1985-1986-cı illərdə, gənc yaşlarımda mən də dinləyici kimi Vaqif Poeziya Günlərində iştirak etmiş, şairlərin coşğulu çıxışlarının şahidi olmuşdum. İndi də o çıxışlar yaxşı yadımdadır. Ən çox yadımda qalan və heç unutmadığım isə tanınmış şair-tərcüməçi Səyavuş Məmmədzadənin şeirini dinləməyim idi. Səyavuş Məmmədzadə, adətən, rusca yazırdı. Buna görə də onun Vaqif Poeziya Günlərində, məqbərənin qarşısında Azərbaycan dilində Şuşaya həsr etdiyi şeirini deməyini indiyəcən unuda bilmirəm. Şeirin ab-havası, sirli hüznü həmişə məni Şuşanın, Cıdır

düzünün sehrli aurasına qovuşdurur. 1986-cı ildən yaddaşıma ömürlük həkk olunan həmin şeirdə şair deyir:

Şuşadan yol getdim, yol getdim,
Dedilər, qal, getdim, qal, getdim,
Ürəyim dilə gəldi,
Dinmədim, lal getdim, lal getdim.

Elçin müəllim yazır ki, onsuz da Şuşaya bir dəfə gələndən sonra tez-tez gəlmək istəyəcəksən. Şuşanın bu sehri, hər kəsə təsir edən aurası sanki tilsimlidir. Prezident İlham Əliyev də Şuşaya hər iki səfərində səsləndirdiyi fikirlərində də məhz bu sehrli auranı ifadə edib.

Fikrimcə, yazıçılarımızın azad olunmuş Qarabağ haqqındakı bu təsirli yazıları çox lazımlı və vacib idi. Ona görə Anar müəllimin bu təşəbbüsü böyük razılıqla qarşılandı. Məsələn, Aqil Abbasın Ağdam, Seyran Səxavətin Füzuli, Elçin Hüseynbəylinin Cəbrayıl, Nəsiman Yaqublunun Zəngilan haqqında yazıları kövrək və doğma hisslərin ifadəsinə çevrildi.

Xalq şairi Ramiz Rövşənin müharibə günlərində dediyi "Azərbaycan əsgəri bizim ümidlərimizdən, arzularımızdan daha sürətli çıxdı" – sözləri hər kəsin diqqətini cəlb etmişdi. Onun Qubadlı haqqında yazdığı "Qapısız açarlar" essesi, doğrudan da, insanın duyğularına toxunur, qəlbini gizildədir. Bu yazıda erməni xisləti, tarixən ermənilərin etdiyi zülmlər, onun doğulduğu Qubadlı rayonuna qarşı düşmən təcavüzləri xatırlanır. Lakin bütün bunlarla yanaşı, "Qapısız açarlar" essesinin sonu ümid və inamla bitir: "Odur ki, bir vaxt dolu qoyub çıxdığımız, düşmənin soyub, talayıb, sonra da od vurub yandırdığı o doğma evlərin xarabalıqlarına baxanda, indi nəyəsə peşman olmağa, çox da kədərlənib qüssələnməyə ehtiyac yoxdu. O xarabalıqların

yerində təzə, daha gözəl evlər tikmək, o köhnə evlərin illər boyu göz bəbəyi kimi qoruyub saxladığımız, indi qapısız qalan açarlarını da o təzə evlərin ən görüntülü yerində, gözmuncuğu kimi divardan asmaq lazımdı. Qoy təzə evlərimizə göz dəyməsin!..”

Professor Şirindil Alışanlı “Su səltənəti Laçın” yazısında doğulduğu torpaq haqqında danışır və “Su səltənəti” ifadəsini də vaxtilə Xalq yazıçısı Anarın “Qarabağ şikəstəsi” əsərində Laçınla bağlı işlətdiyini xatırladır. Adil Cəmil, Jalə Əliyeva öz yazılarında Kəlbəcəri anır, əslən şuşalı, Şuşa tarixinin mahir bilicisi, tədqiqatçı-jurnalist Vasif Quliyev XVIII əsr “Qarabağ poeziya məktəbləri” adlı məqaləsində Qarabağ xanlıqları zamanında fəaliyyət göstərmiş poeziya mühitindən ətraflı və geniş şəkildə bəhs edir.

Eyni zamanda, bu kitabda hörmətli professor Vilayət Quliyevin “Qarabağ bədii ədəbiyyatımızda” yazısı, akademik, Xalq yazıçısı Kamal Abdullanın müharibə dövründə yazdığı essesi, Xalq yazıçısı Çingiz Abdullayevin vaxtilə qələmə aldığı qeydləri, Xalq şairi Sabir Rüstəmxanlının “Qarabağa dönüş” poeması, akademik Zemfira Səfərovanın “Şuşa Azərbaycanın musiqi qalasıdır” məqaləsi, yazıçı Mehriban Vəzirin Qarabağın məşhur qadınları - Ağabəyim Ağa, Gövhər Ağa, Xurşidbanu Natəvan, Həmidə xanım Cavanşir haqqında ətraflı və gözəl araşdırması, Günel Anarqızının “Ataya... Arzu...”, Pərvinin “Qarabağı vərəqləmək”, Əsəd Cahangirin “Səs” yazıları yer alıb.

Vaqif Bayatlının poetik ön sözüylə başlayan “Şeir çələngi” bölümündə tanınmış şairlərimizin Qarabağa, onun tarixinə və təbiətinə həsr olunmuş, bir-birindən xeyli zaman fərqiylə yazılmış şeirləri toplanıb. Bütün şeirlərin ruhuna Qarabağa ilahi bir sevgi hopub. Qarabağın işğalda olduğu illərdə yazılmış şeirlərdə məyusluq, kədər əks olunsa da, torpaqlarımıza dönəcəyimizə sonsuz ümid də bu əsərlərdən xali olmayıb. Uzaq illərdə

və qələbədən sonra yazılmış şeirlərdə də əks olunan ümumi bir mətn var: "Qarabağ Azərbaycandır!"

Bütün bu yazıların içərisində dərin Qarabağ sevgisi, bizim torpaq həsrətiylə keçirdiyimiz ağrılar, eləcə də 30 ildən sonra Ali Baş Komandanın qətiyyəti, ordumuzun gücü sayəsində torpaqlarımızın azadlığı ilə qürurumuzun bərpa olunması və bunun yaşatdığı sevinc öz əksini tapıb.

Kitabda, həmçinin, Azərbaycan-Türkiyə dostluğuna həsr olunmuş səhifələr də var. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın səmimi dostluğu, müqəddəs savaşımızda Türkiyənin ölkəmizə verdiyi dəstək, eləcə də həmin günlərdə Türkiyə yazıçılarının həmrəylik məktubları yer alıb.

Türk Mədəniyyəti və İrsi Fondunun rəhbəri Günay Əfəndiyevanın yazısında isə Türkiyənin və Türk Cümhuriyyətlərinin Azərbaycana verdikləri dəstək sadalanır.

Kitabın sonunda Xalq yazıçısı Anarın ötən əsrin səksəninci illərində yazdığı, yuxarıda xatırlatdığım, informasiya bolluğu ilə seçilən, təsir gücünü itirməyən, hər oxuduqda Şuşanı xatırladıb ürəyimizi gizildədən "Qarabağ şikəstəsi" yazısı, həmçinin, Xalq yazıçısının müxtəlif illərdə Qarabağ mövzusunda yazdığı sanballı məqalələr də yer alıb. Elə bilirəm, bu kitab Azərbaycan yazıçılarının Qarabağın azadlığına sevincinin ifadəsindən əlavə, bu qələbəyə dəyərli töhfəsi və Müzəffər Ali Baş Komandana, qalib Azərbaycan Ordusuna minnətdarlığının əksidir.

14.07.2021

“Zabuxdan keçirdik...”

Zabuxdan keçirdik.

– Ana, görə bildin?

– Evin üstünü, damını gördüm ancaq. Bəlkə, qayıdanda, geri qalxanda bir az çox görünər.

Bu il iyunun 14-də Laçına, doğulduğum Ağoğlan kəndinə getdiyim maşında yaxından tanıdığım ailənin – ana və oğulun dialoquydu bu.

Oğul maşını sürürdü. Ana isə qabaq oturacaqdan boylanıb 30 il görmədiyi doğma yerlərə baxırdı. Sülhməramlıların müşayiətiylə gedirdik deyə, dayanmağa icazə yox idi.

Ana ilə oğulun ilk baxışdan sakit, amma qəhər və həsrət dolu dialoqu hələ maşın Laçının vaxtilə “Poçt” deyilən ərazisinə qalxar-qalxmaz başlamışdı: Ora filankəsin eviydi... burda abidə vardı, dəyişiblər... dayıngilin evi görünür, odey odur...

Laçında kilsə tikiblər, Zabuxacan yol qırağına xaç işarəli daşlar düzüblər, hərdən qoyun otaran uşaqlar gözə dəyir.

Hələ o gün – iyunun 14-də Laçından keçəndə vitrinləri, qapı-pəncərələri sökülüb aparılan tikililərdən hiss olunurdu ki, “zorən qonaqlar” yol üstə, getmək ovqatındadır. İndi Zabux ətrafında haray-həşir qoparıblar, xaricilərin gəlib burada tikdikləri evlərdən çıxarılacaqlarına görə ah-nalə çəkirlər. Amma bütün bu yalançı ah-nalələr, haray-həşirlər maşından boylanıb öz evini – əlləri ilə daşını daş üstə qoyduğu yuvasını, övladlarını böyütdüyü doğma həyətini görmək istəyən o ananın keçirdiyi həyəcanın, neçə illərdən bəri ürəyində gəzdirdiyi nisgilin heç mində bir zərrəsi də deyil.

Zabuxda doğulub böyüyən, işğaldan sonra 30 il doğma yurd həsrətiylə yaşayan övladları yaşlı, təzyiqi, xəstəlikləri olan ananı məhz elə buna görə – bəlkə, maşından boylanıb uzaqdan da olsa evini, doğma kəndini gördü deyə özləriylə gətirmişdilər.

O vaxtlar Laçında uzaqbaşı 5-3 erməni ailəsi olardı, ya olmazdı, amma Zabuxda biri də yox idi. Zabux həm də əfsanələrlə dolu bir kənd olub. Deyirlər, Soltan bəy bu dərədə ermənilərin qarşısını kəsərək onları məhv edib.

…Axşamüstü geri qayıdanda ana yenə evlərinə sarı boylanırdı. Amma yenə də yaxşı görə bilmədi.

İnşallah, avqustun 25-dən sonra namərd qonaqlar çıxıb gedər, ana yenidən bu yerlərə gələr, salamat qalmış ev-eşiyini könül rahatlığı ilə görər, ürəyində qubar bağlamış neçə illərin nisgilini göz yaşları ilə əridib bitirər...

11.08.2022

P.S. Bu qeydlərdə dostumuz Gündüz İsmayılovun anası və qardaşından söhbət açılır. Bir müddət sonra Zabuxa ilk köçdə bu ailəyə də dövlətimiz ev verdi və onlar doğma kəndlərinə qayıdan ilk sakinlərdən oldular.

60 yaşa yazı hədiyyələri

İsa Həbibbəyli,
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik

Vətəndaşlıq və professionallıq nümunəsi

Müstəqillik dövrü Azərbaycan ədəbi-ictimai fikrinin tanınmış nümayəndələrindən biri olan Rəşad Məcid çoxcəhətli yaradıcılıq fəaliyyətinə malikdir. Bədii yaradıcılığın şeir və nəsr istiqamətlərində qələmini uğurla sınaqdan çıxaran Rəşad Məcid müasir publisistikanın da aparıcı simalarından biri kimi qəbul olunur. Fəaliyyət göstərdiyi təşkilati işlərdə və məşğul olduğu yaradıcılıq sahələrinin hər birində Rəşad Məcid əsl peşəkarlıq nümayiş etdirir.

Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinin tələbəsi olduğu illərdə "Elm və həyat" jurnalında korrektor kimi işə başlayan Rəşad Məcidin bütün həyatı ədəbiyyat və mətbuatla bağlı olmuşdur. Azərbaycan Yazıçılar Birliyinin Beynəlxalq Əlaqələr və Bədii Tərcümə Mərkəzində, "Ədalət" qəzetində, "Azərmətbuatyayımı" İstehsalat Birliyində keçdiyi yol onun üçün ədəbiyyat və mətbuat dünyasında genişmiqyaslı fəaliyyət üçün hazırlıq mərhələsi olmuşdur. Rəşad Məcidin 1992-ci ildə təsis etdiyi "525-ci qəzet" qısa müddətdə Azərbaycan mətbuatının ən aparıcı nümunələrindən biri səviyyəsinə çatdırılmışdır. Baş redaktor kimi "525-ci qəzet"in timsalında çoxprofilli müstəqil mətbuat orqanı yaradıb, onu uzun illər ərzində Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin mütaliə etdiyi və xitabət kürsüsünə çevirdiyi mükəmməl bir qəzet səviyyəsinə qaldır-

ması Rəşad Məcidin ölkə mətbuatının inkişaf etdirilməsi sahəsində mühüm xidmətidir. Rəşad Məcid 2004-cü ildən Azərbaycan Yazıçılar Birliyinin katibi, 2021-ci ildən isə Yazıçılar Birliyi Sədrinin müavini olaraq da ölkəmizdə yeni ədəbi nəsillərin formalaşdırılmasına, ədəbiyyatımızın azərbaycançılıq ruhunda inkişaf etdirilməsi işinə bacarıqla xidmət etməkdədir. Hazırda Rəşad Məcid Azərbaycan Mətbuat Şurasının sədri kimi məsuliyyətli bir sahədə yeni islahatlar həyata keçirir, mətbuat işinin inkişaf etdirilməsi yollarında var qüvvəsi ilə çalışmaqdadır.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri olan Rəşad Məcidin şeir yaradıcılığı dərin lirizmlə epik notların üzvi əlaqəsi əsasında yaranan əhəmiyyətli sənət hadisəsidir. Rəşad Məcidin 23 il əvvəl, 1993-cü ildə nəşr edilən ilk şeirlər toplusu olan "Hələ ki vaxt var" kitabındakı şeirlərində dərin bir lirizm müşahidə olunurdu. Bu şeirlər "vaxt var ikən şeir də yazım" - məntiqindən deyil, yazmaya bilməmək zərurətindən meydana çıxmış xalis lirika nümunələridir. "Hələ ki vaxt var" şeirlər kitabına yazdığı "On il əvvəlin toplusu" adlı müqəddimədə etiraf etməli olduğu kimi, artıq səksəninci illərdə, yəni 18-21 yaşlarında özünü, gələcək həyatını şeirdən, ədəbiyyatdan uzaqda düşünməyin mümkünsüzlüyünü dərindən hiss etmişdir. "Hələ ki vaxt var" kitabından görünür ki, Rəşad Məcid üçün şeir "bir dolu ürəyin püskürmə çağı"dır, "dikəlib asfaltı deşən bənövşə"dir, "sinədə boğmaq mümkün olmayan bir qəfil hönkürtü" kimi təbii proseslərin nəticəsində yaranmış bədii düşüncənin ifadəsidir. Rəşad Məcidin lirikası içərisində olduğu cəmiyyətlə və doğma təbiətlə birgə nəfəs alan bir qəlbin həyata şairanə şəkildə vurğunluğudur. Onun şeirlərində dünya da, Vətən də, ictimai motivlər də, milli duyğular da, sevgi də, təbiət də, tale də özünün təbii şeiriyyətini təqdim edir.

Rəşad Məcidin şeirləri təpədən-dırnağa qədər həyat və insan haqqında lirik düşüncələrdən yoğrulmuş daxili poetik monoloqdur. Bu şeirlər dünyadan, həyatdan və insandan danışan işıqlı və obrazlı düşüncələrdən yoğrulmuşdur. Bu mənada, Rəşad Məcidin lirikası müasir Azərbaycan şeirinin inkişafında fərqli hadisədir. Rəşad Məcid şeirlərində bütün hallarda, o cümlədən, lirik duyğularını ictimailəşdirəndə də obrazlı düşüncənin təbiiliyini və səmimiyyətini, lirizmi qoruyub saxlayır. Ona görədir ki, Rəşad Məcidin lirik qəhrəmanı da həmin işığın, milli-mənəvi varlığın real və təbii bir daşıyıcısıdır. Yol qırağında əlində çomağı ilə yurda keşik çəkən balaca çoban haqqındakı obrazlı düşüncələrinin ifadəsi və mövzunun ictimai mahiyyətinin orijinal poetik təqdimi ilə yalnız Rəşad Məcidə məxsus olan şeirin təbii doğuluşu baş vermişdir:

Tərpənən qanımız, qeyrətimizdir,
Balaca boyuyla heyrətimizdir.
Mürgüsü dağılan millətimizdir,
Orda - keşik çəkir yol qırağında,
Yurda keşik çəkir yol qırağında.

Rəşad Məcidin şeirlərində təkcə təbiətin deyil, milli-mənəvi dünyamızın daxili mahiyyəti, işıqları bütün təbiiliyi ilə sayrışır. Bu, Azərbaycan ədəbiyyatında zaman-zaman "Bakının sayrışan işıqlarından", "közərən ocaqlar"dan, yollara çıxan "işıq qatarlarından" sonra yaranmış yeni bir işıq dalğasının bədii ifadəsidir. Nüsrət Kəsəmənli, Ramiz Rövşən, Vaqif Bayatlı, Vaqif Bəhmənli, Rüstəm Behrudi, Elman Həbib və başqaları həmin yeni şeir axınına hərəsi bir hadisə olaraq gəlmişlər. Rəşad Məcidin şeirləri bu böyük dalğanın içərisində özünəməxsus bir poetik hadisədir. Rəşad Məcidin şeirləri - işıqlı düşüncələrin

şeiriyyətidir. Onun şeirləri Günəş, işıq, Ay işığı, ümid, ulduz, ocaq, pərvanə, şəfəq, şam, nur, od, alov, köz, kibrit, çiçək, təndir və sair kimi işıqlı ifadələrin cazibəsi üstündə qurulmuşdur. Bu şeirlər dəmirçi kürəsi, qızmar günəşin altındakı torpaq kimi istidir. "Gül-çiçəklər yaraşıqdı, lalələr xaldı eləcə", "Od-alov sazını basıb döşünə, Kərəm qisasını aldı Ədalət", "Bir alovdu yana-yana, Axdı cana, keçdi qana. Kül eləyib dağı-daşı Selləndi Yanıq Kərəmi", "Gün işığı", "Dərədə çən, düzdə günəş", "Bir işıqdan keçdim, anam, Gözlərimi dörd elədi. Ürəyimi ipək kimi, Sözlərimi sərt elədi" misralarında işıq əsas mənanın mühüm daşıyıcısıdır. "Çiyələk qadın" kitabının adındakı "Çiyələk" ifadəsində insan hərarətinin və nikbinliyinin mahiyyəti nəzərə çatdırılmışdır.

Orijinal bədii yanaşmaların poetik təzahürləri olan Rəşad Məcid şeirinin qayəsində "Arazlaşan, Kürləşən Vətənin" bütövlüyü və qüdrəti, "At belində, döşündə saz, əlində qılınc" nər oğulların daim ayıq-sayıq ölkənin keşiyini çəkməsinin müqəddəsliyi, obanın, elin tarixi yaddaşı olan Cıdır düzünün timsalında torpağımızın bölünməzliyinin qorunması ideyaları müsəlləh əsgər qüruru ilə dayanır. Rəşad Məcidin vətənpərvərlik mövzusunda yazdığı şeirlər şair-vətəndaş mövqeyinin poetik ifadəsidir. O, ana Vətənlə özü arasında da, xalqı və ölkəsi müstəvisində də geniş mənada bütövlüyün tərənnümçüsüdür. Böyük ideallara həsr olunmuş Vətən şeirlərində həm də yüksək şeiriyyət, böyük bədiilik vardır.

...Dərəsi, təpəsi, düzü, dağıyla,
Köksümə, qəlbimə yerləşən Vətən.
Nə vaxtdır bölünən bölünməzliyi,
Bir namərd baxışlı göz deşən Vətən.

...Dikələn qayası, ucalan dağı,
Əyilməz bürcüdür yanan çırağı.
Yayılıb Kür boyu, Araz qırağı
Arazlaşan Vətən, Kürləşən Vətən.

Beləliklə, hələ XX əsrin səksəninci illərində Rəşad Məcidin öz poetik üslubu, öz şeiri formalaşmışdır. Rəşad Məcidin şeirlərində obrazlı işıqlı düşüncələr, həyata lirik-romantik və gerçəkçi baxış həm də epik təhkiyə ahəngində ifadə olunur. Bu, şeirlərin bir çoxunda zahirən görünməsə də, hiss olunacaq səviyyədə müəyyən süjet əlamətləri də müşahidə olunur. Bunlar aşkar nəzərə çarpan süjetli lirika nümunələri deyildir. Bu şeirlərdə dialoq da yoxdur. Rəşad Məcid şeirlərində dərin, zərif duyğularını, həyata və insana baxışlarını tərənnüm etmir, elə bil nağıl kimi danışır. Bu şeirlərin əksəriyyətinin mahiyyətində lirik-romantik düşüncə, təqdimatında isə epik təhkiyə diqqəti cəlb edir.

Qan yaddaşım od ələyib duyğularıma,
Əfsanələr cavab tapıb sorğularıma.
Bir igid də tez-tez girir yuxularıma
At belində, döşündə saz, əlində qılınc.

Rəşad Məcidin "Roman" adlandırdığı poeziya serialı onun yaradıcılığında şeiriyyətlə epik əlamətlərin sintezinin inkişafı və ümumiləşmiş bədii ifadəsidir. Onun liro-epik şeirləri "Roman"a keçid üçün körpü funksiyası daşıyır. Əlbəttə, Rəşad Məcid bu əsərini şərti olaraq "Roman" adlandırmışdır. Bu, çılğın məhəbbətlə sevən, qarşı tərəfdən anlaşılmazlıq və tərəddüdlər hiss edən, tamam cavab ala bilməyən, sevdası nakam sonluqla bitən bir gəncin düşüncələrinin poetik təqdimatından ibarət olan tale romanıdır. "Roman" ifadəsi əsərin janrını deyil, ilk növbədə

adını, sonra isə mahiyyətini bildirir. Çünki roman janrına məxsus çoxplanlılıq, obrazların zənginliyi, hətta geniş həcm bu əsərdə nəzərdə tutulmayıb.

Rəşad Məcidin "Roman" adlandırdığı əsər janr baxımından liro-epik poemadır. Əsər lirik şeirlərlə və epik təhkiyə ilə ifadə olunan hadisələrin nəzərəçarpacaq süjet əsasında poetikləşdirilməsi üzərində qurulmuşdur. İki gəncin sevgi macəralarının ayrı-ayrı məqamlarını əks etdirən bu əsərdə şeirdən-şeirə keçid əhvali-ruhiyyənin, ovqatın dəyişməsini, münasibətlərin inkişafını əhatə edən mənəvi proseslərin inkişafını izləməyə imkan yaradır. Poetik şəkildə ifadə olunan daxili monoloqlar əsasında yazılmasına baxmayaraq, "Roman"da süjetin bütün inkişaf mərhələlərini müəyyən etmək mümkündür. Belə ki, "Tapdım" şeiri, ilk növbədə, "Roman"da proloq funksiyasını yerinə yetirir. Bu, bədii müqəddimədən əvvəl gələn, əsər boyu cərəyan edəcək hadisələri, çıxarılacaq nəticələri ümumiləşmiş şəkildə ifadə edən dərin mənalı bir başlanğıcdır. Ümumilikdə, 56 adda şeir əsasında yaranmış "Roman"ın başlanğıc hissəsindəki "Gəldim" şeiri əsərin süjet xəttində bədii müqəddimənin girişi funksiyasını daşıyır. "Uşaq, uşaq..., balaca uşaq" şeiri "Roman"dakı obrazların ilkin təqdimatıdır. "Roman"ın qəhrəmanının "yoluna çiçəklər sərmək", "saçına çələnglər hörmək" istədiyi Uşaq ilə onun arasında həm "yaş adlı uçurum qılıncı durur", həm də yaşdan doğan dünyagörüş fərqi də vardır. Bundan sonra hadisələrin ilkin dolaşıqlıq (zavyazka) mərhələsi başlanır. "Çərlədim" şeiri "yüz addımın qabağında bir addıma gücü çatmayan", "sözü kəlbətinlə çıxan" Uşağın xarakterindən yaranan ilk iztirabların ifadəsidir. Onu sanki iki dünya arasına salan "Quyu" şeiri ilə ziddiyyətlərin daha da artmaqda davam etdiyi görünür. "Qurtul, görüm", "Qurtulmasan, batma yasa", "Ağla" şeirləri əsərdəki sevgi iztirablarını dilləndirir. "Mən gəlib çatanda getmişdin ar-

tıq” şeirində tərəf müqabilin obrazı “nərgiz topası” kimi təqdim olunur. “Son” şeirində iztirabların dərin həyəcanı döyünür. Amma “Yaxşı ki bu son olmadı” şeiri ilə hadisələr nikbin məcra alır, yeni nəfəs qazanır. “Bu həftə”, “Mənim bəsimdir”, “Qurban vermə gəl”, “Öldürmək istədiyin hissin nəğməsi” şeirlərindən hər biri münasibətlərin inkişaf etməkdə olduğunu göstərir. “Əhvalat” şeiri - haşiyədir. “Roman”da janr baxımından əsl romanlarda olduğu kimi, bir neçə yerdə haşiyə xarakterli şeirlər vardır. Haşiyələr əsərdəki əhvalatın, ovqatın həmin andakı mahiyyətinin açılmasına, aydınlaşmasına, gərginliyin azaldılmasına xidmət edir. “Qayıdır” şeirində vüsala çatmaq yox, hicranın çətinlikləri qarşısında qalan qəhrəmanın “çəkdiyi tələş”ların yenidən qayıtdığı dilə gətirilir. Ümidqarışıq ilkin qənaət: “Hələ də uşaqsan.” Və birinci qəti addım: “Əlindəki öpüş yeri”:

Yaqut qaşlı üzük kimi,
Bahalı bilərzik kimi,
Göyərəcək, qızaracaq
Çapıq kimi, kəsik kimi.
Neyləsən də, getməyəcək
Əlindəki öpüş yeri.

“Əlindəki öpüş yeri” həm də bu mövzuda yazılmış müstəqil bir şeirdir. Ümumiyyətlə, “Roman”dakı şeirlərin çoxu mətndən kənarda ayrıca şeir nümunəsi kimi qəbul oluna bilər. “Gəldim”, “Ağla”, “Sənə görədir”, “Səndən bir söz çıxanacan”, “Sənsiz”, “Getdinsə”, “Məni”, “Saatım qurulub sənin vaxtına” və sair şeirlər Rəşad Məcidin lirikasının da, yeni Azərbaycan şeirinin də dəyərli nümunələri sayılmağa layiqdir. Eyni zamanda bu şeirlər “Roman”da süjetin inkişafını, tərəflərin əhval-ruhiyyəsini, həyatın, sevginin, iztirabların da mənasını açmağa, aydınlaşdır-

mağa, inkişaf etdirməyə xidmət edir. Azərbaycan ədəbiyyatında poema yaradıcılığında lirik ricətlər, haşiyələr kimi şeirlərdən istifadə olunması ənənəsi zəngindir. Lakin "Roman"dakı kimi, özünəməxsus nazik bir süjetə malik olan poemanın, əsasən, biri digərinin davamı olan şeirlər üzərində qurulması nadir hadisədir.

"Roman"ın kulminasiya nöqtəsi hesab etdiyimiz "Səndən bir söz çıxanacan" şeiri həm ümumən Rəşad Məcid yaradıcılığının, həm də konkret olaraq bu epik xarakterli lirik-romantik poemanın ən səciyyəvi ideya və üslub imkanlarını nümayiş etdirir. "Roman"ın qəhrəmanı eşqinə - andına sadiqliyin son həddinə qədər dözüm və inam göstərir. Mənəvi iztirabların ən çətin anlarında "Cavan" adı ilə təqdim olunan naməlum oğlanın varlığı bəlli olanda özünüittiham kimi meydana çıxan daxili monoloq əsərdəki bütün gərginliyi qabarıq şəkildə ifadə edir:

Hər nə dedim, dümdüz dedim,
Gecə dedim, gündüz dedim.
Mən bir kitablıq söz dedim
Səndən bir söz çıxanacan.

...Ay düşüb, yerə enərdi,
Günəş bezərdi, sönərdi.
Daşlar da dil öyrənərdi
Səndən bir söz çıxanacan.

Ayrılıq və ondan sonrakı mənəvi iztirabların təsviri ilə "Roman" sona çatır. Lakin əsər tamamlansa da, "Roman"da təsvir olunan kiçik macəranın həyəcanları bitmir. Oxucudan ötrü düşünmək üçün bir romanlıq da təəssüratlar qalır. Bu mənada, "Tapdım" proloqundakı "Beş ildi xəbərim yox idi ondan, İtmiş ürəyimin yerini tapdım" misraları ilə təkcə bir əsərin qəhrəma-

nının taleyində yox, bütövlükdə insanın mənəvi ucalığının işığında "Roman" davam edir.

Ümumiyyətlə, "Roman" liro-epik poeması insanın mənəvi bütövlüyünə inam haqqında dəyərli bir epitafiyadır. "Roman" - şeirlə yazılmış macəravari serialdır. Liro-epik poema janrında yazılmış "Roman" mövzu və mahiyyət etibarilə insanın mənəvi bütövlüyünün və ucalığının romanıdır. "Roman" - Rəşad Məcidin liro-epik şeirlərinin bütöv bir silsiləsidir. Nəhayət, "Roman" Rəşad Məcidin ədəbiyyatda, şeirdə bədii möhürüdür və özünütəsdiqidir.

***

Rəşad Məcidin 2011-ci ildən sonrakı mərhələdə yaranan şeirlərini üç yerə ayırmaq olar: 1) "Roman" liro-epik poeması ilə səsləşən yeni şeirlər; 2) "Dastan" qrupu şeirləri; 3) Lirikasında yeni nəfəs.

Müxtəlif mətbuat orqanlarında Rəşad Məcidin oxuculara təqdim etdiyi yeni şeir silsiləsinin bir hissəsi ilk baxışda, sanki onun "Roman"ının yazıldığı, yaxud çap olunduğu vaxt unudulub kitabına daxil edilməmiş parçalar təəssüratı yaradır. Başqa bir istiqamətdən baxsaq, yeni silsiləyə daxil olan "Sənsən", "Bəsdi", "Bəsdi nədir", "Əlac", "Çıxmışam", "Məni anla", "Daha", "Mələyim, iblisim", "Sənə sarı", "Məni", "O" şeirləri sanki "Roman"a sonradan yazılmış əlavələr kimi görünür. Həmin şeirlərdən hər birini çox asanlıqla "Roman"ın kompozisiyasında münasib məqamlarda oturtmaq olar. Bura "Çiyələk qadın" (2014), "Bir də gəlməyəcək" (2015), "Səbəbi sənsən" (2019) kitablarındakı şeirlərdə də "Roman"a daxil edilə biləcək yeni poetik nümunələr vardır. Xüsusən, "Səbəbi sənsən" kitabındakı şeirlər sanki "Roman"ın unudulmuş hissələrindən ibarətdir. Hə-

min şeirləri ayrı-ayrı bölmələrə daxil etməklə "Roman"ı daha da qüvvətləndirmək mümkündür.

Bununla belə, təzə şeir silsiləsində "Roman"a münasibətdə başqa bir meyil daha qabarıq şəkildə hiss olunur. Sanki bu şeirlər yeni bir "Roman"ın ilkin parçalarının əlyazmalarıdır. Bu şeirlərin əksəriyyəti yeni bir süjet ətrafında birləşir. "Roman"-dakı şeirlərin çoxu daha çox, "Mən"ə - lirik qəhrəmana aiddir. Yeni silsilədə isə üçüncü şəxs kimi "O" adı ilə ifadə olunmuş liro-epik qəhrəmana ağırlıq verilib. Bu, "O" "Roman"dakı Uşağa bənzəsə də, onun eynisi deyildir. Rəşad Məcid "O"nu "boynuna biçilən kəfən"i, "dar ağacı", həm də "xilas"ı, "mələyi və iblisi", lirik qəhrəmanı "gah göydə yaşadan, gah yerə çırpan" qüvvə kimi təqdim edir. "Roman"dakı Uşaqla müqayisədə, "O" ilə münasibətlər xeyli dərəcədə aydındır. "O" - silsiləsi eşqinə vəfalı lirik qəhrəmanın əbədi sevdasının nəğməsidir. Yeni şeirlərdəki lirik qəhrəmanda "Roman"dakı ümidsizlik, sentimental əhval-ruhiyyə nikbinlik və inam hissləri ilə əvəz olunmuşdur.

O-dur sənə dərman, ilac,
Gördün ki, yox başqa əlac.
Əlindən tut, üstünə qaç,
Diri tərpən, di tez yeri.

"Roman" kimi Rəşad Məcidin şeir yaradıcılığının sonrakı mərhələsində meydana çıxmış "Dastan" silsiləsi də şərti ad olub, oxucuya artıq onun müəllifinin yaradıcılığından bəlli olan lirik qəhrəmanın xeyli dərəcədə inkişaf edərək yetkinləşmiş obrazını təqdim edən fərqli bir əsərin mahiyyətini ifadə edir. "Dastan" qrupuna aid olan poetik sovqat da müəyyən süjet xətti ətrafında cəmləşən lirika nümunələri olmaqla bərabər, həm də hər biri ayrıca, müstəqil şeirlərdən ibarətdir. Silsiləyə daxil

olan "Sənsən", "Mələyim, iblisim", "Üzünə qurban" şeirlərində lirika o qədər dərindir ki, onları yalnız Rəşad Məcidin yaradıcılığına çox yaxından bələd olanlar hər hansı bir süjetin tərkib hissəsi kimi görə bilərlər. Şeirlərdən süjet düzəltmək artıq Rəşad Məcidin şeir yaradıcılığının oturuşmuş bir sistemidir. Hər biri müstəqil poetik nümunə olan ayrı-ayrı şeirlər vasitəsilə geniş süjet xətti yaratmaq, kompozisiya qurmaq Azərbaycan ədəbiyyatında ilk dəfədir ki, Rəşad Məcidin yaradıcılığında bu qədər davamlı olaraq təzahür edir. İlk şeir dəftərində, "Roman" liro-epik poemasında nəzərəçarpan və şeirdən-şeirə inkişaf edən süjet xətti yaratmaq xüsusiyyətinin 2014-cü ilin və sonrakı dövrlərin "Dastan" qrupu şeirlərində də açıq-aşkar görünməsi bu tip ifadə vasitəsinin Rəşad Məcidə məxsus fərdi üslubi keyfiyyət olduğunu tam təsdiqləyir.

Rəşad Məcidin yaradıcılığında "Roman"a yaxın olmayan və "Dastan"dan xaric şeirlər də çoxluq təşkil edir. Əvvəla, sonrakı mərhələdə şairin yaradıcılığında ictimai motivlərin meydanı genişləndirilmişdir. Rəşad Məcid poeziyada mənəvi münasibətlərdən daha çox, ictimai prosesləri mənalandırmağa çalışmışdır. O, artıq indiyə qədər "cavabını tapmadığı suallar"ı bədii yaradıcılığının əsas obyektinə çevirmişdir. Yeni mərhələnin şeirləri illərdən bəri onun daxilən "topalaşıb qurd kimi gəmirən", uzun vaxt ərzində "düşünməkdən yağmalandığı" məsələləri diqqət mərkəzinə çəkir. "Göz yaşı" şeirində Rəşad Məcid ölkə səviyyəsində itki sayıla biləcək dəyərlərin ağısını oxuyur. O, artıq "ölkədə, dünyada nə yenilik var?" sualını poetik baxımdan mənalandırmağı vacib sayır, "mənim danışmağa öz xəbərim var" deyərək, dünyaya biganə qalmadan milli maraqlara cavab verən sualların ədəbiyyatını yaratmağa üstünlük verir. "Səbəbi sənsən" şeirlərindəki qətiyyətli münasibətin ifadəsi də bununla

əlaqədardır. Artıq Rəşad Məcid bütövlükdə bədii yaradıcılıqda, o cümlədən də şeirlərində daha çox yazıçı-vətəndaş kimi çıxış edir. Bir çox şeirləri müstəqillik dövrü Azərbaycan vətəndaşlıq poeziyasının layiqli poetik nümunələri sayıla bilər.

Rəşad Məcid şeirinin estetik idealı kimi ifadə edilən ağ atlı oğlan ölkənin bütövlüyünün və xalqın milli-mənəvi varlığının etibarlı keşikçisidir. Bu ağ atlı oğlan - əslində yurdun, torpağın sahibidir. "Köç yolunda at üstündə" doğulan, qəlbində bahar çağlayan ağ atlı oğlanın idealı isə "işləri qayadan-daşdan" keçən xalqına xoş günlər bəxş etməkdir. Rəşad Məcid "ümidi işıqlı", "yolları açıq" təsvir etdiyi ağ atlı oğlanında xalqın bütün gücünü cəmləşdirir. Buna görə də Rəşad Məcidin ağ atlı oğlanı müstəqillik yollarında inamla irəliyə gedən, torpaqlarını azad edən Azərbaycanın dövlət bayrağının keşiyindədir:

Səni ən çətin
Günlərimdə qorudum.
Beynimə həkk edib,
Ürəyimə sarıdım.
Mahnımda,
Nəğməmdə gizlədim.
Aya baxıb xatırladım,
Ulduzunu sevdim.
Üç rənginə öyrəşdim,
Hər üzünü sevdim.
Hücumdan, həmlədən qorudum,
Küləkdən, tufandan keçirdim.
Bir gün qaldırdım başımın üstünə
Saxladım,
Əymədim.

Bütövlükdə Rəşad Məcidin şeir yaradıcılığı torpaq qoxulu, Vətən ətirli poeziyadır. Rəşad Məcidin estetik idealı mərdanəliyin, bütövlüyün, milli düşüncənin, vətənpərvərliyin və müstəqil dövlətçiliyin daşıyıcısı olan lirik-romantik qəhrəmandır. Bu lirik qəhrəmanın ayağı odlu torpaqdadır, başının üstündə isə üçrəngli dövlət bayrağı dalğalanır. Vətən torpağı ilə dövlət bayrağının vəhdəti Rəşad Məcidin estetik idealının mahiyyətidir.

***

Məlum olduğu kimi, bədii nəsr sahəsinə Rəşad Məcid az müraciət etmişdir. Hələlik onun bizə məşhur "10 sentyabr" və "Cənnət dərəsi" hekayələri məlumdur. Qeydlərindən aydın olur ki, "Tüstü" adlı bir hekayəsi isə, nə vaxtsa, hansı redaksiyadasa itib. Lakin bu qədər azsaylı hekayələr də Rəşad Məcidin bədii nəsr sahəsindəki yaradıcılıq imkanları haqqında fikir söyləməyə, söz deməyə şərait yaradır.

"10 sentyabr" hekayəsi müstəqillik dövrü Azərbaycan ədəbiyyatında hekayə janrının ən yaxşı nümunələrindən biridir. Bu, yeni tarixi mərhələdə kiçik hekayənin böyük nümunəsidir. Hekayədə böyük dövlətlər və kiçik xalqlar kimi ciddi bir problem sadə bir əhvalat əsasında təqdim olunmuş və bədii cəhətdən həll edilmişdir. "10 sentyabr" hekayəsində xarici qonağın xarakterini müşahidə olunan həyati detallar vasitəsilə inandırıcı şəkildə canlandırmaqla, onun daxili aləmi, yad niyyəti oxucuya çatdırılmışdır: "Gombul, balacaboy kişi. Kişinin ovurdları işləyir. Əslində... paxlavanı çeynəmir, bütöv-bütöv udurdu...

Bayaqkı gombul kişi onu görən kimi "pliz, pliz" deyib qucağındakı qıvrımtüklü iti sığallaya-sığallaya dəhlizin əks tərəfinə keçdi... Kişinin getdiyi tərəfdən bayaqkı qadın çıxıb ona yaxınlaşdı... Alıb çantanı açdı, dollarları saydı. Əlindəki şax əskinaslara işarə edərək:

– Çim it alacaq.

Sonra pulları çantanın içinə qoyub əlini uzatdı:

– Sağ ol! Minnetddar-am!"

"10 sentyabr" hekayəsindəki taksi sürücüsü Akif müasir mərhələdə Azərbaycan ədəbiyyatında kiçik adamın böyük obrazıdır. XX əsrin əvvəllərindəki "kiçik" adam obrazlarından fərqli olaraq, artıq müəyyən peşə sahibi olan, zavodda işləyib mükafatlar alan, dəyişən zəmanənin "qəzası" ilə iş yeri bağlanan, çətinliklərlə üzləşən Akif halallığı, zəhmətkeşliyi, sədaqəti və səxavəti ilə səciyyələnən obrazdır. Taksi sürücüsü Akif cəmiyyətdə gedən ictimai-siyasi proseslərin yaratdığı böhranın doğurduğu kiçik adamın bütün taleyini daşıyır və psixologiyasını özündə əks etdirir. Akif keçid dövründə baş verən mənəvi aşınmaları adlayıb keçən, sıxıntılara düçar olsa da, ləyaqətini, ideallarını uca tutmağı bacaran azərbaycanlı obrazıdır. Cəmiyyətdə xaos, çaşqınlıq dövrü kimi səciyyələndirilən həmin mərhələnin adamlarının ədəbiyyatda daha çox mənəvi böhranından, aşınmasından yazmaq meylinin üstün olduğu vaxtda Rəşad Məcidin sabit mənəviyyata malik kiçik adamın böyük dəyərlərini, ictimai funksiyasını təqdim etməsi ədəbi prosesin də axarına təsir edən əhəmiyyətli hadisədir.

"10 sentyabr" hekayəsi ilə Rəşad Məcid həcm etibarilə kiçik bədii forma daxilində böyük və dərin ictimai mətləbləri ifadə etmək bacarığını nümayiş etdirir. Bu mənada, ümumi yaradıcılığının fonunda nəzər salsaq, "10 sentyabr" hekayəsi Rəşad Məcid nəsrinin "Roman"ıdır. Sabitləşmiş, inkişaf edən və dünya ilə üz-üzə olan yeni Azərbaycanda cəmiyyət həyatının epik mahiyyətinin gerçək romanı "10 sentyabr" hekayəsinin bətnində müşahidə olunur. Bu hekayənin on xarici dilə tərcümə edilərək bir kitabda çap edilməsi qlobal məkanda həm də müasir Azərbaycan nəsrinin indiki səviyyəsinin dünyaya təqdim edilməsi

baxımından əhəmiyyətli hadisədir. "10 sentyabr" hekayəsi ilə Rəşad Məcid böyük ənənəsi olan Azərbaycan nəsrinə layiqli bir əlavə gətirə bilmişdir. Rəşad Məcid bir hekayə ilə - "10 sentyabr" hekayəsi ilə müasir Azərbaycan ədəbi mühitində nasirlik səlahiyyəti qazanmışdır.

***

Hansı istiqamətdən baxmağımızdan asılı olmayaraq, Rəşad Məcid daha çox mətbuat aləmindəki geniş fəaliyyəti və publisistikası ilə görünür. Rəşad Məcidin publisistikası onun nəsri ilə jurnalistikası arasındakı xüsusi bir yaradıcılıq hadisəsidir. O, nasirlik xatirinə publisistikadan məşq kimi istifadə etmir. Publisistikası Rəşad Məcidin jurnalistikasının inkişafının daha yüksək mərhələsinin, kamilləşmə çağının əks-sədasıdır. Günün nəbzindən doğan çoxsaylı məqalələr yazmaq meyli Rəşad Məcidin jurnalistika sahəsindəki fəaliyyətində yoxdur. Jurnalistika fəaliyyəti baxımından Rəşad Məcid daha çox naşirdir. Rəşad Məcidin Baş redaktoru olduğu "525-ci qəzet" müstəqillik dövrü Azərbaycan mətbuatının inkişafının mükəmməl bir hadisəsidir. "525-ci qəzet" Azərbaycanda ictimai-siyasi mətbuatla ədəbi mətbuatın hər ikisinin funksiyalarını birlikdə daşıyan və yüksək peşəkarlıqla inkişaf etdirən nadir qəzetçilik nümunəsidir. Keçdiyi davamlı inkişaf yolunu nəzərə alaraq, "525-ci qəzet"in yeni jurnalistika məktəbi yaratması haqqında irəli sürülən fikirlərdə gerçəklik mübaliğədən qat-qat çoxdur. Çoxaspektli mətbuat orqanı olan "525-ci qəzet" Rəşad Məcidin Azərbaycan milli mətbuatının inkişafında tarixi xidmətidir.

Bununla belə, Rəşad Məcid həm də özünəməxsus publisistikası olan qəzet adamıdır. Publisistikası konkret problemlər ətrafında araşdırmaların və mühakimələrin ifadəsi əsasında formalaşır. Publisistikasındakı analitik təhlil həyatı, prosesləri,

insanları daha dərindən göstərməyə, obyektiv nəticələr çıxarmağa şərait yaradır. Ən yaxşı məqamlarda Rəşad Məcidin ayrı-ayrı publisistik məqalələri monoloq kimi səslənir. Publisist Rəşad Məcidin monoloqlarında cəmiyyət həyatının aydın nəbzi döyünür. Müxtəlif illərdə yazılmış "Yeni paytaxt ehtiyacı", "Səfərin təzəsi, dostun köhnəsi", "Əlvida və salam", "Ağ dənizin duzu", "İdarəçilik Akademiyasında jurnalistika dərsi" və sair kimi publisist məqalələri müasir cəmiyyətin doğurduğu konkret məsələlər ətrafında müşahidələr və mühakimələrdir. Publisistikasında Rəşad Məcidin bir ziyalı-vətəndaş olaraq aydın mövqeyi ifadə olunur. Publisist məqalələrindəki təmkinli və aydın mövqeyə malik Rəşad Məcidlə cəmiyyətdən, gündəlik həyatdan tanıdığımız Rəşad Məcid bir-birini tamamlayır. İctimai-siyasi və ədəbi-elmi mühiti tam olaraq birlikdə görməyi və dəyərləndirməyi bacarmaq, daim irəliyə doğru dərkolunmuş obyektiv baxış Rəşad Məcidin jurnalistika fəaliyyətinin və publisistikasının mahiyyətini təşkil edir.

Rəşad Məcidin siyasi publisistikasında da müəyyən mənada, bədiilik var, dərin səmimiyyət ifadə olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə 2013-cü ildə iki görüşdə - Milli Mətbuat Günündə və dövlət başçımıza "Jurnalistlərin dostu" mükafatının təqdim olunması mərasimindəki çıxışları bir media təmsilçisindən çox, yüksək ziyalı - vətəndaş düşüncəsinin təbii və səmimi ifadəsidir. Əgər müəllif "Dəlicəsinə" kitabına "Mətbuat tarixinə yazılacaq böyük hadisə" və "Dostluğun böyük nümunəsi" adı ilə daxil etdiyi həmin yazılarının ölkəmizin Prezidenti qarşısındakı çıxışları olduğunu qeyd etməsəydi, bu mətnləri müraciət, xitab üstündə qələmə alınmış əhəmiyyətli publisistika nümunələri kimi qəbul edərdik. İndiki halda da həmin yazılar həm Rəşad Məcidin yetkin ictimai baxışlarını, həm də siyasi publisistikasının özünəməxsusluqla-

rını dolğun şəkildə ifadə edir. Bu çıxışlar eyni zamanda dövlət və mətbuat münasibətləri haqqında aydın vətəndaş təfəkkürü ilə deyilmiş ürək sözləridir.

"Əlvida və salam" kitabındakı esseləri, "Dəlicəsinə" kitabındakı publisist məqalələri Azərbaycan jurnalistikasının əhəmiyyətli hadisələridir. Son illərdə işğaldan azad olunmuş Qarabağ və Böyük Qayıdış mövzusunda yazdığı məqalələri də bu sahədə fərqli bir baxışın mükəmməl publisist ifadəsidir. Azərbaycan publisistikasında yalnız Rəşad Məcidə aid olan "Qələmsiz yazılanlar" silsiləsi ölkə ədəbiyyatı və mətbuatı tarixində XXI əsrdə meydana çıxmış sosial şəbəkə publisistikasının orijinal nümunəsidir.

"525-ci qəzet" vasitəsilə Azərbaycanda publisistikanın yeni nəslinin formalaşdırılmasına açdığı geniş meydan, verdiyi böyük dəstək də yaradıcı jurnalistikanın inkişafı yollarında izi qalacaq hadisədir.

***

Göründüyü kimi, Rəşad Məcid bir ədəbi şəxsiyyət olaraq bütün yönləri ilə yaradıcı olan, axtarışlarının ardıcıllığı və bədii təfəkkürünün orijinallığı və genişliyi, baxışlarının və inamının bütövlüyü ilə fərqli görünən kamil və professional bir Azərbaycan ziyalısıdır. Müstəqillik dövrü Azərbaycan ziyalılığının fəal vətəndaşlıq mövqeyi, aydın milli düşüncəsi, açıq və yetkin yaradıcı təfəkkürü Rəşad Məcidin simasında ümumiləşə bilir.

Nəticə etibarilə:

– Rəşad Məcid müstəqillik dövrü Azərbaycan ədəbiyyatında liro-epik şeirin əsas yaradıcılarından biridir.

– Daxili monoloqlar əsasında yazılmış şeirlərdən "Roman" və "Dastan" tipli süjetli əsərlər yaratmaq Rəşad Məcidin adı ilə bağlı olan bənzərsiz sənətkarlıq xüsusiyyətidir.

– Azərbaycan ədəbiyyatında böyük ənənəsi olan kiçik hekayə janrını dünya və ölkə ilə əlaqədar müasir mövzularla zənginləşdirmək, fərqli xarakterlər yaratmaq Rəşad Məcidin yaradıcılıq uğurudur.

– Mühüm həyati problemləri və siyasi düşüncəni əks etdirən, qəzetçiliklə yazıçılığı birləşdirən publisist əsərləri ilə Rəşad Məcid Azərbaycan publisistikasında yeni yol açmışdır.

– Rəşad Məcidin Baş redaktoru olduğu "525-ci qəzet" müstəqillik dövründə məktəb səviyyəsinə çatdırılan əhəmiyyətli ədəbiyyat və mətbuat hadisəsidir.

– Rəşad Məciddə həm də aydın bir ədəbiyyatşünas təfəkkürü vardır. O, yazıçı tənqidinin də mahiyyət etibarilə yazıçılıqla ədəbiyyatşünaslıq arasında olan, bir çox hallarda ədəbiyyatşünaslığa yaxınlaşan qiymətli nümunələrinin müəllifidir.

– Rəşad Məcidin simasında milli təfəkkürlə ədəbiyyat düşüncəsi və aydın siyasi baxış vəhdət təşkil edir.

Qarabağın işğaldan azad edilməsi və Böyük Qayıdış hərəkatından etibarən Rəşad Məcidin yaradıcılığında yeni mərhələ başlanmışdır. Azad Şuşa mövzusunda yazdığı məqalələr yeni dövr Qarabağ publisistikasının yaddaqalan, təsirli nümunələridir. Rəşad Məcidin 2024-cü ildə qələmə aldığı "Şuşa dəftəri" şeir silsiləsi müstəqillik dövrü Azərbaycan şeirində Qarabağ mövzusuna yenidən qayıdışın uğurlu bədii nümunələrindəndir. Cəmi 13 şeirdən ibarət olan "Şuşa dəftəri" şeir silsiləsi şairin uşaqlıq və ilk gənclik illəri ilə bağlı xatirələrlə Azad Qarabağın müasir dövranının yaratdığı həsrət, qürur və milli iftixar duyğularının üzvi vəhdətinin ilhamlı poeziyasıdır. Qarabağ mövzusuna yenidən qayıdışın uğurlu bədii ifadəsi olan "Şuşa sevgisi" şeiri Azərbaycan poeziyasının Qarabağ serialının qiymətli poetik möhürüdür:

Azərbaycan əsgəri borc ödəyib canıyla,
Köksündə cüt gəzdirib bayrağı vicdanıyla!
İslanıb hər qarışı şəhidlərin qanıyla,
Dönüb yalçın qayaya, tunca Şuşa sevgisi!

Qalxır hünərli şəhər, olur qızıl dirəkli,
Daş deyil hörülən daş, məhəbbətdi, ürəkdi!
Çağlayan sevgilərin ilham mənbəyi təkdi -
Ali Baş Komandanın uca Şuşa sevgisi!

Şeirlə bədii yaradıcılığa başlayan və poeziya sahəsində dərin izlər salmaqla davam edən, jurnalistika və publisistika ilə müasir cəmiyyətin inkişafına məsuliyyətlə xidmət göstərən, ədəbi-ictimai mühitin böyük üfüqlərinə çıxan, bədii nəsrdə öz möhürü olan Rəşad Məcidin çoxcəhətli fəaliyyətinin sanballı hesabatı olan müxtəlif janrlarda yazılmış əsərləri onun bundan sonrakı yaradıcı həyatının möhkəm təməlləri və mühüm hərəkətverici qüvvəsidir. Rəşad Məcid ölkəsinin və millətinin daha böyük inkişafı istiqamətində həyatının və yaradıcılığının müdriklik çağının möhtəşəm Romanına doğru (təkcə janr mənasında yox) təmkinlə, səmimiyyətlə və inamla yol getməkdədir.

Vilayət Quliyev

Rəşadın rəşadəti

Avqustun 21-də ölkəmizin ədəbi-mədəni mühitində hamının yaxşı tanıdığı, mütləq əksəriyyətin böyük hörmətlə yanaşdığı, deyərdim ki, hətta sevdiyi şair, yazıçı, jurnalist, naşir, ictimai xadim Rəşad Məcidin 60 yaşı tamam oldu. Eyni gündə Prezident İlham Əliyevin sərəncamı ilə yubilyar media sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə ölkəmizin ali mükafatlarından birinə – 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görüldü. Hər iki münasibətlə möhtərəm qələm dostumu ürəkdən təbrik edirəm. İnanıram ki, şərəflə yaşanmış bu 60 onda "Ömrün ən yaxşı illəri arxada qaldı" – təəssüfü oyatmayacaq. Əksinə, yaşanan maraqlı, zəngin və dinamik həyat, əldə olunan təcrübə, sınaqların gətirdiyi müdriklik və ustalıq yeni, yaxşı əsərlər yaratmaq üçün bir bünövrəyə, guşə daşına çevriləcək.

Rəşadı 25 yaşından, bəlkə daha öncədən tanıyıram. Ötən il "Azərbaycanın görkəmli adamları" seriyasından biblioqrafiyamın nəşrə hazırlanması ilə əlaqədar köhnə kağızlarımı araşdırarkən hələ "öz qəzetinin" olmadığı dövrdə məndən "Elm və həyat" jurnalı üçün aldığı müsahibə qarşıma çıxdı. Bildiyim qədər, həmin dövrdə kifayət qədər nüfuzlu və populyar sayılan bu jurnalda çalışırdı. Mətbuata bağlılığı isə universitet tələbəsi olduğu dövrdə başlamışdı.

Bir igidin ömrünə bərabər son otuz iki ildə isə Rəşad Məcidin adı sonradan üzərinə götürdüyü, daha doğrusu, layiq görüldüyü çoxsaylı məsul vəzifələrin yanı sıra, həm də sevimli "525-ci qəzet"lə qoşa çəkilir. Yəqin qəzetin qəribə adının sir-

ri çoxlarına bəllidir. Dövlət müstəqilliyinin atributlarından biri kimi meydana çıxan mətbuat bumunun yaşandığı 1992-ci ildə onilliklər boyu hər sayını səbirsizliklə gözlədiyimiz bu qəzet dövlət qeydiyyatından keçən 525-ci mətbu orqan idi. İndi o yarım mindən çox qəzet-jurnaldan yəqin ki, tək-tükü, maksimum bir əlin barmaqları ilə sayıla biləcək qədəri meydanda qalıb ki, onlardan da biri və təbii ki, birincisi "525-ci qəzet"dir. Nəşrin uzunömürlülüyü Rəşad Məcidin nüfuzu və təşkilatçılıq qabiliyyəti, bilik və istedadı, monolit kollektiv yaratması, təkcə ədəbi-mədəni deyil, ictimai-siyasi həyatın da nəbzini tuta bilməsi sayəsində mümkün olub. Mübaliğəsiz demək olar ki, 33 yaşına qədəm qoyan "525-ci qəzet" 60 yaşlı Rəşadın ən böyük əsəri, onun müstəqil Azərbaycanın mətbuat və ictimai fikir tarixinə ən böyük töhfəsidir. Taleyinə belə bir qəzetin yaradıcısı, dəyişməz baş redaktoru olmaq yazılan ədəbiyyat adamı özünü xoşbəxt saya bilər. Səmimi şəkildə inanıram ki, bu gün ömrünün altıncı onilliyini gənclik eşqi və daha çox yazıb-yaratmaq arzusu ilə arxada qoyan Rəşad Məcid eyni enerji və yaradıcılıq əzmi ilə sevimli qəzetinin də yarım əsrlik yubileyini qeyd edəcək.

Cəmiyyət həyatındakı inqilabi dəyişikliklər bəzən proseslərin mərkəzində olan insanları vaxtından əvvəl müdriklik yaşına çatdırır. Onları böyük və məsul vəzifələrin həyata keçirilməsinə cavabdeh edir. İctimai mühit və cəmiyyətdə söz sahibinə çevirir. Çiyinlərinə yaşa və təcrübəyə uyğun gəlməyən bir ağsaqqallıq missiyası, məsuliyyət yükü qoyur. 25-30 yaşlı Mirzə İbrahimovu, Səməd Vurğunu, Rəsul Rzanı, Süleyman Rəhimovu və digər XX əsr klassiklərimizi, bu yaradıcı şəxsiyyətlərin geniş, çoxcəhətli fəaliyyətini yada salmaq kifayətdir.

Ölkəmizin yenidən dövlət müstəqilliyinə qovuşduğu dövrdə oxşar həyat yolu keçən azsaylı yeni nəsil ziyalı və ictimai xadimlərdən biri də Rəşad Məcid oldu. Uşaqlıq illərini keçir-

diyi Qarabağdan Bakıya gəlib riyazi təmayüllü baza təhsilinə baxmayaraq, ədəbiyyat və sənət Olimpində öz yerini tutmaq bacarıqlı gənc üçün sanki o qədər də çətin olmadı. 1990-cı ildə o, korrektorluqdan başlanan, sıravi jurnalistlikdən keçən əmək fəaliyyətini yeni yaradılmış Azərbaycan Tərcümə və Ədəbi Əlaqələr Mərkəzində sədr müavini kimi davam etdirməyə başladı. Bu zaman Rəşadın 26 yaşı vardı. Ali təhsil diplomunu cəmisi iki il əvvəl alsa da, mətbuatda iş təcrübəsinin daha uzun tarixçəsi vardı. Ən başlıcası isə şəksiz ədəbi istedada, güclü söz duyumuna, yazıb-yaratmaq təşnəliyinə malik idi.

Çətinlik və ziddiyyətlərlə dolu, yaddaşlara müharibə və torpaq itkisi ilə iz salan 1991-1992-ci illərdə əvvəlcə "Ədalət", sonra "Azərbaycan" qəzetində baş redaktorun birinci müavini olub. 1993-cü ildə "Azərmətbuatyayım" İstehsalat Birliyinin rəisi kimi müstəqil rəhbərlik işinə keçib. Bundan bir il əvvəl isə yeni dövr mətbuatımızın flaqmanı şöhrətini qazanan "525-ci qəzet"i təsis edib. Artıq 20 ildən çoxdur ki, əvvəlcə gənclər üzrə katib, son dövrdə isə sədr müavini kimi Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyində təmsil olunur. İctimai həyatda prinsipial və vicdanlı insan kimi tanındıqca üzərinə düşən vəzifələrin də sayı artıb. Təbii ki, onların hamısını burada sadalamağa ehtiyac yoxdur. Deyəsən, statistikaya bir az çox yer ayırdım. Amma həqiqət budur ki, Rəşad Məcid yuxarıda ötəri xatırlatdığım işlərin çoxunu 30 yaşına qədər görüb, yaxud bir çox gələcək uğurlarının təməlini 30 yaşa qədər atıb. Yəni bu erkən yaşda tam özünütəsdiqə nail olub. Ədəbi ictimaiyyət və ölkə rəhbərliyi səviyyəsində tanınıb, təqdir edilib. Ən böyük qazancı isə qələm əhlinə, ilk növbədə də jurnalistlərə xüsusi tələbkarlıqla yanaşan, bir səhv addıma, yanlış sözə görə onları yüksəldikləri ucalıqdan asanlıqla endirən sadə insanların, minlərlə oxucunun rəğbətini qazanması olub.

Bu rəğbətin kökündə, mayasında nə dayanır? Təbii ki, ilk növbədə Rəşad Məcidin yaradıcı potensialı, təqdirəlayiq insani keyfiyyətləri. Səmimiliyi, mərdanəliyi, dürüstlük və halallığı. İstedadı və istedadlara qayğısı. Vətənpərvərliyi və yurd sevgisi. Söz qarşısındakı məsuliyyət hissi. Ədəbiyyat və mədəniyyət üçün cavabdehlik duyğusu. Üzərinə necə ağır vəzifələr götürdüyünü bilməsi və onları daim vicdanla, şərəflə yerinə yetirməsi... Yenə sadalamaq olar. Amma fikrimcə, deyilənlər çağdaş Azərbaycan ədəbiyyatında və jurnalistikasında artıq öz yerini tutmuş Rəşad Məcidin portret cizgilərini tamamlamaq üçün kifayətdir.

Rəşad prinsipial, amma konfliktsiz adamdır. Zidd qütbləri yaxınlaşdırmağı, hətta barışdırmağı bacarır. Lakin bu zaman öz təməl prinsiplərindən, inandığı gerçəklərdən də imtina etmir. Əks təqdirdə Yazıçılar Birliyi, yaxud Mətbuat Şurası kimi mürəkkəb, hər ağızdan bir avaz gələn çoxsəsli, polifonik qurumlarda işləmək və simasını qoruyub saxlamaq o qədər də asan olmazdı. Başqa bir xüsusiyyəti isə insanları öz səmimiyyəti ilə inandırmağı, ən müxtəlif fikirli ədəbiyyat adamları arasında tərəfdarlar tapmağı bacarmasıdır. Tələbəlik illərindən yaxşı tanıdığım, böyük ədəbiyyat sevdalısı, hüquqşünas Yusif İldırımzadə yazılarının birində onu çox dəqiq şəkildə "xasiyyət xoşbəxti" adlandırıb və səhv etmirəmsə, bu uğurlu müşahidə Rəşad Məcid haqqındakı kitablardan birinin adına çevrilib. Dəqiq, tutumlu ifadənin ilk müəllifi isə Yusif müəllimin atası, tanınmış yazıçı və jurnalist, "525"in ən məhsuldar müəlliflərindən olan mərhum Əli İldırımoğludur.

Rəşad Məcidin zəngin ədəbi yaradıcılığı, sənətkar siması, ictimai fəaliyyəti barəsində onlarla məqalələr, kitablar qələmə alınıb. Odur ki, məşhur atalar sözümüzdə deyildiyi kimi, görünən dağa bələdçilik etmək fikrindən uzağam. Sadəcə vurğulamaq istəyirəm ki, istər yazıçı, istərsə də şair kimi o, kifayət

qədər geniş oxucu auditoriyasına malik yaddaqalan əsərlərin müəllifidir. Şeirlərinə bir çox uğurlu mahnılar bəstələnib. Poetik mətnlərinin musiqililiyi hətta qədim söz və sənət yurdu İtaliyada da diqqətdən kənarda qalmayıb...

Bunlarla bir sırada Rəşad Məcid ədəbi-ictimai fikirdə daha çox jurnalist və publisist kimi tanınır. Onilliklər boyu davam edən uğurlu qəzetçilik fəaliyyəti onu bədii yaradıcılıqdan müəyyən qədər uzaqlaşdırsa da, milli-mənəvi mövcudluğumuz üçün zəruri olan, xüsusən də müstəqilliyin başlanğıc mərhələsində bütün kəskinliyi ilə ortaya çıxan problemlərin mərkəzinə gətirib. Qarabağ üçün, bu gün azadlığına qovuşmuş torpaqlarımız üçün sözü və qələmi ilə savaş verənlərin arasında Rəşad Məcidin, rəhbərlik etdiyi "525-ci qəzet"in, Mətbuat Şurasının xüsusi yeri var. Eyni savaş bu gün də yurda qayıdış, Qarabağın dirçəlişi üçün davam edir.

Son vaxtlar milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin XIX əsrin 70-ci illərində hələ cəhalət və avamlıq girdabında boğulan, dostu ilə düşmənini ayıra bilməyən doğma xalqına ünvanlanmış sadə, yanğılı sözləri nədənsə daim beynimdə dolanır. "Çağırıram - gəlmir, deyirəm - eşitmir, göstərirəm görmür!" Məncə, Həsən bəyin bu qəlb fəryadı vətənini, millətini düşünən hər kəsin ürəyində əks-səda tapıb. Çağdaş ədəbi fikrin aparıcı simalarından biri kimi tanınan 60 yaşlı Rəşad Məcid də yaradıcılığa gəldiyi ilk gündən böyük Ustadın yolunu davam etdirir. Çağırır, deyir, göstərir. "525"in ətrafına toplaşan milli ruhlu, gerçək ədəbi istedada, əsl vətənpərvər keyfiyyətlərə malik müəlliflər kollektivi "Əkinçi"dən başlanan çağırışların hədər getmədiyinin göstəricisi, Rəşadın uğurudur.

Qısa yazıya ad axtararkən onu "Rəşadın rəşadəti" adlandırmağı qərara aldım. Bu, gəlişigözəl ifadə, yaxud söz oyunu deyil. Rəşadət, qəhrəmanlıq təkcə döyüşdə göstərilmir. Həlledici anda

şairin, yazarın əlində silaha, süngüyə dönən, onu "müsəlləh əsgərə" çevirən qələmlə (qoy bizim günlərdə lap klaviatura olsun!) həqiqətləri yazmaq, xalqı keçmişindən xəbərdar edib sabahına hazırlamaq, yalan və riyaya qarşı çıxmaq, insanlara vətən sevgisi, yurd məhəbbəti, daha yaxşı gələcək uğrunda mübarizə əzmi aşılamaq da rəşadət və cəsarət tələb edir.

Rəşad Məcid artıq qırx ilə yaxındır ki, bu işlə məşğul olur. İnanıram ki, yeni yaş, qarşıdan gələn illər daha uğurlu, məhsuldar olacaq. Yubilyara xas vətəndaş cəsarəti, sözü zamanında demək bacarığı bəlli bir ömür yolu keçmiş sənətkar püxtəliyi ilə birləşərək dövrün çağırışına cavab verən müdrik əsərlərin, cəmiyyət üçün faydalı ictimai fəaliyyətin arasıkəsilməzliyini, davamlılığını təmin edəcək.

Bakı, avqust, 2024-cü il

Fəxri Uğurlu,
yazıçı, esseist

İnsaf adam

Rəşad Məcidi tanıdığım otuz beş ildir. Əsgərlikdən yeni gəlmişdim, onda mənim iyirmi bir, Rəşadın iyirmi beş yaşı olardı. Dostum Yusif Rzayevə qoşulub arabir Tərcümə Mərkəzinə gedirdim, orada maraqlı ədəbi mühit vardı. Yazılarını, tərcümələrini oxuduğumuz görkəmli qələm adamlarıyla yaxından tanış olur, onların söhbətlərini dinləyir, yeni adlar, imzalar eşidirdik. Rəşad Məcid bir müddət əvvəl Tərcümə Mərkəzi sədrinin – rəhmətlik Aydın Məmmədovun müavini vəzifəsinə təyin olunmuşdu. Aydın müəllim zahirən sadəlövh adam təsiri bağışlasa da, çox fəhmli, həm də dinc insan idi, Rəşadla bağlı zənnində də yanılmamışdı; çün Rəşad özü də qalmaqaldan uzaq, içinə düşdüyü mühitdə sülh şəraitində yaşamağı, yaxşılıq eləməyi bacaran adamdır.

O vaxtdan bəri Rəşad Məcidin kiməsə mənfi enerji ötürdüyünü, kiminsə qeybətini qıldığını, kiməsə yamanlıq eləməyə çalışdığını görməmişəm, eşitməmişəm. Məndə belə bir təəssürat var ki, onun neqativ enerjisi ümumiyyətlə yoxdur. Rəşadın haqqında pis düşünən, ona pislik arzulayan adamı da təsəvvürümə gətirə bilmirəm. Mənim düşüncəmdə ona münasibətin yalnız bir forması, bir üsulu var – onu qardaş məhəbbətiylə sevmək, ona etimad göstərmək, onun kövrək, yuxa, şəfqətli qəlbinə elə o sayaq şəfqətlə də yanaşmaq. Şəxsən mən Rəşad barədə

düşünəndə könlümə bir ilıq nur damır, sinirlərim pozitiv enerjiylə yüklənir.

İş elə gətirdi ki, doxsanıncı illərin birinci yarısında Rəşad Məcidin rəhbərlik elədiyi "525-ci qəzet"də mən də bir müddət, təxminən iki ilə yaxın işləyəsi oldum. Adamların, o cümlədən dostların münasibəti ən çox bir yerdə çalışanda, ya da birgə səfərə çıxanda pozulur. Rəşadın başçılıq elədiyi kollektivlə davranış prinsipində işçini burunlamaq, qaralamaq, sancmaq, gözümçıxdıya salmaq, jurnalistləri zavod-fabriklərdə olduğu sayaq sərt iş rejiminə uyğunlaşdırmaq kimi bir xüsusiyyət yoxdur. Bir şair, jurnalist kimi münasibətlərdə rəsmiyyətə də meyilli deyil. Yaxşı yadımdadır ki, onun redaksiyaya gəlişi kollektivdə həmişə xoş ovqat yaradardı, hamı bilirdi ki, bu gəlişin sonu ən azı redaksiya şəraitində xudmani bir məclisin qurulmasıyla bitəcək.

Rəşad imkanlı, çörəkli kişinin evində böyüyüb, ancaq dolaşıq, dağınıq zəmanənin hökmüylə imkanlarının qəfil tükəndiyi, Həzrət Yusif kimi quyunun dibinə düşdüyü vaxtlar da olub (bu barədə, əlbəttə, özü şəxsən mənə bir söz deməyib, eləcə qıraq-bucaqdan, onu istəyən, ona canı yanan adamlardan eşitmişəm), fəqət belə ağır məqamda da onun ağlayıb-sıtqadığını, ətrafındakılarla aqressiv davrandığını, hirsini kiminsə üstünə tökdüyünü görməmişəm. Düşdüyü quyudan xarakterinə xas imanlı bir səbirlə çıxıb yoluna davam eləyəndə də, yeni uğurlar qazanıb yeni zirvələrə çatanda da təkəbbürə, xudbinliyə könül verməyib, yenə əvvəlki Rəşad olaraq qalıb.

Yaxşılığı zəifliklə qarışdırmaq düzgün deyil. Ehtiyacı olana, dilənənə yardım göstərən kəs bu işi üç mülahizəylə görə bilər: birincisi can vergisi verməkdir, yəni ey müqəddəs ruhlar, mən öz malıma qıyıb sizin tövsiyənizdən çıxmadım, canımdan can ayırıb kiminsə canına caladım, indi siz məni, mənim doğmala-

rımı qorumağa, bizim varlığımıza keşik çəkməyə borclusunuz – bu, yaxşılıq deyil, mazoxizm aktıdır; ikincisi eqonu bəsləməkdir, yəni baxın görün mən necə yaxşı adamam, yetimə-yesirə əl tuturam, yıxılanı yerdən qaldırıram – bu da əsl yaxşılıq yox, sadizm aktıdır, yoxsulun, acın hesabına bədnam şöhrət qazanmaqdır, yoxsulun yoxsulluğunu, acın aclığını istismar eləməkdir.

Bu iki "yaxşılıq" növü göylər səltənətinin dəftərxanasında qətiyyən keçməz, orada bunların bir qara qəpiklik dəyəri yoxdur. Yaxşılıq nə zəiflik, nə də bunun tərsidir, yaxşılıq – bu həyatda ən böyük mənəvi gücdür; əgər yaxşılıq o yaxşılığı eləyən adamın mənəvi ehtiyacından doğmursa, yardım göstərdiyi adamdan əvvəl onun özünün ehtiyacını ödəmirsə, demək, o yaxşılığın ilahi yaxşılıqlar sırasında yeri yoxdur. Rəşad Məcid məhz belə könüldən qopan yaxşılıqlar eləməyin ustasıdır, onun ayağına yazılmış təmənnasız yaxşılıqlar saya-hesaba gəlməz.

Rəşadı mənə ən çox sevdirən cəhəti insaflı olmasıdır. Şübhəsiz, insaf, ədalət kişiliyin ən başlıca atributlarındandır. İnsaf dinin yarısıdır, deyiblər, məncə, insaf dinin elə hamısıdır. Bir də görürsən ağıllı-başlı, istedadlı bir ədəbiyyat adamı, gerçək söz fədaisi özü kimi (qoy lap özündən xeyli zəif olsun) bir yazıçının (şairin) üstünə barmağını tuşlayıb deyir ki, bu, yazıçı (şair) deyil. Demir ha zəifdi, eləcə baltanı kökündən vurur, adamın əlli illik zəhmətini bir göz qırpımında zibilliyə tullayır. Qəribədir, ya bəlkə də mənəvi-ilahi qanundur – sanki bumeranqmış kimi bir başqası da bunun əməyini yerə vurur, bir hökmlə onun adını ədəbiyyatdan "silir", heç uf da demir. Rəşad Məcid şeiri, nəsri çoxlarından yaxşı duysa da, ondan heç vaxt belə radikal bəyanatlar eşitməzsən.

Sənət meyarını əldə bayraq eləyib hamını biçə bilərik, bəs onda insafı-mürvəti hara qoyaq? Məgər ortabab şeir yazmaq ci-

nayətdirmi? Füzuli ucalığına qalxmağı kim istəməz, zavallı ortabab şair o yüksəkliyə qalxa bildi də, qalxmadı? Rəşad Məcid heç zaman bu tipli bəyanatlar səsləndirməsə də, illərdir onun bir insaflı redaktor kimi, ən böyük günahı dahilik zirvəsini fəth eləməyə qüdrəti çatmamaq olan müəllifləri də himayəsinə aldığını bilənlər çoxdur. O, insaflıyam demir, özünün ən gözəl cəhətini reklam matahına çevirmir, o sadəcə insaflı davranır. Şəxsən mənim Rəşadın bu cəhəti çox, çox xoşuma gəlir – insana, onun çiyninə yüklənmiş taleyə qiymət, hörmət qoymaq ədəbiyyatı yaxşıya-pisə bölməkdən, sözə nırx qoymaqdan daha vacibdir.

İnsanın qəlbini qırmaq günahdırsa, yaradıcı adamı sındırmaq ikiqat günahdır. Deyən tapılar ki, heç bir qəzetçi, redaktor ortababları təbliğ eləməyə borclu deyil. Bununla bir qəzetçi, ya bir redaktor kimi razılaşmaq asandır, fəqət qəlbimizdəki vicdan, insaf duyğusu bizə pıçıldayır ki, əgər insan bu dünyaya gəlibsə, demək, onun həyatda öz yeri, təyinatı var. Ən böyük insanşünaslıq, adam sərraflığı, yaxud humanitar ustalıq da ondadır ki, bir insana təyinatına görə dəyər verəsən, onu layiq olduğu, özünü təsdiqləyə biləcəyi yerə-məqama-mərtəbəyə qoyasan. Gözünü yumub hamını inkar eləyən, hamını çapan adam axır bir gün özü də quru yurdda qalar. Heç kimin əməyini itirmək olmaz, ən böyük günah, bağışlanmaz suç da elə budur...

Rəşad Məcid Qarabağın aranıyla dağı arasında böyüyüb, özünün deməsinə görə, Laçındakı məşhur Ağoğlan məbədinin yaxınlığında dünyaya gəlib, orta məktəbi Ağdamda bitirib, bir vətəni də Ağcabədi torpağıdır. Bütün bunlar onun xarakterinə də iz salıb – çox vaxt aran yeli kimi həlim, yumşaq olsa da, yeri gələndə Laçın qayaları kimi sərt üz göstərməyi də var.

Deyirlər, insan yaşlandıqca doğulduğu torpağa, dədə-baba yurduna daha möhkəm bağlanır. Bu da səbəbsiz deyil – əvvəl

torpaq insana əmanət verilir, sonra da insan torpağa. Bu qarşılıqlı mübadilə dolğun insan ömrünün başlıca məzmunudur, ömür zatən bu mübadilənin aparıldığı bazarda, bu karvanın yürüdüyü yolda keçir. Rəşad Məcid bu uzun, incə yolun altmışıncı kilometrliyindədir. Son illər onu tez-tez uşaqlığının, gəncliyinin keçdiyi torpaqlardan, ələlxüsus Şuşadan şəkil paylaşan görürük. Həmişə olduğu kimi yenə də sevincini dostlarıyla, oxucularıyla bölüşür. Üstəlik, azad olunmuş Qarabağın hüsnünə təzəlikcə bir silsilə şeir də qoşub. Vallah belə möhtəşəm, belə tükənməz sevinci qəlbinə zərrə-zərrə damızdırmaq üçün bir altmış il də yaşamağa dəyər.

Ta gəncliyimdən bəri insaf-mürvət timsalı saydığım əziz qardaşımın yubileyinə həm öz adımdan, həm də təmsil olunduğum kollektivin adından mübarəkdarlıq verirəm. O gözəl qəlbindən, peyğəmbərlərdən, imamlardan, seyid babalarından miras qalmış o mübarək insafından muğayat ol, qardaş. Cəddin dadımıza yetsin!

Vaqif Bəhmənli,
Şair

Zaman və tale sözçüsü: Rəşad Məcid

İki əsrin qovşağının başabaş qırx ilində Azərbaycan xalqının mədəni, ədəbi, mətbu və ictimai həyatının inkişafında müstəsna xidmətləri olan bir şəxsiyyətin 60 yaşı tamam olur – Rəşad Məcid... Laçınlı müdrik el ağsaqqalı Mirhacib Ağanın nəvəsi, Qarabağın ləyaqətli, ziyalı insanlarından olan Müseyib müəllimin oğlu, cümlənin dilini nağıllardakı kimi yüyrək eləsək, yəni bizim Rəşad Məcid altmış ili dizinin altına qoyub yetmişə və daha sonrakı onilliklərə üz tutur.

Yaxşı tanıdığım bu şəxs təmiz, duru qanlı Azərbaycan türküdür, şairdir, unikal, ədəbi-estetik və həyati dəyərə malik hekayənin müəllifi olsa da, o, ikicə nəsr örnəyinə görə nasirdir, "525-ci qəzet" kimi otuz illik bir müddətdə işıq üzü görən, milli mətbuatımızın tarixini zənginləşdirən mətbuat orqanının qurucusu, naşiridir.

Bu hələ azdır, o, bizim zamanımızda deyildiyi kimi, alovlu publisistdir. Niyə belə deyirəm, çünki onun qələmindən çıxan, mətbuatda dərc olunan yüzlərlə esse, analitik yazı, təəssürat və səfər qeydləri, həyat hadisələrindən qidalanan məqalələr silsiləsi öz sətirlərində qlobal mahiyyət daşıyaraq davamlı energetikanı hifz etməklə bərabər, oxucuların qəlbində od-ocaq yandırır, könüllərə hərarət daşıyır.

Jurnalistlər peşə amilinə görə zamanın, vaxtın sifarişinə məhkumdurlar. Uzunömürlü, əhəmiyyətli dəyərlər yaradan jur-

nalistlərin isə ayrı bir sifarişçisi də var – həm də onlar bir neçədir: ürək, vicdan, haqqın, hüququn pozulmasına dözümsüzlük, dürüstlük, ədalət prinsipi, humanizm, aktuallıq, obyektivlik və sarsılmaz vətən sevgisi, vətəndaşlıq mövqeyi!

Milli mədəni, ədəbi və mətbuat müstəvisində onun əksər hallarda uğurla yekunlaşan çalışmaları, sözün gerçək mənasında, bəlli dövrün mövcud mühitinə töhfələr vermiş və bütün bunlar Azərbaycanda, türk dünyasında, postsovet məkanında mənəviyyat anlamına maraq göstərən hər kəsə bəllidir.

Hiss edirəm ki, öncədən ümumiləşdirmə məni bir qədər irəli atır.

Əslində bunun səbəbi deyilənləri isbat etmək üçün əlimin altında olan istinadların bolluğu və Rəşad müəllimin həyatına, şəxsiyyətinə, yaradıcılığına kifayət qədər vaqif olmağımdır.

***

Yazı masamın üstündə onun qələmindən çıxan on-onbeş civarında kitab və haqqında yazılan məqalə, esse, şeirlərdən ibarət toplular üst-üstədir. "Hələ ki, vaxt var" (1993), "10 sentyabr" (2004), "Əlvida və salam" (2009), "10 sentyabr" (hekayə, bir neçə dildə), "Dəlicəsinə" (2014), "Bir də gəlməyəcək" (2015), "Roman – sevgi şeirləri" (2015), "Bir daha gelmeyecek" (Ankara, 2015), haqqında akademik İsa Həbibbəylinin "Bütün yönləriylə yaradıcı", çoxsaylı müəllif düşüncələrindən ibarət "Xasiyyət xoşbəxti" (2019)... Maraq xatirinə deyim ki, məndə olan bu kitabların hamısı müəllifin avtoqrafı ilədir.

Oxuyub bildiklərimə görə, o, 1964-cü ildə avqust ayının 21-də (doğum şəhadətnaməsində Ağcabədi yazılsa da) ən mötəbər şahidin, anası Yavər xanımın dediyinə görə, Laçın rayonunun Kosalar-Ağoğlan kəndində doğulub. Görünür, yəqin ki, elə belədir, atası Müseyib müəllimin xidməti vəzifəsi, iş yerləri ilə

əlaqədar olaraq Rəşad səkkiz il Ağdamda məktəbə gedib, sonra Bakıda riyaziyyat təmayüllü məktəbdə orta təhsili başa vurub, universitetin filologiya fakültəsindən "konkursa düşüb", o biri ili sonralar bütün həyatına və yaradıcılığına istiqamət verən həmin ali məktəbin jurnalistika fakültəsinə qəbul olunub. Səhv etmirəmsə, elə təhsil illərində bu gün Azərbaycanın sevilən yazıçısı, millət vəkili, "525-ci qəzet"lə sözün yaxşı mənasında, uğurla rəqabət aparan "Ədalət" qəzetinin baş yazarı Aqil Abbasın təşəbbüsü ilə "Elm və həyat" jurnalında işə düzəlib.

Gənc yazarın o illərdə ara-sıra görünən imzasıyla yanaşı, onun "Ədalət qəzeti"ndə, "Azərbaycan" ("Həyat") qəzetində redaktor müavini, Azərbaycan Tərcümə Mərkəzində direktor müavini, "Azərmətbuatyayım"da rəis olduğu vaxtları da, "525-ci qəzet"in təsis olunduğu 1992-ci ili də xatırlayıram.

Və elə bil hər şey dünən olub. Və elə bil indinin indisində də onun 21, mənim 30 yaşım var. Biz demək olar ki, hər həftə, iki gündən bir indiki Milli Parkda (Bulvarda) sıralanan fərqli çayxanalarda Aqil Abbasın başçılığıyla ustad, eyni zamanda həmyaş sənətkarlarla (aktyorlar, rəssamlar, müğənnilər, alimlər, oxucular, siyasətə meyil edənlər daxil) bir araya gəlir, sayı bilinməyən "çaynikləri" sümürüb boşaldır, qolumuza güc verib bilyard daşlarını şaqqıldadır, Xəzəri seyr edir, ədəbiyyatdan, sənətdən... danışır, adətən ən sonda cibimizin qüvvəsi çatan həddə hardasa bir qismət çörək kəsməyə tərpənirdik.

Bizə nisbətən, Rəşadın yaşı az olsa da, o, mötəbər insanlarla (Firudin Şuşinski, Vaqif Səmədoğlu, Abbas Abdulla, Aydın Məmmədov, Ramiz Rövşən, Seyran Səxavət, Vidadi Məmmədov, Nüsrət Kəsəmənli, Çingiz Əlioğlu, Sabir Rüstəmxanlı, Firudin Cəlilov, Cəlil Nağıyev, Kamil Vəli, Zakir Fəxri, Mövlud Süleymanlı, Vaqif Cəbrayılzadə, Baba Vəziroğlu, Tahir Aslan, Aqil Abbas, Ağacəfər Həsənli, Mehman Cavadoğlu, Tehran Və-

liyev, Fikrət Əhmədov, Pərviz Xosrovoğlu, İlqar Həsənov, Aydın Səlimzadə, Şamxal Rüstəm, Loğman Rəşidzadə... və daha kimlər) həmin o bir neçə masanın birləşdirilməsindən ibarət çay masası ətrafında özünə dinc bir künc tapırdı. Danışmaqdan çox, dinləməyə üstünlük verirdi. Bu, lap yaxşı yadımdadır.

***

Bizim siftə tanışlığımız həmin o möhtəşəm 80-ci illərə dayanır. Dərin tanışlığımız isə 80-ci illərin sonunda, mən "Kommunist" qəzetində çalışanda başladı.

Demokratiya və etiraflar axtarışındaydıq. Sovet rejiminin təzyiqlərinə məruz qalmış insanların üstünə işıq salmaq, bir çoxlarının qəsb edilmiş haqlarını illər ötəndən sonra heç olmasa, təskinlik xatirinə yada salmaq istəyi vardı.

Haqlı olaraq ilk yada düşənlərdən biri o zaman heç bir rəsmi titulu olmayan, amma xalqın qəlbində öz ecazkar səsiylə möhkəm yer eləyən Flora Kərimova oldu.

"Kommunist"ə "Sovet kəndi" qəzetindən gəlmişdim, iqtisadiyyat şöbəsinin müdiri idim. Əslində bu mövzunun mənim redaksiya işimə dəxli yox idi. Di gəl, özümə dəxli vardı, çünki zatən, təbiətən mədəniyyət zümrəsindən idim.

O zaman eləydi, indi də elə qalır.

Uzun sözün qısası, çayxana dostumu (indi müdrik dostum) aradım. Soruşdum ki, Flora xanımı danışdıra bilər? Gözü güldü. Və səhəri gün Rəşad Məcid redaksiyada ağ gül dəstəsi ilə (nədənsə güllərin rəngi yadımda elə qalıb) dahi müğənnini qarşıladı.

Sonda o zamanın gözüylə böyük rezonans doğuran müsahibə qəzetdə dərc olundu. Adı beləydi: "Bağlı qapı açaram". Təbii ki, Rəşad o müsahibəni gənclik şövqü, bir az "ağına-bozuna" baxmadan qələmə almışdı. Müğənninin azad düşüncəsi də əsas-

lı rol oynamışdı, şəksiz. Əlbəttə, biz yazını mövcud meyarlara uyğun bir qədər ütülədik (burada yadıma bir alleqoriya düşür. Deyir, bir gün bir anac toyuq necə olursa, tonlarla taxıl yığılan anbara yol tapır. Elə buğda tığına çatan kimi, hələ bir dimdik buğda dəni götürməmiş başlayır eşənək atmağa. Qıraqdan baxan anbardar deyir, ay toyuq, qabağında bu qədər arınıb-arıtlanmış dən var, dənlə də, niyə eşənək atırsan? Toyuq deyir: fikir vermə, qardaş, tökülmüşlərim - ayaqlarım eşələməyə öyrəşib). Və bəli, lüzumsuz ixtisar, mətnin üstündə eşənək atmaq sovet mətbuatının ən başlıca səciyyələrindən biriydi.

Az sonra Rəşad müəllim bizim qəzetdə elmlər doktoru, Tərəvəzçilik İnstitutunun direktoru Fəzli Hacıyevdən müsahibə aldı. Yenə də "Bağlı qapı açaram"dan heç də az əks-səda verməyən, A-2 formatda qəzetin tam bir səhifəsini tutan yazı "Göyərtinin göynərtisi" adlanırdı.

İndi baxıram, Rəşad müəllim həmin o yazıların heç birini həm də publisistik əsərlərdən ibarət "10 sentyabr", "Əlvida və salam", "Dəlicəsinə" kitablarının heç birinə daxil etməyib. Bu düzgün qərardı, sanıram. Çünki onlar zamanın çağırışlarıydı. Ziqzaqlı keçid dövründə cəmiyyətin yoluna işıq tuturdu ki, mənəviyyat və iqtisadiyyat yönlərində hansı və necə əngəllər var və insanlar o məqamları heç olmasa nəzərə alsınlar. Yaxşı ki, bizim Milli Kitabxanamız var və Azərbaycanın ictimai həyatının fərqli dövrlərindən bəhs edən dövri nəşrlər orada qorunur. Həmin fərqli dövrləri araşdıranlar, heç şübhəsiz, öncə xatırlatdığım Rəşad Məcid imzalı məxəzləri də gözdən keçirəcəklər.

Əslində bu tipli xatiratları yazının sonuna saxlamaq istəyirdim. Amma bu gecə vaxtı Mərdəkanda, dostumuz barədə bu yazını qələmə aldığım anlarda həyət işıqlarının nura boyadığı əncir, nar, küknar ağaclarına baxır, hiss edirəm ki, Rəşad Məcidin varlığına təpədən-dırnağa ehtiramla doluyam. O qədər ki, heç

bilmirəm, nəyi indi deyim, nəyi sonra? Düşüncələrimin hamısı birdən gəlmək, birdən səslənmək, birdən kağıza köçürülmək istəyir. Yenə də dadıma Rəşad müəllimin sülh adamı olmağı yetişir. Məncə, rahat, fərəhli həyatın düzəni sülhdür! Dünyanın altı-üstünə çevrilirsə, hansı yaradıcılıqdan, hansı sevgi duyğularından, ümumən, hansı insaniyyətdən söhbət gedə bilər? Belə olduğu halda, gərək biz də hər sözün növbəsini öz məqamına tapşıraq.

***

Nəzərə alınmalı ilk düşüncə budur: Rəşad Məcid haqqında bizim bu yazıya qədər kimlər yazıb, nələrdən bəhs ediblər?

Əgər tədqiqat fikriylə ümumən mətbuat nüsxələrini (kitab, jurnal, almanax, toplu, qəzet) vərəqləsək, yaxud internet resurslarına baş vursaq, əhəmiyyətli külliyyatla qarşılaşarıq. Mənsə, öz mülahizələrimi bu dəqiqə, Mərdəkanda həyət işıqlarının nura boyadığı əncir, nar, küknar ağaclarının şahidliyi altında, yazı masamın üstündəki kitablara əsasən qələmə alıram. Onların sayı dörd üstəgəl birdir (Ankarada nəşr olunan "Bir daha gəlməyəcək", Bengü, 2015 kitabını Bakıda işıq üzü görən "Bir də gəlməyəcək" kitabının ekvivalenti saymaq şərti ilə).

Məhz bu dörd kitab əsasında Rəşad Məcidin yaradıcılığına münasibət bildirmək düşüncəsi ortadadırsa, o zaman akademik İsa Həbibbəylinin Rəşad Məcidin yaradıcılığından bəhs edən məxsusi monoqrafiyasını və o əsasda "Bir də gəlməyəcək" toplusunda yer alan "Bütün yönləri ilə yaradıcı" başlıqlı "Ön söz"ü yola davam üçün istinad kimi önə çıxarmaq istərdim.

İsa müəllim sözügedən tədqiqatın lap başlanğıcında yazır ki, Rəşad Məcid çoxcəhətli yaradıcılıq fəaliyyətinə malikdir və məşğul olduğu bütün yaradıcılıq sahələrində professionaldır.

Akademik daha sonra qeyd etməyi zəruri sayır ki, publi-

sistika Rəşad Məcidin yaradıcılıq fəaliyyətinin əsas, aparıcı tərəfidir, onun gündəlik işidir. Azərbaycanda "525-ci qəzet" səviyyəsində müstəqil mətbuat yaratmaq və bu qəzetin nəşrini uğurla davam etdirmək onun xidmətidir. Rəşad Məcid müstəqillik dövrü Azərbaycan publisistikasının əsas yaradıcılarından və görkəmli nümayəndələrindən biridir. Ədəbi tənqid sahəsində də Rəşad Məcid mükəmməl "yazıçı" sözü deməyi bacarır. Rəşad Məcid tam orijinal bir şairdir. Müstəqillik dövrü Azərbaycan şeirinin yaradıcıları sırasında onun özünəməxsus görkəmli yeri vardır. R.Məcidin şeirləri mövzu, janr, üslubi yanaşma, bədii təsvir vasitələri ilə bənzərsizdir. İsa müəllim "Bütün yönləri ilə yaradıcı" ədəbi portretində poetik duyğuların estetik təsir gücünü Rəşad Məcidin şeirləri əsasında incələyəndə həyatiliyin, təbiiliyin müstəsna şərtlər olduğunu təsirli cümlələrlə ifadə edir: "Hələ ki vaxt var" kitabından görünür ki, Rəşad Məcid üçün şeir "bir dolu ürəyin püskürmə çağıdır", "dikəlib asfaltı deşən bənövşədir", "sinədə boğmaq olmayan bir qəfil hönkürtü" kimi təbii proseslərin nəticəsində yaranmış bədii düşüncənin ifadəsidir. Rəşad Məcidin lirikası içərisində olduğu cəmiyyətlə və doğma təbiətlə birgə nəfəs alan cavan bir qəlbin şairanə şəkildə vurğunluğudur. Onun şeirlərində dünya da, Vətən də ictimai motivlər də, milli duyğular da, sevgi də, təbiət də, tale də öz şeiriyyətini təqdim edir.

İsa Həbibbəylinin irəli sürdüyü elmi əsası olan bu mülahizələrlə şərikəm. Bu da qeyd olunmağa layiqdir ki, tədqiqatın müəllifi araşdırma axarında Rəşad Məcidin yaradıcılığının həm şair, həm publisist, həm yeni dövrün mətbuat banisi, həm də ədəbiyyat və ictimai xadim baxış bucağından elə dəqiq məqamlara toxunur ki, oxucuya elə gəlir şair-publisist haqqında hansı təyinedici düşüncə varsa, onların hamısı deyilib, yazılıb. "Bütün yönləriylə yaradıcı" ("Bir də gəlməyəcək" kitabı) Ön sözünü

oxuyarkən, sözün düzü, milli poeziyamızın ötən əsrin 80-ci illərindən başlayan və bu günümüzə qədər davam edən ədəbiyyat tablosu gözümün önünə gəldi və tam bir arxayınlıqla təsdiqlədim ki, gör bizim poeziya məkanında nə qədər özünəməxsus dəyərli simalar var, Rəşad Məcidlə bərabər onların hər birinin yaradıcılığı məhz İsa Həbibbəylinin "Bütün yönləriylə yaradıcı" əsərindəki mükəmməlliklə təhlil və təqdim olunmağa layiqdir.

Yubilyar dostumuz yaradıcılığının bəhrələri haqqında hansısa tanıtım, təbliğ, araşdırma yazılarına əlahiddə həvəs göstərməsə də, bu mövzuya müraciətlərin kasadlığını da söyləyə bilmərik. Onun əsərləri barədə kimlər söz açmayıb. Yalnız "Xasiyyət xoşbəxti" toplusunda yer alan nüfuzlu imzaların bir qismini xatırladırıq: Kamal Abdulla, Nizami Cəfərov, İrfan Çiftçi, Ramiz Rövşən, İradə Tuncay, Pərvin, Tehran Əlişanoğlu, Kamran Əliyev, Bədirxan Əhmədli, Buludxan Xəlilov, Ənvər Əhməd, Elşən Əliyev, Mustafa Çəmənli, Firuzə Nadir, Aysel Əlizadə, Türkan Turan, Şəfəq Nasir, Gülnar Səma, Elnura Cavadzadə, Şahanə Müşfiq, Südabə Sərvi, Elxan Zal, Yaşar Qasımbəyli, bu sətirlərin müəllifi Vaqif Bəhmənli. Bu adlar, bu ədəbi məqalə örnəkləri yalnız öncə adıçəkilən kitablarda yer alanlardır. Halbuki dostumuz haqqında Hüseyn Arif, Nəriman Həsənzadə, Məmməd Araz, Elçin, Anar, Aqil Abbas, Yaqub Ömərоğlu, İmdad Avşar... kimi qüdrətli söz sahiblərinin yazdıqlarını da yada salmaqda haqlıyam. Bu arada türkiyəli mərhum jurnalist, şair, filosof, ədib İrfan Çiftçinin "Dəlicəsinə" kitabının Türkiyə nəşrinə yazdığı "Rəşad Məcidin keçib gəldiyi tunel" adlı Ön sözü xüsusilə vurğulamalıyam. Bu siqlətli araşdırma təkcə kitab müəllifinin deyil, Azərbaycan ziyalılığının, milli ədəbi düşüncəmizin indi qorxunc yuxu kimi təzahür edən mənfur dünyadan, qeyri-humanist mühitdən, başqa sözlə, sovet rejimindən çətin qopuşunu, ictimai-siyasi bətndən gələn ləkələrdən qurtuluşunu

yüksək, intellektual səviyyədə və ümumiləşdirmə yoluyla təsvir edir. İrfan Çiftçiyə belə bir qüdrətli əsər yaratmaq imkanını (şansını) yenə də bizim bu yazının qəhrəmanı - Rəşad Məcid vermişdir.

Bu anlamda akademik Nizami Cəfərovun şair-publisist haqqında mülahizələri də yerinə düşür. Nizami müəllim səxavətli və ədalətli ədəbiyyatşünas, həssas təhlilçidir. O bir çox hallarda imzanın siqlətinə fərq qoymadan, hətta boz bir külliyyatda belə orda-burda işaran dəyərləri görür və tam bir səmimiyyətlə təqdim edir. Bəzən onun ədəbiyyatşünas yanaşması səhrada çiçək toplamağa bənzəyir. Yaxşı ədəbi örnəklər isə tənqidçini elə qanadlandırır ki, yazıçının, şairin heç özünün xəbəri olmadığı qiymətli məqamların tərifi üzə çıxır. Uzağa getmirəm, görkəmli alimin məhz qanadlanaraq, kifayət qədər zəngin yaradıcılığa əsasən qələmə aldığı "Rəşad Məcid, yaxud ürəyi dünya qədər genişliyin metafizikası" əsəri indicə irəli sürdüyüm qənaətin sübutudur.

Nizami müəllim Rəşad Məcidin bütün qatqılardan, qafiyəpərdazlıqdan, şablon ahəngin barmaq sayından, yaxşı və pis olan bütün qəliblərdən uzaq, yalnız ürəyin və poeziya fəlsəfəsinin ritminə uyğun, təbii, doğal şeirlərinə məhz elə yuxarıda sadalanan maddələrə nəzərən diqqət yetirmiş və fərqləndirmişdir ki, Rəşad Məcidin həm yaradıcılığında, həm də geniş ictimai fəaliyyətində nə uğur varsa, Tanrıdan gəlir.

Və əziz qardaşım Nizami Cəfərov ədəbi qeydlərinin lap əvvəlində Rəşad Məcidin poetik dünyasından bir seçməni misal gətirir və mən utanc hissi keçirirəm, ay Allah, nə təhər olub ki, ömür boyu kimin tərəfindən yazıldığının fərqinə varmadan yaxşı sözün dalınca sürünən birisi, yəni mən, Rəşad Məcidin bu şeirinin ecazını bu dərəcədə dərindən hiss etməmişəm?! Hələ bəndlərə, misraların düzümünə baxın. Sizcə, sadə xalq qoşma

formasının içində bütöv bir bədiyyat fəlsəfəsinin yaşandığını etiraf etməkdə haqlı deyiləmmi?

Olsun ki şeiri Allah adama
Yaşadıb ömründə tufan, yazdırır.
Birinə "Məsnəvi", birinə "Xəmsə",
Birinə sevgidən roman yazdırır.

...Mənə də lütf edib öz kərəmini
Yenidən yolladı öz qələmini.
Yaşlı gözlərimin silib nəmini
Oturdub diz üstə, dastan yazdırır.

Tanıdım üzünü, duydum rəngini,
Hiss etdim göylərin bu ahəngini.
Ard-arda düzülən söz çələngini
Özüm yazmıram ki, yazan yazdırır.

Sözügedən dəyərli əsərdə akademik Nizami Cəfərov məhz şair Rəşad Məcidin yaradıcılığından alınmış poetik örnəklərin təsdiqiylə həm yazıda, həm həyatda qəhrəmanımızın qeyri-adi həssaslığını önə çəkir. Daha sonra şair-publisistin genişplanlı yaradıcı şəxsiyyət olduğunu bəlirləyən digər atributlara işıq salır; bu, yazarın əsərlərinin çoxşaxəliliyi (şeir, hekayə, publisistika, ədəbi tənqid, hətta son zamanlar qələmsiz yazılan əsərlər – V.B.) təbiətinin (və yaradıcılığının) hər cür regionçuluqdan, məhəlləçilikdən uzaq olmağı, həyatı həm yaşam, həm də yaradıcılıq planında zövq mənbəyi olaraq qavramasındadır.

Yazının davamında İradə Tuncayın "Taleyin Rəşada verdiyi ən böyük töhfə müdriklik və ağıl olub" cümləsi yer alan "Beş" adlı essesini, akademiyanın müxbir üzvləri Tehran Əlişanoğlu-

nun "525-ci qəzet"in yeni mərhələdə Azərbaycanın ədəbi-bədii düşüncəsinin inkişafında oynadığı roldan, ədəbi gəncliyə mükəmməl qayğıdan bəhs edən "Ədəbi 525" və redaktor Rəşad Məcid üç tezis işığında" analitik-elmi ümumiləşdirməsini, Kamran Əliyevin "Etiraf poeziyası", yaxud Rəşad Məcidin lirik qəhrəmanı", professor Bədirxan Əhmədlinin "Göz yaşının çəkisi" əsərini xatırlatmaq o mənada yerinə düşür ki, Bədirxan müəllim demişkən, "akademik İsa Həbibbəylinin "Bütün yönləriylə yaradıcı" monoqrafik tədqiqatından sonra isə onun haqqında artıq ədəbiyyatşünaslıq ciddi şəkildə məşğul olmağa başlayıb, bu isə şairin, yazıçının, publisistin təkamül yolunun yeni bir mərhələyə çatmasından xəbər verir.

60 yaşının bərəkətini yaşayan görkəmli ədibin həyat və fəaliyyətindən, yaradıcılığının janr və məzmun etibarı ilə fərqli yönlərindən bəhs edən çox sayda məqalələrdən misalların, iqtibasların sayını kifayət qədər artırmaq mümkündür. Həm də bu yalnız bu yazını yazarkən, masamın üzərindəki kitablara istinadla tamamlana bilməz. Ən azı ona görə ki, Rəşad Məcid yalnız "525-ci qəzet"in baş redaktoru deyil, həm də indi milli mətbuatımızın sərvəti sayılan bu nəşrin ən fəal müəlliflərindən biridir. Deməli, dostum haqqında tamlığa yaxın biblioqrafik bir resenziyanın hasilə gəlməsi üçün, başqa mətbuat orqanlarını demirəm, təkcə "525-ci qəzet"in 32 ildə çap olunmuş on minlərlə nüsxəsini vərəqləmək, arxivşünas səriştəsiylə araşdırma aparmaq lazım gələrdi. Bu, bizim arzumuzdu, indilikdə məqsədimiz deyil. Mən bu sətirləri ona görə yazıram ki, şair, publisist, mətbuat xadimi, ədəbi proses təşkilatçısı Rəşad Məcidin 60 illik ədəbi ictimai fəaliyyətinin əhəmiyyəti, tam 40 ili yaradıcılığa həsr olunmuş 60 illik bir ömrün ümummilli dəyəri xalqımız və ədəbi ictimaiyyətimiz tərəfindən yenidən sərf-nəzər edilsin. Eyni zamanda əmin olmaq istədim ki, içindəki böyük nisgilləri, ağrı

və sıxıntıları mərdanə bir şəkildə qəlbinin ən dərin qatlarında büküb-bələyərək, həyat yollarından eyzan təbəssümlə, yumorla, ifrat mehribançılıqla ötüb keçən, hər birimizin qəlbinə sirayət edən Rəşad Məcid qoy özü də bilsin, heç olmasa, 60 yaşın içində mənəvi bir rahatlıq, qürur duysun ki, onun varlığı xalqımız üçün ən azı öz ampluasında necə də əziz və qiymətlidir.

***

Əgər şairin ədəbi tərcümeyi-halını, o zamanın diliylə desək, mərkəzi mətbuatda ilk çıxışıyla hesablasaq, onda deyə bilərik ki, Rəşad Məcid Azərbaycanın şeir təsərrüfatına uğurla qədəm qoyub. Ən azı yox, məhz ona görə ki, gənc şairin Hüseyn Arifin uğurlu yoluyla "Azərbaycan gəncləri" qəzetində ilk mübarək imzası görünəndə (1981) onun cəmi-cümlətanı 17 yaşı vardı.

Lakin Allah vergisi daha erkən yaşlardan təzahür edir, bu, birmənalıdır. Deyilənin təsdiqini Rəşad Məcidin özünün 1983-cü ildə seçmələnib nəşriyyata təqdim edilən, illərdən-illərə hansısa redaktorların qovluq rəflərində mürgüləyən və bir də aradan 10 il keçəndən sonra "Mərhəmət" jurnalının əlavəsi olaraq öyrəşdiyimiz "gənc müəllifin ilk kitabı" standartlarından fərqli şəkildə işıq üzü görən şeir qovluğunun "ədəbi taleyində" izləyə bilərik. Daha doğrusu, müəllif daha on il sonra o kitabçanı olduğu kimi "10 sentyabr"a (2004) daxil edərkən bu ağırayaqlı kitaba yazdığı giriş mətndə sözə mübtəla olmağının, şairliyinin "yaşını" belə müəyyən edir:

"İlk şeirimi haçan yazmağım barədə fikirləşəndə özümü yazağzı Ağdamdakı dördmərtəbəli binanın ikinci mərtəbəsində yerləşən evimizin dəmir çərçivəli pəncərəsindən baxan görürəm. O pəncərədən tumurcuqlayan ağaclar görünürdü, bir az uzaqda qarlı dağlar görünürdü. Onda mənim - 8-9 yaşlı uşağın o darısqal evdən həyətə, genişliyə çıxmaq istəyi hədsiziydi. Ya-

dımdadır ki, yaz haqqında, meşə və dağ haqqında olan ilk misralarımı məhz onda qoşmuşdum. Sonralar ara-sıra nəsə yazırdım. Amma indi fikirləşirəm ki, mənim yazmağıma qol-qanad verən təbiət, dağlar, meşələr, çaylar, qayalar indi yağı tapdağı altında qalan torpağımızın bənzərsiz gözəlliyi olub".

Yaşın fərqi yoxdu, şair taleyi elə belə də başlamalıdı, insana darlıqdan xilas olmaq, həyata, təbiətə qaynayıb-qovuşmaq ehtirası sirayət etməlidi. Əgər Rəşad Məcid ətrafında baş verən, Azərbaycan xalqı üçün bəzən varlıq və yoxluq dərəcəsində enib-qalxan, dalğalanan hadisələrə 1980-lərdən 2000-ci illərə qədər çox yox, elə azcana laqeyd qalıb, başını aşağı salaraq şeirini yazsaydı, imkanı da vardı ki, onları silsilələr, yaxud kitablar şəklində çap etdirsin, o zaman Rəşadın külliyyatı zahirən daha sistemli bir halda oxucunun əli altında olardı. Amma o Rəşad Məcid, bizim indi tanıdığımız və olduğu, göründüyü kimi sevdiyimiz Rəşad Məcid olardımı?

Bu şair sanki bütün ədəbi-publisistik varidatını iki daş arasında, qaşla göz arasında hasilə gətirib. Rəşadın şeirlərində ədəbi çağlayışları yönəltməyin adi, sakit, lal təzahürü yoxdur. Onun ədəbi fəallığını çətin də olsa, sıralamağa cəhd edərkən, irəlicədən müəyyənləşdirilməsi mümkün olmayan yaradıcı zəlzələ qırılmalarını, qəfil vulkan püskürmələrini müşahidə edirəm. Bu hal dostumun "Tanrının bəxşişi" adlı şərti dastanında, "Yenə də bahar qayıdır" şərti romanında, "10 sentyabr" hekayəsinin mübhəm bir şəkildə nazil olmağında açıq-aşkar görünür.

Rəşad Məcidin şeir qiraəti səhnə nitqinin peşəkar qaydalarına tabe olmasa da, təsirlidir. Özündən deyil, çox vədə başqa şairlərdən - Bəxtiyar Vahabzadədən, Əli Kərimdən, Nəriman Həsənzadədən, Məmməd Arazdan, Ramiz Rövşəndən, Vaqif Səmədoğludan, Vaqif Bayatlıdan, Eldar Baxışdan, Sücaətdən... ("Yatmıram ki, ağlayıram gecələr!") əsərlər səsləndirir.

Bədgüman deyiləm, "repertuarında" məndən də var, elə ki, hardasa qəfil görüşürük, qardaş istiqanlılığı ilə qoluma girib, "Mən bir gül kolpanı, gül topasıyam, Bəhmənlidə, Həsənqulu oğlu Qəbilin yurdunda", yaxud "Ehey, kim saxlayıb bu səkidə maşını?", yaxud "Kirayədə yaşadığım evlərin darvazası balacaydı, əyildim", - deyə hayqırır... Bu, guya onun mənə zarafatıdı. Əgər, "Ə, bəsdi, camaat eşidir, məni biabır eləmə", - deyib qarşısını almasam, deklamasiya hələ bir müddət də çəkər...

Rəşad Məcid öz şeirlərini də ehtirasla, gözü alacalanaraq oxuyur. Xüsusilə, "Xilaskarım" əsərini. Bu şeirin həyat prototipinin, yəni real predmetinin siqaret olub-olmadığı ədəbi mübahisələr doğurmuşdur. Rəşad elə adamdır ki, dadına baxdığı, uzaq olsun, zəhərsə də, əgər həqiqətən, ziyanlıdırsa, onu digərlərinə rəva bilməz.

Elə bu səbəbdən qəti şəkildə deyirəm ki, "Xilaskarım" şeirinin kontekstindəki siqaret tüstünün, adətgərdəliyin deyil, mühitin insan üzərindəki şiddətinin və bu şiddətə sinə gərən səbrin, çarəsizlikdən çıxış yolunun simvoludur. Şeirdə siqaret sadəcə, tükədilən zərərli bir qida olmayıb, tükənmək, bitmək təhlükəsiylə üzləşənləri xilas edəndir. Təbii ki, o şeiri qələmə alarkən, müəllif mənim və başqalarının mülahizələrinin sonradan necə olacağını ağlının ucundan belə keçirməyib. Amma, kor-kor, görgör, şeirdə tənbəki tüstü deyil, son güman yeri, tutalğacdır, hətta dostdur, arxadır, cismin zəhərlənməyi hesabına olsa belə, ruhu diri saxlamaq vasitəsidir. Xilaskar yalnız gücü bərpa etmir, gücdən düşənə qüvvə verir. O, bəlkə də yeganə pasibandır. Düşüncə zəncirini hörüb uzatmaq olar; qısaca, bu şeirin çağırışı, məncə, ondan ibarətdir ki, ey çevrə, ey insanlar, ətrafınızı nəzərə alın, heç kimi, heç nəyi təntitməyin, mərdi qova-qova namərd eləməyin, bir kimsəni bir büküm siqaret cığarasının içinə soxmayın! Və əgər bu baryerlərin çıxılmazlığı şiddət edirsə, o zaman insa-

nın bir fərd olaraq gümanı gələn hansısa bir çətiri başına ələnən daşların qarşısına tutmaqdan özgə çarəsi qalmır. Əgər qarşısıalınmaz şər qüvvə həmlə edirsə, müdafiə ehtimalı, əks-hücum imkanı məhduddursa, o zaman insanın hansısa bir qaya yarığına, tüstü görünməzliyinə, hətta sərgərdan bulud layları altına sığınmağı da, ən azı şair nəzərindən mümkün və məntiqlidir. "Xilaskarım" şeiri poeziyanın emosional şkalasında qələmə alınıb və bəlkə də birnəfəsə deyilib, oxunub, sözün düzü, mən "dadından vaz keçilməyən" o bəyaz tüstüdə azacıq xalis, çoxillik şərab ətri də hiss etdim.

Şair Rəşad Məcidə yalnız "Xilaskar" xatirinə güzəşt edə bilərəm. Əslində İsa Həbibbəylinin dediyi kimi, Rəşad Məcid ilham və idrakla, qələm və kağızla təkbətək qaldığı hallarda digər yaradıcılara bənzəməyən sətirləri sıralayan, dilə, qələmə gətirdiyi, yalnız özününkü olan bənzərsiz şairdir. Qarışıqlıq düşməsin deyə bu yerdə şeirləri yer alan digər kitablarını dirsəyimlə masamın uzaq küncünə siyirir və büsbütün poetik ruhdan ibarət "Bir də gəlməyəcək" kitabı ilə nəfəs-nəfəsə qalmağa üstünlük verirəm.

Bəri başdan deyim ki, bu poeziya toplusu - Rəşad Məcidin poeziya çələngi - nəğmə buketi son on ildə yalnız onun deyil, ümumən çağdaş poeziyamızın uğurlu məxəzi olmaq şansını qoruyub saxlayır. Məncə, kitabın bel sütununu təşkil edən üç bölmənin - "Tanrının bəxşişi" - dastan, "Yenə də bahar qayıdır" - roman, "Martın biri" - hekayə adlandırılması yalnız tərtibatçı uğuru deyil, dostumuzun yenilik axtarışlarının, yaxud onun hər cəhətdən novator davranışlarının növbəti təzahürüdür.

"On gün", "Bir də gəlməyəcək" ədəbi antologiyanın (ona görə antologiya ki, burada dastan da, roman da, hekayə də, üstəlik, tarixçə irəliki illərə aid, ənənəvi və azadyana şeirlər də var) sıralamaya görə dördüncü şeiridir. Əsəri olduğu kimi köçürürəm:

Əzab verib düz on gün,
On gün də əvəz verir!
Hisslərini yazmağa
İlahi nəfəs verir.
Yanına qaldırıbdı,
Uca buludlardasan.
Boylan, bir də bax indi,
Anla, bir gör hardasan?

Bu işığın içində
Az zamanın var sənin.
Çox da yuxarı qalxma,
Ruhlar aparar səni.

İlahi qüdrətini,
Bax, göndərir yazmağa.
Cəmi onca günün var
Yüz on şeir yazmağa.

Mənim bəzi şakərlərim var, güman elədim ki, "Tanrının bəxşişi"ndə yəqin yüz on şeir var, rəhmətlik atam demişkən, "prinsipə düşüb" saydım və gördüm ki, "Dastan"dakı şeirlərin sayı yüz on yox, üç o qədərdir. Statistikaya yuvarlanmayaq. Məsələ burasındadır ki, Rəşadın bu ufacıq şeiri say haqqında deyil, vaxt, zaman barəsindədir. O zaman ki, çatmır, o zaman ki, macal adlı bir sinonim ismi də var, səni Allah-təalanın çiyninə qoyduğu şairlik missiyasından cüda salır. Rəşad Məcid "bütün yönləriylə yaradıcı" olduğuna görə, o, həmin şeirin yarandığı zaman kəsiyində poetik duyğularının kağıza köçürülməsini vətəndaşlıq naminə, Seyran Səxavət demiş, qurban tikəsi kimi yeddi yerə bölür.

Rəşad Məcid Azərbaycan poeziyasında, tutalım, belə bir anlamda bənzərsiz şairlərdəndir ki, yalnız pafos və statik ədəbi qaydalar əsasında qurulmuş "mükəmməl" məmulatları ayrı bir şəkildə uçurub dağıdır. Onun şeirlərində ənənəvi, qafiyənin, bölgünün, hecanın, təqdinin gözlənilməz hallarına rast gələ bilərsiniz, amma orada hissin, duyğunun təhrifi gözə dəymir. Həmişə yox, bəzən şeirdə hansısa nəzəri qaydalar pozula, yaxud ikinci dərəcəli ola bilər, təki obrazlı düşüncə, poetik hissiyyat nələrisə ötürmək energetikasını hifz etsin.

İlahi tərəfə yol alacağam,
Yuxuma gəlməzdi iki il öncə.
Onu ki Allahım bəxşiş eylədi,
Yaxına gəlməzdi iki il öncə.

Qarşımda yox idi belə ucalıq,
Durub gözləyirdim - gəlir qocalıq.
Çayından ayrılan bu qızıl balıq
Arxına gəlməzdi iki il öncə.

Üzdüm tərs tərəfə, axına deyil,
Baxdım uzaqlara, yaxına deyil.
Gördüm ki, bu xına o xına deyil,
Bu xına gəlməzdi iki il öncə.

Ömrün hər məqamı olmur ki, dərin,
Üzürəm içində neçə dərd-sərin.
Qarşıda yaşanıb görəcəklərim
Ağlıma gəlməzdi iki il öncə.

Poeziya ilə az qala, Rəşadın yaşı qədər ilişgimə əsaslanıb deyirəm ki, bu şeirdə müəyyən misraların daha rəvan və yatımlı

olması üçün təshihlər aparıla bilər. Amma bu, boşuna bir təklifdir. Əgər bu və Rəşadın digər şeirlərinə kənar müdaxilə olsa, cərrah tikişlərinin yeri, izləri mütləq qalacaq. Bu mövzuya daha toxunmayacağam. Eləcə "Bir də gəlməyəcək" kitabını tam bir arxayınlıqla vərəqləyib imkan daxilində irəliləmək istəyirəm, yəni poeziyasına, qəlbinə, şairin dünyasına doğru bir qədər də irəliləmək istəyirəm...

Rəşad Məcidin "Dastan" altyazısıyla təqdim etdiyi böyük silsilənin vurub-tutan, qələbə qazanan, məğlubiyyət acısı dadan baş qəhrəmanı – Koroğlusu, Aşıq Qəribi, Tufarqanlısı, Romeosu, Məcnunu, Hamleti sıralanan isimlərdən də göründüyü kimi, sevgidir, məhəbbətdir. Yaddaşım aldatmırsa, şairin şeirlərində bəlkə də ən az işlədilən də elə bu iki söz, qoşa sinonimdir. Onun bu qəbildən olan əsərləri təbiətən qarmaqarışıq eşq duyğularını fərqli sintaksislə, ayrı bir lüğət tərkibiylə anladır. Bunlar, aşiqlik məqamındakı minlərlə sevgi kodlarıdır ki, hələlik onlar adsızdır. Həmin o dilsiz-ağızsız sevgi, heç demə, ən dinc halında belə dibsiz dəryaymış.

Sən mənim halımı görəsən gərək,
Görən çəkdiyimə dözə bilərsən?
Mənim boğazıma çıxan dənizin
Ən dayaz yerində üzə bilərsən?

...Yazmağa nə var ki, sənin halını
Sən mənim halımı yaza bilərsən?

Şairin şeirlərində duyğular, hisslər, həyatla estetik təmas mövzusundan asılı olmayaraq sadə və təbii şəkildə obrazlara, ədəbiyyat faktına çevrilir.

"Yaddaşımı sil" adlı şeirdə şair həqiqi, yüksək eşqə layiq olmaq üçün, sanki qüsl edirmişcəsinə ilahidən iltimas edir ki, onu yenidən yaratsın. Deyir:

İlahi, sən mənim yaddaşımı sil,
İlahi, sən mənə bir sovqat eylə,
Məni bilgisayar, ya telefon bil,
Beynimi təzələ, ya format eylə.

Şair bütün varlığının hüceyrələrinə qədər yenilənməsi təmənnasındadı, yalnız bircə şərtlə:

Bircə, taleyimi başdan yazanda
Məni onsuzluğa düçar etmə sən!
Məni susuz dodaq, çiçəksiz bahar,
Məni kilidi yox açar etmə sən!

Obrazlı istilahın əksini də işləmək olardı, yəni "açarsız kilid". Hər iki halda məna dəyişmir. Fərd çarə axtarır, bir-birinə uyğun ya açar, ya qıfıl ortada yoxsa, deməli, ortada olan çıxılmazlıqdır, məhdudiyyətdir, girişin və çıxışın yoxluğudur. Şairin fərdiyyəti burasındadır ki, o kilidi (əlbəttə, bir məcaz olaraq) iri plana çəkir. Kilid yoxsa, açar nəyə gərək? Allah kilidi də, açarı da qəhr etsin, deyirəm! Amma bununla belə düşünürəm ki, biz paslı kilidləri dərhal özümüzdən kənarlaşdırsaq da, həyatımızın künc-bucağı sıradan çıxmış qıfılların açarlarıyla doludur.

Açar, kilid... sərt metallar bir qırağa, "Bir də gəlməyəcək" adlı yüzlərlə şeirdən, poetik duyğulardan ibarət toplunun baş qəhrəmanı, şəksiz ki, pilə kimi yumşaq, bəzən etiraza gələn, bəzən sıxılıb bərkiyən, bəzən damarları qan çəkən ürəkdir. O ürək ümidlə döyünür, bircə xoşbəxt döyüntüsünü belə itirmək istəmir, aldığı

çatların, zədələrin yerini ilahi bir loğmansayaq sarıyıb sağaltmağa can atır. Şair ürəyi başqa cür olmur, elə bu sayaq olur. Yoxsa, "Dastan" müəllifi durub-durub özündən deməzdi ki:

Qanımı oynadan öpüşlərində
Ruhuma calanan ruhunu gördüm.
İstilik, od-alov qalxdı dərindən,
Gerçəyə çevrilən yuxumu gördüm!

Əynimin ölçüsü, oxşarım, eynim,
Ən uyğun, ən rahat çalağım mənim.
Bu ağac hələ çox bar gətirəcək,
Bardan əyiləcək budağım mənim!

"Dastan" müəllifinə görə sevgi sirri xudadır. Bunu sadə insan da, filosof da söyləyə və reallıq meyarlarıyla əsaslandıra bilər. Məncə, şairin işi ədəbi əsaslandırmadır ki, onun da təzahürü qəlb çırpıntılarının bəhrəsi olan misralarda, sətirlərdə, bəndlərdə, hətta bəzən qafiyələrdə, şeirin fərqli şəkillərində özünü göstərir. Amma Rəşad Məcid insan xasiyyətinə uyğun olaraq bəzən, başqa sözlə, sevgi hisslərilə ləbələb dolu olduğu hallarda qafiyəsiz, hecasız... sadəcə, insan səsiylə belə pıçıldayır:

Xoşbəxtlikdən tərpənə bilmirəm...

Ya da belə deyir:

Gülüşümlə həyatını
İsidəcəm şüa kimi.
Nəfəsimi kürəyində
Duyacaqsan dua kimi.

Deyir:

Ən qatı qaranlığım
Gülüşünlə yox olar.
Məni gülərək oyat,
Gülə-gülə yuxulat!

Sözügedən silsilədə şairin "Mələk" adlı bir şeiri "Bir də gəlməyəcək" kitabının 135-ci səhifəsində yer alıb. Üç bəndlik şeir belədi:

Göydən hansı endi: təyyarə, yoxsa,
Hava limanında gözləyən mələk?
Hifz edib qoruyan, sevinc bəxş edən,
Məni addım-addım izləyən mələk?

Dəli arzusuyla, cəsarətiylə
Qatı cəngəllikdən yol eləyəndi.
Sərhədsiz eşqiylə, məhəbbətiylə
Adamı özünə qul eləyəndi.

Yerdə doğulanın çatmaz cürəti,
Adamı belə tez qaldırsın göyə.
İşıq sürətidi onun sürəti
Bir anda çatdırır ən yüksəkliyə.

Açıq-aşkardır ki, şeirdə səmavi, irreal, mifoloji mələkdən deyil, real, sevimli insandan, indi uçaqdan enəcək şəxsdən gedir. O, indi uçaqdan enəcək, o, ucalıqdan gəlir, lap aşağıda isə onu qarşılayan bir kimsənə var. Belə bədii-həyati təfsilatda, məncə,

bənzətmələrə, təşbehlərə, hətta həmişə sevgiylə bahəm təzahür edən emosiyalara, ah-uflara yer qalmır. Bəlkə də siz məni, yox, qardaş, "bu, Rəşadın heç də ən uğurlu şeiri deyil", - deyə qınaya bilərsiniz. Razıyam. Amma, mən, axı irəlidə dedim, şairin əksər yazıları (poeziya) əsasən, zahiri bərbəzəkdən, nəzəri tərtiblərdən hiss olunacaq dərəcədə uzaqdır. Belə hallarda bütövlükdə mətn, məhz reallığı və bədiiliyi ilk sətrindən sonda qoyulan nöqtəyə qədər ehtiva edir. Lap açığı, deyim, mən Rəşadın şeirlərində onun qəlbən sevdiyi, şeirlərini əzbər səsləndirdiyi Ramiz Rövşənlə bərabər, "Nə xoşbəxt imişəm bir zaman Allah" deyən Əli Kərimlə, "Göllər çiçəkləyir yağış yağanda" – deyən İsa İsmayılzadə ilə, "Bir günah sənindi, bir günah mənim", yaxud "Sən məni özünə öyrətmə belə" – deyən Musa Yaqubla poetik qohumluq hiss edirəm. Deməzdim ki, Rəşad sevgi şairidir, tutalım, Sergey Yesenin, Nüsrət Kəsəmənli misalında. Bu şairdə vəziyyət bir qədər fərqlidir. O bizim doğma şeirimizin bütün kişi şairləri kimi, sevdiyini qınayıb özünü haqlı sansa da, yenə də daha çox ağrıyan, daha çox zədələnən onun özüdür. Bəlkə elə bu səbəbdən xilasın çarəsi kimi, o, Rəşad Məcid sevgini özündən qat-qat yuxarı qaldırır və söyləyir ki,

Adını çəkəndə dilim bal dadır,
Üzüm işıqlanır, Güntək yanıram.
Mələklər qolumdan tutub qaldırır,
Bir boy ucalıram, qanadlanıram.

Genimdi, soyumdu, qanımdı adın,
Minillik tarixi köçümdən gəlir.
Ən dərin qatımda atəş oyadır,
Hüceyrəmdən qalxır, içimdən gəlir.

Qoymaram adına yanaşa kölgə,
Müqəddəs ziyarət, məkandı adın.
Tanrı bəxşişisən, ən məsum körpə,
Ən ağıllı adam, ən üstün qadın.

Sevgi Tanrı lütfüdür. Rəşad Məcidin indi misal gətirdiyim şeirində, çəkinmədən deyirəm, Fərhadanə, Füzuliyanə, Vaqifanə bir yanaşma var; bu da ondan ibarətdir ki, sevginin qırıntıları, hissiyyatları, hüceyrələri lap sonda toparlanıb, böyük sevgini, "ən ağıllı adam"ı, "ən üstün qadın"ı yaradır. Və belə olduğu halda aşiqin sevgi önündə "Savayı" harayıyla diz çökməkdən özgə yolu qalmır:

Yaddaşımda nə qalıb ki,
Sirli kələkdən savayı.
Sinəmin altında nə var
Təşnə ürəkdən savayı.

Füzulitək yanan neyəm,
Tənha atlı, tək gəmiyəm.
Kimsə yox dərdimi deyəm,
Əsən küləkdən savayı.

Barışdığım gərdişim var,
Alışdığım vərdişim var...
Mənim özgə nə işim var
Səni sevməkdən savayı?!

Türk tarixinin və poeziyasının mərdanə şairi Nəsiminin misraları yadıma düşür:

Zahidin bir barmağın kəssən
dönüb Həqqdən qaçar,
Gör bu gerçək aşiqi
sərpa soyarlar, ağrımaz.

Bizim təpədən dırnağa şair, nə yazıq ki, həm də sovet şairi Süleyman Rüstəm də Allah- təalanın hökmü və ədəbi təcrübənin varisliyindən bəhrələnərək yazırdı ki:

Rüstəmin onda ki, canan görünür gözlərinə,
İmtahançün sən onun barmağın kəs, bilməz!

Rəşad Məcid bəzən insafsızcasına özünü "talesiz", hardasa "uduzmuş şair" "saysa" da və bunu etiraf etsə də, bütün sinirləri, özünün tez-tez işlətdiyi hüceyrəsiylə ədəbiyyat tarixinə bağlıdır və oradan qidalanır. Məsələn, belə:

Heç nə sona yetən deyil,
Bu eşqə qəfəs bilmərəm.
Bu ruhumda, bu halımda
Barmağımı kəs, bilmərəm!

Oxşarlıq və fərq göz önündədir, məncə...

***

Mən monoqrafiya yazmıram, sadəcə, uzun illərdən bəri yaradıcılığını, ədəbi-ictimai fəaliyyətini izlədiyim, bütün bunların mənə yalnız və yalnız hüzur, könül şükranlığı verən bir şəxsin 60 yaşına yetişməyinə bir vəsilə olduğunu düşünərək qələmə alıram. Və burada onun poeziya sərvətinə münasibəti sərgiləyən düşüncələrə nöqtə qoyuram. Fərqli mülahizələrin Rəşad Məci-

din ədəbi çalışmalarının daha mükəmməl şəkildə izlənməsinə həsr edilən digər məqalələrində yer alacağına ümid bəsləyirəm.

Və belə inamla istəkli şairin, mötəbər qələm sahibinin poeziya ətirli bir neçə kitabını yazı masamdan aralayıram. Hətta, yarıdan çoxu poeziyadan ibarət olan "10 sentyabr" kitabını belə...

Söz-sözü çəkir...

Tənqidçi-şairə Bəsti xanım Əlibəylinin olduqca məzmunlu Ön sözü ilə təqdim olunan "10 sentyabr" kitabı yazarın iki hekayəsi ilə açılır: "10 sentyabr" və dırnaq işarəsi altında "Cənnət dərəsi". Hər iki hekayə barədə son 20 ilin mətbuatında, ədəbi icmallarda, yazıçının yaradıcılığına həsr olunan məqalələrdə geniş bəhs edilib. Bu hekayələrin dünya və milli nəşrimizin bədii-estetik parametrləri əsasında qurulduğu şübhə doğurmur. Yazıçının ciddi məramı, yüksək humanizm, süjet xəttinin bütövlüyü, fərdiyyət və qloballaşmanın qarşıdurmasından doğan təbii, dəqiq situasiya, yığcam bir mətn daxilində yaddaqalan obrazların unudulmayan simaları... bütün bunlar "10 yanvar" hekayəsinin nəsr uğurunu təmin edir...

Rəşad Məcidin 60 illik uğurlu ömür yolunu qutlayarkən ədibin publisistika yaradıcılığından söz salmamaq ən azı natamamlığa səbəb ola bilər. Mən Rəşad müəllimin son illərdə "Qələmsiz yazılanlar" silsiləsinə dayanan bütün publisistik yazılarını işıq üzü gördüyü anında izləmişəm.

Bu yazıların az bir qismi nəzərdən keçirdiyimiz kitablarda yer alıb ("10 sentyabr", "Əlvida və salam", "Dəlicəsinə", "Qələmsiz yazılanlar"). Həmin əsərlər sırasında "Yazıçının bicliyi", "Elifə mədhiyyə", "Gəncədəki ruh", "57 il öncənin borcu", "İranda bir həftə", "Əsəd bəy və Nuridə xanım", "Ağrı qardaşlarımız - bəlalı Krım tatarları" və s. əsərləri ayrıca qeyd etməyə dəyər. Məhz bu yazılarda publisist Rəşad Məcidin fakt, mövzu seçimi istedadını, mövzunu ən oxunaqlı tərzdə qələmə

almaq səriştəsini, təhlil, tənqid imkanlarının genişliyini görə bilirik. Rəşadın bədii-publisistik yazılarında şairanəlik vətəndaş məsuliyyəti ilə birləşib itilik, kəskinlik, heyrətamiz təsir gücü qazanır. Tək bircə misal gətirmək istəyirəm, "Gəncədəki ruh" yazısından.

"Elə bizim xalqımızın soyuq, rasional düşüncəli xalqlardan fərqi də məhz o ruhdadı. O ruhu bizim qanımızda qoruyub saxlayan, ölməyə qoymayan bizim musiqimizdi, muğamımızdı, sazımız, sözümüzdü. Bəzən muğama da həqarət yağdıranlar tapılıb. Amma onun qanımızın dərinliklərindəki hüceyrələrimizi dipdiri saxladığını kim dana bilər ki? Kim o ruhun yaşamasında Nizaminin, Nəsiminin, Füzulinin, Sabirin, Mirzə Cəlilin, Bəxtiyar Vahabzadənin, Məmməd Arazın... rolunu inkar edə bilər? Üzeyir bəyə də ara-sıra ağız büzənlər olur... Amma kim Üzeyir bəyin musiqisinin böyüklüyünə şübhə edə bilər ki? Kim onun bizim xalqın formalaşmasındakı müstəsna rolunu dana bilər? Kim onun çərçivələrə sığmayan hədsiz-hüdudsuz improvizələrini, insan qanını coşduran əsrarəngiz musiqisini soyuq, bumbuz halıyla dinləyə bilər ki? Amma təəssüf ki, tapılır - dəyərlərimizə qara yaxanlar, öz içinin kəsafətini, kin-küdurətini dahi insanlarımızdan çıxmağa çalışanlar hələ də tapılır. Böyük ziyalılarımızı absurd ittihamlarla sovetə, molla rejiminə xidmət etməkdə qınayanlar tapılır. Nadanın biri yerindən qalxıb birliyimizin çox seyrək ümid nöqtələrindən olan Şəhriyarı molla rejiminə xidmətdə suçlayır. Başqa biri Bəxtiyar Vahabzadəni sovetdən mükafat almaqda, o birisi dəyərli yazarımızı hansısa təltifdə ittiham edir.

...Azərbaycanı istəməyən qüvvələrin ən birinci amalı bax, elə budu - dəyərlərimizi gözdən salmaq, onu aşağılamaq və sonda ruhumuzu öldürmək.

...Bir neçə il öncə "İrşad" otelində keçirilən bir tədbirdə Bəxtiyar Vahabzadəni xəstə, zəif vücudu ilə bir kənarda oturan

gördüm. Aman Allah, üzünü qırışlar bürümüş bu böyük insan uzun illər öz şeirləri ilə ürəklərimizə hakim kəsilmiş, ruhumuzu oyatmış, qəlbimizi coşdurmuşdu. İndi xəstəhal görkəmli bu insan bir qıraqda oturub nigaran baxışlarla tədbirə gələnləri süzürdü. Yaxınlaşıb əllərindən öpdüm. Bu gün o səhnə yadıma düşəndə Bəxtiyar Vahabzadənin böyük şəxsiyyətinə sonsuz ehtiramla bərabər, nə gizlədim, içimdə özümə də hörmətim artır. Mən millətimizə, xalqımıza xidmət edən dəyərli insanların əllərini öpməkdən heç vaxt çəkinmədim. Otağıma gələndə ayağa sıçradım, qabaqlarına yüyürdüm".

Rəşad Məcidin publisistik arsenalı həqiqətən, zəngin, çoxistiqamətlidir. Onlar mahir bir yazarın qələmiylə yonulmuş örnək abidələr kimidi. Onların bir çoxu əlinə yeni qələm alan gənclər üçün nümunə və dərslikdir – bu mənada ki, hansı mövzunu seçməli, təfərrüatı necə öyrənməli, publisistik məntiqi necə qoruyub nizamlamalı, necə yığcam yazmalı...

Amma yəqin siz də fikrimə şərik olarsınız ki, Rəşad Məcidin qələminin təsir gücü bir az öncə "Gəncədəki ruh" yazısından misal gətirdiyim sətirlərdə ideal şəkildə ehtiva olunmuşdur!

***

Ömrünün 60-cı pilləsinə yüksələn Rəşad müəllim Azərbaycanın ən sevilən qəzetlərindən birini yaradıb və aşağı-yuxarı, 30 ildir ki, ona rəhbərlik, baş redaktorluq edir. Bu qəzet ən demokratik, azad fikirli, hər kəsin öz imzasını onun səhifələrində görmək istədiyi sözün böyük mənasında müəllif qəzetidir.

Hansı zümrəyə, cinsə, təvəllüdə sahibliyindən asılı olmayaraq elə bir qələm adamı yoxdur ki, onun imzası "525-ci qəzet"in səhifələrindən kənarda qalsın.

"525-ci qəzet" praktik jurnalistika məktəbidir. Orada püxtələşən gənc jurnalistlər illər boyu çalışıb, tər töküb, axtarışlar

aparıblar. İndi onlar müasir mətbuatımızın özəyini təşkil edən nüfuzlu mətbuat xadimləridir.

"525-ci qəzet" xalqımızın mədəniyyət, mənəviyyat, ədəbiyyat aynalarından biridir. Bu nəşr zamanın real konyukturasını hər zaman və digərlərindən daha öncə nəzərə almağı, üslub və tərtibat, mövzu və maraq dairəsi baxımından dəyişməyi, yeniləşməyi bacarmış, indi də bacarır.

"525-ci qəzet"in uğurları həm də bu istedadlı redaksiyanın milli mətbuat ənənələrini göz bəbəyi kimi qoruması səbəbindəndir.

Elə Rəşad Məcidin özünün şəxsiyyətində və yaradıcılığında Mirzə Fətəli Axundzadənin, Həsən bəy Zərdabinin, Mirzə Cəlilin, Üzeyir Hacıbəylinin... təravət və hərarətini duymaq o qədər də çətin deyil.

Rəşad Məcid də onlar kimi zamanın və taleyin sözçüsüdür. Sadəcə, aradan 100–150 il vaxt keçib. Zaman ötüb keçir, ancaq məram, vətən və millət sevgisi, insanlığa xidmət duyğusu heç zaman öz adını və mahiyyətini dəyişmir. Bu, ilahi, tarixi bir ruhdur ki, nəsildən-nəsilə ötürülür.

Sevinc Mürvətqızı,
publisist

Dosdoğmalığın əski(l)məyən ünvanı

Hər insanın içində, hərdən pərvazlanıb uzaqlara gedəndə belə, istəyəndə ürəklə dönə bildiyi mənəvi yuva statuslu doğma bir ünvan arzusu yatır. Biganəlik dənizinin tufanından sıyrılıb taleyin üzümüzə gülən zamanında da, bəxtin üzüdönük vədəsində də üz tuta bildiyimiz güvənli liman misalı bir ünvan...

Umacaqsız dostluqların barmaq hesabı sayda qaldığı indiki dövrümüzdə Rəşad Məcid tanıdığım gündən bəri mənim və mənim kimi neçə yaradıcı insanın daim dosdoğma əski(l)məyən - köhnəlməyən, azalmayan ünvanı olub.

Rəşad Məcidi ilk tanıdığımda o, mənim indiki yaşımda idi, mən isə universitet auditoriyasının cazibəli ab-havasından yenicə ayrılan, gələcəyə çox ümidli çağımda... Uzun tarixdir, bir igidin ömrü qədər illər keçib aradan...

Və məhz hər gəncin işığa ümidli çağında, ürəkdən gələn təmənnasız mənəvi dəstəyə ən çox ehtiyac duyduğu vaxtda Yaradan yolunu aydınlatmaq üçün birini missioner təyin edir. Rəşad Məcid qəlbindən vəfa borcu, minnətdarlıq duyğusu xali olmayan yaşıd ədəbi nəsildaşlarımla birgə mübaliğəsiz "missioner" deyə biləcəyimiz adamdır.

Sirr isə sadədir. Özünün "Qələmsiz yazılanlar" status-esselərinin birində dediyi kimi: "Sirr xarakterdədir! Sən əgər tanımaza-bilməzə gözəl təşəbbüsləri dəstəkləyirsənsə, yaxşı işləri,

istedadlı insanları ürəkdən, təmənnasız dəyərləndirirsənsə, bu, izsiz qalmır... İnsanlarımız minnətdarlıq duyğusundan, ədalət hissindən xali deyil!"

Rəşad Məcidə olan vəfa borcum zaman-zaman uzun müddət öncələrin o tayında davranışından, sözündən, inamından, təqdirindən, yeri gələndə də tənqidindən öyrəndiyim bu ustad adam haqqında urəyimdən qopan şükranlıq duyğularını dilə gətirməyə təşviq edir.

Onun vaxtikən əvəzsiz dəstəyini, yaradıcılığa açdığı meydanı xatırladıqca o təşviq duyğusu bərabərində şəxsiyyətinə duyduğun sevgini və sayğını da xatırladır və sən də ən azından ömrünün yubilyar pillələrində bunu minnətdarlıqla xatırladığını xatırlatmaq istəyirsən...

Bitərəf Əlahəzrət Zaman amansızdır, hamımızı Rəşad Məcidin şeirlərinin birində dediyi kimi, gəncliyin "qələmimizin ürəyimizdən alov diddiyi" qaynar çağından alıb "qəlbimizi bürünməyə xatirə" axtardığımız vaxtın qoynuna tullayır. Və həyat adlandırdığımız bəzən o kəlləmayallaq tullanışın içində anlayırsan ki, yıxılacağın ehtimallarda tutalqa adamları Tanrı bilərək təkrar-təkrar qarşına çıxarır - çoxdan bildiyin təmənnasızlığı, insanlığı və mərdliyi yenidən xatırlatmaq naminə.

Bu baxımdan Rəşad Məcid dönə-dönə üz tutulacaq dönməz ünvanlardandır. Çünki "Bu su bu daşdan keçincə nə çəkir, Allah bilir" misrasının müəllifi müstəsna həssaslıqla qarşısındakı insanın bir baxışından, səsindəki titrəyişin intonasiyasından bilir nə var, nə yox... Rəşad Məcidi də "bilməyən"lərdən ayıran, ayrıcalandıran da məhz bu bilməyidir... "Heç bilənlə bilməyən bir olarmı?" Və ən gözəli odur ki, bu qədərini bilən Rəşad Məcid ruhunda işıq sezdiyi, inandığı insanlar üçün elədiklərini nə dilinə, nə ağlına gətirməyi lazım bilmir... Bilmədiyi də bircə budur. Amma biz ki xatırlayırıq, bilirik...

Və belə adamların da mükafatı Yaradandan gəlir: Hansısa ürəyə əkdiyi ümidin cücərməsiylə, qəfil sürpriz kimi qarşısına çıxan kimlərinsə şükranlıq kəlmələri ilə, simasında öz "uşaqlığının təkrarlandığını, adının oxşar çağırışı ilə kövrəldiyi" nəvələrinin varlığı ilə, illərin həsrətindən sonra gözünə-könlünə hakim kəsilən "Şuşa ovsunu" ilə, eləcə də dəlicəsinə istəklərin və zəhmətin bəhrəsi olan daha nələrlə... Və bütün bunlardan doğulub qəlbinə, baxışına dolan, boyuna biçilən fərəh dalğası Rəşad Məcidə elə indiki yubiley yaşı kimi yaraşır.

Düz on il əvvəl 100-ü yarılamağı münasibətilə yazdığım yubiley təbrikində "Rəşad Məcidin elə bu şövqlə, bu dəlicəsinə istəklə 100 yaşa çatacağına və mənim də hələ neçə-neçə belə yubiley yazıları yazacağım" ümidini səpib çıxdığım yazının sonluğunu yubilyarın 60 yaşında qəfildən xatırladım. Bir çox səbəbdən üzüm güldü: Əvvəla, Allahın bəxş etdiyi növbəti ömür payına, aradan keçən onilliyin dostluqları əskiltmədiyinə, ədalət hissimin, minnətdarlıq duyğumun korşalmadığına və taleyin qismət etdiyi misilsiz bəxşişlərlə altmışına yetişən Rəsad Məcid ünvanının həmişəki doğma varlığına...

Və inanmaq istəyirəm ki, on il əvvəl yazıya atdığım o ümid toxumunu tale yubilyarın gələcək yuvarlaq tarixlərində də yenidən xatırlamağı nəsib edəcək. Əsas yaşamaqdır, yaşatmaqdır... Və Allahın qarşıdakı onilliklərdə də Rəşad Məcidə uzun, sağlam və ürəyincə olan ömür payı verəcəyinə bəslədiyim işıqlı ümidi onun misrasındakı digər bir ümidlə qoşalaşdırıb yubilyara ən xoş arzularla yazıdan ayrılıram: "Hələ ki vaxt var..."

Rəşad Məcidin sözü haqqında

Cahangir Məmmədli,
professor

Rəşad Məcidin sevgi notları

Elmi düşüncəsinə, elmi yaradıcılığına çox inandığım akiademik İsa Həbibbəyli məqalələrinin birində Rəşad Məcidi bütün yönləri ilə yaradıcı şəxsiyyət kimi səciyyələndirib.

Rəşad Məcidi tanıyanlar akademikin bu fikrinin tam həqiqət olduğunu yaxşı bilirlər. Rəşad Məcidin yaradıcılıq istiqamətləri doğrudan da çoxdur. Amma bu yaradıcılıq istiqamətlərindən ikisinin birindən hansının əvvələ düşdüyünü müəyyən etmək də çətindir: onun publisitikası öndədir, yoxsa poeziyası. Bunu dəqiqləşdirmək asan deyil və bu müqayisə anında ağlıma belə bir fikir gəlir: Rəşad publisistika və poeziya yaradıcılığını paralel istiqamətdə gerçəkləşdirir. Elə onun lap bu yaxınlarda nəşr edilən "Qələmsiz yazılanlar" kitabını status- publıisitika hesab etsək, eyni vaxtda nəşr olunan "Səbəbi sənsən" – sevgi şeirləri kitabını da yüksək poeziya formatı kimi qəbul etməliyik. Və mən özümə bir neçə istiqamətdən doğma bildiyim Rəşadın əlimdə olan "...Sevgi şeirləri"nin üzərində dayanmaq istəyirəm.

Kitabın adı: "Səbəbi sənsən". Kitabın məzmun mahiyyəti "Sevgi şeirləri". Adətən, hər hansı şairin poeziyasını təqdim edən kitablar polifonik-çoxistiqamətli tematikada olur, müəllifin toxunduğu çoxçeşidli poetik duyğuları təqdim edir. "Səbəbi sənsən" oxucuya əvvəlcədən bildirir: bu, yalnız sevgi şeirləridir. Və həqiqətən burada toplanan 147 şeirin hamısı yalnız sevgi mövzusundadır. Amma poeziya və xüsusilə sevgi poeziyası o

zaman təsir edir, o zaman duyğulandırır ki, onun bətnində poetik ifadə ilə fəlsəfi düşüncə, predmetə fəlsəfi baxış vəhdətdə olsun. Bu vəhdət Rəşad Məciddə xüsusi struktur yaratmaq istəyindən deyil, bəlkə də Tanrı vergisinin reallıq təcəssümüdür. Çünki poeziya elə bir intim yaradıcılıq faktıdır ki, onun isrehsalında Allah vergisi əsas rol oynayır. Və Rəşad Məcidin bu kitabında toplanan şeirlərin bir çoxunun duyğulu mahnı motivlərinə çevrilməsi də, məncə, daha çox bu keyfiyyətin səbəbindəndir. Bu şeirlərdə bir Pasternak üslubu var: lirik düşüncələri ilə duyğulandırmaq üçün ənənəvi qafiyə ustalığı, fəlsəfi yanaşmalar üçün qafiyə etinasızlığı. "O" şeirinin adına baxıram, Yevtuşenkonun yazı manerası yadıma düşür. Bu şeir nahaqdan mahnılaşmayıb. Şeirdə belə bir həqiqət var ki, O-yəni sevgi qadını:

Qaldırıb göyün qatına
Mindirər şahlıq atına.
Dad gətirib həyatına,
Cənnətə yetirər səni.

Və bu cənnət gerçəkliyinin cəhənnəm təzadı:

Əlində yarağın qalmaz,
Dəftərin varağın qalmaz,
Heç nəyə marağın qalmaz,
İşini bitirər sənin.

Sevgi dünyasının reallıqlarını yaşamışlar üçündür bu misralar. Sevgi dünyasının reallıqlarında cənnət və cəhənnəm qoşadır, birindən o birinə cəlbedici bir keçid qapısı həmişə aşiqi gözləməkdədir.Yaşanan əsl sevginin bu cənnət və cəhənnəm təzadları "Mələyim, İblisim"şeirində öz reallığını birbaşa göstərir:

Gah güllü çəmənsən, gah qara zindan,
Gah qatil olursan, gah da ki qurban.
Gah göydə yaşadan, gah yerə çırpan,
Ruhum, azadlığım, məhbəsim mənim. (“Mələyim, İblisim...”)

Bu kəskin təzadları-antonimləri daha bir şeirində elə ifadə edir ki, poetik düşüncənin inamına heyrət etməyə bilmirsən:

Sən gecəm-gündüzüm, sən toyum-yasım,
Sənsən dar ağacım, sənsən xilasım,
Əynimə olursan ən düz libasım,
Boyuma biçilən kəfənim mənim. (“Sənsən...”)

Bu sətirlərdəki inamı və kədəri, sevinci və qüssəni yaşamamaq və elə müəllifin özü kimi qəbul etməmək mümkün deyil.

Rəşad Məcidin sevgisi real, həyati olduğu qədər də ağır və çəkilməzdir. Bu sevgi ayrılığa, kədərə bürünəndə şair onu kiminləsə bölüşməyə də ürək eləmir, çünki dərdi yaxınlarla bölüşmək olar, bu “yaxınları” isə şair qəm odunda yandırmaq istəmir:

Adam bir adam gəzir,
Dərdini danışmağa.
Kədərini bölüşüb,
Ürəyini açmağa.
Amma mən çəkdiyimi
Kimə desəm əriyər...
Düşdüyüm əzabları
Düşünüb havalanar...
Ən yaxşısı odur ki,
Öz içimdə alışım.

Öz-özümlə bölüşüm,
Öz-özümlə danışım. (“ Öz-özümlə...”)

Beləcə, bu sevgi dərdi təkcə böyüklüyündən deyil, həm də elə bəşəri intimliyindən heç kimlə bölüşüləsi deyil. Həm də bu sevgi o qədər güclüdür ki, onu başqası, özgəsi çəkə bilməz. Bu sevginin, bu sevdanın şirinliyi şairin ifadəsində belə səslənir:

Adını çəkəndə dilim bal dadır,
Üzüm işıqlanır, güntək yanıram.
Mələklər qolumdan tutub qaldırır,
Bir boy ucalıram, qanadlanıram. (“Adın”)

Rəşad Məcidin sevgi şeirlərində obrazlaşan sevgi obyekti heç vaxt dəyişilən, əvəzlənə biləcək bir kəs deyil. Silsilə şeirlərdə sevgiliyə giley də var, qısqanclıq da var, əsəb də var, amma bu sevgi unudulan, dəyişilən deyil, çünki ondan bir daha olmayacaq:

Qoluma girəcək yenə də qızlar,
Əsən xəfif külək O olmayacaq.
Hansısa baxışlar nəsə deyəcək,
Nə arzu, nə dilək O olmayacaq.

Bu da doğrudur ki, haçansa qəlbən yaşanan, birdəfəlik ürəyə köçən sevgi üzüldüsə, itirildisə, eləsi bir də heç vaxt olmayacaq. Bu, əzab dolu, kədər dolu bir reallıqdır ki, şair bu ağır gerçəkliyi poetik sətirlərə çevirir:

Min dəfə qayıdam, min yol axtaram,
Beləsi bir daha doğulmayacaq.

Tapdığım gözəllər tez gözdən düşüb,
Sevdiyim mələklər O olmayacaq. (“Olmayacaq”)

Şair bu fəlsəfəsində – “ondan olmayacaq” fəlsəfəsində israrlıdır. Onun bədii fəlsəfəsində ürəyə, qəlbə hopmuş sevgi və sevgili heç vaxt təkrar olunmur. Hərçəndi sözündə belə bir fikir də var ki, “ondan yaxşısını tapsaydı, onu ata da biərdi”. Amma yox, “Səndən yaxşısı” şeirində belə bir “arxayınçılığın” heç vaxt mümkün olmayacağı da öz təsdiqini tapır:

Əgər səndən yaxşısını
tapmağa ümidim olsaydı,
çoxdan atmışdım səni,
Əgər sənin eynini tapa bilsəydim,
həmən unutmuşdum səni.
Bir az sənə bənzərinə rastlaşsaydım əgər...
Amma neynim,
Səndən sonra yüz pillə boşdu. (“Səndən yaxşısı”)

Bu sevgi poeziyasının orijinal keyfiyyəti həm də ondadır ki, kimsə sevdiyini ata bilər, unuda bilər, amma bu unutmaq elə bir ağır dərdə çevrilər ki, onu yaşamağın özü elə “unudulmuş” sevginin qələbəsidir:

Son şeirimi yazdığım gün – son səhər,
Yaddaşımdan uzaqlaşıb itərsən.
Son baxışın bədənimi titrədər,
Gözümdəki son damlayla bitərsən. (“Səndən qalanlar”)

Və şairin “unutmaq” ehtimalı bu sətirlərdən sonra hətta sıfıra enir:

Hər səhər yuxudan durub,
Bir də vurulacam sənə.
Hər təzə sərhədi qırıb
Yürüyəcəm qənşərinə. (“Hər gün...”)

Hətta bu sevginin böyüklüyü, ucalığı o qədər güclü, o qədər müqəddəsdir ki, onun unudulmaq, sevgilinin “beynindən çıxmaq” təhlükəsini sovuşdurmaq üçün bədii bir yalvarış da ortadadır:

Qurban olum, çıxma beynimdən –
elə et ki, sənsiz bir addım da atmayım,
sənsiz bir işim olmasın,
gecəmi-gündüzümü sənə görə bölüm,
yuxudan sənə görə ayılım.
...Səndən baxım aləmə, sənlə görüm dünyanı...
Elə et ki, şeiri sənə görə yazım...
...Elə et ki,
Sənə görə sevim, sənə görə yaşayım... (“Çıxma beynimdən”)

Rəşad Məcid poeziyasında sevgi bir həyat tərzidir, ömrün baharıdır. Bu bahar ömrü payıza dönəndə belə yenə sevgi rəngində, sevgi ətrindədir. Şeirlərinin birində sevgi faktının qəfil qayıdışı, sevgilinin qəfil gəlişi sevən insanın ömrünü, həyatını işıqlandıran bir amilə çevrilir:

Bu yarıqaranlıq,
Bu kiçik otaq
Necə işıqlandı birdən, İlahi!
Bu qəfil sevinci çox görmə ancaq,
Yolla bəxşişini hərdən, İlahi!

Bu şeirdə ayrılığın ağırlığı sevilən kəsin gəlməsindən doğan sevincin gücü ilə ölçülə bilər. Şair Tanrıya müraciətlə:

İzin ver üz tutub söyləyim Ona
Məni həm öldürüb, həm yaşadana
Deyim ki, Tanrıyla yanaşı gəldin,
Söndürdün qəlbimdə təlaşı gəldin,
Gözümün işığı, nə yaxşı gəldin. (“Nə yaxşı gəldin”)

Sufi hikmətində belə bir fikir var: “Məhəbbət insanın öz həyatının bütün mənasını sevgilinin gözü ilə görməkdədir”. Böyük filosofumuz-müasirimiz Səlahəddin Xəlilovun fəlsəfi dünyagörüşündə, xüsusilə Şərq dünyasında məhəbbət, “ya hüdudsuz sevinc, ya xəfif kədər, ya acı faciədir”. Filosovun saydığı bu üç faktorun üçü də Rəşad Məcidin poeziyasında özünü göstərməkdədir.

“Hüdudsuz sevinc” məqamı:
Salıb tellərinin cazibəsinə
Qoymayır bir addım qırağa məni,
Qaynayan gözləri işıq paylayır,
Pərvanə eyləyib çırağa məni. (“Məni”)

Burada “gözün işıq paylaması” birbaşa “hüdudsuz sevinc payıdırsa”, “çırağa pərvanə olmağın” özü də dolayısı bir sevinc faktıdır.

“Xəfif kədər” məqamı:

Sənsiz qaldım, qəlbimin
Artdı qəmi-darıxdım.
Yanına qayıtmağın

Yetdi dəmi-darıxdım.
İnsafı yox gecənin
Qərib, soyuq gecənin,
Oyanaraq gecənin
Bir aləmi-darıxdım. (adsız şeir)

Bu sətirlərdə gecənin qəribliyi, soyuqluğu xəfif bir məhəbbət kədərinin rənglərindir.

"Acı faciə" məqamı:

Əlbəttə, məhəbbət poeziyası daha çox sevgi faciəsi üzərində qurulur. Böyük Füzulinin "aşiqi cünun mənəm, Məcnunun ancaq adı var" misrasındakı etirafı təkcə poetik həqiqət deyil, həm də reallığa çox yaxındır. Çünki özü Məcnun faciəsi yaşamayan şair sevgi poeziyasında sonadək səmimi ola bilmir. O da təsadüfü deyil ki, Rəşad Məcid də məhəbbətin "acı faciə" tematikasında birbaşa Məcnunu xatırlayır:

Sevdaya tutulub bu cavan oğlan,
Oturub ağlayır,durub ağlayır,
Gəzdiyi yolları görmür ayağı.
Ömrün yaşılında, ömrün yazında
Necə ağlamaqdır bu, hönkür-hönkür,
Necə ağlamaqdı məcnunsayağı?!

Əlbəttə, bu ritorik bir sualdır, zira insanın qanmaq çağından tutmuş ahıl yaşınadək sevginin çeşidli "acı faciələri" baş verə bilər və şair "bu cavan oğlanın" ağlar dərdinin səbəbini çox yaxşı bilir. Və o da təsadüfi deyil ki, müəllif o cavan oğlanın eşq, məhəbbət faciəsini reallıq kimi ümumiləşdirərək:

Hər kişi ömründə bir dəfə yəqin
Bax belə sənintək zar-zar ağlayıb.

Aşkarda, gizlində ağlayıb,
İçində, üzündə ağlayıb –
Amma ağlayıb (“Ağla, qaqaşım, ağla”)

Amma bütün bu fəlsəfi və poetik həqiqətlər içində Rəşad Məcid sevgisinin talismanlıq keyfiyyəti daha qabarıq, daha öndədir.

Dörd yanım günəşli, dörd yanım işıq,
Yox olub yolumun dumanı,çəni.
Bir gözəl dilində dua-alqışım
Bir sevgi qoruyur nə vaxtı məni...
...Asılıb sinəmdən gözmuncuğutək,
Bir sevgi qoruyur nə vaxtdı məni.
Ulduz tək gözümdə nur saçır hər dəm,
İşığı dağ çəkir kədərə dərdə.
Hifz edib bəladan, qəza-qədərdən,
Bir sevgi qoruyur nə vaxtdı məni...? (“Bir sevgi qoruyur”)

Rəşad Məcid poeziyasının palitrası çoxçeşidlidir. Buradakı sevinc də, “xəfif kədər” də, “acı faciə” də – bütün bunların hamısı müəllifin bir estetik idealı ətrafında birləşir: sevgi bütün variantlarında insan həyatının ən mükəmməl, pozulmaz tale yazısıdır. Bu bir Tanrı qələminin yazısıdır: onun şirini də, acısı da sevən insana müqəddəs və doğmadır.

Loğman Rəşidzadə
yazıçı-publisist

Ürəklə yazılanlar – Rəşad Məcidin publisistikası

Cəmiyyətin inkişafı uğrunda mücadilə eləcə həqiqət axtarışı, özünütapma və özünüetiraf naminə azad fikrin ilahi yüksəlişinin təntənəsidir.

Həqiqətin dərin kök saldığı qəlblər bəşəriyyətin geniş, işıqlı mənəviyyat adası kimi zaman-zaman insan ağlının, şüurunun, coşqun və tələtümlü ruhunun sığınacağı olub. Həqiqət zamanın xeyrinə bir an belə, susmamalı, dil açıb bizim varlığımızdan, mübarizəmizdən, bəşəri əməllərimizdən, çalın-çarpaz fikirlərimizdən, üzərimizdə bərqərarlaşmış vətəndaşlıq borcundan danışmalıdır. Bu isə insanlığın nəcib həvariləri, azad fikrin və demokratik ruhun apastolları olan ziyalıların, yazıçıların, qələm əhlinin əbədi missiyasından mayalanır. Həqiqət carçısı olan ziyalılar ürək və qəlbin hakim kəsildiyi nəsnələri, ilahi hökmlə möhürlənmiş əməlləri öz isti və munis kölgəsi ilə qoruyub saxlamaqda daim baqidir. Belə ziyalılarımızdan biri istedadlı qələm sahibi, şair, nasir, publisist, mühərrir, bir sözlə, "bütün yönləri ilə yaradıcı" (Akademik İ.Həbibbəyli) insan Rəşad Məciddir. Bəzən biz istedad sözünü fərqinə varmadan geninə-boluna işlədir, səxavətlə demək olar ki, hamıya ünvanlayırıq. İstedad dərin məzmunlu, poetik ruhlu, intellektual siqlətli yazılar ərsəyə gətirməklə yanaşı, həm də zəhmətin qaynarında bişmiş düşünən adam, azad fikirlilik, zəmanənin naqisliklərilə barışmazlıq, sərt

ictimai tənqidçi, nəcib, səmimi maarifçi, coşqun ruhlu vətəndaşdır. İstedad – insanları birləşdirmək, ideyalar yaratmaq (ideallara xidmət etmək), sosial ziddiyyətləri aradan götürmək, siyasi çaxnaşmalar zamanı təmkin və ləyaqətini itirməməkdir. Bizim əziz dostumuz, zərif nəfəsli şair, döyüşkən nasir, publisist, demokratik ruhlu redaktor, dərin analitik təfəkkürlü ədəbiyyatşünas, azad düşüncəli,maarifçi, islahatçı insan Rəşad Məcid belə istedad sahiblərindəndir.

Rəşad Məcidin şeirləri, nəsr əsərləri, publisistikası barədə çağdaş ədəbi sferada geniş söhbət açılıb, onun duyğu və düşüncələri hər üç janrın imkanları işığında geniş şərh edilib. Bu qələm məhsullarında doğrudan da Rəşadın həm istedadı, vətəndaş mövqeyi, humanizmi, azadlıq sevdası, torpaq nigarançılıqları, Qarabağ dərdi və həsrəti bütün çalarlarıyla görünür, həm də özü, şəxsiyyəti, ziyalı obrazı, ipək kimi yumşaq və ipək kimi qayim xarakteri, mübariz, coşqun ruhu boy göstərir. Tələb və zövqlərin şıltaqlaşdığı bir zamanda qəzetçiliklə məşğul olmaq, redaktorluq etmək, jurnalistikada yeni məktəb yaratmaq həddinə qədər gəlib çıxmaq hünər və istedadın göstəricisidir. Doğrudan da Rəşad Məcid müstəqillik dövrü jurnalistikamızın cəsarətli və demokratik ruhlu redaktorlarından biri kimi "525-ci qəzet"in ətrafında bacarıqlı, istedadlı, qəlbi vətəndaşlıq duyğularıyla döyünən böyük bir jurnalistlər (publisistlər) ordusu toplaya bildi. Bu, onun jurnalistikamız qarşısında, ümumiyyətlə, ədəbi düşüncənin, müstəqil fikrin və vətəndaş mövqeyinin inkişafı naminə atdığı ən böyük addımdır. O, jurnalistikamızın nəzəri və təcrübi ənənələrini də öz simasında məharətlə birləşdirə bilən yaradıcı ziyalı, ictimai xadimdir. R.Məcid redaktor kimi özünü bacarıqlı təşkilatçı kimi təsdiq etməklə yanaşı, yazdığı dəyərli məqalələr, resenziyalar, rəylər, verdiyi müsahibələrilə də təcrübəli, səriştəli, cəsarətli və istedadlı publisist, qəzetçi, genişprofilli jurna-

list olduğunu da sübut etmişdir. Başqa sözlə: "Heç şübhəsiz ki, Rəşad Məcid gördüyü bütün işlərdə səriştəli, bacarıqlı və peşəkardır. Amma elə bunları yaza-yaza içimdəki ikinci "mən" deyir ki, cəmiyyətdə nə qədər peşəkarlar var, adamlar onlar haqda nəinki yazmır, hətta, yüz metrliyindən qaçırlar. Görünür, sadəcə peşəkarlıq və bacarıq, hətta istedadın özü də yetərli deyil. Bütün bunlar uzağı yaxşı əsər yazmağa, populyar qəzet buraxmağa kömək edər, amma Rəşad Məcid olmağa yox! Bir çox sirlərin cəmidi, Rəşad Məcid! (Pərvin "Hamının və heç kimin").

Rəşad Məcid uzun illərdir ki, şeir, hekayə və s. ədəbi yaradıcılıqla yanaşı publisist kimi də fəaliyyət göstərmiş, bu sahədə özünü dərin bilikli, erudisiyalı, intellektual bir jurnalist, geniş analitik təfəkkürlü publisist kimi də təqdim etmişdir.

"Rəşad Məcid müstəqillik dövrü Azərbaycan publisistikasının əsas yaradıcılarından və görkəmli nümayəndələrindən biridir" (Akademik İsa Həbibbəyli, "Bütün yönləri ilə yaradıcı Rəşad Məcid").

Onun publisistikası, təbii ki, real həyatdan nəşət tapır, konkret hadisə və əhvalatlardan qidalanır. Və bəzən də xəyal pərvazlarında ömrün və taleyin o taylarına, yaddaşın məhrəm ünvanlarına qanadlanır. Bu da onun publisistikasına şirin bir romantika qatır. O, qələmə aldığı adi məişət hadisələrindən tutmuş geniş rezonanslı ictimai-siyasi problemlərə qədər öz müdaxiləsi, rəy içində rəy formalaşdırması, münasibət içində münasibət yaratması, mövqe içində mövqe nümayiş etdirməsilə daha çox yadda qalır. Belədə o, əsl analitik kimi qələmə aldığı hadisələrə doğru-düzgün qiymət verir, oxucunu öz mövqeyinə, fikrinə, tendensiyasına inandırıb tabe edə bilir.

Onun qələmə aldığı publisistik nümunələr, əsasən, "Dəlicəsinə" adlı kitabda toplanıb. Onun "Roman" adlandırdığı lirik-epik düşüncələri nə dərəcədə lirik-romantik, hissi-emosional

ovqat yaradırsa, "Dəlicəsinə" toplusu da bir o qədər ciddiliyi, ləngərliyi, dərinliyi, akademizmiylə fərqlənir. Lakin burada toplanan məqalələr də poetik ruhdan, romantik ovqatdan, metafizik əhval-ruhiyyədən xali deyil. R.Məcidin publisist qələmi həyatımızın bütün tərəflərinə nüfuz edir, bəzən ictimai nəzarətdən kənar qalan, hətta taleyüklü məsələlərin, biganəlik caynağında vurnuxan və heç kimə lazım deyilmiş kimi unudulan problemlərin üzərinə də işıq salmış olur. Onun publisistik əsərlər toplusu "Dəlicəsinə" kitabının strukturu, ideya-məzmun bölgüsü də bu mənada publisistin məqsəd və məramının açılımına, əyaniləşməsinə kifayət qədər kömək edir. Kitabın içindəkilər belə qruplaşdırılıb: "Yaşadıqlarım", "Gördüklərim", "Dediklərim", "Tanıdıqlarım". Bu bölümlər, ümumiyyətlə, topluya struktur etibarilə bədii-məntiqi aydınlıq verir və oxucunu qabaqcadan mütaliəyə hazırlayır. Belə bir aydınlıq, şüurlu görüntü, oxucu ilə açıq dialoq, ictimai-siyasi hadisələrin yetərincə dəqiq təqdimatı, müəllif fikrinin duyğu və düşüncələrinin səmimi etirafı, ümumiyyətlə Rəşad Məcid yaradıcılığı üçün səciyyəvi cəhətlərdir. "İctimai-siyasi və ədəbi-elmi mühiti tam olaraq birlikdə görməyi və dəyərləndirməyi bacarmaq, daim irəliyə doğru dərkolunmaz obyektiv baxış Rəşad Məcidin jurnalistika fəaliyyətinin və publisistikasının mahiyyətini təşkil edir" (Akademik İ.Həbibbəyli, "Bütün yönləri ilə yaradıcı Rəşad Məcid").

Rəşad Məcidin həyatımızın müxtəlif sahələrinə nüfuz edən publisistik fəaliyyətini şərti də olsa, bir neçə qrupa ayırmaq olar.

İctimai-sosial motivli məqalələri. Rəşad bu mənada həssas müşahidəçi, dərin analitik təhlil istedadına malik jurnalistdir. O, dövrümüzün, içində yaşadığımız cəmiyyətin səciyyəsini bütün təfərrüatı ilə şərh edə bilir, insanlar arasında qarşılıqlı münasibətlərin məntiqinə varır, onların əqli-intellektual, ruhi çabalarını ən incə ştrixlərlə əks etdirir və həssas sənətkar nöqteyi-nəzə-

rindən bu müsbət, yaxud naqis olaylara sərrast ziyalı-sənətkar mövqeyi sərgiləyərək dəqiq qiymət verə bilir.

Ədəbi-bədii oçerkləri – esselər. Onun bədii publisistikasının əsasını təşkil edən bu oçerklər və esselər publisistik sərhədləri ötərək daha çox bədii düşüncə, lirik ovqat məhsulları kimi təzahür edir. Təbii ki, publisistika yaradıcılığında lirik təəssüratlar və bədii düşüncənin üfüqləri kifayət qədər geniş olur. Bu çalarlar da publisistik əhval-ruhiyyəni bədii obrazlılıqla zənginləşdirir, ona yeni təravət verir, müəllif-oxucu ünsiyyətini doğmalaşdırır. Rəşad Məcidin bədii publisistikasında isə bədiilik daha öndədir, daha çox dominantlıq təşkil edir. Onun publisistik məqalələri bitkin bir hekayə, yaxud lirik bir lövhədir. Xüsusən, esseləri. Bu əsərlərin strukturunda, bədii arxitektonikasında və poetik estetikasında duyan bir insanın qəlb çırpıntılarını hiss edirik, narahat bir vətəndaşın zahiri forma və görüntülərdən uzaq ictimai düşüncələrlə dolu qayğılarını biz də onunla birgə yaşayırıq. Onun cümlələrində, sözlərində, ifadə və ibarələrində bəlağət, təmtəraq, saxta şüarçılıq yoxdur, dərin hissiyyat, zərif duyum və universal estetika yaşayır. O, insanda formalaşan və onu zənginləşdirən mənəvi-əxlaqi dəyərləri təkmil və kamil görməyə çalışır, bədii oçerklərində, esselərində bunun nümunələrini yaradıb yüksək qiymətləndirir. O, həm də ona görə uğura nail olur ki, çox yaxından tanıdığı, sevdiyi insanları ədəbi tədqiqatın mövzusuna çevirir.

Ən maraqlı təəssüratlar Rəşad Məcidin səfər qeydlərinin qatlarında yaşayır. O, həm bir redaktor, yaradıcı şəxs, ictimai-dövlət adamı kimi, həm də Azərbaycan Yazıçılar Birliyinin katibi statusunda tez-tez müxtəlif səfərlərdə olur, ayrı-ayrı tədbirlərə dəvətlərdə bulunur. Çox yaxşı ki, bu səfərlərdən Rəşad əliboş qayıtmır, geriyə vağam sünbül kimi dönür, qələmə aldığı oçerklərlə, publisistik qeydlərlə öz oxucularına maraqlı səfər

təəssüratları təqdim edir, yeni məlumatlar verir və beləliklə də bizim ruhumuzu və qəlbimizi təravətləndirməklə yanaşı informasiya bankımızı da zənginləşdirir.

Bir məsələni də mütləq qeyd etmək lazımdır ki, Rəşad haraya səfər edirsə-etsin, hansı ölkəyə, hansı şəhərə gedirsə-getsin – istər İstanbulda, Romada, Strasburqda, istərsə də Berlində olsun, fərqi yoxdur, Qarabağ ağrısını da özüylə aparır, hər yerdən Şuşa görünür, Laçın boylanır, Ağdam baxır ona... İşgüzar səfərlərdə, bu səfərlərin təəssüratı kimi qələmə alınan publisistik qeydlərdə də Qarabağ dərdi və problemi əsas prioritetdir. Onun aydın vətəndaş mövqeyinin mayasında, məhz bu yaşantılar, duyğu və düşüncələr dayanır.

Rəşad Məcid dövrün qlobal dəyişmələrinə, ölkədə və dünyada baş verən siyasi təbəddülatlara, beynəlxalq böhran paradiqmalarına və bununla yanaşı tarixi keçmişimizə son dərəcə ziyalı həssaslığı, ayıq yazıçı fəhmiylə daim operativ reaksiya verir. Siyasi hadisələrə münasibət bir jurnalist-analitik və aktiv ziyalı-yazıçı kimi Rəşad Məcid üçün taleyüklü problemdir, ölkənin, dövlətin mövcud, mürəkkəb və qarışıq dövrdə müdafiəsi məsələsidir. Onun üçün ictimai-siyasi duruma öz qələmi ilə çevik müdaxilə, əslində fəal vətəndaş mövqeyi ortaya qoymaqdır. O, bütün bunları – istər qələmə aldığı zarisovkalarında, verdiyi irili-xırdalı müsahibələrində, siyasi təhlillərində, istərsə də rəsmi məclislərdə, forumlarda, konfranslarda etdiyi çıxışlarda açıq ziyalı mövqeyindən bəyan edir. O, bəziləri kimi buqələmun cildinə girmir, siyasi, ictimai və ədəbi mövqeyini heç vaxt gizlətmir. Bir çoxları siyasəti riyakarlıq, saxtakarlıq, oyun adlandırır. (Yazılı mətnlərdə, filosofların, siyasi xadimlərin çıxışlarında da eyni kontekstlə rastlaşırıq). Amma, görünür hər şeydə olduğu kimi, eləcə siyasətin özündə də səmimiyyətə daha çox ehtiyac duyulur. Rəşad Məcidin səmimi, aydın həyat

və fəaliyyəti, ictimai-siyasi, ədəbi mövqeyi bu mənada da nümunə ola bilər.

Ədəbi-bədii tənqid və ədəbiyyatşünaslıq mövqeyindən qələmə alınan məqalələri də Rəşad Məcidin bir başqa yöndən ictimai-ədəbi məzmununu ortaya qoyur, onun bu istiqamətdə fəaliyyətinə yeni işıq salmış olur. Ədəbi-publisistik fəaliyyətinin bu növü onu "yazıçı tənqidi"nin tanınmış nümayəndəsi kimi səciyyələndirməyə imkan verir. Belə yazılarda onun qrafomanlığa, ədəbi spekulyasiyaya dözməyən amansız tənqidçi mövqeyilə yanaşı, xeyirxah, humanist, qayğıkeş obrazı da canlanır. Xüsusən, gənc yazarlar haqqındakı qeydlərində, onların yaradıcılığı barədə yazdığı ressenziya və rəylərdə bu ürəyiyumşaqlıq və canyananlıq daha çox boy göstərir. O, bu mövqedə amansız tənqidçi deyil. O, tərif də etmir. O, araşdırır, təhlil edir, daha çox ruhlandırır, gələcəyə, uğura səsləyir, yönəldir və yönləndirir. Bir sözlə, əsl dost münasibəti, humanizm sərgiləyir.

Rəşad Məcidin publisistik yaradıcılığına xas cəhətləri bir az da xırdalamaq olar. Amma bizcə, onun bu istiqamətdəki yaradıcılıq estetikasının və ədəbi-publisistik fəlsəfəsinin açılımı üçün dediklərimiz də müəyyən mənada, kifayət edər. O bu məsələləri və öz fəlsəfi-estetik kredosunu "Yeni paytaxt ehtiyacı", "Səfərin təzəsi, dostun köhnəsi", "Əlvida və salam", "Ağ dənizin duzu", "Mətbuat tarixinə yazılacaq böyük hadisə", "Dostluğun böyük nümunəsi", "İdarəçilik Akademiyasında jurnalistika dərsi", "Dövlət İdarəçilik Akademiyasında növbəti dərs", "Doğma adamın "Köhnə və təzə Bakı" nağılı", "Hamıya çatası işıq", "Gördüyüm ilk diri şair", "A" romanı", "Şair və nasir Fəhmi", "İki 5", "Ləqəbi Ağsaqqal", "Gəncədəki ruh", "Özgə planetdən gələn", "Ağ qoç, qara qoç", Nə yaxşı tapdım özümü", "Uğura aparan yol", "Əsəd bəy və Nuridə xanım", "57 il öncənin borcu"

və başqa müxtəlif janrlı, konsepsiyalı yazılarında geniş diapazon və spektrdə açıqlamışdır.

Rəşad Məcidin jurnalistikasının həyata cəsarətlə müdaxilə edən zəngin və rəngarəng mövzular üzərində intişar tapması onun bədii publisistikasının mayasına yeni məna qatır. O, son dərəcə aktual, zəruri mövzulara toxunur, incə mətləbləri çözələyir. O, açıq, aydın düşüncəyə yol açan, insan qəlbini riqqətə gətirən, işıqlı ideyalar formalaşdıran məsələlərdən söz açır. Rəşad Məcid o publisistlərdəndir ki, adilikdə qeyri-adilikləri sezə bilir, çoxlarının yanından sakit-səssiz ötə bildiyi nəsnələri ictimai fikrin diqqətinə yönəldir. Belədə o, müqtədir, bir söz ustasıdır, anlayan və anladan maarifçidir, problemləri sona qədər təşrih edən ictimai cərrahdır. Son anda gələcəyə işıq tutan yolgöstərəndir.

"Rəşadın bir-birini təkrarlamayan mövzularda bəhs etdiklərini fərqli bir rakursdan, həm də stilinə xas ifadə etməsi publisistik səriştəsinin göstəricisidir." (Şəfəq Nasir, "Dəlicəsinə sevə bilsən"). Bəli, Rəşad Məcidin çevik intellektinin və yaradıcı təfəkküründün nəticəsidir ki, həm onun öz yaradıcılığında, həm də "525-ci qəzet"in (bu da eləcə onun yaradıcılığının bir qanadıdır) səhifələrində mövzu zənginliyi və rəngarəngliyi ilə qarşılaşırıq. Bu, həm də onun redaktorluq bacarığından, mühərrirlik istedadından və səriştəsindən süzülüb gələn bir xüsusiyyətdir. Yaxşı redaktorun beyni ictimai mətləblərlə ləbələb dolu informasiya bankı, yaradıcılıq emalatxanası olmalıdır, fikriylə razılaşmamaq olmur. Ə.Haqverdiyev Mirzə Cəlil haqqında xatirələrində yazırdı: "Mirzə Cəlil dost qazanmaqda, ziyalıları işə çəkməkdə məharət yetirmişdi. Yazmaq istedadı olanlara və mövzu qarşısında məəttəl qalanlara mövzu verməkdə yədi-bəyzası var idi. Guya ki, mövzuları cibindən çıxarırdı".

Belə misallar yaxın tariximiz və demək olar ki, müasirlərimiz sayılan müqtədir redaktorlarımız üçün də xarakterikdir.

Azərbaycan mətbuatının korifeylərindən biri, "Bakı"-"Baku" qəzetlərinin banisi, yaradıcısı və 30 ildən çox bu qəzetlərə başçılıq etmiş Nəsir İmanquliyev bizə, gələcək jurnalistlərə tələbə vaxtı dərs deyəndə publisistikada mövzu seçiminə dönə-dönə toxunardı. Deyərdi ki, diqqətli jurnalist hər şeydə, yolda küləyin ağzında cövlan edən adi bir kağız parçasında, cırılmış kitab vərəqində də mövzu tapa bilər. Küçədə gedəndə hər şeyə diqqət yetirin, dükana-bazara baş çəkin, kinoteatrlara yolunuzu salın, adicə afişalara, elan vərəqələrinə nəzər yetirin, ən əsası da insanları müşahidə edin, onların üz cizgilərini, hərəkətlərini, sevinc və kədərini ifadə edən jest və mimikalarını yadınızda saxlayın. Bütün bunların hamısı gələcəkdə sizin üçün mövzu mənbəyi olaraq yaddaşınızda kodlaşacaqdır.

Digər bir mətbuat korifeyimizin bu tipli tövsiyələrini və təcrübi hərəkətlərini, öyüd və nəsihətlərini öz həyatımda, öz taleyimdə birbaşa yaşamışam. Bizim unudulmaz müəllimimiz və mənim ilk redaktorum Nəriman Zeynalov redaktorluğun bütün parametrləriylə nümunə olduğu kimi mövzu seçməkdə də taysız-bərabərsiz idi. Redaktorluğu dövründə "Sovet kəndi" qəzetində doğrudan da o, bir inqilab etdi və yeni məktəb yaratdı. Mövzu seçməyi isə tamam başqa aləm idi. Bir dəfə məni çağırıb sorğu-sualsız dedi ki, get növbəti nömrəyə bir felyeton hazırla, adını da qoy "Qarpız kəsdim yeyən yox..." Sonra əlavə etdi, eşidibsən, belə bir mahnı? Dedim, eşitmişəm. Dedi ki, mahnıdan yazma ha, camaat qarpızdan zəhərlənib qırılır. Bildin də...

Bir dəfə də axşamüstü çağırıb dedi ki, mən bilirəm, Nazim Hikməti çox sevirsən, öhdəsindən gələrsən. Sabahkı nömrəyə Nazim Hikmətdən bir şey yaz, adını da qoy "Mən bir ceviz ağacıyam..." Gecə yatmadım. Səhər tezdən böyük bir material artıq redaktorun stolunun üstündəydi. Nöqtə-vergülünə toxunmadan çapa göndərdi. Səhv eləmirəmsə, N.Hikmətin 70 illik yubileyi idi.

Söylədiklərimə xatirə kimi yanaşmayın. Bu xatirələrdə jurnalistikamızın həm nəzəri, həm də təcrübi dərslərinin yaddaş xəritələri cızılmışdır. Bəli, jurnalistikada mövzu seçimi prosesi uğurun yarısıdır, bəlkə bir az da artıq. Rəşad Məcid belə müqtədir insanların, əvəzolunmaz müəllimlərin məktəbini keçdiyinə görə özü də qurucu oldu, məktəb yaratdı. Məhz bu redaktor həssaslığıdır ki, özünü onun publisistik nümunələrində də yaradıcı eleksir kimi göstərir. Məhz, Mirzə Cəlildən üzübəri həmin yaradıcı ruhdur ki, Rəşad Məcid kimi redaktorların simasında təcəlla tapır.

Qeyd etdik ki, Rəşad Məcid öz publisistikasında həmişə ciddi əks-səda verən hadisələrə, impulsiv problemlərə toxunur. Bu aktual məsələlər onun vətəndaş narahatlıqlarından qaynaqlanır. "Rus bölmələri haqqında köhnə mif" ("525-ci qəzet", 16 mart, 2019-cu il) adlı analitik yazısında Azərbaycan üçün tarixən üzücü, ağrılı bir məsələ olan orta məktəblərdə rus dilinin tədrisi probleminə toxunulmuşdur. Bugün bütün olmuş və olacaqlara baxmayaraq, Azərbaycan insanı rus basqısının üfüqdə parıltısını daim görə-görə, bu kal meyvənin acısını həmişə dada-dada yenə də rus dilinə kütləvi meylin havasının yaşantısı publisistə qəribə gəlir. Bu həvəsin kökündə dayanan hansı hissdir, hansı həvəsdir? Rəşad Məcid açıq-aydın bir mövqeylə, sadə, anlaşıqlı mühakimə tərzi ilə bu bəlanın simptomlarını araşdırır. Düzdü, bizdə digər xarici ölkələrin dili də kifayət qədər geniş şəkildə tədris olunur. Lakin heç bir xarici dilə bu qədər meyl və həvəs də yoxdur. Bu da təhlükəli bir sindroma gətirib çıxarır, nəticədə rus dili Ana dilimizi üstələməyə başlayır. Ziyalı narahatlığı və nigarançılığı da əsasən, buradan qaynaqlanır.

R.Məcid ciddi bir təəssübkeşliklə yazır: "Sonda bir məqamı qeyd edim ki, məncə, Azərbaycanda kimsə rus dilini bilməyin, öyrənməyin əleyhinə deyil. Rus dili dünyanın ən zəngin, işlək dillərindən biridir, böyük ədəbiyyat, mədəniyyət, elm dilidir. Bu

dildə dünyanın bir çox məşhur şəxsiyyətləri danışıb-yazıblar və indi də belədir. Üstəlik, rus dili qonşu, tarixən bağlı olduğumuz nəhəng bir dövlətin dilidir. Bütün buna görə ruscanı da öyrənib-bilmək vacibdir. Amma çox vacib, hətta taleyüklü bir şərtlə: hansısa başqa dilin, o cümlədən ruscanın Ana dilimizdən nəinki yüksək, heç ona bərabər də tutulmasına, dövlət dilimizin önünə keçməsinə imkan vermədən!".

Rəşad Məcid Qurban bayramı ərəfəsində cəmiyyətimiz üçün digər bir ağrılı məsələyə ziyalı həssaslığı ilə münasibət bildirmişdir. Hamımıza məlumdur ki, bir çox istedadlı tələbələr təhsil haqqını ödəyə bilmədikləri üçün daxil olduğu ali məktəblərdə oxumaqdan imtina edirlər. Rəşad Məcid bu məsələyə sərt reaksiya verib və imkanlı adamları bu işdə yardımçı olmağa çağırıb. Burada da onun mövqeyi sərtdir, birmənalı və qətidir. Bu yazıda o, imkanlı, zəngin vətəndaşlarımızı təhsil haqqını verə bilməyən gənclərimizə köməyə çağırır. Onun müraciəti tərpədici və səfərbəredicidir. "Qarşıdan Qurban bayramı gəlir. Peyğəmbərimiz də elmi ibadətdən üstün tutub. O qoyunları sıraya düzüb cənnətə yol axtarınca bu tələbələri sevindirib savab qazanın!

Ən yaxşı cənnət təhsil almaq istəyən gənclərin dualarındadır!..

Buyurun zənginlərimiz".

Ən nəhayət, "Qələmsiz yazılanlar..." Virtual aləmə səyahət, Rəşad Məcidin sms dünyasında görüşlər, statusların romantik ab-havasında üfüq ovqatı... İnternet saytlarından istifadə, hansısa bir sosial şəbəkədə mövcudluq, ola bilsin ki, bəziləri üçün əyləncə, digərlərindən ötrü vaxt öldürmək, iddiasını, təşnəsini söndürmək, bir başqası üçün dəb xatirinə dəstədən geridə qalmamaq cəhdləridir. Yazıçı-publisist, üstəlik Rəşad Məcid kimi həssas, hər şeydə min bir məna axtaran və tapan istedadlı yazarlar üçün əyləncəli virtual məkan ciddi ədəbiyyat və jurnalis-

tika meydanına da çevrilə bilərmiş. Rəşad hər kəsin adi və saya, yaxud ötəri, keçici sandığı, əyləncə hesab etdiyi nəsnələri də ədəbiyyat və publisistikanın ciddi predmetinə çevirməyi bacardı, özünün "cığıracan"lıq statusunu bir daha yeni bir ilkə imza atmaqla möhürləmiş oldu. R.Məcidin təqdim etdiyi esse-smslər, yığcam süjetli statuslar, digər internet söhbətləri publisistikanın çevik, eksklüziv janrıdır. "Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində Rəşad Məcid tam yeni janrlara imza atmışdır. "Status-esselər" və "sms-esselər" adlandırdığı sosial şəbəkə yazışmalarından ilk dəfə Rəşad Məcid müstəqil janr kimi söz açmışdır." (Akademik İsa Həbibbəyli).

Rəşad Məcidin "Qələmsiz yazılanlar" virtual esseləri, kodlaşmış alqoritmik ədəbi-publisist düşüncələri heç şübhəsiz ki, müasir dünya bədii təfəkküründə gəlişmiş bir formadır. Bu virtual düşüncələr yaradıcılıq üslubu və elektron janr kimi Azərbaycan ədəbiyyatında, jurnalistikasında da artıq oturuşmağa başlamışdır. Bu düşüncələr Xalq yazıçısı Kamal Abdullanın "Əvvəl-axır yazılanlar", Rəşad Məcidin "Qələmsiz yazılanlar" adıyla dərc edilərək üzə çıxmışdır. Bu yaxınlarda mərhum ədəbiyyatşünas, görkəmli tənqidçi və böyük ziyalı Arif Əmrahoğlunun "Fasebook" statusları tələbələri tərəfindən toplanaraq "525-ci qəzet"in 19 iyul 2019-cu il tarixli nömrəsində yer aldı. Demək, təşəbbüs ənənəyə çevrilməyə başlamışdır. Azərbaycan ədəbiyyatında və publisistikasında kimsə sinəsini irəli verib bu işi aşırmalıydı, zamanın tələbi kimi bu addım gec-tez atılmalıydı. Rəşad Məcid ilk təşəbbüskar oldu, yeniliyi yeni tərzdə ictimai rezonansa çevirə bildi. Bundan sonra, ola bilsin ki, virtual ədəbiyyat və publisistika janrı ənənəvi yazıları, hətta, üstələmiş də olsun. Bu zaman nə tarix, nə də virtual ədəbiyyat və jurnalistikaya gələn yeni nəsil, əlbəttə, Rəşad Məcidin xidmətlərini unutmayacaqdır.

Bu xüsusda Mehman Həsənli "Ədəbiyyatda esse" adlı məqaləsində yazır: "Rəşad Məcid "Əvvəl-axır yazılanlar" silsiləsindən (Kamal Abdulla) ruhlanaraq sosial şəbəkələrdəki statuslarını "Qələmsiz yazılanlar" başlığı altında təqdim etməyə başladı. Doğrudan da sosial şəbəkələrdə, xüsusən də "Faseboo-ok"da aparılan ədəbiyyat söhbətləri, ədəbiyyatın və ədəbiyyatşünaslığın ən müxtəlif məsələləri ilə bağlı paylaşılan statuslar, onlara yazılan şərhlər heç də digər yayım üsullarından (qəzet, jurnal və hətta internet saytları) geri qalmır, hətta deyərdim ki, onları funksionallığı və hərəkətliliyi baxımından üstələyir" ("Ədəbiyyat qəzeti", 7 sentyabr 2019-cu il).

Rəşad Məcidin elektron yaradıcılığı mövzu etibarilə zəngin, mənalı, çoxqatlı, üslubi cəhətdən bədii, cazibədar və rəngarəngdir. Onun toxunduğu sahələri təxminən belə qruplaşdırmaq olar: portretlər, siyasi təhlillər – siyasi publisistika, mənəvi-əxlaqi söhbətlər, psixoloji yaşantılar, ictimai-sosial rezonans, ədəbi-tənqidi təhlil, eksklüziv araşdırma və ədəbi şəxsiyyətlər haqqında söz, tarixi keçmişimizə ekskurs, yaddaş salnaməsi, poetika, romantika, ünsiyyət, nostalji, düşüncələr, keçmişlə bu günün harmoniyası, müniatür hekayələr, aforizmlər və s. Bütün bunlar Rəşad Məcidə xas sadəliklə, təmkinlə (bəzən də şimşək çılğınlığı ilə) bədii sözün və təxəyyülün səyyar qanadlarında, ağıl və məntiqin dərin fəlsəfəsində əyarlanır. "Hava limanı-1", "Hava limanı-2", "Yuxu", "Qara reyhan", "Göy üzü", "Ağanisənin duası", "Köhnə Bakı üçün nostalji" xarakterik nümunələr kimi nəzəri cəlb edir. Onun aforizmlərindən bir neçə seçmə: "Deyir, cənnət başqalarının qəlbində işğal etdiyimiz yerdədir", "Qəzəb ədalətsizlikdən doğur", "Kənddən şəhərə hamı eyni arzuyla gəlir", "Əleyhinə danışılırsa, demək, varsan, mövcudsan. Lap yüz il əvvəl ölənlərin də qeybətini edirlərsə, onlar da diridir", "Buxovlar olmasa, xaos yaranar! Buxovlar idarəetmənin

ən vacib həlqəsidir. Dinin, dövlətin, qanunların, cəmiyyətin, mentalitetin, ailənin... buxovları! Yaşasın buxovlar!", "Əzmkarlıq abırsızlığa çevrilmirsə, sonda rəğbət yaradır" və s. və i.a. Kitabı oxuyanlar hamısını gözdən keçirə biləcəklər.

Bir dəfə Xalq yazıçısı, böyük ustad Mirzə İbrahimov məndən sözarası soruşdu: "Loğman bala, makinada yazırsan, yoxsa qələmlə?" "Qələmlə, Mirzə müəllim", - dedim. Dedi: "Bərəkallah, düz edirsən, söz gərək barmaqdan süzülə...". Rəşad Məcidin "Qələmsiz yazılanlar" kitabını oxuyanda nədənsə, bu söhbəti xatırladım. Qələmlə yazılanlar... Qələmsiz yazılanlar... Söz gərək barmaqdan süzülə... Amma nə fərqi, qələmlə də, qələmsiz də yazanda, əsas odur ki, söz barmaqdan süzülür. Qələmi də barmaqla qucaqlayırsan, klaviaturanı da barmaqla döyəcləyirsən. Hər iki halda ürəkdən axıb gələn qan barmağı hərəkətə gətirir, beynin və ruhun yaddaşı barmaqdan boylanır. Əsas odur ki, bu prosesdə ürək hakimlik etsin. Rəşad Məcidin virtual əsərləri qələmsiz yazılsa da, ürəksiz yazılmayıb. Bu sözlərin, sətirlərin hər birində coşan, çağlayan, yanan, yandıran bir ürəyin hərarəti hiss olunur.

Qeyd etdik ki, Rəşad Məcidin kitablarından birinin adı "Dəlicəsinə" adlanır. Dəlicəsinə sözü insan ehtiraslarının və ruhunun sərhədsiz yüksəlişinin atributu kimi səslənir. Dəlicəsinə (Koroğlunun dəliləri) döyüşmək, dəlicəsinə işləmək, çalışmaq, dəlicəsinə yazıb-yaratmaq, dəlicəsinə sevmək... Dəli bir sevda... Bəlkə elə Qarabağımızı da Rəşadın və Rəşad kimi vətənpərvərlərimizin torpağa, Vətənə olan dəlicəsinə məhəbbəti qaytaracaq?!

14.11.2019

Əflatun Amaşov,
Əməkdar jurnalist

Dostum Rəşad Məcidlə yeni il ərəfəsində söhbət

Əziz dostum, əksər saylarını həvəslə oxuduğum, müasir mətbuatımızda öncüllüyünü qoruyub saxlayan "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid.

Canından uzaq, bu bayram ərəfəsi ətrafı bürüyən qrip epidemiyasından mənə də pay düşüb. Adətimdir, belə vəziyyətlərdə halsızlığı unutmaq üçün oxumağı planlaşdırdığım kitablar həyanım, məlhəmim olur. Sənin yeni çapdan çıxmış "Səbəbi sənsən" kitabı da əlimim altındadır. Yadımdadır, deyəsən, heç avqustun 21-də 55 yaşının tamamında düzənlənən məclisdə sənə belə gəlişi gözəl sözlərlə müraciət etməmişdim. Bəs nə olub, nə dəyişib?

Heç nə, sadəcə bu dəfə yuxarıda sadaladıqlarımın əksərini kənara atıb istərdim qarşıdakı yeni 2020-ci ili ailən, bütün doğmaların da daxil olmaqla təbrik edim və yalnız sevgidən danışaq. Digər cəhətlər isə cild-cild kitablara sığmayan irili-xırdalı duyğulardı ki, özümüz də bilmədən iştirakçıları, personajlarıyıq.

Bir də səbrli, duyğulu-düşüncəli, həssas Rəşad Məcid xarakterini kitab kimi oxumaq istəyənlər onun poeziyasının da ənginliklərinə baş vurmalıdırlar. Yoxsa, tanınmış qələm sahibi, doğum günündə belə "şamları söndürməyi sevməyən, bir az həlim, kövrək üfürən" Rəşad Məcid xarakterinə bələdçilikdən nə haqla danışmaq mümkündür.

Əziz dostum, "... ən xoş arzularla, 18 oktyabr, 2019" sözləri yazılmış yeni kitabını axşamüstü ailədə birgə vərəqləyərək feyziyab olduq. Qadınların lirikaya necə möhtaclığının dərəcəsi yalnız Yaradana bəllidir.

Kitab başdan-ayağa məhəbbət motivlidir. Onu yaxşı tanımayan ilk oxucu mütaliədən sonra elə güman edər ki, müəllifi əsrimizin Məcnunudur, şairin isə eşqdən, məhəbbətdən qeyri mövzusu yoxdur. Belələrinə heç olmasa kompyuteri açıb məlumat bazasına sənətkarın yalnız adını yazması kifayətdir. Onun 29 yaşından bəri işıq üzü görən kitablarını sıraya düzək: "Hələ ki, vaxt var", "Əlvida və salam", "Dəlicəsinə", "Çiyələk qadın", "Bir də gəlməyəcək", "Cığıraçan"... bunlarda şeirləri toplanıb. "10 sentyabr"da isə hekayələri.

Doğrudur, bu kitablarda məhəbbət və ictimai motivli şeirlərin nisbəti 60-ın 40-a birincilərin xeyrinədir. Bu nisbəti Rəşad Məcid şeirlərindəki ictimai məna yükünün yüngüllüyündə axtarmaq sadəlövhlük olardı. Gəlin misallarla danışaq, "Yastıq"ı təhlil edək. Bu şeiri mənalı, müşahidəli, mütaliəli həyat yolu keçməyən şəxs yaza bilməz.

Kamil poetik nümunədir. "Başı yastıqdan düşən adamın bunun əsrarına varmadan onu dübarə başının altına çəkməsinin" fəlsəfi təfərrüatları təhlilini tapır. Həqiqətən də insan doğulanda başının altına, oturanda böyür-başına, yeriyəndə durumundan asılı olaraq yolu üstünə yastıq qoyular:

Sonra noğul yastığı,
Sonra nağıl yastığı,
Başı üşüyəndə papağı yastıq,
Əli üşüyəndə bayrağı yastıq,
Qəbri üşüyəndə torpağı yastıq.

Ağrıyan dizinə yastıq qoydular.
... Diksinib ayıldı yuxudan
Başı yastıqdan düşmüşdü.
Çəkdi yastığı başının altına.

Əladır, şair tapıntısıdır.

"Futbol oynadığım yadımdan çıxıb" sujeti bu idman oyunu üzərində qurulan, əslində, böyüklər üçün yazılan nümunədir. Hansımızın yadından çıxar uşaqlıqda futbol oynayan zaman "yıxılıb daşlara dəydiyimiz, əllərimizin, ayaqlarımızın yaralandığı, dizlərimizin daşlara dəyib parçalandığı, dabana qədər tər axıtdığımız" anlar. Baxın, şair bu oyundan uzaq düşməyimizin fəsadlarını necə ictimai motiv kimi təqdim edir:

On il, on beş ildi topsuz-filansız,
Yenə də yıxılan, əzilən mənəm.
Amma yıxılanda dizim qanamır,
Çünki yıxılıram ürəyim üstə,
Futbol oynamağı yadırğayandan...

Mən Rəşad Məcidin belə motivli şeirləri az yazmasını müasir poeziyamızın öncüllərindən olan Ramiz Rövşənin fikri ilə əsaslandırmaq istərdim: "Çünki o, şair işləmir". Yəni Rəşad. Fəqət onun yaxşı şair, jurnalist olaraq özünü qabarıq büruzə verən keyfiyyətlərindən tanınmış qələm sahibləri elə dolğun, səmimi danışmaqdadırlar ki, hamısını desəm, qorxuram dostum bu şaxtalı günlərdə arxayınlaşıb qış xoşhallığına qapıla. İnşallah olmaz.

Mətləbdən deyəsən, bir qədər uzaq düşdük. Qayıdaq məhəbbət motivlərinə. Sanıram yeni il istirahətində olduğumuz

günlərdə soyuq evləri, münasibətləri, qəlbləri söz qədər isindirə biləcək ikinci material tapmayacağıq. Lirik sətirlər, duyğular isə atomdan da güclü sınanmış, etibarlı mənbələrdir. Məsləhət görərdim ki, stolunuzun üzərində "Səbəbi sənsən"i də saxlayasınız. Kitabın başlığının haradan götürülməsi sualına 93-cü səhifədə cavab aldım. Məlum oldu ki, əməkdar artist Xumar Qədimova bu şeirə necə şirin, rəvan mahnı bəstələyib, ifa edibsə, şairə təsirsiz ötüşməyib. Dörd bənddən biri:

Özümü hamıdan güclü sanmağım,
Durduğum yerdəcə qanadlanmağım,
Mənim sevinməyim, ya şadlanmağım,
Hamısı, hamısı sənə görədir.

X.Qədimovanın həzin səsi ilə daha birini - "Bir də gəlməyəcək"i dinləyib digər yeddi mahnıya da qulaq asdım. İkisinin bəstəçisi Xanım İsmayılova ("Səndən bir söz çıxanacan" və "O") idi. Aysel Kərim üçünə musiqi həyatı vermişdi - "Gözlərimə bax"a, "Daha"ya və "Nə fərqi"nə. Bu mahnıları tanınmış tərənə ustadları Gülüstan Əliyevanın, Tünzalə Ağayevanın və digərlərinin ifalarında dinlədim. Hər üç tərəfə xoş duyğularımı bildirdim.

Bunlar Rəşad Məcidin niyə ovqat xarakterli səhər verilişlərində lövbər salmaq haqqına əsaslar verirdi. Belə xarakterli proqramlar sirr deyil ki, insanları yaşından asılı olmayaraq iş yerlərinə yüksək əhval-ruhiyyə ilə səfərbərliyə alır. Rəşad Məcid gözəl bilir ki, ovqatsızlıq, "əsəblərin tarıma çəkilməsi, damarda qanın donması, min illərin yorğunluğu, ürəyin zorla vurması"dır. Bənddə bir misranın özü belə səfərbəredici gücə malikdir. Həmin kontekstdə, "Ovqat"da çıxışından unudulmaz epizod. R.Məciddən yeni sevgi şeiri istədilər, oxudu:

Sən dərdin qənimi!
Sən qüssənin cəlladı!
Sən ağrıların keyidicisi!
Sən gerçək – yalan
artan – çoxalan
yüzə, minə vurulan
bəd xəbərlərin qovucusu!
Valerianım!
Karvalolum!
Validolum!

Aparıcı bu vaxta qədər hesab edirdi ki, söhbət eşqin haldan-hala saldığı qəddar məşuqədən gedir. Elə ki, daha 5 misranı dinlədi, heyrətdən əli ağzında qaldı:

Bu şeirdə mənim sənə
Təşəkkürüm, sədaqətim!
Tütünüm!
Nikotinim!
Tüstüm!
Siqaretim!

Rəşad Məcidin bu şeiri ilk dəfə avtobusda Milli Mətbuatımızın 140 illiyi ilə əlaqədar Zərdaba gedərkən yolu qısaltmaq, yorğunluğu azaltmaq üçün dilə gətirmişdi. Yumorla fəlsəfi duyumun vəhdəti! Ona görə aparıcıda doğurduğu təəssürat başadüşülən idi.

Burada haşiyəyə çıxım ki, onun siqaret barədə bəy tərifli şerindən sonra avtobusda papiros çəkməyənlər belə qullab vurmağa çalışdılar. İçərini tüstü və öskürək səsləri bürüdü. Ümumiyyətlə, xaricə, ölkə daxilinə saysız səfər təcrübəmizə istinadən deyim ki, xoş o adamın halına qismətinə Rəşad kimi yol

yoldaşı düşür. Bu zaman onun hər kitabını, o cümlədən, "Səbəbi sənsən"i özünlə götürməkdən itirməzsən.

Şairin kimsənin ismini çəkmədiyi adlı-adsız şeirlərinin ünvanı, qəhrəmanı sevgi adlı saf, nəcib, tərəf müqabilindən həssaslıq uman mücərrəd varlıqdır. Bu mücərrədliyin təməlində hər birimizə doğmalıq, ucalıq təlqin edən saf hisslər dayanır. Adsız şeirlərdən:

Bəs bu nə qəm nəğməsidir -
ağaclar ağı deyir,
Bəs o qara bulud niyə tabuta
bənzəyir -
keçir damların üstündən?

***

Sənsən varım-varidatım, mülküm
-dövlətim -
səninlə doluyam,
Çox zənginəm, çoox...

***

Beş misralıq "Səni düşünmək"də sevgi düsturu cızılır:
Quyuya qəfil sallanan kəndirin sevinci...
Qara buludlar arasından sıyrılan
Günəş şüasının səadəti!
Yalanı, riyanı qovan saflığın,
duruluğun qalibiyyəti!

Şair bütün kitab boyu kredosuna sadiqdir. Yəni sevgi onun üçün əbədidir. O, insanın qəlbinə bir dəfə gələ bilər. Nə zamansa tuş gəldiyin sevgi həqiqidirsə, elə sevginin özüdürsə, bütün ümumiliklər bir "O"da cəmləşəcək:

Qoluma girəcək yenə də qızlar,
Əsən xəfif külək O olmayacaq.
Hansısa baxışlar nəsə deyəcək
Nə arzu, nə istək O olmayacaq.
Bəlkə yaşanacaq yeni bir nağıl,
Bu sevgi kitabı O olmayacaq.
Sevinci, atəşi, gur səadəti,
Kədəri, əzabı O olmayacaq.
Min yoldan qayıdam, min yol axtaram,
Beləsi bir daha doğulmayacaq.
Tapdığım gözəllər tez gözdən düşüb,
Sevdiyim mələklər O olmayacaq.

Onun fəlsəfi, təbiət şeirləri də sonda mütləq sevgi motivləri ilə vəhdət təşkil edir. Yalnız 7 rəngin palitrasından yaranan "Göy qurşağı"nı çıxmaq şərtilə. Müəllif Tiflis yağışının saçlarını yaladığı, yanaqlarından sürüşdüyü, dodaqlarının arasından şirinləşdiyi, boynunu, boğazını titrətdiyi... "Tiflis yağışı"na həsəd aparır, "Sabahın xeyir"lə salamladığı gözəli:

... Bahardı.
Təkcə çöl-çəmən deyil,
ruhumuz da bürünüb yaşıla -
misraları ilə görüşə səsləyir.

Oxucuların da mütaliəsi üçün misraları, sətirləri saxlayıb vaxtı ilə poeziyaya özünün "Sənsən"i ilə qədəm qoyan Rəşad Məcidin indi gənc yazarların pasibanı olmağından dilə gətirdiyi qürur hissinə qayıtmaq istəyirəm. Atalar yaxşı deyib: hər kəs əkdiyini biçər. Bu hər sahədə belədir. Haradansa, kimdənsə yan keçməz.

Yeni ilin mübarək, Rəşad Məcid!

29.12.2022

İmdat Avşar,
yazıçı

Rəşad Məcidin yaradıcılığı haqqında

Çağdaş Azərbaycan ədəbiyyatının önəmli təmsilçilərindən biri olan Rəşad Məcid duyğu və düşüncələrini şeir diliylə ifadə edərkən öz "səmimiyyətiylə" önə çıxır. Sadə bir dillə, yalın bir izahı mənimsəyən Rəşad Məcidin şeirlərini oxuyarkən, onun çəkdiyi acıların, yaşadığı sevinclərin, sarsıldığı ayrılıqların, yaşadığı məğlubiyyətlərinin, bitib-tükənməyən gözləməyinin izlərini görmək mümkündür. Bu səbəbdən gələcəkdə onun şeirləriylə əlaqəli araşdırma edənlər bu misraların izinə düşərək onun hayatı və yaşadıqlarıyla bağlı bir çox məlumatı əldə edə biləcəklər.

Rəşad Məcid bu şeir anlayışıyla ədəbiyyata Türk Ədəbiyyatında "I. Yeni" şeir axımının qabaqcılı olan Orxan Vəli ilə eyni pərdədən səslənir. Rəşad Məcid də eynilə Orxan Vəli kimi gündəlik həyatı, həyatın axışını, bu axış içində gördüklərini, yaşadıqlarını, yaşanılanlar qarşısındakı duyğu və düşüncələrini kəlmələrin, məzmunların arxasına saxlamadan, içindən gəldiyi kimi şeirə tökür. Beləcə həyatın içindən gələn bu şeirlərin misralarından bir şair ömrü poetik bir irmaq kimi axıb gedir. Bir hava limanında sevgiliylə ayrılığın, on gün öncəsində göy üzündə yaşanan ayrılıq ağrısını xatırlatmasını təsvir edən aşağıdakı sətirlər şairin şəxsən yaşadıqlarından başqa bir şey deyildir:

Bir azdan göydə olacaqsan,
Buludlardan yuxarıda,
Ulduzlara yaxın

***

On gün əvvəlki səsim
Yəqin oralarda
10 min metr yuxarıda dolaşır.

Rəşad Məcidin bu kitabında yer alan şeirlərindən sevgiyə həsr olunanların böyük bir qismi oxucuda sadəcə "bir" şəxsə yazılmış təəssüratı yaradır. Bütün bu şeirlər sitəm, həsrət, sevgi ilə inşa edilmiş bir dünyanı yıxıb, darmadağın edən o məchul şəxsə yönəlir... Onun həyatından, könlündən, ruhundan, hətta hüceyrələrindən ayrılıb, qopub gedən bu poetik qəhrəman, sanki bu şeirlərin də müəllifi və yaradıcısıdır...

Şairin həyatındakı bu böyük "ayrılıq", şairin ruhundan bu bir anda "gediş" ilə yaranan boşluq Rəşad Məcidin həsrət çəkən misralarıyla böyük bir burulğana çevrilir və bu burulğan sanki duyğular seli halında axıb gələn şeir irmağını içinə çəkib ayrılıq, həsrət, giley-güzar və vəfasızlıq dənizinə sürükləyir:

Sən elə telləri qırıb getmisən,
Sən elə yaralar vurub getmisən,
Təpəri yoxdu ki, dözüb dayansın,
Nə mənim dünyamın,
nə bu dünyanın.

Rəşad Məcid ayrılıq dənizində, ümidsizcəsinə çırpınan misralarıyla bir "axtarış" içində adətən boğulan sətirlərin müəllifidir. Onu bu axtarışa yönəldən hiss iliklərinə qədər işləyən və sonra daşa dəyən sevginin zəif də olsa parlayan ümid işığıdır. Gedənin qayıdacağına aid şairin ürəyində cücərən bu ümid onun misralarında həsrətə, darıxmaq hissinə qarışaraq bir çağırışa dönür:

Azdı, ya çoxdu demə,
Bir gündə iki görüş.
Giribdisə araya,
Acı söz, süni gülüş,
Bir də qayıt, bir də dön,
Təzə olsun bu gəliş.

Rəşad Məcidin şeirlərindəki ümidə tutunaraq edilən bu çağırış gedənin gəlməsiylə başqa bir axtarışa çevrilir sanki, şairin bundan sonra aradığı şey "vəfa"dır. Ancaq gedənin "vəfasızlığı" onun şeirində ağrıya, acıya, giley-güzara dönüşür:

Sən
"devlə yol gedə" bilməzsən,
Sənin bataqlıqda boğulanı
çıxarmağa gücün çatmaz
Sevgidən ölmək,
Darıxmaqdan ölmək
Ağlına batmaz.
Sənin sevməyə də, sevilməyə də
gücün yetməz.

Eşqin qədim kitabında qeyd olunmuş bütün aşiqlərin verdiyi ortaq bir hökm vardır: "Gözəllərdə vəfa yoxdur, axtarma!"

Hətta Füzuli:

"Gər dersə ki, Füzuli gözəllərdə vəfa var,
Aldanma ki, şair sözü əlbəttə yalandır" – etirafını edir.

Ancaq Rəşad Məcidin ümidləri kiçik bir qığılcımla yenidən alovlanır, ürəyindəki sevgi ümidi yenidən pöhrələnir. Onda

gedənin geri qayıdacağına aid ümidlər yox olmur, bu gözləyiş başqa şeirlərə, misralara sirayət edir:

Boğuluram səfalət içində,
Həyat adlanan
bu bataqlıqdan
çıxmağa gücüm qalmayıb
Bu yandan da sən gəlmirsən.

Sevgilinin dönməyəcəyi gerçəyi ilə dəfələrlə qarşılaşan, amma bu gerçəyə inanmaq istəməyən Rəşad Məcid hər şair kimi bir təsəlli qapısı axtarır. Nəhayət xatirələri bağrına basaraq o qapını aralayan Rəşad Məcid də "Bir də gəlməyəcək sənin tək qadın" təsəllisinə sığınır. Bu təsəlliylə keçmişin xatirələriylə könlünü, ruhunu ovunduran şair az qala "sevgidə" kamilləşərək daha sonra başqa bir ayrılığın ruhunda yaratdığı sarsıntıları tərənnüm etməyə başlayır...

Bu ikinci "ayrılıq" Rəşad Məcidin doğulub böyüdüyü yurdundan, torpağından ayrılıqdır. Onun bu kitabda yer almasa da, Qarabağda talan olmuş uşaqlığının və gəncliyinin şəhəri Ağdama, Laçına, Şuşaya yazdığı həsrət və özləm dolu şeirlərini bilirik. Bu kitabda yer alan və "Şuşa Dəftəri" başlığıyla yazdığı şeirlərsə onun otuz il sonra vətən torpağıyla qovuşmağının tərənnümündən ibarətdir.

Rəşad Məcid gözəllərdən bir vəfa görməsə də, vəfalı vətən torpağına qovuşduğu üçün xoşbəxtdir. Çünki, onun poetikasında o topraqlar heç dəyişmədən əsl sahiblərini gözləyən sadiq bir sevgilidir. "Mənim sadiq yarım qara topraqdır" deyərək əbədi gerçəyi dilə gətirən Aşıq Veysəl kimi Rəşad Məcid də bu vəfa və sədaqət qarşısında heyranlığını gizləyə bilmir. Öldüyümüz zaman belə bizi bağrına basan vətən torpağıyla görüşməkdən, top-

rağın vəfasından dolayı özünü xoşbəxt sayır. Çünki otuz il öncə vətən torpağından ayrılan, ayrılmağa məcbur qalan şair yenidən o torpaqlara döndüyündə torpaq onu köksündə çobanyastığı, kəklikotu, lalələr, güllər və çiçəklərlə qarşılayır. İsa Bulağı da, Turşsu da, Kirs Dağı da, Cıdırdüzü də öz yerindədir və əsl sahiblərini gözləyirlər. Sədaqət timsali olan o torpaqlar şairi, dan yeri ağaranda Cıdırdüzündə, bir günorta vaxtı İsa Bulağında, bir axşam üstü Turşşu yaylasında gəzərkən illər öncəsinə, uşaqlıq illərinə geri qaytarır:

Turşsudan doldurub şüşəni
Bir dəstə çiçək dərib
Yoxuşa dırmanırkən
Baxsan özünə...
Ey şair! İnan ki, bu
Turşşuyun hikmətidir,
Səni keçmişə göndərir
Körpə uşağa döndərir...

"Şuşa Dəftəri" Rəşad Məcidin Türkiyədə çıxan dördüncü kitabıdır. Daha əvvəl onun Türkiyədə "Bir Daha Gəlməyəcək (Şeirlər)", "Dəlicəsinə" (Esselər), "Qələmsiz Yazılanlar", (Sosial Media Ədəbiyyatı) adlı kitabları çap olunub. Türk oxucularının yaxından tanıdığı Rəşad Məcidin daha çox sərbəst vəzndə qələmə alınmış bu şeirlərinin də maraqla qarşılanacağını ümid edirəm. Bu kitabın çapa hazırlanmasında başda Türk Ədəbiyyatı Vəqfi Başkanı Sərhat Kabaklı olmakla, mənə hər işdə yardım edən "Türk Ədəbiyyatı Jurnalının" yazı işləri üzrə müdiri Səadət Örməciyə təşəkkür edirəm.

İstanbul

Şahanə Müşfiq,
şair, publisist

“Bir də gəlməyəcək...”

Hər zaman Azərbaycan dilinə “musiqiyə yatımlı”, “musiqi dili” deyilib. Xüsusən, dilimizi bilməyən əcnəbilər onu eşidəndə ilk xatırladıqları musiqi olub, nədənsə. Bəlkə də, ona görədir Azərbaycan poeziyasının musiqi sənətimizdəki bu qədər gözəl, əsrarəngiz əksi. Çünki adətən, mahnılar üçün yazılmış sözlər, mahnı mətnləri tamamilə ayrı olur. Belə demək mümkünsə, daha sadə, daha yaddaqalan, daha dəyişkən. Çox zaman onu əsl poeziyaya qarışdırmırlar. Amma Azərbaycan ədəbiyyatının ən gözəl poeziya nümunələrinə də bəstəkarlarımız müdhiş musiqilər bəstələyib, bənzərsiz əsərlər yaradıblar. Məhz dildəki axıcılığın, melodiyanın hesabına...

Poeziyamızda “nəğməkar şairlər” çoxdur. O şairlər ki, onlar şeirlərini daha çox musiqilər, mahnılar üçün yazırlar. Yəni bir şeiri yazanda onu hansı bəstəkara təqdim edəcəyini, ya da bu şeirə mahnı bəstələnib, bəstələnməyəcəyini öncədən bilir. Bir də şeiri sadəcə ruhunun səsi, duyğularının əksi kimi yazıb, bəstəkarları məhz şeirlərindəki fəlsəfə, aydın dil, obrazlı ifadə, melodik səslənmə ilə cəlb edən şairlər var.

Ürəklə deyə bilərik ki, şeirlərinə bir çox bəstəkarlar tərəfindən mahnılar yazılmış, ən tanınmış müğənnilərin ifasında eşidib sevdiyimiz şair Rəşad Məcid ikincilərdəndir. Çünki onun şeirlərini, hətta əvvəldən mahnı şəklində eşitsən belə, kitabda,

qəzetdə, saytda rast gələndə yenə də şeir kimi oxuya bilirsən. Rəşad Məcid şeirlərini mahnılar üçün yox, ruhunun səsi kimi yazır. Yəqin ona görədir ki, özü də şeirlərinə bəstələnmiş musiqiləri eşidəndə təəccüblənir, hətta bəzən "mən düşünməzdim ki, bu şeirə mahnı yazmaq olar" sözlərini də işlədir. Məsələn, onun poeziyasına ən çox müraciət etmiş Əməkdar artist, bəstəkar, müğənni Xumar Qədimovanın "Bir də gəlməyəcək" şeirinə yazdığı mahnı mətn müəllifini əməlli-başlı təəccübləndirmişdi. Bunu fərqli müsahibələrində dəfələrlə qeyd etmişdi: "Xumar xanıma öz şeirlər kitabımı göndərəndə ağlıma gəlməzdi ki, o, məni əməlli-başlı təəccübləndirəcək. Forması və strukturuna görə mahnıda görmədiyim bir mətni - "Bir də gəlməyəcək sənintək qadın" şeirimi Xumar xanım ustalıqla mahnı dilinə çevirib oxudu və çox böyük uğur qazandı".

Bilmədim iblissən, ya mələk, Qadın,
Ətri, gözəlliyi çiyələk Qadın.
Bir də gəlməyəcək sənintək Qadın
Nə mənim dünyama, nə bu dünyaya.

Bu, şeirin orijinal variantıdır. Xumar Qədimova isə çoxumuzun sevimli şeirini qadınların sevimli mahnısına çevirməyi bacardı. Necə? Mətnə azacıq toxunuşla... Şairin "bir də gəlməyəcək sənintək qadın" misrası nazlı Xumarın dilində "bir də gəlməyəcək mənimtək qadın" kimi səsləndi. Özü də elə səsləndi ki, yaddaşlara, ürəklərə hopdu, həyatındakı kişilərə "yerini bildirmək" istəyən bütün özgüvənli qadınlar:

Bir də gəlməyəcək mənimtək qadın
Nə sənin dünyana, nə bu dünyaya...

– dedilər... Dedilər və inandılar. Çünki buna onları Rəşad Məcid və Xumar Qədimova inandırmışdı...

Xumar xanımın Rəşad Məcid yaradıcılığına müraciəti bununla bitmir. Sonra bir gün o, "Səbəbi sənsən" dedi. Halbuki Rəşad Məcid "Sənə görədir" demişdi. Nə fərqi, ikisində də səbəb sevgidir onsuz da... Elə buna görə də bu dəfə melodiya şən idi. Sanki mətnin müəllifi kimi, o da durduğu yerdəcə qanadlanırdı, sevinirdi, şadlanırdı. Hamısı da ONA görə, hamısının da səbəbi ODUR:

İndi ucadadır yeri taxtımın,
Qızıl dövranıdır indi vaxtımın.
Sınıq taleyimin, bağlı baxtımın
Açılan qapısı SƏNƏ GÖRƏDİR.

Qalmayıb qəlbimin daha gileyi,
Qəmli çəmənimin açıb çiçəyi
Payızın ortası yazın gəlməyi -
Bu bahar havası - SƏBƏBİ SƏNSƏN.

Bu şeirə Əməkdar artist Xumar Qədimova musiqi bəstələyəndə adını "Səbəbi sənsən" qoydu. Bu ad müəllifin necə xoşuna gəldisə, sonralar Rəşad Məcid də sevgi şeirlərindən ibarət kitabının adını "Səbəbi sənsən" qoydu. Ümumiyyətlə, Rəşad Məcidin Xumar Qədimova yaradıcılığı ilə bağlı yüksək fikirləri və onun istedadına, zövqünə sonsuz inamı bizim üçün kiçik, amma bəzən şairlər üçün böyük sayıla biləcək dəyişikliklərə razılıq verməyinə səbəb olur. Özü də bunu etiraf edir: "Xumar Qədimova fərqli bir musiqiçi, fərqli bir bəstəkardır, insan kimi də çox fərqlidir. Onun özünəməxsus ifa tərzi, mahnını, musiqini öz dünyasından, öz süzgəcindən keçirib orijinal şəkil-

də dinləyiciyə çatdırmaq bacarığı var. Həm də Xumar xanımla işləmək çox rahatdır. Biz hər hansı bir mətnə düzəliş etmək məsələsində asanlıqla dil tapırıq".

***

Sonra bir gün eşitdik ki, Xumar xanım "Daha səni üzməyəcəm" deyir. Özü də bunu yenə Rəşad Məcidin sözləri ilə deyir. Sən demə, lirik qəhrəman onu qanadlandıran, uca taxta qaldıran sevgini üzə də bilirmiş:

Daha səni üzməyəcəm,
sevirəm, sevəcəm səni...
Sənə həzin bəstələri,
nəğmələri yollayacam,
Ürək açan kəlmələri,
cümlələri yollayacam.

Bu şeir bəxti yüyrək olanlardandır. Çünki mətndəki səmimilik, ahəngdarlıq, saf sevgi təkcə Xumar Qədimovanın deyil, başqa bir bəstəkarın da diqqətini cəlb etmişdi. Yaradıcılığa ilk başladığı illərdən dəfələrlə Rəşad Məcid poeziyasına müraciət edən və məşhur müğənnilərin ifasında maraqlı mahnılar təqdim edən gənc bəstəkar Aysel Kərim də bu mətnə musiqi yazdı. Onun dünyasında bu şeir daha həzin, sakit, bir az kövrək səslənirdi, yəqin ki, mahnı da o cür həzin alınmışdı. Bəstəkarın "Sevəcəyəm səni" adlandırdığı mahnını Xalq artisti Fidan Hacıyeva və müğənni Ələsgər Əliyev səsləndirdilər.

Dediyimiz kimi, bu, Ayselin Rəşad Məcid yaradıcılığına ilk müraciəti deyildi. O, daha öncə R.Məcidin "Gözlərimə bax" şeirinə də mahnı yazmışdı və bu gözəl mahnı Əməkdar artist Nüşabə Ələsgərlinin ifasında tanınıb sevilmişdi. Daha sonra isə

Əməkdar artist Gülüstan Əliyeva Aysel Kərim musiqisi və Rəşad Məcid dili ilə "Fərqi yoxdur" dedi:

Gedirsənsə, nə fərqi var, ya səssiz,
ya sözümü, baxışımı yozub get.
Nə fərqi var, azad burax, çox inan,
ya da yoxla, addımımı pusub get.

Bəli, şeirlərində əsasən sevgisi, məhəbbət həvəsi ilə tanıdığımız müəllifin qəfildən kəskin şəkildə "get" deməyi də var. Sevgilisini yanında saxlamaq üçün "daha səni üzməyəcəm" deyib vəd verə bildiyi kimi, o sevgidəki sehri, cazibəni itirəndə, qarşı tərəfin marağının öləzidiyini sezəndə rəhm etmədən "get" deməyi də bacarır lirik qəhrəman. Bunu isə Xalq artisti Tünzalə Ağayeva musiqisində bir daha və aydın şəkildə görmək mümkündür. Tünzalə xanım da kəskin şəkildə "get" deyir Rəşad Məcid sözlərinə bəstələdiyi əsərində:

Bir mən qalım, bir dərd-sərim,
Hədər oldu çəkdiklərim.
Pıçıltıyla dediklərim,
Yaddaşından çıxdısa, get.

Düzdür, müəllif "get" deyir, amma unutmaq onun üçün elə də asan deyil. Yoxsa dəyərli bəstəkar Xanım İsmayılqızının musiqisi ilə niyə "Necə unudum?" desin ki?..

Bu sevgini hardan tapdı qış görən?
Gözlərində buz oldummu yəni mən?
Birdən-birə sevməmişdim səni mən,
Birdən-birə indi necə unudum?

Rəşad Məcid yaradıcılığına dəfələrlə müraciət edən və hər dəfə də bir-birindən maraqlı, yaddaqalan, gözəl əsərlər yaradan bəstəkardır Xanım İsmayılqızı. Yuxarıda nümunə verdiyimiz mahnı hələ 1997-ci ildə bəstəkar tərəfindən qələmə alınıb və Xalq artisti Cavan Zeynallının ifasında möhürü vurulub.

Sonra Xanım İsmayılqızı Rəşad Məcidin "Anla məni" fəryadına səs verdi və istedadlı müğənni Ayan Babakişiyevanın ifası ilə bambaşqa bir əsər ortaya qoydu:

Bir gülüşün satır məni,
Qəlbin niyə atır məni?
Ya bir yolluq məni anla,
Ya bir yolluq bitir məni...

Zamanında bu mahnının musiqisi də, sözləri də, ifası da, klipi də böyük rezonansa səbəb oldu. Hər kəs Azərbaycandakı ilk kriminal klipdən danışdı. Hətta Rəşad Məcidin özü belə daha romantik, daha duyğu dolu gözlədiyi halda davalı, atışmalı klipə xeyli təəccüblənmişdi. Amma ən çox səs-küyə səbəb olan və ən yaddaqalan işlərdən biri də məhz "Məni anla" oldu ki, üstündən illər keçməsinə baxmayaraq, bu gün də dinlənilir, sevilir.

Həmin dövrlərdə bəstəkar Xanım İsmayılqızı bir müsahibəsində həm bu mahnıdan, həm də ümumiyyətlə, Rəşad Məcid yaradıcılığına müraciətindən danışarkən belə deyirdi: "İki-üç ay əvvəl Rəşad Məcidin "Anla məni" şeirini oxudum, çox xoşuma gəldi, dərin məzmunu, fəlsəfi mənası məni özünə cəlb elədi və ona musiqi bəstələdim. Mahnı tezliklə araya-ərsəyə gəldi. Mahnılar da qadınlar kimidir: taleyi gətirəni də olur, gətirməyəni də. Bu baxımdan, Rəşad Məcidin sözlərinə bəstələdiyim, Ayanın ifa etdiyi "Məni anla" mahnısının taleyi uğurlu oldu. Mahnı çox qısa müddətdə diqqəti cəlb etdi, sevildi. Dinləyənlər deyir ki,

“Anla məni” insanda müsbət enerji, yaşayıb-yaratmaq həvəsi, xoş, nikbin əhval-ruhiyyə yaradır...

Bəzən şairlər nədənsə mahnı yaradıcılığına, mahnı mətnlərinə qeyri-ciddi yanaşırlar. Ədəbiyyat aləmində buna bir az barmaqarası baxırlar, mahnı mətnlərini ciddi mətn hesab eləmirlər, onu poeziya nümunəsi hesab eləmirlər. Təbii ki, belə nümunələr də var. Amma ciddi yanaşdıqda mahnı mətni yazmaq çox çətindir. Elə olar ki, mətn özü çox gözəl, lirik ola bilər, amma mahnıya gəlməz. Mahnı mətni axıcı, dərin məzmunlu olmalıdır... “Məni anla” şeirində məni bir çox mətləblər cəlb etdi. Rəşad Məcidlə 8-10 il əvvəl də bir işbirliyimiz olmuşdu. “Məndən cavab almadın” şeirinə bəstələdiyim mahnını İranə İlkin adlı gənc bir müğənni ifa etdi. Mahnı o zaman çox uğur qazanmışdı... Rəşad Məcid mənim sənət dostumdur, xətrini çox istədiyim adamdır. Amma bir şeyi deyim ki, əgər mətn xoşuma gəlməsə, sadəcə xətir üçün mahnı yazmaram. Həqiqətən də Rəşad Məcidin mətnlərini məzmun və məna baxımından bəyənirəm. Yeri gəlmişkən qeyd edim ki, sözləri Rəşad Məcidə aid daha bir mahnım olacaq. Əslində o mahnı “Anla məni” mahnısından əvvəl yazılıb. Bu, fəlsəfi, qeyri-adi bir mahnı olmalıdır. Birinci misrası belədir: “Baxma ki sakit dayanıb”.

Çox keçmədi Xanım İsmayılqızı haqqında danışdığı şeirə mahnı yazdı. Adını da “O” qoydu:

Baxma ki, sakit dayanıb,
Qəfildən götürər səni!
Qoparıb dostdan, tanışdan
Evindən itirər səni.

Lirik-poetik qəhrəman gah şeirlə, gah musiqi ilə bu qədər danışır, fəryad edir, sevgisini hər vəchlə, hətta “get” deyəndə

belə dilə gətirir. Amma bəs sevgili? O da bu şeirlərin, bu mahnıların qəhrəmanı qədər cəsarətli, açıq sözlüdürmü? Deyəsən, yox! Elə olmasa, Rəşad Məcid qələmi və Xanım İsmayılqızı musiqisi niyə "Daşlar da dil öyrənərdi Səndən bir söz çıxanacan" desin ki?!

Amma buna baxmayaraq, o lal sevgi, o dinməz məhəbbət elə öz səssizliyi ilə qoruyur qəhrəmanını. Bunu isə hər iki müəllifin ortaq işi olan başqa bir əsərdən öyrənirik:

Qəlbimin sevgisiz qalan çağından
Olsam da özümün özüm düşməni,
Boylanıb bir ömrün gündoğanından,
Bir sevgi qoruyur nə vaxtdı məni.

***

Daha çox sevgidən yazan Rəşad Məcidin sevgisiz qaldığı çağlar da olub. Amma bir eşq var ki, o, heç zaman Rəşad Məcid qəlbindən, beynindən, varlığından və qələmindən uzaq düşməyib. Bu, onun Vətən sevgisi, Qarabağ, Şuşa eşqidir. O eşq ki, mahnı yaradıcılığından da uzaq qalmadı və Rəşad Məcidin sonsuz Şuşa sevgisi yaxın keçmişdə, daha dəqiqi, Vətən müharibəmizdəki böyük Qarabağ zəfərindən və şairin Şuşa səfərindən sonra Xumar Qədimova istedadı ilə birləşərək möhtəşəm bir əsərə, hətta bütün məsuliyyətimlə deyərdim ki, Şuşanın himninə çevrildi:

Min şəhər adı var dillərdə əzbər,
Adların ən üstün adıdır Şuşa.
Musiqi notudur cüt hecasıyla,
Dilimin şəhdidir, dadıdır Şuşa.

***

İndiki zamanda hər nə qədər adi, sadə görünsə də, əslində, yaxşı mahnıya, keyfiyyətli, səviyyəli musiqiyə söz yazmaq, ya da bir bəstəkar kimi mətn tapmaq çox çətindir. Rəşad Məcid qələminin üstünlüyü ondadır ki, o, bəstəkarları tapmır, musiqi axtarışına, ifa dərdinə düşmür. O, sadəcə yazır. Zamanı gələndə isə mahnılarına "tez əzbərlənən" yerinə daha fəlsəfi, ya düşündürücü söz axtaran bəstəkarların musiqisində dillənib musiqisevərlərin qəlbinə həm də nəğmə kimi yol tapır. Və nə yaxşı ki də tapır. Yoxsa musiqi sənətimizdəki o yer bomboş qalardı...

Türkan Turan
Yazar

Qala adam

Bəzən çoxlu pula, hər cür imkana, aşıb-daşan diqqətə, insan selinə yox, bircə nəfərə ehtiyac duyursan. İstəyirsən ki, səni duyan, hiss edən, anlayan, dinləyən bir insan aydın, təmiz düşüncəsi ilə yanında olsun. O adam sevgili, ailə üzvü yox, yalnız dost ola bilər.

Sadaladığım xüsusiyyətləri özündə cəmləşdirən belə bir dostum var. Elə məqamda yetişir, elə anda özünü çatdırır ki, heyrətdən mat qalıram. Fərqi yoxdur, dünyanın harasındadır, Xətaidə də, Yasamalda da, Masazırda da, İsmayıllıda da, Almaniyada da, Rusiyada da, lap elə Ankaranın ortasında da olsa, heç nə dəyişmir. Həmin an ruh halının, psixoloji durumunun bərbad olduğu sanki ona vəhy kimi qeybdən gedir. Bir də görürsən, ya zəngi gəlir, ya mesajı. Qəflətən diksinirsən, hətta oğrun-oğrun ətrafına da boylanırsan. Sənə elə gəlir ki, əvvəlcə kənardan izləyib, nə vəziyyətdə olduğunu bildikdən sonra axtarıb.

O, həmişə belədir. Suallarla boğuşanda, dərdlərlə canbaza çıxanda, gözünün yaşı dinməyəndə özünü çatdırır. Bəzən yerə çırpılaraq yıxılırsan. Hiss edirsən ki, öz gücünlə qalxa bilməyəcəksən, yardım edən də olmayacaq. Bir də görürsən, Tanrı qolu kimi uzanan əlləri artıq səndən yapışıb. Əslində, yolu ordan keçmir, heç səmti də deyil, amma başının bəlada, ruhunun darda olduğunu hiss etdiyi üçün gəlir. Qolundan tutub ayağa qaldırır, yaranı sarıyır, gözünün yaşını silir, ümid, güc verib gedir!

Axşamlar Ağ Şəhər bulvarında qaçıram. Orada velosiped, rolik sürməyi öyrənən gənclərlə tez-tez qarşılaşıram. Deməli, sürməyə çalışırlar, amma təkbaşına edə bilmirlər. Bu istidə ailə üzvləri "məndən tut, qorxma, rahat ol" deyə-deyə onlarla birlikdə aşağı-yuxarı qan tərə bata-bata hərəkət edirlər. Bir neçə gün sonra gəlib görürəm ki, öyrədən kənardan baxır, öyrənənlər isə sərbəst şəkildə ortalıqda şütüyürlər. Bax, o da eyni ilə belə edir. Pedala basmağı, yerində möhkəm dayanmağı, ziqzaq deyil, düz yoldan getməyi öyrədir. Yıxılmağa qoymur. Ayaqda dura biləcəyinə tam əmin olduqdan sonra əlini çəkir və kənardan yaratdığı mənzərəni seyr edir.

Adama badalaq vurub, yoluna daş atıb, qıraqdan danışıb, "mız" qoyub, ağız əyməyə, gözdən salmağa nə var ki? Bunu hamı bacarar... Əsl güc ona deyirəm ki, "mən sənə güvənirəm", "bacaracaqsan", "edəcəksən" deyəcək qədər böyük olsun. Məsələn, elə biri mən... Hansı fikirlə üstünə getdimsə, mesaj yazdımsa, hər dəfə yuxarıda sadaladıqlarımı dedi. Qulağına pıçıldanan dedi-qodulara gülüb keçdi. Fikrini haçalamaq istəyənlərə əhəmiyyət vermədi. Kimin mahiyətinin nə qədər olduğunu açıb önümə sərdi. Həmişə üzümü çevirdiyim yerdə oldu, 11 il əvvəl harda idisə, elə orada. Mənimlə birlikdə güldü, birlikdə kədərləndi. Uğuruma ən azı mənim qədər şad oldu. O sevincin kökündə kölgə olmadı, şübhə duymadım. Təbəssümünün altında ilan sürüsü dolaşmadı, inciyəndə belə gözlərinin içində əqrəb kini gəzmədi. Əksinə, qüvvətli sərkərdə kimi yetişdirdi. Atılan nizələrə qarşı qalxanı necə tutmalı olduğumu öyrətdi. Pusqu qurulan səmtlərin yerini dedi, minalanmış əraziləri əvvəlcədən işarələdi, ayağımı basmayım deyə.

Fil boyda üstünə getdiyim söhbətləri qarışqaya çevirərək ovucumun içinə qoydu. Hadisəni minimallaşdırmağı, dağ kimi

görməməyi, yeri gələndə üstündən, lazım olanda yanından keçib gedə bilməyi öyrətdi.

Təkcə mənəmi belə oldu? Yox! Qışın ortasında kimin həyatına toxundusa, oranı bahara çevirdi. Cəngəlliyə bənzəyən insanları abad etdi. Yanındayam, arxandayam, sənin-ləyəm deməyinə rəğmən dönük çıxanları çox oldu. "Kəsin atın" söyləyəndə bir şans verilməli olduğunu, "silib tullayın" deyəndə bu qədər kəskin davranmağa gərək olmadığını dedi. Həmişə böyüklüyünü göstərdi. Bağışlanmaz sandıqlarımızı əfv etdi. Özünü qatı cinayətkar kimi aparanlarla dünyanın ən məsumu kimi davrandı. Əməllərini, etdiklərini heç vaxt hərləyib-fırlayıb önünə qoymadı. Susmağı da bildi, susqunluğu ilə danışmağı da.

Hər kişinin bacara bilmədiyini etdi, qadınlarla dost oldu. Elə ilk görüşdəcə onların güvənini qazandı. İçi mən qarışıq, hər birimiz özümüzə belə etiraf edə bilmədiklərimizi ona danışdıq. İçimizə sığmayan sirlərimizi ona təslim etdik. Daş insanlardan qaçıb ona - qala kimi adama sığındıq. Çünki yanıltmayacağını, peşman etməyəcəyini həmişə yaxşı bildik!..

Bir neçə gün əvvəl Cavanşir körpüsünün üstündən keçirdim. Axşam saatları olduğu üçün sıxlıq idi. Saat təxminən 20:00 radələri idi. Qaranlıq hələ çökməmişdi. Beynim min fikirlə məşğul idi. Birdən dərin boşluq hiss etdim, sonu görünməyən bədbinlik üzərimə çökdü. Hara, nədən dolayı gedirdim - bunu da bir anlıq yadımdan çıxarmışdım. Həmin vaxt telefona gələn mesajın səsi məni uzaqlardan, boşluqdan dartıb özümə gətirmişdi. Yenə onu soruşurdular, yenə kökünü eşələyirdilər. Yenə narahat ruhlar, gərgin vücudlar, bitməyən maraqlar, yenə qısqanclıqlar... Yenə 11 il ərzində eşitdiyim sualları verirdilər. Yenə... yenə... yenə..! İlahi, doğrudan da 11 il olub?! Hə, elə bu ərəfələrdə 11 ili tamamladıq.

Bu illər ərzində mən bulandım, o durultdu, mən çağladım, o sakitləşdirdi. Həyatım ondan əvvəl, ondan sonra oldu, eynən eradan əvvəl və bizim era kimi... Onu tanıyandan düz bu günə qədər bu sehirli şifrəni sıfırlamaq istəyən o qədər insan oldu ki... Bu günə qədər oxuduğum ən gözəl canlı kitabdır. Bitmir, tükənmir! Hər səhifəsini daha böyük maraqla, həyəcanla açıram. Heç bir səhifəsi o birinin təkrarı deyil. Təkbaşına bir dünyadır. Enerjisi ilə rəng verir, gülüşü ilə işıq saçır. Qatıldığı tədbirlər, iclaslar, mərasimlər... - getdiyi hər yerin atmosferini dəyişir.

O, kimin həyatında varsa, heç nə olmaqdan hər şeyə olmağa bir göz qırpımında keçid mümkündür. Çünki sıfırı yüz, yüzü min edən tək-tək insanlardandır. Onu nə qədər çox istədiyimi bilmirəm. Bircə onu bilirəm ki, bu sevginin ucu-bucağı görünmür. Ruhum qapqaranlıq olduğu məqamlarda adı gələndə aydınlanıram. Cavanşir körpüsünün üstündəki kimi. Yeganə insandır ki, "gəl" deyəndə sorğusuz-sualsız gedirəm. Saat neçə olur-olsun, 41 dərəcə qızdırmam da olsa, lap iki əlim qanda da olsa... Əgər olmasaydı, bozluq, mənasızlıq, bəsitlik, heçlik tüğyan edərdi. Var olduğu üçün, həyatımın yolgöstərəni olduğu üçün, 55 ilin 11 ili, sirri, sehiri üçün, onu mənə bu qədər sevdirən bütün güclərə minnətdaram.

Bu gün sadəcə, 21 avqust deyil, Rəşad Məcidin doğulduğu əziz gündür. Doğuluşu şükür, təşəkkür səbəbidir. Və təəssüf ki, ondan birdənədir. Amma varlığı min ömrə bədəldir.

2019

Şəfa Vəli
Şair

Qəzetli kişi haqqında esse

Kitabxananın pillələri çox dardı, iki ayaq sığmaz. Amma, o, bu pillələri qaça-qaça qalxıb-enir. Ayaqlarına dar gələn yolları qət etməyi çoxdan öyrənib...

Dünən kitabxanadakı qız onu görüb gülümsəmişdi:

– Heç bilirsiniz ki, əliniz necə uğurludu? Sizin qaytardığınız bütün kitablar rəfə qalxmamış başqa oxucular tərəfindən aparılır.

Baməzə tərəfi tutmuşdu, dodağının altında qımışa-qımışa demişdi:

– Mən kimdən müsahibə götürürəm, ardınca ya kitab yazıb çap etdirir, ya da televizora çıxır.

***

... İllər keçmişdi, amma kitabxananın pillələri hələ "yekəlməmişdilər", boyu bir yana, heç "kökəlməmişdilər" də, yenə iki ayağı birdən tutmurdular. Amma onun ürəyindəki oxumaq istəyinin hüdudsuzluğu bu kitabxananın divarları arasında mumiyalanmış firona dönürdü, piramida nə qədər hündür olursa-olsun, firon üçün bir sandıq da yetirdi...

Bu dəfə kitab götürməyə gəlməmişdi Rəşad Məcid... Kitabxanada Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə üç gənc yazarla görüş keçiriləcəkdi. O, bu gənclərin hər birinin

ürəyindəki ədəbiyyat yanğısını görmüşdü. Bilirdi ki, bəzən illər, yaşananlar yanğıları söndürməyə də, körükləməyə də qadir olur. Qara damların bacasından süzülən işığa tutunan kimi tutunurdu gənclərin ədəbiyyat sevdasıyla qorlanan ümidlərinə... Və "istedad həmişə onu təsirləndirib, gözünü yaşartmışdı"...

Cibindəki kağız dəsmalı çıxarmağa ehtiyac duymadı, sol əlinin arxası ilə kirpiklərinə toxundu; bu gün şeirlərini dinləyəcəyi gənclərin misra-misra öldüyünü, söz-söz intihar etdiklərini bilirdi. Onu da bilirdi ki, insanlığın xilası sözə məğlub olmaqdan keçir...

***

... Parkdakı ağaclar avqustun istisinə mətanətlə dözürdü, hələ yarpaqlarına sarı düşməmişdi. Bu istidə parkdakı bütün skamyaların dolu olması qocaya qəribə gəlirdi. Oturmağa yer axtarırdı bayaqdan, hər yeni skamyaya yaxınlaşanda eynəyinin tərləyən şüşəsini silir, gözaltı orda oturanı süzürdü. Nə telefonunda filmə baxan gənc oğlan, nə evdarlıq kitabı oxuyan orta yaşlı qadın, nə də başını sevgilisinin çiyninə söykəyib su şüşəsini qucaqlayan qız "yanında xatirələr dincə qoyulacaq" adam deyildi qoca üçün...

Üzü prospektə baxan skamyada bir orta yaşlı kişi oturmuşdu, əlində "525-ci qəzet" vardı. Kişi qəzeti dizlərinin üstündə qoyub ikiəlli möhkəm-möhkəm tutmuşdu. Baxışları qəzetin sərlövhəsinə zillənmişdi. Qoca eynəyini çıxarıb gözlərini qıydı, köksünü ötürüb ehmalca onun yanında əyləşdi. Axtardığını tapmışdı; yanındakı öz xatirələrinin yonca vaxtındaydı...

... Təranə Vahid demiş: "Rəşad Məcid ...romana keçmədi, həyatı roman kimi yaşadı..."

***

– Gəlmişəm, ay Rəşad müəllim!

İçəri girən gəncin gümrah səsi onun da qırışığını açdı, gülümsəyib əli ilə qarşısındakı stulu göstərdi:

– Bir otur görək xeyir işəmi gəlmisən?

Gənc onun bu səmimi təbəssümündən daha da ilhamlandı, bir hövldə stulu çəkib oturdu. Sual gözləmədən danışmağa başladı:

– Yeni bir hekayə yazmışam. Əntiqə yazıdı ha! Dedim birinci qaçım Rəşad müəllimin yanına. Heç kim verməsə də, o, "525"ə verəcək. Özüm ölüm, hələ mərc də gəldik dünən axşam şairlərin kafesində. Dedim, əgər, Rəşad müəllim bu əntiqə hekayəni qəzetə verməsə, hərəyə beş kətə məndən! İndi gəlmişəm ki, hekayəni sizə verim. Hekayə bir-iki günə çıxsa, ən azı, beş gün mənə kətə qonaqlığı verəcəklər.

O, gəncin dünya boyda ümidinə baxaraq için-için sevinirdi. Onu da bilirdi ki, gənc bu saat da acdır, cibində pul yoxdur, sabah da belə olacaq, birisigün də heç nə dəyişməyəcək. Atasının kənddən göndərdiyi cibxərcliyini universitetə gedib-gəlməyə yolpulu saxlayır, hərdən düşən fəhləliyindən qazandığı beş-üç manat da heç kitab-dəftərinə, kirayəsinə yetmir. O ki qala mərcdə kətə qonaqlığı uduza... Yox, gənc bunun heç vaxt baş verməyəcəyinə ümid edərək onun qapısına üz tutmuşdu.

... Ürəyində incə bir sızı nəfəs-nəfəs böyüyürdü... Gəncin sonuncu cümləsi qulaqlarında ümid himni kimi cilvələnirdi: "Hekayə bir-iki günə çıxsa, ən azı, beş gün mənə kətə qonaqlığı verəcəklər...".

Ürəyindəki sızı təbəssümünə qalib gəlməmiş dilləndi:

– Qoy hekayəni bura, get. Vaxtımı alma, oxuyum. Sabah-birisigün qəzeti izlə, xoşuma gəlsə verəcəyəm - dedi, amma, özü də bilirdi ki, hekayənin xoşuna gəlib-gəlməməyindən asılı ol-

mayaraq, o gənc ac qalmamalıdır... Və onun kətəli ümidləri "525-ci qəzet"in redaksiyasının qapı çərçivəsinə çırpılıb çiliklənməməlidir.

... Qulu Ağsəs həmişə onu "Qapısı açıq Məcid" deyə çağırır...

***

Facebook yenə "dalğalanırdı". Xumar Qədimova "Bir də gəlməyəcək..." oxumuşdu. Hamı mahnının əsiri olduğunu, "Çiyələk qadın"ı yenidən kəşf etdiyini yazırdı. Hələ şeirin müəllifinə yazılan təşəkkürlər... Statusdan statusa, paylaşımdan paylaşıma hamı "Bir də gəlməyəcək..." deyirdi...

Gənclərdən biri yazmışdı: "Bir müğənninin şeirini oxuması hələ o müəllifin şair olması demək deyil..." Təbii ki, bu status gözündən qaçmamışdı. Amma o yenə gülümsəmişdi... Gənclərin özünə olan güvəninə sevinmişdi həmişə... Yenə ürəyində bir sızıltı başlamışdı burum-burum... "Niyə axı "yaradıcılıqla məşğul oluram" deyən gənclər bir nəsil öncənin yaradıcı insanlarına düşmən kəsilir?" Bu sualın cavabını axtarmağa başlamışdı o gündən...

... İllər keçmişdi, beynindəki suala bir yox, onlarla cavab tapmışdı, hələ də cavablar bir-birini "doğmaqdaydı"... Amma illər o statusu yazan gənci də düşündürmüşdü, böyütmüşdü... Bu dəfə o yazmışdı: "Çəkinmədən qapısı döyüləcək adamdı Rəşad Məcid. O, istedadlılara inanır, güvənir və onları heç vaxt tək qoymur".

... Təranə Vahidin dediyi kimi: "Rəşad Məcid düşmənə belə barış əlini uzatmağı bacaran qənimət adamdı..."

***

... Qoca xatirələrini dincə qoyub özü də daxilən rahatladı. Avqustun istisindən yapışqana çevrilmiş barmaqları-

nı şaqqıldatdı, üzünü skamya yoldaşına çevirdi. Qəzetli kişi hələ "yaddaşında "Yallı" gedən günlər"dəydi... Qoca onun xatirədən-xatirəyə adladığı yolu üzündən oxumağa çalışdı. Amma bacarmadı... Skamya yoldaşının dodaqlarının azacıq tərpənməsindən ümidləndi, başını ona tərəf əyib sağ əliylə sağ qulağını tutdu. İnstinktiv olaraq, belə etdikdə sol qulağının daha yaxşı eşidəcəyinə inanırdı... Yaxşı ki inanırmış! Yoxsa heç vaxt qəzetli kişinin nə dediyini eşitməyəcəkdi...
- İki damla yaşla çıxanlar var,
Bir hönkürtüylə bitənlər...

***

... 2019-cu il iyulun 31-də oxu.az saytına verdiyi müsahibədə demişdi Rəşad Məcid: "Unutmaq hərdən insana çox lazım olur! Yaşaya bilmək üçün..."

60 ilin söhbəti:

“Bir il Ağdam–Bakı qatarında gecələmişəm...”

Rəşad Məcid:
“Qocalığımı Ağoğlanda yaşamaq istəyərəm”

Söhbətləşdi: Nadir Yalçın

Zahirən nə qədər soyuqqanlı görünsə də, yaxın dostları Rəşad Məcidin çox kövrək insan olduğuna yaxşı bələddilər. Görünür, deyilənlərlə razılaşmağım üçün mən də onun üçün ən həssas məqamlarla bağlı emosional anlarına şahidlik etməli idim. Necə ki, məşhur bir filmdə dili tutulmuş qəhrəmanın dilini açmaq üçün əvvəlcədən planlaşdırılmış şəkildə sevgilisini partlayışın ağuşuna atırlar və həyəcanın, tələşin gücünə onun dili açılır, Rəşad Məcidin də o duyğulu anlarını görmək üçün yəqin, elə bir ürəktitrədən mənzərə yaranmalı imiş. Bu, taleyin mizanı, zamanın gərdişi idi.

44 günlük Vətən müharibəsi dövründə Rəşad Məcidlə həmsöhbət olmaq çox qəliz məsələyə çevrilmişdi. Məlum məsələdir, o vaxt hər birimizin bütün söhbətlərinin qayəsi Qarabağ, səngər, müharibə idi. Odur ki, iki kəlmə bu barədə danışan kimi Rəşad Məcidin qəhərdən boğazı düyünlənirdi, gözünün ağı qıpqırmızı olurdu və qıyılırdı. Anındaca otağı siqaret tüstüsü bürüyürdü. O tüstü özü ilə həzin bir sükut gətirirdi. Bu, 30 ilin yanğısı – qaysaqlanmayan yaranın yenidən göynəməsi idi... Gələn şəhid xə-

bərləri, daim informasiya eşitmək ehtiyacı, eyni zamanda, azad olunan kənd və şəhərlərin adları açıqlandıqca yaşanan sevinc və qürur hissləri...

Bütün bu qarışıq duyğuların ab-havası Rəşad Məcidin davranışlarına, reaksiyasına da çökmüşdü. O, Ali Baş Komandanın hər çıxışını necə həyəcanla dinləyirdisə, həmin coşğu "525-ci qəzet"in səhifələrinə, manşetlərinə də sirayət edirdi. Qarabağ Zəfərindən sonra Rəşad Məcidin baş redaktoru olduğu qəzetə də yeni nəfəs gəldi.

Kənardan nə qədər doğru görünər, ya yox, bilmirəm, onun 44 günlük həyəcanına şahidlik edən adam kimi, Rəşad Məcidi doğulduğu kəndə və boya-başa çatdığı yerlərə səfər etdikdən sonra məhz mən danışdırmaq, təəssüratını öyrənmək istədim. Deyəsən, söhbətimiz alındı.

"...düşündüm ki, ola bilsin, hansısa İlahi bir qüvvə mənim o yerlərə getməyimi istəmir..."

İki ildir torpaqlar işğaldan azad olunub. Amma Rəşad Məcid nə Laçına, nə də Ağdama səfər etmişdi. Ya təkliflərdən özü imtina edirdi, ya da hansısa bir iş qarşısında əngəl olurdu. Məhz iyunun 14-15-i Laçına və Ağdama ard-arda səfər etməsi məni düşündürdü. Görünür, Tanrının lütfünün də uyğun vədəsi yetişməli idi. Bu barədə bir neçə dəqiqə düşünüb sözə başladı:

"Bu özüm üçün də bir sirdir. Keçən il bir neçə dəfə Laçına səfər təklif olunsa da, gedə bilmədim. Hətta Dini Qurumlarla İş üzrə Dövlət Komtəsi Alban-udi xristian dini icması ilə birlikdə Ağoğlana getməyi təklif etmişdi. Hər dəfə nəsə bir problem yaranırdı. Həmçinin, Ağdama getmək üçün də bir neçə dəfə imkan yaranmışdı, amma mümkün olmamışdı. Bilirsən ki, bununla

bağlı iki yazım çap olundu: "Gecikmiş Ağoğlan bələdçiliyim" və "Qorxu" essesi... "Gecikmiş Ağoğlan bələdçiliyim" yazısı Gündüz İsmayılovla Mirmehdi Ağaoğluya xitabən yazılmışdı, məzmunu da belə idi ki, niyə Ağoğlana getdiniz, amma mənim doğuldum kəndə getmədiniz? "Qorxu" essesində isə Ağdamla bağlı xəyallarımın dağılacağından qorxduğumu qələmə almışdım.

Düzü, keçən il Laçına, Ağdama təşkil olunmuş səfərlərdə iştirakım mümkün olmayanda düşündüm ki, ola bilsin, hansısa bir İlahi qüvvə mənim o yerlərə getməyimi istəmir. Amma bu il Ağdama və Laçına səfər təklifləri ard-arada gəldi, bir saatın içində. İyunun 15-i Ağdam ziyalılarının doğma yurda səfəri təşkil olundu, özümü bu səfərə hazırlayan vaxtda Gündüz İsmayılov zəng etdi ki, ayın 14-ü Laçına gedək. Məncə, bu da mistik hadisə idi. Düşünürəm, görəsən, niyə belə oldu? Doğuldum məkana – Laçının Kosalar (Ağoğlan) kəndinə, uşaqlığımın keçdiyi Ağdama işğaldan azad olunandan sonra iki ildir gedə bilmirəm, amma iki günün içində o yerləri görə bildim. Bəlkə də, başqa səbəbləri var..."

"Ora mənim anamın kəndidir..."

Rəşad Məcid Laçına gedəndə Feysbuk hesabında bir status paylaşmışdı:

"1988-ci ildən, münaqişə başlayandan sonra bu yolu tez-tez gedib-gələrdim. Bu yerlərin, bu yolun, az qala, hər çuxuruna bələd idim. Arazqırağıyla gəlib Xanlıqdan sağa burulur, Həkəri çayının kənarıyla üzüyuxarı qalxırdım. Sonuncu dəfə bu yolla 1992-ci il mayın 12-də, Şuşanın işğalından 4 gün sonra o vaxtkı iş yoldaşlarımla – "Ədalət" qəzetinin əməkdaşlarıyla birgə getmişdik. Şuşa itkisinin sarsıntısı içərisində Laçına doğru

irəliləyirdik. Yolboyu olduqca kədərli, qandonduran mənzərəyə şahidlik edirdik. Ev-eşiyindəki gümanı və gücü çatan əşyaları yüklədiyi maşınlarla qarşımızdan keçib gedən çarəsiz insanlarla rastlaşırdıq. Güləbirddən ötüb "Qayğı" qəsəbəsini keçəndə Zakiri gördüm. Ağoğlandan şax görkəmiylə tanıdığım Zakir kəndin mal-qarasını qabagına qatıb fəryad eləyə-eləyə Güləbirdə sarı gedirdi. Bu gördüklərim Ağoğlanın boşaldığının, Laçının tezliklə işğal olunacağının faciəli əlamətləri idi. Həmin gün bir neçə saat Laçında olduq, hərbçilərlə, hələ rayon mərkəzində qalıb "ev-eşiyini" çıxarmağa çalışan köməksiz insanlarla, tanışlarla görüşdük. Cəmi beş gün sonra hərbi diktorun güllə kimi açılan ikicə kəlmə sözü yaddaşıma əbədi həkk olundu: "Laçın itirilmişdir". ...İndi otuz ildən sonra qəhrəman hərbçilərimizin, igid əsgərlərimizin azad etdikləri bu torpaqlardan keçib yenidən Laçına, doğulduğum Ağoğlan kəndinə gedirəm".

Söhbət zamanı statusu xatırlatdım. Deyir, "ömrümün ən faciəli günlərindən biri idi, Şuşa gedəndən sonra dörd gün sol qolumu hiss eləməmişdim". Feysbukda doğulduğu həyətdən - özünün təbirincə desək, Balaxanım nənənin həyətindən, Halay babanın evindən video paylaşıb. Deyir, "axırıncı dəfə Saday dayı rəhmətə gedəndə bu həyətə gəlmişdim"... Mənə maraqlı idi, 30 ildən sonra doğulduğu kəndə gedən Rəşad Məcidə 30 illik ayrılığı hansı nişanələr xəbər verdi? Xatirələrində ilişib qalan nəsnələri dilə gətirdi:

"Kosalar mənim anamın kəndi olub. Rəsmi adı Ağoğlandır. Kosalarla yanaşı Malıbəy, Sultanlar kəndi var. Yolboyu sürətli quruculuq işləri adama təskinlik verir, mən o yolları çox gedib-gəlmişəm. Ağalı kəndində quruculuq işlərini gördük, Güləbirdə çəkilən yola tamaşa elədik. Bu, adamı nikbin ovqata kökləyir. Laçın şəhərindən keçdik. Sözün düzü, şəhərin arxitekturası

həmənkidir, evlərin çoxusu salamatdır. Yəni, o vaxt gördüyüm şəhər qismən yerində idi. Əvvəllər tikdikləri dəbdəbəli obyektləri ermənilər söküb aparıblar. Hiss olunur ki, uzunmüddətli yaşamaq fikirləri yox imiş və yaşayış seyrək olub. Bir şey xoşuma gəldi ki, bizim işıq çəkən qruplarımız sülhməramlıların yanında, Laçın ərazisində rahat hərəkət edirdilər".

"Bütün məsafələr balacalaşıb..."

"Rəşad Məcid haralıdır?" sualına həmişə müxtəlif cavablar səsləndirilib. Kimi deyib laçınlı, kimi deyib ağdamlı, kimi deyib ağcabədili... Elə hamı da düz deyir. Rəşad Məcid həm laçınlıdır, həm ağdamlıdır, həm də ağcabədili... O, sözün əsl mənasında, iliyinə qədər qarabağlıdır. Rəşad Məcidin atası Müseyib kişinin kökü Laçının Seyidlər – Alxaslı kəndindəndir, amma Ağcabədidə yaşayıblar. Hətta müharibə başlamamış Müseyib kişi Seyidlər kəndində babasının məzarını təmir etdiribmiş. Daha sonra ailə Müseyib kişinin işi ilə əlaqədar Ağdama köçüb. Rəşad müəllim orada boya-başa çatıb, orta təhsil alıb. 80-ci illərin ortalarında yenə Müseyib kişinin işi ilə əlaqədar ailə Ağcabədiyə köçüb. Müharibəyə qədər daim Ağdama da, Laçına da sıx gediş-gəliş olub. Hətta Müseyib kişinin atası, el ağsaqqalı Mirhacib ağanın məzarı da Ağcabədidədir. Ağdamlılar Rəşad Məcidi ağdamlı, laçınlılar laçınlı, ağcabədililər ağcabədili hesab edirlər. Dost-tanışlar isə bütün bölgüləri kənara qoyub vahid nəticəyə gəlirlər: Qarabağlı Rəşad Məcid.

Kəndin quruluşundan elə danışırdı, elə dəqiq izahat verirdi ki, nabələd adam da gedib oraları tanıya bilərdi:

"Mənim ata babalarım Seyidlər kəndindən olub. Alxaslı kəndindən tanımadığım adamlar atamın babası Seyid Hacı Məcid ağanın qəbrinin videosunu yollamışdılar.

Kosalara gedəndə hiss elədim ki, məsafələr kiçilib. Uşaq vaxtı o yollar mənə çox uzun görünürdü. Malıbəy kəndi Minkənd çayının o biri üzündədir. Minkənd çayı axıb Həkəriyə qoşulur. Həmin çayın bu biri üzündə Sultanlar kəndidir. O vaxt orada bir meyvə sexi var idi. İndi oranı əsgərlər üçün çörək sexi ediblər. O çörəklərdən alıb xalalarıma, anama gətirdim. Sultanlar onların analarının – Balaxanım nənəmin kəndidir. Orada bir Həmzə sultan sarayı var. O sarayın yanında Balaxanım nənənin qardaşı Süleyman müəllimin evi var, o ev indi də yerindədir. Əvvəllər Sultanlardan Kosalara getmək üçün yol uzun idi. İndi Sultanlardan Kosalara bir yol çəkiblər, körpü tikiblər, qısa getmək olur.

Kəndə gedən kimi həsrətində olduğum havanı hiss elədim. Çayın bu neçə ildə qulağımdan getməyən şırıltısını eşitdim, ruhum dincəldi. Umudla Əhlimanın çəpəri arasında bir yol var, o yol da elə bil balacalaşıb. Orada anamın əmiləri – Musa müəllim və Qaçay müəllimin evləri dünənki kimi yadımdadır. O evlər daha yoxdur, darvaza yerində deyil. Amma kol-koslu kənd çəpərləri yerindədir, akasyaların sayı çoxalıb. Baxanda bilirsən ki, həmin yerdir, həmin evlər gözünün qabağına gəlir. Orada bir yoxuş var idi. Elə bil o yoxuşda düzləşib, halbuki uşaq vaxtı o yoxuşu çıxanda nəfəsim kəsilirdi.

Doğulduğum həyətə girəndə bir neçə video çəkib qohumlarıma yolladım. Mən əvvəllər də o evin nə vəziyyətdə olduğunu bilirdim. Neçə il qabaq Ququl xəritədə axtarıb həmin evin görüntüsünü tapmışdım. Görmüşdüm ki, evin tavanı yoxdur, bir hissəsi uçub. Xalalarıma deyəndə dedilər ki, sən Allah, Balaxanım nənəyə göstərmə, evinin uçurduldluğunu bilməsin. Balaxanım nənə iki il qabaq rəhmətə getdi, evinin işğaldan azad olduğunu görmədi".

“Anamın o arzusunu yerinə yetirə bilmədim...”

Rəşad Məcidin anası Yavər nənə ilə həmsöhbət olmaq, evindəki köhnə fotoşəkillərə baxmaq mənə də qismət olub. Çox zabitəli, müdrik və bir o qədər də rəhmdil, ehmal qadındır. “525-ci qəzet”də Yavər nənənin bir yazısı çap olunmuşdu: “Anamın tikiş maşını”. Yazı başdan ayağa nisgil, azad olunan yurda ağı əvəzi idi. Yavər nənə ötənləri-keçənləri yada salmışdı.

Rəşad Məciddən soruşdum ki, getməmişdən qabaq anası ilə nə söhbət edib, Yavər nənə oğluna nə tapşırıb? Gülümsəyərək sözə başladı:

“Anamla xalam axşam mənim üçün pendir, çörək, Hacılar yuxası, kotlet tədarükü görmüşdülər. Doğulduğum həyətdə onlar üçün bir video çəkdim. Dedim, baxın, sizin yemək üçün göndərdiklərinizi Balaxanım nənənin evində, Halay babanın həyətində yeyirəm. Anam dedi ki, mənə gilas gətirərsən. Anamın o arzusunu yerinə yetirə bilmədim. Vaxtilə o həyətdə çoxlu meyvə ağaclarının olduğunu xatırlayıram. İndi onlardan əsər-əlamət yox idi. Düşünürəm ki, ermənilər çıxana yaxın odun üçün ağacları kəsib aparıblar. Amma həmin gilasın tamını dünyanın heç yerində dadmadım”.

“Ağdamda gözüyumulu haranısa tapa bilərəm, amma gözüaçıq mümkün deyil...”

Rəşad Məcid ömrünün Ağdam dövrü... Bütün söhbətlərindən, haqqında danışılanlardan məlum olur ki, onun formalaşmağında, bədii təfəkküründə genişlənməsində, hadisələrə adekvatlığında Ağdamda yaşadığı illərin rolu daha böyük olub. O həmişə Ağdamın ovaxtkı mədəni-ictimai həyatından, oraların köhnə kişilərindən ağızdolusu danışıb. Zənnimcə, Rəşad Məci-

din özünəməxsus sanballı davranışlarının mayası da elə Ağdam olub. Düzdür, həmişə doğulduğu Laçından həyəcanla bəhs edib, Şuşa sevgisini bütün çalarları ilə hiss etmişik. Amma Ağdamın ermənilər tərəfindən viran edilməsi Rəşad Məcidə Ağdamın özü boyda dərd əta edib. Ən çox Ağdama kövrəlib, ən çox Ağdama heyifslənib... Elə bilirəm, birbaşa Ağdama yollanmağa hazır deyildi. Mütləq Laçına gedib, oraların havasını udub Ağdama yol almalıydı... Ağdamla bağlı suallarıma daha aramla, sakit cavab verməyə başladı:

"Əvvəl Ağdamda 1 nömrəli məktəbin yanındakı dördmərtəbəli binada yaşamışıq, sonra köhnə hamam məhləsinə – Əli İbrahimov küçəsinə köçmüşük. Birinci sinifdən doqquzuncu sinfə qədər Ağdam şəhər 1 nömrəli orta məktəbdə təhsil almışam. Bizimlə bu dəfə Ağdama gedən tanınmış alim, AMEA-nın müxbir üzvü Rafiq Əliyev də, mərhum akademik Xudu Məmmədov da həmin məktəbi bitiriblər. 1984-cü ildə Ağdamdan Ağcabədiyə köçdük. Onacan tez-tez Ağdama gedirdim. Hər 5-ci gün axşam qatarla Ağdama gedirdim, bazar günü axşam Bakıya qayıdırdım. Bir dəfə hesabladım, 1979-cu ildən 1984-cü ilə qədər ömrümün bir ilini Ağdam-Bakı qatarında gecələmişəm.

Dostlar deyirdilər ki, Ağdama getsən, heç yeri tanımayacaqsan. Deyirdim, gözüyumulu hər yeri taparam, 1 nömrəli məktəbdən çıxıb dördmərtəbəli binanın yanından Lenin bağı ilə evə gedərəm. Deyirdilər, bəlkə də, gözüyumulu gedərsən, ancaq gözüaçıq mümkün deyil.

UNEC-in rektoru Ədalət Muradovun təşəbbüsü, Prezidentin Qarabağ üzrə nümayəndəsi Emin Hüseynovun dəstəyi ilə ağdamlı ziyalıların doğma yurda səfəri baş tutdu. İlk dəfə gedənlərin sırasında akademik Dilqəm Tağıyevlə AMEA-nın müxbir üzvü Rafiq Əliyev də var idi.

Birinci İmarətə gəldik. Orada o qədər futbola baxmışam ki... Təəssüf ki, Sovet illərində biz oranın mahiyyətini lazımi qədər dərk etmirdik. Bilmirdik ki, Pənah xanın, Natəvanın və digərlərinin qəbirləri oradadır. Biz ancaq ora Ağdamın "Şəfəq" komandasının oyunlarına baxmağa gedərdik.

Oradan məscidə gəldik. Məscidin ən kədərli mənzərəsi mənim yadımdadır. Xocalı hadisəsindən sonra meyidlərin ora gətirilməsi gözümün qabağından getmir. 10 yaşıma qədər məscidin qabağında dördmərtəbəli binanın ikinci mərtəbəsində yaşamışam. Aşura vaxtı bütün ətraf rayonlar Ağdam məscidinə axın edirdi. İndi deyirlər, Sovet vaxtı məscidlər bağlı idi, dini qadağan eləmişdilər. Mən o deyilənlərə təəccüblə yanaşırdım. Çünki gözümü açandan məsciddə insanları gur görürdüm, o qadağanı hiss eləmirdim.

Məsciddən sonra teatr tərəfə getdik. Əbdürrəhim bəy Haqverdiyev adına Ağdam Dövlət Teatrının direktoru Əli Əmirlinin dayısı Məmməd Əmirov idi. Məmməd müəllim atamın dostu idi. Bacımla birgə orta məktəbdə oxuyanda bizi hansısa tamaşanın ictimai baxışına aparmışdı. O vaxt təsadüfən gənc jurnalist Aqil Abbas ora gəlib çıxmışdı. Aqil Abbasın ordakı çıxışı mənim bütün düşüncələrimi dəyişmişdi. Sovet televiziyasına baxan, qəzetini oxuyan bir məktəbli üçün belə fərqli danışıq tərzi olduqca maraqlı idi. Aqil Abbas elə indi də o cür danışır.

Ağdam teatrında Əməkdar artist Tofiq Qarayev var idi, əfsanəvi adam idi. Ona görə tamaşaya baxmağa gəlirdilər, öz improvizələri ilə insanları cəlb edə bilirdi.

Bütün bu yerləri gəzdikcə evlərin yerini təxmini bilirdim. Sadəcə kol-kos yolu-izi örtmüşdü. Həqiqətən, gözüyumulu haranısa tapa bilərəm, amma gözüaçıq mümkün deyil..."

Mümkün deyil ki, sonuncu cümlə insanı kədərləndirməsin. Özü də danışdıqca kövrəlir, gözlərini uzağa zilləyirdi... "Həmin yerlərdən hansı arzularla ayrıldınız?" sualıma verdiyi cavab illərin sürətli axışından, zamanın amansızlığından, ömrün bietibarlılığından xəbər verirdi:

"Emin Hüseynov dedi ki, Qızıl Kəngərli kəndində bir yeməkxananı bərpa etmişik. Şahbulağı, Daş karxanasını keçdik, Xaçın su anbarının yanından həmin kəndə getdik. Orada səfərlə bağlı fikirlərimizi bölüşdük, Emin Hüseynovun fikirlərini öyrəndik. Ağdamla bağlı arzular səsləndi. Daha sonra Quzanlıya gəldik, Ağdamın icra başçısı ilə həmsöhbət olduq. Qaraağacı qəbiristanlığı barədə təkliflər irəli sürüldü. Emin Hüseynov bildirdi ki, biz istəyirik, ağdamlı iş adamları bu quruculuğa qoşulsunlar, bəziləri tərəddüd edir.

İki günlük səfər nəticəsində xeyli yorğunluq olsa da, ruhum təzələndi, beynimdə yeni fikirlər cücərdi. Gedib o yerləri görürsən, sənə güc gəlir, düşüncələrin durulur. On beş yaşımda Cıdır düzünə şeir yazmışam, daha sonra Xarıbülbül festivalı ərəfəsində yenidən Şuşaya şeir yazmışam. Azərbaycan Prezidentinin Şuşa haqqında dillər əzbərinə çevrilən sözlərini eşidəndə mənim gözlərim yaşarır. Hər dəfə Şuşaya gedəndə ayrı-ayrı sözlərlə o yerləri tərənnüm edir. Keçən il cənab Prezident dedi ki, dünyanın çox yerində olmuşam, amma Şuşaya bənzər şəhər görməmişəm. Bu sözləri eşitmək mənim üçün böyük xoşbəxtlik idi.

Mərhum yazıçımız Əli İldırımoğlu deyirdi ki, Qubadlıda bizim kəndimizin iki tərəfindən çay axırdı. Dedim, Əli müəllim, bizim kəndimizin üç tərəfindən çay axırdı. Ağoğlanın bir tərəfindən Hacılar çayı, bir tərəfindən Xənəzək çayı, bir tərəfindən isə Minkənd çayı axır. Nə yaxşı ki, o çayların şırıltısını yenidən

eşitmək mənə qismət oldu. İnsanın genetik yaddaşı oyanır. Torpaqlar azad olunandan sonra bir arzum olub, qocalığımı Ağoğlanda yaşamaq istəyərəm. Xəyal qururam ki, orada necə ev qura bilərəm. Bilirsən, o dağlarda keçi pendiri olurdu. Onun spesifik dadı var idi. Nənəmin pendirinin dadını bircə dəfə 1993-cü ildə Fransada yediyim pendirdən almışam.

Son illərdə neçə-neçə xəyalımız gerçəkləşib, yəqin, bu xəyal da gerçəkləşər".

Rəşad Məcidlə bu qədər həmsöhbət olduğum yadıma gəlmir. Ürəyi dolu idi, danışdıqca danışmaq istəyirdi, halbuki çox vaxt qısa və konkret cavabları sevir. Qələmə aldıqlarım söhbətimizin bir qismi idi. Söhbətimizin davamını sonra qələmə alacam: Ağoğlanda, Rəşad Məcidin doğulduğu evdə keçi pendiri yeyib söhbətə davam edəcəm, orda danışdıqlarını da yazacam. Odur ki, bu söhbətimiz hələ tam deyil. Sağlıq olsun, qarabağlı Rəşad Məcid!

Kitabın içindəkilər

Adam necə qalaya çevrilir? (ön söz əvəzi) 3

“Qələmsiz yazılanlar” (2019–2024) 7

“Qələmsiz yazılanlar”dan yazılanlar
İsa Həbibbəyli. Rəşad Məcidin statusları və SMS dünyası, yaxud sosial şəbəkə ədəbiyyatına giriş 107
Qismət Rüstəmov. Sosial şəbəkələr dövründə ədəbiyyat 121
Asif Hacılı. Rəşad Məcidin qələmsiz yazdıqları və ya şəbəkə ədəbiyyatımızın ilk nümunəsi 133
İmdat Avşar. “Qələmsiz yazılanlar” haqqında gecikmiş yazı ... 147
Bəxtiyar Aslan. Qələmsiz yazmaq düşüncəsi və Rəşad Məcid 156

“Şuşa gör nələr eylər” 163

“Şuşa dəftəri” 177

Oğul Rəşad Məcid, nəvə Rəşad Məcid
Şahanə Müşfiq. Oğul Rəşad Məcid, nəvə Rəşad Məcid 194

“Ürəkdən gələn yazılar” – Rəşad Məcidin publisistikası
Yüz ilin Ustadı 207
Təəccüb və heyrət 214
75 yaşın yaradıcılıq şövqü 226
Kamal Abdullanın sirli müdrikliyi 238

Dost Vaqifdən şair Səmədoğluya qədərki yol 244
Vətən adı ilə 250
Qırx il öncənin heyrəti 263
“İndi hanı o bağlar...” 268
70 yaşlı cavan 280
Gecikmiş Ağoğlan bələdçiliyim 286
Qorxu 289
Şuşa havasının əritdiyi nisgil 291
“Zabuxdan keçirdik...” 300

60 yaşa yazı hədiyyələri
İsa Həbibbəyli. Vətəndaşlıq və professionallıq nümunəsi 303
Vilayət Quliyev. Rəşadın rəşadəti 322
Fəxri Uğurlu. İnsaf adam 328
Vaqif Bəhmənli. Zaman və tale sözçüsü: Rəşad Məcid 333
Sevinc Mürvətqızı. Dosdoğmalığın əski(l)məyən ünvanı 361

Rəşad Məcidin sözü haqqında
Cahangir Məmmədli. Rəşad Məcidin sevgi notları 365
Loğman Rəşidzadə. Ürəklə yazılanlar –
Rəşad Məcidin publisistikası 374
Əflatun Amaşov. Dostum Rəşad Məcidlə yeni il
ərəfəsində söhbət 388
İmdat Avşar. Rəşad Məcidin yaradıcılığı haqqında 395
Şahanə Müşfiq. “Bir də gəlməyəcək...” 400
Türkan Turan. Qala adam 409
Şəfa Vəli. Qəzetli kişi haqqında esse 413

60 ilin söhbəti: “Bir il Ağdam–Bakı qatarında gecələmişəm...”
Rəşad Məcid: “Qocalığımı Ağoğlanda yaşamaq istəyərəm” 419

QALA ADAM

Rəşad Məcid – 60

Dizayner:
Mətanət Əliqızı

Çapa imzalanmışdır: 04.08.2025. Format: 60x90 1/16
Həcmi: 27 ç.v. Sifariş: № 67. Tiraj: 300

"Zərdabi-Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru